## MÜNDƏRİJAT


| | | Səh. |
|---|---|---|
| **Giriş** | **...........................................................................** | 9 |
| **1-ci mövzu:** | **«Azərbaycan iqtisadiyyatı» elminin predmeti və metodu................................................** | 16 |
| | § 1. Azərbaycan iqtisadiyyatının müasir vəziyyəti və onun asılı hala düşməsinin səbəbləri........................................................... | 16 |
| | § 2. «Azərbaycan iqtisadiyyatı» elminin öyrənilməsinin zəruriliyi və vəzifələri............. | 22 |
| | § 3. «Azərbaycan iqtisadiyyatı»nın predmeti və metodu................................................. | 38 |
| **2-ci mövzu:** | **Bir iqtisadi sistemin inkişaf edərək digərinə keçidin ümumi iqtisadi qanunauyğunluqları..** | 52 |
| | § 1. İqtisadi qanunlar, onların obyektiv xarakterinin dərk edilməsinin iqtisadiyyatın inkişafında rolu......................................... | 52 |
| | § 2. Bir iqtisadi sistemin inkişaf edərək digərinə keçiddə tələbatın artması ümumi iqtisadi qanununun fəaliyyətinin əhəmiyyəti.... | 61 |
| **3-cü mövzu:** | **Azərbaycanın keçid dövrü iqtisadiyyatı. İlkin kapital yığımı. Özəlləşdirmə və sahibkarlığın inkişafı.......................................................** | 77 |

§ 1. Azərbaycanda keçid dövrünün zəruri olmasının əsas səbəbi və mahiyyəti............... 77
§ 2. Keçid dövründə Azərbaycanda ilkin kapital yığımının vəziyyəti.............................. 83
§ 3. Keçid dövründə Azərbaycanda qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatı formalaşdırmaq məqsədilə iqtisadi islahatların aparılmasının zəruiliyi.......................................... 90
§ 4. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar sistemində özəlləşdirmənin yeri və rolu........................................................ 96
§ 5. Bazar münasibətlərinin formalaşmasında qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın yeri və bu problemin həllində dövlətin rolu.. 103
**4-cü mövzu: Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafını həll etməkdə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinin zəruri amili kimi..........................................** 112
§1. Məhsuldar qüvvələrin yerləşdirilməsi nəzriyyələri və Azərbaycanda məhsuldar qüvvələrin milli mənafeyə uyğun səmərəli yerləşdirilməsinin zəruriliyi......................... 112
§2. Azərbaycanın sənayesində məhsuldar qüvvələrin yerləşdirilməsinin müasir vəziy-

| | | |
|---|---|---|
| | yəti və onun təkmilləşdirilməsinin labüdlüyü............................................................ | 119 |
| | §3. Azərbaycanın aqrar bölməsində istehsalın strukturunun yenidən milli mənafeyə uyğun təkmilləşdirilməsi dövlətin əsas vəzifəsi kimi...................................................... | 128 |
| **5-ci mövzu:** | **Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında dövlətin yeritdiyi istehsalın struktur siyasətinin rolu................** | 142 |
| | § 1. Azərbaycanın milli iqtisadiyyatının qeyri-sağlam vəziyyətə düşməsinə müstəmləkəçiliyin təsiri................................................ | 142 |
| | §2. Sovet hakimiyyəti illərində Azərbaycanda həyata keçirilən struktur siyasəti və onun milli iqtisadiyyatının inkişafına mənfi təsiri və sosial-iqtisadi nəticələri......................... | 152 |
| | §3. Keçid iqtisadiyyatı zamanı struktur deformasiyasının aradan qaldırılmasının istiqamətləri...................................................... | 160 |
| **6-cı mövzu:** | **Bazar iqtisadi sistemi Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafının təminatçısıdır.......................................** | 173 |
| | §1. İqtisadi sistem və onun mahiyyəti. İqtisadi sistem və mülkiyyət. Mülkiyyətin | |

| | | |
|---|---|---|
| | tarixi və müasir formaları.................................... | 173 |
| | § 2. Sahibkarlıq və onun mahiyyəti............... | 185 |
| | §3. Milli iqtisadiyyatın inkişafında əsas amil olan sağlam mənəviyyatın formalaş-masına iqtisadi sistemlərin fərqli təsiri və onun sosial-iqtisadi nəticələri.................................... | 195 |
| **7-ci mövzu:** | **İctimai əmək bölgüsünün inkişafının Azərbaycanın milli bazarının formalaşması və inkişafının əsas şərti kimi................................** | 208 |
| | §1. İctimai əmək bölgüsü qanunun mahiyyəti, onun xarakterik xüsusiyyətləri və onun tələblərinin nəzərə alınmasının zəruriliyi.... | 208 |
| | §2. İctimai əmək bölgüsünün iqtisadiyyatın strukturunun və milli bazarın formalaşması və inkişafında rolu....................................... | 216 |
| | §3. Azərbaycanın milli bazarının formalaşmasına onun beynəlxalq əmək bölgüsü və xarici bazara qoşulmasının əhəmiyyəti........ | 227 |
| **8-ci mövzu:** | **Respublikanın milli sərvəti. Ümumi milli məhsul və milli gəlir. Ümumi milli məhsulun təkrar istehsalı...........................................** | 327 |
| | §1. Azərbaycanın milli sərvəti: mahiyyəti və onun quruluşu........................................... | 237 |

| | | |
|---|---|---|
| | §2. Ümumi milli məhsulun təkrar istehsalı: mahiyyəti, tipləri və meyarı....................... | 242 |
| | §3. Ümumi milli məhsulun istehsalı və artırılması yolları........................................... | 251 |
| **9-cu mövzu:** | **Azərbaycanın maliyyə, kredit və bank sistemi.......................................................** | 266 |
| | §1. Azərbaycanın maliyyə sisteminin mahiyyəti və onun yenidən qurulmasının zəruriliyi............................................................ | 266 |
| | §2. Azərbaycan Respublikasının dövlət büdcəsi və onun strukturu................................ | 275 |
| | §3. Azərbaycanda kredit münasibətləri və onun həyata keçirilməsində bankların rolu.. | 284 |
| | §4. Vergi sistemi və vergi siyasəti............... | 292 |
| **10-cu mövzu:** | **Azərbaycanın torpaq mülkiyyəti və onun reallaşdırılmasının iqtisadi formaları. Aqrar sahə bazar iqtisadi sistemində.......................** | 302 |
| | §1. Azərbaycanın torpaq fondu. Torpağın istifadəsinə görə quruluşu............................ | 302 |
| | §2. Azərbaycanın kənd təsərrüfatı iqtisadiyyatının vəziyyəti və aqrar islahatların aparılmasının zəruriliyi............................... | 309 |

| | | |
|---|---|---|
| | §3. Azərbaycanda torpaq üzərində yeni mülkiyyət münasibətlərinin yaranmasının zəruriliyi və bu sahədə əldə edilən uğurlar... | 319 |
| **11-ci mövzu:** | **Azərbaycanda demoqrakfik vəziyyət və məşğulluq problemi ......................................** | 332 |
| | §1. Demoqrafiya və Azərbaycanda demoqrafik inkişafın xüsusiyyətləri....................... | 332 |
| | §2. Azərbaycanda əmək potensialı və onlan səmərəli istifadə edilməsi üçün əlverişli şəraitin yaradılması............................................ | 340 |
| | §3. Azərbaycanda məşğülluq və işsizliyin vəziyyəti. İşsizliyin aradan qaldırılması yollar. | 346 |
| **12-ci mövzu:** | **Azərbaycanın istehsal və sosial infrastrukturları: vəziyyəti və inkişafı..............................** | 362 |
| | §1. İnfrastrukturların tarixi təkamül inkişafı və sosial-iqtisadi mahiyyəti.......................... | 362 |
| | §2. Azərbaycanın istehsal, sosial və bazar infrastrukturları......................................... | 371 |
| | §3. «Transqafqaz» magistralı və «İpək yolunun» bərpasının Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyəti......................... | 381 |
| | §4. İnfrastrukturların sosial-iqtisadi inkişafda rolu və | 38 |

| | | |
|---|---|---|
| | təsiri........................................ | 6 |
| **13-cü mövzu:** | **Azərbaycanın mikroiqtisadiyyatı......................................** | 395 |
| | §1. Azərbaycanın mikroiqtisadiyyatının vəziyyəti, onun yenidən qurulmasının zəruriliyi və inkişaf istiqamətləri......................... | 395 |
| | §2. Firmanın (müəssisənin) fəaliyyət mexanizmi və təşkilati-hüquqi formaları.............. | 405 |
| | §3. Azərbaycanda firmanın (müəssisənin) fəaliyyəti xüsusiyyətləri............................... | 412 |
| | §4. Kiçik sahibkarlıq və onun üstünlükləri... | 417 |
| | §5. Biznes fəaliyyəti və etikası...................... | 421 |
| **14-cü mövzu:** | **İqtisadiyyatın yeni idarəetmə sistemi........................................** | 428 |
| | §1. İqtisadi idarəetmənin mahiyyəti və prinsipləri......................................................... | 428 |
| | §2. İdarəetmə sisteminin iqtisadiyyata təsiri. | 434 |
| | §3. İqtisadi psixologiya və iqtisadi təfəkkür.. | 436 |
| | §4. İdarəetmənin metodları və növləri......... | 440 |
| | §5. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi........................................... | 44 |

............ 7
§6. İdraeətmə orqanları.............................. 451
§7. İstehsalın idarə edilməsi. Menecment...... 454
§8. İdarəetmə sisteminə nəzarət................... 457
**15-ci mövzu: Azərbaycanın beynəlxalq iqtisadi münasibətləri.............................................................** 464
§1. Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlərin formalaşmasının şərtidir............................................................. 464
§2. Beynəlxalq iqtisadi münasibətlərin obyektiv zəruriliyi və nəzəri əsasları............... 469
§3. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onun xarici iqtisadi münasibətlərinin yenidən qurulmasının zəruriliyi......... 477
§4. Azərbaycanın xarici ticarət əlaqələri....... 486
§5. Beynəlxalq əhali miqrasiyası və beynəlxalq kapital................................................. 494
§6. Sərbəst iqtisadi zonalar.......................... 503
§7. Valyuta münasibətləri............................ 508
**Ədəbiyyat siyahısı.....................................** 516

# GİRİŞ

**Azərbaycan xalqının tarixində XX əsrin sonlarında bir sıra mühüm dəyişikliklər baş vermişdir. Bunlardan biri XX əsrin əvvəllərində Azərbaycanın bolşeviklərin işğalı nəticəsində itirilmiş dövlət müstəqilliyini bərpa etməsidir. Digəri isə bazar iqtisadi sisteminə nisbətən istehsalın səmərəliliyini təşkil edə bilməyən inzibati-amirlik sistemindən (sosializmin sovet modelinin) azad olmasıdır.**

**XX əsrin sonlarında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətinin strateji məqsədi Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, eyni zamanda inzibati-amirlik sisteminin əsaslarını dağıtmaq və bazar iqtisadi sistemini formalaşdıraraq inkişaf etdirməkdir. Hər iki strateji məqsəd bir-birini şərtləndirdiyi üçün bunlar paralel olaraq həyata keçirilməlidir. Bunlar çox çətin və uzun müddətli prosesdir. Çünki Azərbaycan həm inkişaf etməkdə olan, həm də keçid iqtisadiyyatlı dövlətlər qrupuna daxildir. Bu o deməkdir ki, Azərbaycan həm müstəmləkə olub, həm də inzibati-amirlik sistemində yaşayıb. Hər iki amil Azərbaycanın milli iqtisadiyyatının inkişafına və əhalinin sağlam mənəviyyatının formalaşmasına mənfi təsir göstərib. Məhz Azərbaycanın müstəqil dövlətinin əsas məqsədi müstəmləkəçiliyin və sosializmin sovet modelinin Azərbaycan üçün törətdikləri mənfi halları aradan qaldırmaqdır.**

**Keçmiş SSRİ-i sosialist dövləti adlandırıldığına baxmayaraq o da müstəmləkəçi dövlət olmuşdur və Azərbaycan 71 il onun tərbikində yaşamağa məhkum edilmişdir. O da başqa müstəmləkə dövlətlərin istifadə etdiyi bütün üsul və metodlarını tətbiq etməklə bərabər özünəməxsus ağıla gəlməyən metodlar tətbiq etməklə Azərbaycanın milli iqtisadiyyatını ağır vəziyyətə salmışdır. Bunlardan biri başqa müstəmləkəçilər kimi müstəmləkələrin təbii və iqtisadi sərvətlərini qeyri-ekvivalent vasitələrlə intensiv və planlı, düşünülmüş şəkildə talan etmək olmuşdur.**

**İkinci metod isə müstəmləkə xalqlarının mənəviyyatını deformasiyaya uğratmaqdır. Bu bütün müstəmləkəçi dövlətlərə xas olsa da sovet sistemində bu çox qeyri-insani və intensiv şəkildə həyata keçirilmişdir. Bu qeyri-humanistlik marksizm-leninzm sosialist inqilabının mahiyyətindən doğmuşdur. Belə ki, sosializmdə dövlət mülkiyyəti zorakılıqla, mülkiyyətçiləri məhv etmək yolu ilə yaradıldığı kimi fərqli, açıq, demokratik fikirli insanlar da zorakılıqla aradan götürülmüşdür.**

**Təbii və milli sərvətləri bərpa etmək (Ermənistana, Gürcüstana, Rusiya Federasiyasına bağışlanan torpaqlar istisna olmaqla) və artırmaq nisbətən qısa müddətdə mümkün olsa da deformasiyaya uğramış sağlam mənəviyyatı yenidən həmin səviyyəyə qaldırmaq çox çətindir və bunun üçün daha çox vaxt lazımdır. Ona görə ki, bu insan psixologiyası ilə əlaqədardır. Yenidən tərbiyə tərbiyədən çətin olduğu kimi sovet sistemi zamanı deformasiyaya uğramış sağlam mənəviyyatı yenidən sağlamlaşdırmaq çətindir və əhalinin müəyyən hissəsində heç mümkün də olmur.**

**Kommunist ideoloqları yaxşı başa düşmüşlər ki, çox mühüm strateji məkanda, Avropa ilə Asiyanı birləşdirən, Orta Asiya və Yaxın Şərqdə ağalıq etmək üçün gərəkli olan Azərbaycanı daim öz müstəmləkəsinə çevirmək üçün, onun ərazisinə erməni, rus, yəhudi və digər yadelli millətləri yerləşdirməyə nail olmaq, onun təbii və iqtisadi sərvətlərini talamaq yetərli deyil, onun əhalisinin sağlam mənəviyyatını əlində almaq kifayətdir. Çünki Azərbaycanın milli iqtisadiyyatını asılı vəziyyətə salmaq, ölkədə ağır iqtisadi vəziyyət yaratmaqla azərbaycanlıların öz vətənlərini tərk etmələri Azərbaycan xalqının sağlam mənəviyyatının deformasiyaya uğramasına ən böyük təsir göstərən amil olmuşdur (buna iqtisadi metod deyilir). Bununla bərabər məqsədə çatmaq üçün siyasi metoddan daha çox istifadə edilmişdir. Siyasi metod dedikdə millətin ağıllı, istedadlı insanlarını fiziki cəhətdən aradan götürülməsi nəzərdə**

tutulur. Bolşeviklər – kommunistlər hakimiyyətdə olduğu bütün dövrlərdə açıq və yaxud gizli şəkildə perresiyalar aparmışlar. Bu metod qısa müddətdə nəticə verdiyinə görə bunu da tətbiq etmişlər. Bu dövrdə hər iki metoddan istifadə edilsə də, üstünlük ikinci metoda vermişdir. Kommunistlər bu metoddan istifadə edərək milləti kütləyə çevirmişdir. Çünki kütləni idarə etmək milləti idarə etməkdən daha asandır. Bu proletariat diktaturasının mahiyyətindən doğmuşdur.

Azərbaycanın 71 il yaşamağa məhkum edildiyi inzibati-amirlik sistemində iqtisadi azadlıq, azad rəqabət, istehsalın nəticəsinə maddi maraq olmadığından iqtisadi biliyin olmasına və iqtisadi təfəkkürün formalaşmasına nə şərait, nə də ehtiyac olmamışdır. Bütün iqtisadi subyektlər yuxarıdan əmr, göstəriş və sərəncam əsasında işlədiklərindən onlarda iqtisadi biliklərin olması tələb olunmurdu. Ən yaxşı təsərrüfat rəhbəri özündən yuxarıların göstərişlərini danışıqsız və vaxtında yerinə yetirənlər hesab olunurdu. Təsərrüfat rəhbərini məhsulun keyfiyyəti və istehsalın səmərəliliyi maraqlandırmırdı, nəyin hesabına olursa-olsun planı doldurmaq əsas məqsəd idi. Buna görə də bu sistemdə israfçılıq və qıtlıq adi hal almışdır. Bazar iqtisadi sistemində isə dünya standartlarına cavab verməyən, keyfiyyətsiz məhsul istehsal etmək, israfçılığa yol vermək müflisləşmək deməkdir. Buna görə də Azərbaycan müstəqil bir dövlət kimi bazar iqtisadi sisteminə keçməyi qarşısına strateji məqsəd qoymuşdur, deməli, insanlarda iqtisadi biliklər formalaşdırmaq zəruridir.

İqtisadi müstəqilliyin əsasında hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsi durur. Çünki sağlam milli iqtisadiyyat hər bir dövlətin bazisidir. Dövlətin siyasəti, diplomatiyası, elmi, təhsili, səhiyyəsi, mədəniyyəti, incəsənəti və üstqurumun digər ünsürləri bunun üzərində yüksəlir. Milli iqtisadiyyatı inkişaf etdirmədən üstqurumda nailiyyətlər qazanmaq qeyri-mümkündür. Doğrudur, üstqurum bazisə

passiv deyil, dövlətin düzgün, milli mənafeyə uyğun siyasət yeritməsi bazisin inkişafına təkan verən əsas amillərdən biridir. Xüsusilə keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda keçid dövründə sağlam milli iqtisadiyyatın formalaşması və inkişafında dövlətin rolu normal təbii inkişaf yolu keçmiş klassik bazar iqtisadi sistemi dövlətlərindən daha çoxdur. Bunun özünün obyektiv səbəbləri var və inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçən dövlətlərin iqtisadi qanunauyğunluqlarından biridir. Buna görə də bunun öyrənilməsi iqtisadi təfəkkürün formalaşmasına müsbət təsir göstərən amildir.

Beləliklə, bazis və üstqurumun bir-birini şərtləndirməsi, dialektik vəhdətdə olması, birinin digərinə yardım etməsi əsasında hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatı formalaşaraq inkişaf edir və iqtisadi müstəqillik qazanmaq üçün şərait yaradır. İqtisadi müstəqilliyin mahiyyətini açmaq, onun təmin olunmasının şərtlərini və amillərini müəyyən edərək Azərbaycanın milli iqtisadiyyatının vəziyyətini və inkişaf istiqamətini bilmək əsas məsələlərdən biridir.

Keçid dövründə Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında keçid dövrünün mahiyyəti və məqsədinin düzgün müəyyən edilməsinin əhəmiyyəti vardır. Ona görə ki, müxtəlif səviyyələrdə bütün dövlətlərdə keçid dövrü çətin olur müddəası işlədilir. Bu yanlış fikirdir. Çünki buradan belə nəticə çıxır ki, keçid dövrü ümumi iqtisadi qanunauyğunluqdur. Halbüki keçid dövrü yalnız marksist-leninçi sosialist inqilabi vasitəsilə vaxtından əvvəl zorakı yolla sosializm qurmaq iddiasına düşən dövlətlər üçün səciyyəvidir. Azərbaycan da bu dövlətlər qrupuna daxildir.

Sosialist inqilabi vasitəsilə vaxtından əvvəl kapitalizmdən sosializmə keçmək cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluğunu pozmaq deməkdir. Cəmiyyətin bir iqtisadi sistemdən daha mütərəqqi iqtisadi

**sistemə keçməyin əsas yolu inqilabi yox, təkamüldür. Bu ümumi iqtisadi qanunauyğunluğu bilərəkdən və yaxud bilməyərəkdən pozmaq, onun tələblərinə əməl etməmək hökmən məğlubiyyətlə qurtarmalıdır, sosializmin sovet sistemin süquta uğraması bunu sübut etdi. Bu bir daha insanlara anladır ki, iqtisadi qanunlar obyektiv xarakter daşıdığından onların tələblərini öyrənmək və iqtisadi fəaliyyəti həmin istiqamətə yönəltmək lazımdır. İqtisadi biliklərə yiyələnmədən buna nail olmaq mümkün deyil.**

**Sovet hakimiyyəti illərində Azərbaycan milli iqtisadiyyatı müxtəlif üsul və vasitələrlə asılı, qeyri-sağlam vəziyyətə salınıb. Bunlardan üçünün üstündə dayanmaq məqsədəuyğundur – məhsuldar qüvvələrin imperiyanın mənafeyinə uyğun qeyri-səmərəli yerləşdirilməsi, istehsalın strukturunun qeyri-optimal qurulması və qiymət mexanizmi vasitəsilə Azərbaycanda yaradılan milli gəlirin, böyük əksəriyyətinin qeyri-ekvivalent mübadilə yolu ilə mərkəzi dövlətin büdcəsinə axıdılması.**

**Keçid dövründə adı çəkilən problemləri yenidən milli mənafeyə uyğun həll etmədən sağlam milli iqtisadiyyatın formalaşması və inkişafından söhbət gedə bilməz. Ümumi iqtisadi qanunauyğunluq bundan ibarətdir ki, Azərbaycanın milli iqtisadiyyatı hansı üsul və vasitələrlə asılı vəziyyətə salınıbsa həmin vasitələrlə onu sağlam vəziyyətə gətirmək lazımdır. Lakin bunun əksinə etmək gərəkdir. Yəni Azərbaycanda məhsuldar qüvvələri milli mənafeyə uyğun yenidən səmərəli yerləşdirmək, istehsalın strukturunu optimal səviyyədə qurmaq, qiymətin bazar mexanizmi vasitəsilə tənzimlənməsinə şərait yaratmaq. Xəstəliyin düzgün diaqnozunu müəyyən etmədən onun müalicəsi mümkün olmadığı kimi Azərbaycanın milli iqtisadiyyatının mövcud problemlərlə qarşılaşmasının səbəblərini bilmədən onu yenidən milli mənafeyə uyğun qurmaq bir çox çətinliklər törədə bilər.**

Azərbaycan dövlətinin keçid dövründə strateji məqsədinin həyata keçirilməsində əhalinin buna inamının əhəmiyyəti böyükdür. Çünki bu elə böyük problemdir ki, bütün millət bu yükün altına girməsə onu qaldırmaq olmaz. Bazar iqtisadi sistemi şəraitində milləti bu ağır yükün altına girməyə məcbur etmək mümkün deyil və olsa belə heç bir müsbət nəticə verə bilməz. İnsanlarda inam yaratmaq ona görə lazımdır ki, onlar bu işə həvəslə, şüurlu surətdə qoşulsunlar. Millətdə məqsədə inam yaratdıqda o böyük və qarşısı alınmaz qüvvəyə çevrilir. Buna nail olmaq üçün biz nəyə görə inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçirik? sualına cavab vermək lazımdır. Buna isə bazar və inzibati-amirlik iqtisadi sisteminin mahiyyətini açmaq, onların müsbət və mənfi cəhətlərini bir-birilə müqayisə etmək, buna Azərbaycana inzibati-amirlik sisteminin törətdiyi sosial-iqtisadi nəticələri göstərməklə nail olmaq mümkündür. Keçid dövründə çətinliklər, nöqsanlar olsa da uğurlar da az deyil, yalnız nöqsanları deyil, müsbət cəhətləri də görmək lazımdır. Artıq bir çox problemlər sovet sistemi dövrünə nisbətən daha yaxşıdır və bu proses artan xətt üzrə inkişaf edəcəkdir. Sovet sistemində isə vəziyyət getdikcə pisliyə doğru gedirdi.

«Azərbaycan iqtisadiyyatı» adlı əsəri Azərbaycan müstəqillik qazandıqdan sonra yazılan ikinci kitabdır. Birinci dərslik Bakı Asiya Universiteti tərəfindən 29 nəfərin müəllifiliyi ilə dosentlər İ.H.Alıyev və S.A.İbadovun redaktorluğu ilə 1998-ci ildə çapdan çıxmışdır. Bu dərslik Azərbaycanda ilk dərslik olduğundan təqdirəlayiqdir. Bu dərslik Azərbaycanın iqtisadiyyatının nəzəri əsaslarının öyrənilməsində və sonrakı dərsliklərin yazılmasında istiqamətləndirici rol oynamışdır. Dərsliyin müsbət cəhətlərindən biri də odur ki, Azərbaycanın iqtisadiyyatının kompleks şəkildə öyrənilməsini qarşısına məqsəd qoymuş və ona əsasən nail olmuşdur. Lakin adı çəkilən dərsliyin yazılmasından on üç il vaxt keçdiyinə görə onun yenidən

yazılmasına və təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Bu keçid dövrü üçün uzun vaxtdır. Bu müddət ərzində Azərbaycanın iqtisadiyyatının inkişafında, iqtisadi islahatlar yolu ilə xalq təsərrüfatının bütün sahələrində yenidənqurma prosesinin geniş vüsət olması əhəmiyyətli dəyişikliklərin olmasına səbəb olmuşdur. Bu iqtisadi hadisə və proseslər strategiya yerində qalsa da taktikada dəyişikliklərin olmasını tələb edir. Əvvəlki dərsliyin müəlliflərinin bütün bunları on üç il bundan əvvəl görə bilməməsi təbiidir və dialektikanın qanununa tabedir. Yuxarıda göstərilənlər yeni «Azərbaycan iqtisadiyyatı» adlı əsərin yazılmasını məhz bu zəruri etdi. Biz bunu nəzərə alaraq bu əsəri yazmaq qərarına gəldik.

Azərbaycan prezidenti hörmətli İlham Əliyev bu yaxınlarda Azərbaycanda keçid dövrünün başa çatdığını bəyan etmişdir. Bu həqiqətə uyğun və təbiidir. Çünki Azərbaycanın iqtisadi inkişaf tempi sabiq SSRİ məkanında yaranan keçid intisadiyyatlı dövlətlərin hamısından yüksəkdir. Lakin bir iqtisadi sistemdən digərinə keçid çox çətin və uzun müddətli proses olduğundan bu davam edir. Azərbaycanda iqtisadi inkişafda böyük uğurlar olsa da mənəviyyat sahəsində həllini gözləyən problemlər hələlək var. İnsan fəaliyyətinin bütün sahələrində bazar iqtisadi münasibətlərinin təkmilləşdirilməsinə ehtiyac duyulur. Dərs vəsaitində indi də keçid dövründən, onun mahiyyətindən və qanunauyğunluqlarından bəhs edilməsi də bununla əlaqədardır.

Dərs vəsaitinin giriş, 1-5-ci mövzuları N.M.Məmmədov, 6-10-cu mövzular A.M.Məhərrəmov və 11-15-ci mövzular isə S.E.Əhmədova tərəfindən yazılmışdır.

Müəlliflər əsərdə qüsur və nöqsanların olmasını istisna etmir. Ona görə ki, bu obyektiv prosesdir. Buna görə də bu nöqsanları obyektiv deyənlərə əvvəlcədən öz təşəkkürümüzü bildirir və onları səmimi qəbul edirik. Çünki göstərilən iradlar, tövsiyələr gələcəkdə daha mükəmməl əsərlər yazmağa kömək ola bilər.

# 1-жи МЮВЗУ: «АЗЯРБАЙЖАН ИГТИСАДИЙЙАТЫ» ЕЛМИНИН ПРЕДМЕТИ ВЯ МЕТОДУ

## §1. Азярбайжан игтисадиййатынын мцасир вязиййяти вя онун асылы щала дцшмясинин сябябляри

**Hər bir dövlətin mövcud iqtisadiyyatı həmin dövlətin milli iqtisadiyyatı hesab edilir. Milli iqtisadiyyat isə iki səpkidə formalaşır. Onlardan biri sağlam milli iqtisadiyyat, digəri isə qeyri-sağlam, asılı milli iqtisadiyyat. Sağlam milli iqtisadiyyat o dövlətlərin milli iqtisadiyyatı hesab olunur ki, həmin dövlətin milli iqtisadiyyatı öz ölkəsinin istehsal vasitələrinə, o cümlədən xammala, habelə əhalinin ərzağa olan tələbatını əsasən ödəyə bilsin. Lakin bazar iqtisadi sistemi şəraitində hər bir dövlətin öz ölkəsini istehsal vasitələrinə və ərzağa olan tələbatını ödəməyə nə imkanı var, nə də səmərəli deyil. Sağlam milli iqtisadiyyata malik olan dövlətlər bu problemi dünya dövlətləri ilə beynəlxalq iqtisadi münasibətlərə girməklə asanlıqla həll edə bilərlər. Çünki bu dövlətlər idxal etdiklərindən daha çox və keyfiyyətli, rəqabət qabiliyyətli əmtəə ixrac etməklə həm ölkənin tələbatının ödənilməsini, həm də əlavə gəlir əldə edilməsini təmin edirlər.**

**Sağlam milli iqtisadiyyatı o millət, o dövlət qura bilmişdir ki, həmin millət cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarını vaxtında dərk etmiş və məhsuldar qüvvələrin inkişafının imkan verdiyi şəraitdə yeni, daha mütərəqqi iqtisadi sistemə keçmək fürsətini əldən verməmişdir. Buraya sənayecə inkişaf etmiş Avropa dövlətləri, ABŞ, Kanada və başqa ölkələr daxildir.**

Avropa dövlətləri vaxtında bazar iqtisadi sisteminə keçdiklərinə görə onların milli iqtisadiyyatı şərq ölkələrinə nisbətən daha sürətlə inkişaf etmişdir. Onlar bu üstünlüklərindən istifadə edərək geri qalmış Asiya və Afrika xalqlarını öz müstəmləkələrinə çevirmişlər. Sənayenin inkişafı xammala olan tələbatı artırmışdır. Belə xammal mənbələri isə natural, təsərrüfat hökm sürdüyündən geri qalmış xalq ola bilərdi. Məhz asılı milli iqtisadiyyat da vaxtilə müstəmləkə olmuş dövlətlərin milli iqtisadiyyatıdır. Deməli, asılı iqtisadiyyatın səbəblərindən biri həmin ölkənin müstəmləkə olmasıdır. Azərbaycan da bu dövlətlər qrupuna daxildir.

Beləliklə, bazar iqtisadi sisteminin formalaşdığı dövrdə bunun üstünlüklərini dərk edə bilməyən, köhnəliyə qapanan, mühafizakarlıq göstərən xalqlar bazar iqtisadi sistemini vaxtında formalaşdıran dövlətlərin müstəmləkəçinə çevrilmiş və müstəmləkə sistemi yaranmışdır. Lakin bazar iqtisadi şəraitində müstəmləkəçilik yalnız mənfi rol oynamamışdır. Eyni zamanda müstəmləkəçi dövlətlərin köməyi ilə müstəmləkələrdə əmtəə-pul münasibətləri formalaşmış və inkişaf etmişdir. Nəticədə həmin ölkələrdə, bazar iqtisadi sisteminin maddi ilkin şərtləri yranmışdır. Axı, müstəmləkəçilər müstəmləkələrə yalnız faciə və problemlər yaratmır, onlar istəməsə belə həmin ölkələrdə bazar iqtisadi sisteminin maddi-texniki bazası olan sənayeni inkişaf etdirməklə milli şüurun və milli təfəkkürün formalaşmasını da təmin edir və müəyyən müddətdən sonra müstəmləkə olan xalqlar özlərinin müstəqil dövlətlərini yaratmağın zəruriliyini dərk edirlər. Onlar buna nail olmaq üçün milli-azadlıq hərəkatına qoşulurlar və hər bir müstəmləkə xalqlar gec-tez, biri ağrılı, digər nisbətən asan yolla öz müstəqil milli dövlətlərini yaradırlar. Lakin bu tam müstəqillik deyil, yalnız siyasi müstəqillikdir, tam müstəqillik həm siyasi, həm də iqtisadi müstəqillikdir. Siyasi müstəqilliyi əldə etmək iqtisadi müstəqilliyi əldə etməyə nisbətən həm asan, həm də qısa

müddətdə mümkün olursa, iqtisadi müstəqilliyi təmin etmək həm çətin və uzun müddətli prosesdir. Məsələn, kapitalizmin siyasi cəhətdən müstəmləkə sisteminin dağılması üçün cəmi 40-45 il vaxt lazım olmuşdursa, iqtisadi müstəqilliyi qazanmaq üçün əsrlər lazımdır. Bu cür inkişaf etmiş dövlətlərə iqtisadi ədəbiyyatda inkişaf etməkdə olan dövlətlər deyilir.

Azərbaycan keçdiyi tarixi inkişaf yolu ilə əlaqədar olaraq o da inkişaf etməkdə olan dövlətlər sırasına daxil olmuşdur. Belə ki, Azərbaycan bazar iqtisadi sistemi formalaşan və inkişaf etdiyi zaman əvvəlcə Çar Rusiyasının, sonra isə Sovet Rusiyasının müstəmləkəsi olmuşdur.

Lakin bununla bərabər Azərbaycanın bu problemləri uğurla həll etmək üçün bir çox inkişaf etməkdə olan dövlətlərdən üstünlükləri vardır. Bunun ən başlıcası azərbaycanlıların dünyanın ən mədəni, zəngin tarixə, yüksək intelektə, dünyaya böyük dahilər bəxş edən qədim millərdən biri olmasıdır. Azərbaycanın böyük oğlu M.Ə.Rəsulzadə demişdir: «İnkişafa meylli olduqlarını göstərmək üçün kafi deyilmi ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı, məzhəb uzlaşmadığını ilk olaraq ortadan qaldıran yenə azərbaycanlı, islam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdır».[1] Deməli Azərbaycan inkişaf etməkdə olan dövlətlər qrupuna daxil olsa da o Afrika ölkələri ilə bir sırada dura bilməz, onun mədəni, intellektual və istedad səviyyəsi inkişaf etmiş dövlətlərə daha yaxındır. Məhz buna görə də Azərbaycan müstəqil milli dövlətinin olmasından istifadə edərək yaxın gələcəkdə özünün sağlam milli iqtisadiyyatını formalaşdıra bilər, onun buna potensial imkanı vardır, vəzifə potensial imkanı üzə çıxarmaq və onu reallaşdırmaqdan ibarətdir.

Hər bir millətin, o cümlədən Azərbaycanın müstəmləkə vəziyyətinə düşməsinin əsas səbəbi həmin xalqın özüdür.

---

[1] M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Bakı, 1991, səh. 40.

Bazar iqtisadi sistemi şəraitində məsələ çox kəskin və sərt qoyulur. Allahın hər bir millətə, xalqa təmənnasız verdiyi təbii sərvətlərdən ya səmərəli istifadə etməli, əgər bunu bacarmırsansa ondan istifadə etməyi bacaranlar hansı formadasa sənin əlindən almalıdır. Bu ümumi bəşəri qanunauyğunluq Azərbaycan xalqına da aiddir. Lakin Azərbaycan xalqının müstəmləkə olmasının özünəməxsus xüsusiyyəti də olmuşdur. Bu onun çox mühüm coğrafi mövqedə, strateji məkanda yerləşməsidir.

Bir qayda olaraq hegemon dövlətlər mühüm strateji məkanda yerləşən zəngin xalqları müstəmləkəyə çevirməyə çalışırlar. ABŞ-ın Türkiyə və Azərbaycanla strateji müttəfiq olması bu dövlətlərə sevgisindən yox, onların mühüm strateji məkanda yerləşməsindən irəli gəlmişdir. Çünki həm Türkiyə, həm də Azərbaycanla əməkdaşlıq etmədən və onların iştirakı olmadan ABŞ Yaxın Şərq və Orta Asiya dövlətlərini özündən asılı vəziyyətə sala bilməz. ABŞ-ın məqsədi isə demokratika pərdəsi altında dünyaya ağalıq etməkdir. Deməli, heç vaxt lider dövlətlərin sözlərinə inanmaq lazım deyil. Ona görə ki, onlar öz mənafeyini hər şeydən üstün tuturlar və lazım gəldikdə onlara qarşı etinasızlıq edirlər. Məsələn, ABŞ soyuq müharibə zamanı sovet imperiyasına qarşı mübarizədə Türkiyədən istifadə etmiş və uğurlar qazanmışdır. Lakin sovet təhlükəsi aradan qalxdıqdan sonra Türkiyəyə münasibətdə soyuqluq yaranmıdır. ABŞ-ın İraqda kürd əsilli şəxiyyəti hakimiyyətə gətirməsi, Türkiyəyə problemlər törədən PKK-nı gizli surətdə müdafiə etməsi buna sübutdur.

Beləliklə, gözəl təbii-iqlim şəraiti, zəngin və rəngarəng təbii sərvəti olan və mühüm strateji məkanda məskunlaşmaş bütün xalqlar və millətlər üçün təbii amilin gözəlliyi həm xoşbəxtlikdir, eyni zamanda böyük problemlər mənbəyidir. Vətəninin belə gözəl məkanda yerləşməsinin mahiyyətini dərk edən, onu yadellilərdən qorumağı bacaran, onun uğrunda canından keçən millət xoşbəxt, onun qədrini bilməyən, yalnız onun gözəl maddi və mənəvi nemətlərindən faydalanmaqla

**kifayətlənən, onu düşmənlərdən müdafiə etməyi özünün müqəddəs vəzifəsi hesab etməyən, vətən uğrunda ölməyi bacarmayan millət bədbəxtdir. Buna osmanlı türklərinin keçdiyi tarixi yol sübut ola bilər. Belə ki, XX əsrin əvvəllərində İngiltərə başda olmaqla bir neçə böyük dövlət Osmanlı imperiyasını parçalayaraq öz aralarında bölmək məqsədilə Osmanlı dövlətinə müharibə elan etmişlər. Lakin onlara qarşı tək döyüşən Türkiyə düşmənlərə qalib gəlmiş və öz müstəqilliyini qoruyub saxlaya bilmiş və müstəmləkə olmaqdan xilas olmuşdur. Texnika və canlı qüvvə cəhətdən on dəfələrlə çox olan düşmən dövlətlərin Türkiyə ilə müharibədə məğlub olması dünya hərb tarixində nadir hadisədir və buna görə də bu hadisə hərbi xadimlərini uzun müddət düşündürmüşdür. Türk ordusu Afrikada 60 min, Avropada isə 40 min düşmən ordusunu məhv etmişdir. Özü də ondan az itgi verməmişdir. Yalnız Çanaqqala vuruşmasında Türkiyə yüz minlərlə canlı qüvvə itirmişdir. Bu zaman nəinki zabit və əsgərlər, həm də bütün millət uşaqdan qocaya kimi hamı bir nəfərə kimi könüllü olaraq ölümün üstünə dik getmişlər. Məhz qələbənin də əsas səbəbi bu idi.**

**Beləliklə, qardaş Türkiyənin keçdiyi tarixi inkişaf yolu və nümunəsi göstərir ki, əhəmiyyətli strateji məkanda yerləşən dövlətlər nə qədər çətin olsa da öz müstəqil milli dövlətini yaratmaq, qoruyub saxlamaq, siyasi və iqtisadi müstəqilliyini təmin etmək mümkündür. Bu, səhvə yol verib və bunun ucbatından müstəmləkəyə çevrildikdən sonra yenidən müstəqillik uğrunda mübarizə apararaq müstəqilliyi bərpa etmək müstəqilliyi qorumaqdan qat-qat çətindir. Azərbaycan xalqı bu acı həqiqətləri dərk etməli, uzun illərin mübarizəsindən sonra bərpa etdiyi müstəqilliyin qədrini bilməli, siyasi müstəqilliyini əldə etməsindən istifadə edərək Azərbaycanın sağlam milli iqtisadiyyatını formalaşdırmalıdır. Bu sahədə gecikmək hansı formadasa başqa bir dövlətin müstəmləkəsinə çevrilmək deməkdir. Azərbaycan xalqı müstəmləkə olduğu dövrdə başına gətirilən faciə və fəlakətlərdən**

ibrət dərsi götürməli və bir daha belə səhvlərə yol verilməməlidir. Bu sahədə qardaş Türkiyə dövlətinin müstəqillik uğrunda fədakarcasına və cəsarətlə mübarizə aparması bizə örnək olmalıdır.

Keçid dövründə Azərbaycanın milli iqtisadiyyatının asılı vəziyyətə düşməsinin əsas səbəblərindən biri də onun 70 ildən çox inzibati-amirlik sistemində yaşamağa məhkum olması və bununla əlaqədar olaraq keçid iqtisadiyyatlı dövlət statusu almasıdır. Keçid iqtisadiyyatlı dövlətlərə sosializmin sovet modeli sistemində yaşamış ölkələr, o cümlədən Azərbaycan daxildir. Bu qrup dövlətlərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu dövlətlərdə sovet müstəmləkəçiliyi ilə sosializmin sovet iqtisadi sistemi üzvi surətdə qovuşmuşdur. Bu amil sosializm sistemində yaşayan xalqların, o cümlədən Azərbaycanın milli iqtisadiyyatının asılılığını daha da artırmışdır. Ona görə ki, kapitalizm (bazar iqtisadi sistemi) öz müstəmləkələrini milli iqtisadiyyatlarına mənfi təsir göstərməklə bərabər müstəmləkələrdə kapitalizmin formalaşmasına müsbət təsir göstərmişdirsə, sosializmin sovet modeli isə sosializmə nisbətən daha mütərəqqi quruluş olan bazar iqtisadi sisteminin əsas subyektlərindən olan orta təbəqəni, o cümlədən sahibkarları sıradan çıxarmaqla milli iqtisadiyyatın formalaşmasına böyük zərbə vurmuşdur.

Sosializmin sovet modeli Azərbaycanın milli iqtisadiyyatını digər keçid iqtisadiyyatlı dövlətlərə nisbətən daha ağır, asılı vəziyyətə salmışdır. Ona görə ki, Çar Rusiyası kimi kommunist rejiminin əsas məqsədi Qafqazı sovet imperiyasının tərkibində əritmək olmuşdur. Bunu reallaşdırmaq məqsədilə türk dilli xalqları, o cümlədən Azərbaycan xalqını xəritədən silməyə çalışmışlar. Krım tatarlarının, məhsəti türklərinin, çeçenlərin və başqalarının Sibirə, Qazaxıstana, Orta Asiyaya köçürülməsi buna xidmət etmişdir. Onların yerinə ermənilərin, rusların və digər yad millətlərin məskunlaşdırılması yolu ilə qərb və şərq türklərinin birliyini pozmaq əsas istiqamət kimi müəyyən

edilmişdir. Bu planın həyata keçirilməsində onlar ermənilərdən bir alət kimi istifadə etmişlər. Bu amil Azərbaycanın milli iqtisadiyyatının qeyri-sağlam vəziyyətdə düşməsində böyük rol oynamışdır.

## § 2. «Азярбайжан игтисадиййаты» елминин юйрянилмясинин зярурилийи вя вязифяляри

Müstəqil milli dövlətini yarada bilməyən millət xoşbəxt ola bilməz. Bunu bacarmayan xalq başqa, yad dövlətin müstəmləkəsinə çevrilmək deməkdir. Müstəmləkəçilərin müstəmləkə xalqlarına azadlıq, firavan həyat, sərbəstlik kimi əvəzsiz sərvətlərin verilməsinə bəşəriyyət tarixində rast gəlinməmişdir və ola da bilməz. Əksinə, bütün dövrlərdə müstəmləkəçilər müstəmləkə xalqlarına çoxlu problemlər yaratmışlar. Buna görə də hər bir millət özünün müstəqil milli dövlətini yaratmağı arzu etmiş və buna çalışmışlar. Lakin bu çox çətin problem olduğundan çox xalqlarda bu arzu olaraq qalmışdır. Bu baxımdan Azərbaycan xalqı xoşbəxt xalqdır. Çünki uzun və çətin mübarizədən sonra Azərbaycan milləti özünün milli müstəqil dövlətini yarada bilmişdir. Amma bununla iş bitmir. Ona görə ki, bu həlilik siyasi müstəqillikdir, işin başlanğıcıdır, həm də asan tərəfidir, yarımçıqdır. Tam müstəqillik əldə etmək üçün onun iqtisadi müstəqilliyini təmin etmək zəruridir.

İqtisadi müstəqilliyin əsasında hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsi durur. Çünki milli iqtisadiyyat hər bir dövlətin bazisidir. Dövlətin siyasəti, diplomatiyası, elmi, təhsili, səhiyyəsi, mədəniyyəti, incəsənəti və üstqurumun digər ünsürləri bunun üzərində yüksəlir. Milli

iqtisadiyyatı inkişaf etdirmədən üstqurumda nailiyyətlər qazanmaq qeyri-mümkündür. Doğrudur, üstqurum bazisə passiv deyil, dövlətin düzgün, milli mənafeyə uyğun siyasət yeritməsi bazisin inkişafına təkan verən əsas amillərdən biridir.

Beləliklə, bazis və üstqurumun bir-birini şərtləndirməsi, birinin digərinə yardım etməsi əsasında hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatı formalaşır və inkişaf edir və iqtisadi müstəqillik üçün şərait yaranır. İqtisadi müstəqillik o deməkdir ki: 1) xalq tarix boyu yaratdığı və təbiətin ona bəxş etdiyi təbii sərvətin sahibi olur; 2) cəmiyyət özünü yaşatmaq gücünə malik olur, əsasən özünün imkanlarına və tarixi reallıqlara arxalanmaqla istehsalın təşkilinin milli mənafeyə uyğun daha yaxşı ictimai formasını müəyyən edir, formalaşdırır; 3) tərəddüd etmədən müstəqil və milli mənafeyə uyğun xarici iqtisadi münasibətlər yaratmaq, sərbəst dünya bazarına çıxa bilmək, xarici rəqabətə qarşı davamlı olmaq, iqtisadi təhlükədən qorunmaq kimi keyfiyyətlərə malik olur. İqtisadi cəhətdən müstəqil olan hər bir dövlətin müstəqil maliyyə, pul-kredit, gömrük, qiymət siyasəti yeritmək qüdrəti yaranır.

İqtisadi müstəqilliyi təmin etmək üçün yuxarıda göstərilən şərtlər və amillər kifayət deyil, iqtisadi müstəqilliyə nail olmaqdan ötəri eyni zamanda aşağıdakı şərtlər də ödənilməli və onlar bazar iqtisadiyyatına keçid dövründə yaradılmalıdır: 1) özünün yetgin milli bazarı və bu bazarın tələblərinə cavab verən strukturu qərarlaşsın; 2) öz dayaqları üzərində inkişaf edə bilsin və özünü təkrar istehsal etmək qabiliyyətinə malik olsun; 3) müstəqil, möhkəm valyutası, maliyyə, kredit, bank sistemi fəaliyyət göstərsin; 4) formalaşmış istehsal, bazar və sosial infrastrukturları olsun; 5) səhmanlı, çevik təsərrüfat mexanizminə və 6) dövlət idarəetmə ənənələrinə malik olsun.

Bu keyfiyyətlərə malik olan Azərbaycanın milli iqtisadiyyatı sosial istiqamətli olmalı, ölkənin iş qabiliyyətli

əhalisini işlə təmin etmək qüdrətinə malik olmalıdır. Bu şərtlərin ödənilməsi Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşması deməkdir. Azərbaycan xalqı bu problemi uğurla həll edə bilərsə ərazi bütövlüyünü təmin edə biləcək, təbii və milli sərvətlərin xalqa mənsub olduğunu və onların xalqın həyat səviyyəsinin yüksəldilməsinə və başqa çətinlikləri də asanlıqla həll etmiş olacaq.

İqtisadi cəhətdən azad olmaq, azad surətdə fəaliyyət göstərməyə qadir olan müstəqil və sağlam milli iqtisadiyyat yaratmaq, siyasi müstəqilliklə yanaşı iqtisadi müstəqilliyə nail olub sərbəst və azad yaşamaq, demokratik bir cəmiyyət qurmaq Azərbaycan xalqının dəyişməz arzusu və strateji məqsədidir. Ancaq bu arzu və məqsədin gerçəkliyə çevrilməsinə doğru aparan yol çətin və mürəkkəb olduğu qədər də şərəflidir.

Yuxarıda deyilənlərdən aydın olur ki, iqtisadi müstəqilliyi qazanmaq son dərəcə çətin və uzun müddətli proses olmaqla bərabər fədakar və əzmlə çalışmağı tələb edir. Lakin fədakarlıq göstərmək iqtisadi müstəqilliyin əldə edilməsi üçün kifayət deyil, çünki əgər bazar iqtisadiyyatının azad rəqabət mərhələsində əsas güc kapital hesab edilirdisə, onun müasir, tənzimlənən mərhələsində əsas güc elmdədir, o cümlədən iqtisad elmində, elmə və elmi nəzəriyyəyə söykənməyən insan fəaliyyətinin sonu uğursuzluqla qurtarması qaçılmazdır. Təəssüf ki, hələlik Azərbaycan xalqının iqtisadi biliyi və iqtisadi təfəkkürü aşağı səviyyədədir və bu müasir bazar iqtisadiyyatının tələblərinə cavab vermir. Bu xoşagəlməz hal bizə sosializmin sovet modelindən və sovet müstəmləkəçiliyindən miras qalmışdır.

İnzibati-amirlik sistemində iqtisadi azadlıq, azad rəqabət, istehsalın nəticəsinə maddi maraq olmadığından iqtisadi biliyin olmasına və iqtisadi təfəkkürün formalaşmasına nə şərait, nə də ehtiyac olmamışdır. Bütün iqtisadi subyektlər yuxarıdan əmr, göstəriş və sərəncam əsasında işlədikdələrindən onlarda iqtisadi biliklərin olması

tələb olunmurdu. Ən yaxşı təsərrüfat rəhbəri özündən yuxarıların göstərişlərini danışıqsız və vaxtında yerinə yetirənlər hesab olunurdu. Bu onun mahiyyətindən irəli gəlirdi. Sosializmin sovet modelinin qısa müddətdə sükuta uğramasına da səbəb bu oldu. Bazar iqtisadi sistemində isə iqtisadi biliyin və iqtisadi təfəkkürün olması obyektiv zərurətdir. Azərbaycan dövləti də bazar iqtisadi sisteminə keçməyi və özünün sağlam milli iqtisadiyyatını formalaşdırmağı qarşısına strateji məqsəd kimi qoymuşdur. Deməli, milli iqtisadiyyatın sağlam və qeyri-sağlam olub-olmamasından asılı olmayaraq Azərbaycan müstəqil dövlətdir və onun milli iqtisadiyyatı mövcuddur. Əgər milli iqtisadiyyat mövcuddursa, onu öyrənən iqtisad elminin yaranması və öyrənilməsi obyektiv zərurətdir və zamanın tələbidir. Yalnız onun köməyi ilə vətəndaşların iqtisadi biliklərini artırmaq və iqtisadi təfəkkürünü formalaşdırmaq, gələcəkdə Azərbaycanın qeyri-sağlam milli iqtisadiyyatını inkişaf etdirərək sağlam milli iqtisadiyyat səviyyəsinə qaldırmaq mümkündür. Belə bir elm var. Onun adı «Azərbaycan iqtisadiyyatı»dır. «Azərbaycan dili», «Azərbaycan tarixi» və başqaları kimi «Azərbaycan iqtisadiyyatı» da elm statusuna malikdir. Çünki, onun müstəqil tədqiqat obyekti və predmeti vardır.

Fəaliyyətdə olan bir orqanizm kimi Azərbaycan iqtisadiyyatının müstəqil öyrənilməsi tarixi zərurətindən irəli gəlmişdir. Bunun üçün dövlətimizin iqtisadi reallıqları nəzəri cəhətdən öyrənilməli və əməli fəaliyyət üçün əsaslandırılmış tövsiyələr hazırlanmalıdır. Köhnə iqtisadi təfəkkürə əsaslanmaqla yeni, sağlam milli iqtisadiyyat qurmaq olmaz. İstehsal vasitələri üzərində sosialist mülkiyyət münasibətləri dəyişdiyinə görə istehsal vasitələri üzərində çox mülkiyyətli iqtisadiyyatı ifadə edən nəzəriyyə də dəyişməlidir. Elə bir nəzəriyyə olmalıdır ki, Azərbaycanın milli iqtisadiyyatının qeyri-sağlam vəziyyətə düşməsinin səbəblərini və onun yenidən quraraq sağlam milli iqtisadiyyatın formalaşması və

inkişafının yollarını, vasitələrini göstərə bilsin. Ancaq elmi cəhətdən əsaslandırılmış nəzəri müddəalar xalq kütlələri tərəfindən öyrənildikdə, onların iqtisadi təfəkkürünü formalaşdırdığı halda əməli əhəmiyyət kəsb edir və praktik fəaliyyətdə istifadə olunur.

İqtisadi müstəqilliyi təmin edən sağlam milli iqtisadiyyatı yalnız iqtisadi təfəkkürü olan, sovet iqtisadi sistemi zamanı sağlam mənəviyyatın yoxsullaşmasını dərk edən millət qura bilər. Deməli, xalqı iqtisadi biliklərlə silahlandırmaq, onun milli və iqtisadi şüurunu formalaşdırmaq lazımdır. Hər bir vətəndaş bazar iqtisadi sistemi şəraitində mülkiyyətçi, təsərrüfatçı olmaq, sahibkarlıq etmək, yeni qaydada işləmək, qazanmaq ruhunda tərbiyə edilməli və halal zəhmətlə yaxşı yaşamağın mümkün olmasına inanmalıdır. Çünki sovet sistemi və keçid dövründə qeyri-qanuni yolla pul qazanmaq o qədər geniş yayılmışdır ki, vətəndaşlarda halal zəhmətlə yaxşı yaşamağın qeyri-mümkünlüyü psixologiyası formalaşmışdır.

«Azərbaycan iqtisadiyyatı» elmi öyrənilərkən yalnız iqtisadi fəaliyyətlə məşğul olanlarda iqtisadi bilik və iqtisadi təfəkkür formalaşdırmamalı, o bütün əhalini əhatə etməlidir. Birincisi, ona görə ki, bütün insanlar iqtisadiyyatla bilavasitə bağlıdır, hər bir insan ya itehsalçıdır və yaxud istehlakçı. İkincisi, bu gün konkret peşəsindən asılı olmayaraq, işləmək qabiliyyəti olan hər bir kəs öz qabiliyyətini, xidmətini iqtisadi cəhətdən reallaşdırmağa can atır. Dünənki həkim, müəllim, elm xadimi, mühəndis bu gün dövlət vəzifəsi tutur. Milli Məclisdə respublikanın iqtisadi problemlərinə aid məsələlərin həlli ilə məşğul olur. Bütün bu hallarda mükəmməl iqtisadi bilik tələb olunur və bunsuz cəmiyyəti səmərəli idarə etmək, sanballı və reallığı əks etdirən, işlək qanunlar hazırlamaq olmaz. Bütün bunlar o deməkdir ki, dövlətimizdə iqtisadi təhsil sistemi yenidən qurulmalı və bu sistemdə «Azərbaycan iqtisadiyyatı» müstəqil elm kimi tədris olunmalıdır.

**Hər bir xalqın bir millət kimi formalaşmasında və onun milli şüurunun inkişafında bazar iqtisadi sisteminin maddi-texniki əsası olan maşınlı sənaye mühüm rol oynayır. Bu prosesdə milli şüar yaranır və bunun əsasında milli birlik mümkün olur. Bu isə müstəmləkəçilərə qarşı mübarizə aparmaq və milli müstəqil dövləti qurmağın əsas amilidir. Bu prosesdə iqtisadi təfəkkür formalaşmadan müstəqil milli dövlət və onun sağlam milli iqtisadiyyatının formalaşmasından söhbət gedə bilməz. Deməli, bazar iqtisadi sisteminin formalaşması və inkişafı ilə milli şüurun və iqtisadi təfəkkürün inkişafı paralel surətdə baş verir, bunları bir-birindən ayrımaq olmaz, çünki bunlar eyni prosesin müxtəlif tərəfləridir və bunlar bir-birini şərtləndirən amillərdir. Bunlar bir-birilə qarşılıqlı əlaqədə olmaqla biri digərini şərtləndirir və biri digərinin inkişafına təkan verir. Belə ki, bazar münasibətlərinin inkişafı iqtisadi təfəkkürün formalaşması və inkişafına təsir göstərdiyi kimi millətin iqtisadi təfəkkürünü inkişaf etdirmədən bazar iqtisadi sistemini qurmaq və inkişaf etdirmək mümkün olmaz.**

**Beləliklə, deyilənlərdən aydın olur ki, hazırda Azərbaycan xalqının milli şüurunun və iqtisadi təfəkkürünün səviyyəsinin aşağı olması millətin genindən yox, onun müstəmləkə, xüsusilə sovet müstəmləkəçiliyindən irəli gəlmişdir. Çünki sovet iqtisadi sistemi bazar iqtisadiyyatının əsası olan sahibkarlığı, xüsusi mülkiyyətin olmasını tamamilə dövlət səviyyəsində qadağan etmişdir. Azərbaycanda bu problemi Azərbaycan dövləti sağlam milli iqtisadiyyatın formalaşması və inkişaf prosesində həll etməlidir.**

**Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan dövləti insan fəaliyyətinin bütün sahələrində islahatlar aparmaq yolu ilə tədriclə bazar iqtisadiyyatını sağlam əsaslar üzərində qurmağa çalışır və mümkün olan bütün tədbirləri həyata keçirir. Lakin bu çox çətin və uzun müddətli proses olduğundan hüquqi, iqtisadi, inzibati və başqa metod və üsulların buna gücü çatmır. Buna görə də dövlətimiz yuxarıda adı**

çəkilən metodlarla yanaşı təbliğat, elmin əsaslarını öyrənməklə əhalidə iqtisadi təfəkkürün formalaşmasına xüsusi əhəmiyyət verir. «Azərbaycan iqtisadiyyatı» elminin ali məktəblərdə tədris olunması da bu zərurətdən doğmuşdur.

İqtisadiyyatla mənəviyyat qarşılıqlı əlaqədardır və bunlar bir-birinə qarşılıqlı təsir göstərir və biri digərini şərtləndirir. Lakin bu sistemdə mənəvi amilin payı daha çoxdur və əsasdır. Sağlam milli iqtisadiyyatı yalnız ağıllı, sağlam mənəviyyatlı millət qura bilər. İndiki keçid dövründə Azərbaycanın milli iqtisadiyyatı qeyri-sağlam, asılı iqtisadiyyat olduğu kimi Azərbaycan xalqının mənəviyyatı da deformasiyaya uğramışdır. Bu bizə sosializmin sovet modelindən və sovet müstəmləkəçiliyindən miras qalmışdır. Bunun əsas göstəricisi əhalinin bütün təbəqələrində və səviyyələrində yalançılığın, yaltaqlığın, rüşvətxorluğun, məsuliyyətsizliyin, laqeydliyin və başqa mənəvi qüsurların geniş yayılmasıdır. Bu bir Azərbaycan xalqına deyil, uzun illər müstəmləkə halında yaşamış və sonralar müstəqil olan xalqlara da aiddir. XIV əsrdə yaşamış böyük ərəb alimi və mütəffəkiri İbn Xəldun yazırdı ki, əgər bir xalq və millət uzun bir tarixi zaman ərzində başqa bir müstəmləkəçi dövlətin işğalı, iradəsi və zülmü altında qalarsa, həmin xalq onu idarə edən yabançı dövlətin buyruğuna, onun əmr və göstərişi ilə işləməsinə alışır, buna görə də tənbəlləşir, buyuruq qullarına çevrilir və kölə vəziyyətinə düşürlər. Bu xalqlar azad olduqda belə uzun müddət sərbəst fəaliyyəti göstərə bilmirlər, öz ölkələrində çalışmaq, yaratmaq, müstəqil, azad yolla gedib öz-özlərini mal və sərvətlə təmin etməkdə, özünü sərbəst idarə etmədə çətinliklərə məruz qalır.

Böyük alimin bu müddəası Azərbaycan xalqının indiki vəziyyətini tam və dolğun əks etdirir. Nəzərə alsaq ki, Azərbaycan adi, hər hansı dövlətin yox, onu xəritədən silərək onun ərazisinə xristian mənşəli xalqları məskunlaşdırmağı məqsədi qoymuş və buna məqsədyönlü, daim çalışmış, eyni zamanda bazar iqtisadi sisteminə nisbətən istehsalı səmərəli

təşkil edə bilməyən sosializmin sovet modeli sistemində yaşamışdır. Bu zaman Azərbaycan xalqının sağlam mənəviyyatının daşıyıcıları şüurlu surətdə ya güllələnmiş, ya sürgün edilmiş və yaxud öz vətənindən didərgin salınmış və bu yolla millət kütləyə çevrilmişdir. Bütün bunlar Azərbaycan xalqının sağlam mənəviyyatının deformasiyaya uğramasına böyük təsir göstərmişdir. Təəssüf ki, düşmən təbliğatına uyanlar, səviyyəsiz insanlar Azərbaycan xalqının mənəviyyatında olan bu qüsurları millətimizin genində axtırırlar. Doğrudur, millətin müstəmləkə olmasının günahı millətin özündədir. Lakin bunun səbəbi indiki nəsildə deyil, neçə yüz il bundan əvvəl bizim ulu babalarımızdadır. İndiki nəslin günahı bunu dərk edə bilməməsidir, bizdən əvvəlki nəslin buraxdığı səhvlərdən ibrət dərsi almağa kifayət qədər çalışmamasıdır. Buna isə elmin əsaslarını, o cümlədən «Azərbaycan iqtisadiyyatı»nı bir elm kimi dərindən öyrənməklə iqtisadi təfəkkürü formalaşdırmaq olar. Ona görə də bu elmi səy və inadla öyrənmək lazımdır.

Azərbaycanda sağlam milli iqtisadiyyatın formalaşmasına ən çox mənfi təsir göstərən amil əhalinin mənəviyyatının sovet dövrünə nisbətən indiki keçid dövründə daha sürətlə pozulmasıdır. Sağlam mənəviyyata yad olan ədalətsizlik, yaltaqlıq, yalançılıq, rüşvətxorluq, korrupsiya və başqa rəzilətlərin səviyyələri artmış və əhatə dairəsi genişlənmişdir. Yuxarıda göstərilən rəzilətlər sistemində rüşvətxorluq və korrupsiya milli iqtisadiyyatın formalaşması və inkişafına ən pis, öldürücü təsir göstərən amildir. Bunu aradan qaldırmadan, heç olmasa məhdudlaşdırmadan sağlam milli iqtisadiyyatın formalaşması və inkişafından, məhz buna görə də iqtisadi müstəqillikdən danışmaq yersizdir.

Ədalətsizlik, yaltaqlıq, rüşvətxorluq və digər mənəviyyatsızlıq cəmiyyətin inkişafının bütün mərhələlərində və bütün millətlərdə olmuşdur. Çünki cəmiyyətdə hamı sağlam və qeyri-sağlam mənəviyyata malik ola bilməz. Belə olsa cəmiyyət mövcud olub yaşaya bilməsi ağılasığmazdır.

**Əgər olsa belə cəmiyyətdə yaşamaq maraqsız olardı. Həyatın gözəlliyi də sağlam mənəviyyatlı insanlarla şər, pis adamlarla mübarizəsindədir. Deməli, cəmiyyətin inkişafının bütün mərhələlərində və bütün millətlərdə sağlam və qeyri-sağlam subyektlərin olması cəmiyyətin inkişafının ümumi qanunauyğunluğudur. Heç bir millət, o cümlədən Azərbaycan bu prosesdən kənarda qala bilməz. Lakin bunun həddi və səviyyəsi var. O millət, o dövlət sağlam milli iqtisadiyyatın formalaşması və inkişafına nail ola bilər ki, orta həddi müəyyənləşdirə bilsin. Hazırda Azərbaycanda rüşvətxorluq həddi aşıbdır.**

**Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonra tədricən, xüsusilə XX əsrin 90-cı illərin sonlarından iqtisadi inkişaf sürətlənmiş və dinamik hal almışdır. Hazırda Azərbaycan iqtisadiyyatın inkişaf tempi baxımından MDB məkanında birinci yerdədir. Bu təbii və qanunauyğundur. Ona görə ki, Azərbaycan inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçməyi qarşısına əsas məqsəd qoymuş və bu sahədə xeyli iş görmüşdür. Bazar iqtisadi sistemi inzibati-amirlik sistemindən üstün olduğundan bu öz müsbət nəticəsini verməli idi və bu özünü iqtisadi inkişaf tempinin üstün olmasında göstərdi Digər tərəfdən Azərbaycanın müstəqil dövlət olması iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərlə iqtisadi inteqrasiyasını genişləndirməyə və beynəlxalq kapitaldan öz sənayesini, ilk növbədə neft sənayesini yenidən qurmaqla inkişaf etdirməyə imkan verdi. Azərbaycanda xarici investisiya qoyuluşuna əlverişli şərait yaradıldığından xarici investorlar Azərbaycana həvəslə gəlmişlər, bu amil Azərbaycanın milli iqtisadiyyatının milli mənafeyə uyğun yenidən qurulmasına kömək edən amillərdən biridir.**

**İqtisadiyyatla mənəviyyatın qarşılıqlı əlaqəsinin dialektikası və onların bir-birini şərtləndirilməsi ümumi iqtisadi qanunauyğunluğunun tələbinə görə iqtisadiyyatın sürətli inkişafı millətin mənəviyyatının sağlamlaşmasına**

müsbət təsir göstərməlidir. Çünki sağlam milli mənəviyyatın formalaşması və inkişafına iqtisadiyyatın inkişaf səviyyəsi ən böyük təsir göstərən amildir. Təəssüf ki, keçid dövründə belə olmadı, daha doğrusu bunun əksinə oldu. Belə hallar əvəzsiz nemət olan müstəqilliyi gözdən salır, sovet dövləti zamanı haqqın-ədalətin, insan hüquqlarının daha yaxşı qorunduğu psixologiyası formalaşdırır. Sovet sistemi zamanı deformasiyaya uğramış mənəviyyatın pozulması daha da sürətlənir. Əhalinin xeyli hissəsi sosializmi arzulayır və onun üstünlüklərindən ağız dolusu danışırlar. Lakin bu müvəqqəti haldır və bəzi insanlar indiki mənəvi böhranın yaranmasının əsas səbəbkarı həmin sisteminin olduğunu bilmədiklərindən bu kimi fikirlər yürüdürlər. «Azərbaycan iqtisadiyyatı» elmini bütün təhsil pillələrinin hamısında tədris etməklə əhalidə iqtisadi təfəkkür formalaşdırmaq, adı çəkilən nöqsanların obyektiv və subyektiv səbəblərini, onların aradan qaldırmaq yollarını öyrənməklə bu zərərli meylin qarşısını almaq mümkündür.

Keçid dövründə Azərbaycanda əhalinin bütün təbəqələrində mənəviyyatın sürətlə deformasiyaya uğramasının özünün də səbəbləri varıdır. Bunun əsas səbəbi sosializmin sovet modelinin mahiyyətindən doğan səbəbdir. Çünki sosializmin inqilab yolu ilə qısa müddətdə zorakılıqla qurmaq hökmən iqtisadiyyatın və mənəviyyatın dərin böhrana düçar etməli idi. Sosializm də başqa ictimai iqtisadi formasiyalar kimi özündən əvvəlki, bazar iqtisadi sistemində onun maddi ilkin şərtləri yaranmalı və bunun əsasında sosializm qurmalı idi. Lakin Rusiyada qurulan sosializmin sovet modeli bu qanunauyğunluğu pozdu və buna görə də uzun müddət yaşaya bilmədi və cəmiyyət üçün böyük problemlər yaratdı.

Feodalizmdən kapitalizmə keçid təkamul yolu ilə baş verdiyindən sənayenin inkişafı yeni tələbatlar və onun ödənilməsinin vasitələrini yaratmışdır. İnkişaf bu yolla getdikdə istehsal ilə tələbat arasında ziddiyyət dialektik

**xarakter daşıyır. Bu isə iqtisadiyyatın əsas şərtidir. Sosializmin sovet modeli şərait yetişməmiş, vaxtından əvvəl qurulduğundan istehsalın inkişafı ilə tələbatın ödənilməsi arasında ziddiyyət əhalinin mənəviyyatının deformasiyaya uğraması ilə nəticələnmişdir. Nə qədər ki, sovet sistemi mövcud idi, o, bu problemi inzibati, siyasi yolla tənzimləyə bilirdi. Lakin sovet imperiyası dağıldıqdan sonra istehsalla tələbatın ödənilməsi arasında olan gizli ziddiyyət aşkara çıxdı. Belə ki, kommunist rejimi sərhədlərini dünyaya bağlayaraq bir tərəfdən kapitalizmdə əhalinin həyat səviyyəsinin sosializmə nisbətən aşağı olmasını təbliğ etməklə xalqı buna inandırmışdır, digər tərəfdən əhalinin istehlakını inzibati yolla məhdudlaşdırmışdır. Məsələn, dövlət və partiya rəhbərlərinin rüşvət almaqla çoxlu pulları olsa da özələri üçün dəbdəbəli saraylar, restoranlar, şadlıq evləri və digər istehsal və xidmət müəssisələri tikdirə bilməzdilər. Bahalı maşınlar almaq hüququndan məhrum idilər. Onlar da digər sadə vətəndaşlar kimi dövlətin verdiyi standart mənzillərdə yaşamışlar. Buna görə də rüşvət almaq imkanı olan subyektlərin lazım olduğundan çox pul toplamağa ehtiyacı olmamışdır. Bazar iqtisadi sistemində isə iqtisadi fəaliyyət və digər azadlıqlar olduğundan sovet dövründə olan məhdudiyyətlər aradan qaldırıldığından pul yığmağa hərislik artır.**

**Sovet iqtisadi sisteminin dağılması beynəlxalq iqtisadi inteqrasiyasını gücləndirdi. Xarici ticarət əlaqələrinin genişlənməsi nəticəsində sənayecə inkişaf etmiş dövlətlərin əmtəələrinin Azərbaycana daxil olması artır və bunlar yeni tələbatlar yaradır. Hər bir insan dünyada istehsal olunmuş gözəl məhsullardan istifadə etmək istəyir və sənayecə inkişaf etmiş dövlətlərin vətəndaşları kimi azad, rahat, firavan yaşamaq arzulayır, amma Azərbaycanda məhsuldar qüvvələrin inkişaf səviyyəsi buna imkan vermir. Çünki respublikamızda sənayenin inkişaf səviyyəsi aşağı olduğundan əmək haqqı normal tələbatdan geri qalır.**

**Beləliklə, kapitalizmdə sənayenin inkişafı tədriclə, təkamül yolu ilə inkişaf etdiyindən tələbat və onun ödənilmə vasitələri də buna uyğun olaraq o nisbətdə irəlilədiyindən bunlar arasında mütənasiblik əsasən saxlanılır, bazar iqtisadiyyatına keçid dövründə isə sənayecə inkişaf etmiş dövlətlərin sənayesi keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda bu nisbəti pozur. Təəssüf ki, insanların çoxu xarici iqtisadi əlaqələrin təsiri altında formalaşan tələbatlarını halal zəhmətlə yox, rüşvətxorluq, yaltaqlıq və başqa sağlam mənəviyyata sığmayan yollarla ödəməyə üstünlük verirlər. Bu cür adamlar avropalı kimi yaşamaq istəyir, lakin avropalı kimi işləmək, elmlərin əsaslarını öyrənmək, qanunların aliliyini rəhbər tutmaq, insan hüquqlarını qorumaq istəmirlər. Başa düşmək lazımdır ki, avropalılar belə yüksək həyat səviyyəsini qısa müddətdə, asanlıqla əldə etməmişlər, buna rüşvətxorluğu, korrupsiyanı, yaltaqlığı, rəqəmləri şişirtmək yolu ilə deyil, fədakarcasına işləməklə nail olmuşlar. Deməli, keçid iqtisadiyyatlı dövlətlərin, o cümlədən Azərbaycan dövlətinin vətəndaşları dərk etməlidirlər ki, müasir Avropa xalqlarının səviyyəsində yaşamaq üçün bazar iqtisadi sistemini formalaşdırmaq və onu inkişaf etdirərək sağlam milli iqtisadiyyatı yaratmaq yeganə istiqamətdir. Məhz buna görə də Azərbaycan dövləti bu problemin həllini əsas strateji məqsəd kimi qəbul etmişdir.**

**Hər bir məqsəd istər kiçik, istərsə böyük olsun fərqi yoxdur, əvvəlcə ideya şəklində meydana çıxır, bu ideya inkişaf etdirilərək nəzəriyyəyə çevrilir. Deməli, ideyanın yaranması məqsədə çatmağın başlanğıcı və məqsədin reallaşmasında mümkün əhəmiyyəti vardır. Əgər qul özünün qul olmasını dərk edirsə, bu ideya onda yaranırsa o artıq qul hesab olunmaya bilər. Çünki o bu vəziyyətdən çıxmaq üçün düşünəcək, yollar və vasitələr axtaracaq və gec-tez buna nail olacaqdır. İnsan ağıllı, şüurlu məxluq olduğundan ağlını işlətməklə qarşısına qoyduğu məqsədə, məqsədyönlü və inadla çalışmaqla çata bilir. Bu müddəanı Azərbaycanın indiki**

**vəziyyətinə tətbiq etsək məlum olur ki, Azərbaycanda müstəqilliyini qoruyub saxlamaq, sağlam milli iqtisadiyyatını formalaşdırmaq və inkişaf etdirmək ideyası yaranmış və bu əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Lakin ideyanın yaranması və məqsədin müəyyən edilməsi məqsədə çatmaq üçün kifayət deyil, onun reallaşmasında, həyata keçirilməsində problemin dərk edilməsi əsas məsələlərdən biridir. Çünki ideya və nəzəriyyə dərk edildikdən sonra böyük qüvvəyə çevrilir və onu gerçəkləşdirmək mümkün olur. Bu çətin, eyni zamanda zəruri olan problemi əhaliyə aşılamaq və əhalini ona inandırmaq «Azərbaycan iqtisadiyyatı» elminin birinci vəzifəsidir. Bunu «Azərbaycan iqtisadiyyatı» elminin dərketmə funksiyası adlandırmaq olar.**

**«Azərbaycan iqtisadiyyatı» nəzəri elmdir. Ona görə də o dövlətimizin iqtisadi həyatı ilə bağlı olan bütün iqtisadi problemləri nəzəri cəhətdən dərindən öyrənməli, əsas prinsipləri və iqtisadi qanunauyğunluqları aşkara çıxarmalıdır. Məhz milli iqtisadiyyatımız haqqında əsas iqtisadi biliklər bu zaman formalaşır, sistemli şəkil alır. Bu zaman millətin iqtisadi şüuru və iqtisadi təfəkkürü formalaşır. Bu prosesdə əhalinin müəyyən qrupu deyil, bütün vətəndaşlar iştirak etməlidir. Ona görə ki, sağlam milli iqtisadiyyatın formalaşması və inkişafı elə böyük və çətin problemdir ki, bütün xalq çiynini bu ağır yükün altına verməsə məqsədə nail olmaq mümkün deyil. Keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda bu fənnin dərketmə funksiyasının həyata keçirilməsi çox çətindir. Çünki sovet iqtisadi sistemində iqtisadiyyat iqtisadi vasitələrlə yox, inzibati qaydalarla, yuxarıdan əmr, sərəncam vermək metodu ilə idarə edildiyindən əhalidə iqtisadi təfəkkürün səviyyəsi çox aşağıdır. Həm də nəzərə almaq lazımdır ki, «Azərbaycan iqtisadiyyatı» elminin digər funksiyalarının uğurla həyata keçirilməsi bu vəzifənin necə yerinə yetirilməsindən asılıdır.**

«Azərbaycan iqtisadiyyatı» elminin ikinci funksiyası onun praktiki, əməli funksiyasıdır. Çünki alınmış iqtisadi biliklər əməli fəaliyyətdə, cəmiyyətin şüurlu surətdə dəyişdirilməsi, praktikada elmi əsas, dayaq rolu oynadıqda əhəmiyyət kəsb edə bilər. Lakin bu funksiyanın həyata keçirilməsinin özünəməxsus xüsusiyyətləri vardır. Əvvəla, o birinci funksiyanın necə yerinə yetirilməsi ilə əlaqədardır. Hazırda hələlik bu sahədə vəziyyət tələb olunan səviyyədə deyil. Əgər birinci funksiya vaxtında və tələb olan səviyyədə yerinə yetirilmiş olsa işlənib hazırlanmış iqtisadi qanunauyğunluqlar, prinsiplər, tövsiyələr daha mükəmməl, reallıq, imkanlar, daxili və xarici şərait nəzərə alınar və bunlara görə də onları reallaşdırmaq imkan daxilində olar, cəmiyyətin sağlam milli iqtisadiyyatının formalaşması və inkişafı dünya təsərrüfat sistemindən geri qalmaz, öz layiqli yerini tutar. Çünki bu prosesdən geri qalmaq iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin hansı formadasa müstəmləkəsinə çevrilmək deməkdir. Müasir dövrdə qloballaşma prosesinin güclənməsi bu təhlükəni daha da artırır, keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan dövlətlər, o cümlədən Azərbaycan bu təhlükəyə daha həssasdır. Buna görə də «Azərbaycan iqtisadiyyatı» bir nəzəri elm kimi müəyyən etdiyi prinsipləri, qanunları və qanunauyğunluqları aşkara çıxarmaqla qalmamalı və onlardan iqtisadi müstəqilliyin təmin edilməsində istifadə edilən həyata keçirmə mexanizmini, üsul və vasitələrini də göstərməlidir. İkincisi, əhalinin əksəriyyəti sovet sistemində yaşadığından onların şüurunda həmin sistemin psixologiyası möhkəm yer tutur və onlar yeni sistemə çətinliklə uyğunlaşırlar. Sosializmin sovet modeli üçün isə nəzəriyyə ilə praktikanın bir-birinə tamamilə əks olması səciyyəvi olmuşdur. Belə ki, nəzəriyyədə hər şey gözəl, humanist, ədalətli olsa da praktikada tamamilə bunun əksi olmuşdur. Keçid dövründə onun qalıqları hələ də mövcud olduğundan əhalinin müəyyən hissəsinin müstəqilliyə inamı azalmışdır. Bu elmin vəzifəsi belə xoşagəlməz halların

müvəqqəti olmasına, bazar iqtisadi sistemi formalaşaraq inkişaf etdikcə sosializmdən qalan həmin mənəviyyatsızlığın aradan qaldırılacağına əhalini inandırmaqdır.

Praktiki funksiya bir tərəfdən Azərbaycanın iqtisadiyyatının əsaslı surətdə dəyişdirilməsi və bazar münasibətləri istiqamətində yenidən qurulması ilə bağlıdır. Elmin açdığı qanunlar, qanunauyğunluqlar, nəzəri ümumiləşdirmələr, prinsiplər, tövsiyələr həyata keçirilməsi nəzərdə tutulan iqtisadi tədbirlərin və dövlətin iqtisadi siyasətinin hazırlanması vaxtı istifadə olunur. Digər tərəfdən isə, «Azərbaycan iqtisadiyyatı» xalqı iqtisadi yenidənqurma, iqtisadi inkişaf haqqında biliklərlə silahlandırır, onun iqtisadi şüurunu, elmi dünyagörüşünü, iqtisadi təfəkkürünü formalaşdırır. Bu funksiyanın həyata keçirilməsində «Azərbaycan iqtisadiyyatı»nın müstəqil elm kimi tədris edilməsinin misilsiz əhəmiyyəti vardır. Azərbaycanın iqtisadiyyatı, onun sərvətlərinə dair biliklər, iqtisadi cəhətdən müstəqil olmağın əhəmiyyəti və buna nail olmağın yolları haqqında biliklər gənc nəsilə əsasən bu yolla, tədris vasitəsilə çatdırılır.[1]

«Azərbaycan iqtisadiyyatı» elminin üçüncü funksiyası bütün iqtisad elmlərinin nəzəri-metodoloji funksiyası daşımasıdır. Çünki bütün elmlər, o cümlədən iqtisad elmi nəzəri və praktiki-tətbiqi sahələrə bölünür. Mövcud olan bir çox iqtisad elmləri iqtisadiyyatın müxtəlif sahələrini müstəqil öyrənir. Məsələn, «Sənaye iqtisadiyyatı» Azərbaycanın sənayesini, «Kənd təsərrüfatı iqtisadiyyatı» Azərbaycanın kənd təsərrüfatını, «Ticarət iqtisadiyyatı onun ticarətini», «Nəqliyyat iqtisadiyyatı» nəqliyyatı və s. öyrənir. Deməli, konkret iqtisad elmləri Azərbaycanın iqtisadiyyatının yalnız ayrı-ayrı sahələrini və bölmələrini, yarım bölmələrini öyrənir. Lakin hər bir dövlətin, o cümlədən Azərbaycanın milli iqtisadiyyatı canlı bir orqanizmə bənzədiyindən konkret, sahə iqtisad elmləri bütövlükdə xalq təsərrüfatını öyrənə bilməz.

[1] «Azərbaycan iqtisadiyyatı». Bakı, 1998, səh. 24.

Ona görə ki, xalq təsərrüfatının bütün sahələri bir-birilə qarşılıqlı əlaqədədir, bir-birindən asılıdırlar, bir sahənin inkişafı digərinin inkişafını şərtləndirir və yaxud əksinə olur. Bununla əlaqədar olaraq bütün sahə iqtisad elmlərinin nəzəri əsasını işləyib hazırlayan bir iqtisad elmi olmalıdır. Bu «Azərbaycan iqtisadiyyatı»dır. Deməli, «Azərbaycan iqtisadiyyatı» Azərbaycanın konkret, sahə iqtisad elmlərinin nəzəri-metodoloji funksiyasını həyata keçirməlidir.

İqtisadi nəzəriyyə funksiyasını daşıyan «Azərbaycan iqtisadiyyatı» cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarını işləyib hazırlamaqla sahə iqtisad eliminin inkişafına böyük təkan vermiş olur. Hər bir sahə, konkret iqtisad elmlərinin iqtisadi qanunları, qanunauyğunluqları, prinsipləri olsa da bunlar iqtisadi nəzəriyyə elmi olan «Azərbaycan iqtisadiyyatı» elmindən qidalanmasa, onun müddəalarına söykənmədən uğurlar qazana bilməz. İqtisadiyyatın konkret sahələrini öyrənən elmlərlə məşğul olan hər bir alim, mütəxəssis bilməlidir ki, onun tətbiq etdiyi sahə bütövlükdə ictimai əmək bölgüsü sistemində fəaliyyət göstərir, ayrı-ayrı sahələr nisbi müstəqil olsalar da, bir-biri üçün işləyir, bir-birindən asılıdır. İqtisadi nəzəriyyəni dərindən bilməyən konkret iqtisad elmi sahəsində çalışanlar həmin sahə üçün samballı iqtisadi qanunauyğunluqlar və tövsiyələr hazırlayıb həyata keçirə bilməzlər. Burada məqsəd heç də konkret iqtisad elmlərinin rolunu azaltmaq deyil, əksinə bunların qarşılıqlə əlaqə və asılılıqda olmasına diqqəti yönəltməkdir. Başqa sözlə, iqtisadi nəzəriyyə bir fundamental elm olmaqla, konkret iqtisad elmlərin inkişafına təkan verdiyi kimi tətbiqi, konkret iqtisad elmləri də iqtisadi nəzəriyyəni istehsala tətbiq etməklə nəzəriyyənin doğruluğunu əgər-əksikliyi yoxlayır, onu zənginləşdirmək və inkişaf etdirmək üçün material verir. Belə qarşılıqlı təsir nəticəsində hər iki elm sahəsi inkişaf edir. Ona görə də onları bir-birinə qarşı qoymaq, birinin digərindən üstün olmasını iddia etmək düzgün deyil.

Beləliklə, hər bir iqtisal elmi ümummilli problemlərin həllində, ümumi daxili, ümumi milli məhsulun istehsalında, dövlətin gəlirlərinin formalaşmasında və bütövlükdə Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsində iqtisadi qanunlarının obyektiv xarakterinin dərk edilməsində, onlardan düzgün istifadə edilməsində böyük rol oynaya bilər. Qarşıda duran bu böyük və şərəfli vəzifənin həyata keçirilməsində fundamental, müstəqil elm kimi «Azərbaycan iqtisadiyyatı» konkret iqtisad elm sahələrini nəzəri biliklə silahlandırmalı, onlar üçün mayaq rolu olmalıdır. Bunu konkret elm sahələri ilə məşğul olan mütəxəssislər dərk etsələr məqsədə çatmaq asan və keçid dövrünün müddətini azaltmaq olar.

## § 3. «Азярбайжан игтисадиййаты»нын предмети вя методу

Bütün elmlər insan cəmiyyətinin və təbiətin qanunlarını öyrənir. Lakin onların hər birinin öyrəndiyi predmet və obyekt vardır. Buna görə də hər bir elm, o cümlədən «Azərbaycan iqtisadiyyatı» bu elmlər sistemində öz yerini düzgün tapmalı və öyrəndiyi obyekti müəyyənləşdirilməlidir. Bu baxımdan «Azərbaycan iqtisadiyyatı» elminin predmeti Azərbaycanın iqtisadiyyatıdır. Amma iqtisadiyyat, o cümlədən Azərbaycan iqtisadiyyatı anlayışı çox geniş çoxsahəli və mürəkkəb sistemdir. Elə bir insan fəaliyyəti sahəsi yoxdur ki, o, bu və ya digər dərəcədə iqtisadiyyatla bağlı olmasın, onun inkişaf və tərəqqisində iştirak etməsin.

Hər bir dövlətin milli iqtisadiyyatının formalaşması və inkişafı üçün eyni şərait olmadığından milli iqtisadiyyatların inkişaf səviyyəsi də müxtəlif olur. Bunun isə əsas səbəbi hər bir dövlətin keçdiyi tarixi inkişaf yolu ilə əlaqədardır və bunun obyektiv və subyektiv səbəbləri vardır.lakin bu fərqlərlə

bərabər iqtisadiyyatın formalaşması və inkişafının ümumi əsasları birdir. Belə ki, bir sıra ümumi iqtisadi şərait istər antik dövr üçün, istərsə də müasir sivilizasiyalı cəmiyyət üçün eynidir. Bu baxımdan bütün dövlətlərin, onların milli iqtisadiyyatının predmeti müəyyən fərqli olsa da hamısının predmeti eyni olmalıdır. Belə bir elm iqtisadi nəzəriyyədir Ona görə ki, bu iqtisad elmlərinin hamısından əvvəl, bazar iqtisadi sisteminin əsası olan əmtəə-pul münasibətlərinin geniş inkişaf etdiyi zaman yaranıb, bazar iqtisadiyyatı inkişaf etdikcə o da inkişaf etmiş və digər iqtisad elmlərinin formalaşmasında mühüm rol oynamışdır. Həmişə və hazırda konkret, sahə iqtisad elmlərinin nəzəri-metodoloji əsasını təşkil edir və onlar buna istinad etmədən inkişaf edə bilməzlər. Bu baxımdan «Azərbaycan iqtisadiyyatı» elminin predmeti Azərbaycanın milli iqtisadiyyatının xüsusiyyətləri ilə əlaqədar olaraq fərqlər olsa da «İqtisadi nəzəriyyə» elminin predmeti ilə üst-üstə düşür. Deməli, «Azərbaycan iqtisadiyyatı» fənnin predmeti Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı iqtisadi qanunauyğunluqlarını öyrənmək və milli mənafeyə uyğun tövsiyyələr hazırlamaqla bərabər ümumbəşəri iqtisadi qanunauyğunluqları da özündə etiva etməlidir.

Azərbaycan iqtisadiyyatı dünya təsərrüfat sisteminin tərkib hissəsidir, dünyada baş verən iqtisadi proseslərdən kənarda qalmaq qeyri-mümkündür və dünyada yaradılan mütərəqqi texnika-texnologiyadan və istehsal təcrübəsindən istifadə etmədən milli iqtisadiyyatı inkişaf etdirmək mümkün olmaz. Bütün bunlar «Azərbaycan iqtisadiyyatı»nın predmetinə daxildir.

«İqtisadi nəzəriyyə» elmi Avropada bazar iqtisadi münasibətləri daha tez formalaşdığına görə orada yaranmış və siyasi iqtisadi, «ekonomiks» («iqtisadiyyat» və ya «iqtisad») kimi adlar daşımışdır. Bu elmin predmeti klassik ingilis iqtisadçıları tərəfindən müəyyən edilmişdir. Onlar «İqtisadi nəzəriyyə»nin predmetini cəmiyyətin sərvəti və onun

artırılması üsullarından bəhs edən bir elm kimi xarakterizə etmişlər. Onlar istehsal, bölgü, mübadilə və istehlak arasındakı təbii, qanunauyğun əlaqələrin də bu çərçivədə tədqiq və izah etməyə çalışmışlar. Təəssüf ki, marksist – leninçi iqtisadi nəzəriyyə bu elmin fənnində problemlər yaratdı. Belə ki, sosialist sistemində «Siyasi iqtisad» adı ilə tədris olunan bu fənn «İqtisadi nəzəriyyə»nin kapitalizmin tüfeyli olması və sosializmin-kommunizmin üstünlükləri təbliğ edilmişdir. Təbliğat və zorakı yolla iqtisadi sistemin saxlanılmasının qeyri-mümkün olması təbii və qanunauyğundur. Sovet sistemi də belə oldu. Bu sistem dağıldığından sonra Azərbaycanda sovet iqtisadi sistemi zamanı ali məktəblərdə tədris olunan «Siyasi iqtisadi» fənninin əvəzinə «İqtisadi nəzəriyyə» elmi tədris olunur.

İqtisadi həyat kimi iqtisadi nəzəriyyə də bir yerdə dura bilməz,o, həmişə dəyişən şəraitə uyğun olaraq inkişaf edir və təkmilləşdirilir. Buna görə də iqtisadi nəzəriyyənin predmetinə və öyrəndiyi obyektə verilən təriflər və nəzəri fikirlərdə də dəyişikliklər baş vermişdir. Bu sahədə ABŞ iqtisadçılarının fəaliyyəti və iqtisadi nəzəriyyəsinin predmetinə verdikləri təriflər daha aktualdır və reallığı daha dolğun əks etdirir.

Azərbaycanın iqtisadçı alimlərinin əsas vəzifələrindən biri dünya iqtisad elminin ən yaxşı nümunələrindən istifadə etməklə iqtisad elmini əvvəlki ehkamçılıqdan və şuarçılıqdan qurtarmaq və öyrəndiyi predmeti daha obyektiv və həyatımıza yaxın bir tərzdə müəyyən etməkdir. Bu Azərbaycan üçün daha vacibdir. Çünki müstəqilliyə qədər Azərbaycanın milli iqtisadiyyatı yalançı, şişirtmə rəqəmlər və şüarçılıqla «inkişaf» etdirilmişdir. Bu baxımdan ABŞ-da dəfələrlə nəşr olunmuş və Nobel mükafatına layiq görülmüş prof. P.Samuelsonun «Ekonomika» və K.P.Makkonnellinin, S.L.Bryunun «Ekonomiks» dərslikləri xüsusi yer tuturlar. Dünyanın bir çox ölkələrində tədris olunan bu dərsliklərdə iqtisadi nəzəriyyənin predmetinə, məqsəd və vəzifələrinə

verilən təriflər həm klassiklərin nəzəri fikirlərini, həm də müasir iqtisadi sistemin tələbələrini əks etdirir. Bu kitiablarda bizim indiki şəraitimizə və psixologiyamıza uyğun gəlməyən nəzəri və əməli nəticələr nəzərə alınmazsa, ümumiyyətlə onlardan geniş istifadə etmək bizim iqtisadi təfəkkürümüzün daha da zənginləşməsi üçün faydalıdır.

Sənayecə inkişaf etmiş dövlətlərin iqtisadçılarının siyasi iqtisadın predmetinə, vəzifə və məqsədlərinə verdikləri tərifin bəzi məqamlarının Azərbaycanın reallığına uyğun gəlməməsinə təbii baxmaq lazımdır. Çünki onların keçdiyi tarixi inkişaf yolu ilə Azərbaycanınkı bir-birindən əhəmiyyətli dərəcədə fərqlidir. Onlar rəvan inkişaf yolu keçdiyi halda Azərbaycan müstəmləkə, xüsusilə sovet müstəmləkə sistemində yaşadığına görə iqtisadi inkişafın səviyyəsi çox fərqlidir. Uyğunluqsuzluq da bununla əlaqədardır. Azərbaycan da həmin ölkələr kimi bazar iqtisadi sistemində yaşamağı qarşısına məqsəd qoyduğuna görə onların iqtisadi nəzəriyyənin predmetinə verdikləri tərif bizim üçün də faydalıdır. Məhz Azərbaycan müstəqillik qazandıqdan sonra «Azərbaycan iqtisadiyyatı» elmi bu istiqamətdə tədris olunur. onun əsas vəzifələrindən biri bu fənnin predmeti, əsas məqsədi və vəzifələri müəyyən edilərkən Azərbaycanın tarixən keçdiyi inkişaf yolu, iqtisadiyyatın inkişaf səviyyəsi, daxili və xarici şərait, milli mentalitet və milli psixologiya nəzərə alınmaqla elə qanunauyğunluqlar və tövsiyyələr işlənib hazırlanmalıdır ki, onları reallaşdırmaq mümkün olsun.

P.Samuelson yuxarıda adı çəkilən dərsliyində – İqtisadi nəzəriyyə nədir? Sualına belə cavab verir: «İqtisadi nəzəriyyə bir elm kimi insanların və cəmiyyətin müəyyən vaxt ərzində pulun iştirakı olmadan və ya ondan istifadə etmək vasitəsi ilə məhdud (nadir) resurslardan hansılarını seçib istehsal edə bilmək, bunlardan bu gün və gələcəkdə istehlak etmək üçün cəmiyyətin üzvləri və qrupları arasında maddi nemətlərin bölgüsünü həyata keçirmək haqqında elmdir». Göründüyü kimi bu tərifdə istehsal, bölgə və istehlak məsələsi bilavasitə

«İqtisadi nəzəriyyə» kursunun predmetinə daxil edilmişdir. K.R.Makxonnellin və S.L.Bryunun «Ekonomiks» dərsliyində də «İqtisadi nəzəriyyə» kursunun predmetinə təxminən buna uyğun gələn tərif verilmişdir! Orada deyilir ki, «Ekonomks» məhdud ehtiyatlar şəraitində maddi nemətlər və xidmətlərin istehsalı, bölgüsü və istehlakı prosesində insanların davranışının təşkilidir. Bu elm «... İnsanın maddi tələbatlarının ən yüksək səviyyədə ödənilməsi məqsədilə məhdud istehsal ehtiyatlarından səmərəli istifadə olunmasını, yaxud onların idarə edilməsi problemlərini tədqiq edir».[1] Nəticə etibarilə «İqtisadi nəzəriyyə»nin konkret predmeti, obyekti cəmiyyətin iqtisadi münasibətləri və onun inkişaf qanunlarıdır.

İqtisadi münasibətlər insanların maddi nemətlərin və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində yaranan münasibətləridir. Bu, cəmiyyətin bütün ictimai münasibətlərinin ən mühüm, həlledici, hamının maraq və mənafeyini əhatə edən münasibətlər formasıdır. İqtisadi münasibətlər bütöv bir sistem şəklində fəaliyyət göstərir. Bu sistemdə isthesal vasitələri və istehsalın nəticələrinin mənimsənilməsi forması kimi özünü göstərən mülkiyyət münasibətləri müəyyənedici rolu malikdir. Başqa sözlə, bu və ya digər cəmiyyətdə mövcud olan mülkiyyət formaları, onların hərəkətverici stimullarını müəyyən edən amildir.

İqtisadi münasibətlərin canlı daşıyıcısı insanlardır. Məhz buna görə də «İqtisadi nəzəriyyə» maddi nemətlər istehsalı prosesində insanlar arasında münasibətləri öyrənir. Lakin o ayrı-ayrı insanlar, müəssisə və firmaların iqtisadi fəaliyyətini deyil, mikroiqtisadiyyatı və onun prinsiplərini müəyyənləşdirir. Eyni zamanda makroiqtisadiyyat, müəssisə firma və s. öz imkan və təşəbbüsü ilə bu nəzəriyyənin verdiyi tövsiyyələrdən faydalana bilər.

«İqtisadi nəzəriyyə» öz predmetini iqtisadi kateqoriyalar vasitəsilə öyrənir. İqtisadi kateqoriyalar iradi,

---

[1] K.R.Makkonnell, С.Л.Брю. Ekonomiks. Bakı, 1992. səh.18.

**subyektiv anlayışlar deyil, onlar iqtisadi münasibətlərin, iqtisadi hadisə və proseslərin ən mühim tərəflərinin nəzəri, məntiqi anlayışlarıdır. Bunların vasitəsilə iqtisadi hadisələrin mühüm tərəfləri öyrənilir və açılır. «Azərbaycan iqtisadiyyatı» da öz predmetini iqtisadi kateqoriyalar vasitəsilə öyrənir. Bunlara öz spesifik məzmunu olan, məna kəsb edən aşağıdakı kateqoriya, ifadə və anlayışları aid etmək olar: «Azərbaycan iqtisadiyyatı», «Azərbaycanın məhsuldar qüvvələri», «Azərbaycanın iqtisadi potensialı», «Azərbaycanda istehsalın strukturu», «Azərbaycanın ictimai təsərrüfatı», «Azərbaycan xalq təsərrüfatı», «Azərbaycanın torpaq mülkiyyəti», «Azərbaycanın daxili və xarici bazarı», «Azərbaycan əhalisi», «Azərbaycanın milli sərvəti», «Azərbaycanın iqtisadi sistemi», «Azərbaycanın ümumi daxili məhsulu», «Azərbaycanın milli gəliri», «Azərbaycan bankı», «Azərbaycanın maliyyəsi», «Azərbaycan manatı», «Azərbaycan sənayesi», «Azərbaycan kənd təsərrüfatı», «Azərbaycan nəqliyyatı», «Azərbaycan valyutası», «Azərbaycan dövləti», «Azərbaycan dövlətinin iqtisadi vəzifələri», «Azərbaycan dövlətinin iqtisadi siyasəti» və başqaları.**

**Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan dövlətinin əsas iqtisadi vəzifələrindən biri müasir, tənzimlənən bazar iqtisadiyyatının iqtisadi əsası olan çoxmülkiyyətli iqtisadiyyatı formalaşdırmaqdır. Bu prosesdə normal inkişaf yolu keçmiş klassik bazar iqtisadi sisteminə daxil olan dövlətlərə nisbətən keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda spesifik xüsusiyyətlər meydana çıxır. Məhz «Azərbaycn iqtisadiyyatı» bu cür halların öyrənilməsini öz öhdəsinə götürməlidir. Belə ki, Azərbaycan reallıqları şəraitində fiziki və hüquqi şəxslər arasında iqtisadi münasibətlər və onlar müstəqil tədqiq edilməli, öyrənilməlidir. Yəni formalaşmaqda olan bu münasibətlər sisteminin respublikanın məhsuldar qüvvələrinin inkişafına təsiri, onların inkişafının iqtisadi qanunauyğunluqları, bir elm kimi**

«Azərbaycan iqtisadiyyatı» tərəfindən öyrənilməlidir. Bu münasibətləri idarə edən iqtisadi qanunlar vardır ki, onların aşkara çıxarılması və istifadə edilməsi ilə bağlı məsələlərin də öyrənilməsi bu elmin predmetinə daxildir. Azərbaycanda iqtisadi qanunların fəaliyyəti üçün mühit, şərait formalaşmalı, onların fəaliyyətinə geniş meydan verilməlidir. Bu qanunların fəaliyyətini təmin edə bilən iqtisadi şəraitin yaradılması yollarını göstərmək də bu elmin qarşısında duran ən başlıca problemlərdəndir. Bu cür çətin və mürəkkəb problemləri həll etmək üçün Azərbaycanda qurulması nəzərdə tutulan, yəni iqtisadi sistemin özünün məzmunu, mahiyyəti nəzəri cəhətdən öyrənilməlidir ki, ona keçməyi təmin edən formalarvə şəraitin yaradılması prosesinə şüurlu təsir göstərmək mümkün olsun.

Sovet hakimiyyəti illərində Azərbaycanın milli iqtisadiyyatı məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsi və istehsalın strukturunu imperiyanın mənafeyinə uyğun qurulması vasitəsilə qeyri-sağlam,asılı vəziyyətə salınmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycanda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, istehsalın strukturunu milli mənafeyə uyğun qurulması üçün əlverişli şərait yaranmışdır. «Azərbaycan iqtisadiyyatı» elmi bu problemlərin həllinin nəzəri əsaslarını öyrənməli, onların milli mənafeyə uyğun yenidən qurulmasının zəruriliyini, onların qanunauyğunluqlarını, vasitə və üsullarını tapmalı və ağıllı tövsiyyələr verilməlidir.

«Azərbaycan iqtisadiyyatı» elminin predmetinə daxil olan iqtisadi münasibətlər abstraksiyadır, onu gözlə görmək mümkün deyil, lakin onlar mövcuddur və onlar iqtisadi mənafelər şəklində təzahür edir. Bunlar çoxdur – şəxsi mənafe, ailənin mənafeyi, kollektivin mənafeyi, regionun mənafeyi, milli mənafe,ümumibəşəri mənafeyi və başqaları. Bu mənafelər bir-birilə uzlaşdırılarsa həmin dövlətin iqtisadiyyatı normal inkişaf edər. Hazırda Azərbaycanın bəzi məmurları öz şəxsi mənafelərini milli mənafedən üstün

tutaraq torpaq, rüşvət almaq və korrupsiyyaya qurşanmaqla dövlət büdcəsinin xeyli hissəsini mənimsəyirlər. Bu isə dövlət büdcəsindən maliyyələşdirilən vətəndaşların sosial vəziyyətinə və mənəviyyatın pozulmasına mənfi təsir göstərir. Təbiidir ki, belə hal əhalinin sosial qrupları arasında narazılıqlar yaradır və bu ədalətsizliyin qarşısı vaxtında alınmasa sosial partlayışa səbəb ola bilər. Bu elm əhaliyə aşılamalıdır ki, milli mənafeyi birinci yerə qoya bilməyən millət hökmən müstəqilliyini itirməlidir, bunun geci-tezi var. Müstəqil milli dövləti olmayan, iqtisadi müstəqilliyini təmin edə bilməyən millət dünyanın ən bədbəxt millətidir. Millət xoşbəxt olmadan ayrı-ayrı vətəndaşlar çirkin yollarla çoxlu pul qazanmaqla xoşbəxt ola bilməzlər, əksinə onlar rüşvətxorluq xəstəliyinə tutulduqlarına görə ən ağılsız və bədbəxt insanlardır. Bu xəstəliyə düçar olmuş insanlar ağacın budağının üstündə oturub ağacı dibindən kəsməyə çalışan adamlara bənzəyir. Bunu isə yalnız ağılsız adamlar edər.

Dərk olunmuş tələbat olan mənafelər adamları hərəkətə gətirir, onları iqtisadi fəaliyyətlə məşğul olmağa məcbur edir. Buna görə də bütün iqtisadi mənafelər əlaqələndirilməli və reallaşmalıdır. Bunun Azərbaycanda reallaşma mexanizmi mövcuddur. Bu «Azərbaycan iqtisadiyyatı» elmidir. Bu elm ictimai-nəzəri elm kimi cəmiyyətdə mövcud olan bütün iqtisadi mənafeləri özünün predmetinə daxil edib tədqiq etməli və onların reallaşdırılmasının yollarını, vasitələrini açıb göstərməlidir. İqtisadi mənafelər tənzim olunmalı, optimal şəkildə əlaqələndirməlidir.

Bütün deyilənlərə əsasən, müstəqil bir elm kimi, «Azərbaycan iqtisadiyyatı»nın predmetini aşağıdakı kimi müəyyən etmək olar. Geniş mənada «Azərbaycan iqtisadiyyatı»nın predmeti Respublikanın iqtisadi sistemi və bu sistemi təşkil edən məhsuldar qüvvələr, iqtisadi münasibətləri sistemi və təsərrüfat mexanizmidir. Azərbaycanın milli iqtisadiyyatının ictimai təşkili formaları, onun müstəqil mövcudluğu və inkişafını şərtləndirən amillər, formalar, qanunlar,

**qanunauyğunluqlar da bu elmin predmetidir. Buraya həmçinin ölkəmizdə məhsuldar qüvvələrin yenidən səmərəli yerləşdirilməsi, istehsalın strukturunun milli mənayə uyğun təkmilləşdirilməsinin zəruriliyi, onun qanunauyğunluqları, məhsuldar qüvvələr inkişaf etdikcə iqtisadi münasibətlərin təkmiləşdirilməsinin vacibliyi, məhsuldar qüvvələr inkişaf etdikcə iqtisadi münasibətlərin ondan geri qalmasının qanunauyğun olması və bunlar arasında yaranan ziddiyyətlərin həll edilməsinin vasitələri və üsullarının müəyyən edilməsi də bu elmin predmetinə daxildir. Məhz bu şərait və formalar daxilində baş verən prosesləri, qanunauyğunluqları, prinsipləri və ziddiyyətləri öyrənməklə dövlətimizin iqtisadi həyatında baş verən dəyişikliklərin mahiyyətini dərk etmək və qarşıya qoyulan məqsədlərə nail olamq mümkündür.**

**Hər bir elmin predmeti onun metodu ilə bir vəhdət təşkil edir. Bəzi hallarda elmin predmetini əvvəlcə, metodunu isə ondan sonra və yaxud əksinə verirlər. Biz isə əvvəlcə «Azərbaycan iqtisadiyyatı» elmin predmetini sonra isə metodunu yazmağı məqsədəuyğun hesab edirik. Çünki elmin predmetini, onun öyrəndiyi hadisələri və qanunları ümumi şəkildə açıb göstərmədən, başqa sözlə onun obyektini bilmədən, onun araşdırma üsullarını da qavramaq çətindir.**

**Cəmiyyətin iqtisadi inkişafının ümumi iqtisadi qanunauyğunluqları olduğu kimi «İqtisadi nəzəriyyə», o cümlədən onun bir qolu olan «Azərbaycan iqtisadiyyatı» elmi də dünyada qəbul olunmuş metodu qəbul etməli və ondan həmin fənnin öyrənilməsində istifadə etməlidir. Çünki Azərbaycan dövləti dünya təsərrüfatı sisteminin bir hissəsi olduğundan onun iqtisadiyyatının inkişafının ümumi əsasları dünya iqtisadiyyatı ilə eynidir. Buna görə də hər bir dövlət, o cümlədən Azərbaycan özünün spesifik xüsusiyyətlərini, tarixən keçdiyi inkişaf yolunu, qarşısına qoyduğu məqsədə çatmağın imkanlarını, daxili və xarici şəraiti nəzərə almaq**

**şərti ilə ümumi metodu öyrənməli və ondan öz öləkinin xüsusiyyətlərinə uyğun yararlanmalıdır.**

**İctimai-iqtisadi hadisələrin elmi izahının şərhini vermək mürəkkəb bir məsələdir. Çünki biz həyatda çox mürəkkəb qarışıq, bir-biri ilə çulğaşan və insanların şüurlu hərəkət fəaliyyəti ilə yönəldilən və idarəedilən hadisələr və proseslər aləmi ilə qarşılaşırıq. Belə halda bəs «İqtisadi nəzəriyyə» o cümlədən «Azərbaycan iqtisadiyyatı» bir elm kimi bu zəngin hadisə və prosesləri necə və hansı yollarla öyrənməlidir? Həyat təcrübəsi və elm subut etmişdir ki, bunun ən düzgün yolu əvvəlcə həyat hadisələrini müşahidə etmək, onları dərindən seyr etmək, sonra isə mühüm, qeyri-mühüm, təsadüfi, qeyri-təsadüflərdən ayırlmaqdır. Buna canlı seyr deyilir. Bu iqtisadi hadisə və proseslərin mahiyyətini açmaq, qanun və qanunauyğunluqları öyrənməyin başlanğıcıdır. Ona görə də bundan elmi nəticələr çıxarmaq səhv ola bilər. Çünki bu elmi nəticələr çıxarmaq üçün birinci pillə olsa da kifayət deyil. Lakin onlar üçün materal topladığına görə əhəmiyyətli bir pillədir. Bu iqtisadi nəzəriyyənin metodlarından biridir. Həyat təcrübəsində və elmdə də belədir. Məsələn, hər hansı bir binanı tikmək üçün tikinti materallarının toplanması və digər vəsaitlərin tədarükü vacibdir və yaxud hər bir yaradıcı insan əsər yazmamışdan əvvəl istinad etdiyi faktları əldə etməlidir.**

**İqtisadi nəzəriyyənin mühüm metodlarından biri də elmi avstaksiya metodudur. Bu canlı seyr metodundan sonra gəlir. Burada əsas məsələ canlı seyr zaman toplanan materialları diqqətlə araşdırçmaq, müəyyən sistemə salmaq, burada həyatın başlıca mahiyyətlərini müəyyən etmək, sonra isə onları ümumiləşdirib müəyyən abstraksiyalar, qanunlar və prinsiplər şəklində ifadə etməkdir.**

**Böyük və kiçikliyindən asılı olmayaraq bütün hadisələrin, o cümlədən iqtisadi hadisə və proseslərin çoxlu səbəbləri olur. İqtisadi hadisələrin mahiyyətini açmaq üçün bunların hamısını öyrənmək qeyri-mümkündür. Bunlar çox**

**olduğuna görə bu sahədə hərcmərçlik yaradar və hadisələrin mahiyyətini öyrənmək qeyri-mümkün olar. Bunun aradan qaldırılması üçün əsas səbəbi törəmə, ikinci və üçüncü dərəcəli səbəblərdən ayırmaq və əsas səbəbi ön plana çəkmək vacibdir. Bu sahədə abstraksiya metodunun rolu böyükdür.**

**Elmi avstraksiya insanın təfəkkür prosesində ümumiləşdirdiyi və müəyyn anlayış və kateqoriyalarla ifadə etdiyi bir metoddur. Bu metod vasitəsilə elmin öyrəndiyi hadisələri, onları təsadüfi tərəflərdən təmizləyir və onlarda olan mühüm cəhətləri aşkar edir. Bu yolla elmi təfəkkür abstrak anlayışlar yaratmaqla bizi çoxlu təkrarlardan azad edir və iqtisadi hadisə və proseslərin mahiyyətini dərk etməyi asanlaşdırır. Bu metod gerçək həyatın əsas və həqiqi mahiyyətini aşkara çıxarmaq üçün ümumiləşdirilmiş anlayışlar yaratmağa imkan verir. Məhz «Azərbaycan iqtisadiyyatı»nın predmeti də bu anlayışlar vasitəsilə öyrənilir. Məsələn istehsal sahələri və əmək məsulları o qədər çox və müxtəlifdir ki, indi onları sayıb bitirmək də mümkün deyil. Elm onların bütün konkret tərəflərindən və formalarından asılı olmayan hamının başa düşəcəyi abstrakt anlayışlar yaradır. Məsələn, əmək hamı üçün aydın olan sadə bir şey kimi görünür. Lakin sadə formada görünən bu anlayışa dərindən nəzər salsaq onun arxasında gizli olan konkret məzmun və formalar üzə çıxarılacaqdır. Onun özü də bir abstrak anlayışdır.**

**Beləliklə, abstrakdan konkretə doğru hərəkət etməklə təfəkkür konkret olanı məniməyir, onu konkret olmaq etibarilə məna cəhətcə yenidən canlandırır. Konkretdən abstrakt təfəkkürə, ondan konkretə keçmək bütün iqtisadi münasibətlərin izah və şərh edilməsində mühüm metoddur.**

**İqtisadi nəzəriyyənin metodlarından biri də analiz (təhlil) və sintez metodudur. Analiz zamanı iqtisadi münasibətlər bir vahid tam kimi götürülür və o, elmi təfəkkür yolu ilə müəyyən tərkib hissələrə, tərəflərə ayrılır. Bu halda iqtisadi münasibətlərin hər bir forması ayrılıqda təhlil (analiz)**

edilir, onun mühüm cəhətləri və mahiyyəti konkret olaraq araşdırılır, öyrənilir. Bu zaman məqsəd iqtisadi münasibətlərin müxtəlif tərəflərini daha dərindən öyrənməkdir və bu metod ona yaxşı şərait yaradır. Lakin bütün iqtisadi hadisə və proseslər bir-birilə əlaqədardır və biri digərini şərtləndirirlər. Buna görə də iqtisadi münasibətələrin bir-birilə vəhdət, qarşılıqlı əlaqə şəklində öyrənmək zərurəti yaranır. Bu sintez üsuli ilə mümkündür. Sintez etmək yolu ilə biz müəyyən bütöv bir iqtisadi forma haqqında ümumi bilik əldə edə bilərik.

Məntiq və tarixi metod da iqtisadi nəzəriyyənin üsullarındandır. Belə ki, iqtisadi nəzəriyyə kateqoriya və anlayışları, onların yarandığı tarixi ardıcıllıqla təhlil və şərh edilir. Buna görə də iqtisadi nəzəriyyə iqtisadi hadisələrin törəməsi, inkişafı və dəyişməsi prosesini tarixi baxımından izləyir. Lakin, tarixi inkişaf prosesinin özü çox zaman sıçrayışlar və dolanbac yollarla baş verir. Bunu olduğu kimi qəbul etmək iqtisadi hadisə və proseslərin mahiyyətini öyrənməkdə səhvlərə səbəb ola bilər. Buna görə də iqtisadi nəzəriyyənin predmetinin öyrənilməsində tarixi metodlarla yanaşı məntiqi idrak metodu da əsas götürülür. İqtisadi hadisə və proseslərə məntiqi təfəkkürlə yanaşmaqla tarixi hadisələrin təsiri ilə yaranan sıçrayış və tənəzzülün səbəbləri öyrənilir. Bu metodla müvəqqəti hadisələr nəzərə alınmır və obyektiv iqtisadi qanunauyğunluqlar əsas götürülür. Burada tarixi metodla məntiqi metod bir-biri ilə vəhdət taşkil edir.

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, «Azərbaycan iqtisadiyyatı»nın prodmetinin öyrənilməsində iqtisadi nəzəriyyənin metodlarından istifadə edilən zaman Azərbaycanın müasir vəziyyəti reallıqları, imkanları, daxili və beynəlxalq şərait diqqət mərkəzində olmalıdır. Bu elm Respublikanın iqtisadiyyatını vahid bir orqanizm kimi öyrənilməlidir. Ancaq bilmək lazımdır ki, keçid dövründə çox mülkiyyətli iqtisadiyyatın formalaşması müxtəlif mülkiyyət formalarının olması ilə bağlıdır. Buna görə də ayrı-ayrı

mülkiyyət formalarının zəruriliyi, onların mahiyyəti, iqtisadi sistemdə yeri, strateji vəzifələrin həllində hər birinin rolu və tarixi taleyi ilə bağlı məsələlər təhlil edilməli və onların qarşılıqlı əlaqəsi, qarşılıqlı təsiri, vəhdətliyi sintez halında öyrənilməlidir. Belə bir yolla getməklə Azərbaycanda formalaşmaqda olan iqtisadi mənafelər sistemini öyrənmək və onların reallaşdırılmasının mexanizmini açmaq olar.

Müasir dövrdə Azərbaycanın qarşısında duran başlıca vəzifələrdən biri də milli iqtisadiyyatın strukturunu yenidən milli mənafeyə uyğun formalaşdırmaqdır. Çünki sovet dövründə Azərbaycanın milli iqtisadiyyatının strukturu Azərbaycan xalqının milli mənafeyinə yox, sovet dövlətinin mənafeyinə uyğun qurulduğundan əhalinin həyat səviyyəsi çox aşağı olmuşdur.

Azərbaycanda iqtisadiyyatın strukturu elə bir hala gətirilməlidir ki, birincisi, o sağlam milli iqtisadiyyatın formalaşmasına xidmət etsin və onun başa çatmasına nail olunsun. İkincisi, bazar iqtisadiyyatının əsaslarının yaradılması və bazar münasibətləri sisteminə maddi-texniki şərait və iqtisadi təminat yarada bilsin. Üçüncüsü, bu elə bir struktur olmalıdır ki, əhalinin tələbatlarının ödənilməsini təmin etməyə imkan verən bir iqtisadiyyat formalaşsın.

«Azərbaycan iqtisadiyyatı» iqtisadi hadisə və prosesləri makro səviyyədə öyrənməklə qala bilməz. Mikro səviyyədə fəaliyyət göstərən müəssisələr, firmalar, birliklər, kooperativlər və hətta fərdi istehsalçılar da xalqımızın milli sərvətinin, ümumi milli məhsulun və milli gəlirin yaranmasında, bölgüsü, mübadiləsi və istehlakında fəal iştirak edirlər, onlar bazar subyektləridir. Respublika büdcəsinin formalaşdırılması onların fəaliyyəti sayəsində mümkün olur. Bütün bunlara görə mikro iqtisadiyyatın cəmiyyətin inkişafında rolu hərtərəfli öyrənilməlidir.

«Azərbaycan iqtisadiyyatı» elminin çox mühüm vəzifələrindən biri də cəmiyyətin ümumi iqtisadi inkişaf qanunauyğunluqlarını öyrənmək və bunları dərk etməyə

kömək məqsədilə əhalini iqtisadi biliklərlə silahlandırmaqdır. Çünki bu obyektiv qanunauyğunluqları dərk edə bilməyən millət təbii inkişaf yolundan sapdırıla bilər. Məsələn, Rusiyada vaxtından əvvəl, bazar iqtisadi sisteminin maddi əsası olan sənayenin inkişafı yüksək mərhələyə çatmamış sosializm qurmaq iddiasına düşmək bu millət üçün çoxlu problemlər yaratmışdır.

## Мянимсямяни йохламаг цчцн суаллар вя тапшырыглар

1. Sağlam və qeyri-sağlam milli iqtisadiyyatın tərifini verin.

2. Sağlam milli iqtisadiyyatı formalaşdırmağın şərtləri hansılırdır?

3. Sağlam milli iqtisadiyyatın formalaşmasında sağlam mənəviyyatın əsas sütunu olan ağılın rolunu şərh edin.

4. Azərbaycanın geopolitik məkanın milli iqtisadiyyatın formalaşması və inkişafına müxtəlif təsirini izah edin.

5. «Azərbaycan iqtisadiyyatı» elminin öyrənilməsinin zəruriliyini sərh edin.

6. İndiki dövrdə Azərbaycan xalqının milli şüurunun və iqtisadi təfəkkürünün aşağı olmasının səbəblərini və onların yüksəldilməsində «Azərbaycan iqtisadiyyatı» elminin öyrənilməsinin əhəmiyyətini təhlil edin.

7. «Azərbaycan iqtisadiyyatı» elminin vəzifələrini sayın və onun hər birini ayrılıqla izah edin.

8. «Azərbaycan iqtisadiyyatı» elminin predmetinin tərifini verin.

9. İqtisadi elmlərini təsnifləşdirin və bu sistemdə «Azərbaycan iqtisadiyyatı»nın yerini müəyyənləşdirin və onun iqtisad elmlərinin metodoloji əsası olduğunu sübüt edin.

10. «Azərbaycan iqtisadiyyatı» elminin öyrənilməsində hansı metodlardan istifadə olunur? onları sayın və hər birinı ayrılıqda vəzifəsini və əhəmiyyətini sərh edin.

## Мцзакиря цчцн суаллар вя тапшырыглар

1. Müasir dövrdə Azərbaycanın milli iqtisadiyyatını hansı milli iqtisadiyyata aid etmək olar və onun səbəbləri hansılardır?

2. Keçid dövründə Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasının yollarını və vasitələrini göstərin.

3. İqtisadi müstəqillik nədir və onun formalaşması nə üçün zəruridir?

4. İqtisadiyyatla mənəviyyatın qarşılıqlı əlaqəsinin dialektikası müddəasını necə başa düşürsünüz və sağlam mənəviyyatın milli iqtisadiyyatın formalaşması və inkişafında rolu nədən ibarətdir.

5. «İqtisadi nəzəriyyə» elmi ilə «Azərbaycan iqtisadiyyatı» elminin predmetinin ümumi və fərqli tərəflərini təhlil edin.

6. «Azərbaycan iqtisadiyyatı» elminin predmetinin öyrənilməsində onun metodunun rolu və əhəmiyyəti nədən ibarətdir?

# 2-жи МЮВЗУ: БИР ИГТСАДИ СИСТЕМИН ИНКИШАФ ЕДЯРЯК ДИЭЯРИНЯ КЕЧИДИН ЦМУМИ ИГТИСАДИ ГАНУНАУЙЬУНЛУГЛАРЫ

## § 1. Игтисади ганунлар, онларын обйектив характеринин дярк едилмясинин игтисадиййатын инкишафында ролу

Qanunauyğunluq müəyyən qanuna tabe olmaq anlamında işlədilir. Ümumi iqtisadi qanunauyğunluq da eyni anlamı verir. Lakin bu anlayış hər hansı bir spesifik və yaxud ümumi iqtisadi qanunun fəaliyyətindən və tələbindən çox genişdir. Çünki iqtisadi qanunların fəaliyyət dairəsi və tələbi

**bir-birindən müəyyən dərəcədə fərqlənsələr də hamısı bir-birilə qarşılıqlı əlaqədə və asılılıqda fəaliyyət göstərirlər. Onların bir-birindən ayrılıqda fəaliyyət göstərmələrini təsəvvürə gətirmək olmaz. Onların fəaliyyəti bir-birini şərtləndirir və tamamlayır. Deməli, ümumi iqtisadi qanunauyğunluq bir iqtisadi qanuna tabe olmur, bütün iqtisadi qanunların məcmusunun tələblərinə tabe olur. Bütün iqtisadi qanunların fəaliyyəti isə bir nöqtədə birləşir. Bu iqtisadiyyatın «görünməz əl» vasitəsilə idarə olunması və onun inkişafını təmin etməkdir. Bu müddəanı təsdiq etmək üçün ümumi iqtisadi qanunların bir-birini şərtləndirmələrinə qısaca nəzər salaq. Məsələn, tələbatın artması ümumi iqtisadi qanunun fəaliyyəti tələb edir ki, əhalinin tələbatı mövcud dövrə nisbətən daha dolğun ödənilsin. Buna nail olmaq üçün daha çox və keyfiyyətli məhsul istehsal edilməlidir. Cəmiyyət bunu əldə etmək məqsədilə texnika və texnologiyanı təkmilləşdirir, daha müasirlərini yaradır və istehsala tətbiq edir. Bu isə daha bir ümumi iqtisadi qanun olan əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur. Bu isə məhsuldar qüvvələrin inkişafına mühüm təsir göstərən əsas amildir. Bunun nəticəsində məhsuldar qüvvələrin bir tərəfi olan istehsal vasitələrinin inkişafı sürətlənir, onun inkişafı iqtisadi münasibətləri qabaqlayır. Bu zaman iqtisadi münasibətlərin təkmilləşdirilməsi, onu məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğunlaşdırmaq zərurəti yaranır, əks halda mövcud iqtisadi münasibətlər məhsuldar qüvvələrin inkişafında buxova çevrilə bilər. Bu funksiyanı başqa ümumi iqtisadi qanun olan iqtisadi münasibətlərin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğunluğu ümumi iqtisadi qanunu tənzimləyir. Bu fasiləsiz, daim bir prosesdir.**

**Beləliklə, ümumi iqtisadi qanunauyğunluq müəyyən bir ümumi qanuna tabe olmaq deyil, nəinki ümumi iqtisadi qanunların hamısına, habelə spesifik və xüsusi iqtisadi qanunların toplusunun tələblərinə tabedir. Ona görə ümumi**

**iqtisadi qanunauyğunluq da o hər hansı bir ayrıca götürülmüş iqtisadi qanunun fövqündə durur və obyektiv gerçəkliyi özündə daha yaxşı ifadə edir. Bu baxımdan heç kim, o cümlədən heç bir millət və onun dövləti ümumi iqtisadi qanunauyğunluqların tələbənin əksinə getməməli, əksinə cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarını dərk etməli və öz fəaliyyətini onun tələblərinə uyğun qurmalıdır.**

**Deyilənləri aşağıdakı kimi ümumiləşdirmək olar. Belə ki, iqtisadi qanun anlayışı ayrı-ayrı iqtisadi hadisə və proseslər arasındakı əlaqələri əks etdirdiyi halda ümumi iqtisadi qanunauyğunluq ümumi iqtisadi qanunların, habelə spesifik iqtisadi qanunların bir-birilə qarşılıqlı iqtisadi əlaqələrini bir istiqamətə – dinamik inkişafa yönəldilən insan fəaliyyətini əks etdirir. Onları daha yaxşı dərk etməklə cəmiyyətə, təsərrüfat rəhbərlərinə daha düzgün və elmi seçməyə imkan verir. Deməli, iqtisadi qanunların dərk edilməsi və onlardan təsərrüfat quruculuğunda istifadə olunması mücərrəd deyil, o həm də milyonların canlı yaradıcılığının daha müvəffəqiyyətlə idarə olunması, onların əməyinin səmərəli təşkil olunması zərurətindən irəli gələn obyektiv bir prosesdir.**

**Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanın iqtisadiyyatının və mənəviyyatının çətin vəziyyətə düşməsində marksizmin iqtisadi qanunların və ümumi iqtisadi qanunauyğunluqların tələbinə əhəmiyyət verməməsi müstəsna rol oynamışdır. Buna görə də bu haqda marksist-leninçi iqtisadi təliminə yenidən baxmaq, onun qüsurlarını aşkara çıxarmaq mühüm elmi və praktiki əhəmiyyət kəsb edir.**

**Bəşər cəmiyyətinin inkişaf tarixi sübut etmişdir ki, insan cəmiyyətinin iqtisadi inkişafı daimi, fasiləsiz olaraq aşağıdan yuxarıya doğru irəliləmə deməkdir. Lakin bu inkişafın eyni sürətlə irəliləməsini iddia etmək olmaz. Tarixin müəyyən məqamlarında iqtisadi inkişafda büdrəmələr, ləngimələr, təbiidir ki, sıçrayışlar da olmuş, mövcuddur və gə-**

ləcəkdə də olacaqdır. Bir qayda olaraq bu hal müvəqqəti xarakter daşımış, bir sistemdən digərinə keçid müddətini müəyyən qədər azalıb və ya artırsa da, əsas amil olmamışdır və ola da bilməz. Əsas amil hər bir mövcud iqtisadi sistemin daxilində məhsuldar qüvvələrin daim və fasiləsiz inkişafı nəticəsində özündən sonrakı iqtisadi sistemin sosial-iqtisadi amilləri və şərtləri formalaşmış və bunun əsasında təkamül yolu ilə bir iqtisadi sistem özündən daha mütərəqqi iqtisadi sistemə keçmişdir.

Bir iqtisadi sisteminin inkişaf edərək daha mütərəqqi sistemə keçməkdə elm, o cümlədən iqtisadi qanunların rolu böyükdür. Bunun üçün hər şeydən əvvəl insanlar bu qanunların mövcudluğunu dərk etməli, onların iqtisadiyyatın inkişafında əhəmiyyətli roluna inanmalı və istifadə etməyi bacarmalıdır. Bu baxımdan iqtisadi qanunların mahiyyətini bilmək vacib məsələlərdəndir.

Ən ümumi şəkildə götürüldükdə qanun, o cümlədən iqtisadi qanun hadisələrin, şeylərin daxili mahiyyətidir. Bütün hadisələr, həmçinin iqtisadi hadisə və proseslər bir-biri ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində, daxili inkişaf və hərəkətdə fəaliyyət göstərirlər. Lakin bunların arasında təsadüfi, keçici, bir an fəaliyyətdə olan hadisə və əlaqələr də mövcuddur. Qanun isə baş verən hadisə və proseslər arasındakı hər cür əlaqəni deyil, onlarda daim qalan, təkrar olunan, sabit olan ən mühüm səbəb-nəticə əlaqələrini ifadə edir. Bu deyilənlərdən nəticə çıxararaq iqtisadi qanuna aşağıdakı tərifi vermək olar. İqtisadi qanun iqtisadi hadisə və proseslər arasında təsadüfi yox, daim, sabit, təkrar olunan mahiyyəti özündə əks etdirən əlaqədir. Deməli, iqtisadi qanun hadisələrin bütün cəhətlərini və tərəflərini yox, onlardakı ən mühüm mahiyyəti əks etdirir.

Təbiət və cəmiyyət çox geniş və zəngin, keçici və sabit hadisələrlə doludur. Qanun isə bu hadisələr aləminin mühüm mahiyyətini ifadə etdiyinə görə, o həyat hadisələrinə nisbətən daha məhdud anlayışdır. Bu bütün elm qanunlarına, o

cümlədən iqtisadi qanunlara xas olan xüsusiyyətdir. Bu xüsusiyyət hüquqi qanunlara da aiddir. Çünki həyat halisələri o qədər zəngin və rəngarəngdir ki, onların hamısını hüquqi qanunlarda əks etdirmək qeyri-mümkündür. Ona görə də dövlətlər qəbul etdikləri hüquqi qanunları vaxtaşırı təkmilləşdirməyə və əlavələr etməyə məcburdur. Lakin iqtisadi qanunlara düzəliş və əlavələr etmək yox, onun dərk olunmasında və istifadəsində irəliləşyiş ola bilər.

Yuxarıda göstərilən xüsusiyyətə bayxmayaraq bütün elm qanunlarında oluduğu kimi iqtisadi qanunların ümumi cəhəti odur ki, onlar obyektiv gerçəkliyin nəzəri ifadəsidir. Başqa sözlə, həm təbiət, həm də cəmiyyətdə elm qanunları obyektiv xarakter daşıyır. Lakin cəmiyyətin iqtisadi münasibətlərini ifadə edən qanunlar insanların iqtisadi fəaliyyətində meydana çıxır və onların iştirakı olmadan fəaliyyət göstərə bilməzlər.

İqtisadi qanunların obyektiv xarakter daşıması o deməkdir ki, təbiət qanunlarında olduğu kimi insanlar, iqtisadi qanunları nə yarada, nə də məhv edə bilməzlər. Onlar müəyyən tarixi şəriatlə əlaqədar olaraq yaranır və fəaliyyət göstərirlər, həmin şərait aradan qalxdıqdan sonra onlar da öz yerlərini digərlərinə verirlər. Lakin bu heç də elə anlamı vermir ki, insanlar iqtisadi qanunların qarşısında acizdirlər və onlar toxunulmazdır. Əksinə iqtisadi qanunlar dərk ediləndir, insanlar onun mahiyyətini dərk edə bilərlər və ondan öz məqsədləri üçün səmərəli istifadə edə bilərlər və etməlidirlər.

İqtisadi qanunların dərk edilməsi bütün insanlara deyil, yalnız sağlam mənəviyyata malik olan insanlara məxsusdur. Sağlam mənəviyyatlı adam dedikdə ağılı yüksək olan, ədalətlilik prinsiplərini öz fəaliyyətində əsas götürən halal zəhmətlə dolanmağı qarşısına məqsəd qoyan insanlar nəzərdə tutulur. Elmilik də sağlam mənəviyyatın tərkib hissəsinə daxildir. Çünki cəmiyyətin inkişafının ümumi qanunauyğunluğunun elmi əsaslarını bilmədən iqtisadi qanunların tələbini bilmək və onların özünün və cəmiyyətin

xeyrinə istifadə etmək mümkün olmaz. Lakin bu müddəa tam mənasında əsas deyil. Çünki elmin əsaslarını bilmək o vaxt müsbət nəticə verə bilər ki, elmin əsaslarını bilən subyekt, eyni zamanda sağlam milli mənəviyyata malik olsun. İndiki keçid dövründə tanınmış alimlərin və müxtəlif sahələrdə olan yaradıcı adamların öz şəxsi mənafelərinə görə yalan, böhtan yazdıqları, məddahlıq etdikləri göz qabağındadır, hüquq-mühafizə orqanlarında işləyən bəzi məmurların rüşvət almaları, korrupsiyaya qurşanmaları onların elmi bilməmələrindən əmələ gəlmir, əksinə, onların əksəriyyəti cinayət məcəlləsinin maddələrini hamıdan yaxşı bilirlər. Deməli, xüsusi təhsili və elmi biliyi olmayan insanlar da iqtisadi qanunları dərk edə və öz xeyrinə səmərəli istifadə edə bilərlər. Bunun səbəbi odur ki, insanın sağlam mənəviyyatının əsası ağıl olduğundan, ağıllı adamlar həyat təcrübəsində dəfələrlə görürlər ki, yalançılıq, yaltaqlıq, oğurluq, rüşvətxorluq və sair pis yollarlara var-dövlət qazanmağın xeyri yoxdur, gec-tez hansı formadasa bu cür adamdar ifşa olunurlar və ondan axıra kimi faydalana bilmirlər. Ən yaxşı yol «Quranın» göstərdiyi halal zəhmətlə qazanılan maddi nemətdir. Ona görə də ağıllı adamlar rüşvət almaqla, fırıldaqla çoxlu var-dövlət, vəzifə, elmi adlar, titullar əldə etmək imkanı olsa da, bundan imtina edir. Və halal zəhmətlə yaşamağa üstünlük verirlər. Bu yol insanlara Allahın verdiyi ömrü tam və şərəflə yaşamağa imkan yaradır. Bunun əksinə hərəkət edənlər isə daha çox varlanmaq xatirinə intiriqalara, dava-dalaşlara qoşulur, əsəb sistemi, sağlamlığı pozulur və nəticədə Allahın verdiyi ömrün hamasını yaşaya bilmirlər.

Təbiət qanunları obyektiv xarakter daşısa da, onlar da dərk ediləndir, insanlar heç də həmişə təbiətin qanunları əsasında baş verən dağıdıcı qüvvələrin qarşısında aciz deyil, insanlar onu ram etmək və onlardan öz mənafelərinə uyğun istifadə etməyə qadirdilər. Məsələn, vaxtilə Kür çayının daşıması nəticəsində Azərbaycanın bəzi kəndləri suyun altında qalmış, əkin sahələrini su basaraq məhv etmiş, daşqın

nəticəsində göllər yaranmış, ağcaqanadlar peyda olmuş, onlar qızdırma xəstəliyi yaratmışlar. Lakin sonralar elmin, texnikanın inkişafı nəticəsində Kürün bu dağıdıcı qüvvələri buxovlanmış, zyian verən təbii qüvvə xeyir verən qüvəyə çevrilmişdir. Belə ki, Mingəçevirdə su elektrik stansiyası tikilmiş, Mingəçevir su anbarı yaradılmış və buradan su kanalları çəkilmişdir. Bu işin görülməsi nəticəsində Azərbaycan həm elektrik enerjisi istehsalını artırmış, həm də suvarılmayan torpaqlara su çəkməklə əkin sahəsini genişləndirilmiş, çox su tələb edən pambıqçılığın inkişafına əlverişli şərait yaradılmışdır. Bu heç də təbiətin qanunlarının qarşısının alınması deyil, sadəcə olaraq onun dərk edilməsi və ondan iqtisadiyyatı inkişaf etdirmək istəyindən irəli gəlmişdir.

Bu o deməkdirmi ki, insanlar bununla təbiət qanunlarını, elm qanunlarını ləğv etdilər, yeni təbiət qanunları, yeni elm qanunları yaratdılar? Əlbəttə yox, iş ondadır ki, suyun dağıdıcı qüvvələrinin fəaliyyətinin qarşısını almaq və onlardan cəmiyyətin mənafeyi üçün istifadə etmək sahəsindəki bütün bu əməliyyat – elm qanunlarını əsla pozmadan, dəyişdirmədən və ya puç etmədən, yeni elm qanunları yaratmadan başa gəlir. Əksinə, bütün bu əməliyyat tamamilə təbiət qanunları, elm qanunları əsasında həyata keçirilir, çünki təbiət qanunlarının hər hansı bir şəkildə pozulması, onların azacıq da olsa pozulması yalnız işin korlanmasına, əməliyyatın pozulmasına səbəb olardı.

Bunu eynilə iqtisadi inkişaf qanunları, o cümlədən iqtisadi nəzəriyyə qanunları haqqında demək lazımdır, - fərqi yoxdur, istər kapitalizm dövründən bəhs olunsun, istərsə də sosializm dövründən. Beləliklə, yuxarıda deyilənlərə qısaca olaraq belə yekun vurmaq olar: - təbiətşünaslıqda olduğu kimi burada da iqtisadi inkişaf qanunları, insanların iradəsindən asılı olmayaraq baş verən iqtisadi inkişaf proseslərini əks etdirən obyektiv qanunlardır. İnsanlar bu qanunları dərk edə bilərlər və onlara istinad edərək onlardan cəmiyyətin mənafeyi üçün istifadə edə bilərlər, bəzi qanunların dağıdıcı

fəaliyyətinə başqa istiqamət verə bilərlər, onların fəaliyyət dairəsini məhdudlaşdıra bilərlər, özünə yol açmaqda olan başqa qanunlara geniş meydan verə bilərlər, lakin insanlar bu qanunları puç edə bilməzlər, yaxud yeni iqtisadi qanunlar yarada bilməzlər.

İqtisadi qanunların xüsusiyyətlərindən biri bundan iabərtdir ki, onun qanunları, təbiətşünaslıq qanunlarından fərqli olaraq, uzun müddət davam etmir, onlar hər halda onların çoxu, müəyyən tarixi dövr əvəzində fəaliyyət göstərir, bundan sonra öz yerini yeni qanunlara verir. Lakin bu qanunlar puç edilmir, yeni iqtisadi şərait üzündən öz qüvvəsini itirir və meydandan çəkilib öz yerini yeni qanunlara verir, bu yeni qanunlar isə insanların iradəsi ilə yaradılmır, yeni iqtisadi şərait əsasında meydana çıxır.

İqtisadi qanunların digər xüsusiyyəti isə ondan ibarətdir ki, onlar insanların fəaliyyəti ilə əlaqədar olduğundan onların tələblərinin pozulmasının mənfi nəticələri dərhal özünü göstərmir, proses gizli getdiyindən müəyyən müddətdən sonra təzahür edir, bu kəmiyyətin keyfiyyətə keçməsi qanunu əsasında baş verir.

Bəşəriyyət tarixində heç vaxt bir ictimai iqtisadi formasiya digərinə inqilabi yolla keçməyib, bunun yeganə yolu təkamül inkişafdır. Lakin lazım gəlsə mühafizəkar qüvvələrə müəyyən qədər güc tətbiq etmək olar. Bu şərtlə ki, bu onları kütləvi surətdə məhv etməyə yox, geri çəkilməyə xidmət etmiş olsun. Bu ümumi iqtisadi qanunauyğunluğu V.İ.Lenin pozduğuna görə onun qurduğu iqtisadi sistemin ömrü çox qısa oldu və kənardan heç bir güc tətbiq etmədən özü dağıldı, kapitalizm isə neçə əsrdir yaşayır və inkişaf edir.

Dəyər qanunu əmtəə istehsalı ilə əlaqədar fəaliyyət göstərən iqtisadi qanunlardan biridir. Sosialist sistemində əmtəə istehsalının mövcudluğu iddia olunurdu. Lakin dəyər qanunun fəaliyyəti və tələbi nəzərə alınmırdı. Kommunistlər iddia edirdilər ki, sosializm bütün ictimai-iqtisadi formasiyaların fövqündə durduğuna görə onlar bütün

**qanunları, o cümlədən iqtisadi qanunları yarada və məhv edə bilərlər. Onlar bunun səhv olmasını XX əsrin ortalarında sözdə etiraf etsələr də həyatda ona əməl etməmişlər. Belə ki, bazar iqtisadi sistemi şəraitində qiymət bazarda tələb və təklif qanunlarının tələbi əsasında formalaşdığı halda sosializmdə qiymət dövlət orqanlarının istəyi ilə qoyulurdu. Burada siyasi ambisiyalar əsas götürülür, mikro səviyyədə istehsalçının maddi marağı nəzərə alınmır, çox hallarda qiymət nəinki dəyərindən, hətta maya dəyərindən aşağı olurdu. Bu isə əmtəə istehsalı ilə əlaqədar olaraq fəaliyyət göstərən iqtisadi qanunların – dəyər qanunu, tələb və təklif qanunlarının tələblərinə zidd idi. Bazar qanunları tələb edir ki, qiymət hökmən maya dəyərindən yüksək olmalıdır ki, müəssisə mənfəət götürə bilsin. Əks halda müəssisə zərərlə işləyir, istehsalın nəticəsinə maddi maraq sönür və müəssisə iflasa uğrayır. Bunun səhv olduğunu sovet imperiyası yalnız 30-40 ildən sonra dərk etdi. Amma bu gec olduğundan bu sistemin iflasının qarşısını almaq mümkün olmadı.**

**Dərk edilmiş, öyrənilmiş iqtisadi qanunlar dövlətin iqtisadi sisteminin əsasını təşkil etməlidir. Müstəqilliklərinin ilk illərində MDB məkanında yaradılmış respublika parlamentində iqtisadi islahatlara aid olan qanunları iqtisadi qanunlar adlandırırdılar. Bu kütləvi mətbuat orqanlarında da təbliğ olunmuşdur. Nəzərə almaq lazımdır ki, parlamentlərin qəbul etdiyi qanunlar yalnız hüquqi qanunlardır. Bu qanunlar işləyə də bilər, işləməyə də, onları daim dəyişdirib yenisi ilə əvəz etmək də o qədər çətin deyildir. Buna görə də bu qanunlara subyektiv iradə baxımından yanaşılması yanlışdır və bu qanunları iqtisadiyyatın obyektiv inkişaf qanunları ilə eyniləşdirmək olmaz.**

**Cəmiyyətin inkişaf təcrübəsi, onun ardıcıl keçdiyi mərhələlər onu göstərir ki, ibtidai cəmiyyətdən sonra gələn və bir-birini əvəz edən inkişaf mərhələlərin (ictimai-iqtisadi formasiyaların) ardıcıl inkişafını təmin edən ümumi iqtisadi qanunlar çoxdur. Lakin ayrı-ayrı dövlətlərdə və iqtisadi**

sistemlərdə fəaliyyətə başlayan xüsusi qanunlar da vardır. Məsələn, icma quruluşunda iqtisadi və təbii zərurətdən doğan məhsulların bölgüsündə bərabərçilik qanunu sonrakı inkişaf mərhələlərində öz qüvvəsini itirmişdir.

İctimai mülkiyyətə əsaslanan sosializm sistemində fəaliyyət göstərən qanun və kateqoriyaların çoxu bu cəmiyyətin xüsusi, spesifik qanunları kimi əsaslandırıldı. Hətta köhnə cəmiyyətlərdən sosializm iqtisadiyyatına keçmiş iqtisadi qanunlara, kateqoriya və prinsiplərə yeni məzmun, yeni elmi təriflər verilirdi. Əmək məhsuldarlığının dönmədən artması, əməyə görə bölgü və s. yeni məzmuna malik olan spesifik iqtisadi qanunlar kimi xarakterizə edilirdi. Buna baxmayaraq bu qanunlara praktikada əməl edilmirdi. Hər şey vahid plan əsasında qəti qaydalarda, əmr formasında müəyyən edilib həll olunurdu. Məhz iqtisadi qanunların tələblərinə əməl edilmədiyinə görə sosializmin sovet modeli qısa vaxtda dağıldı.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, insanların istək və arzularından asılı olmayaraq iqtisadi qanunlar mövcud olur və fəaliyyət göstərirlər, hansı insan, millət, dövlət onların mövcudluğunu dərk edir, öz iqtisadi fəaliyyətində onların tələblərini nəzərə alır, onunla hesablaşır və onlara əməl edirlərsə, iqtisadiyyatın inkişafında, təbiidir ki, həm də bütün sahələrdə uğurlar qazanırlar, bunun əksinə edənlər isə məyus olurlar.

## § 2. Бир игтисади системин инкишаф едяряк диэяриня кечиддя тялябатын артмасы цмуми игтисади ганунун фяалиййятинин ящямиййяти

Cəmiyyətin inkişafının bu və ya digər inkişaf mərhələsinin xüsusi iqtisadi qanunlarından başqa, həmçinin cəmiyyətin bütün inkişaf pillələri üçün vahid, ümumi olan iqtisadi qanunlar da mövcuddur. Bu onunla izah olunur ki,

ictimai istehsal münasibətlərində elə mühüm, daimi, zəruri əlaqələr mövcuddur ki, onlar bu münasibətlərin spesifik xarakterindən asılı deyildir və deməli cəmiyyətin bütün inkişaf pillələrində fəaliyyət göstərirlər. Bunlara iqtisadi münasibətlərin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu qanunu, tələbatın artması qanunu, əmək məhsuldarlığının yüksəldilməsi və başqaları daxildir. Bu iqtisadi qanunlar, habelə spesifik iqtisadi qanunlar bir-birindən təcrid olunmuş halda deyil, qarşılıqlı əlaqə və asılılıqda və bir-birini şərtləndirmə əsasında fəaliyyət göstərirlər. Lakin bir iqtisadi sistemdən digərinə keçiddə başlanğıc rolunu tələbatın artması ümumi iqtisadi qanunu oynayır. Çünki tələbatın artması qanunun tələbi məhsuldar qüvvələrin inkişafına səbəb olur, məhsuldar qüvvələrin inkişafı da iqtisadi münasibətlərin təkmilləşdirilməsini tələb edir. Bunlar fasiləsiz və sonsuz prosesdir.

İnsanlar öz tələbatlarını əvvəlkinə nisbətən daha yaxşı ödəmək məqsədilə istehsalı daim inkişaf etdirməyə, mütərəqqi texnikanı yaratmaq və istehsala tətbiq etməyə, istehsalın təşkilini və idarə edilməsini təkmilləşdirməyə, istehsalın inkişafı isə artan tələbatı əvvəlkinə nisəbətən daha dolğun ödənilməsinə yönəldilir. Bu prosesdə istehsalın inkişafı tələbatın artması ilə qarşılıqlı əlaqədə olur, onlar bir-birinə təsir göstərir və biri digərini şərtləndirir. Deməli, istehsal artan tələbatı ödəmək məqsədilə inkişaf etdirilir. Lakin tələbat da öz yerində saymır, o, nəinki artır, hətta istehsaldan daha sürətlə irəliləyir. Məhz tələbatın daha sürətlə artması istehsalı inkişafa sövq edir. İstehsalın inkişafı da tələbatın artmasına səbəb olur, yəni istehsal yeni tələbat yaradır. Məsələn, istehsal hər hansı mövcud əmtəədən daha keyfiyyətli və başqa üstünlüklərə malik olan və yaxud onu əvəz edən başqa əmtəələr yaradıb istehlakçılara təqdim etməklə yeni tələbat yaradır. Rəngli televizorların istehsalı ağ-qara televizorlara olan tələbatı azaldaraq yeni tələbat yaratmışdır.

**Belə qarşılıqlı əlaqə, asılılıq və qarşılıqlı təsir fasiləsiz prosesdir və təkamül inkişafın əsasında durur.**

**Tələbatın təşəkkül tapması, artması və eləcə də ödənilməsi bilavasitə insanların əmək fəaliyyəti ilə bağlıdır. Tələbat insanlar arasında baş verən birgə ictimai fəaliyyətin bilavasitə məhsulu kimi çıxış edir. Məhz bu baxımdan tələbat insanlar arasında baş verən iqtisadi münasibətlər prosesində meydana gəlir. Bu cəhətdən tələbat ictimai təkrar istehsal prosesinin bütün momentləri – istehsal, bölgü, mübadilə və istehlak prosesi ilə bilavasitə dialektik vəhdət təşkil edir. Bu vəhdət və asılılıq özünü çox müxtəlif formalarda göstərir və əks etdirir.**

**Tələbatla istehsal təkrar istehsalın müxtəlif momentləri arasında qarşılıqlı əlaqə və asılılıq özünü ilk növbədə istehsal prosesində göstərir. Belə qarşılıqlı əlaqə və asılılıq iki formada meydana çıxır. Əvvəla, tələbat bilavasitə istehsalın məhsulu kimi meydana çıxır və eləcə də o istehsalın inkişafı nəticəsində daim artır və onun miqyasını genişləndirir. İkincisi, tələbatın təşəkkülü və artması cəmiyyətdə yeni fəaliyyət sahələrinin yaranmasını obyektiv zərurətə çevirmiş olur. Deməli, tələbat özlüyündə istehsalın məhsulu kimi təşəkkül tapması ilə yanaşı, o eyni zamanda cəmiyyətdə yeni fəaliyyət sahələrinin yaranmasının obyektiv şərti kimi çıxış edir. Beləliklə, təkrar istehsal prosesində tələbatla istehsal arasında daim təkrarlanan qarşılıqlı əlaqə və asılılıq yalnız tələbatın istehsalın məhsulu kimi meydana çıxması və onun inkişafı əsasında artmasında deyil, bu artan tələbatın həm də istehsal nəticəsində ödənilməsində özünü göstərir.**

**Tələbatın artması insanı mövcud istehsal alətlərini təkmilləşdirməyə, maddi və mənəvi nemətlərin artırılmasına təkan verir və istehsalın daha yaxşı təşkilinə sövq edir. Bu isə məhsuldar qüvvələrin inkişafına səbəb olur. Məhsuldar qüvvələrin inkişafı iqtisadi münasibətlərin təkmilləşdirilməsini, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğunlaşmağı tələb edir. Buradan aydın olur**

ki, iqtisadi münasibətlərin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğunluğu qanunu öz başlanğıc fəaliyyətini tələbatın artması qanunundan götürür və onunla eyni zamanda qarşılıqlı əlaqədə və asılılıqda fəaliyyət göstərirlər və bir-birini şərtləndirirlər.

Bir iqtisadi sistemin inkişaf edərək daha mütərəqqi iqtsadi sistemə keçməyin ümumi iqtisadi qanunauyğunluqlarından biri onun maddi ilkin şərtlərinin mövcud iqtisadi sistemin daxilində formalaşmasıdır. Bu hadisə iqtisadi münasibətlərin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu ümumi iqtisadi qanunun tələbi əsasında baş verir. Çünki məlum olduğu kimi istehsal üsulunun bir tərəfi olan məhsuldar qüvvələr iqtisadi münasibətlərə nisbətən daha çevikdir və ona nisbətən daha sürətlə inkişaf edir. Bu isə tələbatın artması ümumi iqtisadi qanunun fəaliyyəti ilə bağlıdır. Belə ki, insan öz artan tələbatını daha dolğun ödəmək məqsədilə istehsal vasitələrini təkmilləşdirməyə, istehsalın təşkilinin yeni, mütərəqqi formasını axtarıb tapmağa, istehsal təcrübəsini, biliyini artırmağa məhkumdur. Əks halda istehsalı inkişaf etdirmək mümkün olmaz. İnsan şüurlu, ecazkar bir varlıq olduğundan qarşısına qoyduğu məqsədə nail olmaq üçün fikirləşir, axtarır və gec-tez elmdə, texnikada, istehsalın təşkilində yeniliklər edir, eyni zamanda özünün biliyini, təcrübəsini artırır. Bunun nəticəsində məhsuldar qüvvələrin inkişafı iqtisadi münasibətləri qabaqlayır. Bu zaman iqtisadi münasibətləri təkmilləşdirərək onu məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğunlaşdırılması zərurəti yaranır. Çünki istehsal üsulunun hər iki tərəfi vəhdətdə olmalıdır, bunlar birləşməsələr maddi nemətlər istehsalı mümkün olmaz. İstehsalın təşkilatçıları iqtisadi münasibətləri təkmilləşdirməklə bu ziddiyyəti müəyyən vaxta qədər aradan qaldırırlar. Lakin müəyyən müddətdən sonra bir istehsal üsulu daxilində bu mümkün olmur, iqtisadi münasibətlər məhsuldar qüvvələrin inkişafında yenə buxova çevrilir. Bunun həllinin yeganə yolu özündən

daha mütərəqqi iqtisadi sistemə keçməkdir. Başqa sözlə kəmiyyət dəyişmələri keyfiyyət dəyişmələri ilə əvəz olunmalıdır.

Kapitalizm cəmiyyətinin maddi ilkin şərtləri də yuxarıda adı çəkilən ümumi iqtisadi qanunların fəaliyyəti nəticəsində yaranmış və bir iqtisadi sistem kimi iqtisadi münasibətlər məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğun gəldiyinə görə iqtisadi inkişafı sürətləndirmişdi. Bunun mərkəzində istehsalçının istehsalın nəticəsinə maddi marağının olması və məsuliyyəti durur. K.Marks və F.Engels yazmışlar: «Burjuaziya yüz ildən az bir müddətdən bəri davam edən öz sinfi hökmranlığı zamanı bütün əvvəlki nəsillərin yaratdıqlarının hamısından sayca daha çox və daha əzəmətli məhsuldar qüvvələr yaratmışdır. Təbiət qüvvələri insana tabe edilmiş, maşınlı istehsal yaradılmış, sənaye və əkinçilikdə kimya tətbiq edilmiş, buxar gəmiləri işə salınmış, dəmir yolları, elektrik teleqrafı çəkilmiş, yer üzünün ayrı-ayrı qitələrində əkinçilik üçün istifadə edilməyə başlanmış, çaylar gəmiçilik üçün yararlı hala salınmışdır, sanki yer altından böyük əhali kütlələri meydana gəlmişdir, keçən əsrlərdə hansı guman edərdi ki, ictimai əmək daxilində bu qədər məhsuldar qüvvələr vardır.

Beləliklə, biz gördük ki, burjuaziyanın əmələ gəlməsi üçün əsas təşkil etmiş olan istehsal və mübadilə vasitələri feodalizm cəmiyyətində yaranmışdır. Bu istehsal və mübadilə vasitələri müəyyən inkişaf pilləsinə çatdıqda, feodalizm cəmiyyətindəki istehsal və mübadilə münasibətləri, əkinçilik və sənayenin feodalizm quruluşu, müxtəsər, feodal mülkiyyət münasibətləri, inkişaf etmiş məhsuldar qüvvələrə daha uyğun gəlmirdi. Onlar, istehsalı inkişaf etdirmək əvəzinə onu ləngidirdi. Onlar istehsal üçün bir buxov olmuşdur. Bu buxovları qırıb dağıtmaq lazım idi və doğrudan da dağıdıldı».[1] Markizm klassiklərinin bu dediklərinin hamısı

---

[1] K.Marks, F.Engels. İki cildlik seçilmiş əsərləri, 1-ci cild. Bakı, 1953, səh. 13-14.

**düzdür və bir iqtisadi sistemin təkamül yolu ilə inkişaf edərək daha mütərəqqi sistemə keçməyin ümumi iqtisadi qanunauyğunluğudur. Təəssüf ki, onlar bu ümumi iqtisadi qanunauyğunluğu kapitalizmdən sosializmə keçməyə aid etmirlər, əksinə sinfi mübarizə nəzəriyyəsini önə çəkirlər və kapitalistləri inqilab yolu ilə məhv edərək onların mülkiyyətini müsadirə etməyin zəruriliyini əsaslandırmağa çalışmışlar.**

**Cəmiyyətin inkişafının tarixi təcrübəsi sübut etmişdir ki, cəmiyyətin inkişaf mərhələləri biri digərinə keçərkən təkamül yolu əsas, düzgün və aparıcı istiqamət olmuşdur. Buna görə də, bir iqtisadi sistemdən daha mütərəqqi iqtisadi sistemə xüsusi keçid dövrü olmamışdır. Çünki, nə elmdə, nə də texnikada qısa müddətdə və birdən-birə böyük kəşflər etmək imkan xaricindədir. Müasir avtomobillərin heyvana, təyyarələrin quşlara oxşaması buna misal ola bilər. İnsanlar təbiəti müşayiət etməklə, ondan öyrənməklə, onu yamsılamaqla istehsal vasitələrini təkmilləşdirmiş, elm və texnikada yeni-yeni kəşflər etmişlər. Bunun üçün milyon illər lazım olmuşdur. İlk ixtira olunmuş avtomobilləri, təyyarələri, qatarları, rabitə vasitələrini və başqalarını müasirləri ilə müqavisə etdikdə inkişafın necə tədriclə, təkamül yolu ilə getdiyi aydın olur və buna inanmamaq mümkün deyil.**

**Bir iqtisadi sistemdən özündən daha mütərəqqi iqtisadi sistemə keçid məhsuldar qüvvələrin digər, daha başlıca amili olan insan və onun biliyi, qabiliyyəti, bacarığı da inqilabi, sıçrayış yolu ilə deyil, təkamül yolu ilə formalaşmış və müasir səviyyəyə çatmışdır. Bu, cəmiyyətin inkişafının ümumi qanunauyğunluqlarından biridir.**

**İnsan maddi nemətlər istehsalı prosesində təbiətlə qarşılıqlı əlaqədə olarkən təbiətin qanunlarını öyrənir, iqtisadi qanunların obyektiv xarakterini dərk edir, onlardan öz məqsədinə və mənafeyinə uyğun istifadə etməyə çalışır, tələbatını daha dolğun ödəmək üçün çox məhsul istehsal etmək, təbiətin dağıdıcı qüvvələrinin qarşısını almaq**

məqsədilə daim istehsal vasitələrini təkmilləşdirir, bu prosesdə eyni zamanda insanın biliyi artır, dünyagörüşü genişlənir, istehsalın təşkili və idarəetmə təcrübəsi zənginləşir, əvvəlki istehsal təcrübəsini öyrənməklə bərabər onu daha da zənginləşdirir və özündən sonrakı nəslə ötürür. Başqa sözlə, hər nəsil istehsal təcrübəsini təkamül yolu ilə tədricən, uzun illər boyu təkmilləşdirərək müasir səviyyəyə çatdırmışdır. Bu, fasiləsiz prosesdir və cəmiyyətin inkişafının bütün mərhələlərinə aiddir.

Cəmiyyətin təkamül yolu ilə inkişaf edərək daha yüksək mərhələyə keçmək tarixinə qısa nəzər salsaq bir inkişaf mərhələsinin özündən daha inkişaf etmiş mərhələyə uzun yol keçdiyinin şahidi olarıq. Məsələn, cəmiyyətin inkişafının ən uzun dövrünü əhatə edən ibtidai icma cəmiyyətinin təbiətin hazır məhsullarının mənimsənilməsi dövründən onun təkrar istehsal təsərrüfatına qədər olan dövr milyon illərlə vaxt tələb etmişdir. O dövr üçün olduqca mürəkkəb əmək aləti hesab edilən kaman və oxun, odun kəşfi, maldarlığın əkinçilikdən ayrılması, digər əmək alətlərinin təkmilləşdirilməsi və nəticədə izafi məhsulun yaradılması və bunun əsasında xüsusi mülkiyyətin meydana gəlməsi uzun bir təkamül inkişaf yolu keçmişdir.

Xüsusi mülkiyyətin meydana gəlməsi, ictimai əmək bölgüsünün dərinləşməsi, texniki tərəqqi bir-biri ilə qarşılıqlə əlaqədə olmuş və biri digərini şərtləndirmiş, bu qarşılıqlı əlaqə və asılılıq məhsuldar qüvvələrin inkişafına təkan vermişdir. F.Engels demişdir: «Hər yerdə xüsusi mülkiyyət istehsal və mübadilə münasibətlərinin dəyişməsi nəticəsində, istehsalı yüksəltmək və mübadiləni inkişaf etdirmək xatiri-
nə, deməli, iqtisadi səbəblər nəticəsində əmələ gəlir».[1]

Cəmiyyətin quldarlıq inkişaf mərhələsində tələbatın artması iqtisadi münasibətlərin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğunluğu qanunu və əmək məhsuldarlığının yüksəldilməsi qanunlarının fəaliyyətinin

---

[1] F.Engels. Anti-Durinq. Bakı, 1967, səh. 162.

təsiri altında məhsuldar qüvvələr əvvəlki inkişaf mərhələsinə nisbətən daha sürətlə inkişaf etmişdir. Belə ki, ictimai əmək bölgüsü dərinləşmiş – sənətkarlığın əkinçilikdən ayrılması, əmtəə istehsalının formalaşması və inkişafı xeyli irəliləmiş, bunun nəticəsində mübadilə artmış və tacirlər təbəqəsi yaranmışdır. Lakin quldarlıq iqtisadi münasibətləri məhsuldar qüvvələrin müəyyən mərhələsində onun inkişafına mane olmağa başlamışdır. F.Engels yazırdı: «Antiq kölәlik öz dövrünü keçirmişdir. Nə iri kənd təsərrüfatında, nə də şəhər manufakturlarında bu kölәlik daha ona sərf edilən əməyi doğuldacaq gəlir vermirdi – onun məhsulları üçün olan bazar aradan çıxmışdı… xırda əkinçilik və xırda sənətdə isə çoxlu əmək üçün yer yox idi».[2]

Mütərəqqi fikirli quldarlar öz təcrübələrində istehsalın nəticəsində qulların maddi marağının olmadığını və bunun nəticəsində təsərrüfatların tənəzzülə uğradığını dərk etmişlər. Bunu aradan qaldırmaq, iqtisadi münasibətləri məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğunlaşdırmaq, istehsalın nəticəsi ilə istehsalçının marağını yaratmaq məqsədi ilə heç bir zorakılıq olmadan, inqilab etmədən quldarlıq cəmiyyəti tədriclə, təkamül yolu ilə feodalizmlə əvəz edilmişdir. Başqa sözlə, eramızın II-III əsrlərindən başlayaraq Romada quldarlıq təsərrüfatının tənəzzül etməsi şəraitində latfundiyaların sahibləri öz malikanələrini xırda sahələrə bölməyə və onları becərmək üçün keçmiş qullara və yoxsullaşan, öz torpağını itirən azad kəndlilərə verməyə başladılar. Beləliklə, feodalizmin başlanğıcı qoyulmuşdur.

Feodalizm cəmiyyətində təhkimli kəndlilərin qullara nisbətən istehsalın nəticəsi ilə daha çox maraqlı olduqlarına görə məhsuldar qüvvələr daha sürətlə inkişaf etmiş, ictimai əmək bölgüsü dərinləşmiş, əmtəə-pul münasibətləri əvvəlki dövrə nisbətən daha sürətlə inkişaf etmiş və bunun əsasında

---

[2] K.Marks, F.Engels. İkicildlik seçilmiş əsərləri, 2-ci cild. Bakı, 1953, səh. 300.

azad sahibkarlığın, bazar iqtisadiyyatının maddi-ilkin şərtləri formalaşmışdır.

Bazar iqtisadiyyatı əmtəə-pul münasibətlərinin inkişafının ən yüksək mərhələsidir. Bazarın meydana gəlməsi əmtəə istehsalı ilə bağlıdır. Lakin onun yaranması çox qədim dövrə, ibtidai-icma cəmiyyətinin dağılması, quldarlığın əmələ gəlməsi dövrünə təsadüf etsə də bazar iqtisadiyyatının formalaşması XVII-XVIII əsrlərdə baş vermişdir. Başqa sözlə, əmtəə istehsalı təxminən 6-8 min il tarixi təkamül inkişaf yolu keçərək müasir səviyyəyə çatmışdır. Deməli bazar iqtisadiyyatına keçid qısa müddətdə zorla, inqilabi yolla deyil, uzun bir inkişaf yolu keçmiş, onun iqtisadi əsası olan əmtəə istehsalı əvvəlki iqtisadi inkişaf mərhələlərində mövcud olmuş, o natural təsərrüfata nisbətən mütərəqqi olduğuna görə tədriclə, təkamül yolu ilə məhsuldar qüvvələrin inkişafının müəyyən mərhələsində təsərrüfatın hakim formsına çevrilmişdir.

Deyilənlər sübut edir ki, cəmiyyətin inkişafının bütün mərhələlərində bir iqtisadi sistemindən daha mütərəqqi iqtisadi sistemə tələbatın artması, iqtisadi münasibətlərin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğunluğu, əmək məhsuldarlığının yüksəldilməsi və digər iqtisadi qanunların fəaliyyəti ilə əlaqədar olaraq məhsuldar qüvvələrin tədriclə inkişafı nəticəsində, təkamül yolu ilə keçə bilər. Deməli, bunu zorla, dekret vermək ilə qısa müddətdə həll etmək mümkün deyil. İnsanların iradə, şüur, istək və arzularından asılı olmayaraq təkamül inkişaf yolu məhsuldar qüvvələrin inkişafının müəyyən mərhələsində daha mütərəqqi iqtisadi sistemin formalaşması tarixi zərurətə çevrilir və həyatda öz təsdiqini tapır.

Tələbatın artması, onun ödənilməsi məhsuldar qüvvələrin inkişafına bilavasitə təsir göstərir. K.Marks artan tələbatla onun ödənilməsi şərtləri arasında əlaqə və asılılıqdan bəhs edəpək yazır: «Vəhşi insan tələbatını ödəmək üçün, öz həyatını hifz etmək və təkrar istehsal etmək üçün təbiətlə

mübarizə etməli olduğu kimi, mədəni adam də mübarizə etməlidir, bütün ictimai formalar və bütün istehsal üsulları şəraitində mübarizə getməlidir. O, inkişaf etdikcə həmin təbii zərurət səltənəti genişlənir, çünki onun tələbatı genişlənmiş olur. Lakin eyni zamanda həmin tələbatın ödənilməsinə xidmət edən məhsuldar qüvvələr də genişlənir».[1]

Tələbatın artması ümumi iqtisadi qanunu ilə məhsuldar qüvvələrin inkişaf arasında dialektik əlaqə var və onlar bir-birini şərtləndirirlər. Tələbatın artması qanunu məhsuldar qüvvələrin inkişafına təkan verdiyi kimi məhsuldar qüvvələrin inkişafı da tələbat dairəsini genişləndirir və onun ödənilməsinin amillərini yaradır. Bu fasiləsiz proses olub, cəmiyyətin inkişafının bütün mərhələlərində və istehsal üsullarında istehsalın inkişafına səbəb olur. Bu proses kapitalizm cəmiyyətində daha da sürətlənmişdir. Belə ki, bunlar feodalizmin inkişafının son mərhələlərində ictimai əmək bölgüsünün əvvəlki dövrə nisbətən dərinləşməsi və texniki tərəqqidə xeyli irəliləyiş olması ilə əlaqədar olmuşdur. Bu amillər feodalizmin dağılması və bazar iqtisadi sisteminin formalaşmasını sürətləndirmişdir. Bu isə istehsalın ictimailəşmə səviyyəsini yüksəltmiş, istehsalçıları bir-birindən asılı vəziyyətə salmış, istehsalın ictimai xarakterini artırmışdır. Bunların hamısı təkamül yolu ilə inkişaf edərək uzun bir inkişaf yolu keçmişdir. F.Engels yazmışdır: «Kapitalist istehsal üsulunun və bu üsula sahib olan burjuaziyanın tarixi rolu da məhz bu dağınıq, xırda istehsal vasitələrini bir yerə toplayıb irəliləşdirməkdən və onları müasir, qüdrətli istehsal vasitələrinə çevirməkdən ibarət idi. XV əsrdən başlayaraq, istehsalın üç müxtəlif pilləsində: adi kooperasiya, manufaktura və iri sənaye dövründə burjuaziyanın bu rolu tarixən necə yerinə yetirdiyini Marks öz «Kapital» əsərinin IV bölməsində ətraflı təsvir etmişdir. Lakin Marksın oradaca müəyyən etdiyi kimi, burjuaziya ayrı-ayrı adamların işlətdiyi istehsal vasitələrini insan kütləsinin ancaq birlikdə işlətdiyi ictimai

[1] K.Marks, F.Engels. Seçilmiş məktubları. Bakı, 1955, səh. 322.

istehsal vasitələrinə çevirmədən məhdud istehsal vasitələrini qüdrətli məhsuldar qüvvələrə çevirə bilməzdi. Əl cəhrəsi, əl toxuma dəzgahı, dəmirçi çəkici əvəzinə əyrici maşın, mexaniki toxuma dəzgahı, buxar çəkici əmələ gəldi: xırda emalatxanalar əvəzinə yüzlərlə fabriklər əmələ gəldi. İstehsal vasitələri kimi, istehsal özü də bir sıra dağınıq hərəkətlərdən bir sıra ictimai hərəkətlərə, məhsullar isə ayrı-ayrı şəxslərin məhsulundan ictimai məhsula çevrildi. İndi fabrik və zavodlardan çıxan iplik, parça, metal mallar bir çox fəhlənin ümumi əməyinin məhsuludur və bu fəhlələr müəyyən bir ardıcıllıqla onlara öz əməklərini sərf etdikdən sonra nəhayət, hazır şeylər əmələ gəlmişdir. Onların haqqında heç kəs ayrılıqda deyə bilməz ki, «Bunu mən qayırmışam, bu mənim məhsulumdur».[1]

Beləliklə, tələbatın daim artması istehsalın və cəmiyyətin artan tələbatını ödəməyə cəhd etməsi, bunlar arasında qarşılıqlı əlaqə və təsir bir iqtisadi sistemin inkişaf edərək özündən daha mütərəqqisinə keçmək obyektiv prosesdir. Bu iki, - təkamül və inqilabi yolla baş verə bilər. Əlbəttə, birinci yol daha mütərəqqi, obyektiv prosesi özündə əks etdirən, digəri isə arzuolunmaz, lakin qısa müddətdə ondan istifadə etmək olar. Yuxarıda marksizm klassiklərindən gətirilən sitatlardan görünür ki, onlar bir iqtisadi sistemdən digərinə keçidin təkamül inkişaf yolunun qanunauyğunluq olmasını qəbul edirlər. Lakin onlar bunu kapitalizmdən sosializmə keçidə aid etmirlər. Burada inqilabi yolla keçidə üstünlük verirlər. Bu isə həqiqətə uyğun deyil. Marksizm bir iqtisadi sistemdən digərinə, daha mütərəqqiyə keçməyin bir halda təkamül digər halda inqilabi yolla keçmyin mümkünlüyünü iddia etmişlər. Eyni zamanda bunun əksinə fikirlər də söyləmişlər. Məsələn, K.Mark yazmışdır: «Cəmiyyət hətta öz inkişafının təbii qanununun üzinə düşsə də, əsərimdə son məqsəd isə müasir cəmiyytin hərəkətinin iqtisadi qanununu kəşf

---

[1] F.Engels. Sosializmin utopiyadan elə doğru inkişafı. K.Marks, F.Engels. İkicildlik seçilmiş əsərləri, 2-ci cild. Bakı, 1953, səh. 134.

**etməkdən ibartədir, - nə təbii inkişaf mərhələləri üzərindən sıçraya bilməz, nə də bu mərhələləri dekretlərlə məhv edə bilməz.[1]**

**Onlar belə hesab etmişlər ki, cəmiyyətin inkişafının bütün mərhələlərində tələbatın artması və onun ödənilmə vasitələri iqtisadiyyatın inkişafının təkamül yolu ilə müşayiət olunmuşdur. F.Engels yazmışdır: «Bəşər istehsalı müəyyən pillədə elə bir yüksəkliyə çatır ki, təkcə zəruri tələbatı ödəmək deyil, habelə zinətə olan tələbatı ödəmək üçün də şeylər istehsal edə bilir, doğrudur, bu əvvəlcə ancaq azlıq üçün olur. Beləliklə, yaşayış uğrunda mübarizə – bu kateqoriyanı burada bir anlığa qüvvədə saxlasaq – zövq uğrunda mübarizəyə çevrilər, təkcə yaşayış vasitələri uğrunda deyil, həmçinin inkişaf vasitələri uğrunda, cəmiyyətin istehsal edə bildiyi inkişaf vasitələri uğrunda mübarizəyə çevrilir, heyvan aləmindən olan kateqoriyalar isə artıq bu pilləyə tətbiq edilə bilməz».[2]**

**F.Engels eyni zamanda bazar iqtisadiyyatının ilk mərhələsində bu iqtisadi sistemin inkişafının gələcək qanunauyğunluqlarını da hiss etmişdir. Başqa sözlə, sənayenin inkişafının müəyyən mərəhələsində yeni münasibətlərin formalaşmasına inanmışdır. O yazmışdır: «Müasir məhsuldar qüvvələrlə binaların, nəhayət dərk edilmiş təbiətinə uyğun şəkildə rəftar ediləcəyi zaman, istehsalatda ictimai hərcmərcliyin yerini, istər bütövlükdə cəmiyyətin, istərsə də onun hər bir üzvünün tələbatına uyğun olan istehsalın ictimai planauyğun tənzimi tutacaqdır».[3]**

**F.Engels bu müddəasında inqilabi yolla, zorakılıqla, qısa müddətdə kapitalizmdən sosializmə keçməyin zəruriliyindən deyil, əksinə, sənayenin inkişafının, istehsalın ictimailəşmə səviyyəsinin yüksək mərhələsində, ictimai əmək bölgüsünün dərinləşdiyi bir şəraitdə istehsalan planauyğun**

---

[1] **K.Marks. Kapital, I cild. Bakı, səh. 10.**
[2] **K.Marks. Seçilmiş əsərləri, III cild. Bakı, 1983, səh. 549.**
[3] **F.Engels. Anti-durinq. Bakı, 1967, səh. 284.**

tənzim olunmasının zəruriliyindən söhbət gedir. F.Engelsin bu qabaqgörənliyini bazar iqtisadiyyatının müasir mərhələsi təsdiq etdi. Artıq qarışıq iqtisadiyyat dövlət tərəfindən tənzimlənir, istehsalın humanistləşməsi, istesalın inkişafının planlaşdırılması, proqnozlaşdırılması, sosial yönümdə inkişafı reallığa çevrilmişdir və qarşısı alınmaz prosesdir.

F.Engels də K.Marksla birlikdə sosialist inqilabi nəzəriyyəsinin yaradıcılarından biri olmasına baxmayaraq istehsal vasitələrinin süni yolla, zorakılıqla dövlətləşdirilməsinin əleyhinə olmuşdur və istehsalın bu yolla ictimailəşdirilməsinin sosializmlə heç bir əlaqəsinin olmamasını uzaqgörənliklə, qabaqcadan demişdir. Sanki Rusiyada belə bir hadisənin baş verəcəyini qabaqcadan duymuşdur. O yazmışdır: «Mən «məcburdur» deyirəm, ziya ancaq o zaman ki, həqiqətən istehsal və ya rabitə vasitələri artıb səhmdar cəmiyyətlərini idarə etmək imkanı açdı, o zaman ki, bunların dövlətsizləşdirilməsi iqtisadi cəhətdən labüd oldu, ancaq bu halda – hətta bunu müasir dövlət etsə də – bu bir iqtisadi tərəqqi olar, bütün məhsuldar qüvvələri cəmiyyətin öz ixtiyarında olması yolunda atılan yeni bir addım olar. Lakin son zamanlar, Bismark dövlətləşdirmə yoluna atıldığı vaxtdan bəri xüsusi bir saxta sosializm meydana gəlmişdir ki, bəzi yerlərdə bu xüsusi bir könüllü nökərçilik şəkli almışdır və istehsal vasitələrinin hər cür, hətta Bismark üsulu ilə dövlətsizləşdirilməsini heç ağına-bozuna baxmadan sosialistcəsinə dövlətsizləşdirmə adlandırır. Əgər dövlət tütün inhisarı sosializmdirsə, onda Napoleonla Mitternix, şübhəsiz sosializmin baniləri sırasına salınmalıdırlar. O zaman ki, Belçika hökuməti ən adi siyasi və maliyyə mülahizələri ilə başlıca dəmir yolları özü çəkdirməyə başladı: o zaman ki, Bismark, müharibə baş verəcəyi halda Prussiyanın mühüm dəmir yollarını müharibənin tələblərinə uyğunlaşdırmaq məqsədilə dəmiryol məmurları hazırlamaq və onları hökumətə itaətkarlıqla səsverən bir sürüyə çevirmək məqsədi ilə, başlıcası isə parlamantdən asılı olmayan yeni bir gəlir

**mənbəyi əldə etmək məqsədi ilə, azacıq da iqtisadi zərurət olmayan, bu dəmir yolları dövlət mülkiyyətinə çevirdi, bütün bunlar heç də sosializmə doğru nə bilavasitə, nə də dolayı yolla, nə şüurla, nə də şüursuz atılan bir addım deyildi. Yoxsa kral Seehandlundu, kral çini manufakturası və hətta ordudakı pota dərzixanaları sosialist müəssisələri hesab olunmalıdır».[1]**

**Bir iqtisadi sistemin inkişaf edərək daha yüksək iqtisadi sistemə keçməyin təkamül yolunu marksizm klassikləri də qəbul etmişlər. Onlar göstərmişlər ki, hər mütərəqqi sistemin maddi ilkin şərtləri özündən əvvəlki sistemin daxilində yaranır və tədricən kəmiyyət dəyişmələri keyfiyyət dəyişmələrinə keçir. Bu prosesdə yeni sistemin həm maddi, həm də mənəvi amilləri formalaşır, bunlar yetişmədən vaxtından əvvəl, zorakı yolla sistem dəyişməsinə cəhd etmək nəticə etibarilə hökmən uğursuzluğa uğramalıdır. F.Engels haqlı olaraq göstərir ki, Fransada proletariat hakimiyyəti əldə saxlaya bilməmişdilər. Onun fikrincə iqtisadi münasibətlər yetişməmiş hakimiyyəti ələ almaq cəhdi utopiyadan başqa bir şey deyil. Bu isə bir iqtisadi sistemdən daha mütərəqqi iqtisadi sistemə keçməyin təkamül yolunu qəbul etməkdir. F.Engels yazmışdır: «Lakin o zamanlar kapitalist istehsal üsulu və onunla bərabər burjuaziya ilə proletariat arasındakı əkslik çox az inkişaf etmişdir. İngiltərədə yenicə meydana gələn iri sənaye Fransada hələ məlum deyildi. Halbuki yalnız iri sənaye bir tərəfdən, istehsal üsulunda çevriliş yaradılmasını, onun kapitalist xarakterinin aradan qaldırılmasını qəti zərurət halına salan münaqişələri inkişaf etdirir, - həm də təkcə bu iri sənayenin yaratdığı siniflər arasındakı münaqişələri deyil, habelə onun yaratdığı məhsuldar qüvvələrlə mübadilə formaları arasındakı müqaqişələri də inkişaf etdirir; digər tərəfdən isə, bu iri sənaye məhz məhsuldar qüvvələri çox böyük dərəcədə inkişaf etdirməklə, özünün yaratdığı münaqişələri həll etmək üçün vasitələr də vermiş olur. Deməli, əgər yeni ictimai quruluşdan**

---

**[1] F.Engels. Anti-durinq. Azərnərşr, Bakı, 1967, səh. 282.**

doğan münaqişələr XIX əsrin əvvəllərində yenicə meydana gəlirdisə, o dövrdə bunları həll etmək vasitələri daha az inkişaf etmişdi. Terror zamanı Parisin yoxsul kütlələri bir anlığa hakimiyyəti ələ alaraq, beləliklə, burjua inqilabın burjuaziyanın öz əleyhinə qələbəyə çatdırılarsa da, bununla onlar yalnız sübut etdilər ki, o zamankı münasibətlərin hökm sürdüyü bir şəraitdə həmin kütlələrin uzun müddət hakimiyyət başında qalması əsla mümkün deyildir. Ümumi yoxsullar kütləvi içərisindən, yeni sinfin rüşeymi halında yenicə ayrılmış olan, siyasi cəhətdən müstəqil fəaliyyət göstərməyə hələ əsla qadir olmayan proletariat yalnız məzlum və məhkum bir silk kimi görünürdü və o öz-özünə yardım etmək iqtidarında olmadığına görə ona olsa-olsa kənardan – yuxarıdan kömək edilə bilərdi».[1]

Beləliklə, bir iqtisadi sistemin inkişaf edərək daha mütərəqqi iqtisadi sistemə keçməyin ümumi iqtisadi qanunauyğunluqlarını təhlili göstərir ki, bu prosesin baş verməsinin əsas yolu inqilab yox, təkamül inkişaf yoludur.

Təəssüf ki, marksizm klassikləri təkamül inkişaf yolu ilə bir sosial-iqtisadi quruluşdan daha mütərəqqisinə keçməyin ümumi iqtisadi qanunauyğunluq olmasını kapitalizmdən əvvəlki inkişaf mərhələlərinə aid etmişlər, kapitalizmdən sosializmə keçməyin əsas yolu isə sosialist inqilabi olmasını nəzəri cəhətdən əsaslandırmağa çalışmışlar. Bu isə həqiqətə uyğun deyil, çünki bir iqtisadi sistemdən digərinə keçməyin bir, digərində isə başqa ümumi iqtisadi qanunauyğunluq ola bilməz. Deməli, cəmiyyətin bir iqtisadi sistemdən digərinə keçməyin ümumi iqtisadi qanunauyğunluğu birdir – təkamül inkişaf. Bu eyni zamanda kapitalizmdən sosializmə keçidə də aiddir. Kapitalizmin maddi-ilkin şərtləri feodalizm cəmiyyətində yaradıldığı kimi sosializmin də maddi-ilkin şərtləri kapitalizmin inkişafının ən yüksək mərhələsində yaranacaq. Rusiya kimi sənayenin inkişafı baxımından geri

---

[1] F.Engels. Sosializmin utopiyadan elmə doğru inkişafı. K.Marks, F.Engels. İkicildlik seçilmiş əsərləri, 2-ci cild. Bakı, 1953, səh. 116-117.

qalmış bir ölkədə vaxtından əvvəl kapitalizmdən sosializmə keçmək iddiasına düşənlər böyük səhv etmişlər. Bu səhv cəmiyyətə çox baha başa gəlmişdir. Məhz marksist-leninçi iqtisadi təlimində sosialist inqilabi nəzəriyyəsi səhv olduğuna görə bu sistem qısa müddətdə süqut etdi. O ki, qaldı bu barədə marksizm klassiklərinin bir halda düz, digər halda yanlış fikir söyləmələri məsələsi bu başqa mövzunun söhbətidir.

### Мянимсямяни йохламаг цчцн суаллар вя тапшырыглар

1. Ümumi iqtisadi qanunauyğunluğun iqtisadi qanunlarla qarşılıqlı əlaqəsini danışın.
2. Təbiət qanunları ilə iqtisadi qanunların fərqlərini şərh edin.
3. İqtisadi qanunların digər elm qanunlarından fərqli xüsusiyyətləri hansılardır?
4. Bazar iqtisadi sisteminin genezisi olan əmtəə istehsalının nə vaxtdan inkişafa başlamasını və nə vaxt hakim təsərrüfat sisteminə çevrilməsini təhlil edin.
5. İnqilabi yolla bir iqtisadi sistemdən digərinə keçməyin mümkün olmadığını və buna cəhd etməyin ziyanlı olmasını sübut edin.
6. İqtisadi qanunların fəaliyyətinin obyektiv xarakterinin dərk edilməsinin iqtisadi inkişafda əhəmiyyəti olmasını şərh edin və bunu təsdiq edən arqumentlər gətirin.

### Müzakirə üçün suallar və tapşırıqlar

1. İqtisadi qanunların obyektiv xarakteri və onların dərk edilməsinin mümkünlüyünü sübut edin.
2. Ümumi iqtisadi qanunların spesifik və xüsusi iqtisadi qanunlardan fərqi nədir? Onları təsnifləşdirin.

**3. Tələbatın artması ümumi iqtisadi qanunun cəmiyyətin təkamül yolu ilə inkişaf edərək daha mütərəqqi inkişaf mərhələsinə keçməkdə rolunu şərh edin.**

**4. Bir iqtisadi sistemin inkişaf edərək digərinə keçməyin təkamül yolu olmasının doğru olmasını əsaslandırın.**

# 3-jü MÖVZU: AZƏRBAYJANIN KEÇİD DÖVRÜ İQTİSADİYYATI. İLKİN KAPİTAL YIĞIMI. ÖZƏLLƏŞDİRMƏ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI

## § 1. Azərbayjanda keçid dövrünün zəruri olmasının əsas səbəbi və mahiyyəti

İkinci mövzunun təhlilindən belə nəticə çıxır ki, bir iqtisadi sistemdən digərinə, cəmiyyətin bir inkişaf mərhələsindən daha yüksək olanına keçməyin əsas yolu təkamül inkişaf yoludur. Nə elmdə, nə texnikada, nə istehsalın təşkilində və bütövlükdə insan fəaliyyətinin bütün sahələrində mövcud olandan daha mütərəqqisinə inqilabi yolla keçmək mümkün deyil və tarixdə buna təsadüf edilməmişdir. Doğrudur, cəmiyyətin inkişafının müəyyən dövrlərində elm və texnikanın inkişafında sıçrayışlar, sürətli inkişaflar olmuşdur, lakin bunlar inqilabi yolla, qısa müddətdə yeni iqtisadi sistemə keçmək demək deyil, çünki sıçrayışlı inkişafla yanaşı tənəzüllərin olması, hər hansı siyasi və təbii hadisələrlə əlaqədar olaraq inkişafın ləngiməsi tarixi faktlardır.

Azadlıq, bərabərlik və qardaşlıq sosialist ideyalarıdır və bunlar öz mahiyyətinə görə humanistdir. Bunlara nail olmaq bütün xalqlar və millətlərin arzusudur. Lakin buna nail olmağın vaxtı və məqamı vardır. Arzu yalnız real imkan və şərait yarandıqda mümkün olur. Belə şərait yetişmədən arzuya çatmaq qeyri-mümkündür. Məsələn, vaxtından əvvəl, sosializmin maddi-texniki bazası yaranmadan sosializm qurmaq istəyənlərin də iflasa uğraması qaçılmaz idi. Məhz Rusiya kimi sənayenin inkişafı baxımından Avropa dövlətlərindən geri qalmış bir ölkədə sosializmin sovet modelinin qurulmasının taleyi də belə oldu. Onun dağılması qaçılmaz və iqtisadi qanunauyğunluqdur.

Cəmiyyətin inkişafı hökmən sosializm cəmiyyətinin qurulmasına aparıb çıxarmalıdır. Lakin onun formalaşması bazar iqtisadi sisteminin inkişafının ən yüksək mərhələsinə nail olmaqdan keçir. Çünki həm bazar iqtisadi sisteminin, həm də sosializmin maddi-texniki əsası olan maşınlı sənayeni inkişaf etdirmədən buna nail olmaq qeyri-mümkündür. Dialektikanın qanununa əsasən bazar iqtisadi sistemində maşınlı sənaye aşağıdan yuxarıya doğru irəliləyir və nəticədə istehsal prosesinin kompleks mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi baş verir. Bazar iqtisadi sisteminin bu səviyyəsində sənayeləşdirmə nəinki istehsal, həm də insan fəaliyyətinin bütün sahələrində hökmranlıq edir. Sənayenin bu dərəcədə yüksək inkişafı cəmiyyətdə sosial problemlər yaradır. Buraya inhisarların meydana gəlməsi, işsizliyin artması, elmin təhsilin, səhiyyənin, xidmətin, idmanın və başqalarının daha yüksək inkişaf etdirilməsi zərurəti, varlıların daha da zənginləşməsi, yoxsulların sayının artması, əhalinin yoxsul təbəqəsinin sosial müdafiəsi və sosial təminatı və başqaları daxildir. İstehsalın yüksək səviyyədə inkişafı sosial problemlər yaratdığı kimi bu problemlərin həllinin vasitələrini də yaradır. Bu zaman dövlətin iqtisadiyyatın tənzimlənməsinə ehtiyac duyulur və dövlət yuxarıda adı çəkilən problemlərin həllini öz üzərinə götürməyə məcbur olur və buna həm də imkan yaranır. Belə ki, istehsal prosesinin yüksək səviyyədə sənayeləşdirilməsi əmək məhsuldarlığının yüksəldilməsinə, bunun özü isə işçinin əmək haqqının, sahibkarların gəlirlərinin çoxalmasına səbəb olar. Bu zaman vergilərin artması hesabına dövlət büdcəsinin həcmi əvvəlki dövrlərə nisbətən qat-qat çoxalır və dövlət bunun vasitəsilə sosail problemləri çox uğurla həll edir. Bu proses artıq müasir sənayecə inkişaf etmiş bazar iqtisadi sisteminə daxil olan kiçik Avropa

dövlətlərində özünü göstərir. Məsələn, Norveç, İsveç, Danimarka, Finlandiya və başqa bu kimi kiçik dövlətlər işsizliyin həllini, sosial təminat və sosial müdafiəni öz üzərlərinə götürmüşlər. Bu dövlətlərdə elmin, təhsilin, səhiyyənin və digər sahələrin inkişafına dövlət büdcəsindən ayrılan vəsait nəinki keçid iqtisadiyyatlı, inkişaf etməkdə olan dövlətlərdən, hətta sənayecə inkişaf etmiş dövlətlərdən bir neçə dəfə çoxdur. Bunun əsas səbəbi bazar iqtisadi sisteminə daxil olan böyük dövlətlər iqtisadi inkişaf baxımından bu sistemə daxil olan kiçik dövlətlərə nisbətən güclü olsalar da, dünyaya ağalıq etmək məqsədilə hərbi-sənaye kompleksinin inkişafına böyük vəsait ayrımalarıdır.

Təəssüf ki, markisit-leninçi iqtisadi təliminin əsası olan sosialist inqilabı nəzəriyyəsi və onun Rusiya kimi geri qalmış ölkədə V.İ.Leninin «Xalqlar həbsxanası» adlandırdığı imperiya dövlətində reallaşdırması Rusiyanı təbii inkişaf yolundan azdırmış, onu bazar iqtisadi sistemindən (kapitalizmdən) istehsalın səmərəliliyini təşkil edə bilməyən inzibati-amirlik iqtisadi sistemi inkişafına istiqamətləndirmişdir. O vaxt Azərbaycan Rusiyanın müstəmləkəsi olduğundan Azərbaycan da Rusiya ilə birlikdə sosializmin sovet modeli sistemində yaşamağa məcbur edilmişdir.

Marksizm-leninzm sosialist inqilabi nəzəriyyəsinə görə kapitalistlər (sahibkarlar) proletariatın (fəhlə sinfinin) düşmənidirlər. Çünki onlar fəhlə sinfini istismar edirlər. Onların istismarından xilas olmaq və yaxşı yaşamaq üçün proletariat birləşərək kapitalistləri məhv etməli və hakimiyyəti öz əlinə almalıdır. V.İ.Lenin marksizmin sosialist inqilabi nəzəriyyəsini Rusiyada həyata keçirdi. O hakimiyyəti ələ keçirdikdən sonra bütün kapitalistləri, mülkadarları, ziyalıları, din xadimlərini çox qəddar üsullarla, qısa müddətdə məhv etdi. Bütün istehsal

vasitələri, torpaq və digər maddi və mənəvi sərvətlər dövlət mülkiyyəti elan edildi və istehsalı idarə etmək təcrübəsi və istedadı olmayan adamlara verildi. Bu nəzəriyyə səhv olduğundan təcrübədən çıxa bilmədi və 70 il zorla yaşadıqdan sonra bir sistem kimi dağıldı.

Sosializmin sovet modelini qurmağı qarşısına məqsəd qoyan bütün xalqlar və millətlər bazar iqtisadi sisteminin inzibati-amirlik iqtisadi sistemindən üstün olduğunu anladıqdan sonra yenidən sosializmdən bazar iqtisadi sisteminə keçməyi məqsədəuyğun olmasını dərk etmişlər. Deməli, bazar iqtisadi sistemindən sovet sosialist sisteminə və əksinə keçid dövrünün olmasının əsas səbəbi sosialist inqilabi nəzəriyyəsinin vaxtından əvvəl reallaşdırmağa cəhd edilməsidir.

Kapitalistləri proletariatın düşməni olmasını iddia edən sosialist inqilabi nəzəriyyəsini birmənalı qəbul etmək olmaz. Ona görə ki, bazar iqtisadi sistemində hər iki böyük insan qrupunun olması fəlsəfənin ümumi qanunlarından biri olan əksliklərin vəhdəti və mübarizəsi qanunun tələbidir. Bu qanuna görə iri və xırda olmasından asılı olmayaraq hər hansı hadisənin baş verməsi üçün bir-birinə əks olan iki tərəfin olması, eyni zamanda onların vəhtədliyi tələb olunur. Bunların arasında dialektik ziddiyyətin olması da fəlsəfənin ümumi qanunauyğunluğudur və inkişafın əsası da budur. Digər tərəfdən kapitalistlərin və proletariatın meydana gəlməsi marksizmin dediyi kimi xüsusi mülkiyyətlə əlaqədar yox, maşınlı sənayenin meydana gəlməsi ilə bağlıdır. Hər iki insan qrupunun və yaxud marksizmin dediyi kimi bir-birinə düşmən olan burjuaziyanın və proletariatın formalaşması maşınlı sənayenin yaranması ilə eyni vaxtda meydana çıxmışdır. Elm və həyat sübut etmişdir ki, eyni mənbədən qidalanan subyektlər, onların arasında ziddiyyətlər olsa da, bunlar bir-birinə düşmən ola

bilməzlər. Burjuaziya və proletariat bir-birinin düşməni yox, bir-birinə dayaq duran, kömək edən, bir-birini şərtləndirən və tamamlayan siniflər idi.

Bazar iqtisadi sistemi şəraitində burjuaziya və probletariat əksliklərdir, onlar bir-birinə əks qütübdə dururlar. Çünki kapitalistlər istehsalı təşkil və idarə etməklə, fəhlə sinfi isə bilavasitə maddi nemətlər istehsalı ilə məşğul olurlar. Göründüyü kimi hər iki sinfin məqsədi istehsaldır və iqtisadi hadisə olan istehsalda onlar birləşməlidir, vəhdətdə olmalıdır. Deməli, bazar iqtisadi sistemində hər iki sinif vəhdətdə olmadan istehsal baş verə bilməz. Ona görə də onları hakim və məzlum, istismarçı, istismar olunan siniflərə bölmək olmaz. Çünki onların hər ikisi hakimdir. Ona görə ki, onlardan biri olmadan, məsələn, yalnız kapitalistlər istehsal prosesinə başlaya bilməzlər, həmçinin əksinə proletariat olmadan kapitalistlər təkbaşına maddi nemətlər istehsalına qadir deyillər.

Bazar iqtisadi sistemində istehsalın baş verməsi və onun inkişaf etdirilməsi həm kapitalistlər, həm də proletariat üçün faydalıdır və hər iki tərəfin maddi marağı təmin olunur. Belə ki, kapitalistlər qarşılarına qoyduqları məqsədə – gəlir əldə etməyə, proletariat isə əmək haqqı alaraq özünün və ailəsinin iş qüvvəsinin təkrar istehsalına nail olurlar. Kapitalistlərin istehsal prosesində yaranmış milli gəlirdən proletariata nisbətən daha çox pay alması təbii və qanunauyğundur, həm də ədalətə uyğundur. Çünki istehsalı təşkil və idarə etmək istedadı və qabiliyyəti az adamda olur. Kapitalistlər də bu qrup istedadlı insanlara aiddir və onlar iqtisadiyyatın inkişafında proletariata nisbətən daha böyük rol oynayırlar. Elə hallar olur ki, kapitalist istehsalı yaxşı təşkil etməklə, texnika və texnologiyada yeniliklər yaratmaqla bir gündə on min işçinin yaratdığı dəyərdən dəfələrlə çox

gəlir əldə etməyə nail olur. Sadəcə olaraq proletariatın istehsalı təşkil edərək onu idarə etmək istedadı olmadığına görə onlar sahibkarlarla əlaqəyə girməyə məcburdurlar, sahibkarlar isə istehsalı təşkil etmək qabiliyyəti olduğuna görə istehsalı idarə etməklə məşğul olur. Belə istedadlı insanlara kapitalist deyərək məhv etmək sosializmin sovet modelinin ən böyük səhvi idi. Məhz sosializm bir sistem kimi buna görə süqut etdi və keçid dövrü də buna görə zərurətə çevrildi.

XX əsrdə Azərbaycan xalqının taleyinə iki dəfə keçid dövründə yaşamaq qismət olmuşdur. Bunlardan biri kapitalizmdən sosializmə (1920-1937-ci illər), digəri isə sosialist sistemi dağıldıqdan sonra (1991-ci il) sosializmdən kapitalizmə olan keçid dövrüdür. Hər iki inkişaf mərhələsi çoxlu çətinliklərlə və mürəkkəb proseslərlə zəngirdir. Bunlar keçid dövrünün xarakterindən və qarşıya qoyduğu məqsəddən irəli gəlir. Azərbaycan xalqı çox çətin olan keçid dövründə digər keçid iqtisadiyyatlı dövlətlərə nisbətən çoxlu və ağılagəlməz problemlərlə qarşılaşmışdır. Bu bir tərəfdən marksist-leninçi iqtisadi təliminin qeyri-elmiliyi, digər tərəfdən rus şovinizminin erməni xəyanəti və nankorluğu birləşərək Azərbaycanı Qafqazda bir dövlət kimi yox etmək niyyətinin olması ilə əlaqədardır.

Hər iki keçid dövrünün ümumi və fərqli cəhətləri vardır. Buna hər şeydən əvvəl mülkiyyət münasibətlərinin formalaşması nöqteyi-nəzərindən baxmaq lazımdır. Çünki mülkiyyət münasibətləri iqtisadi münasibətlərin əsasında dayanır və iqtisadi sistemin dəyişməsi iqtisadi münasibətlərin dəyişməsi deməkdir. Hər iki keçid dövrünün ümumi cəhətləri ilə yanaşı fərqli tərəfləri də vardır. Fərqli cəhətlərdən biri odur ki, birinci keçid dövründə mülkiyyət dəyişikliyi asan və qısa müddətdə başa çatdığı halda ikinci keçid dövründə bu dəyişiklik çətin olmaqla bərabər

uzun müddətli prosesdir və onun vaxtını müəyyən etmək olmaz. Daxili və xarici şəraitdən, millətin mənəvi saflığından, dövlətin rəhbərinin istedadından asılı olaraq bu dövr uzun və ya nisbətən qısa ola bilər. Məsələn, Azərbaycanın zorla Ermənistan ilə müharibəyə cəlb edilməsi və kommunistlərin yaratdığı Qarabağ problemi Azərbaycanda keçid dövrünün vəzifələrini uğurla yerinə yetirməkdə ən böyük manelərdən biridir.

Azərbaycanın ikinci keçid dövrü birinci keçid dövründən perspektivliyi baxımından da fərqlidir. Birincisi, ona görə ki, əgər birinci keçid dövrü mütərəqqi iqtisadi sistemdən mürtəce iqtisadi sistemə keçməyi qarşısına məqsəd qoymuşdursa, ikinci keçid dövründə inzibati-amirlik sistemindən daha mütərəqqi olan bazar iqtisadi sisteminə keçməyi Azərbaycan dövləti strateji məqsəd kimi qəbul etmişdir. İkincisi, əgər Azərbaycan birinci keçid dövründə sabiq SSRİ-nin müstəmləkəsi idisə, ikinci keçid dövründə müstəqil dövlət kimi istehsalın strukturunun qurulması və məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsini Azərbaycanın milli mənafeyinə uyğun həyata keçirməyə imkan tapmışdır. Üçüncüsü, əgər birinci keçid dövründə marksist-leninçi iqtisadi təlimi ilə silahlanmış bolşeviklər və kommunistlər sahibkarları, ziyalıları məhv etmək, iqtisadi fəaliyyət azadlığını onların əllərindən almaq yolunu seçərək qısa müddətdə kapitalizmdən sosializmə keçməyi qarşılarına məqsəd qoymuşdularsa ikinci keçid dövründə Azərbaycan dövləti iqtisadi fəaliyyət azadlığına şərait yaradıb, bazar iqtisadi sisteminin inkişafını təmin edən qanunlar qəbul edib və onun həyata keçirilməsinə məhdudiyyət qoyulmayıb və təkamul inkişaf yolu ilə bazar iqtisadi sisteminin formalaşdırılmasına əlverişli şərait yaradılıb.

Azərbaycanda birinci keçid dövrü ilə ikinci keçid dövrünün bir fərqli xüsusiyyəti də ondan ibarətdir ki,

birincinin perspektivinin olmadığı gözlənildiyi halda ikinci keçid dövrünün gələcəyinin yaxşı olması gözləniləndir və daha ümidvericidir. Bu cümləni ona görə ehtiyatla yazırıq ki, hər bir dövlətin sağlam milli iqtisadiyyatının formalaşması və inkişafı onun öz əlindədir. Bunun üçün Azərbaycanın hər cür şəraiti vardır. Çünki o həm müstəqil dövlətdir, həm də iqtisadiyyatın inkişafına əngəllər törədən sovet iqtisadi sistemindən xilas olmuşdur. Təəssüf ki, bunu Azərbaycan vətəndaşlarının hamısı düzgün qiymətləndirmir.

Sosializmin sovet modeli sistemində yaşayan bütün xalqlar və millətlər, o cümlədən Azərbaycan xalqı öz təcrübəsində gördü ki, bazar iqtisadi sistemi inzibati-amirlik sistemindən daha mütərəqqi quruluşdu. Ona görə də sabiq SSRİ süqut etdikdən sonra Azərbaycan dövləti sosializm adlanan inzibati-amirlik sistemindən bazar iqtisadi sistemə keçməyi öz qarşısına əsas məqsəd qoymuşdur.

## § 2. Keçid dövründə Azərbayjanda ilkin kapital yığımının vəziyyəti

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan dövləti bazar iqtisadi sistemini formalaşdırmaq və inkişaf etdirmək üçün azad sahibkarlığın inkişafına lazım olan şəraiti yaratmışdır. Ona görə ki, azad sahibkarlıq bazar iqtisadi sisteminin əsasını təşkil edir. Azad sahibkarlıq isə iqtisadi azadlığa əsaslanır. İqtisadi cəhətdən azad olmaq üçün aşağıdakı şərtlər lazımdır.

1. İqtisadi fəaliyyətlə məşğul olmaq istəyənlər və cəmiyyətin qalan üzvləri şəxsən azad olmalıdır ki, onlar istədikləri kimi fəaliyyət göstərə bilsinlər.

2. İqtisadi azadlığı təmin edən hüquqi aktlar, qanunlar olmalıdır.

3. İqtisadi fəaliyyətlə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslər istehsalın maddi amilinin (istehsal vasitələrinin) sahibi, mülkiyyətçisi və tələb olunan miqdarda pul sərvətinə malik olmalıdır. Bu isə öz başlanğıcını ilkin kapital yığımı prosesindən götürüb.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yuxarıda göstərilən üç şərtin birinci və ikincisinin təmin edilməsi Azərbaycan dövləti üçün elə bir çətinlik törətməmiş və qısa müddətdə onlara nail olunmuşdur. Belə ki, dövlət sistem dağılan kimi Azərbaycan özünün müstəqilliyini və Azərbaycanın sovet iqtisadi sistemindən bazar iqtisadi sisteminə keçməyi strateji məqsədi olduğunu bəyan etdi. Bununla da Azərbaycanda söz, mətbuat və başqa sahələrdə azadlıqla bərabər iqtisadi fəaliyyət azadlığı üçün də əlverişli şərait yaradıldı.

Keçid dövrünün başlanğıcında azad sahibkarlığın hüquqi əsaslarının yaradılması da nisbətən qısa müddətdə və heç bir müqavimətə rast gəlmədən öz həllini tapmışdır. Məsələn, 1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra daha irəliyə gedərək sahibkarlığın inkişafına yol açan Azərbaycan Konstitusiyası qəbul olundu. Azərbaycan Respublikasında 1995-ci ildə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı qəbul edildi və sonra bu proqrama qanun statusu verildi, «Aqrar islahatın əsasları haqqında» və «Sovxoz və kolxozların islahatı haqqında», «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının qanunları qəbul edildi. Bunlarla yanaşı, sahibkarlığın inkişafına kömək məqsədilə Azərbaycan prezidentinin bir neçə fərmanı olmuş və onun təşəbbüsü ilə 1994-cü ilin sentyabr ayında Bakıda «Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma» mövzusunda beynəlxalq konfrans keçirilmiş, 1995-ci ildə Londonda

Adam Smit İnstitutunda konfrans və Bakıda Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinə həsr olunmuş beynəlxalq konfrans, sahibkarlarla görüş və s. bu kimi çoxsaylı tədbirlər Azərbaycanda sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafında böyük rol oynamış və oynayacaqdır. Sonrakı illərdə də bu sahədə çoxlu qanunlar, fərmanlar və başqa hüquqi sənədlər qəbul edilmiş və sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün zəruri olan hüquqi baza yaradılmışdır.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan dövləti sahibkarlıq fəaliyyətinin birinci və ikinci şərtini nə qədər tez və asan həll etmişdirsə üçüncü şərt olan ilkin kapital yığımı problemini kifayət qədər həll edə bilməmişdir. Bunun iki səbəbi var. Birincisi, bu ilkin kapital yığımının mahiyyəti və xarakteri ilə əlaqədardır. Çünki ilkin kapital yığımı uzun müddətli və obyektiv proses olduğundan Azərbaycan dövləti onu qısa müddətdə həll edə bilməz. Klassik bazar iqtisadi sisteminə daxil olan dövlətlərdə bu proses XIV-XV əsrlərdən başlayaraq XVII əsrə qədər davam etmiş və sonralar da bu proses dayanmamışdır. Başqa sözlə desək, bu zaman sadə əmtəə təsərrüfatı inkişaf edərək kapitalist əmtəə təsərrüfatına çevrilmişdir. Sadə əmtəə təsərrüfatının subyektləri olan şəhərdə sənətkarlar, kənd yerlərində azad xırda kəndli təsərrüfatları arasında bazarda rəqabət prosesində onların çoxu, yəni sahibkarlıq qabiliyyəti aşağı olanlar azad rəqabətdə məğlub olmuş və nəticədə istehsal vasitələrindən məhrum edilmişdir, onların iş qüvvələrini satmaqdan başqa çıxış yolu olmamışdır. Digər qrup sadə əmtəə istehlakçıları isə varlanmışlar, onların əlində ilkin kapital yığılmışdır. Bunlar bu vəsait hesabına əvvəlcə manufakturalar, sonra isə fabrik və zavodlar təşkil etmişlər. Beləliklə, sahibkarlıq istedadı olanlar rəqabətdə qalib gəlmiş, əllərində kapital toplamış və

muzdlu əmək tətbiq edən sahibkarlara, sahibkarlıq istedadı olmayanlar isə muzdlu işçilərə çevrilmişlər. Beləliklə, bir tərəfdə istehsal vasitələrindən məhrum olmuş və muzdla işləməyə hazır olan və əhalinin çoxluğunu təşkil edən muzdla işləyən işçilər, digər tərəfdə əlində muzdlu işçilərin iş qüvvəsini satın ala biləcək qədər pul vəsaitinə sahib olan az miqdarda kapitalistlər (sahibkarlar) sinfi formalaşmışdır. İlkin kapital yığımının mahiyyəti budur.

İndiki keçid dövründə Azərbaycanda ilkin kapital yığımının zəif olmasının bir çox səbəbləri vardır. Əvvəla, Qərbi Avropada ilkin kapital yığımı prosesi gedəndə Azərbaycan İran dövlətinin müstəmləkəsi olduğundan burada azad sahibkarlığın formalaşması və inkişafı üçün əlverişli şərait olmamışdır, Azərbaycanın şərq, müsəlman ölkəsi olması da buna az təsir göstərməmişdir. İkincisi, XIX əsrin əvvəlindən Azərbaycanın Rusiyanın müstəmləkəsi olmasıdır. Çünki Rusiyada da ilkin kapital yığımı Avropa dövlətlərindən ləng getmişdir. Doğrudur, XIX əsrin son qərinəsindən başlayaraq Rusiyada kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq Azərbaycanın neft sənayesinin formalaşması və inkişafında sıçrayış olmuşdur. Lakin Azərbaycanda ilkin kapital yığımının çoxu xarici, rus və erməni kapitalistlərinin əlində olmuşdur. Buna baxmayaraq zəif olsa da Azərbaycanın milli burjuaziyası və onların əlində ilkin kapital yığımı toplanması prosesi getmişdir.

1918-1920-ci illərdə, Azərbaycan Demokratik Respublikası qurulan zaman xarici kapitalın tətbiqi hesabına Azərbaycan iqtisadiyyatı daxili bazarın hüdudlarından az-çox kənara çıxmağa cəhd edildi. Lakin həmin dövrdə problemlərin çoxluğu və vaxtın qısalığı sağlam milli iqtisadiyyatın formalaşması üçün kifayət qədər iş görməyə imkan verməmişdir.

Çar Rusiyasının varisi olan sovet Rusiyasının 1920-ci ildə Azərbaycanı işğal etməsi nəinki Çar Rusiyası dövründə az-çox formalaşmış milli sahibkarlığı və onun subyektlərini məhv etdi, həm də bazar iqtisadiyyatına nisbətən istehsalın səmərəliliyini təşkil edə bilməyən inzibati-amirlik sisteminə keçməklə Azərbaycanda sağlam milli iqtisadiyyatın formalaşması imkanını tamamilə heçə endirdi.

Beləliklə, normal təbii tarixi inkişaf yolu keçmiş dövlətlərin sağlam milli iqtisadiyyatlarının formalaşdırılması təcrübəsinin təhlili göstərir ki, bu proses bir neçə mərhələni əhatə etməlidir. Hər bir ölkənin sağlam milli iqtisadiyyatının formalaşmasında bir çox xüsusiyyətlər və büdrəmələr olsa da, ümumi iqtisadi qanunauyğunluq birdir. Bu müstəqil milli dövlətin qərarlaşması və bazar iqtisadi sisteminin və demokratik cəmiyyətin qurulmasıdır. Digər ümumi iqtisadi qanunauyğunluq ondan ibarətdir ki, hər bir millət özünün sağlam milli iqtisadiyyatını özü formalaşdırmalı və inkişaf etdirməlidir. Dünyada baş verən bütün iqtisadi hadisə və proseslərin əsas səbəbi daxili, səhv olduğundan sağlam milli iqtisadiyyatın formalaşması və inkişafında da millət öz gücünə arxalanmalı, özünün adət-ənənəsinə, milli xüsusiyyətlərinə söykənməli, yerli şəraiti, reallığı, daxili və xarici vəziyyəti nəzərə alaraq milli birliyi təmin etmək və millətin gücünü əsas istiqamətə yönəltməklə problemini həll etməlidir.

Deməli, Azərbaycannı milli iqtisadiyyatının qeyri-sağlam, asılı iqtisadiyyata çearilməsinin əsas səbəbi Azərbaycan xalqının özündədir. Xarici səbəb bundan törəmədir. Səhv edən, qanunu və qanunauyğunluğu pozan, ona riayət etməyən subyekt, istər hər hansı şəxs, istərsə millət olsun fərqi yoxdur, hökmən cəzasını almalıdır. Azərbaycan xalqı cəmiyyətin ümumi inkişaf

qanunauyğunluğunu vaxtında düzgün dərk etməməkdə və onu nəzərə almamaqda böyük səhv etmişdir. Səhv isə heç vaxt bağışlanmır. Onun cəzası öz müstəqilliyini itirməklə nəticələnmişdir.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Azərbay-
can özünün sağlam milli iqtisadiyyatını formalaşdırmaq və inkişaf etirmək üçün bütün imkanlara və şərtlərə malikdir. Bunu şərtləndirən əsas amillər onun həm müstəqil dövlət olması, həm də inzibati-amirlik sistemindən imtina edərək bazar iqtisadiyyatına keçməyi qarşısına əsas məqsəd qoymasıdır. Digər nəticə ondan ibarətdir ki, Azərbaycan dövləti sağlam milli iqtisadiyyatının formalaşmasını tənzimləyərkən xarici kapitala üstünlük verməməli, onlara arxalanmamalı, onlara etibar etməməli, öz millətinə güvənməli, ona arxalanmalı, ona inanmalı, millətin sahibkarlıq qabiliyyəti olanlara şərait yaratmalı, ilkin kapital yığmaq qabiliyyəti və istedadı olan subyektlərə hərtərəfli kömək etməli və bunun əsasında sağlam milli iqtisadiyyatı formalaşdırmalı və inkişaf etdirməlidir. Dərk etmək lazımdır ki, Azərbaycanın mövcud olan bütün problemləri Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasından asılıdır.

Hazırda Azərbaycan çox çətin və məsuliyyətli dövrünü yaşayır. Belə ki, bir tərəfdən Azərbaycanın milli iqtisadiyyatını formalaşdırmaq üçün əlverişli şərait yaranıb, digər tərəfdən onun reallaşdırmağa mane olan çoxlu çətinliklər ortaya çıxıb. Bunlardan biri Azərbaycan təbii tarixi inkişaf mərhələlərindən keçmədiyinə, əsas yoldan sapdırıldığına görə əhalinin əlində kifayət qədər kapital yığımının olmamasıdır, eyni zamanda Azərbaycan sovet dövlətinin müstəmləkəsi olduğu üçün bütün ehtiyatı hakim dövlətin sərəncamına keçmişdir. Deməli, nə əhalinin, nə də dövlətin ixtiyarında milli sahibkarlığı

formalaşdırmaq və inkişaf etdirmək üçün olan vəsait kifayət deyil. Bunun əksinə, millətin intellektual səviyyəsi, dünyagörüşü, bütün sahələrdə müxtəlif mütəxəssislərin olması milli iqtisadiyyatın formalaşmasını asanlaşdırır. Azərbaycan xalqının təhsil, intellektual səviyyəsi, bəzi sahələrdə Azərbaycan mütəxəssisləri nəinki dünya standartlarına cavab verir, hətta onlardan yüksəkdir. Lakin insanların istək və arzularından asılı olmayaraq sağlam milli iqtisadiyyatın formalaşması və inkişafının bütün mərhələlərini Azərbaycan da bu və ya digər formada keçməlidir. Məsələn, azad sahibkarlığın formalaşması üçün ilkin kapital yığımı prosesinin zəruri olması. Avropa ölkələrində bu proses 200-300 il davam etmişdir.

Beləliklə, Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə sağlam milli iqtisadiyyatın formalaşması və inkişafının əsası olan milli sahibkarlığın yaranması üçün ilkin kapital yığımı prosesinin baş verməsinə şərait yaratmaq zəruridir. Lakin bu o demək deyil ki, Azərbaycanda ilkin kapital yığımı sıfırdan başlamalı, Avropadakı klassik kapitalizm ölkələrində olduğu kimi 200-300 il davam etməlidir. Artıq zaman keçmiş, tarixin təkərini geri fırlatmaq mümkün deyil. Amma bu da reallıqdır ki, adı çəkilən ölkələrdə feodalizm cəmiyyətinin son dövrlərində və azad sahibkarlığın ilkin mərhələsində görülən işləri Azərbaycan xalqı XX əsrin sonları XXI əsrdə görmək məcburiyyətində qalmışdır. Bu Azərbaycanın taleyidir və onun keçdiyi çox mürəkkəb, Keşməkeşli tarixi inkişaf yolu ilə əlaqədardır. Digər tərəfdən başqa şərq dövlətlərində olduğu kimi Azərbaycanda da Avropa dövlətlərinə nisbətən əmtəə-pul münasibətləri ləng inkişaf etmişdir. Bunun özünün də obyektiv və subyektiv səbəbləri vardır.

Azərbaycan 71 il sovet müstəmləkəçiliyi və inzibati-amirlik sistemində yaşaması ilə əlaqədar olaraq özünün sağlam milli iqtisadiyyatını formalaşdıra bilmədiyinə baxmayaraq Azərbaycan xalqı dünyanın ən istedadlı və yüksək intellektə malik olan millətdir. Bu xalq Avropanın XV-XVII əsrlərdəki insanları deyil, ona şərait yaradılarsa ilkin kapital yığımı prosesini qısa müddətdə başa çata bilər. Bunu da nəzərdən qaçırmaq olmaz ki, Avropa ölkələrində bu proses təbii, təkamül yolu ilə baş verdiyinə görə onun dövlət tənzimlənməsinə ehtiyacı olmamışdır. Azərbaycanda isə ilkin kapital yığımı prosesinin dövlət tərəfindən tənzimlənməsi obyektiv zərurətdir. Ona görə ki, Azərbaycanda azad sahibkarlığı inzibati yolla məhv edən və onun inkişafnını qarşısını alan sovet dövləti olmuşdur. Deməli, Azərbaycanın milli dövləti sovet dövlətinin etdiyi səhvləri düzəltməli və Azərbaycanda milli, xüsusi sahibkarlığın formalaşmasında mühüm əhəmiyyət kəsb edən ilkin kapital yığımı prosesinə şərait yaratmalıdır. Burada ən doğru yol iqtisadiyyatın yenidən qurulması məqsədilə həyata keçirilən islahatlar zamanı tarixən təcrübədən keçmiş və həyatda özünü doğrultmuş iqtisadi qanunauyğunluqlara əməl edilməsidir.

### § 3. Keçid dövründə Azərbayjanda qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatı formalaşdırmaq məqsədilə iqtisadi islahatların aparılmasının zəruriliyi

İqtisadi islahatlar yolu ilə müasir, tənzimlənən bazar iqtisadi sisteminin iqtisadi əsası olan çoxmülkiyyətli iqtisadiyyatın formalaşmasını qarşıya əsas məqsəd qoymaq yalnız keçid iqtisadiyyatlı dövlətlərə, o cümlədən Azərbaycana məxsusdur. Ona görə ki, normal inkişaf

etmiş, təbii-tarixi inkişaf yolundan sapdırılmayan dövlətlərdə sadə əmtəə istehsalı təkamül yolu ilə inkişaf edərək kapitalist əmtəə istehsalına çevrilmiş, bu tədrici inkişaf prosesində azad rəqabət kapitalizmi formalaşmışdır. Lakin inkişaf dinamik olduğundan kapitalistlər daha çox mənfəət əldə etmək xatirinə və rəqabətdə məğlub olmaq qorxusundan əldə etdikləri izafi dəyərin daha çox hissəsini kapitala çevirmişlər, yəni istehsal vasitələrinin aparılmasına, ən yeni texnikanın əldə edilməsinə və tətbiqinə üstünlük vermişlər. Bu hal kapitalın və istehsalın təmərküzləşməsinə və bununla əlaqədar olaraq inhisarların yaranmasına səbəb olmuşdur. İnhisarların meydana gəlməsi və istehsalın sənayeləşdirilməsi bir çox sosial problemlər yaratmışdır. Bu zaman dövlət inhisarların mənfi tərəfinin qarşısını almaq üçün hüquqi, iqtisadi və inzibati tədbirlər görməklə yanaşı dövlət mülkiyyətinin yaranmasına da xüsusi fikir vermişdir. Beləliklə, kapitalizm şəraitində xüsusi mülkiyyətlə yanaşı mülkiyyətin digər formaları, o cümlədən dövlət mülkiyyətinin yaranması da obyektiv zərurətə çevrilmişdir. Mülkiyyət münasibətlərində baş verən dəyişikliklər bazar iqtisadiyyatının müasir mərhələsi olan tənzimlənən bazar iqtisadiyyatının yaranması deməkdir. Bu inkişaf mərhələsinə çatmaq üçün bazar iqtisadi sistemini quran dövlətlər uzun bir inkişaf dövrü keçmiş, yüz illər ərzində fədakarcasına çalışmaqla buna nail olmuşlar.

Təəssüf ki, Rusiyada sosialist inqilabi pərdəsi altında baş verən çevriliş bu qanunauyğun prosesə son qoymuş və çoxlu sosial-iqtisadi problemlər yaratmışdır. Buna görə də həmin sistemdə yaşayan xalqlar o cümlədən Azərbaycan xalqı yenidən bazar iqtisadiyyatına keçməyi öz qarşılarına əsas məqsəd qoymuşdur. Lakin Azərbaycan bazar iqtisadi sisteminin azad rəqabət

kapitalizmə qayıda bilməz. Deməli, Azərbaycan müasir, tənzimlənən bazar iqtisadiyyatının iqtisadi əsası olan qarışıq (çoxmülkiyyətli) bazar iqtisadiyyatı formalaşdırmalıdır. Bunun isə əsas yolu iqtisadi islahatlardır. Çünki əgər keçid dövrünün birinci mərhələsində zorakı və qəddar üsullarla, qısa müddətdə bütün istehsal vasitələrini, o cümlədən torpağı, təbii sərvətləri dövlət mülkiyyətinə vermək mümkün oldusa, hazırda dövlət mülkiyyətini zorakı yolla və qısa müddətdə dağıtmaq və bunun əsasında çoxmülkiyyətli iqtisadi sistem yaratmaq olmaz. Bu həm qeyri-mümkündür, həm də bolşeviklərin – kommunistlərin ağılsız fəaliyyətlərinin mənfi nəticələri göz qabağındadır.

İqtisadi islahatlar öz başlanğıcını islahatları tənzimləyən hüquqi qanunların qəbul edilməsindən başlayır. Hüquqi qanunlar qəbul edilərkən hər bir dövlətin iqtisadi inkişaf səviyyəsi, daxili və beynəlxalq vəziyyəti, milli adət və ənənəsi, tarixən formalaşmış təsərrüfat formaları, əhalinin psixologiyası, onun islahatları həyata keçirməyə hazırlıq səviyyəsi, milli şüuru və bir çox obyektiv və subyektiv amillər nəzərə alınmalıdır. Başqa sözlə, hüquqi qanunların həyata keçirilməsinin mümkünlüyü reallığa söykənməlidir. Dövlət eyni zamanda qəbul olunmuş qanunların reallaşmasına zəmanət verməlidir. Dediklərimiz o zaman mümkün olar ki, dövlət tərəfindən iqtisadi islahatları tənzim edən qanunlar elm qanunlarının, o cümlədən iqtisadi qanunların tələbləri arasında işlənib hazırlansın. Daha doğrusu, hüquqi münasibətin məzmunu iqtisadi münasibətin özündən doğsun. K.Marks yazmışdır: «…Yuridik münasibət, bunun da forması müqavilədir, həm də bu müqavilənin qanunla təsbit edilib-edilməməsinin fərqi yoxdur, iradə münasibətidir, bunda da iqtisadi münasibət əks olunur.

Bu hüquqi münasibətin məzmununu iqtisadi münasibət özü verir».[1]

Azərbaycan Respublikası siyasi müstəqillik qazandıqdan sonra bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatların hüquqi əsaslarını yaratmağa başlamışdır. Bu zəminin yaradılmasının kənd təsərrüfatından başlanması düzgün və təqdirə layiqdir. Çünki bir tərəfdən əhalinin həyat səviyyəsinin yaxşılaşmasında, həm də sərf olunmuş məsrəflərin tez nəticə verməsində bu sahə üstünlüklərə malikdir. Digər tərəfdən Azərbaycanın sənayesi min bir gözə görünməz tellərlə imperiyanın digər regionları ilə sıx şəkildə bağlandığına görə sovet sistemi dağılarkən bütün iqtisadi əlaqələr kəsildi və respublikanın sənayesi iflic vəziyyətinə düşdü. Kənd təsərrüfatı isə bu vəziyyətə düşmədən onu inkişaf etdirmək imkanı qalmışdır.

İnzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçən dövlətlərdə, o cümlədən Azərbaycanda iqtisadi islahatların mərkəzində dövlət mülkiyyətinin, obyektlərinin özəlləşdirilməsi durur. Lakin dövlət mülkiyyətinin obyektlərini dərhal özəlləşdirmək olmaz. Bunun üçün hüquqi əsasları yaratmaqda bərabər digər tədbirlər də görülməlidir. Həm də bu sənədlər də sadədən mürəkkəbə doğru prinsipi əsasında həyata keçirilməlidir. Bu prinsipin eyni ilə aqrar bölməyə də aiddir. Məhz Azərbaycan dövləti bunu nəzərə alaraq 1992-ci ilin aprelində «İcarə haqqında» Respublika qanununu qəbul etdi. Qanunda qeyd edilir ki, icarə əmlaka, torpağa və digər təbii ehtiyatlara müqavilə əsasında, əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etməkdir.[1] Bu qanunun verilməsindən sonra kənddə icarə münasibətləri genişləndi. Bu prosesin artması təbii və qanunauyğun idi.

---

[1] **K.Marks. Kapital. 1-ci cild, səh. 589. Bakı, 1969.**

[1] **«Xalq» qəzuti, 27 may 1992.**

Bu kəndlilərin torpağa münasibətini müsbət mənada dəyişməsinə, məhsul istehsalının çoxalmasına təsir göstərdi.

Respublikamızda iqtisadi islahatların, o cümlədən aqrar islahatının həyata keçirilməsi üçün hüquqi sənədlərin demək olar ki, əsasları qəbul edilib. Bununla da islahatların hüquqi əsası yaradılıb. Beləliklə, torpağın xüsusi mülkiyyətə verilməsi, başqa sözlə, kənd əhalisi arasında pulsuz və bərabər bölüşdürülməsi hansı formadasa sosial ədalət prinsiplərinin qorunmasını və kənd təsərrüfatında özəlləşdirmənin kütləliyini təmin etmişdir.

Azərbaycanda keçid dövründə dövlət mülkiyyətinin obyektlərinin özəlləşdirilməsi və başqa iqtisadi islahatlar həyata keçirilərkən hökmən xarici iqtisadi əlaqələrlə uzlaşdırılmalıdır. Ona görə ki, beynəlxalq əmək bölgüsünün dərinləşməsi indiki şəraitdə heç bir dövlət, hətta iqtisadiyyatı inkişaf etmiş böyük dövlətlər belə xarici iqtisadi əlaqələr olmadan yaşaya bilməzlər. Sənayecə inkişaf etmiş klassik bazar iqtisadiyyatı ölkələrinin milli gəlirinin 30-40 faizi xarici iqtisadi əlaqələrin payına düşür. Buradan belə nəticə çıxarmaq olar ki, iqtisadi islahatlar təkcə daxili prosesləri deyil, həm də xarici əlaqələri əhatə etməlidir. Bunlar bir-birilə əlaqədardır və bir-birlərini şərtləndirirlər. Xarici iqtisadi əlaqələrin düzgün qurulması qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın formalaşması prosesinə müsbət təsir göstərər və ona təkan verə bilər. Bir çox çətinliklə qarşılaşdığımız indiki dövrdə, daxili istehlak bazarının pozulduğu şəraitdə ilk növbədə əhalinin zəruri ərzaq və gündəlik tələbat malları ilə təchizatını qaydaya salmaq üçün ticarət əlaqələrini hər vəchlə genişləndirmək, istehsalın texnoloji səviyyəsini qaldırmaq üçün xarici investisiyaının cəlb olunmasını sürətləndirmək, dünya təsərrüfat sisteminə səmərəli

qoşulmanı təmin etmək və s. kimi tədbirlər təcili görülmüşdür. Lakin bütün bunlar heç də xaostik olmamalıdır, onlar qanunla tənzimlənməlidir.

Xarici iqtisadi fəaliyyət sahəsində islahatların aparılması zamanı onun məqsəduyğunluq və səmərərəlilik meyarlarının müəyyənləşdirilməsindən başlanmalıdır. Daha doğrusu, ilk növbədə xarici iqtisadi əlaqələrin elmi cəhətdən əsaslandırılmış və dövrün tələbləri ilə səslənən yeni konsepsiya və siyasət hazırlanmalıdır.

Məlumdur ki, xarici iqtisadi fəaliyyətin əsas məqsədi xalqın ümumbəşəri ölçülərlə müqayisə oluna bilən maddi və mənəvi dəyərlərlə kifayət qədər təmin olunması üçün dünya təsərrüfat sisteminin yaratdığı imkanlardan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının səmərəli və ahəngdar işləməsinə şərait yaratmaq əsas məsələlərdən biridir.

Bunun üçün əvvəla, Azərbaycanın bazar sisteminin yaranması problemlərinin həllində xarici iqtisadi əlaqələrin imkanları müəyyənləşdirilməlidir; ikinci – Azərbaycan iqtisadiyyatının dünya iqtisadi təsərrüfat sistemində tuta bidəcəyi mövqe və mövcud şərait qiymətləndirilməlidir; üçüncü – cari iqtisadi və sosial problemlərin həllində xarici amillərin yeri düzgün müəyyənləşdirilməlidir; dördüncü – dünya miqyasında elmi-texniki tərəqqinin nailiyyətləri və qlobal proseslərin inkişaf istiqamətlərindən düzgün istifadə təmin olunmalıdır və s.

İqtisadi islahatlar, o cümlədən onun əsasında duran özəlləşdirmə həyata keçirilərkən xarici iqtisadi fəaliyyətin əsas istiqamətləri, onun forma və metodları ümumi iqtisadi inkişaf konsepsiyası və cari iqtisadi siyasətlə müəyyənləşdirilməli və əlaqələndirilməlidir.

Dünya təcrübəsi göstərir ki, dövlətin iqtisadi siyasəti məqsədli proqramlar vasitəsilə daha səmərəli həyata

keçirilir. Məqsədli proqram dövlət siyasətinin sistemli şəkildə tənzimləyir və istiqamətləndirir. Məhz buna görə də problemlərin səmərəli həlli üçün müxtəlif sahələri əhatə edən məqsədli proqramlar kompleksi yaradılmalıdır.

Xarici əlaqələrdə iqtisadi islahat hər şeydən əvvəl ixrac potensialının inkişaf etdirilməsinə yönəldilməlidir. Bunun üçün Azərbaycanın ixrac potensialının inkişaf etdirilməsi proqramı ixracın mövcud sahə və coğrafi quruluşunun əsaslı dəyişdirilməsi şəraiti ilə əmtəə və xidmət ixracının həcminin kəskin artırmağı nəzərdə tutmalıdır. Bu zaman daxili sahibkarlığın, ələlxüsus kiçik və orta biznesin fəal inkişafı təmin olunmalıdır. Strateji iqtisadi mənafe baxımından ixracın əsasən milli valyuta ilə aparılması məqsədəuyğun hesab edilir. Çünki belə olan halda manatın dönərliliyinin təmin olunması asanlaşır.

Təcrübə göstərir ki, indiki dövrdə Azərbaycan üçün dünya bazarına təkbaşına daxil olmaq çox çətindir. Ona görə də islahatlar həyata keçirilərkən xarici investorlarla birgə müəssisələr təşkil etməyə xüsusi fikir verilməlidir.

İqtisadi islahatlar həyata keçirilərkən idxalın səmərəliliyinə də xüsusi fikir vermək zəruridir. Xoşagəlməz haldır ki, hazırda Azərbaycanda əhalinin ən zəruri gündəlik tələbat malları ilə təminatı xeyli dərəcədə idxaldan asılı vəziyyətə düşmüşdür. Azərbaycanda belə bir vəziyyətə uzun müddət dözmək olmaz. Əlverişli təbii-iqlim şəraitinə malik olan vətənimizdə ərzaq və ərzaq məhsullarının idxalı tədricən azaldılmalı, onun optimal həcmləri və quruluşu müəyyənləşdirilməlidir və idxal siyasətinin çox vacib bir elementi daxili bazarın qorunması olmalıdır.

Deyilənlərdən aydın olur ki, keçid dövründə bazar iqtisadiyyatını formalaşdırmaq məqsədilə həyata keçirilən iqtisadi islahatlar bir-birilə əlaqədardır, onlar bir-birini

şərtləndirir. Buna görə də islahatlar kopmleks şəklində həyata keçirilməlidir.

## § 4. Azərbayjanda həyata keçirilən iqtisadi islahatlar sistemində özəlləşdirmənin yeri və rolu

Özəlləşdirmə anlayışı dünya iqtisadi ədəbiyyatına XX əsrin 70-ci illərində daxil olmuşdur. Bu sənayecə inkişaf etmiş bazar iqtisadi sistemi dövlətlərində baş vermişdir. Bu bazar iqtisadiyyatının müasir, tənzimlənən mərhələsində inhisarların meydana gəlməsi və bir çox sosial problemlərin yaranması ilə əlaqədar olaraq dövlətin iqtisadiyyatın tənzimlənməsinə müdaxilə etməyə məcbur etməsi ilə əlaqədar olmuşdur. Dövlət tənzimlənməsinin bir metodu da dövlət mülkiyyətini yaratmaq və onun vasitəsilə sosial problemlərin həllini öz üzərinə götürməkdir.

Müsair bazar iqtisadi sistemi ölkələrində elə müəssisə və istehsal sahələri var ki, onlar ya az səmərəlidir və yaxud böyük risk tələb edir, buraya kapital qoymaq ayrı-ayrı sahibkarlar üçün qorxuludur, çünki onun səmərəsiz işləməsi ehtimalı daha çox olur. Lakin dövlətin milli mənafeyi bu cür müəssisə və sahələrin yaradılması və inkişafını tələb edir. Amma bazar iqtisadi sistemində iqtisadi fəaliyyət azaldığı mövcud olduğundan dövlət heç bir sahibkarı adı çəkilən sahələrdə fəaliyyət göstərməyə məcbur edə bilməz. Bunun yeganə yolu həmin müəssisə və sahələrin təşkilini və inkişafını dövlətin öz üzərinə götürməsidir. Bu məqsədlə dövlət bu tipli müəssisələri ya satın almaq və yaxud dövlət büdcəsinin hesabına yaratmaq metodundan istifadə edilir və  zərər də dövlət büdcəsinin hesabına ödənilir.

Bir qayda olaraq dövlət mülkiyyətində olan müəssisələr özəl müəssisələrə nisbətən az səmərəli olurlar. Bu yalnız müəssisə və sahələrin xarakterindən asılı deyil, eyni zamanda maddi maraqla əlaqədardır. Çünki sahibkar müəssisədə olan nöqsanları daha tez görür və onların aradan qaldırılmasında çeviklik göstərir. Bunu dövlət yaxşı bilir. Buna görə də dövlət yeri gəldikdə, şərait yetişdikdə dövlət mülkiyyətində olan zərərlə işləyən və yaxud az səmərə verən müəssisələri özəlləşdirir, yəni bazarda satır. Belə alqı-satqı elə bir problem yaratmır. Ona görə ki, bu bazar mexanizmi vasitəsilə həyata keçirildiyindən dövlət alqı-satqı prosesinə təzyiq göstərmir, hər iki tərəfin razılığı ilə, tələb və təklif qanunu əsasında formalaşmış qiymətlə proses başa çatır. Digər tərəfdən, dövlət mülkiyyətinin xüsusi çəkisi az olduğundan bu dövlət üçün heç bir çətinlik törətmir.

Özəlləşdirmənin ən geniş miqyasda həyata keçirilməsi keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda baş vermişdir. Bu dövlətlər üçün kütləvi özəlləşdirmə xarakterikdir.

Özəlləşdirmənin bu formasının xarakterik xüsusiyyəti dövlət əmlakının pulsuz özəlləşdirilməsidir. Çünki əhalinin əksəriyyəti dövlət əmlakını pulla satın almaq iqtidarında deyil. Klassik bazar iqtisadiyyatlı dövlətlərdən fərqli olaraq keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi zamanı rüşvətxorluq, korrupsiya kimi xoşagəlməz halların geniş yayılması müşayiət olunur. Bu isə sovet sistemindən miras qalmış və keçid iqtisadiyyatının xüsusiyyətləri ilə əlaqədardır.

Keçid iqtisadiyyatlı dövlətlərdə özəllşdirmənin özünəməxsus xüsusiyyətləri olur. Bunlardan biri sovet məkanda yaranmış dövlətlərdə «nomenklatur» özəlləşdirmə modelinin geniş yayılmasıdır. Bunun

xarakterik cəhəti dövlət mülkiyyətinin səhmdar cəmiyyətlərinin mülkiyyətinə çevrilməsidir. Bu zaman səhmlərin böyük hissəsi dövlətin əlində cəmləşir. Bu isə müəssisə səviyyəsində dövlət və maliyyə nomenklaturası nümayəndələrinin səhmlərin çoxunu öz əllərində cəmləşdirməyə və həmin səhmdar cəmiyyətlərinə sahib olmaq üçün əlverişli şərait yaradır. Müəssisə formal olaraq səhmdar cəmiyyətinin mülkiyyəti adlansa da keçmiş dövlət mülkiyyəti olan müəssisə faktiki olaraq korporativ mülkiyyətçilər sərəncam verməni, istifadəetməni və başqalarını öz əllərində cəmləşdirirlər.

Əgər əmək kollektivi səhmlərin müəyyən hissəsini öz əllərinə alsalar belə real iqtisadi məzmun kəsb edə bilmir. Yəni istehsal vasitələrinə kollektiv şəkildə sərəncam vermək və istehsalın nəticəsini kollektiv mənimsəməsi çox çətin olur.

İnzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçən dövlətlərdə dövlət mülkiyyətinin səhmdar cəmiyyətin mülkiyyətinə vevrilməsinin bir xüsusiyyəti də səhmdar cəmiyyətinin açıq tipinin geniş tətbiq olunmasıdır. Bu isə keçid dövründə özəlləşdirmənin nomenklatur – korporativ mahiyyətini daha da gücləndirir. Səhmdar cəmiyyətinnin açıq tipinin çoxu ya rəhbərlərin əlinə keçir və yaxud dövlətin mülkiyyətində qalır.

Beləliklə, keçid dövründə qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın formalaşmasında mühüm rol oynayan özəlləşdirmə prosesində dövlətin inhisarında olan iri müəssisələrin əksəriyyəti müəssisələrin rəhbərləri ilə dövlət çinovikləri arasında bölünür. Bundan başqa bu müəssisələr bankların maliyyə asılılığına məruz qalırlar.

Lakin buna baxmayaraq dövlət mülkiyyətində olan obyektlərin özəlləşdirilməsi çoxmulkiyyətliliyə əsaslanan qarışıq iqtisadiyyatın formalaşmasında əsas, aparıcı istiqamətdir, bu prosesin çətinliyi, onda olan nöqsanlar

keçici xarakter daşıyır, qarışıq iqtisadiyyat formalaşdıqca, xüsusi mülkiyyətin çoxukladlı iqtisadiyyatda xüsusi çəkisi artdıqca çatışmamazlıqlar tədricən aradan qalxacaqdır.

İslahatların son məqsədi keçid dövründə Azərbaycanda qarışıq iqtisadiyyatın formalaşmasını başa çatdırmaqdır. Qarışıq iqtisadiyyatın formalaşmasında bir çox başqa yollar olsa da bunun mərkəzində dövlət əmlakının kütləvi özəlləşdirilməsi durur. Bu məqsədlə 1992-ci ildə Azərbaycan Dövlət Əmlak Komitəsi yaradılmışdır. Həmin qurum hökumətlə birlikdə iqtisadi islahatların məhəng daşı olan özəlləşdirmənin strategiya və taktikasını işləyib hazırlamışdır.

XX əsrin 90-cı illərin ikinci yarısında Azərbaycanda iqtisadi və siyasi sabitlik sahəsində və struktur islahatlarda xeyli mütərəqqi irəliləyiş olmuşdur. Dövlətin bir sıra tədbirlərin həyata keçirməsi sayəsində inflyasiyanın səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Sabitliyin əldə edilməsinə ağıllı büdcə maliyyə-kredit siyasətinin düzgün aparılması şərait yaratmışdır.

İndiki dövrün xarakterik cəhəti respublikanın iqtisadi islahatların yeni mərhələsinə daxil olmasıdır. Hazırda milli sahibkarlığın formalaşması və bazar münasibətlərinin yaranması sahəsində fəal proseslər gedir.

Bütün iqtisadi sistemlərin, o cümlədən bazar iqtisadi sisteminin güşə daşı mülkiyyətdir. 9 noyabr 1991-ci ildə «Azərbaycan Respublikasında mülkiyyət haqqında», 24 dekabr 1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında» respublika qanunları qəbul edilmişdir. Bunlar dövlət əmlakının özəlləşdirilməsinə başlamağa hüquqi zəmin və şərait yaratmışdır. Bir qədər sonra, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında bütün mülkiyyət formalarının bərabərliyi və hüquqi cəhətdən müdafiə olunması özəlləşdirmənin genişlənməsinə təminat verir.

Özəlləşdirmənin bu və ya digər forması seçilərkən müəssisənin hansı sahədə yerləşməsi, əsas fondların həcmi və quruluşu, istehsal etdiyi məhsul, götürdüyü gəlir nəzərə alınmalıdır. Hansı mülkiyyət forması səmərəli olsa, ona daha çox üstünlük verilməlidir. Bütün bunlar nəzərə alınaraq dövlət mülkiyyətinin özəlləşdirilməsi həyata keçirilərsə ölkəmizdə xüsusi sahibkarlığın formalaşması daha sürətlə həyata keçirilər, eyni zamanda sağlam əsaslar üzərində qurular. Sağlam əsaslar üzərində dedikdə özəlləşdirmənin həyata keçirilməsində milli xüsusi sahibkarlığın formalaşması ön plana çəkilməsi nəzərdə tutulur. Ona görə ki, keçid dövründə və sonrakı illərdə qarışıq iqtisadiyyatın formalaşması və inkişafının əsas ağırlığı milli sahibkarların üzərinə düşür.

Beləliklə, bazar iqtisadiyyatına keçid dövründə qarışıq iqtisadiyyatın formalaşmasında əsas yük xüsusi sahibkarlığın payına düşməlidir. Bu baxımdan bazar iqtisadiyyatına keçid şəraitində dövlət mülkiyyətinin özəlləşdirilməsi və xüsusiləşdirilməsi müstəsna əhəmiyyət kəsb edir.

Sosialist sisteminə daxil olan ölkələrin hamısı mərkəzi planlaşdırmadan imtina etdilər, bir çox vasitələrdən, ilk əvvəllər isə mərkəzi orqanların bəzi vəzifələrini yerli orqanlara verilmişdir. Bu, iqtisadiyyatın mərkəzdən idarəetməni zəiflətsə də qarışıq iqtisadiyyatın formalaşmasının uzadan yoldur. Qarışıq iqtisadiyyatın yaranmasında ən radikal və operativ yol dövlət əmlakının özəlləşdirilməsidir. Məhz buna görə də postsosialsit ölkələrin demək olar ki, hamısı qarışıq iqtisadiyyatın formalaşmasında bu vasitəyə üstünlük vermişlər. Lakin bütün dövlətlər bazar sisteminə bərabər şəkildə keçməmişlər. Hər bir ölkə özünün tarixi və mədəni inkişaf baxımından bir-birindən fərqlənmişlər. Çin 1978, Mərkəzi və Şərqi Avropa 1989, keçmiş SSRİ isə sovet iqtisadi

sistemi dağıldıqdan sonra bazar iqtisadi sisteminə keçməyə başlamışlar.

Bu prosesin həyata keçirilməsində ümumi cəhəti ondan ibarətdir ki, sabiq sosialist dövlətlərinin hamısında dövlət mülkiyyətinin özəlləşdirilməsi əsasında qarışıq iqtisadiyyatın yaranmasında xüsusi sahibkarlığın formalaşması və inkişafı ön plana çəkilir və ona üstünlük verilir.

Sabiq Sovet məkanında yaranmış gənc milli dövlətlərdə dövlət əmlakının özəlləşdirilməsinin ümumi cəhətləri ilə yanaşı bir çox obyektiv və subyektiv səbəblər, təbii şəraitlə əlaqədar olaraq özünəməxsus xüsusiyyətləri də vardır. Məhz buna görə də keçid dövründə qarışıq iqtisadiyyatın formalaşmasında mühüm rol oynayan, bir çox sosial-iqtisadi və siyasi problemlərin həllində əsas vasitələrdən biri olan iqtisadi islahatların ana xəttini təşkil edən özəlləşdirmə prosesinin həyata keçirilməsində bu xüsusiyyətlər nəzərə alınmalıdır.

Azərbaycanda özəlləşdirmənin fərqli cəhəti ondan ibarətdir ki, burada özəlləşdirməyə proqram yanaşma və mərhələrlə həyata keçirilir. Yəni prosesin həyata keçirilməi ardıcıl və sistem xarakteri daşıyır və dövlətin özəlləşdirmə proqramı reallaşdırılır.

Respublikamızda özəlləşdirmənin vacib prinsiplərindən biri onun mərhələrlə həyata keçirilməsidir. Belə ki, ilk mərhələdə kiçik müəəsisələr, daha sonra orta və iri müəssisələr özəlləşdirilir. Bu baxımdan kiçik və iri özəlləşdirmə anlayışları da bir-birindən fərqləndirilir. Rusiyada həyata keçirilən özəlləşdirmə təcrübəsinə əsasən kiçik sənaye müəssəsələrdə balans dəyəri bir milyon manatdan, işçilərinin sayı 200 nəfərdən az olan müəssisələr daxil edilir. İri müəssisələrdə bu göstərici 50 milyon manatdan və 1000 nəfərdən yuxarı işçisi olan müəssisə təşkil edir. Azərbaycanda bu göstəricilər

Rusiyadan xeyli fərqlidir. Belə ki, Azərbaycanda bu göstərici kiçik müəssisələri üçün müvafiq olaraq 500 min, 50 nəfər , iri müəssisələr üçün isə 20 milyon, 300-350 nəfər arasında tərəddüd edir. Lakin göstərmək lazımdır ki, müəssisələrin qeyd edilmiş formada qruplaşdırılması şərti xarakter daşıyır və hər bir ölkənin öz xüsusiyyətinə uyğun olaraq dəyişdirilə bilər. Bu halda müəssisənin kəmiyyət göstəriciləri deyil, real iqtisadi vəziyyəti əsas rol oynayır.

Respublikada dövlət əmlakının özəlləşdirilməsi qanunvericilik aktlarının toplusu əsasında həyata keçirilir. Burada aparıcı mülkiyyət forması, dövlətsizləşdirmə və özəlləşdirmənin qaydaları, onların əsas prinsipləri, obyektləri, formaları, onun həyata keçirilməsinin şərtləri və metodları, satın alınmanın qaydaları və bir çox başqa məsələlər öz əksni tapmışdır və bu proses «sadədən mürəkkəbə doğru» prinsipinə əsaslanır. Məsələn, Azərbaycanda kiçik özəlləşdirmə 1991-ci ildən başlasa da bu proses yalnız 1996-cı ildə böyük sürət almışdır.

Ölkəmizdə kiçik özəlləşdirmənin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu tip özəlləşdirmə obyekti olan müəssisələr əslində sahibli müəssisələr sayılırdılar. Bu o deməkdir ki, kiçik özəlləşdirmədə iştirak edənlər əsasən əvvəllər həmin müəssisələri öz mülkiyyəti hesab edənlərdir. Daha doğrusu, hələ sabiq Sovetlər dövründə bu sahədə xüsusi özəlləşdirmə getmişdir. Məsələn, mağazalar, xidmət sahəsində fəaliyyət göstərən kiçik müəssisələrin əksəriyyəti dövlət mülkiyyətinin obyektləri sayılsa da onlar faktiki olaraq onları idarə edən subyektlərin xüsusi mülkiyyəti olmuşdur. Yalnız yuridik cəhətdən dövlətin hesab olunurdu. Bu faktor kiçik özəlləşdirməyə təkanverici amil kimi çıxış etdi və qısa bir müddətdə ticarət mağazaları, yeməkxanalar, bərbərxanalar, camaşırxanalar və başqa xidmət

sahələrində fəaliyyət göstərən kiçik müəssisələr, tədarük idarələri, yerli sənaye müəssisələri və sairlər özəlləşdirildi.

Dövlət əmlakının özəlləşdirilməsinin bu mərhələsində həmçinin ticarət, məişət xidməti müəssisələri və kiçik sənaye obyektləri, habelə yüngül, yeyinti sənaye müəssisələri, tədarük şəbəkələri, tikinti, nəqliyyat, yanacaq doldurma məntəqələri və bir çıx digər müəssisələr dövlətin inhisarından azad olmuşdur.

Keçid dövründə qarışıq iqtisadiyyatın formalaşmasında kiçik özəlləşdirmə müsbət rol oynasa da problemin həlli üçün kifayət deyildi, onu daha da dərinləşdirmək, özəlləşdirmənin yeni mərhələsinə keçmək obyektiv zərurət idi.

1993-cü ilin yanvarında «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonra dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinin əhatə dairəsi genişlənmiş və dərinləşməyə başlanmışdır. Lakin özəlləşdirmə əsasən qeyri-istehsal sahəsində aparılmış və bu proses ləng getmişdir. İslahatların bu cür gedişi bazar iqtisadiyyatının formalaşmasına mənfi təsir göstərir və keçid dövrünü uzadır. Bu prosesi sürətləndirmək məqsədilə «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»nın layihəsi işlənib hazırlanmış və xalqın müzakirəsinə verilmişdir.[1] Müzakirədən sonra Proqram qəbul edilmişdir. Burada özəlləşdirmənin məqsəd və vəzifələri, istiqamətləri, üsulları, müddəti və mərhələləri, özəlləşdirilən müəssisə və obyektlərin təsnifatı, özəlləşdirmənin konkret variantları, özəlləşdirmədən əldə

---

[1] **«Azərbaycan» qəzeti, 1 iyul 1995.**

edilən vəsaitlərin istifadə qaydası, özəlləşdirmə payının həcmi və ondan istifadə qaydaları müəyyən edilmişdir.

Proqramda, həmçinin dövlət əmlakının özəlləşdirmə çeklərinə və pula satmaq yolu ilə əhalinin əksər hissəsinin özəlləşdirməyə və investisiya prosesinə cəlb edilməsi məsələsinə geniş yer verilmişdir. Bunu da qeyd etmək lazımdır ki, Proqram torpaq və mənzil fondunun özəlləşdirilməsini tənzimləmir.

Azərbaycan XX əsrin 90-cı illərin sonlarından dövlət əmlakının özəlləşdirilməsinin ikinci, yəni iri müəssisələrin özəlləşdirilməsi mərhələsinə daxil olmuşdur. Bu proses Dövlət Proqramına əsasən ardıcıl olaraq həyata keçirilir. Bu uzun müddətli və çətin proses olduğundan onun nə vaxt başa çatacağını demək çətindir. Ancaq bu məlumdur ki, dövlət əmlakının özəlləşdirilməsinin əsasən başa çatmısa ilə Azərbaycanda milli sahibkarlığın formalaşması təmin olunacaq. Çünki bunlar bir-birindən ayrılmaz uzunmüddətli prosesdir. Keçid dövründə dövlətin əsas məqsədi bu mütərəqqi və bundan yan keçilməsi mümkün olmayan obyektiv prosesi tənzimləmək və bunları bir-birilə əlaqələndirməkdir.

## § 5. Bazar münasibətlərinin formalaşmasında qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın yeri və bu problemin həllində dövlətin rolu

Bazar iqtisadi sistemi öz inkişafında iki mərhələdən keçmişdir. Azad rəqabət kapitalizmi adlanan birinci mərhələnin iqtisadi əsasını istehsal vasitələri üzərində xüsusi mülkiyyət təşkil etmişdir. Lakin məhsuldar qüvvələrin fasiləsiz inkişafı, XIX əsrin son qərinəsində elm və texnikanın inkişafındakı sıçrayış istehsalın təmərküzləşməsini və mərkəzləşməsini sürətləndirmişdir. Bu isə eyni iqtisadi sistem daxilinlə iqtisadi

münasibətlərin təkmilləşməsini zərurətə çevirmişdir. Bu, hər şeydən əvvəl inhisarın yaranması ilə əlaqədar idi. İnhisarların azad rəqabətin məhdudlaşdırılması nəinki əmək məhsuldarlığının yüksəldilməsində mühüm amil olan texniki tərəqqini ləngitdi, bununla bərabər istehsalın qeyri-sabitliyinə, işsizlər ordusunun yaranmasına və inflyasiyanın güclənməsinə səbəb oldu. Əgər azad rəqabət kapitalizm dövründə bazar mexanizmi iqtisadiyyatın təşkili və idarə olunmasını təşkil edə bilirdisə, kapitalizmin inkişafının bu mərhələsində bazar mexanizmi iqtisadiyyatı makroiqtisadi səviyyədə idarə edə bilmir. Buna görə də iqtisadiyyatı makroiqtisadi səviyyədə tənzim olunmasına dövlətin qarışması zərurəti yarandı. Beləliklə, dövlətin makroiqtisadi səviyyədə iqtisadiyyatın idarə olunmasına qarışması ilə əlaqədar olaraq qarışıq iqtisadiyyat formalaşmağa başladı.

Bazar iqtisadi sisteminin hər iki mərhələsinin müqayisəsi göstərir ki, müasir mərhələnin iqtisadi əsası olan qarışıq mülkiyyət bazar iqtisadi sisteminin ən təkmilləşmiş və yüksək mərhələsidir, həm də əvvəlki bazar münasibətlərindən daha mütərəqqi və məhsuldar qüvvələrin inkişafına geniş meydan açır. Məhz buna görə də bazar iqtisadiyyatına keçid dövründə respublikamızda məqsəd qarışıq iqtisadiyyatı formalaşdırmaqdır.

Bazar iqtisadi sisteminin ikinci mərhələsində dövlətin iqtisadiyyatın tənzimlənməsinə müdaxiləsinin zərurliyini və onun müsbət nəticə verəcəyini ilk dəfə tədqiq edən məşhur ingilis iqtisadçısı L.C.Keyns (1883-1946-cı illər) olmuşdur.

Dövlətin iqtisadiyyatın tənzimlənməsi problemində C.M.Keynsin nəzəriyyəsi klassik iqtisadçıların, monetaristlərin nəzəriyəsindən köklü surətdə fərqlənirdi. Monetaristlər belə hesab edirdilər ki, dövlətin iqtisadiyyatın tənzimlənməsinə müdaxiləsi bürokratizmə,

istehsalın qeyri-səmərəliliyinə, fərdlərin təşəbbüsünün məhdudlaşmasına gətirib çıxaracaqdır. C.M.Keynsə görə isə xüsusi investisiya iqtisadiyyatın qeyri-sabitliyinə şərait yaradır. Dövlət bu prosesin həyata keçirilməsində müsbət rol oynaya bilər.[1]

C.M.Keynsə görə bazar iqtisadiyyatının müasir mərhələsində istehsalın qeyri-sabitliyini aradan qaldırmaq, inflyasiyanın qarşısını almaq, işsizləri işlə təmin etmək üçün dövlət bölməsinin yaradılması zəruridir. Xüsusi kapital iqtisadiyyatın makroiqtisadi səviyyədə təmin etmək iqtidarında deyil. O yazırdı ki, əgər dövlət istehsal vasitələrinin artırılmasına ümumi vəsait həcmini və bu vəsait sahiblərinin əsas mükafat haqqının müəyyən edə bilsəydi, bu halda hər şeyə nail olmaq mümkündür.[2]

C.M.Keynsin bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə dövlət bölməsinin yaradılmasının zəruriliyi və onun müsbət nəticələr verəcəyi haqqında nəzəriyyəsi təcrübədə özünü doğrultdu. Bu istiqamətdə inkişaf edən ölkələrdə dövlət mülkiyyəti yarandı və dövlət buna söykənərək bir çox problemləri müvəffəqiyyətlə həll etdi. Məhz bunun əsasında iqtisadiyyat inkişaf edərək indiki ən yüksək səviyyəsinə çatdı. Bu nəzəriyyəni demək olar ki, bazar iqtisadiyyatı sisteminə daxil olan ölkələrin əksəriyyəti qəbul etmişdir.

Bazar iqtisadi sisteminin müasir mərhələsində bir-birindən fərqli olsa da dövlət obyektlərinin özəlləşdirilməsi həm klassik bazar iqtisadi sistemi, həm də inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçən dövlətlər üçün qanunauuğunluqdur. Məsələn, Böyük Britaniyanın sabiq baş naziri M.Tetçer 1979-cu ildə ilk dəfə özəlləşdirməni dövlətin iqtisadi siyasətinin başlıca vəzifəsi hesab

---

[1] Кемпбелл Р., Маконнелл, Стенли Л.Брю. «Экономикс», **Bakı, 1992, səh. 321.**

[2] **İqtisadi təlimlər tarixi. Bakı, 1971, səh. 184.**

etmişdir. Bunun nəticəsidir ki, on il ərzində iqtisadiyyatın dövlət bölməsinin 29 iri müəssisəsi xüsusi mülkiyyətə verilmişdir. Dövlət müəssisəsi olan «Britiş sitil» müəssisəsi həftədə demək olar ki, bir milyon sterlinq zərər gətirdiyi halda, o xüsusi sahibkara verildikdən sonra sabit mənfəət gətirən müəssisəyə çevrilmişdir.[1] Deməli, həm klassik bazar iqtisadi sistemi, həm də bu sistemə keçmək istəyən dövlətlərdə özəlləşdirmədə məqsəd istehsalın səmərəliliyini yüksəltməkdir. Fərqli cəhət ondan ibarətdir ki, klassik bazar iqtisadi sisteminə daxil olan ölkələr qarışıq iqtisadiyyatın daha da inkişaf etdirməyə çalışdıqları halda inzibati-amirlik sistemindən bazar iqtisadiyyatın keçən dövlətlər qarışıq iqtisadiyyatı formalaşdırmağa çalışırlar. Deməli, həm klassik bazar iqtisadi sistemi ölkələrində, həm də keçid iqtisadiyyatlı, o cümlədən Azərbaycanda dövlət mülkiyyətinin olması zəruridir. Lakin onun xüsusi çəkisi hər ölkənin özünün spesifik xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir. Bir qayda olaraq bütün dövlətlər onun payını minimuma endirməyə çalışırlar. İnzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçən dövlətlərdə dövlət mülkiyyətinin çox olması da təbii haldır.

Müxtəlif mülkiyyət formalarına (dövlət mülkiyyəti, kollektiv mülkiyyəti, əmək kollektivinin mülkiyyəti, şirkətlərin mülkiyyətin, səhmdar cəmiyyətlərinin mülkiyyəti, ictimai təşkilatların, birliklərin mülkiyyəti, şəxsi, fərdi mülkiyyət, xarici ölkələrin hüquqi şəxsləri ilə qarışıq mülkiyyət və s.) əsaslanan qarışıq iqtisadiyyat şəraitində adamların fəaliyyəti sərbəstləşir, məhsulların mübadiləsi dəyər qanununun tələblərinə uyğun olaraq ekvivalentlilik prinsipinə əsaslanır. Daha doğrusu, hazırda qiymətlər tamamilə liberallaşıb. Bunun qarışıq iqtisadiyyatın

---

[1] И.Пашкова. Приватизация и иностранные инвестиции. **Bax.** Российский экономический журнал, № 5, Москва, 1992, **səh. 23.**

formalaşmasında mühüm rolu vardır. Bununla da mülkiyyətin formasından asılı olmayaraq, bütün istehsalçıların fəaliyyətində çeviklik, təşəbbüskarlıq və məsuliyyət hissi artır. Adamlar sözün əsl mənasında həm mülkiyyətçi və həm də istehlakçı olmaqla yaxşı dərk edirlər ki, onların yaşayış səviyyəsi istehsal etdikləri məhsulların kəmiyyət və keyfiyyətindən asılıdır. Deməli, qarışıq iqtisadiyyat şəraitində əlaqələrin düzgün tənzimlənməsi yolu ilə keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanın iqtisadiyyatında əmələ gəlmiş çətinliklərdən çıxmaq və onun inkişafına dinamik xarakter vermək mümkündür.

Keçid dövründə Azərbaycanda qarışıq iqtisadiyyatın aparıcı mövqeyini təmin etməkdə dövlətin rolu daha klassik bazar ölkələrinə nisbətən həm çətin, həm də rolu böyükdür. Ona görə ki, keçid iqtisadiyyatlı dövlətlərdə iqtisadi və siyasi sabitsizlik klassik bazar iqtisadi sistemi ölkələrindən daha yüksək səviyyədə olur. Bir tərəfdən o, köhnə sistemin dağılması ilə əlaqədar yaranan hərc-mərcliyin, özbaşınalığın, talançılığın qarşısını almalı, digər tərəfdən mili mənafeyə uyğun gələn yeni iqtisadi sistemin, qarışıq iqtisadiyyatın formalaşmasında, Sovet dövləti zamanı milli iqtisadiyyatın eybəcər şəkilə salınmış strukturunun yenidən qurulmasında iştirak etməlidir. Buna görə də keçid dövründə gənc milli Azərbaycan dövlətinin qarşısında mürəkkəb vəzifələr durur və çoxpilləli funksiyalar yerinə yetirməlidir.

Bunlar əsasən aşağıdakılardır:

1. Köhnə iqtisadi sistemi dağıtmaq, ləğv etməklə bağlı funksiya. Məhz iqtisadi islahatlar və onun özəyini təşkil edən dövlət əmlakının özəlləşdirilməsi bu məqsədi güdür.

2. Yeni iqtisadi sistemi formalaşdırmaqla bağlı funksiya. Buraya qarışıq iqtisadiyyatı formalaşdırmaqla sağlam milli iqtisadiyyatı yaratmaq daxildir.

3. Yeni yaranmış təsərrüfat sisteminin inkişafı və idarə edilməsi ilə bağlı funksiya. Qeyd etmək lazımdır ki, bürokratik dövlət aparatının yaranması inzibati-amirlik sisteminin mahiyyətindən doğmuş və onun qalıqları indiyə kimi qalmaqdadır. Deməli, keçid dövründə iqtisadiyyatın bütün sahələrində olduğu kimi idarəetmə aparatında da islahatlar lazımdır. Çünki qarışıq iqtisadiyyatın formalaşmasında, bazar münasibətlərinin genişlənməsində bu amil çox əngəllər törədir.

4. Respublikanın iqtisadi müstəqilliyinin təmin edilməsi ilə bağlı funksiya. Sağlam milli iqtisadiyyatı formalaşdırmadan bu problemin həlli mümkün deyil. Bu isə yalnız çoxmülkiyyətli iqtisadiyyatın yaranmasının necə həll edilməsindən asılıdır. Bu problem iqtisadi müstəqilliyi əldə etməkdən daha çətin və uzunmüddətlidir.

5. Dövlətin makroiqtisadi sabitləşdirmə funksiyası. Bu funksiya cəmiyyət miqyasında iqtisadi sabitliyin təmin edilməsinə yönəldilmişdir. Azərbaycan dövləti bu funksiyadan istifadə edərək büdcənin kəsirini azaltmağa, pul tədavülünü qaydaya salmağa, qiymətləri tələb-təklif əsasında formalaşdırmağa, inflyasiyanın tempini azaltmağa, əhalinin tam məşğulluğuna nail olmağa çalışır. Bu istiqamətlərin hər birinə aid olan konkret dövlət tədbirləri həyata keçirilir. Bununla belə bazar iqtisadiyyatı formalaşdıqca dövlət özünün bir çox tədbirlərindən əl çəkməklə xüsusi bölmənin sərbəst fəaliyyətinə şərait yaratmalıdır, yəni iqtisadi proseslərə dövlətn birbaşa müdaxiləsi azalmalıdır.

6. Dövlətin qanunvericilik funksiyası. Dövlət özünün bu funksiyası vasitəsilə cəmiyyətin normal fəaliyyətini təmin edə bilən qanunların özünü və onların

reallaşdırılması mexanizmini hazırlayır. Dəqiq və hərtərəfli işlənmiş qanunlar bazarın güclü tənzimləyicisidir. Dövlət qanunlar vasitəsilə bazarda «oyun qaydalarını» müəyyən edir, «vəhşi» bazarı sivil bazara çevirir, istehsalçı və istehlakçıların hüquqlarını müdafiə edir. Azərbaycanın Milli Məclisi bazar iqtisadiyyatına keçməyi şərait yaradan bir çox qanunlar qəbul etmişdir. Bunlar antiinhisar fəaliyyəti, mulkiyyət, özəlləşdirmə, vergilər, büdcə, əhalinin sosial müdafiəsi təbiətin mühafizəsi, torpaq, gömrük və s. məsələlər haqqında qanunlardır. Bunlarla yanaşı, Azərbaycan Prezidentinin iqtisadi məsələlərə dair bir çox fərmanları, Nazirlər Kabinetinin sərəncam və qərarları keçid dövrü münasibətlərinin tənzimlənməsində hüquqi əsas rolunu yerinə yetirirlər. Lakin dövlətin iqtisadi funksiyaları, xüsusilə keçid iqtisadiyyatlı dövlətlərdə onun vəzifələri daha geniş və əhatəlidir. Müasir dövrdə insan fəaliyyətinin elə sahəsi yoxdur ki dövlətin rolu orada hiss edilməsin.

Keçid dövründə dövlət iqtisadi funksiyalarını islahatlar aparmaq yolu ilə həyata keçirir. O, bu tədbirləri görərkən müxtəlif forma və metodlardan istifadə edir. Muasir bazar münasibətləri şəraitində sosial-iqtisadi proseslər iqtisadi və qeyri-iqtisadi metodlarla tənzimlənir. Qeyri-iqtisadi metod dedikdə inzibati metod nəzərdə tutulur. Bu iki metod arasında nisbət şərti xarakter daşıyır. Hər hansı bir iqtisadi metod tətbiq edildikdə onun həyata keçirilməsi inzibati metodla müşayiət olunur. Ona görə ki, iqtisadi tədbirlər həyata keçirilərkən əvvəlcə müvafiq qərar qəbul edilməlidir. Dövlətin qəbul etdiyi qərar yerinə yetirilməlidir, həmin qərarı yerinə yetirməyənlər inzibati yolla cəza alırlar.

Bazar iqtisadiyyatına keçid dövründə qarışıq iqtisadiyyatın formalaşması zamanı dövlətin rolu həm inzibati-amirlik iqtisadi sistemi dövründəkindən, həm də

klassik bazar iqtisadi sistemində mövcud olan məmləkətlərdən daha çoxdur və həlledici qüvvəyə malikdir. Bu onunla izah olunmalıdır ki, klassik bazar iqtisadiyyatı dövlətlərində qanunlar işləyir, inzibati-amirlik sistemində iqtisadiyyat inzibati qayda-qanunla tənzim olunmuşdur. Diktatura yolu ilə, inzibatçılıqla iqtisadiyyatı tənzimləmək iqtisadi vasitələrlə idarə etməyə nisbətən asandır. Azərbaycan əhalisinin yaşlı və orta nəsli inzibati-amirlik sistemində yaşadığından inzibati metodla idarə olunmağa öyrəşmişlər, bazar iqtisadi sisteminin qanunlarına çətin uyğunlaşırlar, həm iqtisadi, həm də hüquqi qanunların tələblərinə laqeydlik göstərirlər. Məhz buna görə də keçid dövründə qarışıq iqtisadiyyatın formalaşması zamanı hər iki tənzimləmə metodu tam gücü ilə işləmədiyinə görə ağırlıq əsasən dövlətin üzərinə düşür.

**Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar**

1. Bir iqtisadi sistemdən digərinə keçmək ümumi iqtisadi qanunauyğunluqdurmu?
2. Azərbaycanın indiki keçid dövrünün xüsusiyyətlərini təhlil edin.
3. Azərbaycan bazar iqtisadi sisteminin hansı mərhələsinin iqtisadi əsaslarını yaratmağı qarşısına əsas məqsəd qoymuşdur? Bazar iqtisadi sisteminin siyasi və maddi-texniki əsası nədir?
4. İqtisadi islahatlar keçirmək məqsədilə müstəqilliyin ilk dövrlərində qəbul olunan qanunların bir neçəsinin adını çəkin.
5. Özəlləşdirmə anlayışının meydana gəlməsinin səbəbini izah edin və klassik bazar iqtisadi sistemi dövlətləri ilə keçid iqtisadiyyatlı ölkələrdə aparılan özəlləşdirmənin ümumi və fərqli cəhətlərini təhlil edin.

6. Nə üçün keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda kütləvi özəlləşdirmə forması seçilib? Dövlətsizləşdirmə ilə özəlləşdirmənin ümumi və fərqli cəhətlərini izah edin.

7. Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinin mərhələlərini sayın və hər birini ayrılıqda şərh edin.

8. Hansı dövlət əmlakları özəlləşdirilə bilməz?

9. Şərqi Avropa məkanında yerləşən keçid iqtisadiyyatı dövlətlərlə sabiq SSRİ ərazisində yaranan dövlətlərdə özəlləşdirmənin xüsusiyyətləri hansılardır?

10. Bazar iqtisadi sisteminin müasir mərhələsində dövlətin iqtisadiyyatın tənzimlənməsinə müdaxilə etməsinin zəruriliyini sübut edin.

11. Azərbaycanda azad sahibkarlığın formalaşması və inkişafı üçün hansı şərtlər ödənilməlidir və bu sistemdə ilkin kapital yığımının rolu nədən ibarətdir?

## Müzakirə üçün suallar və tapşırıqlar

1. Azərbaycanda keçid dövrünün olmasının əsas səbəbini izah edin.

2. Azərbaycanda 1920-1937-ci illər keçid dövrü ilə 1991-ci ildən sonrakı keçid dövrünün məqsədlərini bir-birilə müqayisə edin və hansının mütərəqqi olmasını əsaslandırın.

3. Azad rəqabət bazar iqtisadi sistemi ilə müasir, tənzimlənən bazar iqtisadi sisteminin iqtisadi əsası nədir və bunlar hansı əlamətlərinə görə bir-birindən fərqlənirlər?

4. Azərbaycan müasir bazar iqtisadi sisteminin iqtisadi əsasını yaratmağa hansı yollarla həyata keçirmək

istəyir. İnqilab yolu ilə qarışıq (çoxmülkiyyətli) milli iqtisadiyyatı yaratmaq mümkündürmü?

5. Azərbaycanda milli sahibkarlığın formalaşması və inkişafında iqtisadi islahatların rolunu şərh edin.

6. İqtisadi islahatlar sistemində özəlləşdirmənin yerini və keçid dövründə qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın formalaşmasında özəlləşdirmənin aparıcı rol oynamasını əsaslandırın.

7. Azərbaycanda qarışıq (çoxmülkiyyətli) iqtisadiyyatın formalaşmasında dövlətin rolunu təhlil edin.

8. Keçid dövründə Azərbaycanda ilkin kapital yığımının vəziyyətinin ağır olmasının əsas səbəbi nədir və dövlət bunun aradan qaldırılması üçün hansı tədbirlər görür?

## 4-jü MÖVZU. AZƏRBAYJANIN SAĞLAM MİLLİ İQTİSADİYYATININ FORMALAŞMASI VƏ İNKİŞAFINI HƏLL ETMƏKDƏ MƏHSULDAR QÜVVƏLƏRİN SƏMƏRƏLİ YERLƏŞDİRİLMƏSİ ZƏRURİ AMİL KİMİ

### § 1. Məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyələri və Azərbayjanda məhsuldar qüvvələrin milli mənafeyə uyğun səmələri yerləşdirilməsinin zəruriliyi

İqtisad elmləri çoxdur. Onlardan biri iqtisadi nəzəriyyədir. Bu elm bazar iqtisadi sisteminin formalaşdığı vaxt meydana gəlmişdir. O, bütün iqtisad elmlərinin, nəzəri-metodoloji əsasını təşkil edir. İqtisadi coğrafiya elmi də iqtisad elmlər sırasına daxildir. Onun formalaşması da, təxminən iqtisadi nəzəriyyənin yaranması dövrünə təsadüf edir. Bunların hər ikisinin məqsədi iqtisadiyyatın inkişafının ümumi qanunauyğunluqlarını öyrənmək olsa da onların funksiyaları arasında fərqlər də vardır. Belə ki, iqtisadi nəzəriyyə iqtisadi münasibətləri, məhdud, mövcud təbii və iqtisadi resurslardan minimum məsrəflə maksimum məhsul istehsal etməyi təmin edən iqtisadi qanunların tələbini öyrəndiyi halda, iqtisadi coğrafiya ərazi əmək bölgüsü ilə əlaqədar olan iqtisadi münasibətləri, təbii şəraitin xüsusiyyətlərini, məhsuldar qüvvələrin inkişaf səviyyəsini, konkret dövrdə elm və texnikanın vəziyyətini öyrənir.

Beləliklə, iqtisadi nəzəriyyə elmi bazar iqtisadi sistemi formalaşana qədər mövcud olmadığı kimi iqtisadi coğrafiya elmi də mövcud deyildi. Azad sahibkarların formalaşması və inkişafı ilə əlaqədar olaraq coğrafiyanın

siyasi iqtisadla birləşməsi yeni elmin – iqtisadi coğrafiyanın genezisini təşkil etmişdir.

Doğrudur, ərazi əmək bölgüsü cəmiyyətin inkişafının ilk dövründə də olmuşdur. Məsələn, əkinçiliyin maldarlıqdan ayrılması və s. Lakin yalnız bazar iqtisadiyyatının inkişafı nəticəsində ictimai əmək bölgüsünün bir forması olan ərazi əmək bölgüsü inkişafının yüksək səviyyəsinə çatmış, beynəlxalq əmək bölgüsünün meydana gəlməsinə, habelə hazırda qloballaşma prosesinin güclənməsi iqtisadi coğrafiya elminin rolunun artmasına səbəb olmuşdur.

Deməli, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsini və bunun köməyi ilə sağlam milli iqtisadiyyatın formalaşmasının iqtisadi qanunauyğunluqlarını həm iqtisadi nəzəriyyə, həm də iqtisadi coğrafiya müştərək öyrənməlidir, başqa sözlə, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi problemi iqtisadi nəzəriyyənin və iqtisadi coğrafiyanın öyrəndiyi obyektdir. Məhsuldar qüvvələr haqqında nəzəriyyələrin bazar iqtisadiyyatının azad rəqabət dövründə meydana çıxması bunu sübut edir.

Məhsuldar qüvvələrin yerləşdirilməsi haqqında ilk nəzəriyyə «Standort» nəzəriyyədir. Bu alman sözü olub, Azərbaycan dilində hərfi tərcüməsi «yerləşdirmə» deməkdir. Lakin J.Tyunen, A.Veber, A. Şeşa və başqalarının əsərlərindən sonra «Standort» nəzəriyyəsi istehsalın səmərəli yerləşdirilməsinin mümkünlüyü mənasında işlədilmiş və məhsuldar qüvvələrin yerləşdirilməsi titulunu qazanmışdır. Bu nəzəriyyələrin hamısının əsasında məhsuldar qüvvələri səmərəli yerləşdirməklə az istehsal xərcləri ilə daha çox gəlir götürmək durur.

J.Tyunen hələ 1826-cı ildə «Təcrid edilmiş dövlət və onun milli iqtisadiyyata və kənd təsərrüfatına münasibəti»

kitabında kənd təsərrüfatı standortı nəzəriyyəsinin başlanğıcını qoymuşdur. Onun bu nəzəriyyəsi «Təcrid olunmuş dövlət» adlanır.

J.Tyunen kənd təsərrüfatında məhsuldar qüvvələrin yerləşdirilməsinin istehsalın səmərəliliyinə təsirini üç amil əsasında tədqiq etmişdir: 1) istehsal xərcləri; 2) torpağın məhsuldarlığı və bitginin xüsusiyyətləri və 3) nəqliyyat xərclərinin bazar qiyməti ilə müqayisə edilməsi. Daha sonraTyunen kənd təsərrüfatını yalnız bir bazar mərkəzi ətrafında yerləşdirilməsi ilə kifayətlənmir, eyni zamanda kənd təsərrüfatının bu mərkəz ətrafında istehsalın təmərküzləşməsinin qanunauyğunluğunu da təhlil etmişdir. Onun fikrincə kənd təsərrüfatı istehsalı bazardan elə bir məsafədə yerləşdirilməlidir ki, o sahibinə ən çox gəlir verə bilsin. O bazarın ətrafında təmərgüzləşən təsərrüfatları altı qurşağa bölür və hər birinin səciyyəvi xüsusiyyətlərini təhlil edir.

Məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyələri arasında alman iqtisadi coğrafiya alimi Alfred Veberin «Sənayenin standortu» nəzəriyyəsinin xüsusi yeri vardır. O, bu nəzəriyyəni 1909-cu ildə yazdığı «Sənayenin yerləşdirilməsi nəzəriyyəsi» adlı kitabında irəli sürmüşdür. Onun nəzəriyyəsinin əsasında istehsal elə ərazidə yerləşdirilməlidir ki, ən az istehsal xərcləri prinsipi həyata keçirilə bilsin. Ona görə sənayenin yerləşməsi üç amillə müəyyən olunmalıdır və o bunu «istiqamətləndirmə» adlandırıb. Bu istiqamətlər aşağıdakılardır:

1) nəqliyyat istiqaməti, bu o deməkdir ki, sahibkar öz müəssisələrini elə məntəqədə yerləşdirməlidir ki, ən az nəqliyyat xərcləri ilə məqsədinə nail ola bilsin;

2) işçi istiqaməti, bu sahibkarın öz müəssisəsini ucuz işçi qüvvəsi ilə təmin edən məntəqədə tikməyə razılaşmasını əks etdirir;

3) aqlomerasiya istiqaməti bu toplaşma, yığışma deməkdir, bunun mahiyyəti ondan ibarətdir ki, sahibkar çalışmalıdır ki, öz sənaye müəssisəsini bir çox sənaye müəssisələrinin toplaşdığı mərkəzdə yerləşdirsin ki, nəqliyyat yollarının tikintisi, energetika, kommunal təsərrüfatlarının yaradılması və başqa istehsal və sosial infrastrukturun tikintisinə olan xərcləri minimuma endirmək mümkün olsun.

A.Veber sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsinin istiqamətlərini riyazi metodu tətbiq etmək əsasında təhlil edib və onların hər birinin ayrılıqda üstünlüklərini ortaya qoyub. Onun iqtisadi coğrafiyaçılara ən böyük xidməti sənayenin yerləşdiriliməsinin aqlomerasiya qanunun fəaliyyətini müfəssəl şəkildə təhlil etməsidir. O heç bir siyasətə uymayan riyazi, həndəsi düsturların köməyi ilə sənaye müəssisələrinin müəyyən bir ərazidə toplanmasının həddini, bir-biri ilə qarşılıqlı əlaqədə işləmələrinin üstünlüklərini və qanunauyğunluqlarını müəyyənləşdirib. Bu nəzəriyyə indi də öz aktuallığını itirməmişdir. Onun nəzəriyyəsindən hər bir dövlət, o cümlədən Azərbaycan sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsində Azərbaycanın xüsusiyyətləri nəzərə alınmaqla istifadə etmək olar.

Keçmiş SSRİ-də otuzuncu illərin əvvəllərində Tyunen və Veberin standort nəzəriyyələrinin davamçılarından biri professor A.A.Rıbnikov olmuşdur. O, 1930-cu ildə çap etdirdiyi «İqtisadi coğrafiyanın əsas məsələləri» adlı əsərində adı çəkilən alimlərin standort haqqında olan nəzəriyyələrini yüksək qiymətləndirmiş və onların nəzəriyyələrini inkişaf etdirmişdir. Hətta öz əsərində «Standort haqqında iqtisadi-coğrafiya hadisələrinin ödənilməsi üçün baza kimi» fəsil də ayırmışdır.

Məlumdur ki, J.Tyuneni kənd təsərrüfatının, Veberi isə sənayenin standort maraqlandırmışdır. A.A.Rıbnikov isə bunları birləşdirərək öz nəzəriyyəsini «ümumi standort» adlandırmışdır. Bu iqtisadi-coğrafiya ədəbiyyatında standort nəzəriyyəsinin təkamülü adlanır. Onun fikrincə, ölkənin yaxud rayonun təsərrüfatı öyrənilərkən problemə kompleks yanaşmaq zəruridir. Çünki, sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər sahələr bir-biri ilə qarşılıqlı əlaqədə olurlar və bir-birini şərtləndirirlər. O hələ XX əsrin 30-cu illərində belə hesab edirdi ki, iqtisadi coğrafiyaçılar bir məkanda yerləşən təsərrüfatın, nəqliyyatın, ticarətin və başqalarının şəraitini öyrənməlidir. Doğrudan da təbii və ictimai-iqtisadi mühiti öyrənmədən bu və ya digər təsərrüfatın qarşısında duran vəzifələri həll etmək olmaz. Ona görə ki, ölkə daxilində sahələr arasında, eyni zamanda dövlətlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Hazırda iqtisadi əlaqələrin intensivləşməsi şəraitində bunun əhəmiyyəti daha da artmışdır. A.A.Rıbnikovun standort nəzəriyyələrə tənqidi yanaşması və iqtisadi-coğrafi hadisələri sistemli təhlil etmək müsbət haldır və məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyəsinin zənginləşməsində onun xidməti vardır.

Təəssüf ki, sovet iqtisadçıları, o cümlədən B.N.Semevski «Teoretiçeskaə gkonomqeoqrafiə» (L.1981) əsərində A.Leysin kapitalizm şəraitində istehsalın səmərəli yerləşdirilməsinin mümkünlüyü müddəasını tənqid edir, onun nəzəriyyəsini burjua nəzəriyyəsi adlandırır. Səmərəli yerləşdirmənin yalnız sosializmin sovet modelinə aid olduğunu iddia edir.[1] Halbuki məhsuldar qüvvələrin daim, təkamül yolu ilə inkişaf etməsi, texniki tərəqqi və bunun nəticəsində elmi-texniki inqilabın baş verməsi, ictimai əmək bölgüsünün

---

[1] Б.Н.Семевский. Теоретическая экономгеография. Л., 1981, **səh. 124.**

meydana gəlməsi, məhsuldar qüvvələr inkişaf etdikcə onun dərinləşməsi, bunların bir-birinə təsiri, birinin digərini şərtləndirməsi ictimai quruluşla, yəni nə kapitalizmlə, nə də sosializmlə əlaqədar deyil və bunlar obyektiv prosesdir. Bunlar cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarıdır.

Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsinin özünəməxsus xüsusiyyətləri və çətinliklərinin olması təbiidir. Bunlar aşağıdakılardır: 1) Məhsuldar qüvvələrin yerləşdirilməsi çox uzun proses olub, böyük həcmdə maliyyə vəsaiti tələb edən hadisədir. Sovet sistemi Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsini belə acınacaqlı vəziyyətə 5-10 il ərzində salmamışdır ki, onu qısa müddətdə Azərbaycanın milli mənafeyini uyğun yenidən qurmaq mümkün olsun. 2) Təbii, təkamül inkişaf yolu ilə bazar iqtisadiyyatını formalaşdıran klassik bazar iqtisadiyyatı ölkələrində demokratik cəmiyyət qurulduğundan bu dövlətlərdə həm iqtisadi, həm də hüquqi qanunların normal fəaliyyətinə şərait yaradılır. Azərbaycan isə 71 il totalitar sistemdə yaşadığından, Azərbaycanda demokratik dövlət quruculuğu yaratmaq xeyli vaxt tələb edir. Çünki totalitar sistemdən demokratik sistemə qısa müddətdə keçmək qeyri-mümkündür.

Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə məhsuldar qüvvələrin milli mənafeyə uyğun yerləşdirilməsi probleminin həlli zamanı bir neçə şərtlər ödənilməlidir. Bunlardan biri məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi prosesi həyata keçirilən zaman nə tələsməyə, nə də ləngiməyə yol vermək olmaz. Digəri bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsində dövlətin rolu normal, təbii-təkamül yolu ilə meydana gələn dövlətlərə nisbətən qat-qat artıq olmalıdır. Birinci, ona görə ki, dövlət

əmlakının özəlləşdirilməsi hələlik başa çatmayıb, iri sənaye müəssisələri, xüsusilə ən çox gəlir gətirən neft sənayesi dövlətin əlindədir. İkinci, güclü milli sahibkarların az olması, ilkin kapital yığımı prosesinin məhdudluğu kiçik və orta sahibkarlığın sürətli inkişafını ləngidir. Buna da təbii baxmaq lazımdır. Çünki klassik bazar iqtisadiyyatı ölkələrində bu proses yüz illərlə davam etmişdir.

İctimai istehsalın ərazi təşkili əmək məhsuldarlığının səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Hər hansı bir müəssisənin düzgün yerləşdirilməməsi onunla əlaqədə işləyən digər müəssisələrin də yerləşdirilməsində səhvlərin buraxılmasına səbəb olur. Çünki bir çox müəssisələr bir-birilə qarşılıqlı iqtisadi əlaqədə fəaliyyət göstərməyə məcburdurlar. Buna görə də hər bir müəssisə yerləşdirilərkən onun səmərəliliyi dərindən öyrənilməli və əsaslandırılmalıdır. İstehsalın yerləşdirilməsinin səmərəli variantı seçilməli və məhsuldar qüvvələrin yerləşdirilməsində ümumi direktiv göstərşə yol verilməməlidir. Məhsuldar qüvvələrin yerləşdirilməsində yalnız keyfiyyət göstəricilərinə deyil, həm də kəmiyyə göstəricisinə yer vermək lazımdır. İri bir sənaye müəssisəsinin yerləşdiyi yer optimal məsafədən uzaqda yerləşdirildikdə on və yüz kilometrlərlə məsafəyə yükün daşınmasına səbəb ola bilər, bu isə çoxlu miqdarda əlavə məsrəf tələb edir.

Ayrı bir sənaye müəssisəsinin, ayrıca sahənin yerləşmə variantı müxtəlif ola bilər. Çünki hər şeydə olduğu kimi müəssisənin yerləşdirilməsinin istənilən variantı ideal ola bilməz, hər bir variantın müsbət cəhətləri ilə yanaşı çatışmayan tərəflərinin olmasına təbii baxmaq lazımdır. Bunu yalnız dəqiq texniki-iqtisadi hesablamalar yolu ilə aşkar etmək olar və burada yalnız kəmiyyət göstəricilərinə deyil, keyfiyyət göstəricilərini də

hesablamaqla sintetik iqtisadi səmərə verən varianta üstünlük vermək tələb olunur. Bunun əsasında yalnız milli maraq və Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafı durmalıdır.

Bazar iqtisadiyyatına keçil dövründə Azərbaycanda xammal və yanacaq-energetika bazası, yerli əmək ehtiyatından, su mənbəyindən, nəqliyyat vasitələrindən və başqalarından istifadə etmək sahəsində bazar subyektlərinin mənafeyi milli mənafe ilə ziddiyyət təşkil edə bilər. Lakin əmək resurslarına görə sənaye müəssisələrinin yerləşdirilməsi ən səmərəli istiqamətdir. Hər bir rayonda əmək ehtiyatlarının kəmiyyət və keyfiyyətini öyrənmək, həmin ərazidə mövcud olan əmək ehtiyatlarından səmərəli istifadə etmək, yeni iş yerləri açmaq dövlətin ən müqəddəs və təxirə salınmaz vəzifəsidir. Cəmiyyətin tənzimlənən bazar iqtisadiyyatı mərhələsində sağlam milli iqtisadiyyatın formalaşması və inkişafında insan amilinin rolunun əvvəlki dövrə nisbətən artması, Azərbaycanda işsizliyin hələ də mövcud olmasını nəzərə alsaq bu istiqamətin böyük əhəmiyyət kəsb etdiyinin şahidi olarıq. Bunu nərəzə alan Azərbaycan dövləti bu problemi həmişə diqqət mərkəzində saxlayır. Respublika Prezidenti İlham Əliyev «Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» sənədinin qəbul edilməsi ilə əlaqədar olaraq söylədiyi nitqində demişdir: «Yuxarıda qeyd olunan nailiyyətlərlə yanaşı ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu şəraitində hələ də həll edilməmiş problemlər qalmaqdadır. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhərində yerləşməsi və eyni zamanda, regionlarda olan bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətinin zəifləməsi və ya tamamilə

dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmişdir. Bu amillər öz növbəsində iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmək, regionların inkişafı arasında fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına tələb olmuşdur».[1]

Beləliklə, ayrı-ayrı müəssisələrin ərazi cəhətdən bir-birini yaxın yerləşməsi müəyyən iqtisadi üstünlüklər yaradır. Bir neçə sənaye müəssisələrinin bir coğrafi məkanda yerləşməsi onlar arasında əlavə qarşılıqlı iqtisadi əlaqə yaradır, bu isə öz növbəsində vahid istehsal-ərazi komplekslərinin formalaşması üçün əlverişli şərait qurur, bu isə əmək məhsuldarlığının yüksəlməsini təmin edir və kapital məsrəflərini azaldır.

## § 2. Azərbayjanın sənayesində məhsuldar qüvvələrin yerləşdirilməsinin müasir vəziyyəti və onun təkmilləşdirilməsinin labüdlüyü

Hazırda Azərbaycanın milli iqtisadiyyatının qeyri-sağlam, asılı vəziyyətə düşməsinin bir səbəbi də sosializmin sovet modeli dövründə Azərbaycanın sənayesində məhsuldar qüvvələrin qeyri-səmərəli və milli mənafeyə yox, hakim dövlətin mənafeyinə uyğun yerləşdirilməsi olmuşdur. Bu amil bütün müstəmləkəçi dövlətlərə, o cümlədən keçmiş SSRİ-yə də aiddir. Lakin Azərbaycanın sənayesində məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsinə sosializmin sovet modeli daha pis təsir göstərmişdir. Bu inzibati-amirlik sisteminin mahiyyətindən doğan məsələdir.

Azərbaycanın XX əsrdə həm sabiq SSRİ-nin müstəmləkəsi olması, həm də inzibati-amirlik sistemində yaşamağa məhkum edilməsi Azərbaycanın sənayesində

---

[1] **«Azərbaycan» qəzeti, 13 fevral 2004-cü il.**

məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə imkan verməmişdir. Məhz buna görə də Azərbaycanın sənayesində məhsuldar qüvvələrin yerləşdirilməsi Şərqi Avropa dövlətlərinə, Rusiyaya, Çinə və başqa keçid iqtisadiyyatlı dövlətlərə nisbətən daha çox problemlərlə qarşılaşmışdır və onun yenidən milli mənafeyə uyğun, səmərəli yerləşdirilməsi üçün uzun dövr və külli miqdarda maliyyə vəsaiti tələb edən olunur.

Azərbaycanın sənayesində məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsinə inzibati-amirlik iqtisadi sistemi bazar iqtisadi sistemi ölkələrinə nisbətən daha çox mənfi təsir göstərmişdir. Bu baxımdan sovet sistemi zamanı Azərbaycanın sənayesində məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsinin metod və vasitələrin öyrənilməsi əhəmiyyətlidir. Birincisi, ona görə ki, millət dərk etsin ki, sovet imperiyası hansı vasitələrlə onun milli iqtisadiyyatını qeyri-sağlam, asılı vəziyyətə salıb. İkincisi, Azərbaycan xalqı sovet sisteminin etdiklərinin əksini etməklə sənayedə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə nail ola bilər. Həm də dərk olunmalıdır ki, bunun üçün əzm və inadkarlıqla çalışmaq lazımdır.

Azərbaycanın müstəqil dövlət olması və bazar iqtisadi sisteminə keçməyi qarşısına əsas məqsəd qoyması Azərbaycanın sənayesində məhsuldar qüvvələrin səmərəli, milli mənafeyə uyğun təkmilləşdirməyə imkan verən ən böyük vasitə və gücdür. Çünki burada müstəqil milli dövlətin milli siyasəti ilə bazar iqtisadi sisteminin üstünlükləri birləşir və vəhdət təşkil edir. Deməli, yalnız bu iki amil birləşməklə sənayedə məhsuldar qüvvələrin yenidən milli mənafeyə uyğun yerləşdirilməsini təkmilləşdirmək olar. Buna görə də bazar iqtisadi sistemi ilə inzibati-amirlik sistemində sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsinin

metodlarını, prinsiplərini və şəraitini müqayisəli şəkildə öyrənmək daha yaxşıdır.

Bazar iqtisadi sistemi istiqamətində inkişaf edən müstəqil ölkələrdə bazar iqtisadiyyatının birinci mərhələsində məhsuldar qüvvələrin yerləşdirilməsi və ondan səmərəli istifadə edilməsi iqtisadi qanunların, ilk növbədə əmtəə istehsalı ilə əlaqədar fəaliyyət göstərən iqtisadi qanunların tələbi əsasında formalaşmışdır. Xüsusi sahibkarlar əsasən daha çox mənfəət götürmək və rəqabətdə qalib gəlmək naminə, işçi qüvvəsi ilə təmin olmağı nəzərə almaqla öz müəssisələrini xammal mənbələrinə, satış bazarlarına yaxın yerlərdə qurmağa çalışmışlar. Bu, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin üstünlük təşkil etməsi ilə əlaqədar olmuşdur. Bazar iqtisadiyyatının müasir mərhələsində, dövlətin iqtisadiyyatın tənzimlənməsinə böyük yer verdiyi dövrdə müəyyən fərqlər əmələ gəlsə də, məhsuldar qüvvələrin yerləşdirilməsi, ondan səmərəli istifadə edilməsi, bunun əsasında iqtisadiyyatın inkişafı, onun insanların həyat səviyyəsinə, insan amilinin formalaşmasına təsiri ümumi qanunauyğunluq olaraq qalır. Bu da müasir dövrdə istehsal vasitələri üzərində mülkiyyət formalarında baş verən dəyişikliklərlə əlaqədardır.

İnzibati-amirlik iqtisadi sistemində isə məhsuldar qüvvələrin yerləşdirilməsi və ondan səmərəli istifadə edilməsi iqtisadi vasitələrə deyil, siyasi amillərə əsaslanmışdır. Bunun əsas səbəbi bazar iqtisadi sisteminin formalaşmasının təbii, təkamül inkişaf yolu ilə baş verməsi, maddi marağa söykəndiyi halda inzibati-amirlik sistemində ümumi inkişaf qanunauyğunluqdan yan keçərək zorakı yolla istehsal vasitələri üzərində dövlət mülkiyyəti yaranmasıdır. Bu sistem isə iqtisadi qanunların tələbini, insan amili ilə iqtisadiyyatın dialektik vəhdətdə olmasını nəzərə almamışdır. Qeyd etmək

lazımdır ki, sovet hakimiyyəti illərində məhsuldar qüvvələrin yerləşdirilməsi və onlardan istifadə olunması tamamilə dövlətin nəzarəti altında olmuş, dövlət heç bir iqtisadi qanunun tələbini, yerli əhalinin adət-ənənəsini, milli dəyərlərini nəzərə almadan siyasi motivlər əsasında məhsuldar qüvvələri öz bildiyi kimi, özünün məqsədlərinə uyğun yerləşdirmişdir.

Bazar iqtisadi sistemində heç bir dövlət Sovet dövlətində olduğu kimi, istehsalın məqsədinin əhalinin artmaqda olan maddi-rifah halının daha dolğun ödəmək olduğunu iddia etmir. Maddi maraq əsasında qurulan iqtisadiyyat özü məqsədə doğru aparır, başqa sözlə, istehsal istehlaka obyektiv olaraq xidmət edir. Sovet dövlətində isə əksinə, nə qədər gəlişi gözəl sözlər deyilsə də, əslində istehsal istehlak üçün deyil, istehsal istehsal üçün təşkil edilmişdir.

Sovet iqtisadi ədəbiyyatında istehsalın xammal, yanacaq, enerji mənbələrinə və məhsul istehlakı rayonlarına yaxınlaşması prinsipi əsasında yerləşdirildiyi iddia edilirdi. Bunun yalan olmasını sübut etmək üçün çoxlu faktlar var. Onlardan birini göstərmək kifayətdir. Sovet sistemi dövründə filiz Azərbaycanda çıxarıldığı halda çuğun istehsal etmək üçün donma sobaları Azərbaycanda deyil, heç bir iqtisadi əsası olmadan, Rustavidə tikilmişdi. Donma sobalarını tikmək üçün Daşkəsən dəmir filizi konsentratı, Donbasdan isə koks yanacağı Rustaviyə daşınmışdı.

Çar Rusiyası və sosializmin sovet modeli dövründə Azərbaycanın sənayesində məhsuldar qüvvələrin yerləşdirmə prinsiplərinin çoxusu üst-üstə düşmüşdür. Bunlardan biri Azərbaycanda sənayenin birtərəfli inkişaf etdirilməsidir. Məsələn, 1913-cü ildə Azərbaycanda sənayenin ümumi məhsulunun 84,4%-i təkcə neft

sənayesinin payına düşürdü.[1] Sovet dövründə də Azərbaycanın sənayesində neft sənayesi aparıcı sahə olmuşdur.

Çar Rusiyası Azərbaycanda özünün mənafeyinə uyğun gəlməyən sənaye sahələrinin yaranmasında maraqlı olmasa da Azərbaycanın zəngin və rəngarəng sərvətlərinin, eyni zamanda istedadlı, əmək qabiliyyətli əhalisinin olması Azərbaycanın digər rayonlarında da sənayenin inkişafının qarşısını ala bilməmişdir və zəif olsa da, bu proses başlanmışdı. Lakin Bakıda neft sənayesində olduğu kimi Azərbaycanın digər rayonlarında da sənaye birtərəfli və xammal emalı istiqamətində formalaşmışdır. Bu da müstəmləkə ölkəsi üçün xarakterik cəhətdir. Bu baxımdan da çar Rusiyası ilə Sovet imperiyasının sənaye sahəsində məhsuldar qüvvələrin yerləşdirilməsi siyasəti bir-birindən əsaslı surətdə fərqlənməmişdir. Məsələn, əgər Bakı şəhəri sənayesini nəzərə almasaq, sovet quruluşundan əvvəl Azərbaycanın qalan bütün rayonlarının sənayesi aşağıdakı istehsal quruluşuna malik idi (1913-cü ilin məlumatına görə): pambıqçılıq xammalının ilkin emalı (pambıqtəmizləmə sənayesi) üzrə 43%, ipək xammalının ilkin emalı (baramaçılıq sənayesi) üzrə 25,3%, balıq sənayesi (əsasən balıq ovu və duzlanması) üzrə 13,1%, şərabçılıq sənayesi üzrə 7,0%, mis çıxarılması və əridilməsi üzrə 6,7% və s.[1]

Çar Rusiyası dövründə rayonların sənayesinin 75%-dən çoxu kənd təsərrüfatı məhsullarının ilkin emalı ilə məşğul olan sənaye sahələrinin payına düşürdü. Sovet dövründə bu siyasət nəinki davam etdirilmiş, hətta daha

---

[1] **İqtisadi bilik sosialist təsərrüfatçılığında mühüm vasitədir. Bakı, 1966, səh. 33.**

[1] А.А.Надиров, А.Алескеров, В.Е.Абдулрахманов. Вопросы размещения социалистического производства. **Bakı, 1965, səh. 19.**

da intensivləşdirilmiş və bunun nəticəsində daha çox sosial-iqtisadi problemlər yaranmışdır.Lakin buna baxmayaraq sovet hakimiyyəti illərində, xüsusilə ikinci dünya müharibəsindən sonra Azərbaycanda məhsuldar qüvvələrin inkişafında və onun yerləşdirilməsində sürətli inkişaf olmuşdur. Bunun səbəbini qısaca şəkildə aşağıdakı kimi ifadə etmək olar. Alman faşizmini məğlub etmək uğrunda öz qüvvələrini birləşdirən müttəfiqlər müharibədən çox zəif çıxmışdılar (ABŞ istisna olmaqla), sabiq SSRİ isə əksinə, dünya hökmranlığı uğrunda mübarizədə öz müttəfiqlərinin köməyindən istifadə edərək irəliyə çıxmışdır. Bununla əlaqədar olaraq xaricdən SSRİ-yə müharibə təhlükəsi aradan qalxmışdır. Eyni zamanda, keçmiş SSRİ işğal etdiyi Şərqi Avropa ölkələrinin, habelə Şərqi Almaniyanın bir çox zavodlarının avadanlıqlarını və başqa istehsal vasitələrini sökərək öz ölkəsinə daşımışdır. Bundan istifadə edərək öz ölkəsinin sənaye potensialını nəinki bərpa etmiş, həm də onu qabaqcıl Avropa texnikası əsasında yenidən qurmaq imkanı əldə etmişdir. Bütün bunlar müharibədən sonra SSRİ-nin iqtisadiyyatının inkişafını sürtələndirmişdir. Keçmiş SSRİ bundan istifadə edərək öz müstəmləkələrində, o cümlədən Azərbaycanda sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsinə xüsusi fikir vermişdir. Buna görə də müharibədən sonra Azərbaycanda bir çox sənaye müəssisələri tikilmişdir.

Müharibədən sonra bir sıra rayonlarda yerli xammal əsasında sənayenin yeni sahəsi – qara və əlvan metallurgiyanın yeni müəssisələri yaradıldı. 1954-cü ildə Daşkəsən dəmir filizi mədəni, onun əsasında isə iri filizsaflaşdıran fabrik istifadəyə verildi. Bu rayonun ərazisində (Zəylikdə) alunit mədəninin və onun əsasında isə nəhəng Kirovabad (indiki Gəncə) alüminium zavodunun tikintisi, əsasən başa çatdırıldı. Bundan başqa

Naxçıvan MSSR ərazisində Qaracaçay mobilden və Gümüşlü sink-qurğuşun mədənləri işə salındı. Müharibədən sonra yeni maşınqayırma sənayesi sahələrinin müəssisələri Bakı-Sumqayıt rayonu ilə yanaşı, respublikanın bir sıra başqa rayonlarında da yaradıldı. Mingəçevirdə iri maşınqayırma zavodu, kabel zavodu, elektrik izolyasiyası zavodu istismara verildi.

Respublika ərazisinin əksər hissələri müxtəlif növ tikinti materialları ilə zəngin olduğundan sənayenin bu sahəsi müharibədən sonra bütün iqtisadi rayonlarda xüsusilə genişləndi: Ağdamda, Qazaxda, Zəyəmdə mexanikləşdirilmiş iri daş karxanaları, Mingəçevirdə, Kirobabadda (Gəncədə) evitikmə kombinatları, Kirovabadda, Bəhrəmtəpədə, Gilgilçayda, Mingəçevirdə müxtəlif dəmir-beton hissələri hazırlayan zavodlar, Ağdam, Sabirabad və Qutqaşendə (indiki Qəbələ) kərpic-kirəmit zavodları, Qazıməmməd, İmişli və Kürdəmirdə qamış döşəmə zavodları və s. tikinti materialları istehsalı üzrə müəssisələr yarandı.

Müharibədən sonra yüngül və yeyinti sənaye müəssisələri də bir çox rayonlarda yerləşdirilmişdir. Horadiz pambıqtəmizləmə zavodu, İsmayıllı, Cəfərəbad, Mardakert (Ağdərə) yağ-süd zavodları, Astara, Zaqatala, Boradigah, Masallı və ikinci Lənkəran çay fabrikləri, Şamaxı, Kirovabad, Jdanov (Beyləqan), Qarabağ (Ağdam) şərab zavodları, Ucar, Lənkəran, Qax, Balakən konserv zavodları, Naxçıvan, Masallı tütün fermentasiya zavodları və istehsal istiqamətli digər başqa müəssisələr müharibədən sonra yaradılmışdır. Kirovabadda (Gəncədə), Naxçıvanda, Ağdamda, Şəkidə ət kombinatları, Kirovabad un dəyirmanı və pivə zavodu, Kirovabadda, Stepanakertdə, Naxçıvanda, Mingəçevirdə süd kombinatının yaradılması da həmin dövrə təsadüf edir.

Həmin dövrdə Sibirdə neft mənbələrinin kəşfi ilə əlaqədar olaraq SSRİ-də istehsal olunan neftin həcmində Azərbaycan neftinin xüsusi çəkisi aşağı düşmüşdür. Orada hasil olunan neftin maya dəyəri Azərbaycan neftinə nisbətən aşağı olduğuna görə Sovet dövləti Azərbaycanda neftin hasilatına qoyulan kapitalı azaldıb, daha doğrusu, bu regiona ikinci dərəcəli əhəmiyyət vermişdir. Rusiyanın sənayesinin inkişafında, Almaniya ilə ölüm-dirim müharibəsində qələbənin təmin olunmasında Bakı neftinin rolunun unudulması təəssüf doğurmaya bilməz. Xoşbəxtlikdən Bakı neftinin keyfiyyət baxımdan tayı-bərabəri olmadığından onun əhəmiyyəti azalmamışdır. Bu boşluğu doldurmaq üçün neftin emalına xüsusi fikir verilmişdir. Belə ki, müharibədən sonra respublikada neft-kimya və kimya sənayesinin güclü inkişafı ön plana çəkilmişdir. Bu sənaye sahəsinin müəssisələri xammalın ardıcıl emalı əsasında bir-birilə qarşılıqlı istehsal-texnoloji əlaqələrə malik olduğundan onların, demək olar ki, hamısı Bakı-Sumqayıt rayonunda tikilmişdir. Onlardan Bakı-Sumqayıt neft-kimya kombinatını, sintetik kauçuk zavodunu, şin zavodunu, superfosfat zavodunu və başqa kimya zavodlarını göstərmək olar.

Müharibədən sonra Bakı-Sumqayıt rayonunda inkişaf edən mühüm sənaye sahələrindən biri də metallurgiya sənayesidir. Onun 1952-ci ildə istismara verilən ən böyük müəssisəsi – boru prokat zavodu da bilavasitə neft sənayesinin inkişafı ilə əlaqədardır. Bundan başqa, 1955-ci ildə Sumqayıt alüminium zavodunun tikintisi başa çatdırılmışdı.

Beləliklə, ikinci dünya müharibəsindən sonra Azərbaycanda sənaye sahəsində məhsuldar qüvvələrin yerləşdirilməsi mühüm mərhələ təşkil edir və onun xüsusiyyətlərindən biri sənayenin yerləşdirilməsinin Bakı-

Sumqayıt rayonundan kənara çıxaraq Azərbaycanın bütün regionlarında yeyinti, yüngül və emal sənaye müəssisələri yaradılmasıdır. Belə ki, Kirovabadda qənnadı fabriki, Lənkəranda konserv zavodu, Salyanda plastik kütlə emalı zavodu, Naxçıvanda dəmir-beton hissələri və kərpic zavodları, Zaqatalada tütün-fermentasiya zavodu, Əli Bayramlıda süni dəri zavodu, müxtəlif rayonlarda 16 şərab, 4 yağ-süd zavodu, Stepanakertdə ayaqqabı fabriki və s. iri sənaye müəssisələri istismara verilmişdir. Nəticədə istər sənayenin artımına və istərsə də onun ümumi inkişaf səviyyəsində görə Bakı-Sumqayıt rayonu ilə respublikanın başqa iqtisadi rayonları arasında fərq əvvəlki illərə nisbətən, rayonların xeyrinə qismən dəyişmişdir. Lakin sovet hakimiyyətindən əvvəl olduğu kimi sovet hakimiyyəti illərində də sənayenin aparıcı və müxtəlif sahələri ən çox respublikanın paytaxtı Bakı şəhərində yerləşdirilmişdir. Başqa sözlə, respublikada inkişaf edən sənaye sahələrinin əksəriyyəti Bakı-Sumqayıt iqtisadi rayonunda mövcud olmuşdur. Həm də faktlar göstərir ki, sənayenin bütün sahələrinin inkişaf səviyyəsinə görə o, respublikanın iqtisadi rayonları içərisində ən yüksək xüsusi çəkiyə malik idi. Məsələn, müəssisələr üzrə aparılan qruplaşma materialları göstərir ki, 1973-cü ildə Bakı-Sumqayıt rayonunun payına respublikada yanacaq sənayesində hasil edilən ümumi məhsulun 94,2, maşınqayırma və metal emalı sənayesi üzrə 87, qara metallurgiya üzrə 92, energetika üzrə 51, kimya və rezin-asbest sənayesi üzrə 94, tikinti materialları sənayesi üzrə 74, yüngül sənayesi üzrə 48, yeyinti sənayesi üzrə 42, meşə və ağac emalı sənayesi üzrə 68%-i düşmüşdü.

Sənayenin inkişafı səviyyəsinə görə respublikanın iqtisadi rayonları arasında mövcud fərqlərin mühüm səbəblərindən biri də fəaliyyətdə olan bir sıra

müəssisələrin iqtisadi cəhətdən heç bir iqtisadi əsası olmadan Bakı-Sumqayıt rayonunda yerləşdirilməsi idi. Qeyd etmək lazımdır ki, respublikada sənayenin yerləşdirilməsinin müasir vəziyyətinə bu faktın təsiri heç də az olmamışdır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, burada yerləşən bir sıra sənaye müəssisələri öz xammal mənbəyindən əhəmiyyətli dərəcədə uzaqda yerləşmişdir. Bu müəssisələrdən Sumqayıt alüminium zavodunu göstərmək olar. Zavod yerli xammal mənbəyinə malik olmamaqla sənayenin burada yerləşən başqa sahələri ilə də demək olar ki, elə bir istehsal əlaqəsi olmamışdır. Sumqayıt alüminium zavodu uzun illər Uraldan gətirilən xammal əsasında işləmişdir. Yetmişinci illərdən etibarən isə Kirovabad alüminium-oksidi zavodu işə salındıqdan sonra zavod bu müəssisənin xammalı hesabına fəaliyyət göstərmişdir. Lakin alüminium zavodu ucuz elektrik enerjisi istehsalı mərkəzindən də uzaqda yerləşmişdir. Halbuki əvvəlcə alüminium zavodu Daşkəsən yaxınlığında, eyni zamanda Gəncə şəhərindən xeyli aralı bir yerdə tikilsə idi, həm istehsalın səmərəliliyini yüksəltmək olar, həm də Gəncə şəhərini çirklənmədən xilas etmək mümkün olardı. İstehsalın səmərəliliyi də yüksək olardı, ona görə ki, adı çəkilən ərazi həm xammal, həm də enerji istehsalı mənbəyinə görə Sumqayıt şəhərinə nisbətən çox əlverişlidir. Belə olsa idi, lüzumsuz xammal daşımalarından, bu prosesdə baş verən itgidən xilas olmaq mümkün idi. Digər tərəfdən məhsuldar qüvvələrin ən mühüm tərkib hissəsi olan iş qüvvəsi bu regionda lazım olduğundan çox ucuz olmuşdur. Bu regionda müxtəlif səviyyəli əmək ehtiyatlarının çox olması da istehsalın səmərəliliyini yüksəldən amillərdən biridir. Alüminium zavodunun və digər maşınqayırma zavodlarının Bakı-Sumqayıtda deyil, bu regionda

yerləşdirilməsi həm də çox vacib sosial problem olan işsizliyin aradan qaldırılmasında mühüm rol oynaya bilərdi. Heç kimə sirr deyil ki, Azərbaycanın iş qabiliyyətli, cavan kişilərinin resrublikadan getmələrinin əsas səbəbi işsizlikdir. Sovet dövründə də belə olmuşdur, indi də belədir. İndiki ağır vəziyyətin də kökü Sovet sistemi tərəfindən qoyulmuşdur. O dövrdəki işsizliklə indiki işsizliyin fərqi o zaman bu prosesin qizli, indi isə açıq olmasındadır. Yoxsa bol sərvətli və qızmar günəşli doğma vətənini kim tərk edər? İş axtarmaq üçün Sibirin sərt, yaşamaq üçün Azərbaycanla müqayisə olunmaz dərəcədə əlverişsiz məkanına kim üz tutar?

Beləliklə, göründüyü kimi sovet hakimiyyəti illərində Azərbaycanın sənayesində məhsuldar qüvvələr imperiyanın mənafeyinə uyğun yerləşdirildiyindən onun əsasında Azərbaycanın sağlam milli iqtisadiyyatını inkişaf etdirmək mümkün olmaz. Buna Azərbaycanın ən böyük problemlərindən biri sənaye sahəsində məhsuldar qüvvələrin yerləşdirilməsinin təkmilləşdirilməsidir. Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra bu sahədə xeyli iş görsə də hələlik görülməmiş işlər daha çoxdur. Bu problemin həllinin xarakteri ilə əlaqədardır. Bu uzun müddətli və çətin proses olduğundan buna nə tələsmək, nə də gecikmək olmaz. Ən yaxşı hal odur ki, problem dərk olunub, onun həyata keçirilməsi siyasəti, metodu, vasitələri və istiqamətləri müəyyənləşdirilsin.

## § 3. Azərbayjanın aqrar bölməsində istehsalın strukturunun yenidən milli mənafeyə uyğun təkmilləşdirilməsi dövlətin əsas vəzifəsi kimi

Sovet dövləti Azərbaycanın milli iqtisadiyyatını asılı vəziyyətə salmaq üçün çoxlu metodlardan istifadə etmişdir. Bunlardan biri də aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasıdır. Bu zaman sovet dövləti Azərbaycanın aqrar bölməsində istehsalın ixtisaslaşdırılmasını sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsi ilə paralel aparmış, bunlar eyni metod və vasitələrlə həyata keçirilmiş və eyni məqsəd güdmüşdür.

Sovet hakimiyyəti illərində sənayedə məhsuldar qüvvələrin yerləşdirilməsində olduğu kimi aqrar bölmədə istehsalın ixtisaslaşdırılması da uzun müddət, düşünülmüş şəkildə tərkibində olduğu dövlətin mənafeyinə uyğun həyata keçirilmişdir. Bununla əlaqədar olaraq aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasını yenidən, milli mənafeyə uyğun təkmilləşdirmək dövlətin əsas problemlərindən biridir. Məhsuldar qüvvələrin yerləşdirilməsi və istehsalın strukturunun təkmilləşdirilməsi bir-birilə qarşılıqlı əlaqədə olduğundan dövlət siyasəti də bu istiqamətə yönəldilməlidir.Həm də nəzərə almaq lazımdır ki, aqrar bölmədə məhsuldar qüvvələrin yerləşdirilməsini yenidən, milli mənafeyə uyğun təkmilləşdirmək sənaye sahəsinə nisbətən çox çətindir. Ona görə ki, bu sahədə iqtisadi münasibətlər təbii, bioloji, fizioloji və təbii şəraitlə çulğaşdığından aqrar münasibətlər daha mürəkkəbdir.

Azərbaycan sabiq SSRİ-nin tərkibində olan zaman sovet hökuməti kənd təsərrüfatında istehsalın xüsusiyyətlərini nəzərə alaraq imkan olduqca istehsalın ixtisaslaşdırılmasını mərhələ-mərhələ həyata keçirmişdir. Bu baxımdan sovet hakimiyyəti illərində Azərbaycanda aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasının mahiyyətini, məqsədini, bu prosesin həyata keçirilməsinin metod və vasitələrini öyrənməyin elmi və əməli əhəmiyyəti vardır. Bunları bilmədən Azərbaycanın sağlam

milli iqtisadiyyatın formalaşması və inkişafında mühüm rol oynayan aqrar bölmədə məhsuldar qüvvələrin yenidən, milli mənafeyə uyğun səmərəli yerləşdirilməsini təkmilləşdirmək mümkün olmaz. Çünki indiki dövrdə aqrar bölmədə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi əvvəlki bazanın üzərində yüksəlməlidir. Ona görə ki, aqrar bölmədə məhsuldar qüvvələrin yerləşdirilməsinin ümumi iqtisadi qanunauyğunluqları vardır. Sovet dövləti də bundan faydalanmışdır. Sadəcə olaraq sovet dövləti Azərbaycanda aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasını milli mənafeyə yox, hakim dövlətin mənafeyinə uyğun həyata keçirmək siyasəti yeritmişdir. Müstəqil Azərbaycan dövləti isə aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasının ümumi iqtisadi qanunauyğunluqlarından istifadə etməklə bu prosesi milli mənafeyin tələbinə uyğun istiqamətləndirilməlidir. Çünki bunu təmin etmədən Azərbaycan dövləti öz qarşısına qoyduğu – sağlam milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək vəzifəsini həyata keçirə bilməz.

Bazar iqtisadi sistemi dövründə bütün dünya dövlətləində sənaye təsərrüfatın bir çox sahələrinə nisbətən daha çox mənfəət gətirən sahədir. Bazar iqtisadiyyatı inkişaf etdikcə, xüsusilə indiki mərhələdə kənd təsərrüfatı məhsulları istehsalında sənayenin rolu əvvəlki dövrlərə nisbətən artmışdır. Lakin buna baxmayaraq sənayeni xammalla, əhalini ərzaqla təmin etməkdə kənd təsərrüfatı istehsalının müstəsna əhəmiyyəti vardır və onun rolu nəinki azalmış, əksinə, daha da artmışdır. Şübhəsiz, müasir dövrdə kənd təsərrüfatı istehsalı ən çox intensivləşmə yolu ilə inkişaf etdirilməlidir.

Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin yolu isə istehsalın ixtisaslaşdırılmasından keçir. Çünki kənd təsərrüfatı istehsalı ixtisaslaşdırılmadan istehsal

prosesini mexanikləşdirmək, kimyalaşdırmaq, melorasiya, irriqasiya işini sənaye və elmi əsaslar üzərində qurmaq mümkün olmaz. Əks halda kənd təsərrüfatı məhsullarını artırmaq hesabına əhalinin artmaqda olan tələbatını ödəmək imkan xaricində olar. Bu proses bazar iqtisadiyyatı sistemi dövründə nəinki sənayecə inkişaf etmiş dövlətlər, həm də orta inkişaf səviyyəsində olan, o cümlədən keçmiş SSRİ üçün də xarakterik olmuşdur.

Sovet hakimiyyəti illərində Azərbaycanda aqrar bölmədə istehsalın ixtisaslaşdırılmasının cəhətləri və xüsusiyyətləri sovet müstəmləkəçiliyi, üstəlik inzibati-amirlik sisteminin istehsalı səmərəli təşkil edə bilməməsi iqtisadiyyatın tənəzzülünə, bunun təsiri nəticəsində insan amilindən səmərəli istifadə edilməmişdir. Buna Azərbaycanda aqrar bölmədə istehsalın ixtisaslaşdırılması zamanı Azərbaycanın tarixən formalaşmış təsərrüfat formalarına, adət-ənənələrinə və milli dəyərlərinə hörmət edilməməsi, ona biganə yanaşılması da böyük təsir göstərmişdir.

Bütün dünyada istər sənaye sahəsi olsun, istərsə də aqrar bölmədə istehsalın ixtisaslaşdırılması təbii şərait və təbii sərvətlərin strukturuna uyğun formalaşır. Azərbaycanın kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması da bu qanunauyğunluqdan kənarda qala bilməzdi.

Müstəmələkə olan xalqların kənd təsərrüfatı istehsalının müstəmləkəçi dövlətin mənafeyinə uyğun ixtisaslaşdırmaq və onu təbii şəraitin imkan verdiyi bir və ya bir neçə məhsul istehsal etmək istiqamətinə yönəltmək, başqa sözlə, istehsala monokultur xarakteri vermək, hakim dövlətin xammal istehsalı bazasına çevirmək XIX-XX əsrlərdə müstəmləkəçiliyinin ümumi qanunauyğunluqlarından biridir.

Sovet dövründə Azərbaycanın aqrar bölməsində istehsalın ixtisaslaşması siyasəti həyata keçirilərkən bu qanunauyğunluğa əməl olunmuşdur. Belə ki, həmin illərdə Azərbaycanın kənd təsərrüfatı əsasən pambıqçılıq, üzümçülük, çayçılıq istehsalı üzrə ixtisaslaşdırılmışdır. Sənayedə olduğu kimi Azərbaycanın kənd təsərrüfatında da istehsal olunan məhsul son məhsul kimi deyil, yarımfabrikat və xammal şəklində mərkəzi dövlətin göstərdiyi yerə daşınmış və əvəzində cüzi haqq alınmışdır.

Postsovet hakimiyyəti illərində Azərbaycanda aqrar bölmədə kənd təsərrüfatı istehsalının ixtisaslaşdırma siyasətinin iki mərhələsini bir-birindən fərqləndirmək lazımdır. Bunun birinci mərhələsi XX əsrin 50-ci illərinə qədər olan, ikinci isə ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir və bunlar ixtisaslaşmanın nisbətən yüksək olması ilə bir-birindən fərqlənmişdir.

Azərbaycan torpağı o qədər gözəl təbii şəraitə, müxtəlif iqlim tipinə və məhsuldar torpağa malikdir ki, kənd təsərrüfatı istehsalının istənilən sahəsini ixtisaslaşdırmaq mümkündür. Bu cəhətdən Azərbaycan xoşbəxt xalqdır. Çünki onun seçim imkanı genişdir, o, bir sahəni seçmək məcburiyyətində qalmır. Lakin dünyanın əksər dövlətinin seçimi çox məhduddur, onlar istəsə də, istəməsə də təbii şəraitin diqtəsini qəbul etməyə məcbur edilir.

Aqrar bölmədə istehsal ixtisaslaşdırılarkən təkcə iqtisadi faydalılıq əsas götürülməməlidir. Eyni zamanda istehsalın ixtisaslaşdırılması dədə-baba ənənələrinə, istehsalın ekoloji vəziyyətə təsiri, bununla əlaqədar olaraq əhalinin sağlamlığında rolu, siyasi amillər və digər başqaları nəzərdən qaçırılmamalıdır. Bir sözlə, millətin müasir və perspektiv mənafeyi nəzərə alınmalıdır. Təəssüf ki, Azərbaycan XX əsrdə Sovet dövlətinin

müstəmləkəsi olduğundan sənayedə olduğu kimi, aqrar bölmədə də istehsalın ixtisaslaşdırılmasını öz milli mənafeyinə uyğun həll edə bilməmişdir.

Azərbaycanın milli mənafeyinə pamğıqçılıq yox, taxılçılıq daha çox uyğun olmuşdur. Lakin Sovet hakimiyyəti illərində SSRİ-nin toxuculuq sənayesinin tələbatını ödəmək məqsədi ilə Azərbaycanda pambıqçılıq sahəsi həddindən artıq genişləndirilmiş və monokultur təsərrüfat sahəsinə çevrilmişdir. Bu, aran rayonlarında kəndin həyat tərzini dəyişmişdir. Belə ki, kəndin tarixən formalaşmış təsərrüfat formalarını, adət-ənənəsini, milli dəyərlərini və xüsusiyyətlərini, onların arı saxlamaq, qoyun-quzu, inək-camış bəsləmək, toyuq-cücə artırmaq vərdişləri demək olar ki, aradan çıxmışdır. Yayda zəhərlənən olsa belə, bir qab qatıq tapmaq problemə çevrilmişdir. Kəndlilər yağ, pendir və digər heyvandarlıq məhsulları, habelə tərəvəz almaq üçün şəhərlərə üz tutmağa məcbur edilmişdir. Bunlar pambıqçılığın taxılçılığı sıxışdırması hesabına olmuşdur.

Məlumdur ki, taxılçılıq ilə heyvandarlıq arasında proposionallıq mövcuddur. Başqa sözlə, taxılçılığın inkişafı ilə heyvandarlığın, quşçuluğun inkişafı düz, pambıqçılıq üzrə ixtisaslaşma isə heyvandarlığın, quşçuluğun inkişafına tərs mütənasibdir. İnzibati-amirlik iqtisadi sistemi dövründə adı çəkilən sahələr arasında proporsionallığa nəzər salsaq, onun pozulmasının insan amilinin formalaşmasındakı rolu aydın olar. Çünki taxılçılq üzrə ixtisaslaşma əhalinin həyat səviyyəsinin yaxışlaşmasına birbaşa təsir göstərdiyi halda, pambıqçılıq dolayı yolla, həm də çox cüzi təsir etmişdir. Ona görə ki, taxılçılıq inkişaf edən rayonlarda kəndlilərin xüsusi mal-qarası, ev quşları saxlamaq imkanı daha geniş olur, bu da onların heyvandarlıq məhsullarına olan tələbatının pambıqçılıq rayonlarına nisbətən daha dolğun ödəməyə

imkan vermişdir. Bundan başqa, pambığın birbaşa şəxsi istehlaka daxil olması qeyri-mümkündür, toplanan pambığı dövlət maya dəyərindən çox-çox aşağı qiymətə alaraq emal müəssisələrinə göndərmişdir. Taxılçılıqda isə bir qədər başqa cür idi. Belə ki, taxıl biçilərkən onun müəyyən hissəsi yerə tökülmüş, yerli əhali onu yığaraq çörəyə olan tələbatının xeyli hissəsini bunun hesabına ödəmişdir. Taxılçılığın inkişafı həm də çöl heyvan və quşlarının da çoxalmasına şərait yaratmışdır. Bu da əhalinin qida məhsulları ilə təmin olunmasının bir mənbəyini təşkil etmişdir. Çünki insanlar qanuni və ya qanunsuz yolla çöl quşlarını, çöl heyvanlarını ovlamaqla öz dolanışıqlarını xeyli yaxşılaşdıra biliblər. Pambıqçılıq isə bu imkan və mənbələri də kəndlilərin əlindən almışdır. Bir tərəfdən zəhərli maddələr bəzi quşların, heyvanların sıradan çıxmasına, digər tərəfdən tuqay meşələrinin kütləvi şəkildə qırılması, bataqlıqların qurudulması hesabına pambıqçılıq sahəsini genişləndirməklə çöl heyvanlarının yem mənbəyi və yaşayış şəraiti aradan götürülmüşdür.

Tütünçülük gəlirli sahə olsa da, Azərbaycanın milli mənafeyinə uyğun deyil. Çünki həmin zonada təsərrüfatın digər formaları həm iqtisadi səmərəlilik baxımından, həm də əhalinin sağlamlığı nöqteyi-nəzərindən daha faydalıdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalının tütünçülük üzrə ixtisaslaşdırılmasını o dövlətlər edirlər ki, həmin regionda istehsalın səmərəliliyi baxımından onun alternativi olmur. Azərbaycanın bu zonasında isə onun alternativi vardır. Məsələn, Şəkidə çəltikçiliyin tütün təsərrüfat sahələrindən üstün olması sübut olunmuşdur. Məhz buna görə də həmin rayon sovet hakimiyyətindən əvvəl tütünçülük üzrə deyil, çəltikçilik üzrə ixtisaslaşmışdır. Statik məlumata görə sovet hakimiyyətindən əvvəl Azərbaycanda və Ermənistanda

əkilən tütün sahəsi təxminən bərabər olmuşdur. Sovet hakimiyyəti illərində isə əks proses baş vermişdir, yəni Ermənistanda tütün əkin sahələri getdikcə azaldığı halda, Azərbaycanda əksinə, çox sürətlə artırılmışdır. Məsələn, Azərbaycanda 1921-ci ildə 300 hektar sahədə tütün əkilmişdirsə, 1956-cı ildə 7,3 min hektara çatdırılmışdır.[1] Daha doğrusu, bu müddət ərzində tütünçülük üçün ayrılan torpaq sahəsi 23 dəfədən çox artırılmışdır. Həm də əvvəlki dövrdə tütün plantasiyaları bir qayda olaraq kənddən aralı sahələrdə əkilmiş, adətən sağlamlıq üçün zərərli oduğuna görə bu işlə kişilər məşğul olmuşlar. Sovet hakimiyyəti illərində isə əkin sahəsi genişləndirildiyinə görə tütün plantasiyaları kəndin həndəvərinə kimi çatdırılmış, onun istehsalına isə nəinki adi, hətta hamilə qadınlar və uşaqlar da cəlb edilmişlər. Bu sahədə əmək haqqı başqa sahələrə nisbətən yüksək olduğuna görə kənd əhalisi bu işə həvəslə girişmiş, tütünü saplara düzərək evlərin çardaqlarından, eyvanlarından asmışlar ki, bu da insan sağlamlığı üçün çox zərərlidir. Buna yada salmaq kifayətdir ki, sapa tütün yarpağı düzülərkən işlədilən iynənin ucunda olan zəhər gürzə ilanın zəhərindən bir neçə dəfə güclüdür.

Sovet hakimiyyəti illərində Azərbaycanda aqrar bölmədə məhsuldar qüvvələrin yerləşdirilməsinin bir xüsusiyyəti də odur ki, təkcə kənd təsərrüfatında istehsal olunan xammalın emal üçün əsasən Bakı-Sumqayıt rayonuna daşınması olmayıb, eyni zamanda əks istiqamətə də hazır sənaye məhsullarının kütləvi daşınması mövcud olmuşdur. Səmərəsiz qarşılıqlı yük daşınması iqtisadiyyatın tənəzzülünü, bu isə onun mənəviyyatla dialektik vəhdətdə olduğuna görə, millətimizin mənəviyyatının böhrana düçar olmasına şərait

---

[1] **Azərbaycan SSR Xalq təsərrüfatı. Statistika külliyyatı, Bakı, 1957, səh. 24-25.**

yaratmışdır. Məsələn, pambıqtəmizləmə zavodlar üçün müxtəlif avadanlıqlar, kənd təsərrüfatı maşınları və aqreqatlar istehsal edən sənaye müəssisi Bakıda yaradılmış, pambıqtəmizləmə zavodları isə rayonlarda olmuşdur. Halbuki göstərilən məhsulların emalı və son məhsula çevrilməsi istehlak rayonlarının özündə təşkil edilməsi həm iqtisadi, həm də bir çox sosial problemlərin həlli baxımından daha faydalı olardı. Bundan başqa, əhalinin respublikanın bütün ərazisində optimal yerləşdirilməsi təmin olunardı, kənd əhalisinin öz doğma, ata-baba yurdlarından didərgin düşməsinin qarşısı alınardı.

Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin bir istiqaməti də irriqasiya və melorasiya işinin inkişaf etdirilməsidir. Pambıqçılıq çox su tələb edən sahə olduğundan Azərbaycanda melorasiya və irriqasiyanı genişləndirmədən pambıqçılığı intensiv surətdə inkişaf etdirmək mümkün deyil. Bu məqsədlə sovet dövləti Mingəçevir su anbarını tikdirməyə icazə vermiş və buna lazım olduğu qədər vəsait ayırmışdır. Bunun nəticəsində Mingəçevir su elektrik stansiyası tikilmiş, su anbarı yaradılmış və su anbarından Qarabağa, Muğana, Şirvana və sair yerlərə su kanalları çəkilmişdir. İlk baxışda bu mütərəqqi və xeyirxah bir işdir. Belə ki, susuz torpaqlara su çıxarılmış, əkin sahələri su ilə daha yaxşı təchiz edilmiş, kəndlər elektrikləşdirilmişdir. Lakin problemə daha dərindən baxdıqda, onun verdiyi xeyir ilə vurduğu zərəri müqayisə etdikdə, ikincinin daha çox olduğu aydın olur. Bu, ən çox Mingəçevir su elektrik stansiyasının və su anbarının tikildiyi yerin seçilməsi ilə əlaqədardır. Bunu elə yerdə tikmək olardı ki, onun verdiyi zərəri tamamilə və yaxud qismən aradan qaldırmaq olardı. Bunun qəsdlə, düşünülmüş, planlaşdırılmış, yaxud bilməməkdən edildiyini demək çətindir. Lakin bu danılmaz həqiqətdir ki,

adambaşına düşən meşə sahəsinə görə Azərbaycan SSRİ-də aşağı yerlərdən birini tutan ölkə üçün 60-61 min hektar sahəsi olan Samux meşələrinin su altında qalması əvəzsiz və böyük itgidir. Digər tərəfdən, əgər nadir ağaclara malik olan meşə ilə bərabər zəngin heyvanat aləminin də su altında qalmasını nəzərə alsaq, itginin daha böyük olduğu aydın olar.

Keçmiş Samux meşələri üstündə yaradılan Mingəçevir su anbarına yığılan su uzun müddət bir yerdə qaldıqda durulur, əkin sahələrinin təbii gübrəsi hesab edilən asılı maddələri (əkinçilik üçün yararlı) azalır. Kür-Araz, Alazan çaylarının gətirdiyi və bitkilərin inkişafı üçün qiymətli gübrə hesab edilən asılı maddələr Mingəçevir gölünün dibinə çökür. Bundan suvarma kanallarına və Kür çayına axıdılan duru, təbii surətdə «distilə» edilmiş su torpağa təbii qida verə bilmir. Duru su, torpağın quruluşunu pozur, yerin səthində bir növ rütubəti mühafizə edən lil pərdəsi əmələ gətirmir. Belə olduqda Qarabağda, Muğanda, Şirvanda yerin səthində gedən intensiv buxarlanma torpaqların şoranlaşmasına şərait yaradır, suvarmanın səmərəliliyini, bostan-tərəvəz bitkilərinin qida keyfiyyətini aşağı salır. Halbuki başını dağların bulaqlarından götürən çay suları torpağı suvarmadan başqa, həm də gübrələyirdi, məhsuldar humusunu artırırdı, torpağın üstündə nazik lil pərdəsi əmələ gətirməklə qızmar günəş altında buxarlanmanın qarşısını alırdı.

Mingəçevir bəndinin tikilməsi ilə Kür çayı və Xəzər dənizində balıqçılıq təsərrüfatına da zərər vermişdir. Bu ondan irəli gəlir ki, Mingəçevir bəndi balıqların kürü tökmək üçün çayın yuxarı axarına keçməsinə imkan vermir. Su anbarının qarşısını alan bəndin tikilməsində bioloji, ekoloji, təbiətin mühafizə tədbirləri həyata keçirilsəydi, belə vəziyyət alınmazdı. Bu illərdə təbiət və

iqtisadi qanunların tələbləri nəzərə alınmadığına görə əkinçilik zonalarında torpaqların təbii məhsuldarlığı xeyli aşağı düşmüşdür. Dağ və dağətəyi zonalarda tarla qoruyucu zolaqların, su ehtiyatlarının azalması, meşələrin qırılması ilə erroziya proseslərinin genişlənməsi torpaqların məhsuldarlığını azaltmışdır.

Elektrik enerjisi alınması, suvarmanın genişləndirilməsi üçün Mingəçevir Şəmkir, Naxçıvan, Tərtər SES-lərinin, su anbarlarının tikilməsi, suvarma kanallarının, elektrikötürücüsü xətlərinin çəkilməsi geniş sahədə torpaqların itirilməsinə səbəb olmuşdur. Kür çayı üzərində Mingəçevir SES-nin tikilməsinin mənfi nəticələrindən biri də sistemsiz, ağılsızcasına Tuğay meşələrinin qırılması və Qarasu bataqlığının tamamilə qurudulması idi. Heç olmasa, Kür çayı boyunca Yevlaxdan Salyana qədər uzanan Qarasu bataqlıqlarının bir hissəsi Zərdab, Sabirabad, Kürdəmir rayonları ərazisində saxlanılsaydı, min tonlarla balıq, külli miqdarda quş və qaban əti, qarğı və qamışdan ibarət qiymətli tikinti materiallarından məhrum olmazdıq. Bunun üçün mayda və apreldə Kürün səviyyəsinin qalxdığı vaxt bataqlıqlara su axıtmaqla su balansını nizamlamaq mümkün olardı. Bu da Kür boyu tuğay meşələrinin sıradan çıxmasının, zəngin heyvanat aləminin, çöl quşlarının məhv olmasının qarşısı alınardı.

Mingəçevir hidrotexniki kompleksinin tikintisindən sonra Kür çayında yaz daşqınları baş vermədiyindən sahil torpaqlarında rütubətin kəskin surətdə azalması nəticəsində zəngin tuğay meşələri sıradan çıxdı. Kür-Araz ovalığının quru çöl iqlimi şəraitində yerləşən tuğay meşələri adı «Qırmızı kitaba» düşmüş bir sıra heyvanlarla, nadir ağaclarla zəngin olan Samux meşələrindən başlamış Salyan rayonuna qədər Kür ətrafı boyu havanı sərinləşdirirdi, torpaqların su tutumunu

tənzim edirdi, burada olan tut ağacları ipəkçiliyin inkişafında möhkəm xammal mənbəyi idi. Faydalı heyvanat aləmi, çır meyvələrlə zəngin olan tuğay meşələrindəki ağaclardan tikinti materialları kimi istifadə edilirdi. Təəssüf ki, bu sərvətlər yox edildi, min illər ərzində formalaşmış, həmin sərvətlərin yenidən yaradılması isə elmi-texniki tərəqqinin, insan zəkasının imkanları xaricindədir. F.Engels insanların təbiətə qarşı nankorluğunun mənfi nəticələri haqqında yazmışdır: «Lakin təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyin. Hər bir qələbə üçün təbiət bizdən intiqam alır. Bu qələbələrdən hər biri, doğrudun, birinci növbədə bizim gözlədiyimiz nəticələri verir, lakin ikinci və üçüncü nöbvədə çox zaman birinci nəticələrin əhəmiyyətini puça çıxaran lap başqa, gözlənilməz nəticələr verir. Əkin yeri əldə etmək üçün Mesopotomiyada, Yunanıstanda, Kiçik Asiyada və başqa yerlərdə meşələri qırıb ağacları kökündən çıxaran adamların heç yuxusuna gəlmirdi ki, bu hərəkətləri ilə onlar həmin ölkələrin indiki viranəliyinin əsasını qoymuşlar, çünki bu yerlərin meşələrini yox etməklə bərabər, rütubətin toplaşdığı mərkəzləri də yox etmişlər. Alp italyanları dağların şimal döşündə çox qayğı ilə qorunan iynəyarpaq meşələrini dağların cənub döşündə qırdıqları zaman bilmirdilər ki, bununla öz vilayətlərinin uca dağlıq yerlərində maldarlığın kökünü kəsirlər; onlar əsla bilmirdilər ki, bununla ilin çox hissəsində öz dağ bulaqlarının suyunu qurudacaq və yağışlıq dövründə bu bulaqlardan düzənliyə güclü sellər axacaqdır».[1]

F.Engelsin bu sözləri dediyi vaxtdan xeyli zaman keçmişdir. Bu dövr ərzində insanların təbiətə verdiyi zülmlər nəticəsində təbiət çox yoxsullaşmış və təbiətlə cəmiyyət arasındakı tarazlığın pozulması çox təhlükəli

---

[1] **F.Engels. Təbiətin dialektikası. Bakı, 1996, səh. 153-154.**

səviyyəyə çatmışdır. Məsələn, planetimizin quru sahəsinin 40 faizi səhraya çevrilmiş, atmosferdə ozon deşiyi yaranmış, dünyadakı içməli suyun çox hissəsinin toplandığı Baykal gölünün suyunun çirklənməsi son həddə çatmış, bir çox çaylar sadəcə olaraq zəhərlənmiş su kanallarına çevrilmişdir.

Cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarından biri məhsuldar qüvvələrin inkişafının ən yüksək mərhələsində kənd təsərrüfatı istehsalı ilə sənayenin üzvi surətdə birləşməsidir. Bu o deməkdir ki, cəmiyyətin inkişafının ilk mərhələsində ictimai istehsal sənaye və kənd təsərrüfatı istehsalı sahələrinə bölünmədiyi kimi, məhsuldar qüvvələrin inkişafının müəyyən mərhələsində adı çəkilən sahələr arasında sədlər tamamilə silinərək bir-birinə qovuşacaqlar. Bu proses inqilabi yolla, zorakılıqla yox, təkamül yolu ilə baş verəcək. Müasir dövrdə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Sənayecə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının sənaye əsasına keçirilməsi bunu sübut edir. Son 150-200 il əvvəl Qərbi Avropa və Amerikada əhalinin çoxu kənd yerlərində yaşadıqları və kənd təsərrüfatı istehsalı ilə məşğul olduqları halda, hazırda əmək qabiliyyətli əhalinin cəmi 4-5 faizi kənd təsərrüfatı istehsalı ilə məşğul olur. Bunun əsas səbəbi sənayecə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının sənaye əsasına keçirilməsindədir.

Sovet hakimiyyəti illərində adı çəkilən proses Azərbaycanda məlum səbəblər üzündən sənayecə inkişaf etmiş dövlətlərə nisbətən çox zəif həyata keçirilmişdir. Bu obyektiv prosesin inkişafına şərait yaratmaq və ona kömək etmək Azərbaycan dövlətinin öhdəsinə düşür. Azərbaycan dövləti bunu dərk edərək Azərbaycanın regionlarında emal, yüngül, yeyinti və digər sənaye müəssisələrinin yaradılmasına xüsusi diqqət

yetirir və bu Azərbaycan dövlətinin aqrar siyasətindən prioritetini təşkil edir.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. Məhsuldar qüvvələrin tərifini deyin.
2. Məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyələrinin adlarını sayın.
3. J.Tyunevin nəzəriyyəsinin Azərbaycanan tətbiqi mümkündürmü?
4. Bazar iqtisadi sistemi ilə inzibati-amirlik sistemlərində məhsuldar qüvvələrin yerləşdirilməsinin prinsipini müqayisə edin.
5. Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinin əhəmiyyətini danışın.
6. Azərbaycanda sənayedə məhsuldar qüvvələrin səmərli yerləşdirilməsinin labüdlüyünü şərh edin.
7. Sovet imperiyasının Azərbaycanın sənayesində məhsuldar qüvvələrin yerləşdirilməsi siyasəti və onun mənfi nəticələrini şərh edin.
8. Sovet hakimiyyəti dövründə Azərbaycanın aqrar bölməsində istehsalın ixtisaslaşdırma siyasətinin mərhələlərini deyin və onların fərqlərini göstərin.
9. Azərbaycanda pamğıqçılığın intensiv inkişaf etdirilməsinin ekoloji tarazlığın pozulmasına və əhalinin sağlamlığına mənfi təsirini şərh edin.

## Müzakirə üçün suallar və tapşırıqlar

1. İqtisadi coğrafiyanın predmeti nədir və onun iqtisad elmləri sırasına daxil olmasını əsaslandırın.

2. J.Tyunenin kənd təsərrüfatında məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyəsinin məzmununu danışın.

3. Sovet hakimiyyəti illərində Azərbaycanda məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirilməsinin səbəblərini və mənfi nəticələrini şərh edin.

4. Keçid dövründə Azərbaycanda məhsuldar qüvvələrin yenidən milli mənafeyə uyğun yerləşdirilməsinin zəruriliyini izah edin.

5. Azərbaycanın sənayesində məhsuldar qüvvələrin yerləşdirilməsinin müasir vəziyyəti və onun qeyri-optimal olmasının səbəblərini göstərin.

6. Sovet hakimiyyəti illərində Azərbaycanın aqrar bölməsində istehsalın ixtisaslaşdırılmasının xüsusiyyətləri, məqsədi və mənfi nəticələrini aydınlaşdırın.

7. Azərbaycanın kənd təsərrüfatında məhsuldar qüvvələrin yerləşdirilməsində sovet müstəmləkəçilik siyasəti və onun mənfi sosial-iqtisadi nəticələrini şərh edin.

8. Azərbaycanda məhsuldar qüvvələrin milli mənafeyə uyğun səmərəli yerləşdirilməsinin üsulları, vasitələri və istiqamətlərini danışın.

# 5-ji MÖVZU: AZƏRBAYJANIN SAĞLAM MİLLİ İQTİSADİYYATININ FORMALAŞMASI VƏ İNKİŞAFINDA DÖVLƏTİN YERİTDİYİ STRUKTUR SİYASƏTİNİN ROLU

## § 1. Azərbayjanın milli iqtisadiyyatının qeyri-sağlam vəziyyətə düşməsinin müstəmləkiçiliyin təsiri

Cəmiyyət yalnız təbiət və cəmiyyətin bir-birilə qarşılıqlı əlaqə və vəhdəti şəklində mövcud ola bilər. Onların bu vəhdətliyi həm təbiətin, həm də cəmiyyətin inkişafını və tənəzülünü şərtləndirir. Hər iki tərəfin, yəni həm təbiətin, həm də cəmiyyətin inkişafının fərqləri də vardır. Hər iki varlığın ümumi qanunauyğunluğu «gücsüz güclünün şikarıdır» prinsipi əsasında tənzimlənməsidir. Lakin bu prinsip təbiətin tənzim olunmasında əsas prinsip olduğu halda cəmiyyətin idarə olunmasında fərqlər də vardır.

«Gücsüz güclünün şikarıdır» prinsipi bitgi və heyvanat aləmində əbədi olduğu halda insan cəmiyyətində, o cümlədən hər bir xalqda, dövlətdə müvəqqəti ola bilər. Bu insanın digər varlıqlardan ağıllı, şüurlu olması ilə əlaqədardır. İnsan ağlını işlətməklə, elmin əsaslarını dərindən öyrənməklə, məqsədəuyğun çalışmaqla istədiyinə nail ola bilər. Bir dövlətin daim müstəmləkəçi, digərinin isə daim müstəmləkə olması ümumi qanunauyğunluq deyil. Vaxtilə müstəmləkə olan sonralar müstəqillik uğrunda mübarizə aparmaqla müstəqillik qazanan və dünyada öz sözü olan aparıcı mövqe tutan, hətta zəifləri öz müstəmləkəsinə çevirən dövlətlərin olması tarixi faktdır.

İnsan cəmiyyətinin başlanğıcı olan ibtidai icma cəmiyyətindən tutmuş indiyə kimi insanlar, xalqlar, millətlər və dövlətlər arasında həmişə toqquşmalar,

ziddiyyətlər və müharibələr olmuşdur. Bu baxımdan tarix dövlətlər arasında müharibələr tarixidir demək olar. Dinclik, sülh, sabitlik dövrü olsa da hansı formadasa dövlətlərin qarşıdurması, onların arasında ziddiyyətlərin kəskinləşməsi və müharibələr qaçılmazdır. Müharibələr sülh bağlamaqla sona çatsa da zəif millətin, dövlətin özündən daha güclüsünün müstəmləkəsinə çevrilməsi ilə nəticələnməsi labüddür.

Müstəmləkəçiliyin mahiyyəti – güclü dövlətlərin zəifləri öz əsarətləri altına alması eyni olsa da məhsuldar qüvvələrin inkişaf səviyyəsindən və cəmiyyətin inkişaf mərhələsinin mahiyyətindən asılı olaraq metod və formalar müxtəlif olmuşdur. Məsələn, quldarlıq və feodalizm cəmiyyətlərində güclü ordusu olan dövlətlər özlərindən zəiflərini müharibə yolu ilə məğlub edərək onların xəzinəsini müsadirə etmiş, əhalidən baç-xərc almaqla kifayətlənmişdirsə cəmiyyətin inkişafının bazar iqtisadi sistemi (kapitalizm) dövründə güclü dövlətlər geri qalmış dövlətlərin ərazisini işğal etmiş həmin dövlətləri siyasi və iqtisadi cəhətdən özlərindən asılı vəziyyətə salmış, o yerləri öz dövlətinin xammal bazasına, ucuz işçi qüvvəsi məkanına və satış bazarına çevirmişdir.

Beləliklə, cəmiyyətin inkişafının azad rəqabət kapitalizm dövründə müstəmləkəçilik özünün yeni mərhələsinə daxil olmuşdur. Bu dövrdə müstəmləkəçiliyin xüsusiyyəti ondan ibarətdir ki, tələbatın artması iqtisadiyyatı qabaqlamış və insanların tamahkarlığı müstəmləkəçiliyi şərtləndirmişdir. Bu dövrdə müstəmləkəçiliyin əvvəlkidən fərqli xüsusiyyəti hansı dövlətin əlində kapital çoxdursa dünyada söz sahibi də onun olması prinsipi olmuşdur.

Bazar iqtisadi sisteminin azad rəqabət dövründə bazar iqtisadi sisteminin daha tez formalaşdırmağı bacaran İngiltərənin kapitalı digərlərinə nisbətən daha

çox olduğundan o daha çox ərazini işğal etmişdir. Müasir tənzimlənən bazar iqtisadi sistemində dünyaya ağalıq etməyin əsas vasitəsi elmdir. Elmi-texniki inqilabın baş verməsi, bunun təsiri ilə qloballaşma prosesinin başlanması elmin rolunu artırmış, elm məhsuldar qüvvəyə çevrilmişdir. Cəmiyyətin inkişafının indiki mərhələsində hansı dövlətdə elmin inkişafı yüksək səviyyədədirsə dünyada hökmranlıq da ona məxsusdur. Hazırda ABŞ belə bir dövlətdir. Ona görə də dünyaya ağalıq iddiası İngiltərədən ABA-a keçmişdir. O bu iddianı demokratiya pərdəsi altında, iqtisadi vəsaitlərlə, gizli və pərdəli şəkildə həyata keçirir.

Bütün dövrlərdə müstəmləkəçiliyin ümumi qanunauyğunluqlarından biri müstəmləkə dövlətin özünün günahkar olmasıdır. Başqa sözlə, millətlərin bir qisminin müstəmləkə, başqa bir qisminin isə müstəmləkəçi olması obyektiv haldır. Şəraiti daha düzgün qiymətləndirən, əvvəlki təsərrüfat formasının vaxtı keçdiyini, məhsuldar qüvvələrin inkişafına mane olan, onu ləngidən iqtisadi münasibətlərin daha mütərəqqisi ilə əvəz olunmasının zəruriliyini dərk edən dövlət milli iqtisadiyyatını inkişaf etdirir və güclü olur, bunun əksinə, məhsuldar qüvvələrin inkişafına uyğun gəlməyən obyektiv prosesləri gec başa düşən, ləngiyən millət isə güclünün müstəmləkəsinə çevrilir.

Bazar iqtisadi sisteminin formalaşması və inkişafında ilkin kapital yığımı əsas rol oynamışdır. Bu proses Avropada daha erkən baş vermiş və Avropa xalqları dünyanın digər qitələrində yaşayan xalqlardan bazar iqtisadi sisteminin feodal münasibətlərinə nisbətən üstün olmasını dərk etmiş və onun formalaşmasına və inkişafına çalışmışlar. Onlar bu iqtisadi sistemin üstünlüklərindən istifadə edərək, dünyanın digər qitələrində yaşayan zəif inkişaf etmiş dövlətləri özlərinin

müstəmləkələrinə çevirmişlər. Azərbaycan da öz günahı ucbatından iki yerə bölünən və Azərbaycanın şimalının Rusiyanın müstəmləkəsinə çevrilən dövlətlərdən biridir.

Bazar iqtisadi sisteminin müasir mərhələsində müstəmləkə və müstəmləkəçilik münasibətlərində ümumi cəhətlər ilə yanaşı müəyyən fərqlər də olmuşdur. Belə ki, XVII-XIX əsirləri, bazar iqtisadiyyatının birinci mərhələsini əhatə edən dövrdə əmtəə ixracı üstünlük təşkil etmişdir. Bu dövrü xüsusi sahibkarlığın üstün inkişaf mərhələsi adlandırmaq olar. Adı çəkilən dövrdə sənayecə inkişaf etmiş ölkələrdə istehsal maşınlı sənayeyə əsaslandığına görə eyni növ əmtəələrin fərdi dəyəri müstəmləkə ölkələrində istehsal olunan eyni cinsli əmtəələrin fərdi dəyərindən aşağı olduğuna görə yerli istehsalçılar (istər xırda əmtəə istehsalçıları, istərsə də kapitalist əmtəə təsərrüfatı olsun) müstəmləkəçi ölkələrin sahibkarları ilə rəqabətdə bir qayda olaraq uduzmuşlar. Bu prosesin gedişində xırda əmtəə istehsalçılarının çoxusu var-yoxdan çıxmış, az hissəsi isə milli sahibkarlara çevrilmişlər, milli sahibkarlar da eyni qaydada təbəqələşmişlər, onların bir qismi, daha istedadlı, qabiliyyətli subyektləri belə kəskin, ölüm-dirim mübarizəsində bərkimiş, mübariz əhval-ruhiyyəsini saxlamağa çalışmış, özündən güclü rəqiblə iqtisadi mübarizəyə girmək məcburiyyəti onun bütün imkanlarını səfərbər etməyə, öz üzərində ciddi çalışmağa, rəqiblərinin müsbət təcrübəsini öyrənməyə sövq etmişdir. Xarici rəqabətlə kəskin mübarizədə qalib gəlmək hamıya qismət olmasa da, yerli sahibkarların müəyyən hissəsi qalib çıxmışlar. Belə kəskin mübarizənin gedişində milli burjuaziya formalaşmışdır. Daha doğrusu, müstəmləkəçi dövlətlərdən müstəmləkələrə ixrac edilən əmtəə müstəmləkələrdə azad sahibkarlığın əsas amili olan ilkin kapital yığımının yaranmasına səbəb olmuşdur.

XIX əsrin son qərinəsində elm və texnikada baş verən mütərəqqi dəyişikliklərə, elmdə, texnikada yeni kəşflərə, ixtiralara təsadüfi hadisə kimi baxmaq olmaz. Bu, azad sahibkarlığın, xüsusi mülkiyyətin inkişafı əsasında sənayenin təkamül yolu ilə inkişafının nəticəsi olmuşdur. Milli sahibkarlar əldə etdiyi mənfəətin daha çox hissəsini mütərəqqi, yeni texnikanın istehsala tətbiqinə yönəltməklə məhsuldar qüvvələrin inkişafını sürətləndirmişlər, gəlirlərin daha çox hissəsini tədriclə kapitala çevrilməsini çoxaltmaq belə sıçırayışlı inkişafa gətirməli idi və o, məhz XIX əsrin son qərinəsində reallaşdı. Bu proses iqtisadiyyatın inkişafında mühüm rol oynayan əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olmaqla bərabər, eyni zamanda iqtisadi inkişafda əsas amillərdən olan azad rəqabəti məhdudlaşdıran inhisarların da yaranmasına şərait yaratdı.

Elm və texnikada baş verən mütərəqqi yeniliklər məhsuldar qüvvələrin inkişafını sürətləndirdi. Bu isə həm bazar iqtisadi sistemi istiqamətində inkişaf edən dövlətlərin daxilində, həm də beynəlxalq iqtisadi münasibətlərdə, o cümlədən müstəmləkələrlə müstəmləkəçi dövlətlər arasında iqtisadi əlaqələrdə dəyişiklik etməyi, təkmilləşdirməyi, məhsuldar qüvvələrin inkişafına meydan verən münasibətlərin yenidən qurulmasını tələb edirdi. Burada ilk növbədə sənayecə inkişaf etmiş dövlətlərin yüksək inkişaf etmiş sənayesini xammala təmin etmək ön plana çəkildi. Çünki azad sahibkarlığın inkişafının ilk mərhələsində müstəmləkələr əsas xammal mənbəyi idi. Bazar iqtisadiyyatının sonrakı mərhələsində sənayenin inkişafı daha çox xammal istehsalını tələb edirdi. Müstəmləkələr isə müstəmləkəçi dövlətlərə nisbətən bol xammala, zəngin təbii sərvətlərə malik idi. Ona görə də müstəmləkələrin əhəmiyyəti əvvəlkinə nisbətən daha da artır. Buna görə də

müstəmləkəçi dövlətlər müstəmləkələri yenidən böldülər və müstəmləkə sistemini formalaşdırdılar. Məsələn, 1881-ci ildə Fransa Tunisi zəbt etdi. 1882-ci ildə İngiltərə Misiri işğal etdi. 1884-cü ildə Almaniya Cənubi-Qərbi Afrikanı ilhaq etdi. 1890-cı ildə İngiltərə və Almaniya Şərqi Tropik Afrikanı bölüşdürmək barədə müqavilə bağladılar. 1885-ci ildə Fransa Ənnam və Tonkini ilhaq etdi, İngiltərə Birmanı tutdu, Almaniya yeni Qvineyanın şimal-şərq hissəsini, Marşal adlarını zəbt etdi, XIX əsrin sonunda İngiltərə müstəmləkə mülkləri bütün dünyanı əhatə etdi. Okeanın o tayındakı ərazinin böyük hissəsi kiçik müstəmləkəçi dövlətlər olan İspaniyanın, Portuqaliyanın, Hollandiyanın, Belçikanın əlinə keçdi. XIX əsrin sonunda demək olar ki, «azad», yəni müstəmləkəçilərin işğal etməmiş olduğu torpaqlar qalmamışdır. Beləliklə, bütün dünya dövlətləri əsasən iki qrupa müstəmləkəçi və müstəmləkə dövlətlərinə bölünmüşdülər.

Göründüyü kimi müstəmələkəçilik dövründə müstəmləkəçi dövlətlərin demək olar ki, hamısı Avropa dövlətləri olmuşdur. Bu millətlər və xalqlar marksizm nəzəriyyəsində olduğu kimi madiyyəti birinci mənəviyyatı ikinci yerə qoymuşlar. Təəssüf ki, onlar bunu başqa millət və xalqların torpaqlarını işğal etmək təbii və milli sərvətlərini talamaq yolu ilə həyata keçirməyi qarşılarına əsas məqsəd qoymuşlar. Onlar buna XI-XII əsrlərdə Şərq ölkələrinə səlib (xaç) yürüşləri ilə başlamış və 200 il ərzində bu ölkələrə 20 dəfə yürüş etmişlər. Bunu onlar sonralar da davam etdirmişlər. İki dünya müharibəsinin hər ikisinin, dəfələrlə yəhudi qırğının Avropada baş verməsi təsadüfi deyil. Avropa dövlətləri şərq ölkələrinə nisbətən o qədər işğalçılıq müharibələri aparmışlar ki, bu artıq xarakterə çevrilmişdir. Hazırda adı çəkilən dövdətlər demokratiya, qloballaşma pərdəsi altında müstəmləkəçilik siyasətini daha amansız yerinə yetirməyə çalışırlar.

Deməli, Avropa dövlətlərinin xarici siyasəti texnogenə, yəni tamahkarlığa, işğalçılığa, zora əsaslandığı halda Şərq ölkələrininki humanistliyə əsaslanır. Buna görə də Azərbaycan Avropaya inteqrasiya siyasətində onların elmindən, təhsilindən, texnologiyasından istifadə etməyə üstünlük verməli, özünün mənəviyyatını, humanizmini əldən verməməlidir, onu yad təhlükələrdən qorumağı bacarmalıdır. Çünki Azərbaycan xalqının mənəviyyatı Avropa dövlətlərinin əhalisinin mənəviyyatından yüksəkdir.

Təəssüf ki, Azərbaycan məlum səbəblər üzündən müstəmləkə olmaqdan xilas ola bilmədi. O əvvəlcə Çar Rusiyasının sonra isə sabiq SSRİ-nin müstəmləkəsi olmuşdur. Keçmiş SSRİ özünü sosialist dövləti adlandırsa da dünyada analoqu olmayan ən böyük müstəmləkəçi dövlət idi. Sovet müstəmləkəçiliyi varisi olduğu Çar Rusiyası müstəmləkəçiliyinin davamı olmuş, Rusiya digər müstəmləkəçi dövlətlərin müstəmləkə xalqları öz əsarətləri altında saxlamaq məqsədilə tətbiq etdikləri bütün metod və üsulları saxlamışdır.

Beləliklə, müstəmləkəlçilik cəmiyyətin inkişafıının bütün mərhələlərində müxtəlif formalarda mövud olmuş və nəticələri də bir-birindən çox az fərqlənmişdir. Sovet müstəmləkəçiliyi kommunist diktaturası vasitəsilə tənzim edildiyinə görə bazar iqtisadi sistemi ölkələrinə nisbətən daha çox mənfi cəhətlər doğurmuşdur. Belə ki, Avropa dövlətlərinin müstəmləkəçilik siyasətinin həm müsbət, həm də mənfi cəhətləri olmuşdur. Bunların nisbətinə gəldikdə isə onun müsbət cəhətləri mənfisindən çoxdur. Bu həm təbiətdə, həm də cəmiyyətdə belədir. Bu özünü həm bitki, həm də heyvanat aləmində mütləq mənada xeyirli bitki, ziyanlı heyvanın olmamasında göstərir. İnsan cəmiyyəti də bu qanunauyğunluğa tabedir. Ona görə ki, həm ayrı-ayrı fərdlərdə, həm də müxtəlif millətlərdə,

dövlətlərdə hər şey müsbət və yaxud əksinə ola bilməz. Yalnız Sovet imperiyası bu qanunauyğunluqdan kənarda qalmış, bu obyektiv qanunauyğunluğa tabe olmamışdır. Başqa sözlə, bütün müstəmləkəçilərin cəmiyyətin inkişafında mənfi rolu ilə bərabər onların müsbət təsirləri olduğu halda sovet müstəmləkəçiliyi öz müstəmləkələrinə və bütün dünyaya problemlər yaratmışdır. Eyni zamanda inzibati-amirlik iqtisadi sistemindən daha mütərəqqi olan azad sahibkarlığı, xüsusi mülkiyyəti məhv etməklə öz dövlətinin də iqtisadiyyatının inkişafını ləngitmişdir.

İqtisadi ədəbiyyatda Sovet iqtisadi sistemində Azərbaycanın qazandıqları ilə itirdikləri müqayisə edilir, hətta bu sistemdə qazandıqlarımızın daha çox olması kimi fikirlər söylənilir.

«Azərbaycan iqtisadiyyatı» adlı dərslikdə yazılır: «Sovet hakimiyyəti illərində Azərbaycan iqtisadiyyatının inikşafındakı nailiyyətlərin başlıca səbəblərindən biri o zaman bir sıra ərazilərə nisbətən onun təbii sərvətlərinin daha ətraflı öyrənilməsi olmuşdur». Daha sonra orada yazılmışdır: «Sovet İttifaqının tərkibində Azərbaycan üçün belə bir xüsusiyyət də daima səviyyəvi olmuşdur ki, onun bir sıra təbii sərvətlərinin istifadəsi bütövlükdə ölkənin iqtisadi qüdrətinin möhkəmləndirilməsi mənafelərinə tam cavab verirdi».[1]

Adı çəkilən və digər iqtisadi ədəbiyyatda Sovet imperiyası dövründə sənaye və kənd təsərrüfatı məhsullarının sürətlə artdığı iddia edilir. Bəzi adamlar gözə görünməyənləri şişirtmiş, istehsalın məqsədinin kimin mənafeyinə xidmət etdiyini nəzərə almadan həddindən çox qiymət verilmişlər. Həmin mənbədə yazılmışdır: «Sovet imperiyası dövründə Azərbaycan sənayesinin tərkibi yeni sahələrin, o cümlədən qara və əlvan metallurgiya, kimya sənayesinin digər sahələrinin,

---

[1] **«Azərbaycan iqtisadiyyatı», dərslik, Bakı, 1998. səh. 51,52.**

maşınqayırmanın ən müasir istiqamətlərindən olan elektronika, mikroelektronika, elektrotexnika və sair kimi yeni çox mühüm sahələrin yaranması və güclü inkişafı hesabına daha da artmış və xeyli genişlənmişdir».[2] Digərləri isə Sovet hakimiyyəti illərində Azərbaycanda elmin, təhsilin səhiyyənin yüksək səviyyədə inkişaf etdiyini ön plana çəkərək onu qabardırlar.

Sovet hakimiyyəti illərində Azərbaycanın nəyi isə qazandığını iddia etmək həqiqətə uyğun deyil. Ona görə ki, bu dialektikanın qanununun əleyhinə çıxmaq deməkdir. Birincisi, ona görə ki, bütün dünya dövlətlərinin, xalqlarının iqtisadiyyatı, elmi, mədəniyyəti və sair sahələri kimi Azərbaycanın da iqtisadiyyatının bütün sahələrində inkişaf olmuşdur və bu təbiidir. Bunu Sovet hakimiyyətinin ayağına yazmaq ədalətsizlikdir. İkincisi, hər şeyin, o cümlədən iqtisadiyyatın, elmin inkişafı onun nəticəsi ilə ölçülür. Əgər inkişaf əhalinin həyat səviyyəsini yüksəltmirsə, buna inkişaf demək olmaz. Adı çəkilən dövrdə isə Azərbaycan xalqının həyat səviyyəsi dünya standartlarından həmişə aşağıda durmuşdur. Üçüncüsü, Azərbaycanın təbii sərvətlərinin üzə çıxardılaraq istifadəyə verliməsi Azərbaycan xalqının deyil, imperiyanın mənafeyi xatirinə edilmişdir və bu Azərbaycanın bərpa olunmayan faydalı qazıntılarının vaxtından əvvəl tükənməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur. Sovet imperiyası dövründə Azərbaycanın nə isə qazandığını iddia etmək problemə marksist metodu ilə yanaşmağın və sovet təbliğatına uymağın nəticəsidir.

Azərbaycanın sovet imperializminin müstəmləkəsi olduğu dövrdə qazandığını və ya itirdiyini düzgün müəyyən etmək üçün ona yeni metodla yanaşmaq lazımdır. Bu zaman təbiətin qanunlarına əsaslansaq daha

---

[2] **Yenə orada, səh. 53-54.**

düzgün nəticəyə gəlmək olar. Çünki ən böyük elm təbiət və onun qanunlarını bilmək, onu dərk etmək və ondan düzgün istifadə etməkdir.

Məlumdur ki, təbii sərvətlər iki qrupa bölünür: bərpa olunan və bərpa edilməyən. Məsələn, hava, su, meşələr və sair bərpa olunan, yeraltı faydalı qazıntılar isə bərpa olunmayan təbii sərvətlər qrupuna daxildir. Bunu, bəhs etdiyimiz problemə şamil etsək görərik ki, Sovet sistemi dövründə Azərbaycan elə bir sərvət itirib ki, onu bərpa etmək qeyri-ümkündür. Bu insanın namusu, qeyrəti, varlığı olan ana torpağıdır. Sovet dövləti istisna olmaqla dünayanın heç bir dövləti müstəmləkəsinin torpağını 5-6 yerə parçalayaraq onu düşmən dövlətlərə pay verməmişdir. Sual olunur ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycanın torpağında yaradılmış Ermənistandan öz torpağını geri ala biləcəkmi? Sovet imperiyasının Ermənistana verdiyi Azərbaycanın qədim, ana-baba torpaqları olan Zəngəzuru, Göyçəni və sair əraziləri, Gürcüstana verdiyi Borçalını, Dağıstana bağışladığı Dərbəndi geri almaq mümkün olacaqmı? Əlbəttə, bu xülyadır. Müstəqillik qazandıqdan sonra iqtisadiyyatı inkişaf etdirmək isə, yəni sənaye müəssisələri, elm, təhsil, səhiyyə ocaqlarını yaratmaq və istənilən qədər onların sayını çoxaltmaq mümkündür. Deməli, biz Sovet sisteminin hökmranlığı dövründə heç vaxt bərpa olunmayan elə təbii sərvət itirmişik ki, onu nə sənaye, nə də elmi potesialla müqayisə etmək olmaz. Çünki Azərbaycan müstəqillik qazandıqdan sonra istənilən qədər sənaye müəssisələri, elm və təhsil ocaqları yaratmaq imkanına malik olduğu halda, itirilən torpaqlarımızı geri qaytarmaq iqtidarında deyil, ona görə ki, indi beynəlxalq münasibətlər başqa qaydada tənzimlənir.

Sovet müstəmləkəçiliyi dövründə Azərbaycanın ən böyük itkisi Azərbaycanda insan amilinin sağlam mənəviyyat əsasında formalaşmasının qarşısının alınması və buna görə də onun milli iqtisadiyyatının zəif inkişaf etməsi və indiki asılı vəziyyətə düşməsidir. Xoşbəxtlikdən itirilmiş torpaqlarımızdan fərqli olaraq bu əvəzsiz sərvət bərpa olunandır.

Bir qayda olaraq müstəmləkəçilər, o cümlədən sovet dövləti müstəmləkələrdə sənayenin aparıcı sahələrinin inkişafını qəsdən ləngidirlər və bütün güclərini hasilat və emal sənayesinin inkişafına yönəldirlər. Müstəmləkəçi dövlətlərin siyasətçiləri başa düşürlər ki, işğal etmiş olduqları ərazilər onların vətəni almadığından onlar geç-tez oradan çıxarılaraqlar. Ona görə də onlar imkanı daxilində müstəmləkələrin yeraltı sərvətlərini intensiv sürətdə çıxarıb aparmağa çalışmışlar. Sabiq SSRİ-i də Azərbaycanda istehsalın stpukturunu qurarkən bu metoddan istifadə etmişdir. Lakin pis mənada fərqli xüsusiyyətlər də olmuşdur. Bu hər şeydən əvvəl, bazar iqtisadi sisteminə nisbətən sosilalizmin sovet modelinin istehsalın səmərəliliyini təşkil edə bilməməsi ilə əlaqədardır. Digər isə erməni amili ilə bağlıdır. İmperiyanın paytaxında oturan və hakim dövlət tərəfindən himayə olunan və şirnikləndirilən vəzifə başında olan ermənilər Azərbaycana qarşı bacardıqları qədər pisliklər etmişlər. Məhz bu amillərin təsiri ilə sovet hakimiyyəti illərində həyata keçirilən istehsalın struktur siyasəti Azərbaycanın milli iqtisadiyyatını asılı vəziyyətə salmış və bir çox mənfi sosial-iqtisadi nəticələr vermişdir.

## § 2. Sovet hakimiyyəti illərində Azərbayjanda həyata

**keçirilən struktur siyasəti və onun Azərbayjanın milli iqtisadiyyatının inkişafına mənfi təsiri və sosial iqtisadi nətəcələri**

Sağlam milli iqtisadiyyatın formalaşması və inkişafında istehsalın strukturunun optimal qrulmasının əhəmiyyəti böyükdür. Buna görə də müstəmləkəçi dövlətlər müstəmləkə xalqların iqtisadiyyatını asılı vəziyyətdə saxlamaq məqsədilə istehsalın strukturunu qeri-optimal, öz mənafelərinə uyğun qurmuşlar. Sovetlər birliyi ən böyük müstəmləkəçi dövlət olduğundan o da Azərbaycanda istehsalın strukturunu ağır vəziyyətə salmışdır. Başqa müstəmləkəçi dövlətlərdən fərqli olaraq sabiq SSRİ-i struktur siyasətini Azərbaycanda daha sərt aparmışdır. Bunun bir səbəbi sosializmin sovet modelidirsə, digər səbəbi Azərbaycanın türk xalqlarının mərkəzində yerləşməsidir. Çünki sovet dövlətinin müstəmləkəsinin əksəriyyəti türk xalqları olmuşdur. (Azərbaycan, Orta Asiya, Volqa çayı boyu xalqları, Qərbi Sibir, şərqi Sibir və b.) Azərbaycan Qərb türkləri ilə Şərq türkləri arasında yerləşdiyinə görə onların birliyinə şərait yaratmaq imkanına malikdir. Sovet dövləti bunu bildiyindən Azərbaycana başqa müstəmləkələrdən fərqli yanaşmışdır.

İstehsalın strukturu, əmək bölgüsü və texniki-tərəqqi bir-birilə əlaqədardır və biri digərini şərtləndirir. İctimai əmək bölgüsündə bütün iqtisadi sistemlər üçün ümumi olan cəhətlərdən biri əməyin və istehsalın ixtisaslaşdırılmasıdır. Bu isə öz ifadəsini istehsalın strukturunda tapır.

Bazar iqtisadiyyatı ölkələrində ictimai istehsalın ixtisaslaşdırılması həmcins məhsulun geniş miqyasda, kütləvi surətdə istehsalın təşkili üçün zəruri şərtdir. Bu, istehsalı ən mütərəqqi, fasiləsiz axın metodu ilə təşkil

etməyə imkan verir və eyni zamanda avadanlığın, maşanların, alətlərin ixtisaslaşması və təkmilləşməsi prosesi üçün stimul yaradır. Fasiləsiz axın istehsalın və avadanlığın ixtisaslaşdırılması da istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün əsas yaradır. İxtisaslaşmanın dərinləşməsi iqtisadi inkişafın xarakterik cəhətlərindən biridir. İxtisaslaşma həm bütün maddi istehsal sahələrində, həm də qeyri-maddi sahələrdə baş verir. Əgər ixtisaslaşma texnikanın əmək və istehsalın təşkili və inkişaf səviyyəsinə uyğun gəlmirsə onda ictimai əmək bölgüsü qanununun fəaliyyəti üçün meydan yaratmır.

İctimai əmək bölgüsü və texniki tərəqqi obyektiv və mütərəqqi proses olsa da, XX əsrdə Azərbaycan müstəqil dövlət olmadığına görə istehsalın ixtisaslaşması texnikanın, əməyin və istehsalın təşkilinə uyğun gəlmədiyinə görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafına müsbət təsir göstərə bilməmişdir.

İctimai əmək bölgüsünün istehsalın səmərəliliyinə təsiri, hər şeydən əvvəl daha məhsuldar texnikanın tətbiqi üçün zəruri iqtisadi ilkin şərtlərin yaradılmasıdır. Müasir texnikanın tətbiqi və kütləvi məhsul istehsalı yalnız əmək bölgüsü və istehsalın ixtisaslaşdırılması əsasında mümkündür. Məhsuldar texnikanın səmərəli tətbiqi, bir tərəfdən məhsulun yüksək yekcinsliyini, birtipliyini, digər tərəfdən onun kütləvi, iri seriyalını tələb edir. Hər iki hal yalnız ixtisaslaşmış istehsal şəraitində mümkün ola bilər, ixtisaslaşmış müəssisədə daha ixtisaslı işçi qüvvəsinin tətbiqi nəticəsində əməyin səmərəliliyi də yüksəlir.

Məhsuldar qüvvələrin müasir inkişaf səviyyəsi, mövcud elmi-texniki tərəqqi şəraitində istehsalın təşkilinin mütərəqqi formaları müstəsna əhəmiyyətə malikdir, əmək məhsuldarlığı, istehsal xərclərinin səviyyəsi və ictimai

istehsalın bütün səmərəliliyi bu formaların seçilməsindən çox asılıdır.

Sahələrarası əmək bölgüsünün inkişafı sənayedə mürəkkəb kompleks sahələrin yaradılmasına gətirib çıxarır ki, bunların bir çoxu yüksək ixtisaslaşma dərəcəsinə malikdir. Təəssüf ki, bu obyektiv və mütərəqqi proses məlum səbəblər üzündən hazırda Azərbaycanda aşağı səviyyədədir. Bunun iki səbəbi olub. Birincisi, istehsalın səmərəliliyini təşkil etmək baxımından inzibati-amirlik sisteminin bazar iqtisadi sistemindən geri qalması. İkincisi, Azərbaycan sabiq SSRİ-nin müstəmləkəsi olduğu üçün onun bir regionu hesab edilməsi, digər tərəfdən Azərbaycanda istehsalın strukturu qurularkən iqtisadi səmərəlilik deyil, siyasi motivlər ön plana çəkilmişdir.

Bolşeviklər Rusiyada olduğu kimi Azərbaycanda sənaye və kənd təsərrüfatında istehsalın strukturunu saxtalaşdırmışdı. Belə ki, əgər sənayecə inkişaf etmiş ölkələrin müstəmləkələrində istehsalın strukturu olduğu kimi göründüyü halda, Sovet dövlətinin müstəmləkələrində, o cümlədən Azərbaycanda istehsalın strukturunun mahiyyəti formasına uyğun gəlməmişdir. Məsələn, Azərbaycanda formaca maşınqayırma, cihazqayırma, radiotexnika, kimiya, neft-kimiya, metallurgiya, energetika və sənayenin digər mütərəqqi, müasir sahələri olmuşdur. Habelə yüngül, yeyinti, hasilat, emal və sair sənaye müəssisələri yaradılmış və fəaliyyət göstərmişlər. Lakin həmin sənaye sahələrinin strukturuna dərindən nəzər salanda məlum olar ki, bu müəssisələrin heç biri Azərbaycan xalqının milli mənafeyinə uyğun fəaliyyət göstərməmişdir. Azərbaycanda müstəqil son məhsul istehsal edən heç bir maşınqayırma, cihazqayırma, radio-texnika və bu kimi sənaye müəssisəsi olmamışdır. Bütün sənaye müəssisələri ya

hər hansı detal, hissə istehsalçısı, ya da təmir müəssisəsi kimi fəaliyyət göstərmişlər.

Bir qayda olaraq Azərbaycanda metallurgiya sənaye müəssisəsi adlanan zavodlar imperiyanın mərkəzində yerləşən metallurgiya zavodları üçün xammal istehsal etmişlər. Məsələn, Daşkəsən filizi əsasında işləyən Gəncə alüminium zavodu filizi hər cür zərərli maddələrdən təmizləmiş, alüminiumu saflaşdırmış, onu külçə halında imperiyanın müəyyən etdiyi müəssisəyə göndərmiş, orada həmin saf alüminiumdan metal vərəqlər hazırlanmış, onun bir hissəsi yenidən Azərbaycana, kondisioner zavoduna xammal kimi göndərilmişdir. Hakim dövlət metallurgiya sənayesinin strukturunu bu cür təşkil etməklə Azərbaycan xalqına bir neçə istiqamətdə zərbə vurmuşdur. Birincisi, məlumdur ki, əlvan metallar istehsalı ətraf mühiti ən çox çirkləndirən sənaye sahəsidir. İstehsalı belə təşkil etməkdə emal prosesində əmələ gələn çirklər, zərərli tullantılar Azərbaycanın ərazisində qalır, saf hala salınmış metal isə mərkəzə daşınır. Məhz bunun nəticəsi idi ki, onsuz da gərgin olan ekoloji vəziyyət daha da pisləşmişdir. Bu isə insan amilinin, insanın inkişafının tərkib hissəsi olan əhalinin sağlamlığı üçün çox böyük təhlükə deməkdir. Gəncə kimi gözəl bir şəhərin mərkəzində alüminium zavodu tikmək genosidin ən pis, kommunist formasıdır. Dünyanın heç bir müstəmləkə ölkələrində belə zəhər püskürən zavodu şəhərin mərkəzində tikmirlər. İkincisi, xammalı – alüminium külçəsini çox ucuz qiymətə alaraq onu alüminium vərəqlərinə çevirdikdən sonra yenidən Azərbaycana bir neçə dəfə baha satmaq yolu ilə, yəni qiymət mexanizmi vasitəsilə respublikada yaranan milli gəliri gözə görünməz tellərlə SSRİ-nin mərkəzinə axıdılmışdır. Bu isə insan amilinin digər göstəricisi olan adambaşına düşən gəlirə görə geridə qalan respublikalar

sırasına düşməsi ilə nəticələnmişdir. Üçüncüsü, məqsəd respublikada əmək tutumlu sənaye müəssisəsi yaratmamaq yolu ilə iş qabiliyyətli əhalini işlə təmin etməmək və nəticədə cavan kişiləri iş dalınca hakim dövlətin müxtəlif şəhərlərinə getməyə məcbur etmək, orada onları asimilyasiyaya uğratmaq olmuşdur.

Bir halda ki, Azərbaycanda maşınqayırma, cihazqayırma, metallurgiya və digər mühüm sənaye sahələri son məhsul deyil, yalnız hissə, detal istehsalı üzrə ixtisaslaşdırılmışdır, deməli, ağır sənaye ilə yüngül sənaye arasında optimal proporsiya olması haqqında söhbət gedə bilməzdi.

Neft sənayesi Azərbaycanda aparıcı sahə olmuş və olmaqdadır. Sovet hakimiyyəti illərində bu, əsasən üç istiqamətdə ixtisaslaşdırılmışdır – neft maşınqayırma, neft hasilatı və neft emalı. Bunlar arasında da optimal nisbət olmamışdır, belə ki, Azərbaycanın neft maşınqayırma sənayesi keçmiş SSRİ-də istehsal olunan avadalığın 70 faizindən çoxunu istehsal etməsinə baxmayaraq bir dənə də olsun avadanlığı müstəqil istehsal edə bilməmişdir.

Bu sahədə neft hasilatı emlaı arasında da proporsiya pozulmuşdur. İstehsalın səmərəli təşkili qanunu tələb edir ki, bir regionda hasilat sənayesi ilə emal müəssisəsinin gücü bir-birinə bərabər olsun. Yəni emal müəssisəsinin gücü hasilatın həcminə uyğun qurulsun. Təəssüf ki, sosializmin sovet modeli elmin bu prinsipini də pozulmuşdur.bu dövrdə emal sənayesinin istehsal gücü hasilat sənayesinin istehsal gücündən çox olmuşdur. Burada da Azərbaycana qarşı qeyri-sağlam məqsəd güdülmüşdür. Belə ki, bir tərəfdən neft emalı zavodlarının köhnə, dünya standartlarına uyğun gəlməyən texnikası, digər tərəfdən Sibirdən və Qazaxstandan gətirilən neftin aşağı keyfiyyətli olması Bakıda ekoloji problemi daha da dərinləşdirmişdir.

Sənaye ilə kənd təsərrüfatı istehsalı arasındakı proporsiya da elmi əsaslar üzərində qurulmamışdır. Məlumdur ki, kənd təsərrüfatı istehsalının əsas vəzifəsi öz ölkəsinin sənayesini xammalla, əhalisini isə ərzaq məhsulları ilə əsasən təmin etməkdir. Sənayenin isə vəzifəsi bunun əvəzində kənd təsərrüfatını lazım olduğu qədər kənd təsərrüfatı texnikası və mineral gübrəyə olan tələbatını ödəməkdir. Lakin bunların heç biri öz vəzifəsini yerinə yetirə bilməmişdir. Bunun iki səbəb olmuşdur. Biri Sovet İttifaqında yeridilən səhv siyasətlə, digəri isə Azərbaycanın iqtisadiyyatını imperiyadan asılı vəziyyətdə saxlamaq, iqtisadi inkişafı bilərəkdən ləngitmək milləti ağır vəziyyətə salmaq, onun mənəviyyatını yoxsullaşdırmaq məqsədi güdülmüşdür.

Azərbaycanın kənd təsərrüfatı öz yüngül sənayesini xammalla tam təmin etmək imkanına malik olmasına baxmayaraq mərkəzi dövlətin struktur siyasəti ona son, hazır məhsul istehsal etməyə imkan verməmişdir. Azərabycanın yüngül sənayesi xammal və aralıq məhsul olan mahlıc və iplik istehsal edərək Rusiya Federasiyasına, Belarusiyaya və digər respublikalara göndərmişdir. Halbuki Azərbaycanın həmin xammaldan istehsal olunan pambıq parçaya, pambıq parçadan istehsal olunan hazır paltarlara böyük ehtiyacı olmuş və əhalinin tələbatı ödənilməmişdir.

Azərbaycanda sənayenin strukturunun sosializmin sovet modeli tərəfindən qeyri-optimal şəkilə salınmasının bir vasitəsi də sənayenin əsas istehsal fondlarının çox qüsurlu, ədalətsizlik prinsip əsasında formalaşdırılmasıdır. Bu o deməkdir ki, Azərbaycanda mövcud olan əsas sənaye müəssisələri adı Azərbaycanın olsa da, həqiqətdə isə ümumittifaq tabeliyində idi. Məsələn, 1990-cu ilin məlumatlarına görə Azərbaycanın sənayesinin əsas istehsal fondlarının 80%-dən artığını özündə birləşdirən

müəssisələr Ümumittifaq tabeliyində olmuşdur. Bu göstəriciyə görə Azərbaycan Türkmənistandan sonra axırdan ikinci yerdə durmuşdur.

Beləliklə, kommunist rejimi dövründə istehsalın strukturu formalaşarkən sahələr, yarımsahələr arasında optimal əlaqələr pozulmuş, eyni zamanda ümumi proporsiyalar qeyri-mütənasib şəkildə qurulmuşdur. Azərbaycan iqtisadiyyatının mövcud strukturu göstərir ki, təbii və iqtisadi imkanlar düzgün uçota alınmadan respublikada istehsalın ixtisaslaşdırılması aparılmışdır. Buna görə də respublika iqtisadiyyatında bazarın formalaşması yolunda iqtisadi əlaqələrin tarixən mövcud olan, lakin ya köhnəlşmiş, ya da mərkəzi dövlət tərəfindən qəsdən məhv edilmiş prinsiplərini yenidən qurmaq lazım gələcək. Təbiidir ki, bunun üçün ilk növbədə, iqtisadi əlaqələrin strukturuna daxil olan elementləri və onları bir-biri ilə üzvi əlaqələndirən maddi-texniki və sosial iqtisadi zəminləri yeniləşdirmək lazımdır. Tarixən təşəkkül tapmış, milli mənafeyə uyğun gələn ərazi əmək bölgüsünün səmərəsiz və yararsız cəhətlərini yenidən qurmaqla respublikanın xalq təsərrüfatı yeni hərəkətverici qüvvə toplamış olar.

İctimai əmək bölgüsünün mövcud miqyasını şərtləndirən təbii, tarixi, siyasi səbəblər üzündən respublikamızın neft sənayesi sahələrinin və digərlərinin aparıcı müəssisələri neft məhsulları, qara və əlvan metalları, bir çox maşın və avadanlıq hissələrini, kimya, mühüm əkinçilik məhsulları xammallarını ixrac etmişdir. İlkin xammal və aralıq məmulatlar istehsal edən müəssisələr son məhsulun dəyərinin yalnız cüzi hissəsinin yaradılmasında iştirak etmişlər. Belə müəssisələrin fəaliyyəti məlum bir əmtəə istehsalının ayrıca bir hissəsini əhatə etdiyindən onlar hissə məhsulları hazırlayaraq müstəqilləşmişlər. Daxili

təsərrüfat əlaqələri müxtəlif istehsal sahələrini əhatə etmiş, bu, bilavasitə ərazi əmək bölgüsünün qüsurlarından irəli gəlmişdir. Azərbaycan dövləti imperiya dövləti tərəfindən qüsurlu şəkildə yaradılan istehsalın strukturunu elmi əsaslara söykənməklə, milli mənafeyə uyğun yenidən qurulmalıdır. Hər şeydən əvvəl, iqtisadi islahatlar bu istiqamətə yönəldilməlidir.

Azərbaycanın neft sənayesi respublika iqtisadiyyatının həlledici sahəsidir. İlkin xammal, hissə məhsulları istehsalı ilə ixtisaslaşan respublika neft sənayesi müəssisələrinin inkişafında əvvəlki illərdə olduğu kimi, hazırda da ekstensiv amil üstünlük təşkil edir. Belə ki, neft hasilatı və neft emalı yalnız eninə inkişaf etdirilir. Bazar əlaqələri tələb edir ki, neft hasilatı neft emalı sənaye kompleksində dərinə nüfuz edən neft emalının inkişafı üstün sürətlə artırılsın. Bunun üçün respublikanın neft emalı sənayesi neftdən yalnız yanacaq, sürtgü yağları, tikinti örtükləri və s. emal edib istehsal tələbatı ödəmək istiqamətində deyil, əsasən şəxsi tələbatı ödəmək üçün xalq istehlakı malları, son məhsul istehsalı istiqamətində strukturca dəyişdirilməlidir. Neft emalı sənayesinin müasir vəziyyətinə real yanaşdıqda belə bir qənaətə gələ bilərik ki, yaxın gələcək üçün göstərilən struktur irəliləyişi hələlik faydalı həddi sayıla bilər. Lakin tədricən müəyyən maliyyə vəsaiti toplandıqca, xarici ölkələrin mütərəqqi təcrübəsini öyrəndikdən sonra xalq istehlakı mallarının istehsalına üstünlük verilməsi, xam neftin daha dərindən emalı zərurətə çevriləcək. Lakin indiki vəziyyət dünya səviyyəsi baxımından, sahədə perspektivli struktur irəliləyişlərinin təmin edilməsi nöqteyi-nəzərindən hədd sayıla bilməz. Çünki neft emalı sənayesinin istehlak məhsullarının müxtəlif çeşidlərinin: sintetik liftlərin (təəssüf olsun ki, həmin liflərin istehsalı üçün ilkin xammal xarici ölkələrdən

gətirilir, halbuki həmin məhsulu öz respublikamızda istehsal etmək mümkündür), sapların, onlardan istehsal edilən xalq istehlakı mallarının genişləndirilməsi hüdudsuzdur. Bu, neft emalı, neft kimiyası sənayesi məmulatlarının ucuzlaşdırılmasına və onlara sərf edilən əməyin yüngilləşdirilməsinə təsir göstərir. Nəticədə, neft hasilatının genişlənməsində əsaslı vəsait qoyuluşuna qənaət etməyə, istehsaldan maksimum fayda götürməyə imkan yaranar.

Beləliklə, inzibati-amirlik sistemi dövründə Azərbaycanda neft sənayesində formalaşmış struktur çox qüsurlu olmuş, bu dövrdə neft sənayesi inkişaf etsə də, Azərbaycan xalqının həyat səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərməmişdir. Müstəqillik qazandıqdan sonra ən mühüm vəzifələrdən biri neft və neft-kimiya məhsullarının ilkin xammal və aralıq məhsullar kimi ixracına nisbətən onun emalının dərininə nüfuz edən çeşid müxtəlifliyinə yiyələnməklə son istehlak məhsulları ixracına üstünlük verəcək imkanları aşkara çıxarmaq lazımdır. Respublikamız neft və neft kimiya məhsullarını ilkin xammal və aralıq məhsulları kimi 4-6 adda məhsul istehsal edirsə, digər regionlarda (habelə xarici ölkələrdə) onlar təkrar emal edilib istehlak məhsulları kimi 100-dən çox adda yenidən Azərbaycana daxil olur.

Beləliklə, inzibati-amirlik iqtisadi sistemi dövründə Azərbaycanın sənayesi və kənd təsərrüfatı istehsalının strukturunu mərkəzi dövlətin mənafeyinə və Azərbaycana qarşı fərqli siyasətinə uyğun olaraq formalaşdırmaqla Azərbaycanın iqtisadiyyatını zəiflətmiş, asılı vəziyyətə salmışdır. Sovet hakimiyyəti illərində Azərbaycana qarşı yeridilən qərəzli struktur siyasətinin yeridilməsi nəticəsində yaranan mənfi sosial-iqtisadi nəticələri aradan qaldırmaq Azərbaycan dövlətinin üzərinə düşür. O özünün milli mənafeyinə uyğun struktur siyasətini

işləyib hazırlamaq və onun reallaşmağını təmin etməklə deformasiyaya uğramış istehsalın strukturunu optimal vəziyyətə çatdıra bilər. Bunun üçün struktur deformasiyasının aradan qaldırılmasının istiqamətlərinin düzgün müəyyən edilməsinin də əhəmiyyəti böyükdür.

## § 3. Keçid iqtisadiyyatı zamanı struktur deformasiyasının aradan qaldırılmasının istiqamətləri

İndiki keçid dövründə sovet hakimiyyəti illərində deformasiyaya uğradılmış istehsalın strukturunu optimal səviyyəyə çatdırmaq problemi Azərbaycan dövlətinin istehsalın struktur siyasətinin işlənib hazırlanması və onun necə həyata keçirilməsindən çox asılıdır. Azərbaycanın müstəqil bir dövlət olması və onun bazar iqtisadi sisteminə keçməyi qarşısına əsas məqsəd qoyması bunun üçün əlverişli şərait yaratmışdır. Azərbaycanda istehsalın strukturu onun yenidən milli mənafeyə uyğun qurulması bir çox çətinliklərlə qarşılaşmasına təbii baxmaq lazımdır. Ona görə də bu sahədəki çətinliklərə, daxili və xarici müqavimətə qarşı dözümlü olmalı və fədakarcasına uzun müddət mübarizə aparmaq tələb olunur.

Azərbaycanın struktur siyasəti işlənib hazırlanarkən və reallaşdırılan zaman Azərbaycan xalqının indiki və gələcək mənafeləri əsas götürülməli, bu zaman təkcə istehsalın səmərəliliyinin təmin edilməsi deyil, eyni zamanda Azərbaycanın mühüm geostrateji məkanda yerləşməsi ilə əlaqədar olaraq iri dövlətlərin bu regionda mənafelərinin toqquşması problemi nəzərə alınmalıdır, başqa sözlə, istehsalın struktur elə qurulmalıdır ki, ölkənin milli və iqtisadi təhlükəsizliyi təmin olunsun. Deməli, Azərbaycanın struktur siyasəti elə sahələrin üstün

inkişafını təmin etməlidir ki, hər şeydən əvvəl, elmi-texniki tərəqqinin özü ondan asılı olsun. Bu öz növbəsində, ölkənin sosial-iqtisadi geriliyini aradan qaldırmaq üçün nəhəng ehtiyatların aşkara çıxarılması və istifadə edilməsi deməkdir. Hazırda əsas vəzifə istehsalın səmərəliliyini, məhsulun keyfiyyətini yüksəltmək ictimai tələbatın daha dolğun ödəməyi təmin edən bütün ehtiyat mənbələrinin hamısını aşkara çıxarıb istifadəyə verməkdir.

Azərbaycanın struktur siyasəti həyata keçirilərkən xalq təsərrufatının aparıcı sahələrini önə çəkməklə bərabər, başqa sahələri də əhatə etməlidir. Əks halda Azərbaycanın sağlam milli iqtisadiyyatını formalaşdırmaq mümkün olmaz. Bu struktur siyasətinin yenidən qurulmasında maddi istehsalda, xüsusən onun istehlak bölməsində struktur irəliləyişini ardıcıl olaraq təmin edilməlidir. Hazırda struktur siyasətinin qarşısında qoyulan yeni tələblər elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə əlaqələndirilməlidir. Çünki soial-iqtisadi inkişaf istehsalın yeni elmi-texniki səviyyəyə qaldırılmasını tələb edir. Burada elmin istehsalla inteqrasiyanın gücləndirilməsi, səmərəli texnikanın yeni formasının işlənib hazırlanmasına və buraxılışının sürətləndirilməsi xalq təsərrüfatının istehlak bölməsinin müasir texnika ilə yenidən silahlandırılmasına başlanması nəzərdə tutulur. Bütün bunlar iqtisadiyyatın sosial meylinin gücləndirilməsi üçün canlı zəmin hazırlayır.

Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasında qarşıya çıxan çətinliklərdən biri də istehsalın strukturu haqqında əvvəlki dövrlərdə yaranmış təsəvvürlərə yenidən baxmaq və müasir tələblərə uyğun, reallığı, şəraiti, Azərbaycanın daxili və xarici vəziyyətini nəzərə almaqla yeni dünyagörüşü formalaşdırmaqdır. Bu sahədə ümumi təsəvvür belə idi ki, iqtisadi inkişafın və onun sürətləndirilməsinin əsasını sənaye, onun daxilində

isə ağır sənaye təşkil edir. Lakin elmi-texniki inqilab cəmiyyəti bu təsəvvürlərə yenidən baxmağa məcbur edir. Doğurdan da hazırda orta və kiçik sahibkarlıq sahəsində istehsalın səmərəliliyini yüksəltmək iri sahibkarlığa nisbətən daha asandır. Bu meyl Azərbaycan üçün hərtərəfli sərfəlidir. Birinci, ona görə ki, müasir iri müəssisələrə nisbətən kiçik və orta müəssisələrin inkişafına üstünlük verilməsi ümumi qanunauyğunluqdur. Azərbaycan isə dünya təsərrüfat sistemindən kənarda qala bilməz, bu özünü beynəlxalq iqtisadi inteqrasiyadan, qloballaşma prosesindən məhrum etmək olardı. İkincisi, Azərbaycanın hazırda, qısa müddətdə iri sənaye müəssisələri yaratmaq üçün kifayət qədər maliyyə imkanı yoxdur. Lakin bu heç də o demək deyil ki, maşınqayırma, dəzgahqayırma, hesablama texnikası və sair kimi baza sahələrinin formalaşması və inkişafına ikinci dərəcəli sahə kimi baxılmalıdır. Söhbət maşınqayırma sənayesinin hansı sahələrinin əvvəlcə, təxirəsalınmaz surətdə formalaşdırmaq və inkişaf etdirməkdən gedir. Deməli, ağır sənaye yenə də bütün sahələrin texniki cəhətdən silahlanmasının əsası olaraq qalır və iqtisadiyyatın inkişafının maddi-texniki bazasının yaradıcısı sayılır.

Hazırda Azərbaycan sənayesinin strukturunun yenidən qurulmasında ağır maşınqayırma sənayesinin hansı sahəsinin seçilib irəli çəkilməsi, əvvəlcə onun formalaşması və inkişafına üstünlük verilməsinin respublikanın sağlam milli iqtisadiyyatının formalaşmasında böyük rol oynaya bilər? Buraya hər şeydən əvvəl aqrar-sənaye kompleksinin sahələri arasında optimal nisbətin yaranması daxildir. Ona görə ki, Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması aqrar bölmədə islahatların necə müvəffəqiyyətlə keçirilməsindən asılıdır. Bunun özü isə aqrar bölmə üçün maşın, avadanlıq, mineral maddələr və s. istehsal edən

sənayenin və kənd təsərrüfatı xammalının emalı və istehlakçılara çatdırılması sahəsində yeridilən struktur siyasəti ilə sıx bağlıdır.

Milli iqtisadiyyatın sağlam əsaslar üzərində qurulması xalq təsərrüfatının strukturundan, onun vəziyyətindən çox asılıdır. Strukturun vəziyyəti iqtisadi yenidənqurmada güclü bir amil rolunda çıxış edir. Məlumdur ki, Sovetlər dövründə Azərbaycanın sənayesinin strukturunda başlıca sahələri ittifaqa məxsus müəssisələr təşkil edirdi ki, onların da əksəriyyəti yanacaq-energetika, kimya, neft-kimiya, maşınqayırma müəssisələri idi.

Azərbaycanda əksər sənaye müəssisələri kənara son məhsul deyil, xammal göndərirdi, bir çox sənaye müəssisələri İttifaqın hərbi-sənaye kompleksləri üçün sifarişlər yerinə yetirirdi. İqtisadiyyatın infrastrukturu zəif inkişaf etmişdir, xidmət sferaları sənayenin ümumi səviyyəsindən geri qalırdı. Respublika ərazisində yerləşdirilmiş əsas istehsal sahələrinin öz xammal bazası yox dərəcəsində idi. Kənd təsərrüfatı üçün əsas texnika və texniki avadanlıq kənardan gətirilirdi, kənd təsərrüfatı üçün lazım olan bir dənə də olsun kombayın, traktor, pambıqyığan maşın respublikada istehsal edilmirdi. Sənayenin bu cür qeyri-normal struktura malik olması Azərbaycan müstəqillik qazandıqdan sonra lazım olan texnikanı kənardan gətirə bilmədi və öz imkanlarından da manevr etmək üçün istifadə etmək imkanı olmadı. Neft sənayesi istisna olmaqla bütün qalan sənaye sahələri dayanmaq həddinə düşdü. Vaxtı ilə SSRİ-də uzaq xaricdə öz məhsulları ilə şöhrət qazanmış neft-mədən avadanlıqları istehsal edən sənaye müəssisələrimizin istehsal gücündən çox aşağı səviyyədə istifadə olundu.

Sənayenin əsas sahələri kapital tutumlu olduğundan və bir çox sahələr üçün xammalın kənardan gətirilməsinin

zəruriliyi və bununla belə ciddi maneələrlə qarışdığına görə, struktur amili Azərbaycanın milli iqtisadiyyatının yenidən qurulmasının müəyyən vaxt çərçivəsində və ardıcıllıqla həyata keçirilməsini tələb edir. Struktur dəyişiklikləri ardıcıl, elmi cəhətdən əsaslandırılmış proqramlara uyğun həyata keçirilməlidir. Bu zaman ölkəmizin təbii-coğrafi xüsusiyyətləri, resursların ərazi üzrə yerləşməsi, resurs imkanları, faydalı qazıntıların ehtiyatları, ərazisinin miqyası, böyük dövlətlərin Azərbaycanda maraqlarının toqquşması diqqətlə saxlanmalıdır. Respublikanın milli və iqtisadi təhlükəsizliyi və müharibə vəziyyətində olması nəzərə alınmalıdır. Sosial yönümlü bazar modelinə keçmək istəyi istehsalın strukturunun yenidən qurulması zamanı nəzərdən qaçmamalıdır.

Azərbaycanda istehsalın strukturunun tamamilə yenidən qurulmasını zəruri edən amillərdən biri də əsas istehsal fondlarının 70-80%-nin fiziki və mənəvi aşınmaya məruz qalmasıdır. Sovet iqtisadi sistemi Azərbaycanı yalnız başqa respublikalardan asılı vəziyyətə salmamış, eyni zamanda əsas istehsal fondlarının vaxtında tənzimlənməsinə qayğı göstərməmişdir. Bunun nəticəsi idi ki, Azərbaycanda sənaye sahəsində əmək məhsuldarlığı ittifaq miqyasından geri qalmış və buna müvafiq olaraq əhalinin həyat səviyyəsi də orta göstərilərdən əhəmiyyətli dərəcədə aşağı olmuşdur.

Azərbaycanda texnikanın, avadanlığın vaxtında təzələnməməsi, müasirləşdirilməməsi nəticəsində istehsalın strukturunda vaxtı keçmiş, yaşlı maşınların xüsusi çəkisi çoxalmışdır. Bu istehsalın strukturunun deformasiya uğramasının göstəricilərindən biridir. Bu sosializmin sovet modelinin mahiyyətindən irəli gələn amildir. Belə ki, bazar iqtisadi sistemində həm sahibkar, həm də dövlət istehsal fondlarının vaxtında təzələnməsi,

ən müasir texnikanın istehsala daha tez tətbiq edilməsində maraqlıdırlar. Sahibkarı bunu daha çox mənfəət əldə etmək arzusu və rəqabətdə məşğul olmaq qorxusu, dövləti isə sahibkarın mənfəətinin çox olması və buna müvafiq olaraq ondan daha çox vergi almaq stimullaşdırır. Sosializmin sovet modelində isə ən müasir texnika və texnologiyanı vaxtında istehsala tətbiq etməyənə nə mikro, nə də makro səviyyədə maddi maraq və məsuliyyət olmamışdır. Buna görə də sənayecə inkişaf etmiş ölkələrdə texnikanın təzələnmə müddəti orta hesabla beş il olduğu halda keçmiş SSRİ-də bu 17 il olmuşdur. Məhz Yaponiyanın iqtisadiyyatının son illərdə sənayecə inkişaf etmiş dövlətlərdən daha sürətlə inkişaf etməsinin əsas səbəbi elmin və texnikanın son naliyyətlərini hamıdan tez istehsala tətbiq etmək və insana yüksək səviyyədə qayğı göstərməsidir.

Azərbaycanda struktur deformasiyasının aradan qaldırılması istiqamətlərindən biri fiziki və mənəvi cəhətdən köhnəlmiş maşın və avadanlıqların daha məhsuldar, dünya standarlarına uyğun mütərəqqi texnologiyaya əsaslanan yeniləri ilə əvəz olmasıdır. Bütün bunlar isə böyük məbləğdə investisiya qoyuluşları, dövlət büdcəsindən təsisatlar tələb edir. Başqa sözlə, maşınqayırma kompleksinin və ona daxil olan müəssisələrin texniki cəhətdən dəyişdirilməsi və yenidən qurulması üçün Azərbaycan hökuməti özünün investisiya siyasətində əsaslı düzəlişlər etməli, bu məqsədlə nəzərdə tutulan tədbirlərə, o cümlədən struktur dəyişikliklərinə dövlət büdcəsində birbaşa xərclər nəzərdə tutulmalıdır.

Hazırda Azərbaycanda istehsalın strukturu elə səviyyədə deformasiyaya uğramışdır ki, onun bu və ya digər sahələrində təkmilləşdirmələr aparmaqla məqsədə çatmaq olmaz. Buna yalnız istehsal fondlarının kütləvi surətdə təzələmək yolu ilə nail olmaq mümkündür və bu

obyektiv zərurətdir. Bu Azərbaycanın tarixən keçdiyi inkişaf yolundan irəli gəlmiş və onun taleyidir. Bunun əsas istiqaməti istehsal fondlarının kütləvi surətdə təzələnməsi prosesi ilə istehsalın strukturunun milli mənafeyə, dünya standartlarına uyğun yenidən qurulmasını əlaqələndirmək və təkamül yolu ilə həyata keçirməkdir.

Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə istehsalın strukturunu istehsalın bütün sahələrində kütləvi şəkildə dəyişmək lazım olsa da bu qeyri-mümkündür, çünki buna həm böyük həcmdə maliyyə vəsaiti, vaxt lazımdır. Bunu isə yaxın zamanda nə əldə etmək, nə də gözləmək olmaz, vaxtın uzanmağı Azərbaycanın ziyanına ola bilər. Digər tərəfdən problemin həllinin yolları mövcuddur. Buna yalnız cəmiyyətin inkişafının ümümi iqtisadi qanunauyğunluğuna əsaslanmaqla mərhələ-mərhələ, sadədən mürəkkəbə, azdan çoxa doğru prinsipi əsas götürməklə həll etmək olar.

Azərbaycanda struktur deformasiyasının aradan qaldırılmasının istiqamətlərindən biri yüngül və yeyinti sənaye sahələrinin inkişafını ön plana çəkməkdir. Klassik bazar iqtisadiyyatı ölkələrində də əvvəlcə bu sahələr inkişaf etdirilmiş, sonra iri maşınqayırma sənayesinə üstünlük verilmişdir. Sovet sistemində bu nəzərə alınmamışdır. Halbuki buna diqqət yetirmək, ağır sənaye ilə yüngül sənaye arasında optimal nisbət yaradılmalı idi. Sovet dövlətinin bu səhvini Azərbaycanın milli dövləti düzəltməlidir.

Yüngül və yeyinti sənaye sahələri Azərbaycanın iqtisadiyyatının strukturunda müəyyən qədər yer tutur. O ictimai istehsalın son mərhələsidir və bilavasitə əhalinin tələbatını ödəyən və insan amilinin formalaşmasına təsir göstərən istehsal sahəsidir. Lakin istehsalın digər sahələrində olduğu kimi bu sahələrdə də bunların

strukturu müasir tələbatdan geri qalır və dünya standartlarına uyğun gəlmir. Azərbaycanın bu sahədə də xammal, yarımfabrikat ixrac edən ölkə kimi tanınır, istehsal olunmuş məhsulun cüzi hissəsi hazır məhsul kimi ixrac olunur. Azərbaycan müstəqillik qazandıqdan sonra da taxıl, un, yağ, qənd, ət, tərəvəz konservi, uşaq qidası və bir çox başqa məhsullar idxal edir, halbuki adı çəkilən məhsulların hamısını Azərbaycanda istehsal etmək və bununla da xarici asılılıqdan xilas olmaq mümkündür.

Yüngül sənayenin strukturunun təhlil gösrərir ki, burada toxuculuq sahəsinin xüsusi çəkisi daha yüksəkdir. Məsələn, 1990-cı ildə onun xüsusi çəkisi yüngül sənayenin strukturunda 71,2% təşkil etmişdisə, 1995-ci ildə bu rəqəm 88%-ə çatmışdı. Lakin onun istehsal etdiyi məhsulun əsas hissəsi başqa regionlara xammal şəkilində ixrac olunur (pambıq, yun). Ayaqqabı, dəri və xəz istehsalı sahələrinin faizi aşağı düşmüşdür. Xammal satmaq hazır məhsulu satmaqdan asan olduğu üçün xammal satmağa üstünlük verilmişdir. Söhbət gedən dövrdə tikiş sahəsinin xüsusi çəkisi daha çox aşağı düşmüşdür. Belə ki, 1990-cı ildə yüngül sənaye sahəsində tikiş sahəsinin xüsusi çəkisi 18,5% olmuşdursa, 1995-ci ildə bu göstərici 0,7%-ə düşmüşdür.[1]

Yeyinti sənayesində istehsalın strukturunun pisləşməsi heç də yüngül sənayedən yaxşı deyil. Əksinə ondan da ağır vəziyyətə düşmüşdür. Məsələn, yeyinti sənayesində ən gəlirli sahə sayılan balıqçılıq və yeyinti sənayesinin strukturunda onun payı cəmisi 0,8 faiz təşkil etmişdir..

Balıqçılıq sənayesini inkişaf etdirmək Azərbaycanın dövlət büdcəsinə sabit və etibarlı gəlir gətirən sahəyə

---

[1] Юзбашева Г.З.Структурная перестройка Азербайджана на современном этапе развития. **Bakı, 1997, səh. 47.**

çevirmək tam real və mümkündür. Çünki Azərbaycanın balıq məmulatları və ikrası özünün yüksək keyfiyyəti, dadlığı ilə dünyada fərqlənmişdir. Məhz buna görə də Azərbaycan bu sahəni inkişaf etdirməklə nəinki dünya bazarına çıxa bilər, həm də rəqabət qabiliyyətinin üstünlüyü ilə fərqlənər. Təəssüf ki, Azərbaycan müstəqillik qazandıqdan sonra geriləmə olmuşdur.

Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafı, istehsalın strukturunu yenidən qurmaq üçün daxili mənbələr çoxdur. Azərbaycanda Xəzər dənizinin sahili boyu, Nabrandan tutmuş Lənkarana qədər olan ərazidə balıqçılığı inkişaf etdirməklə həm Azərbaycan öz əhalisini balıq məhsullarına olan tələbatını tam ödəmək, həm də xarici bazarlara qiymətli balıq məhsulları və ikra ixrac etməklə dövlət büdcəsinə kifayət qədər valyuta gətirmək olar. Azərbaycanın təbii amili, bu sahədə ixtisaslı mütəxəsislərin olması və qədim ənənəsi buna imkan verir. Biz yalnız bu sahədəki təbiətin verdiyi üstünlükləri dərk etmək və ondan səmərəli istifadə etməklə Azərbaycanın müstəqilliyini möhkəmləndirə bilərik. Bunun üçün hər şeydən əvvəl bu sahədə də struktur siyasətini dəyişmək və onu reallıqlara və imkana uyğun qurmaq lazımdır.

Hazırda Azərbaycan strateji xammal ixrac etməyə üstünlük verərək onun əvəzində üçüncü növ ərzaq almaqla əslində özünün istehsalını dağıtmış olur. Halbuki, onu əvəz edə bilən struktur siyasəti işləyib hazırlamaq və uğurla həyata keçirmək mümkündür. Axı, hər bir Azərbaycan vətəndaşı dərk etməlidir ki, Azərbaycan Afrika, Ərəb ölkələri deyil ki, onun xam neft ixrac etməkdən başqa əlacı olmasın, onun xam neftdən də qiymətli təbii sərvətləri vardır. Strateji xammal ixrac edib, əvəzində paltar, qab-qacaq, uşaq oyuncaqları və s. almaq bizim millətin səviyyəsinə qətiyyən yaraşmır. Onu

da nəzərdən qaçırmıq olmaz ki, faydalı qazıntılar, o cümlədən neft ehtiyatları sonsuz deyil, gec-tez bu tükənəndir.

İstehsalın strukturunun necə qurulmasının vahid pesepti yoxdur. Hər bir ölkə özünün imkanlarına uyğun, daxili və xarici şəraiti və digər amilləri nəzərə alaraq struktur siyasəti yeridir və bu sabit deyil, məhsuldar qüvvələr inkişaf etdikcə şəraitdən asılı olaraq bu öz istiqamətini və məqsədini dəyişə bilir. İstehsalın hansı bölməsinin, sahəsinin inkişafına üstünlük verməsi hər bir dövlətin özünün daxili işidir.

Hazırda Azərbaycan dövləti imkan və şəraiti nəzərə alaraq struktur siyasətinin ağırlıq mərkəzini kənd təsərrüfatının inkişafını vermiş və onun xammalı əsasında regionlarda yüngül və yeyinti sənayesinin inkişafına istiqamətləndirmişdir. Dövlətin bu istiqaməti seçməkdə əsas məqsədi sovet müstəmləkəçiliyindən bizə miras qalmış nöqsanları və problemləri aradan qaldırmaq və Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməkdir. Bunun üçün çətinliklərin meydana gəlməsinin səbəblərinin dərk edilməsinin və onların aradan qaldırılmasının mümkün olmasına inanmağın əhəmiyyəti vardır.

Azərbaycanın daxili bazarlarında satılan bitki yağının, bir çox ərzaq növlərinin bir çoxunu, pambıq, yun parçaların, paltarların, ayaqqabının, tikinti materiallarının çoxunun xaricdən gətirilməsinə, daxili bazarın xarici məhsullar tərəfindən işğal olunmasına dözmək olmaz. Bu vəziyyət Azərbaycan üçün bağışlanmazdır, ona görə ki, Azərbaycan həmin məhsulları artıqlaması ilə, həm də yüksək keyfiyyətdə istehsal etmək iqtidarındadır. Azərbaycan dövləti üçün xarici bazardan bitki yağı istehsal edən texnologiyanı alıb hər bir rayonun kənd təsərrüfatı istehsalının ixtisaslaşmasına uyğyn müəssisə

tikməsi çox çətin deyil və bu onun imkanı daxilindədir. Digər tərəfdən bu hər bir məmurun vətəndaşlıq borcudur. Kənd təsərrüfatı xammalı əsasında işləyən yüngül sənaye müəssisəlirinin yenidən qurulması və yenisinin tikilməsi də bu qabildəndir. Belə müəssisələr istehsalın bütün mərhələlərini – kənd təsərrüfatı məhsulları istehsalını, xammalın emalı, onun hazır məhsula çevrilməsini, qablaşdırılmasını və hazır məhsulu satışa təqdim etməni birləşdirmək mümkündür.

Azərbaycanda yeyinti və yüngül sənaye müəssisələrinin kənd təsərrüfatı xammal istehsal olunan yerdə, onun gücünə uyğun dünya standartlarına cavab verən texnika və texnologiya ilə təhciz olunması xam pambıq yerinə pambıq parça, hazır paltar, xam yun əvəzinə təbii yundan istehsal olunmuş parçalar və paltarlar istehsal etmək olar. Bunun üstünlükləri məlumdur. Bu yolla bu problemi həll etməklə həm daxili bazarı xarici təhlükədən qorumaq, bununla da kənd təsərrüfatı istehsalının inkişafına stimul yaratmaq, bu prosesin inkişafının müəyyən mərhələsində daxili bazarı xaricilərin əlindən aldıqdan sonra dünya bazarına yüksək keyfiyyətli, rəqabətə davamlı yeyinti və yüngül sənaye məhsulları istehsalına keçmək olar. Bunun üçün dövlət kənd təsərrüfatı istehsalının inkişafına, onun xammalı əsasında işləyən yeyinti və yüngül sənaye müəssisələrinin yenidən qurulmasına və yenilərinin tikilməsinə yalnız maliyyə yardımı göstərməklə kifayətlənməməlidir, həm də bütün vasitələr və metodlardan istifadə edərək aqrar bölmənin inkişafına stimul yaratmalıdır. Bunlardan biri kənd təsərrüfatı məhsullarına tələb yaratmaqdır. Doğurdur, xammal istehsal olunan ərazilərdə emal, yüngül sənaye müəssisələrinin tikilməsi bunu təmin edəcəkdir. Lakin kiçik kəndli təsərrüfatları mövsümü aylarda, məhsul

yığılan zaman öz məhsullarını reallaşdırmaqda bir çox çətinliklərlə qarşılaşırlır. Belə ki, onlar istehsal etdikləri standart və qeyri-standart məhsullarını reallaşdırmağa bazar tapa bilmədiklərindən, habelə tələb və təklifin təsiri ilə qiymətlərin çox aşağı olması həmin məhsulların istehsalına maddi marağı azaldır. Halbuki, dövlətin bu ziddiyyəti aradan qaldırmağa imkan vardır. Dövlət məhsul yığılan zaman xarda kənd təsərrüfatlarnda yetişdirilən məhsulu onun maya dəyərindən yüksək qiymətə alamqla iqtisadi münasibətlərdə olan bu ziddiyyətli aradan qaldıra bilər. Çünki xırda kəndli təsərrüfatının kənd təsərrüfatı məhsullarını, xüsusilə tez xarab olan, daşınması, saxlanması çətinlik törədən məhsulları saxlamaq imkanı olmadığı halda dövlətin bu məhsulları saxlamaq üçün soyuducu sistemi ilə təhciz olunmuş ambarlar tikməsi imkanı vardı. Sovet hakimiyyəti illərində yaradılmış texnika və texnologiyadan istifadə etmək mümkün olmadığı halda həmin dövrdə yaradılmış istehsalın infrastrukturundan, o cümlədən anbarlardan istifadə etmək mümkündür. Bu vəziyyəti xeyli yaxşılaşdıra bilər.

Müstəqillik dövründə yeyinti və yüngül sənaye sahələrində istehsalın strukturunun yenidən qurulmasını şərtləndirən amillərdən biri də Azərbaycanda insan amilinin, əmək ehtiyatlarının kifayət qədər kəmiyyət və keyfiyyətə malik olmasıdır. Bundan səmərəli istifadə edilməsi problemin həllində həlledici rol oynaya bilər. Ona görə ki, insan dövlətin ən böyük və bəzi təbii sərvətlərdən fərqli olaraq, tükənməz sərvəti olduğundan bundan səmərəli istifadə olunması istehsalın iki amilinin - həm investisiya, həm də işçi qüvvəsinin səfərbər edərək hərəkətə gətirilməsi deməkdir. Buna müasir elmi-texniki inqilabın geniş miqyas alması da şərait yaratmışdır. Belə ki, elmi-texniki inqilab istehsalın həcmini böyütmədən kiçik və orta müəssisələrdə ən yeni texnika tətbiq etməklə

istehsalın səmərəliliyini yüksəltməyə imkan vermişdir. Sənayecə inkişaf etmiş klassik bazar iqtisadiyyatı ölkələrində ümumi daxili məhsulun 60-70%-i kiçik və orta müəssisələrdə istehsal edildiyi və buna görə də həmin dövlətlər investisiyanın əsas hissəsini buraya yönəltməyə, sahibkarlığın bu formasının inkişafına hərtərəfli kömək etmələri bunu sübüt edir. Deməli Azərbaycanda yeyinti və yüngül sənaye sahəsində istehsalın strukturunun yenidən qurulmasında iri yeyinti və yüngül sənaye müəssisələrinin yaradılmasına ehtiyac yoxdur.

Azərbaycanda istehsalın deformasiyaya uğramış strukturunun yenidən qurulmasının əsas istiqamətlərindən biri Azərbaycanda, xüsusilə onun regionlarında kiçik və orta sahibkarlığı inkişaf etdirməkdir. Burada potensial imkanlar daha çoxdur və onlardan səmərəli inkişaf edilərsə regionlarda istehsalın strukturunu daha tez yenidən qurmaq olar. Bunlardan biri xarici dövlətlərdə fəaliyyət göstərən əslən azərbaycanlı olan sahibkarları Azərbaycanda fəaliyyət göstərmələrinə stimul yaratmaqdır. Bu adamlar müstəqilliyin ilk illərində daxili və xarici şəraitin ağır olduğundan xarici ölkələrə gedən insanlardır. Hazırda həmin adamların əlində kifayət qədər ilkin kapital toplanmışdır. Belə adamların əksəriyyəti öz vətənlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa meyllidirlər. Azərbaycanın regionlarının isə buna böyük ehtiyacı vardır.

Beləliklə, dövlət Azərbaycanda, xüsusilə regionlarda sahibkarlıq fəaliyyət ilə məşğul olmaq istəyən subyektlərə əlverişli şərait yaratmaqla dövlət büdcəsindən maliyyə vəsaiti ayırmadan yeyinti və yüngül sənayedə istehsalın strukturunu yenidən qura bilər və bu ən asan, həm də qısa müddətdə səmərə verən metoddur. Xarici ölkələrdə yaşayan və işləyən sahibkarlıq istedadına və böyük

kapitala malik olan azərbaycanlıların Azərbaycan milli iqtisadiyyatının formalaşması və inkişafına cəlb etməyin forma və metodlarını, vasitələrini, strategiyasını işləyib hazırlamaq və onu reallaşdırmaq dövlətin ən mühüm vəzifəsidir.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. Müstəmləkəçiliyin təbii və mənəvi əsaslarını izah edir.
2. Tənzimlənən bazar iqtisadi sistemi şəraitində müstəmləkəçiliyin hansı xüsusiyyətləri var?
3. Müstəmləkəçiliyin Azərbaycanın milli iqtisadiyyatının təsirini danışın.
4. Sovet dövlətinin Azərbaycanda yeritdiyi struktur siyasətinin məqsədi nə olmuşdur?
5. İnzibati-amirlik iqtisadi sistemi dövrüdə Azərbaycanda istehsalın xammal və hissə, detal istehsalı üzrə ixtisaslaşmasının iqtisadi nəticələrinin sayn.
6. Azərbaycanda sənayenin strukturunda kiçik və orta müəssisələrin inkişafına üstünlük verilməsi hansı zərurətdən yaranmışdır və bunun Azərbaycan üçün əhəmiyyəti nədən ibarətdir?
7. Azərbaycanın kənd təsərrüfatı xammalı əsasında yeyinti, yüngül və emal sənaye müəssisələrinin təşkilinin istehsalın strukturunun optimallaşmasında əhəmiyyətini izah edir.

## Müzakirə üçün suallar və tapşırıqlar

1. Klassik bazar iqtisadi sistemi ölkələrindəki müstəmləkəçilik ilə sovet müstəmləkəçiliyini müqayisə edin.

2. Milli iqtisadiyyatın formalaşması və inkişafında istehsalın strukturunun əhəmiyyətini sübut edin.

3. Sovet hakimiyyəti illərində Azərbaycanda yeridilən struktur siyasətinin milli iqtisadiyyatın inkişafına mənfi təsirini əsaslandırın.

4. Azərbaycanda deformasiyaya uğradılmış istehsalın strukturunu optimal vəziyyətə gətirməyə əlverişli şərait yaranmışdır. Bunu əsaslandırın.

5. Keçid dövründə Azərbaycandıa struktur deformasiyasının aradan qaldırılmasının istiqamətləri hansılardır və onun hər birini ayrılıqda təhlil edin.

# 6-jı MÖVZU. BAZAR İQTİSADİ SİSTEMİ AZƏRBAYJANIN SAĞLAM MİLLİ İQTİSADİYYATININ FORMALAŞMASI VƏ İNKİŞAFININ TƏMİNATÇISIDIR

## § 1. İqtisadi sistem və onun mahiyyəti. İqtisadi sistem və mülkiyyət. Mülkiyyətin tarixi və müasir formaları

**İnsan cəmiyyətinin əsası maddi nemətlər istehsalıdır. Çünki insan elmlə, mədəniyyətlə, incəsənətlə və başqa qeyri-istehsal sahələri ilə məşğul olmaq üçün hər şeydən əvvəl o mövcud olmalıdır. Buna nail olmaqdan ötəri isə o, yeməli, geyməli, mənzili və digər zəruri yaşayış vasitələri olmalıdır. Bunları isə təbii amil istisna olmaqla insanlara hazır şəkildə verilmir. Deməli, insanlar yaşamaq üçün zəruri olan yaşayış vaistələrini özləri istehsal etməyə məhkumdurlar.**

**Təbii sərvətlər nə qədər bol və zəngin olsa belə maddi nemətlərin istehsalını təşkil və idarə etmədən zəruri yaşayış vasitələrini əldə etmək mümkün deyil. İstehsalın təşkili və idarə olunması formaları məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq dəyişir və bu iqtisadiyyatın inkişafına çox böyük təsir göstərən amildir. Eyni miqdar təbii və insan resurslardan istehsalın təşkili və idarəetmə formasından asılı olaraq müxtəlif nəticələr əldə edilir. Məsələn, XX əsrin ortalarında ABŞ bazar iqtisadi sistemi ölkələrinin, sabiq SSRİ isə sosialist sistemi ölkələrinin liderləri idilər. Hər iki böyük dövlətdə təbii və insan potensialı bütün dünya dövlətlərindən yüksək olmuşdur. Buna baxmayaraq SSRİ-nin iqtisadi inkişafı və əhalinin həyat səviyyəsi bazar iqtisadi sistemində yaşayan dövlətlərdən çox geri qalmışdır. Bunun əsas səbəbi istehsalın müxtəlif formada təşkili olmuşdur. Bazar iqtisadi sistemində istehsalın təşkili maddi maraq və rəqabət qanunun normal fəaliyyət göstərdiyindən iqtisadiyyatın inkişafı dinamik şəkildə yüksəldiyi halda SSRİ bu ümumi bəşəri iqtisadi qanunauyğunluğa əməl etmədiyinə**

**görə onun iqtisadiyyatı əvvəlcə tənəzzülə uğradı və sonra dağıldı. Bu baxımdan iqtisadi sistem və onun mahiyyətini öyrənmək vacibdir. Bunun öyrənilməsi Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında əhəmiyyətli rol oynaya bilər.**

**İnsan cəmiyyətinin bütün inkişaf mərhələlərində iqtisadi fəaliyyət üçün eyni şərait olmamışdır. Lakin bir sıra iqtisadi məsələlər ümumi olmuşdur. Bura iqtisadiyyatın təşkili, nə istehsal etməli, nə qədər istehsal etməli kimi məsələlər daxildir. Necə istehsal etmək sualına görə isə dövrlər bir-birindən əsaslı şəkildə fərqlənmişdir. Ayrı-ayrı dövrlərdə mövcud olan cəmiyyətlərdə müxtəlif iqtisadi sistemlər fəaliyyət göstərir.**

**Cəmiyyətdə hakim iqtisadi münasibətlər və təşkilat formaları əsasında təşükkül tapmış iqtisadi proseslərin məcmusuna iqtisadi sistem deyilir. İqtisadi hadisələri, prinsipləri təhlil etməklə iqtisadi sistem haqqında təsəvvür əldə etmək olar.**

**Müasir iqtisadi sistem «canlı» bir orqanizmi kimi aşağıdakıları özündə birləşdirir: təbii və əmək resursları (ehtiyatları), mövcud mülkiyyət formaları, müxtəlif kapital ünsürləri, sahibkarlıq və zəruri idarəetmə və s.**

**Problemin öyrənilməsinə başqa cür yanaşsaq görərik ki, iqtisadi sistem özündə məhsuldar qüvvələri və iqtisadi münasibətləri birləşdirir.**

**Məhsuldar qüvvələrə mineral resurslar, torpaq sahələri, iqlim şəraiti və s. daxildir. Əmək resursları da əmək məhsuldarlığının tərkib hissəsidir. Buraya işləyənlərin sayı və onların mənəviyyatlarının sağlamlıq dərəcəsi, ixtisas səviyyələri və s. aiddir. İqtisadiyyatın sağlamlaşmasında bu amillərin böyük rolu vardır.**

**Heç bir cəmiyyət və onun iqtisadi sistemi hər hansı bir sərvət üzərində mülkiyyət forması, iqtisadi münasibətlər olmadan mümkün deyildir.**

İstehsalın müasir texnika ilə silahlanması, müasir texneloji proses iqtisadi sistemin fəaliyyətində mühüm yer tutur. Müasir iqtisadi sistemdə sahibkarlıq fəaliyyəti, idarəetmə sistemi də özünəməxsus rola malikdir.

Bəşər tarixində müxtəlif iqtisadi sistemlər fəaliyyət göstərib. Tarixdə indiyə kimi 1-bazar, 2-inzibati-amirlik, 3-qarışıq, 4-ənənəvi iqtisadi sistemlər fəaliyyət göstərmişdir. İndi bunları səciyyələndirək.

Məhsuldar qüvvələr, mülkiyyət formaları inkişaf edib dəyişdikcə iqtisadi sistemlər də tədricən dəyişib bir-birini əvəz etmişdir. Məsələn, XVII əsrdən müxtəlif mülkiyyət formalarına, insanların azad iqtisadi təşəbbüsünə, azad rəqabətə əsaslanan iqtisadi sistem, bazar fəaliyyətə başlamış və özünü bu günə kimi doğrulda bilmişdir. Buna bazar iqtisadi sistemi deyilir.

Bazar münasibətləri ilə səciyyələnən bu sistemin iki tipi vardır. Onlardan biri azad rəqabətlə müşayiət olunan bazar iqtisadiyyatı, digəri isə müasir bazar iqtisadiyyatıdır.

Birinci tip sistem şərti olaraq XVII əsrdən XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərib (şübhəsiz, bunun bir çox ünsürləri müasir bazar sisteminə də daxildir). Burada fərqli cəhət ondan ibarətdir ki, investisiya ehtiyatları xüsusi mülkiyyətçilərin sərəncamında olmuş, azad rəqabət əsasında mikroiqtisadi fəaliyyət bazar mexanizmi vasitəsilə tənzimlənmişdir. Cəmiyyətin inkişafının bu mərhələsinin başlıca şərti iqtisadi fəaliyyətdə bütün iştirakçıların sərbəst olmasıdır. Nəinki sahibkarlar, hətta muzdlu işçilər də sərbəst olmuşlar.

Cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan insan amili bu zaman yeni mərhələyə qalxdı. Muzdlu işçi və sahibkarlar bazar münasibətlərində hüquqi cəhətdən bərabər agentlər kimi qarşı-qarşıya dururlar. Sahibkar əmək bazarından istədiyi muzdlu işçini sərbəst surətdə seçə bildiyi kimi, muzdlu işçi də bazarda öz tələbatına uyğun gələn iş axtarmaqda sərbəst olur. Daha çox mənfəət əldə etmək sahibkarları təbii,

**əmək və investisiya ehtiyatlarından daha səmərəli istifadə etməyə sövq edir.**

**Əvvəlki bazar sisteminə nisbətən, müasir bazar iqtisadiyyatı daha elastik vəziyyət yaradır. Bu zaman daxili və xarici şərait dəyişdikcə bazar iqtisadiyyatı təkmilləşir, elmi-texniki tərəqqi geniş miqyas alır, istehsal, sosial və bazar infrastrukturları inkişaf edir, dövlət milli iqtisadiyyatın inkişafına daha fəal təsir göstərir. Bununla əlaqədar olaraq təsərrüfat mexanizminin, təsərrüfat fəaliyyətinin təşkili forması və təsərrüfat subyektləri arasında iqtisadi əlaqələr nisbətən yeni xarakter alır. Bunları aşağıdakı sxemdən daha aydın görmək olar.**

***Müasir sahibkarlığın əvvəlki sahibkarlıqda bəzi fərqləri***

| Əsas göstəricilər | XVII-XIX əsrlərin azad sahibkarlığı | XX əsrin əvvəlindən sonrakı dövrün sahibkarlığı |
|---|---|---|
| İstehsalın ictimailəşmə miqyası. | İstehsalın ictimailəşməsi müəssisə səviyyəsində baş vermişdir. | İstehsalın ictimailəşməsi milli və beynəlmiləl miqyasda baş vermişdir |
| Müxtəlif mülkiyyət formalarının çoxluğu. | Sahibkarın təkbaşına iqtisadi fəaliyyət göstərməsi. | Xüsusi, kollektiv və dövlət mülkiyyət əsasında iqtisadi fəaliyyət. |
| İqtisadiyyatın tənzimlənməsi. | Azad bazar rəqabəti əsasında fərdi kapitalın özünü idarə etməsi. Bu zaman dövlət iqtisadiyyata az müdaxilə edir. | Dövlət milli iqtisadiyyatın tənzimlənməsinə fəal şəkildə müdaxilə edir, böhran və işsizliyin qarşısını almağa təsir göstərir. |
| Sosial təminat. | İşsizlik, xəstəlik və qocalıq hallarında vətəndaşlar sosial təminatdan məhrumdurlar. | Dövlət sosial təminat və sosial müdafiə fondları yaradılır. |

**Bazar sisteminin mühüm üstünlüyü istehsalın səmərəliliyinin daim yüksəldilməsidir. Bu sistemdə istehsalın maddi-texniki bazası daim yüksəlir, şəxsi və ictimai mənafelər müəyyən mənada birləşir. Bu müsbət cəhətlərlə yanaşı, mənfi cəhətlər də özünü göstərir. Əvvəla, gəlirlərin bölgüsündə qeyri-bərabərlik güclənir. İkincisi, tam məşğulluq və sabit qiymət səviyyəsinə təminat verilmir. Bununla əlaqədar olaraq bazar sisteminin müasir tipi üçün onun bir-birindən fərqlənən Amerika, Yaponiya, İsveçrə, Almaniya və s. modelləri meydana gəlmişdir, üçüncüsü, iqtisadiyyatın demokratikləşməsi üçün meydan yaranır.**

**İkincisi, inzibati-amirlik sistemidir. Bu sistem keçmiş SSRİ-də Şərqi Avropa ölkələrində olmuşdur. Hazırda, ÇXR-də, Kubada, Şimali Koreyada qalmaqdadır. Lakin bu dövlətlər də özlərinə məxsus qayda və metodlarla bazar iqtisadi sistemin keçməyi strateji məqsəd kimi qarşılarına məsələ qoymuşlar.**

**İnzibati-amirlik sistemində ədalətdən danışılsa da, praktikada sərt inzibatçılıq, amirlik ədalətsizliyə gətirib çıxarır və cəmiyyətdə mövcud olan ziddiyyətlərin daha da dərinləşməsinə səbəb olur. Eyni zamanda iqtisadiyyatın idarə olunmasındakı inzibatçılıq təkrar istehsal fazaları arasındakı əlaqəni pozur, insanların mülkiyyət hüququnu əllərindən alır.**

**İqtisadi sistemlərin bir forması da qarışıq iqtisadi sistemdir. Bu sistem ilk növbədə bazar və inzibati amirlik sistemlərinin qarışdığı kimi fəaliyyət göstərir. Deməli, bu sistem sırf xalis formada çıxış etmir.**

**Dünyanın bir çox ölkələri qarışıq iqtisadiyyat sisteminə malikdir. Onların bir qismi sərbəst bazar iqtisadiyyatına, digər qismi isə inzibati sistemə çox yaxındır. Qarışıq iqtisadi sistemdə sahibkar iqtisadiyyatına üstün təminat verilməsi ölkə iqtisadiyyatını daha çox demokratikləşdirir və gəlirlərin bölgüsünə nisbətən ədalətin təmin olunmasına imkan yaradır.**

**Hazırda Azərbaycanın milli iqtisadiyyatıda qarışıq sistem mövcuddur. Qarışıq iqtisadi sistemdə resursların**

**bölgüsü də müxtəlif şəkildə həyata keçirilir. Əgər inzibati sistemdə bölgünü dövlətin mərkəzi plan orqanları həyata keçirilsə, bazar sistemində resursların bölgüsünü əsasən xüsusi sahibkarlıq həyata keçirir. Qarışıq iqtisadi sistemdə isə resursların bölgüsündə qarışıq təsərrüfat formaları, yəni xüsusi sahibkarlar, dövlət və firmalar iştirak edir.**

**İqtisadi sistemlərin formalarından biri də ənənəvi iqtisadiyyatdır. Ənənəvi iqtisadiyyat dedikdə, milli adət və ənənələrə əsaslanaraq iqtisadiyyatın inkişaf etdirilməsi başa düşülür. Bu sistemdə keçmişdən miras qalmış adətlər bəşəri sivilizasiyalardan irəli gələnləri texniki yeniliklərlə əlaqələndirir. İqtisadiyyat vərəsəlik prinsipinə tabe edilir. Resrusların və gəlirlərin bölgüsü adət və ənənələr qaydasında aparılır. İqtisadi fəaliyyət milli ənənələrə tabe edilir. Bu, indi Afrikanın bəzi ölkələrində mövcuddur. İqtisadiyyatın başlıca məsələləri, ölkənin, tayfa və qəbilə başçılarının verdiyi məsləhətlər əsasında həyata keçirilir.**

**Beləliklə, tarix boyu iqtisadi sistemlər müxtəlif olub, sadədən mürəkkəbə doğru inkişaf edib. Hər bir iqtisadi sistemə xas olan mülkiyyət tipi fəaliyyət göstərib və müasir dövrdə də belədir.**

**İstehsal vasitələri, sərvət üzərində mülkiyyət tipləri, formaları, bunlarla bağlı münasibətlər iqtisadi sistemin mahiyyətini müəyyən edən amildir.**

**Mülkiyyətin formalaşma və təkmilləşdirilməsinin araşdırılması göstərir ki, cəmiyyətin inkişafının bütün mərhələlərində istehsal vasitələri üzərində mülkiyyət iqtisadi sistemin əsasını təşkil edir. Bütün cəmiyyətlərdə insanların həyat tərzi mülkiyyətlə bağlı olub. Ona görə də insanlar mülkiyyət məsələsinə laqeyd qalmamışlar.**

**«Mülkiyyət» anlayışı dərin elmi mənaya və məzmuna malikdir. Bununla belə o, adi danışıqda, əmlak, şey, material və bunlara bənzər məfhumlar mənasında da işlədilir. Lakin bunlar düzgün deyil. Mülkiyyətə insanlar arasında iqtisadi münasibətlər kimi baxılmalıdır. Başqa baxımla mülkiyyət**

insanların obyektlərə, sərvətlərə, əmlaklara, şeylərə olan münasibəti kimi çıxış edir. İqtisad elmi mülkiyyətə fundamental, ali iqtisadi anlayış, real münasibət kimi baxır.

Müəyyən mülkiyyət forması meydana gəlmədən onun mahiyyətinə uyğun gələn bir cəmiyyət və iqtisadi sistem qərarlaşa bilməz. Mülkiyyət iqtisadi sistemdə təkcə zəmin deyil, həm də inkişaf prosesində nəticənin gəöstəricisidir. O, təkrar olunan münasibətdir.

Mülkiyyətə hüquq elmi baxımından da yanaşılır. Yəni ona iradi hüququ münasibət kimi də baxılır. Deməli, mülkiyyət həm də hüquqi anlayışdır. Lakin o, hüquqi anlayış baxımından iradi münasibət olsa da yalnız iqtisadi münasibətlərdən doğur və onu əks etdirir. Deməli, hüquqi münasibəti məhz iqtisadi münasibətin özü yaradır. Mülkiyyətə bir iqtisadi anlayış kimi aşağıdakı tərifi vermək olar: «Mülkiyyət mövcud iqtisadi sistemdə ən başlıca, ən dərin mahiyyətli anlayışdır. O, bilavasitə maddi nemətlərin, sərvətlərin mənimsənilməsini ifadə edir».

Mülkiyyət münasibətləri sistemində mülkiyyətin obyekti və subyekti məsələsi xüsusi maraq kəşf edir. Bu iqtisadi anlayışlar mülkiyyət münasibətləri sisteminin mahiyyətini ifadə edən cəhətlərdən biridir. Bəs mülkiyyətin obyekti və subyekti dedikdə nə başa düşülür? Mülkiyyətin obyekti hər şeydən əvvəl onun maddi zəminidir. Obyekt əmək, istehsal və istehlak vasitələridir. O, torpaq, zavod, fabrik, material, xammal, mal-qara, bina, avadanlıq və s. şəklində olan şeylərdir. Mülkiyyət bu konkret vahidlər üzərində bərqərar olur. Qeyri-maddi şeylər üzərində də mülkiyyət olur. Məsələn, iş qüvvəsi üzərində mülkiyyət, intellektual mülkiyyət buna misal ola bilər.

Mülkiyyətin subyektini isə şəxslər, kollektiv sosial qrup, icma, müxtəlif cəmiyyətlər, təşkilatlar, dövlət və s. təşkil edir. O, hüquqi və ya fiziki şəxslərdən ibarət olur.

İstehsal vasitələri üzərində mülkiyyət və onunla bağlı münasibətlər tədricən sadədən mürəkkəbə, azdan çoxa doğru

uzun inkişaf yolu keçmişdir. İnsan cəmiyyətinin ilk inkişaf pilləsi olan ibtidai icma quruluşunda xüsusi mülkiyyət olmamışdır. İbtidai insanın istehsal vasitələri çox primitiv, ov üçün işlədilən dəyənək və baş baltadan, torpağı becərmək üçün ağac toxadan ibarət idi. Belə vasitələrin köməyi ilə insanlar yalnız birgə hərəkət etdikləri hallarda dolanmaq üçün azuqə əldə edə bilərdilər. Əməyin məhsulları bərabər bölüşdürülürdü. Bunun səbəbi o dövrdə qida mənbəyinin əsası olan təbii amillərin ayrı-ayrı adamların, icmanın, tayfanın ümumi istifadəsində olması ilə əlaqədar olmuşdur. Belə bir dövrdə, xüsusi mülkiyyətin meydana gəlməsi üçün şərait mövcud deyildi.

İbtidai cəmiyyətdə istehsal vasitələri üzərində icma mülkiyyəti hökmran idi. Heyvanlar, bitkilər, əmək alətləri, insanların məskunlaşdıqları torpaq sahəsi və s. icmanın mülkiyyəti idi. Bu, kollektiv səciyyəli mülkiyyətə bənzəyirdi.

İbtidai icma cəmiyyətində insanlar yaşamaq uğrunda təbiətlə mübarizə gedişində məhsuldar qüvvələri inkişaf etdirir və xüsusi mülkiyyətin yaranmasına səbəb olur. Bu isə məhsuldar qüvvələrin irəliyə doğru əhəmiyyətli addım atmasına, ictimai əmək bölgüsünün genişlənməsinə şərait yaradır. Məsələn, Qədim Romada sənətkarlıq bir çox müxtəlif ixtisasları əhatə edirdi. Bunlardan toxucu, yün əyirən, boyaqçı, keçəçi, xarrat, dəmirçi, zərgər və s. ixtisası göstərmək olar. Kənd təsərrüfatında yeni sahələr: bostançılıq və meyvəçilik sahələri yaranmışdı. Tikinti və mədən işlərində qul əməyi geniş tətbiq edilirdi. O zaman üçün çox nəhəng tikinti hesab edilən kanallar, su kəmərləri, Misir ehramları, saraylar, teatrlar, sirklər, zəfər tacları yaradılır. Hərbi məqsədlər üçün gəmilər düzəldilir, mühasirə tikintiləri yaradılırdı. İqtisadiyyat inkişaf etdikcə əmək alətləri də təkmilləşirdi. Əmək alətlərinin təkmilləşməsi isə öz növbəsində iqtisadiyyatın daha da inkişafına təkan vermiş, cəmiyyətin inkişafını sürətləndirmişdir.

Bütün bunlar yeni bir ictimai-iqtisadi quruluşun yaranmasına səbəb olmuşdur. Yeni quruluş feodalizm adlanmışdır. Feodalizmdə xüsusi mülkiyyət yeni mahiyyət və xarakter kəsb edir. Əvvəlki dövrə nisbətən feodalizmin başlıca üstünlüyü ondan ibarət olur ki, bilavasitə istehsalçı olan kəndli özünəməxsus torpaq sahəsində işlədiyi zaman öz əməyinin nəticəsi ilə maddi cəhətdən maraqlı olur.

Feodalizm cəmiyyətində məhsuldar qüvvələrin inkişafı quldarlıq quruluşuna nisbətən daha sürətli olur və bazar iqtisadi sisteminin maddi ilkin şəraiti formalaşır. Bu üç, əsas tarixi mərhələdən: sadə əmək kooperasiyası, əmək bölgüsü, manufaktura və iri maşınlı sənaye mərhələlərindən keçmişdir.

İlk sahibkar müəssisəsi sadə sahibkar əmək kooperasiyası şəklində əmələ gəlmişdir. Bir çox şəxsin eyni bir istehsal prosesində və ya müxtəlif, lakin bir-biri ilə əlaqədar olan istehsal proseslərində birgə işləmə formalarına əmək kooperasiyası deyilir. Burada sahibkar sadəcə olaraq bir çox şəxsi öz komandası altında birləşdirir və muzdlu əmək tətbiq edir. Nəticədə əməyin yeni formada təşkili ilə insanların əməyi əvvəlki əməklərə nisbətən daha məhsuldar olur. Çünki birgə əmək prosesində işçilər arasında bəhsləşmə meydana çıxır və əmək məhsuldarlığı yüksəlir. Bu proses məhsuldar qüvvələrin inkişafının müəyyən mərhələsində maşınlı sənayenin formalaşmasına və inkişafına səbəb olur və bununla da bazar iqtisadi sisteminin maddi-texniki əsası yaranmış oldu.

İri maşınlı sənayenin formalaşması və inkişafı bazar münasibətlərinin inkişafını sürətləndirdi. Yeni elmi kəşflər texnikada və istehsalın texnologiyasında çevriliş yaratdı. Eyni zamanda işçilərin əmək funksiyalarında və onların əməyinin təşkilində dəyişikliklər əmələ gəldi. Məsələn, XIX əsrin sonu və XX əsrin əvvəllərində elektrotexnika sahəsində çevriliş baş verdi. Buxar əsrindən elektrik əsrinə qədəm qoyuldu. Daxili yanacaqla işləyən mühərriklər ixtira olundu. Təyyarə və avtomobil kimi sürətlə hərəkət edən nəqliyyat

**vasitələri yarandı və inkişaf etdi. Kimya sənayesi sürətlə inkişaf etməyə başladı.**

**Elmi-texniki tərəqqi iri müəssisələrin yaranmasını sürətləndirdi. Nəhəng zavodların sayı çoxaldı. Bununla yanaşı, həmin müəssisələrdə çoxlu miqdarda fəhlə kütləsi cəmləşdi. İstehsal vasitələri, sərvət üzərində xüsusi mülkiyyətin inkişafı üçün əlverişli şərait yarandı.**

**Mülkiyyətin formalarını bir-birindən fərqləndirməyin və müəyyənləşdirməyin həm elmi, həm də praktik əhəmiyyəti vardır. Onlardan aşağıdakı müasir mülkiyyət formalarını göstərmək olar.**

**1. Xırda əmtəə istehsalı ilə səjiyyələnən mülkiyyət forması. Bu mülkiyyət formasında müzdlu əməkdən əsasən istifadə edilmir. Buraya həyətyanı təsərrüfatlar, sənətkarların obyektləri, xırda xidmət müəssisələri və başqaları daxildir. Bu mülkiyyət formasına aid olan təsərrüfat subyektləri hüquqi şəxs deyil, fiziki şəxs kimi fəaliyyət göstərirlər.**

**2. Xüsusi mülkiyyət forması. Bazar iqtisadi sistemində bu mülkiyyət formasının əsas cəhəti ondan ibarətdir ki, fərdi sahibkar əsaslı vəsait sərf etməklə kiçik, orta, iri tipli müəssisə təşkil edir.**

**Muzdlu əmək tətbiq edilir və kütləvi surətdə məhsul buraxılır.**

**Əldə edilən gəlir, mənfəət fərdi sahibkara məxsusdur. Onun iqtisadi mənafeyi, istehsalın nəticəsinin mənimsənilməsi hakim mövqe tutur.**

**3. Dövlət mülkiyyət forması. Burada söhbət keçmiş Sovetlər birliyində ümumxalq mülkiyyəti adı altında iflasa uğramış dövlət mülkiyyətindən getmir, bazar iqtisadiyyatı şəraitində formalaşan dövlət mülkiyyətindən gedir.**

**Adətən dövlət mülkiyyətində xüsusi aparıcı müəssisələr, sahələr saxlanılır. Bunlar hər bir ölkənin öz mənafeyi baxımı ilə müəyyən edilir. Habelə xarici ölkələrin təcrübəsinə əsaslanıb bunu da qeyd etmək lazımdır ki, elə istehsal sahələri və müəssisələr vardır ki, ölkə üçün o vacibdir. Lakin onların**

fəaliyyəti üçün çoxlu miqdarda kapital lazımdır. Xüsusi sahibkarlar isə əsasən belə müəssisələri təşkil etmək istəmirlər. Dövlət belə sahə və müəssisələrin təşkilini öz üzərinə götürməyə məcbur olur.

Dövlət müəssisələrindən əldə edilən gəlir dövlət büdcəsinə daxil olur. Ona görə ki, istehsal vasitələri dövlət mülkiyyətidir. İnkişaf etmiş ölkələrin müasir nümunəsi göstərir ki, dövlət mülkiyyətində əsas istehsal fondlarının xüsusi çəkisi orta hesabla 5-10 faiz arasındadır. Dövlət mülkiyyətinə aid istehsal müəssisələri hüquqi şəxslərdir.

4. Kooperativ mülkiyyət forması. Buraya həm maddi, həm də qeyri-maddi dairələrə aid hər cür kooperativlər daxildir. Kooperativlər könüllü birləşmiş üzvlərin material və pul vasitələri hesabına təşkil olunur.

Kooperativlərdə əmlaklardan, istehsal vasitələrindən birgə istifadə olunması və mənimsənilməsi həyata keçirilir. Onlar hüquqi şəxslərdir, öz nizamnamələri əsasında fəaliyyət göstərirlər.

5. Səhmdar jəmiyyəti mülkiyyəti forması. Bu mülkiyyətə səhmlər yolu ilə təşkil olunmuş müəssisələr daxildir. Səhmlərin satılması həm açıq, həm də qapalı aparıla bilər. Səhmlər hamıya satılarsa, bu açıq, yalnız onları yaradanlara, yəni müəssisə kollektivinin üzvlərinə satılarsa qaralı qayda kimi qiymətləndirilir.

6. Bələdiyyə mülkiyyət forması. Burada əsas səciyyəvi hal odur ki, mülkiyyətin obyektləri şəhərin, rayonun, qəsəbələrin bələdiyyə idarəçiliyi tabeliyində olur.

Bələdiyyə mülkiyyəti bir sıra dünya ölkələrində mövcuddur. Onlarda bu mülkiyyət təbii-tarixi inkişaf prosesində yaranıb. Həmin ölkələrdə bələdiyyə mülkiyyəti əsasən kommunal-mənzil, xidmət-məişət obyektlərini, təşkilatlarını əhatə edir; bilavasitə iri istehsal xarakterli obyektlərə malik deyillər.

İndi yeni Azərbaycan şəraitində belə bir mülkiyyət formasının yaranması zərurəti meydana çıxmışdır. Məhz ona

görə də Azərbaycanın yeni Konstitusiyasında bələdiyyə mülkiyyətinin yaradılması nəzərdə tutulub. Bələdiyyə mülkiyyəti hüquqi şəxsdir.

7. Şəxsi və ya fərdi mülkiyyət forması. Buraya şəxsi yaşayış evləri, ev əşyaları və əmlakları, adamların pul vəsaitləri və qiymətli kağızları daxildir. Bu formaya eyni zamanda şəxsi istehlak, bilavasitə ailənin tələbatı üçün istifadə edilən məhsullar da daxil edilə bilər.

8. Qarışıq mülkiyyət forması. Bu mülkiyyət forması onu yaradanların əmlaklarının könüllü birləşdirilməsi əsasında formalaşır. Burada xarici hüquqi şəxslər də iştirak edə bilərlər. İdarəetmə və qərarların qəbulu kollegal qaydada həyata keçirilir. Digər vəzifələr də könüllü mərkəzləşmiş üsulla həll edilir. Bu cür mülkiyyət formasının obyektləri konsern, təsərrüfat cəmiyyətləri, konsersium kimi birləşmələr adı ilə fəaliyyət göstərirlər. Bu mülkiyyət formaları yeni Azərbaycan gerçəkliyində fəaliyyət göstərir və ya göstərməli olacaqdır.

Keçid iqtisadiyyatlı dövlətlərdə əsas vəzifə inzibati-amirlik sistemi üçün xarakterik olan ictimai mülkiyyətdən çoxmülkiyyətli iqtisadiyyatı formalaşdırmaqdır. Çünki həyat təcrübəsi sübut etdi ki, çoxmülkiyyətliliyə əsaslanan bazar iqtisadi sistemi iqtisadiyyatın inkişafına vahid ictimai mülkiyyəti olan inzibati-amirlik sistemindən daha yaxşı şərait yaradır.

Mülkiyyətin yuxarıda göstərilən formalarının hamısının bütün ölkələrdə olması zəruri deyil. Müxtəlif ölkələrdə həmin dövlətin spesifik xüsusiyyətlərindən asılı olaraq mülkiyyətin formaları çox və ya az ola bilər.

## § 2. Sahibkarlıq və onun mahiyyəti

Bazar iqdisadi sistemində istehsalın amilləri (torpaq, kapital, əmək və sahibkarlıq qabiliyyəti) arasında sahibkarlıq

qabiliyyətinin xüsusi yeri var. Onların fövqündə dayanır və aparıcı rola malikdir. Ona görə ki, sahibkarlıq qabiliyyəti olan subyektlər istehsalın bütün amillərini bir araya qətirərək onları maddi nemətlər istehsalının təmin olunmasına yönəldə bilirlər. İstehsalın bütün amilləri artıqlaması ilə olsa belə sahibkarlar istehsalı təşkil və idarə etməsələr istehsal prosesi baş tuta bilməz.

Hər iş qüvvəsinə malik olan insandan çalışmaqla sahibkar ola bilməz. Çünki genində şairlik istedadı olmayan adamdan arzu etməklə, çalışmaqla yaxşı şair olması qeyri-mümkün oldugu kimi sahibkarlıq istedadı olmayan subyektdən də sahibkar olmaz. Sahibkarlıq istedadını, qabiliyyətini Tanrı az sayda adamlara verir. Əgər sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait yaradılarsa bu cür adamlara istehsalı təşkil və idarə etmək üçün heç bir maddi yardım etmək lazım deyil, onlar bu vəsaiti öz ağıllarının və istedadlarının gücü ilə əldə edə bilirlər. Bunun əksinə, genində sahibkarlıq istedadı olmayan insanlara nə qədər kapital verilsə də onun gec-tez iflasa uğraması labüddür.

Tarixi təcrübə ilə əlaqədar olaraq sahibkarlığın ümumiləşdirilmiş cəhətləri mövcuddur. Onlar aşağıdakılarla səciyyələnir.

Xüsusi istedadı, qabiliyyəti, bacarığı olmayan şəxslərdə sahibkar olmaq cəhdi heç vaxt baş tuta bilməz. Belə cəhd, tələbatı ödəyə bilməyən məhsul istehsal etməyə bərabərdir.

Yaradıcılıq, təşəbbüskarlıq, problemləri həll edə bilmək, güzəştə getmək və adamlarla dil tapmaq qabiliyyətilə bağlı olan şəxsi keyfiyyət, bacarıq və çevikliyi özündə birləşdirən şəxslərdən yalnız sahibkar ola bilər. Bundan başqa, sahibkarda öz qabiliyyətini daim inkişaf etdirmək, baş verən dəyişiklikləri onunla ünsiyyətdə olan bütün adamlara çatdırmaq səriştəsi olmalıdır. Habelə sahibkarın əlverişli imkanı əldə verməmək kimi keyfiyyəti olmalıdır, təhlükəli vəziyyətlər, risklə və naməlum bir çətinliklə üzləşəndə özünü itirməməlidir. Onda yaradıcı ideyalar irəli sürmək, onları ya

təkbaşına və ya başqaları ilə birlikdə inkişaf etdirmək, məsuliyyəti öz üzərinə götürmək qabiliyyəti olan, danışıqlar aparmaqda, təşkilatçılıqda nüfuzlu bir şəxsiyyət olmalıdır.

Sahibkar fərdlərin mühüm cəhətlərindən biri də müxtəlif iqtisadi nəzəri əməli fikirləri öyrənmək, müşahidə etmək, onların müsbət təsəflərindən öz fəaliyyətlərində istifadə etməkdən ibarətdir.

Sahibkarları möhtəkirlər və menecerlərlə qarışdırmaq olmaz. Bunların arasında istehsalın təşkili və idarəetmədə müəyyən ümumilik olsa da, aralarında mühüm fərqlər vardır. Sahibkarlıq onlara nisbətən daha geniş anlayışdır. Daha doğrusu, onlara nisbətən onun fəaliyyət dairəsi daha genişdir.

Sahibkarlar bəşəriyyətə maddi nemətlər bolluğu gətirən islahatçılardır. Sahibkar bu gün ilə gələcək arasında əlaqələndirici rol oynayır. Yəni müasir dövrdə mövcud olan elm və texnikanın yeniliklərini istehsala tətbiq edir, idarəetmənin ən mütərəqqi metodunu mənimsəyir və gələcək nəslə öyrədir.

Başqalarının görə bilmədiyi, işə barmaqarası baxan şəxslərdən fərqli olaraq, sahibkar hər bir xırda şeyi görmək və ondan düzgün nəticə çıxarmaq qabiliyyətinə malik olmalıdır. Uzaqgörənlik və cəsarət sahibkar üçün xarakterik xüsusiyyətlərdir. Sahibkarlar əsas etibarilə lazımi vasitələri axtarıb tapan, əlverişli imkanı görən və onu yeni fikir, üsul və texnologiya işlətməklə fürsəti əldən buraxmayan şəxslərdir. Geniş mənada sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, möcüd müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə, ictimai və siyasi problemlərin həllinin nəticəsindən asılı olmayaraq, bütün yenilikçi və yaradıcı təşəbbüslərə istinad etməlidir.

Sahibkarlar bazara yeni əmtəə və ya xidmət növü çıxarırlar. Bu gün bütün ölkələrdə, xüsusilə inkişaf etmiş ölkələrdə istehlak olunan məhsulların əsas hissəsinin istehsalını təşkil və edən sahibkarlardır. İstehsalın tələbatdan geri qalmasını, ehtiyacların qeyri-qənaətbəxş ödənilməsini

görən, bunların aradan qaldırmağın yollarını, üsullarını axtaran, tapan, istehsala yeni texnologiya tətbiq edən və bunun nəticəsində bazara yeni-yeni məhsullar çıxarmağa müvəffəq olan sahibkarlardır. Dizgün çıxış yolunu tapmaqla mükafat almayacaqlarını, səhv etdikləri təqdirdə isə iflasa uğrayacaqlarını onlar yaxşı bilirlər. Onlar ehtiyatları səfərbər edir, riskə gedir, müvafiq məhsulların istehsalını təşkil edir və bazara çıxarırlar.

Sahibkarlara məxsus olan keyfiyyətlərdən biri də yeni ehtiyat mənbələrini axtarıb tapmaqdır. Ehtiyat mənbələri öz-özlüyündə mövcud olmur, onları axtarıb tapmaq lazımdır. Belə adamlar yararsız hesab olunan materialdan istifadə etməyin yollarını axtarıb tapırlar. Bu gün sahibkar sadəcə olaraq əlavə neft, təbii qaz və nadir minerallar kmi yeni ehtiyat mənbələrini aşkar etmir, o daha artıq işlər görür. Başqa sözlə, bu sahələrə ən yeni texnikanı tətbiq etməklə, yeni üsul və metodlardan istifadə etməklə məhsulların istehsalını artırırlar.

Sahibkarlarda tullantılardan yenidən məhsul istehsal etmək, bərpa edilə bilən enerji mənbələrinin inkişafını təmin etmək, köhnə ehtiyat mənbələrindən istifadə yollarını axtarıb tapmaq üçün əlverişli imkanlardan istifadə etmək qabiliyyəti vardır.

Sahibkarların böyük xidmətlərindən biri yeni texnologiyanı təkmilləşdirməkdir. Məlumdur ki, azad rəqabətə qalib gəlməyin əsas vasitələrindən biri istehsala ən müasir texnikanın tətbiq edilməsi və yaxud təkmilləşdirilməsidir. Dövlətlərin tərəqqisi qabaqcıl texnoloji yeniliklərdən vaxtında istifadə etməsindən çox asılıdır. Yeni ideyalar ən çox sahibkar tərəfindən irəli sürülür, onu istehsala tətbiq edir və yeni məhsulları bazara çıxarmaq üçün lazım olan hər şeyi edir.

Sahibkarlar istehsalı genişləndirməklə bərabər, onu reallaşdırmaq (satmaq) qayğısına da qalırlar. Onlar eyni

zamanda yeni bazarlar axtarır, tapır və lazım olanda yeni bazarlar yaradırlar.

Sahibkarlar həm də mövcud olan müəssisələri yenidən qururlar. Həyatda əbədi heç nə olmadığı kimi, mövcud müəssisələrdə tətbiq olunan, texnika da köhnəlir, yəni fiziki və mənəvi aşınmaya məruz qalır və məhsuldarlığı aşağı düşür. Sahibkarlar istehsal xərclərini azaltmağın və istehsalın səmərəliliyinin yüksəldilməsinin daha yaxşı yollarını daim axtarır və tapa bilirlər.

Sahibkarlığın bir neçə formaları vardır. Bunlardan biri biznesdir. Risklə bağlı təşəbbüs yeni biznesin başlanğıcıdır. Bu o deməkdir ki, hər hansı şəxs istehsal, ticarət və sair sahələrdə sahibkarlığa başlayarkən risk edir. Yəni, onun müflisləşmə ehtimalı gəlir əldə etmək ehtimalından daha çox olur. Məsələn, inkişaf etmiş ölkələrdə yeni biznes fəaliyyətinə başlayanların bir hissəsi müvəffəqiyyətsizliyə uğrasa da, bir çoxu uğur qazanır və hətta sənaye nəhənglərinin yeni nəslinə çevrilirlər. Bu bir həqiqət olsa da, biznes sahibkarlığın yeganə forması deyil.

Sahibkarlığın bir qolu da sahədaxili sahibkarlıqdır. Burada sahibkar sahənin məhsulunu yaxşılaşdırmağı, onun paylanma mexanizmini daha səmərəli etməyi bacaran və ya yeni bazar strategyiasının yollarını görən bir iş adamıdır. Sahədaxili sahibkar həm də idarəetmənin və istehsalın yenidənqurmaya nə dərəcədə ehtiyacı olduğunu və ya məlumatların işlənməsi, mühasibat uçotunun aparılması üçün yeni sistemin tətbiqi işlərini görür. Sahədaxili sahibkarlıq tələb edir ki, dəyişikliklər yaratmaqda işçilərə sərbəstlik verilsin və onların belə hərəkətləri mükafatlandırılsın.

Hazırda cəmiyyətdə həlli zəruri olan yüzlərlə sosial problemlər mövcuddur. Bunların bir çoxu dövlət orqanları tərəfindən həll edilir. Lakin bir çox sosial problemləri dövlət həll edə bilmir. Məsələn, işsizlik, evsizlik, şəhərlərin korlanması, sosial təminat və başqaları bu problemlərdəndir.

**Bunları həll edə biləcək sahibkarlara ehtiyac yaranır. Köhnə üsullarla bu problemləri həll etmək mümkün deyil.**

**Öz psixoloji təbiətinə görə sahibkarlar başqa adamlardan fərqlənirlər. Çoxları sahibkarın yeganə məqsədinin yalnız pul qazanmaq olduğunu zənn etsə də, bu əslində belə deyildir. Sahibkarlara başqalarından fərqli olaraq aşağıdakı cəhətlər də xarakterdir: 1) müstəqil olmaq arzusu, 2) müvəffəqiyyətə nail olmaq ehtirası, 3) könüllü şəkildə riskə getməyə hazır olması, 4) özlərinə inamın daha çox olmasıdır. Onlar həll etdikləri məsələlər üçün məsuliyyəti öz üzərinə götürməyi, həm də uğurlarından məmnun olmağı bacaran adamlardır. Onlar uğursuzluğa bir işin sonu kimi yox, gələcək nailiyyətlərin təməli kimi baxırlar.**

**Sahibkarlar kor-koranə deyil, ağılla, şüurla, düşünülmüş şəkildə qalib gəlməyə daha çox şansı olan hallarda risk edirlər. Öz qüvvəsini və inamını düzgün ölçüb-biçmək riskin əsasıdır. Bu ölçü-biçidə sağa və sola getmək eyni dərəcədə zərərlidir. Başqa sözlə, öz qüvvəsini olduğundan çox hesab etmək məğlubiyyətə, az hesab etmək isə qətiyyətsizliyə, qorxaqlığa aparıb çıxarır.**

**Bir qayda olaraq, sahibkar hansı yeni məhsul istehsal edə biləcəyini, məhsulun qiymətlərini aşağı salmaqla hansı yeni texnologiyadan istifadə edəcəyini ölçüb-biçir. O, hansı yenidən qurmaların səmərəliliyinin artması ilə nəticələnəcəyini əvvəlcədən duyur. Kimlər ki, yeni məhsullar, yeni texnologiya və ya əməyin yeni təşkili üçün bu əlverişli imkanları dərk edir, yüksək gəliri də onlar əldə edirlər. Sahibkarlar bunlar uğrunda mübarizə aparmaqla onlar mikroiqtisadiyyatın inkişafı ilə bərabər makroiqtisadiyyatın inkişafına da nail olurlar.**

**Sahibkar istehsalçıların nəyə ehtiyacları olduğunu, hətta onların özlərindən əvvəl duyaraq onları qabaqlamaqla tələb yaradır. Sahibkarlar bazarda artıq mövcud olan müəyyən mala və xidmətə dair ehtiyacı müəyyənləşdirən**

amillərə və ya qiymətlərdəki dəyişikliklərə uyğun olaraq tələb yaradırlar.

Sahibkar, iqtisadiyyatın bütün sahələrində kapital qoyuluşu üçün əlverişli imkanlar yaradan və iqtisadi inkişafı sürətləndirən yenilikçidir. Məhz buna görə də yenilikçi sahibkar makroiqtisadiyyatda mərkəzi simadır.

Bazar iqtisadiyyatı kapital qoyuluşu üçün yeni-yeni imkanlar açıb. Amerikalı sahibkar Henri Ford yığma konveyeri ixtira etmiş, hissələrin ayrı-ayrı elementlərini birləşdirmişdir. Bu, avtomobil sənayesi sahəsində yenilik idi. Məhz yeni texnikanın tətbiqi əmək məhsuldardığını yüksəltmişdir. Bu isə onun müəssisəsində avtomobilin fərdi dəyərinin əhəmiyyətli dərəcədə azalmasına və avtomobillərin qiymətinin aşağı salınmasına imkan yaradıb. Odur ki, orta səviyyədə yaşayan amerikalı onu ala bilir. Vaxtilə belə novatorluq fəaliyyəti polad, kauçuk, boya, benzin, plastik kütlə və s. istehsalına, yol çəkilişinə, türizmə kapital qoyuluşu üçün yeni-yeni əlverişli imkanlar yaratmışdır.

İşsizlik böyük sosial problemdir. Dövlət bu problemi müxtəlif yollarla həll etməyə çalışır. Lakin onun həllində sahibkarların da rolu böyükdür.

İqtisadi artım adətən, ölkədə adambaşına düşən ümumi daxili məhsulun artımı ilə müəyyən edilir. Belə artım yeni ehtiyat mənbələrinin kəşf edilməsi və ya istifadə olunan materialların səmərəliliyinin artırılmasının nəticəsi ola bilər. Bu işlərin hər ikisini sahibkarlıq fəaliyyəti tələb edir. Yeni mənbələri aşkar edən və yaxud istifadə edilən məlum mənbələrin məhsuldarlığını qaldıran şəxs, məhz, sahibkarlıq fəaliyyəti göstərmiş olur. Sahibkarlıq fəaliyyəti təhsil və təlim işində, səhiyyəyə qayğı göstərməkdə və sairədə də ifadə olunur. Sahibkarlıq fəaliyyəti təşkilati-hüquqi formalara malikdir.

Göründüyü kimi bazar iqtisadi sistemində sahibkarlıq və onun təşkilatçıları olan sahibkarlar milli iqtisadiyyatın inkişafında əvəz olunmaz subyektlərdir. Bunlarsız bazar

iqtisadi sisteminin mövcudluğunu təsəvvür etmək olmaz. Təəssüf ki, marksist-leninçi iqtisadi təlimi haqsız olaraq onları istismarçılıqda günahlandırmış və məhv etməyi lazım bilmişdir. Onlara kapitalist adı verərək cəmiyyət arasında hörmətdən salmağa çalışmışdır.

Müasir bazar iqtisadi sistemi şəraitində bir çox üstünlüklərə malik olduğuna görə kiçik sahibkarlığın inkişaf etdirilməsi bütün dünya dövlətlərində, o cümlədən Azərbaycanda da ön plana çəkilmişdir.

Kiçik sahibkarlıq istehlak bazarının sahibləşdirilməsinin bəzi problemlərini tezliklə həll etmək, istehsalın rəqabət xarakterini təmin etmək qabiliyyətinə malikdir. Eyni zamanda kiçik sahibkarlıq bazar mühitinin formalaşmasında əsas rollardan birini oynayır.

Bununla əlaqədar olaraq, sahibkarlığın əsas prinsipləri, sahibkarlıq fəaliyyətinin subyektləri, onların hüquq və vəzifələri, dövlət tərəfindən müdafiəsi, sahibkarlığın dövlət orqanları və onların qarşılıqlı fəaliyyəti «Sahibkarlıq fəaliyyəti haqqında» qanunda hüquqi cəhətdən əsaslandırılmışdır. Qanun mülkiyyətin butun formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, fəaliyyət sahələrinin müstəqil seçilməsi, iqtisadi qərarlar qəbul edilməsi, iqtisadi təşəbbüsün və işgüzarlığın geniş miqyas alması üçün şərait yaradılmasına yönəldilib.

Kiçik sahibkarlıq bazarın ərazi strukturuna və onun münasibətlərinin genişlənməsinə, hər şeydən əvvəl, bazar subyektlərinin, yəni əmtəə istehsalçılarının çoxalmasına və genişlənməsinə müsbət təsir göstərir. Bazar iqtisadiyyatı istiqamətində inkişaf etmiş dövlətlərin təcrübəsi bunu sübut edir. Bir halda ki, biz bazar iqtisadiyyatına keçməyi qarşımıza məqsəd qoymuşuq, deməli onların təcrübəsi öyrənməli və ölkəmizin imkan və şəraitinə uyğun istifadə edilməlidir. ABŞ-da 20 milyon, Yaponiyada 9 milyon, Hindistanda 12 milyon müəssisə və ya firma fəaliyyət

göstərir. Bunların 80-85 faizi kiçik sahibkarların payışa düşür.

Kiçik sahibkarlığın inkişafı iri müəssisələrlə müqayisədə bir sıra xüsusiyyətlərə malikdir. Bunlardan biri kiçik sahibkarlıqda kapital daha sürətlə dövr edir. Kiçik müəssisələrdə kapitalın passiv hissəsinin, yəni istehsalat binası, habelə infrastrukturunun xüsusi çəkisi aşağı olur. Canlı əmək daha çox yüklənir və əmək məhsuldarlığı yüksək olur. İri müəssisələrə nisbətən kiçik müəssisələrdə istehsal xərclərini aşağı salmaq üçün imkanlar daha çoxdur.

Ehtiyatların daha sürətlə dövr etməsi, sahibkarın qəbul etdiyi qərarı vaxtında yerinə yetirməsi, xammala qənaət edilməsi, iş vaxtı itkisinin aşağı olması kiçik müəssisələr üçün xarakterikdir. Bu kimi üstünlüklər istehlak bazarını əmtəələrlə daha tez doldurmağa imkan verir.

Kiçik sahibkarlığa üstünlük verən amillərdən biri də nazirlik və idarələr tərəfindən mərkəzləşdirilmiş qaydada istehsala kapital qoyuluşundan, xidmət haqqında göstəriş verilməsindən xilas olmasıdır. Bu isə onlara müstəqil və mane olmadan fəaliyyətlərini genişləndirməyə imkan verir.

Kiçik sahibkarlığın üstünlüklərindən istifadə edilməsi yüksək iqtisadi səmərə verir. Kiçik müəssisələr təsərrüfatçılığın mütərəqqi formalarını daha tez və sürətlə tətbiq edirlər. Öz istehsal fəaliyyətini tez və ağrısız dəyişə bilirlər, yüksək rentabelli məhsulların istehsalını tez mənimsəyir, əhalinin tələbatını ödəməyən məhsulların istehsalını tez dayandırırlar.

Bazar iqtisadiyyatı istiqamətində inkişaf etmiş ölkələrdə bu proses təbii inkişaf yolu keçmiş və sadədən mürəkkəbə doğru hərəkət edərək müasir səviyyəyə çatmışdır. Buna görə də xarici ölkələrdə kiçik sahibkarlığın inkişafı üçün problem yoxdur. Çünki bu ölkələrdə kiçik sahibkarlığı müdafiə etmək üçün dövlət köməkliyi mövcuddur. ABŞ-da milyonlarla kiçik firma mövcud olduğuna baxmayaraq, hər il dövlət, yenə də kiçik müəssisələrin inkişafı üçün milyardlarla

dollar, Almaniyada milyardlarla marka sərf olunur. ABŞ konqresində kiçik bizneslə 2 komitə məşğul olur, bu işlə məşğul olan dövlət orqanlarında 4,5 min əməkdaş çalışır. Onların başlıca vəzifəsi kiçik biznesə kömək etməkdən ibarətdir. Hər ştatda 30-40 nəfərdən ibarət regional şöbə var. Bununla bərabər nə mərkəz, nə də regional çinovniklər kiçik biznesə komanda vermir, yalnız onların xahişlərinə əməl edir, bazarın vəziyyəti barədə informasiya ötürürlər. Bundan əlavə, məsləhətlər, tövsiyələr verirlər. Kiçik sahibkarlığın yenicə formalaşdığı respublikamız üçün xarici təcrübənin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Sahibkarlıq haqqında respublikada qanunvericilik aktları qəbul edilmişdir. Lakin hüquqi sənədlərin olması hələ heç də sahibkarlığın inkişafı üçün bütün tədbirlərin görülməsi demək deyil. Bundan əlavə, kiçik sahibkarlığın iqtisadiyyatda mühüm əhəmiyyətilə əlaqədar olaraq, onun inkişafı haqqında ayrıca hüquqi sənədlərin qəbul edilməsi, onun təşkili və inkişafını istiqamətləndirən dövlət strukturunun olması zəruridir. Eyni zamanda kiçik sahibkarlığın inkişafı sistemli xarakter almalıdır.

Kiçik sahibkarlığın yaranması və inkişafı məhsuldar qüvvələrin inkişafı olub, qanunauyğun prosesdir. XX əsrin ikinci yarısına qədər iri müəssisələrin inkişafına üstünlük verilmişdir. Lakin bu dövrdən etibarən kiçik sahibkarlığın əhəmiyyəti artmışdır. Bu, başlıca olaraq tələbatın sürətlə artması və buraxılan məhsulların çeşdinin çoxaldılması zərurəti ilə əlaqədardır. İri müəssisələrin manevr etmək qabiliyyəti kiçik müəssisələrə nisbətən aşağıdır, yəni tələbat dəyişəndə iri müəssisələr öz fəaliyyətini bir sahədən başqa sahəyə keçirməkdə çətinlik çəkirlər. Başqa sözlə, kiçik müəssisələr iri müəssisələrə nisbətən daha çevikdirlər, onlar müasir texnikadan, texnologiyadan daha səmərəli istifadə edirlər, yeni məhsul istehsalını tez mənimsəyirlər.

Kiçik müəssisələrin həcmi müxtəlif ölkələrdə eyni deyil. Məsələn, ABŞ-da 500 nəfərə qədər işçisi olan müəssisə,

Yaponiyada isə 30 nəfərdən 300 nəfərə qədər işçisi olan müəssisələr kiçik müəssisə hesab edilir. Lakin ümumi cəhət ondan ibarətdir ki, heç bir ölkə kiçik müəssisələr olmadan iqtisadiyyatı tarazlaşdırmaq, bazarı yeni əmtəə və xidmətlərlə doldurmaq imkanına malik deyildir.

Bazarın yaradılması və inkişafında kiçik sahibkarlığa mane olan amillər də vardır. Onlardan biri inhisarların yaranması və onların fəaliyyətinin genişlənməsidir. Lakin kiçik müəssisələr iri müəssisələrin inhisarını məhdudlaşdırmaq qabiliyyətinə də malikdirlər. Bu şərtlə ki, xalq təsərrüfatında kifayət qədər kiçik müəssisələr olsun və iri inhisarçı müəssisədən asılı olmasınlar.

Deyilənlərdən aydın olur ki, kiçik sahibkarlıq ictimai istehsalın inkişafına müsbət təsir göstərir. Belə ki, yerli şəraitə uyğun kiçik müəssisələrin təşkili, həm yerli xammalın, həm də əmək ehtiyatlarından səmərəli istifadə etməyə şərait yaradır. Bir tərəfdən, xammalın daşınması ilə əlaqədar olan xərclər ixtisar olunur, digər tərəfdən əhalinin iş dalınca iri şəhərlərə axınının qarşısı alınar.

Respublikamızın bütün regionlarında kiçik sahibkarlıq üçün əlverişli və potensial imkanlar mövcuddur. O, zəngin təbii sərvətlərə, əmək ehtiyatlarına, əhali isə müxtəlif sənət vərdişlərinə malikdir. Bunlar kiçik sahibkarlığın yaranması və inkişafı üçün zəmin yaradır. Deməli, sadəcə olaraq bütün regionlarda kiçik sahibkarlığın inkişafına çalışmaq lazımdır.

## § 3. Miili iqtisadiyyatın inkişafında əsas amil olan sağlam mənəviyyatın formalaşmasına iqtisadi sistemlərin fərqli təsiri və onun sosial-iqtisadi nəticələri

İqtisadiyyatın inkişafında istehsalın amilləri sisteminə insan amilinin rolu əvəz olunmazdı. İnsan amili dedikdə insanın ağılı, şüuru və onun sağlam mənəviyyatı nəzərdə tutulur. Çünki insanın ağılı onun əvəz olunmaz sərvətidir. Ona görə ki, insan ağlının gücü ilə istehsal vasitələrini təkmilləşdirir, yeni daha mükəmməl texnika və texnologiya yaradır. İstehsalın təşkilinin daha mütərəqqi formalarını axtarıb tapır və istehsala tətbiq edir. Bu prosesdə insanlar dərk edirlər ki, sənayenin ən yüksək səviyyədə inkişaf etdirmədən əhalinin həyat səviyyəsini yüksəltmək olmaz. Bunun özü isə elmin əsaslarını dərindən öyrənməkdən keçir. Elmin dərindən öyrənilməsi insanın ağlını itiləşdirir, istehsal təcrübəsini artırır və dünyagörüşünü genişləndirir. Bunlar isə əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olur. Bunun təsiri ilə iqtisadiyyatın inkişafı intensivləşir. Bu daimi prosesdir və bu prosesdə həm istehsal alətləri inkişaf etdirilir, həm də insanın özünün biliyi, təcrübəsi artır.

Ağılı insana Tanrı tərəfindən təmənnasız verilsə də, o da diaklektikanın qanununa tabedir. Yəni o daim inkişaf etdirilməlidir. Onun inkişafı isə onu necə işlətməkdən asılıdır. İstehsalın digər amili olan istehsal vasitələrindən fərqli olaraq o işlədikcə nə fiziki, nə də mənəvi aşınmaya məruz qalmır. İnsan elmi öyrəndikcə həm təbiətin, həm də cəmiyyətin ümumi iqtisadi qanunauyğunluqlarını dərk edir və onların tələblərinə vaxtında əməl edir. Bu isə iqtisadiyyatın inkişafını şərtləndirən əsas amildir.

İnsan ağlını işlətməklə sağlam mənəviyyatını formalaşdırmaq yalnız insanın özündən asılı deyil. Ona ətraf mühit, şərait, iqtisadi sistem çox böyük təsir göstərir. İnsanların ağıl və iradə səviyyələri müxtəlif olduğundan iqtisadi sistem sağlam mənəviyyatın formalaşmasında hamıya eyni dərəcədə təsir göstərmir. Bu onunla əlaqədardır ki, dərin ağıllı, möhkəm iradəli, dözümlü və sağlam əqidəli insanları şərait və iqtisadi sistem sındıra bilməz. Lakin bütün dövrlərdə

və cəmiyyətlərdə belə adamların sayı çox az olur. İnsanların əksəriyyəti isə şəraitə uyğunlaşmağa meyllidir.

Sağlam mənəviyyata aşağıdakı tərifi vermək olar: «İnsanın hər hansı orqanının tələbləri əsasında deyil, ağılın, şüurun, dərrakənin süzgərindən keçən və onun tam nəzarəti altında olan, ədalət prinsiplərinə əsaslanan, yalnız halal zəhmətlə yaşamağı özünə peşə seçmiş şüurlu insan fəaliyyətinə sağlam mənəviyyat deyilir».

İnsan çox böyük və ecazkar qüvvəyə malik bir varlıqdır. Onun gücündən tam istifadə etməyə şərait yaradılarsa, xaruqələr yarada bilər. Müasir sənayecə inkişaf etmiş bazar iqtisadi sistemində yaşayan dövlətlərin iqtisadi inkişafının yüksək olması buna misal ola bilər. İnsanların var gücü ilə fəaliyyət göstərməsinə şərait yaradan iqtisadi sistemi mütərəqqi sistem saymaq olar. Bazar iqtisadi sistemi bu cəhətdən bütün iqtisadi sistemlərdən üstündür.

Milli mənəviyyatın formalaşmasına kapitalizm və sosializmin sovet modeli  iqtisadi sistemləri fərqli təsir göstərmişdir, daha doğrusu kapitalizm sağlam milli mənəviyyatın formalaşmasına əlverişli şərait yaratdığından yaxşı təsir göstərdiyi halda sosializmin sovet modeli insanın mənəviyyatının yoxsullaşmasına səbəb olmuşdur. Bu, hər şeydən əvvəl istehsal vasitələri üzərində mülkiyyətin yaranması və inkişafı ilə əlaqədardır.

Əgər bazar iqtisadiyyatının əsası olan azad sahibkarlıq fəaliyyəti və onun subyektləri olan sahibkarların əmlakı, istehsal vasitələri, pul vəsaiti öz əməyi, istedadı və qabiliyyəti sayəsində yaranır, sonralar bu daha da çoxaldılırsa inzibati-amirlik sistemində isə dövlət sahibkarların xüsusi mülkiyyəti olan müəssisələri zorla müsadirə edərək öz müvəkkili olan müəssisə rəhbərlərinə havayı, pulsuz verir və onlara müəssisəni idarə etmək tapşırılır. Sahibkar istehsal vasitələrinin əsil mülkiyyətçisi olduğuna görə istehsalın nəticəsi olan məhsulu da o mənimsəyir. Sosializm sistemində isə istehsal vasitələri dövlətin mülkiyyətində olduğuna görə

istehsalın nəticəsini müəssisənin rəhbəri deyil, dövlət mənimsəyir. Sahibkarın əsasən məqsədi mənfəət əldə etmək olduğuna görə istehsalın yaxşı təşkil olunması, inkişafı, daha çox keyfiyyətli, həm də minumum məsrəflə maksimum gəlir götürməkdə maddi marağı olur. Bunun üçün xammaldan qənaətlə istifadə etmək, istehsal vasitələrinin saxlanmasına, qorunmasına, onun təzələnməsinə xüsusi fikir verməyi, yeni texnikanın tətbiqində gecikməməyi, işçilərə qayğı göstərməyi tələb edir. Həm də sahibkar əmlakın əldə edilməsinin çətinliklərini yaxşı dərk edir, onu qazanmaqdansa qoruyub saxlamağın asan olduğunu bildiyinə görə israfçılığa, laqeydliyə, məsuliyyətsizliyə, tənbəlliyə aparıb çıxaracaq halların vaxtında qarşısını alır və müvafiq vasitələrlə aradan qaldırır. Sosializm sistemində müəssisənin rəhbərinin isə istehsalın nəticəsi ilə maddi marağı olmadığına və istehsal vasitələrinin əldə edilməsində heç bir zəhmət çəkmədən havayı onun sərəncamına verildiyinə görə ondan səmərəli istifadə etməyin, yaxşı qoruyub saxlanmasının qayğısına qalmır.

İnsan cəmiyyətinin inkişafının bütün mərhələlərində insanlar öz halal zəhmətləri ilə qazanılan sərvətlə havayı, asan yolla əldə edilən varidata fərqli münasibət bəsləmişlər, birinciyə qayğı, qənaətçilik üstünlük təşkil etdiyi halda ikinciyə israfçılıq daha çox xarakterikdir. Bununla əlaqədar olaraq Aristotel demişdir: «İnsanlar özünün olan şeylərə daha çox qayğı göstərirlər; ümumi olan şeylərə isə az qayğı göstərirlər, ya da hər bir adama aid olan dərəcədə qayğı göstərirlər. Bütün bunlarla yanaşı insanlar ev xidmətçilərinə etdikləri kimi başqasının göstərdiyi qayğıya saymaz yanaşırlar: xidmətçilər sayca çox olanda az olduğundan pis xidmət edirlər».[1]

Aristotelin göstərdiyi qanunauyğunluğu təkcə qədim dövrə aid etmək olmaz. Bu cəmiyyətin inkişafının bütün dövrlərində, eyni zamanda indi də fəaliyyət göstərir. Aristoteldən neçə əsr sonra Nəsirəddin Tusinin ona oxşayan

---

[1] Aristotel – Politika. "Bakı Universiteti" nəşriyyatı. 1997, səh. 56.

fikir söylənməsi və sovet imperiyası dövründə ümumi mülkiyyətin səmərəsizliyi bunu sübut etdi. Nəsirəddin Tusi demişdir: «…bəziləri var ki, onların "səxavəti" israfçılıq, var-dövlətinin qədrini bilməmək nəticəsində olar, sonuncu hal əksərən ya hazır mirasa yiyələnmiş, ya öz əməyi ilə pul qazanmamış, dövlət yığmağın çətinliyinin ləzətini dadmamış adamlarda özünü biruzə verər, o da məlumdur ki, dövlət quşunun gələn yeri dar olar, çıxan yeri gen!

Filosoflar bu mənanı məcazi olaraq, sıldırım dağa ağır daş çıxaran və oradan onu aşağı atan adam misalında istifadə etmişlər, çünki pul qazanmaq çətinliklə ağır daşı dağın başına çıxarmaq, xərcləmək asanlıqla həmin daşı üzü aşağı dığırlatmaq kimi bir şeydir. Yaşamaq, güzəran keçirmək üçün isə mal toplamağa böyük ehtiyac vardır, hikmət və fəzilət namuslu peşə ilə mal toplamağın əleyhinə deyildir».[1]

Beləliklə, bazar iqtisadi sistemi sahibkarda maddi maraq, qənaətçilik, məsuliyyət, bütün problemləri ədalətlə həll etmək, işçiyə qarşı qayğıkeşlik kimi müsbət mənəvi və əxlaqi keyfiyyətlərin formalaşması üçün şərait yaratdığı halda sosializm sistemi isə əksinə, ədalətsizlik, israfçılıq, oğurluq, məsuliyyətsizlik, tənbəllik və s. kimi mənfi keyfiyyətlər formalaşdırır.

Rəqabət əmtəə istehsalı ilə əlaqədar olaraq fəaliyyət göstərən iqtisadi qanunlardan biridir. Milli mənəviyyatın formalaşmasında bu qanunun mühüm rolu vardır. Belə ki, sahibkar təkcə daha çox mənfəət götürmək naminə mövcud imkanlardan daha yaxşı istifadə etmək üçün deyil, həm də rəqabətdə məğlub olmamaq, müflisləşmək qorxusu onu əmtəənin fərdi dəyərini ictimai dəyərdən aşağı salmağa sövq edir, bu isə əmək məhsuldarlığını yüksəltmədən mümkün deyil. Buna nail olmaq üçün, texnikanın son nailiyyətlərini istehsala vaxtında tətbiq etməyə, bu isə sahibkara biliyini, təcrübəsini artırmağa, istehsalın təşkilinin yeni, mütərəqqi metodlarını öyrənməyi, onları öz müəssisəsində tətbiq etməyə

[1] Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı,1989, səh.193.

məcbur edir. Deməli, bu sistem sahibkarı təşəbbüskar, yenilikçi, yeni, daha əlverişli bazar axtarıb tapmağa, daha ucuz başa gələn xammal mənbələri aşkar etməyə, daimi biliyini, təcrübəsini artırmağa şərait yaradır və tələb edir. Bu kimi mənəvi keyfiyyətlər iqtisadiyyatın inkişafında əsas amillərdəndir. İnzibati-amirlik sistemi isə bütün istehsal vasitələri dövlətin inhisarında olduğundan rəqabət qanununun fəaliyyəti üçün şərait olmadığına görə müəssisə rəhbərlərində süstlük, ələbaxımlıq, passivlik, mühafizakarlıq, ixtisasını yaxşı bilməmək, buna görə də qorxaqlıq kimi mənfi keyfiyyətlər formalaşdırmışdır.

Bazar iqtisadi sistemində rəqabət qanunu nəinki sahibkarlarda müsbət mənəvi keyfiyyətlərin formalaşmasına, eyni zamanda işçilərin də öz ixtisasını artırmağa, işdə məsuliyyətli, dəqiq olmağa, vicdanla işləməyə, əmək intizamını gözləməyə sövq etmişdir. İşçilər təcrübədə görürlər ki, yaxşı işçiyə böyük hörmət, qayğı və ehtiram var, işləmək üçün hər cür normal şərait yaradılır, aldığı əmək haqqı özünün və ailəsinin orta və daha yüksək səviyyədə yaşamasını təmin edir. Bunun əksinə, məsuliyyətsiz, ixtisasını bilməyən, qayda-qanunlara əməl etməyənləri isə işsizlik gözləyir. Yaxşı mütəxəsislərə sahibkarların ədalətli, humanist, qayğıkeş münasibətləri işçilərdə halallıq, düzlük, dəqiqlik, ədalətli olmaq kimi keyfiyyətlər aşılayır. Sosializm sistemində fəhlələr arasında da iş yeri uğrunda rəqabət olmamışdır. Doğrudur, bu sistemdə formal olaraq işsizlik mövcud deyildi, əslində gizli işsizlik var idi. Çünki əmək qabiliyyətli əhalinin əksəriyyətinin əmək haqqı son dərəcə aşağı olduğuna görə dövlət əmlakının oğurlanması geniş yayılmışdır. Ona görə də əhali arasında halal əməklə dolanmağın qeyri-mümkünlüyü psixologiyası formalaşmışdı. Beləliklə, vəzifəli adamların arasında rüşvətxorluq, rüşvət almağa imkanı olmayan şəxslər arasında isə dövlət əmlakının oğurlanması geniş yayılmışdır. Bu sistemdə yaxşı və ya pis işləməsindən asılı olmyaraq eyni vəzifədə işləyən adamlara eyni miqdarda əmək haqqı

verilməsi vətəndaşlarda tənbəllik, oğurluq kimi iqtisadiyyatın inkişafına mənfi təsir göstərən xoşagəlməz mənəvi şikəstlik formalaşdırmışdır.

Məlumdur ki, əmək məhsuldarlığının yüksəldilməsinə təsir göstərən əsas amillərdən biri əmək alətlərinin və vasitələrinin, texnologiyanın inkişaf səviyyəsidir. Elmi-texniki tərəqqinin, xüsusilə elmi-texniki inqilabın indiki şəraitində elmin və texnikanın nailiyyətlərini istehsala vaxtında tətbiq etmək əmək məhsuldarlığının yüksəldilməsində mühüm rol oynayır. Buna görə də həm üstəlik mənfəət əldə etmək naminə, həm də rəqabətdə məğlub olmaq qorxusu sahibkarları var gücləri ilə texnikanın ən yeni nailiyyətlərini istehsala tətbiq etməyə sövq edir.

İnzibati-amirlik sistemində iqtisadiyyatın inkişafında mühüm rol oynayan bu qanunauyğunluq pozulmuşdur. Ona görə ki, bu sistemdə müəssisənin rəhbəri üçün əsas göstərici planı vaxtında yerinə yetirmək olmuşdur. Onların fikrincə, elmdə, texnikada baş verən yenilikləri istehsala tətbiq etmək dövlətin işi olmalıdır. O, öz vəzifəsini yuxarıların göstərişlərini yerinə yetirməklə bitmiş hesab etmişdir. Lakin dövlət istəsə belə, bütün müəssisələrə dəqiq rəhbərlik etmək iqtidarında deyildi.

Sosializmin sovet modeli sistemində müəssisənin rəhbərinin elmi və texniki yenilikləri vaxtında istehsala tətbiq etmək istəməməsi təkcə maddi marağın olmaması ilə əlaqədar deyildi, eyni zamanda bu hal sistemin mahiyyətindən irəli gəlirdi. Çünki yeniliklərin istehsala tətbiqi əlavə məsrəflərlə əlaqədardır. Əlavə əmək və vəsait qısa müddətdə nəticə verə bilmədiyinə görə planın yerinə yetirilməməsi ilə nəticələnə bilərdi. Buna görə də müəssisə rəhbərləri elmin, texnikanın yeniliklərini istehsala tətbiq etməkdən imkan daxilində uzaqlaşmağa çalışmışlar. Məhz sabiq SSRİ-də əmək məhsuldarlığının inkişaf etmiş bazar iqtisadi sistemi ölkələrindən aşağı olmasına bu amil böyük təsir göstərmişdir.

**Müasir elmi-texniki inqilabın xüsusiyyəti ondan ibarətdir ki, əvvəlki dövrlərə nisbətən elmdə, texnikada kəşflər daha tez-tez baş verir. Yeniliklərin istehsala tətbiqində ləngimək iqtisadiyyatın inkişafını ləngitmək deməkdir. Çünki indiki dövr üçün istehsal fondlarının fiziki aşınmaya nisbətən mənəvi aşınmaya daha çox məruz qalması xarakterikdir. Bunun yeganə çıxış yolu əsas istehsal fondlarının təzələnmə vaxtını qısaltmaqdır. Bu cəhətdən də sabiq SSRİ klassik bazar iqtisadi sistemi ölkələrindən çox geri qalmışdır. Bu bütün vəsaitlərin dövlətin inhisarında olması ilə əlaqədar idi. Deməli, elm və texniki nailiyyətlərin istehsala tətbiqinin ləngidilməsi əmək məhsuldarlığının nəinki sabit qalması, hətta aşağı düşməsinə səbəb olmuşdur. Bunun özü isə əmək haqqının aşağı olması ilə nəticələnmişdər. Çünki əmək haqqının əsası əmək məhsuldarlığıdır. Əmək məhsuldarlığını yüksəltmədən əmək haqqını artırmaq olmaz. Həm də əmək məhsuldarlığının yüksəldilməsi əmək haqqının artırılmasını qabaqlamalıdır.**

**Beləliklə, sabiq SSRİ-nin təbiətindən irəli gələn elmin, texnikanın, istehsalın təşkilinin və idarə edilməsində dünya miqyasında baş verən mütərəqqi nailiyyətlərin istehsala vaxtında tətbiq edilməməsi əmək məhsuldarlığının aşağı düşməsi, bunun özü isə iqtisadiyyatın inkişafını ləngitmişdir. İqtisadiyyatın tənəzzülə uğraması isə milli mənəviyyatın böhrana düçar olmasına kömək etmişdir. Çünki sağlam mənəviyyat iqtisadiyyatın inkişafında mühüm rol oynadığı kimi iqtisadiyyatın inkişafı da sağlam milli mənəviyyatın formalaşmasına böyük təsir göstərir, bunlar bir-birilə qarşılıqlı əlaqədədir və biri digərini şərtləndirir, bir-birini zənginləşdirir.**

**Sağlam mənəviyyatın komponentlərindən biri halallıqdır. Yalan danışmaq, saxtakarlıq, yaltaqlıq halallığa zidd olan keyfiyyətlərdir. İnsanlarda bu keyfiyyətlərinin formalaşmasına iqtisadi sistemlər müxtəlif səviyyədə təsir göstərmişdir. Belə ki, bazar iqtisadiyyatı ölkələrində kütləvi**

şəkildə və bütün səviyyələrdə yalan danışmaq, saxta məlumatlar vermək üçün zərurət olmadığına görə bu kimi mənəvi qüsurlara çox az hallarda rast gəlinir. Bu sahədə Yaponiya daha çox fərqlənir. Dünya bazarında bir çox sahələr üzrə rəqabətdə Yaponiyaya uduzan Avropa dövlətləri və ABŞ belə sürətli inkişafın sirrlərini öyrənmək üçün Yaponiyaya müxtəlif mütəxəssislər göndərmişlər. Onlar müəyyən etmişlər ki, bunun sirri təkcə yüksək məhsuldarlığa malik olan texnikanın tətbiqi deyil. Çünki Avropa dövlətlərinin və ABŞ-ın texnika və texnologiyası heç də Yaponiyadan geri qalmır. Əsas səbəb sahibkarların işçilərə yüksək səviyyədə qayğı göstərməsi, menecerlərin, sahibkarların bütün problemləri ədalətlə həll etmələri, onlarla mehriban, qayğıkeş, səmimi münasibətdə olmalarıdır. Belə şəraitin mövcud olması işçini var gücü ilə işləməyə həvəsləndirir, işçi müəssisəyə, onun müvəffəqiyyətinə özününkü kimi baxır. Çünki işçilər təcrübədə görürlər ki, onların yaxşı, firavan, təhlükəsiz, azad, sərbəst yaşamaları müəssisənin gəlirlə işləməsi ilə düz mütənasibdir.

Bazar iqtisadi sistemində sahibkarlar, menecerlər işçilərə ona görə belə qayğı göstərir və hörmət edirlər ki, onlar bu səviyyəyə öz ağılı, şüuru, dərrakəsi və qabiliyyəti sayəsində çatmışlar. Onlar sahibkar olana qədər saysız-hesabsız rəqabət mübarizəsində iştirak etmiş, özünün yüksək qabiliyyti sayəsində mübarizədə qalib gəlmişlər. Bu sistemdə yalnız yüksək mənəviyyata və əxlaqa sahib olan subyektlər sahibkar ola bilərlər. Bu cür adamlar həm keçmişin bütün müsbət cəhətlərini, həm də müasir dövrün yeniliklərini özündə cəmləşdirə bilirlər. Onlar dərk edirlər ki, həm təbiətdən, həm də cəmiyyətdən zorakılıqla, diktatorluqla, zülmlə gəlir əldə etmək olmaz. Məsələn, torpağa qayğı göstərməsən, onun istədiyini verməsən, inəyi yaxşı yemləməsən, bitkini alaq otlarından vaxtında təmizləməsən, vaxtında su verməsən və s. xidmətlər göstərilmədikdə istənilən qədər məhsul götürmək mümkün olmadığı kimi insana da

**qayğı və hörmət göstərmədən, yaxşı işləmək üçün ona əlverişli şərait yaratmadan gəlir götürmək mümkün deyil. Bunu da nəzərə alsaq ki, insan ən yüksək şüura, ağıla, ecazkar gücə malik canlıdır. Bu zaman bütün canlılara, o cümlədən insanlara qayğı göstərilməsinin böyük əhəmiyyətə malik olması aydın olar. Deməli,insanla humanist davranmaq, ona hər cür qayğı göstərmək başqa canlılardan daha çox vacibdir. Məhz sahibkarlar əsasən yüksək mənəviyyata malik olduqlarına görə, yəni halal zəhmətlə var-dövlət qazandıqları üçün əməkçilərin qədrini, qiymətini bilirlər. Onlara insani münasibət bəsləməklə həm onların həyat səviyyəsini yüksəldir, həm də özü mənfəət götürür. Bütün dövrlər üçün insanlara humanist münasibət ümumi qanunauyğunluqdur. Ağıllı adamlar həmişə bu yolu seçirlər. Çünki insan istəklərinə, qarşılarına qoyduqları məqsədlərə yalnız bu yolla nail olmuşlar. Mənəviyyatsız – ağılsız, ədalətsiz, halal yolla pul qazana bilməyənlər, savadsız rəhbərlər diktator olurlar. Onların da hamısının sonluğu faciə ilə qurtarmışdır. Nəsirəddin Tusi demişdir: «Elə ki, qulluqçu seçmək müyəssər oldu, ona bacardığı bir peşə tapşırmalı, kifayət qədər işlə təmin etməli, bir sənətdən başqa sənətə, bir işdən başqa işə keçirməməli, əksinə, onun təbiətinə yatan, həvəsini artıran, yaxşı bacardığı bir peşədə saxlamaq lazımdır, çünki hər bir təbiətin müəyyən sənətə meyli daha çox olar. Bu qanunu pozanlar öküzü minib atı cütə qoşanlara oxşayar.**

**Qulluqçuların ürəklərində inam oyatmaq lazımdır ki, bura onların həmişəlik yeridir, başqa yerə getmələrinə heç bir səbəb və ehtiyac olmayacaqdır. Bu, həm insaf və mürüvvət qanununa düz gəlir, həm də kəramət və ədalət yerinə yetirilir, həm də xidmətçilər arxayın olub məhəbbətləri artar, işə can yandırarlar. Xidmətçilər yalnız o zaman ürəklə işləyirlər ki, özlərini iş sahibinə şərik bilib, qovulmaq, vəzifədən kənar edilməkdən qorxmasınlar. Sahibinin etibarsız, sözünün üstündə duran olmadığını və balaca bir günah üstündə**

özünün qovulacağını qət etmiş adam həmin xidmətdə müvəqqəti olduğu qərarına gələr, onun vəziyyəti səyyahların vəziyyətinə oxşayır, nə iş fikirləşər, nə sahibinə hörmət bəsləyər, bəlkə dar günü üçün ehtiyat toplamaq, var-dövlət yığmaqla məşğul olar.

Xidmətçiliyin ən böyük şərti ondan ibarətdir ki, qulluqçu məcburiyyətə görə yox, məhəbbətə görə, qorxuya görə deyil, ünsiyyətə əsasən işləsin, sayanın qulu olsun, saymayanın nökəri olmasın. Qulluqçuların haqqlarını verməkdə səhlənkarlıq göstərməməli, yemək, içmək, geymək məsələsində isə xüsusilə qayğıkeş olmalı, mayehtac cəhətdən onları özündən qabağa salmalıdır. Rahatlıqlarını elə təmin etməlidir ki, tapşırılan işi fikir qəm içində deyil, şadlıq və sevinclə yerinə yetirsinlər».[1]

İnzibati-amirlik sistemində isə insanların azad iqtisadi fəaliyyəti əlindən alınmış, halal zəhmətlə yaşamaq imkanları məhdudlaşdırılmışdır. Bu sistem insanların mənəviyyatını yoxsullaşdırmaqda müxtəlif metodlardan istifadə etmişdir. Bunlardan biri də tikinti və təmir işlərinin təşkili məsələsi idi. Məlumdur ki, yaşayış olan yerdə mənzil, yardımçı binaların tikintisi və təmiri zəruridir. İnzibati-amirlik sistemində bazar mexanizmi vasitəsilə bunu təşkil etmək mümkün deyildi. Deməli, bu vəzifəni dövlət həyata keçirməli idi. Lakin dövlət bu problemi də həll etməmişdir. Belə ki, pərakəndə satışda tikinti və təmir üçün materiallar olmamışdır. Buna görə də əhali ona lazım olan materialları oğurluq yolu ilə müəssisələrin rəhbərlərindən satın almışlar. Bu vəziyyət bir tərəfdən dövlət əmlakının talanmasına, digər tərəfdən isə əhalini oğurluğa adət etməyi öyrətmişdir. Bundan başqa inzibati orqanlara rüşvət almaq mənbəyi və istənilən adamı həbs etməyə imkan vermişdir. Buna görə də vətəndaşlar həmişə qorxu altında yaşamış, dövlət orqanları qarşısında gözü gölkəli, asılı vəziyyətdə olmuşlar. Beləliklə, əhalinin

[1] Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, 1989, səh. 170.

bütün təbəqələri rüşvət alıb verən, oğurluq edən, qorxaq cəmiyyətə çevrilmişdir.

İnzibati-amirlik iqtisadi sistemində nəinki insanların iqtisadi fəaliyyəti, söz, mətbuat azadlığı, həm də bütün sahələrdə əhalinin azadlığı tamamilə əlindən alınmışdır. Məsələn, ev tikmək, ev, minik maşını alıb-satmaq, hətta vəzifəli şəxslərin, müəllimlərin övladlarının universitetin hüquq fakultəsinə daxil olması qərarla olmasa da respublikanın rəhbərliyi tərəfindən rüşvətin qarşısını almaq pərdəsi altında qadağan olunmuşdur. Məsələyə diqqətlə baxanda həmin tədbirin görülməsi nəinki rüşvətxorluğu azaltmış, əksinə, onu daha da artırmış, eyni zamanda rüşvəti bahalaşdırmışdır. Bunun insanın mənəviyyatına mənfi təsiri ondan ibarət oldu ki, saxtakarlıq, rüşvətxorluq, riyakarlıq, ikiüzlülük və başqa rəzilətlər daha da artmışdır.

Sovet sistemi bir tərəfdən istehsalın səmərəliliyini təşkil edə bilməmiş, nəticədə mal defisitliyi yaranmış, proletariat diktaturası vasitəsilə tələbatın ödənilməsini boğmuşdur, sabiq SSRİ əhalini dünya kapitalist sistemindən təcrid etməklə onları dünyada baş verən yeniliklərdən bixəbər etmişdir, digər tərəfdən kapitalizmi tənqid edərək onu gözdən salmışdır, söz, mətbuat azadlığı olmadığına görə əhalini kapitalizm cəmiyyətində sosializmə nisbətən pis dolandıqlarına inandırmışdır. Lakin bu sistem dağıldıqdan sonra bunun hamısının əksinə olduğu aşkar oldu.

Sovet sistemi proletariat diktaturası vasitəsilə əhalinin minimum tələbatını öz nəzarəti altında saxlayırdı və onun artmasına imkan vermirdi, bunu hüquqi qanunlar vasitəsilə tənzimləyirdi. Bu sistem dağıldıqdan sonra Azərbaycan bazar iqtisadi sisteminə keçməyi öz qarşısına strateji məqsəd qoydu, bu sistem iqtisadi fəaliyyət azadlığı ilə barəbar demokratik dəyərlərin yaranmasına imkan verdi. Lakin sovet sistemində yaşamış insanlar sənayeni dünya standartı səviyyəsində inkişaf etdirmədən tələbatlarının dünya səviyyəsində

**ödənilməsi iddiasına düşdülər. Bununla də sənayenin inkişafı və tələbatın ödənilməsi arasında olan proporsiya pozuldu.**

**Nəzərə almaq lazımdır ki, sağlam mənəviyyatlı insanlar da aşağı, orta və yuxarı təbəqələrə bölünürlər. Birinci iki təbəqə keçid dövrünün çətinliklərinə müəyyən həddə qədər dözə bilirlər. Bu müxalifətin timsalında aydın görünür. Bunların çoxu demokratik cəmiyyətin qurulması uğrunda mübarizədə axıra qədər dözə bilmədilər. Belə ki, müxalifət düşərgəsində fəaliyyət göstərənlərin xeyli hissəsi müəyyən imtiyazlar, vəzifələr, titullar almaq naminə iqtidarın tərəfinə keçdilər. İdmanda da belədir. Yarımfinala və finala texniki, fiziki və psixoloji cəhətdən ən güclü olanlar çıxırlar. Lakin millətin mənəviyyatının leformasiyaya uğraması keçici xarakter daşıyır. Bu keçid dövrünün çətinlikləri ilə əlaqədardır. Bazar iqtisadi sistemi formalaşdıqca bu da aradan qalxacaq.**

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

**1. İqtisadi sistemin tərifini deyin və onu səciyyələndirin.**
**2. İqtisadi sistemlərin formaları hansılardır?**
**3. İnzibati-amirlik iqtisadi sisteminin tərifini deyin və onun mənfi cəhətləri haqqında danışın.**
**4. Qarışıq və ənənəvi iqtisadi sistemin səciyyəvi cəhətlərini söyləyin. Hazırda Azərbaycan hansı iqtisadi sistemdə yaşayır?**
**5. mülkiyyətin bir iqtisadi anlayış (kateqoriya) kimi mahiyyəti nədən ibartədir?**
**6. Mülkiyyətin obyektləri və subyektlərini göstərin.**
**7. Mülkiyyətin formalarını sayın və hər birini ayrılıqda səciyyələndirin.**
**8. Sahibkarların möhtəkirlərdən və menecerlərdən fərqi nədir?**
**9. Sahibkarların bazara yeni və ya xidmət növü çıxartmaq qabiliyyəti olmasını izah edin.**

**10. Yeni texnologiyanın tətbiq edilməsində sahibkarların nə kimi rolu var?**

**11. Kiçik sahibkarlığın üstünlüklərini təhlil edin və onun formalaşmasının zəruriliyini əsaslandır.**

**12. Sağlam milli mənəviyyatın tərifini deyin və sosializmin sovet modelinin mənəviyyatın deformasiyaya uğramasında rolunu şərh edin.**

## Müzakirə üçün suallar və tapşırıqlar

**1. Bazar iqtisadi sisteminin iki mərhələsini ayrılıqda səciyyələndirin və onların ümümi və fərqli cəhətlərini şərh edin.**

**2. Bazar iqtisadi sistemi ilə inzibati-amirlik iqtisadi sistemlərini müqayisə edin, hansının nisbətən üstün olmasını göstərin.**

**3. Azad sahibkarlığın meydana gəlməsinin ilkin şərtləri hansılardır?**

**4. Azad sahibkarlığın üstünlüklərini sübut edin.**

**5. Sahibkarlığın mahiyyətini şərh edin.**

**6. Sahibkarların bəşəriyyətə maddi nemətlər bolluğu gətirən islahatçılığını nədə görürsünüz?**

**7. Kiçik sahibkarlığın hansı üstünlükləri vardır?**

**8. İstehsalın səmərəliliyinin yüksəldilməsinə kiçik sahibkarlar necə nail olurlar?**

**9. Sağlam mənəviyyatın formalaşmasına iqtisadi sistemlərin müxtəlif təsir göstərməsini danışın.**

# 7-ji MÖVZU: İJTİMAİ ƏMƏK BÖLGÜSÜNÜN İNKİŞAFININ AZƏRBAYJANIN MİLLİ BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSAS ŞƏRTİ KİMİ

## § 1. İjtimai əmək bölgüsü qanunun mahiyyəti, onun xarakterik xüsusiyyətləri və tələblərinin nəzərə alınmasının zəruriliyi

İctimai əmək bölgüsü ümumi iqtisadi qanunlardan biridir. Deməli, bu qanun bütün ictimai-iqtisadi formasiyalarda fəaliyyət göstərir. Lakin bu qanun məhsuldar qüvvələr inkişaf etdikcə o da inkişaf etmiş, fəaliyyət dairəsi genişlənmiş, formaları dəyişmiş və təkmilləşdirilmişdir. Bu onunla əlaqədardır ki, heç bir fərd, millət və dövlət özünə lazım olan maddi nemətlərin hamısını özü təkbaşına istehsal edə bilməz. Bu yalnız insanların birgə əmək fəaliyyəti ilə mümkün ola bilər. Birgə əmək fəaliyyəti o deməkdir ki, insanlar biri digəri üçün işləyir. Başqa sözlə, istehsal ictimai xarakter alır. Digər tərəfdən insanların tələbatı daim artır, artan tələbatı ödəmək üçün hökmən əmək alətlərini təkmiləşdirmək zərurətə çevrilir. Texniki tərəqqi də buradan başlayır. Bu prosesin dinamik inkişafı ictimai əmək bölgüsünün də təkmilləşdirilməsini və inkişafını tələb edir. Bunun özü isə texniki tərəqqiyə əlverişli şərait yaradır və onun inkişafına geniş meydan açır. Deməli, texniki tərəqqi ilə ictimai əmək bölgüsü qarşılıqlı əlaqə və vəhdətdədir və biri digərini şərtləndirir. Məqsəd isə ictimai istehsalın səmərəliliyini, yəni minimum əmək sərf etməklə maksimum gəlir əldə etməkdir.

İlk əmək bölgüsü təbii əmək bölgüsüdür: yeniyetmələrlə uşaqlar, kişilərlə qadınlar arasında əmək bölgüsü bu qabildəndir. Əmək bölgüsünün bu forması ibtidai icma cəmiyyətinin birinci, yəni insanların təbiətin

hazır verdiyi məhsullarla qidalanması dövrünə aiddir. Məhsuldar qüvvələrin təkamül inkişafı ictimai əmək bölgüsünü yaratmışdır. İctiami əmək bölgüsü nədir? İctimai əmək bölgüsü – işçilərin bir məhsul və ya məhsulun bir hissəsini istehsal etmək üçün ixtisaslaşmasıdır.

İbtidai icma cəmiyyətinin ikinci mərhələsində (təbiətin hazır məhsulu ilə qidalanmadan istehsal mərhələsinə keçmək) ibtidai əkinçiliklə yanaşı maldarlıq da yaranır. Maldarlığın inkişafı üçün əlverişli ərazilərdə maldarlıq daha çox inkişaf edir və əsas əmək fəaliyyətinə çevrilir. Bir çox qəbilələr əkinçilikdən maldarlığa keçirlər. Beləliklə, maldarlıq müstəqil təsərrüfat sahəsi kimi əkinçilikdən ayrılır. Maldar tayfaların əkinçilikdən ayrılması birinci iri ictiami əmək bölgüsü sayılır.

İctimai əmək bölgüsünün meydana gəlməsi və izafi məhsulun yaranması qəbilələr və tayfalar arasında məhsul mübadiləsi zərurəti və imkanı yaradır. Əmək alətlərinin təkmilləşdirilməsi və yayılması (metal əmək alətlərinə keçid) silahın, qab-qacaqların, metaldan hazırlanmış ziynət şeylərinin, əl ilə hərəkətə gətirilən toxucu dəzgahlarının kəşfi, parça və geyim əşyalarının istehsalı əməyin sonrakı ixtisaslaşmasını doğurur. Bu proses icmalarda müəyyən adamların sənətkarlıqla məşğul olmasına şərait və imkan yaradır. İcmalarda sənətkarlığın formalaşması və sənətkarlıq sahələrinin meydana gəlməsi ikinci iri ictimai əmək bölgüsünü yaradır.

Sənətkarlığın əkinçilik təsərrüfatından ayrılması mübadilənin təsadüfi xarakterindən daimi məhsul mübadiləsinə çevirir. Beləliklə, məhsullar artıq şəxsi istehlak üçün deyil, mübadilə üçün istehsal edilir. Bunun nəticəsində əmtəə mübadiləsi, əmtəə istehsalı münasibətləri yaranır. Əmtəə istehsalı tədriclə inkişaf edir

və buna görə də əmtəə mübadiləsi çətinləşir. Bu zaman əmtəə mübadiləsi ilə məşğul olan xüsusi qrup adamlar – tacirlər məşğul olur. Tacirlərin bir sinifi kimi formalaşması üçüncü iri ictimai bölgüsünü yaradır.

Mübadilənin vaxtaşırı həyata keçirilməsi, üç iri ictimai əmək bölogüsünün yaranması, istehsal vasitələrinin təkmilləşdirilməsi, pul rentasının yaranması, tacirlərin və ticarət kapitalının meydana gəlməsi natural təsərrüfatın süqutunu sürətləndirir, bu təsərrüfat forması dağılmağa başlayır, əmtəə pul münasibətləri inkişaf edərək özünün hökmranlığını təmin edir və bunun əsasında bazar iqtisadi sistemi formalaşır. Əmtəə təsərrüfatı natural təsərrüfatdan daha mütərəqqi olduğundan məhsuldar qüvvələrin inkişafına geniş meydan açır və bazar iqtisadi sisteminin maddi-texniki bazası olan maşınlı sənayenin yaranması və inkişafını sürətləndirir.

Əmək bölgüsü ilə mülkiyyət münasibətləri qarşılıqlı əlaqədə olan proseslərdir. Bu baxımdan əmək bölgüsü istehsalın ictiami halıdır, ictimai təşkili formasıdır. Əmək bölgüsü və mülkiyyət həm də istehsalın bütün, formalarını birləşdirən bir mexanizimdir.

Əmək bölgüsü ilə əmtəə istehsalı arasındakı əlaqənin yaranmasında ayrı-ayrı fərdlərin və bütövlükdə cəmiyyətin müxtəlif cürə tələbatları da mühüm rola malik olmuşdur. Bu, müəyyən dərəcədə resurslar problemi ilə bağlıdır. Resurslar məhdud olduğundan onlardan səmərəli istifadə etmək zərurəti meydana çıxır, əmək bölgüsü isə buna təminat verən vasitələrdən biridir.

Əmək bölgüsü tarixən əmək alətlərinin düzəldilməsi, tələbatın formalaşması və digər amillərdən asılı olaraq meydana gəlmiş və getdikcə təkmilləşmişdir. Müxtəlif və əvvəlkinə nisbətən daha mükəmməl alətlərin meydana gəlməsinin özü də əmək bölgüsünün nəticəsidir.

İctimai əmək bölgüsü müxtəlif istehlak şeyləri yaradan insanların xüsusi növ fəaliyyətinin məcmusundan ibarətdir. Bir qrup insanlar müəyyən növ istehsalla məşğul olaraq başqa qrup insanların maddi nemətlərə olan tələbatını ödəyir. Özləri isə digər növ istehsalla məşğul olan insanların əməyinin nəticələrindən istifadə edirlər. Ona görə də bu müxtəlif növ istehsal sahələrində fəaliyyət göstərən insanlar arasında daim fəaliyyət mübadiləsi baş verir. Fəaliyyət mübadiləsi birinci növbədə öz fəaliyyətlərinin nəticəsi olan məhsul mübadiləsində təzahür edir. Lakin fəaliyyət mübadiləsi ancaq məhsulların, əmtəələrin mübadiləsi ilə məhdudlaşmır. O, eyni zamanda fiziki və zehni əmək təcrübə və bilik mübadiləsi formasında da təzahür edir. Elmi-texniki inqilabın baş verdiyi indiki dövrdə istehsalın amilləri sistemində insan amilinin, «İnsan kapitalının» rolunun artdığı şəraitdə elm məhsuldar qüvvəyə çevrilmişdir. Ona görə də elm, təhsil sahəsində fəaliyyət mübadiləsinin rolu əvvəlki dövrlərə nisbətən qat-qat artmışdır.

Beləliklə, ictimai əmək bölgüsü istehsal prosesində insanlar arasında münasibətləri ifadə etdiyindən, onların əmək fəaliyyətlərinin əmtəə formasında mübadilə edilməsini şərtləndirdiyindən, o həm də ictimai istehsal münasibətidir. Buna görə də ictimai əmək bölgüsünün mahiyyətini bilmək, dərk etmək və onun tələbələrinə uyğun fəaliyyət göstərmək çox vacibdir.

Əmək bölgüsü, bütün iqtisadi sistemlərdə ümumi və spesifik cəhətlərə malikdir. Əmək bölgüsündə bütün iqtisadi sistemlər üçün ümumi cəhət – maddi-texniki amillərlə əməyin təmasıdır, bu əlamətə görə insanlar arasında münasibətlər də hər bir iqtisadi sistemdə spesifik olur. Bu qanun cəmiyyətdəki əmək bölgüsünün

daxili təbiətindən, peşə fəaliyyətinin mahiyyətindən irəli gələn əsas və zəruri əmək münasibətlərini ifadə edir.

İctimai əmək bölgüsü qanununun fəaliyyəti bütün iqtisadi sistemlərdə mövcuddur. Lakin hər bir konkret iqtisadi sistemdə bu qanunun mahiyyəti yox, fəaliyyətinin xarakteri dəyişir, məzmunu zənginləşir. Bu onunla izah olunur ki, ictimai əmək bölgüsü qanunu bir iqtisadi sistemdən digərinə keçiddə nəinki yox olur, əksinə onun fəaliyyət dairəsi daha da genişlənir və yeni-yeni sahələri əhatə edir. Bu isə elmi-texniki tərəqqi ilə əlaqədardır.

Cəmiyyətin iqtisadi quruluşunu, onun sistemini dərindən dərk etmək üçün, ilk növbədə, əmək bölgüsü qanununu ətraflı öyrənmək, cəmiyyətin müəyyən ictimai inkişaf mərhələsini, onun məhsuldar qüvvələrini, münasibətlər sistemini, iqtisadi idarəetmə strukturlarını hərtərəfli təhlil etmək və cəmiyyətin inkişafının ümumi qanunauyğuluqlarını öyrənmək lazımdır.

İctimai əmək bölgüsünün ümumi cəhətləri ilə yanaşı cəmiyyətin inkişafının hər bir mərhələsinə uyğun spesifik cəhətlərdə meydana çıxır. İctimai əmək bölgüsü qanuna da ümumi iqtisadi qanun olması səbəbindən heç də mövcud iqtisadi sistemin spesifik iqtisadi qanunları içərisindən yox olmur və öz müstəqilliyini itirmir. Bununla belə bütövlükdə ictimai əmək bölgüsü qanunun fəaliyyəti hər bir cəmiyyətin inkişaf mərhələsində mövcud iqtisadi münasibətlərin tipi və mahiyyəti ilə müəyyən olunur və mövcud iqtisadi sistemə xas olan funksiyaları icra edir.

Bununla belə ictimai əmək bölgüsü qanunu ölkənin regionları arasında prosesləri, ölkələrarası iqtisadi əlaqə formalarını da əhatə edib geniş dairədə fəaliyyət göstərdiyi üçün ona yalnız formasiyalar üzrə fəaliyyət göstərən bir qanun kimi baxmaq düz deyil. Çünki o beynəlxalq əmək bölgüsünü də özündə birləşdirir. Beynəlxalq əmək bölgüsü müxtəlif sosial-iqtisadi

sistemləri olan ölkələr arasında baş verən mübadilə proseslərinin, ineqrasiya əlaqələrinin baş verməsinin də səbəbidir.

İctimai əmək bölgüsünün dərinləşməsi və inkişafı ilə istehsalın ixtisaslaşması düz müntənasibdir. Bunun özü isə istehsal prosesinin mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompleksləşdirilməsinin əsas şərtidir. Bu iqtisadi hadisə və proseslər olmadan nə əmək məhsuldarlığını yüksəltmək, nə də Azərbaycanın sağlam milli iqtisadiyyatını formalaşdırmaq mümkün olmaz. Deməli, ictimai istehsalın ixtisaslaşdırılması həmcins məhsulun geniş miqyasda, kütləvi surətdə istehsalının təşkili üçün zəruri şərtdir. Bu, istehsalı ən mütərəqqi, fasiləsiz axın metodu ilə təşkil etməyə imkan verir və eyni zamanda avadanlığın, maşınların, alətlərin ixtisaslaşması və təkmilləşməsi prosesi üçün stimul yaradır. Fasiləsiz axın istehsalı və avadanlığın ixtisaslaşdırılması da istehsalın kompleksli mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün əsas yaradır. İxtisaslaşmanın dərinləşməsi iqtisadi inkişafın xarakterik cəhətlərindən biridir. İxtisaslaşma həm bütün maddi nemətlər istehsalı sahələrində, həm də qeyri-istehsal sahələrində baş verir. Əgər ixtisaslaşma texnikanın əmək və istehsalın təşkili və inkişafı səviyyəsinə uyğun gəlmirsə, onda ictimai əmək bölgüsü qanununun fəaliyyəti üçün meydan yaranmır.

İctimai əmək bölgüsü cəmiyyətin inkişafında əvəzsiz və çoxcəhətli rola malikdir. Məhz bu qanunun fəaliyyəti və təsiri sayəsində bütövlükdə xalq təsərrüfatının, onun ayrı-ayrı sahələrinin quruluşu formalaşır, təkrar istehsal üçün şərait yaranır, milli bazarın tələbinin ödənilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi imkanları artır.

Beləliklə, ictimai əmək bölgüsü – istehsalın əsasları, şərtləri, momentlərinin ayrılmaz tərkib hissəsidir. Cəmiyyətin əsasını təşkil edən maddi nemətlər istehsalı

insanları birgə əmək fəaliyyətini, onların bir-biri ilə iqtisadi münasibətlərdə olmasını, əməklərini, fəaliyyətlərini qarşılıqlı surətdə əlaqələndirməyi, fəaliyyət mübadiləsini nəzərdə tutur. Qarşılıqlı fəaliyyət mübadiləsi şəraitində hər bir əmək növü nə qədər müstəqil şəkildə təzahür edirsə o bir o qədər başqa əmək növləri ilə bağlanır. Bunlar bir-birini mümkün edir, şərtləndirir. Mahiyyətcə əmək bölgüsü istehsalın orqanizmi, onun təşkilinin əsas formasıdır.

İctimai əmək bölgüsü ilə bütövlükdə iqtisadiyyatın strukturu arasında bilavasitə əlaqə mövcuddur. İctimai əmək bölgüsü və istehsalın strukturu nisbi müstəqilliyə malik olsa da, ictimai istehsalın strukturu nəticə etibarilə ictimai əmək bölgüsünün təsiri altında formalaşır və demək olar ki, onun nəticəsidir. Bilavasitə ictimai əməyin xalq təsrrüfatının sahələri üzrə (sənayeyə, kənd təsərrüfatına, fikintiyə, ticarətə, rabitəyə və s.) bölgüsü, habelə hər bir sahənin özünün daxili sahələrinə (sənayenin ağır sənayeyə və yüngül sənayeyə) bölünməsi, öz növbəsində bölünmüş bu sahələrin (məsələn, ağır sənayenin öz daxili sahələrinə, yüngül sənayenin də öz daxili sahələrinə) ayrılması və bu cür ayırmaların davamı kimi istehsal birliklərinin, müəssisələrin (firmaların), müəssisələr daxilində sexlərin, sexlər daxilində peşə və ixtisaslar üzrə konkret fəaliyyət sahələrinin meydana gəlməsi bütövlükdə ictimai istehsalın strukturunun mənzərəsinə təsirini göstərir. Bundan çıxan başlıca nəticə ondan ibarədir ki, ictimai istehsalın təsvir olunan strukturu bilavasitə ictimai əmək bölgüsünün həm nəticəsidir və həm də onun təzahür formasıdır. Nəticəsidir ona görə ki, məhz ictimai əmək bölgüsü müxtəlif səviyyəli strukturlar formalaşdırır. İctimai əmək bölgüsünün təzahür formasıdır, ona görə ki, ictimai əmək bölgüsünün birinci tərəfi, yəni məcmu əməyin ayrı-

ayrı sahə, yarımsahə və s. üzrə bölünməsi bilavasitə strukturu yaradır və yaranmış strukturlar elə əslində əmək bölgüsü hadisəsinin baş verdiyini ifadə edir, onun müxtəlif səviyyələrdəki vəziyyətini əks etdirir, daha doğrusu, yaranmış strukturlar ictimai əmək bölgüsünün güzgüsü olur, onun təzahür forması olur, onun vəziyyətini əks etdirir.

İctimai istehsalın strukturu makroiqtisadi səviyyədən başlamış mikroiqtisadi səviyyəyə qədər bütün pillələrdə formalaşmalıdır. Tam formalaşmış ictimai əmək bölgüsü sisteminin təzahür forması kimi qərarlaşmış xalq təsərrüfatı strukturu mükəmməl və daha yetgin struktur sayılmalıdır. Məhz belə bir struktur bazar iqtisadiyyatının təbiətinə uyğun gəlir və onun fəaliyyət göstərməsini təmin edir. Buna görə də bazar iqtisadiyyatının mövcudluğunu təmin edən strukturu iqtisadiyyatın bazar iqtisadiyyatı adlandırmaq elmi baxımdan düzgün sayıla bilər. İqtisadiyyatın bazar strukturu anlayışı nəinki elmi cəhətdən, həm də praktiki cəhətdən çox əhəmiyyətlidir. Onun praktiki əhəmiyyəti ilk növbədə bazar iqtisadiyyatına keçən ölkələr, o cümlədən Azərbaycan Respublikası üçün olduqca böyükdür. Çünki Azərbaycanda iqtisadiyyatın bazar strukturu formalaşdırılmasa, Azərbaycan dövləti öz məqsədinə nail ola bilməz. Başqa sözlə, bazar iqtisadi sistemini yarada bilməz.

İqtisadiyyatın bazar strukturu elə formalaşmalıdır ki, struktura daxil olan bütün əsas həlqələr biri digəri üçün bazar subyekti olsun, biri satıcı olanda digəri onun alıcısı olsun. Məlumdur ki, ölkənin bütövlükdə sənayesi çox strukturludur, struktur həlqələri bir-birindən asılıdır. İqtisadiyyatın sənayesi o zaman normal fəaliyyət göstərə bilər ki, onun strukturu bazarın tələblərinə cavab verə bilsin. Azərbaycanın müasir sənayesinin bu gün əsas

sahələrinin fəaliyyətsiz qalmasının əsas səbəbi respublika sənayesinin əvvəlki strukturunun dağılması, yeni strukturun isə hələ formalaşmamasıdır. Azərbaycan bazar iqtisadi sistemini formalaşdıraraq inkişaf etdirməyi qarşısına məqsəd qoyduğuna görə onun sənayesinin yeni strukturu da bazar strukturu olmalı və bazarın tələblərinə tam cavab verə bilən bir struktur kimi formalaşmalıdır. Deyilənlər eyni ilə Azərbaycanın aqrar bölməsinə də aiddir. Məlum olduğu kimi Azərbaycanın kənd təsərrüfatının sovet sisteminə xas olan əvvəlki strukturu dağılmışdır. Burada mülkiyyətin də, istehsalın təşkilinin də, habelə istehsal edilən məhsulların da strukturu dağılmışdır. Onun yeni strukturu ancaq bazarın tələbələrinə cavab verən, bazar üçün işləyən bir struktur olmalıdır.

İctimai istehsalın bütün digər sahələri, o cümlədən bütün xidmət sahələri bazarın tələbinə uyğun formalaşdırılmalıdır. Bu zaman xalq təsərrüfatının bütün sahələrinin strukturları bir-birinə uyğun olmaqla, bütövlükdə iqtisadiyyatın bazar strukturu elə təşkil edilməlidir ki, iqtisadiyyatın öz tamlığında bazar iqtisadiyyatı olsun və bu keyfiyyət halında da fəaliyyət göstərə bilsin.

Dünya ölkələrinin təcrübəsi sübut edir ki, bazar iqtisadiyyatına keçən hər bir ölkə əgər bazara keçid tədbirləri ilə yanaşı struktur dəyişiklikləri etməzsə çətinliklərdən qutarmaq çətinləşir, səmərəli bazar tipli təsərrüfat yarada bilməz və inkişaf etmiş ölkələr səviyyəsinə qalxmaq mümkün olmaz. Ancaq bütövlükdə xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq çox çətin, mürəkkəb bir vəzifədir və müəyyən vaxt tələb edən problemdir.

Təəssüf ki, sovet hakimiyyəti illərində sosializmin sovet modeli və sovet müstəmləkəçiliyinin mahiyyətindən

doğan Azərbaycana qarşı səhv struktur siyasəti və bununla əlaqədar olaraq ictimai əmək bölgüsü ümumi iqtisadi qanunun tələbinə məhəl qoymayaraq Azərbaycanın milli iqtisadiyyatını asılı vəziyyətə salmışdır. Azərbaycanın iqtisadi əlaqələri sabiq SSRİ-nin digər respublikaları ilə o qədər sıx və möhkəm hörülmüşdür ki, adı çəkilən imperiya dağılan kimi iqtisadi əlaqələr də qırıldı.

Azərbaycan dövləti sovet hakimiyyəti illərində sənayenin bir istiqamətli, yalnız xammal hissə istehsalı üzrə ixtisaslaşmaya son qoymalı və sənaye sahələrində istehsalın strukturunu yenidən, milli mənafeyə uyğun, vətənimizin ehtiyacları istiqamətində qurulmalıdır.

## § 2. İjtimai əmək bölgüsünün iqtisadiyyatın strukturunun və milli bazarın formalaşması və inkişafında rolu

Əmtəə istehsalının əsas şərti ictimai əmək bölgüsüdür. Lakin bu əmtəə istehsalının mövcud olması üçün kifayət deyil. İctimai əmək bölgüsü o vaxt əmtəə istehsalına gətirib çıxarır ki, istehsal vasitələri üzərində mülkiyyət forması olsun. Bu xüsusi mülkiyyət də ola bilər və yaxud mülkiyyətin digər formalarının olması da istisna edilmir. Bazar iqtisadi sisteminin əsası sahibkarlıqdır. Bu iqtisadi qanunauyğunluğu Azərbaycanın sovet sistemindəki zamanındakı vəziyyətinə tətbiq etsək aydın olur ki, Azərbaycanda ictimai əmək bölgüsü olsa da əmtəə istehsalı mövcud olmamışdır. Çünki təbii və milli sərvətlərin, habelə istehsal vasitələrinin mülkiyyətçisi Azərbaycan yox, sabiq SSRİ-i olmuşdur. Əmtəə istehsalı vacib şərtlərdən biri də insanların şəxsən azad olmasıdır. İnzibati-amirlik iqtisadi sistemində iqtisadi fəaliyyət azadlığı qanunla qadağan olunmuşdur. Belə bir şəraitdə

əmtəə-pul münasibətlərinin mövcudluğundan, sahibkarlığın inkişafından, sağlam milli iqtisadiyyatının formalaşması və inkişafından, milli bazarın yaranmasından, habelə ictimai əmək bölgüsünin normal fəaliyyətindən, onun tələblərinin ödənilməsindən danışmaq ağılasığmazdır.

Azərbaycanın müstəqilliyini bərpa etməsi və bazar iqtisadi sisteminə keçməyi strateji məqsəd seçməsi əmtəə-pul münasibətlərini şərtləndirən ictimai əmək bölgüsü qanunun fəaliyyəti üçün geniş meydan açılmışdır. Bunun tələblərini dərk etmək və onun tələblərinə uyğun fəaliyyət göstərmək və bunun vasitəsilə ölkəmizdə bazar iqtisadi sistemini formalaşdırmaq və inkişaf etdirmək dövlətin əsas vəzifələrindən biridir. Çünki sovet sistemi zamanı ictimai əmək bölgüsünün tələbləri nəzərə alınmadığından iqtisadiyyatın strukturu Azərbaycanın milli mənafeyinə uyğun qurulmamışdır. Ona görə də onun strukturunu tamamilə yenidən qurmadan Azərbaycanın sağlam milli iqtisadiyyatını nə formalaşdırmaq, nə də onu inkişaf etdirmək imkan xaricindədir.

İctimai əmək bölgüsü qanunun tələbinə əməl etməyi Azərbaycanda milli sahibkarlığın formalaşması və inkişafı tələb edir. Bunun üçün milli sahibkarlığın formalaşması və inkişafına əlverişli şərait yaratmaq zəruridir. Bunun üçün hər şeydən əvvəl ölkədə bazar münasibətlərini formalaşdırmaq və inkişaf etdirmək məqsədilə onun maddi-texniki bazası möhkəmləndirilməli, iri sahibkarlıqla yanaşı kiçik və orta sahibkarlığa geniş meydan verilməlidir. Həmin müəssisələrin isə ən mükəmməl və yeni texnika ilə təchiz olunmasına qayğı göstərilməlidir. Belə şəraitdə kiçik və orta müəssisələr iri müəssisələr ilə rəqabət apara bilərlər. Bu isə öz növbəsində məhsul istehsalının kəmiyyətinə və keyfiyyətinə, əmtəələrin

qiymətinə öz təsirini göstərə bilər. Deməli, ictimai əmək bölgüsünün respublika daxili sisteminin təkmilləşdirilməsi əsasında iqtisadiyyatın bazar strukturu yaradılmalıdır.

İctimai əmək bölgüsü qanunun fəaliyyəti üçün əlverişli şəraitin yaranması və onun tələblərinə əməl edilməsini arzulamaq istehsalın strukturunu milli mənafeyə uyğun qurmağa kifayət etmir. Bunun üçün maddi zəminin olması da vacibdir. Bu maddi zəmin ilkin kapital və kapital yığımıdır. Sovet iqtisadi sistemi sahibkarlığın, xüsusi mülkiyyətin ideoloji düşməni olduğundan o dövrdə ilkin kapital yığımından və kapital yığımından söhbət gedə bilməzdi. Bu problemin həlli Azərbaycanın milli dövlətinin üzərinə düşmüşdür. Azərbaycan dövləti məlum səbəblər ucbatından bir çox çətinliklərlə qarşılaşmışdır. Buna görə də bu problemin həllində xarici kapitalın gücündən də istifadə etməyə məcburdur. Lakin xarici kapital da o qədər də etibarlı deyil, çünki onlar çox hallarda özlərinin mənafelərini Azərbaycanın milli mənafeyindən üstün tuturlar.

Azərbaycan dövləti xarici kapitalın bu niyyətini nəzərdən qaçırmamalıdır. Onlara qayğı göstərmək və onların iqtisadi fəaliyyətləri üçün əlverişli şərait yaratmaq, təhlükəsizliklərinə təminat verməklə bərabər onların fəaliyyətlərinin bir qismini istehsalın strukturunun yenidən milli mənafeyə uyğun qurulmasına yönəltməlidir. Xarici investorlar ən çox öz kapitalını neft hasilatı, neft emalı, ticarət və xidmət, tez gəlir gətirən sahələrə yatırmağa çalışırlar. Bu sahədə dövlətin ən mühüm vəzifəsi xarici kapitalının bir hissəsini imkan daxilində istehsala yönəltməkdir. Bu zaman ölkədə sərbəst iqtisadi zonalar – işgüzar, sənaye və elmi-texniki əməkdaşlıq zonaları yaradılmasına da diqqət verilməlidir. Həm də elə iqtisadi siyasət yeridilməlidir ki, həm respublikanın, həm də xarici investorların iqtisadi mənafelərinə ziyan dəyməsin.

Məsələn, Azərbaycanda kifayət qədər məhsuldar və qeyri-məhsuldar torpaq sahələri var. Bu da bizə imkan verir ki, qeyri-məhsuldar sahələrə xarici kapitalı cəlb etməklə əkinçiliyi, maldarlığı, quşçuluğu, subtropik bitkilər yetişdirilməsini inkişaf etdirməklə ölkədə ərzaq istehsalın artıraq və xaricdən ərzaq idxalını azaldaq.

Sovet iqtisadi sistemində olarkən Azərbaycanda idxala nisbətən ixrac həmişə çox olmuşdur. Hazırda da belədir. Bu vəziyyət mənfi yox, müsbət haldır. Lakin hər iki dövrdə bu müsbət cəhət Azərbaycan üçün qeyri-səmərəli olmuşdur. Bu hal ixrac-idxal əməliyyatının strukturu ilə əlaqədardır. Çünki Azərbaycan çox qiymətli strateji xammal ixracına üstünlük verir, bunun əvəzində Azərbaycanda istehsalı mümkün olan ərzaq, yüngül və yeyinti sənaye məhsulları idxal edir. Bunun çoxlu obyektiv və subyektiv səbəbləri vardır. Azərbaycan bunu etməyə məhkumdur. Bu Azərbaycanın uzun illər sovet müstəmləkəçiliyində yaşaması ilə əlaqədardır. Ona görə də bu problemi asanlıqla və qısa zaman kəsiyində həll etmək mümkün deyil. Lakin bunu dərk etmək və Azərbaycanın müstəqil dövlət olmasından istifadə edərək bu problemin həllini ön plana çəkməyin vaxtı çatmışdır. Belə ki, dövlət ilk növbədə diqqəti o problemlərin həllinə yönəltməlidir ki, iqtisadiyyatın strukturu bazar mexanizminin sisteminin yenidən qurulmasına və əhalinin artmaqda olan tələbatını ödəməyə şərait yarada bilsin. Daha doğrusu, ilk növbədə daxili istehsal hesabına tələbatımızı ödəməli, sonra isə xarici bazar üçün istehsal etməliyik. Bu məqsədlə respublika daxilində əmək bölgüsünün dərinləşməsi və təkmilləşdirilməsi üçün bazar iqtisadi münasibətlərinin iqtisadi əsası olan mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi prosesinin birinci mərhələsi başa çatdırılmışdır. Hazırda onun ikinci mərhələsi həyata keçirlir və uğurla davam etdirilir. Bu

prosesdə ölkə daxilində ictimai əmək bölgüsünun təkmilləşdirilməsinə və istehsalın optimal strukturunun qurulmasına xüsusi diqqət yetirilməli, müxtəlif, xüsusilə qeyri-neft sektoru sahələrində sahibkarlığın inkişafına əlverişli şərait yaratmalı və dövlət onlara hərtərəfli kömək göstərməlidir.

Təkamül inkişaf yolu ilə yaranan klassik bazar iqtisadiyyatı ölkələrində iqtisadiyyatın strukturunun optimal şəkildə qurulmasına dövlətin müdaxiləsinə ehtiyac olmamışdır. Bu müddəa bazar iqtisadi sisteminin birinci mərhələsi olan azad rəqabət dövrünə aiddir. Bu zaman ictimai əmək bölgüsü qanunu və əmtəə istehsalı ilə əlaqədar fəaliyyət göstərən iqtisadi qanunların fəaliyyəti nəticəsində istehsalın strukturu formalaşmışdır. Bazar iqtisadiyyatına keçid dövründə isə məlum səbəblər üzündən istehsalın strukturunun yenidən milli mənafeyə uyğun qurmaq zərurəti yarandı və bu problemin həllində dövlətin müstəsna rolu vardır. Ona görə ki, Azərbaycan iqtisadi islahatlar aparmaq yolu ilə milli sahibkarlığı formalaşdırmaq və inkişaf etdirməyə qarşıya əsas vəzifə kimi qoymuşdur. İslahatları həyata keçirən isə Azərbaycan dövlətidir. Deməli, Azərbaycan dövləti islahatlar apararkən istehsalın strukturunun qurulmasına necə qiymət yetirməsindən çox şey asılıdır.

Bu sahədə Azərbaycan dövlətinin struktur siyasətini uğurlu saymaq olar. Ona görə ki, Azərbaycan dövləti sovet dövlətinin zorakı inqilabi yolla apardığı struktur siyasətinin fəlakətlə sona çatmasından nəticə çıxararaq təkamül inkişaf yolunu seçmişdir. Lakin bu azdır. Ona görə də sovet hakimiyyəti illərində dağıdılmış ənənəvi təsərrüfat formasını yenidən bərpa etmək, respublikanın ərazi əmək bölgüsünün təmin olunmasına nail olmaq və bunun əsasında yerli və milli bazarı formalaşdırmaq əsas vəzifələrdən biridir.

Dünya dövlətlərinin təcrübəsi göstərmişdir ki, sənayenin aparıcı sahələinin dövlətin əlində qalması iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi üçün təminat yaradır. Bu baxımdan Azərbaycan dövlətinin struktur siyasətini qənaətbəxş etmək olar. Ona görə ki, ərazi əmək bölgüsünü təkmilləşdirmək, regionlarda sosial-iqtisadi tədbirlərin həyata keçirilməsi dövlətin boynuna düşüb. Bu regionlarda sahibkarlığın kifayət qədər formalaşaraq inkişaf etməməsi ilə əlaqədardır. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı»nın (2004-2008-ci illər)» qəbul olunması və həyata keçirilməsi bu problemin müsbət həllində əhəmiyyətli rol oynamışdır. Lakin məqsədə çatmaq üçün çox iş görmək lazımdır. Buna görə də adı çəkilən proqramın davamı olaraq «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi Dövlət Proqramı (2009-2013-cü illər) qəbul edilmişdir.

Azərbaycanda struktur dəyişiklikləri aparılarkən ölkənin müdafiə sisteminin yaradılması ilə bağlı sahələr strukturda öz yeini tapmalıdır. Amma bunu yalnız keçid dövrünə aid etmək olmaz. Çünki Azərbaycan mühüm geosiyasi mövqedə yerləşdiyindən, zəngin və rəngarəng təbii resurslara malik olduğundan burada hegemon dövlətlərin maraqları həmişə toqquşur. Digər tərəfdən Azərbaycan onun müstəqilliyini istəməyən dövlətlərlə əhatə olunmuşdur. Bu həmişə belə olmuş, indi də belədir və gələcəkdə nəinki indiki kimi, hətta bundan da çətin olması gözlənilləndir.

İctimai əmək bölgüsü ümumi iqtisadi qanunun tələblərinə əməl etmək və iqtisadiyyatın strukturunu milli mənafeyə uyğun yenidən qurulması milli bazarın formalaşmasını tələb edir və buna şərait yaradır. Bunlar bir-birinə qarşılıqlı təsir göstərən amillərdir və bir-birini şərtləndirirlər. Buna görə də dövlət və digər iqtisadi

subyektlər milli iqtisadiyyatın səmərəli fəaliyyətini yüksəltmək üçün bazarla əlaqələr istehsal və tədavülün bütün tənzimləyici ünsürlərindən istifadə etməlidir. Bunun üçün ölkədə milli bazar formalaşmalı və milli iqtisadiyyatın yüksəlməsi tələblərinə müvafiq inkişaf etdirilməlidir.

Milli iqtisadiyyat milli bazar kateqoriyası ilə üzvi surətdə bağlıdır və onunla vəhdət təşkil edir. O, milli iqtisadiyyat anlayışının tərkib hissəsidir. Lakin milli bazar məsələsini mahiyyətinə varmaq üçün onu ayrıca şərh etmək lazımdır.

Əvvəla, qeyd edilməlidir ki, Azərbaycanda bazar iqtisadi sisteminə keçid dövrünün əvvəlində genişlənən, ayaq alıb gedən alış-veriş (həm də çox vaxt xaricdən gətirən əmtəələr hesabına) hələ bazarın sağlam təbiəti ilə bağlı deyildi, ondan çox uzaqdır. Mövcud ölkədə sağlam, real milli bazarın təməli ilk növbədə məhz ölkənin özündə məhsulların, məmulatların kütləvi istehsalı zəmininə, normal şəkildə təşkil edilən maliyyə və əmək bazarına əsaslanır.

Deməli, milli bazar bilavasitə milli iqtisadiyyata söykənir, ondan qidalanır. Buna görə də xarici ölkələrdən gətirilib alqı-satqı sövdələşməsinə daxil olan əmtəələr və başqaları milli bazara daxil edilmir. Milli bazarla bağlı olan istehsal-istehlak, təkliflə tələb arasında baş verən mübadilə – tədavül prosesləri milli bazara aiddir və belə təşkil olunmuş bazarı milli bazar adlandırmaq olar. Beləliklə, milli bazarla milli iqtisadiyyat arasında qırılmaz, üzvi və qarşılıqlı əlaqə mövcudluğu vardır.

Milli bazar bütün bazar sistemi və strukturu ilə üzvi şəkildə əlaqədardır. Buraya isə istehlak şeyləri, istehsal vasitələri, xidmət, əmək, mənzil, mənəvi nemətlər, valyuta, qiymətli kağızlar bazarları və b. daxildir.

Deməli, bazar özünəməxsus obyektlərə və subyektlərə malikdir və o bir iqtisadi kateqoriya kimi

konkret iqtisadi münasibətlərin, alıcılarla satıcılar arasında, həmçinin bazar subyektlərinin iqtisadi mənafelərini reallaşdıran və əmək məhsullarının mübadiləsini təmin edən iqtisadi mexanizmdir.

Bazar və milli bazar arasında mahiyyətinə görə elə bir fərq yoxdur. Lakin milli bazar əhatə etdiyi ərazi, onun təşkili, formaları və qarşıya qoyulan konkret məqsəd baxımından müxtəlif olur. Belə ki, müxtəlif iqtisadi sistem şəraitində əmtəə istehsalı, tədavülü, bazarın iqtisadi qanunlarının mahiyyəti və əsas tələbləri dəyişmir. Amma fəaliyyət şəraitinin müxtəlifliyi üzündən onların təzahür formaları da müxtəlif olur və bir-birindən fərqlənirlər.

Milli bazara aşağıdakı tərifi vermək olar: Milli iqtisadiyyatın əsasında formalaşan, bazar subyektlərinin (istehsalçı və istehlakçıların) səmərəli fəaliyyətinə müvafiq olan və ölkənin gələcəkdə dünya iqtisadi məkanına çıxarılmasına xidmət edən bazara milli bazar deyilir.

Azərbaycanın milli bazarı hələlik tam formalaşmayıb və buna görə də o öz funksiyasına lazımı qədər yerinə yetirə bilmir. Bu Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasının başa çatmaması və hələlik asılı iqtisadiyyat statusunda olması ilə əlaqədardır. Deməli, sağlam milli iqtisadiyyatın formalaşması və inkişafı milli bazarın formalaşması ilə düz mütənasibdir və onlar bir-birini şərtləndirirlər və bir-birinə qarşılıqlı təsir göstərirlər. Bu prosesin sürətlənməsi hər bir ölkədə elm və texnikanın mənimsənilməsindən, texnologiyadan, xalqın milli ənənələrindən bilavasitə asılıdır. Təəssüf ki, sovet hakimiyyəti illərində Azərbaycanda milli bazarın formalaşmasının amilləri və şərtləri dağıldığından onları yenidən qurmaq çətindir, lakin lazımdır. Bu zaman ilk növbədə milli bazarın subyektləri yaradılmalı və obyektləri genişləndirilməlidir. Bunun üçün əmək, kapital və torpaq (təbii sərvət), sahibkarlıq qabiliyyəti kimi istehsal

amillərinin düzgün bölgüsü və səmərəli istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Milli bazarın formalaşması və inkişafında milli sahibkarların rolu böyükdür.

Beləliklə, milli bazar mübadilə dairəsində sosial-iqtisadi münasibətlərin məcmusudur. Onun vasitəsilə ölkədə əmtəələrin və xidmətin reallaşdırılması, kapitalın və sairlərin alqı-satqısı, tədavülü həyata keçirilir. Milli bazarın əsas iqtisadi subyektləri eyni vaxtda müxtəlif istiqamətdə fəaliyyət göstərirlər. Kapital sahiblərinin nümayəndəsi sifəti ilə çıxış edən firmalar əmtəə istehsal edir və xidmət sahələri yaradır, iş qüvvəsinə tələb yaranır.

Milli bazarın struktur tərkibində müxtəlif əmtəələr və pullu xidmət bazarları mühüm yer tutur. Şəxsi istehlakın ilk özəyi ailədir, çünki məhz burada istehlakın həcmi və strukturu formalaşır. İstehsal istehlakında isə ilk özək müəssisə və firmalardır.

Yığım isə bir proses kimi investisiya ilə üzvi sürətdə əlaqədardır. Gəlirdən məsrəflər, istehsal və istehlak ehtiyatları çıxıldıqdan sonra yerdə qalan hissə yığıma gedir. Bu isə əsasən investisiyaya, kapital qoyuluşuna sərf olunur. Həm də yığım məqsədlər üçün ev təsərrüfatında, ailədə də edilir.

Milli bazarın struktur tərkibində valyuta və qiymətli kağızlar bazarı da müəyyən yer tutur. Bu, banklar və birjalar ilə bağlıdır. Qiymətli kağızlar anlayışı altında hər şeydən əvvəl səhm və istiqrazlar nəzərdə tutulur.

Əmək bazarı da milli bazarı təşkil edən istiqamətlərdən biridir. Bu bazarın əsas subyekti firmalar və müxtəlif müəssisələrdir.

Yalnız sağlam milli iqtisadiyyatın və sivilizasiyalı milli bazarın formalaşması və təşəkkül tapması millətin real mənafelərinə, artan tələbatlarına cavab verə bilər, dövlətin iqtisadi qüdrətinin artmasına münasib imkanlar yarada bilər.

Beləliklə, milli iqtisadiyyat əsasında formalaşan, bazar subyektlərinin (istehsalçı və istehlakçıların) səmərəli fəaliyyətinə müvafiq olan və ölkənin gələcəkdə dünya iqtisadi məkanına çıxarılmasına xidmət edən bazar milli bazar hesab olunur. Milli bazarın formalaşması ilk növbədə daxili bazarın yaradılmasını tələb edir. Milli bazar anlayışı daxili bazar anlayışından daha genişdir. Çünki Azərbaycanın regionları təbii şərait və başqa amillərin təsiri altında hər hansı məhsul istehsalı üzrə ixtisaslaşmasını tələb edir və buna görə də bəzi xüsusiyyətlər kəsb edir. Eyni zamanda hər bir ərazinin tarixən formalaşmış təsərrüfat formaları və adət və ənənələri mövcuddur və bu ərazi əmək bölgüsü ilə bağlıdır. Bütün bunlar bazarda öz əksini tapmalıdır. Bu baxımdan müxtəlif ərazi və regionlarda formalaşmış bazarı daxili bazar adlandırmaq olar. Lakin daxili bazar milli bazarın daxilində mövcud ola bilər. Ona görə ki, Azərbaycanın milli iqtisadiyyatı Azərbaycan dövlətinin bütün ərazisini əhatə edir və bütün regionlarının iqtisadi əlaqələrini bir-birilə sıx bağlayır.

Milli bazar elə bir ərazi, istehsal və mübadilə vahiddir ki, orada istehsal və tədavül əlaqələri müəyyən iqtisadi, sosial, siyasi və mənəvi birliyə malik olmalıdır. Bu mənada bazar iqtisadi sisteminə keçilməsi daxili bazarın yaradılması və respublikanın iqtisadi müstəqilliyinin təmin olunması bir-birini tamamlayan prosesdir və onların vəhdətliyi mövcuddur.

Azərbaycan sovet dövlətinin tərkibində olan zaman onun tarixən formalaşmış təsərrüfat formaları ləğv edilmiş, istehsal ixtisaslaşdırılarkən adət və ənənələr nəzərə alınmamışdır. Ona görə də Azərbaycanın nə milli bazarı, nə də daxili bazarı lazımi qədər formalaşa bilməmişdir. Azərbaycanın müstəqil dövlət olması milli və daxili bazarın yenidən milli mənafeyə uyğun qurulması

üçün şərait yaratmışdır. Bu problem sağlam milli iqtisadiyyatın formalaşması prosesində həll edilməlidir. Lakin dövlət daxili bazarın formalaşması, inkişafı və qorunmasına xüsusi fikir verməsə milli bazarın tərkib hissəsi olan daxili bazarın yaranması ləngiyə bilər və bu da bütövlükdə sağlam milli iqtisadiyyatın və milli bazarın formalaşması və inkişafına mənfi təsir göstərər.

Daxili bazarın qorunmasında əsas yol respublikanın regionları üzrə istehsalın yeni tələblər səiyyəsində qurulmasıdır. Bu hər şeydən əvvəl sahibkarlığın bərqərar olması, tələb və təklif əsasında daxili bazarda əmtəə və xidmətlər bolluğunun yaradılmasının təşkilidir. Digər tərəfdən ümumittifaq əmək bölgüsünün törətdiyi birtərəfli, qeyri-təkmil, asılı strukturdan fərqli olaraq respublikanın tələbatına cavab verən iqtisadi struktur formalaşdırılmalıdır.

Sovet hakimiyyəti illərində Azərbaycan ümumittifaq əmək bölgüsü əsasında fəaliyyət göstərməyə məhkum olduğundan sənaye müəssisələrinin əksəriyyəti Bakı, Sumqayıt, Mingəçevir kimi iri şəhərlərdə cəmləşdirilmişdir. Azərbaycanın başqa iqtisadi zonalarında sənaye müəssisələri çox az və yaxud yox dərəcəsində olmuşdur. Bu regionların qeyri-bərabər inkişafına, təbii resurslardan səmərəli istifadə edilməməsinə və həm də ekoloji tarazlığın pouzlmasına səbəb olmuşdur. Bu nöqsanları aradan qaldırmaq üçün dövlət ərazi əmək bölgüsünə yenidən baxmalı və onun yenidən qurulmasına xüsusi diqqət yetirməlidir. Bunun əsas yolu regionlarda milli sahibkarlığın formalaşması və inkişafına dövlətin qayğısı və köməkliyi daha da artırılmasıdır. Eyni zamanda yerli xammal əsasında işləyən xalq istehlak malları istehsal edən dövlət sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi problemin həllində böyük rol oynaya bilər.

Daxili bazarın xarici müdaxilədən qorunması ilə yanaşı istehsal potensialının kənara daşınmasının da qarşısı alınmalıdır. Daxili bazarın xarici müdaxilədən qorunması milli iqtisadiyyatın yaradılması və inkişafının zəruri şərtidir. Milli bazarı xarici təxribatdan qorumaqla yanaşı ölkənin iqtisadi potensialından mümkün qədər tez və səmərəli istifadə etməklə daxili bazarda milli məhsul və xidmət bolluğu yaratmağa nail olunmalıdır. Əks halda bu gün ölkənin daxili bazarında yüksək qiymətlə doldurulmuş keyfiyyətsiz, bir çox hallarda əhalinin sağlamlığı üçün təhlükəli olan məhsulların, xüsusilə ərzaq məhsullarından yaxa qurtarmaq mümkün olmaz. Hazırda Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin istismara verilməsi ilə əlaqədar olaraq neft gəlirlərinin Azərbaycana gəlməsi bunun üçün əlverişli şərait yaranmışdır. Bu maddi imkanın hesabına regionlarda yerli xammal hesabına son məhsul istehsal edə bilən yeyinti, yüngül və emal sənayesi müəssisələri şəbəkəsi yaratmaqla həm xaricdən asılılıqdan, həm də iqtisadi potensialın xaricə daşınmasından xilas olmaq mümkündür və ən yaxşı yoldur.

## § 3. Azərbayjanın milli bazarının formalaşmasına onun beynəlxalq əmək bölgüsü və xariji bazara qoşulmasının əhəmiyyəti

Bütün sahələrdə olduğu kimi hadisə və proseslərin, o cümlədən milli bazarın formalaşması təkamül yolu ilə

inkişaf etmiş və milli bazar inkişaf edərək beynəlxalq bazara qovuşmuşdur. Milli bazarın inkişaf edərək xarici bazara inteqrasiya olması hər bir dövlətin milli iqtisadiyyatının və milli bazarının inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu prosesə sadədən mürəkkəbə doğru inkişaf edərək müasir, çox təkmil dünya bazarının yaranmasına səbəb olmuşdur. Belə ki, müstəqil bazar iqtisadiyyatlı dövlətlərin yaranmasının ilk mərhələlərində idxal-ixrac əməliyyatında xammal və ərzaq məhsulları üstünlük təşkil etmişdir. Bu dövrdə xarici iqtisadi əlaqələrin əsas forması xarici ticarət olmuşdur. Sonralar məhsuldar qüvvələr inkişaf etdikcə sənayecə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələr geri qalmış dövlətlərə əmtəə ixracı ilə bərabər kapital ixracına üstünlük vermişlər.

Elmi-texniki inqilabın baş verməsi ilə əlaqədar olaraq qloballaşma prosesinin başlanması və onun əhatə dairəsinin genişlənməsi dünya bazarının həm kəmiyyət, həm də keyfiyyətcə inkişafına təkan vermişdir. Hazırda beynəlxalq iqtisadi münasibətlərdə əmtəə ixracı ilə bərabər, kapital, texnika və texnologiya, elm və informasiya, beynəlxalq iş qüvvəsinin hərəkəti geniş miqyas almışdur. Hər bir dövlət bu prosesin müsbət tərəflərindən istifadə etməklə öz ölkəsinin milli iqtisadiyyatının formalaşması və inkişafına və bunun əsasında milli bazarın təşkili və inkişafına nail ola bilər.

Milli bazar əmtəə istehsalı ilə əlaqədardır. Başqa sözlə, bazar əmtəə istehsalından törəmədir. Harada əmtəə istehsalı varsa, orada bazarın olması zəruridir. Bazarın həcmi əmtəə istehsalının səviyyəsindən asılıdır. Məsələn, quldarlıq və feodalizm cəmiyyətlərində təsərrüfatın əsas forması natural təsərrüfat olduğundan bazarın da həcmi kiçik olmuşdur. Lakin əmtəə təsərrüfatı natural təsərrüfatdan iqtisadi cəhətdən üstün olduğundan

tədriclə inkişaf etmiş və təsərrüfatın hakim formasına çevrilmişdir. Məhz bazar iqtisadi sisteminin əsası əmtəə istehsalıdır, bu sistemdə əmtəə təsərrüfatı yüksək səviyyədə inkişaf etdiyinə görə bazarın da ona uyğun istiqamətdə inkişaf etməsi təbii və iqtisadi qanunauyğunluqdur. Bu iqtisadi qanunauyğunluq xarici bazarın formalaşması və inkişafına da aiddir.

İctimai əmək bölgüsünün bir neçə formaları vardır. Bunlardan biri də beynəlxalq əmək bölgüsüdür. Beynəlxalq əmək bölgüsü beynəlxalq dairədə əmək fəaliyyətinin ixtisaslaşdırılmasının və kooperasiyalaşdırılmasının təzahürüdür. Xarici bazarın əsas cəhəti də budur. Başqa sözlə, əmtəə istehsalının əsas cəhəti ictimai əmək bölgüsü olduğu kimi beynəlxalq əmtəə və xidmət tədavülünün də əsas cəhəti beynəlxalq əmək bölgüsüdür. Bunu şərtləndirən əsas cəhət isə müxtəlif ölkələrdə təbii iqlim şəraitinin və istehsalın amillərinin müxtəlif səviyyələrdə olmasıdır. Bir haldakı beynəlxalq miqyasda istehsalın ixtisaslaşması var, deməli, beynəlxalq bazarın da olması zəruridir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra həm beynəlxalq əmək bölgüsündə iştirak etməyə məhkumdur, həm də bunun üçün əlverişli şərait yaranmışdır. Məhkumdur ona görə ki, beynəlxalq əmək bölgüsü qapalılıq və milli iqtisadiyyatın əlahəddiliyi ilə bir yerə sığmır. Bu prosesdə əlverişli şəraitin yaranması Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədardır. Çünki sovet hakimiyyəti illərində Azərbaycan müstəqil dövlət olmadığından dünya təsərrüfat sisteminin subyekti kimi çıxış edə bilməzdi.

Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakını və dünya bazarına qovuşmasını zəruri edən iki amil vardır. Birincisi, bu proses obyektiv xarakter daşıdığından ondan kənarda qalmaq qeyri-mümkündür,

dünyadan təcrid olmaq özünü intihar etmək deməkdir. Çünki dünyada elə bir müstəqil dövlət yoxdur ki, özünə lazım olan bütün maddi nemətləri öz ölkəsində istehsal edə bilsin. Deməli, bütün dövlətlərin bir-birinin məhsuluna ehtiyacı var və buna görə də onlar xarici bazarı təşkil etməli və orada öz ehtiyaclarını ödəməlidir. Yalnız ABŞ öz ölkəsinə lazım olan məhsulları istehsal etmək zərurəti yaransa, bunu edə bilir. Ona görə ki, bu ölkənin təbii iqlim şəraiti və təbii ehtiyatları və digər iqtisadi amilləri buna imkan verir. Lakin ABŞ bunu heç ağlına gətirmir. Çünki onun xarici ticarətdən əldə etdiyi gəlir ümumi daxili məhsulun dəyərinin 25 faizini təşkil edir. Xarici iqtisadi münasibətlər hər iki tərəf üçün (alan və satan) əlverişli və faydalı olduğundan bütün dövlətlər buna həvəslə qoşulurlar. İkincisi, əgər Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra beynəlxalq əmək bölgüsünə və xarici bazara qovuşmaqdan imtina etsəydi Azərbaycan bir dövlət kimi mövcudluğunu itirə bilərdi. Çünki sovet hakimiyyəti illərində məlum səbəblər üzündən Azərbaycanın milli iqtisadiyyatı asılı vəziyyətə salınmışdır və bu səbəbdən onun milli bazarı milli iqtisadiyyata söykənə bilməzdi. Belə bir şəraitdə Azərbaycan dövləti beynəlxalq əmək bölgüsündə fəal iştirak və dünya bazarından istifadə etməklə öz xalqını çətinliklərdən xilas edə bilərdi.

Beynəlxalq əmək bölgüsünə və xarici bazara qovuşmanın qanunauyğunluqları vardır. Bunlardan biri ölkə daxilində olduğu kimi fərdi əməyin ictimai əməyə çevrilməsi prosesi baş verir. Belə ki, dünya bazarında əmtəələr reallaşdırıldıqda müxtəlif ölkələrin milli əməkləri dünya təsərrüfatında məcmu əməyin bir hissəsi kimi qəbul olunur və nəticədə milli ictimai zəruri əmək orta dünya əməyinə nisbət kimi çıxış edir. Bu fərdi əməyin bir ölkənin ictimai zəruri əməyində çıxış etməsi nisbətinə

oxşayır. Təbiidir ki, bu səviyyələr müxtəlif olur. Bu və ya digər ölkənin nisbətən fərqli və əmək nəticələrindən istifadə olunması beynəlxalq əmək bölgüsü və beynəlxalq əmtəə mübadiləsində iştirak edən ölkə üçün iqtisadi fayda verir. Beynəlxalq dəyərdən aşağı olan əmtəə sahibləri əlavə mənfəət əldə edirlər. Yəni dünya bazarına çıxarılan əmtəələrə çəkilən xərclər orta dünya bazar xərclərindən aşağı olduğundan o iqtisadi səmərə verir. Bazar dəyəri və əmtəə keyfiyyətlərinin dünya standartı onun dünya qiymətini müəyyən edir.

Bir qayda olaraq hər bir dövlət beynəlxalq əmək bölgüsünə qoşularkən öz ölkəsinin təbii iqlim şəraitinin və mövcud istehsal amillərinin imkan verdiyi məhsulların istehsalı üzrə ixtisaslaşırlar. Çünki bu amillər ölkə daxilindəki həmin məhsulların milli dəyərlərini beynəlxalq bazar dəyərlərindən aşağı olmağa imkan verir və dünya bazarında iştirakdan dövlət mənfəət qazanır. Bu mənbənin hesabına milli iqtisadiyyatı inkişaf etdirmək mümkün olur. Məhz Azərbaycan da beynəlxalq əmək bölgüsünə və xarici bazara bu məqsədlə qoşulmuşdur.

Təəssüf ki, sovet hakimiyyəti illərində Azərbaycanda istehsalın strukturu xammal və hissə istehsalı istiqamətində ixtisaslaşdırıldığından, texnika və texnologiyanın dünya səviyyəsindən aşağı olduğundan Azərbaycan beynəlxalq əmək bölcüsünə və xarici bazara son məhsul istehsalçısı kimi qovuşa bilmirdi. Təəssüf ki, Azərbaycanda yenə də beynəlxalq iqtisadi münasibətlərdə xammal ixracı üstünlük təşkil edir və buna görə də xarici münasibətlər sistemində xarici ticarət üstünlük təşkil edir. Halbuki sağlam milli iqtisadiyyatı formalaşdıraraq inkişaf etdirən dövlətlər dünya bazarına texnika, texnologiya, elm və elmtutumlu son sənaye məhsulları ilə iştirak edirlər və dünya ticarətindən xammal ixrac edən dövlətlərə nisbətən böyük gəlir əldə edirlər.

Azərbaycan dövlətinin əsas vəzifələrindən biri beynəlxalq əmək bölgüsündə fəal iştirak etmək və xarici bazarın üstünlüklərindən istifadə edərək sovet dövründə mənfi istiqamətdə formalaşmış istehsalın strukturunu yenidən Azərbaycanın milli mənafeyinə uyğun formalaşdırmaqdır. Bu sahədə gecikmə Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşmasının ləngiməsi və bir çox xoşagəlməz fəsadların meydana çıxması ilə nəticələnə bilər. Bunu dərk edən Azərbaycan dövləti Azərbaycanın xarici iqtisadi əlaqələrini genişləndirmək, dünya dövlətləri ilə ticarət əlaqələri yaratmaqla çətin vəziyyəti aradan qaldırmağa üstünlük vermişdir. Lakin müstəqillik dövründən 18-19 il keçsə də, xalq təsərrüfatının əsas sahələrində köklü struktur dəyişiklikləri istənilən səviyyədə deyil.

Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirak etməkdə və dünya bazarına qovuşmaqda məqsədi bu amildən istifadə edərək istehsalın aşağıdakı optimal strukturunu qurmaqdır. Bunlar aşağıdakılardır: 1) bazar iqtisadiyyatına keçidi; 2) milli bazarın formalaşmasını; 3) iqtisadiyyatın müstəqil inkişafını; 4) təkrar istehsal prosesini; 5) beynəlxalq əmək bölgüsünün üstüklüklərindən istifadə etməni; və 6) ölkənin malik olduğu mütləq üstün sahələrinin inkişafına təminat verən bir struktur olmalıdır; 7) o ölkənin seçmiş olduğu sosial-iqtisadi inkişaf modelinin reallaşdırılmasını təmin etməlidir; 8) ölkənin mövcud potensial imkanından istifadə etməyə təminat yaradan struktur yaradılmalıdır; 9) bütövlükdə cəmiyyətdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi, nəhayət; 10) ölkənin müdafiə qabiliyyətinin artırılmasını təmin edə bilən bir struktur olmalıdır.

Bütün bunlarla yanaşı hər bir müstəqil ölkə beynəlxalq əmək bölgüsü sisteminə qoşulmaqla bir və ya bir neçə istiqamətdə dünya bazarına çıxmaq, beynəlxalq

iqtisadi münasibətlərdə fəal iştirak etmək istəyir. Ancaq istəmək hələ azdır və bunun üçün beynəlxalq əmək bölgüsünə qoşulmağın şərtlərinə malik olmaq lazımdır, başqa sözlə bu və ya digər sahədə «müqayisəli üstünlüyə» malik olmaq lazımdır. Belə bir üstünlük aşağıdakı istiqamətlərin birində və ya bir neçəsində ola bilər: 1) güclü kapitala malik olmaq; 2) əlverişli coğrafi mövqeyin olması; 3) münbit torpaqların və kənd təsərrüfatı üçün əlverişli iqlim şəraitinin olması; 4) zəngin faydalı qazıntılar ehtiyatının olması; 5) güclü sənaye potensialının olması; 6) inikşaf etmiş elm sahələrinin və elmi kadrların olması; 7) ucuz və yüksək ixtisaslı iş qüvvəsinin olması. Bunların əksəriyyəti Azərbaycanda mövcuddur, sadəcə olaraq bu potensialdan istifadə edərək istehsalın strukturunu milli mənafeyə uyğun qurmaq və milli iqtisadiyyatı inkişaf etdirməyi bacarmaq lazımdır.

Başqa ölkələrlə müqayisədə bu üstünlüklərdən hər hansı birinə və yaxud bir neçəsinə malik olan dövlət öz üstünlüklərindən istifadə edərək beynəlxalq əmək bölgüsünə qoşulur. Daha çox üstünlüyü olan ölkənin əmək bölgüsünə qoşulması imkanları da geniş olur, özünün müxtəlif əmtəələr və yaxud xidmətləri ilə dünya bazarına çıxır. Hər bir ölkə iqtisadiyyatının strukturunu formalaşdırarkən müqayisədə malik olduğu üstün cəhətlərin olması amilini hökmən nəzərə almalı olur.

Azərbaycan müstəqil bir ölkə kimi beynəlxalq əmək bölgüsü sisteminə qoşulmağa və dünya bazarına çıxmağa imkan verə bilən bir neçə istiqamətdə «müqayisəli üstünlüyə» malikdir. Bu üstünlüklər aşağıdakılardan ibarətdir: 1) zəngin neft ehtiyatlarının olması; 2) əlverişli geopolitik məkanda yerləşməsi; 3) ildə bir neçə dəfə müxtəlif növ məhsul götürməyə imkan

verən əlverişli iqlimin olması; 4) ucuz işçi qüvvəsinin olması və s.

Azərbaycanın milli bazarının formalaşması və inkişafına onun əlverişli coğrafi mövqedə yerləşməsi müsbət təsir göstərən amillərdəndir. Azərbaycan dövləti bundan istifadə edərək nəqliyyat növlərinin bazar strukturunu formalaşdırmaqla yanaşı «Qədim ipək yolunun» üzərində yerləşən bir ölkə kimi özünün yeni beynəlxalq infrastrukturlarını da formalaşdırmalıdır. Bu sahədə Azərbaycan dövləti XXI əsrin əvvələrində regionlar və beynəlxalq əhəmiyyətli bir neçə layihələr işləyib hazırlınmış və uğurla həyata keçirmişdir. Bunlardan biri «Bakı-Tiflis-Ceyhan» neft boru kəmərinin işə düşməsidir. Bu nəinki Azərbaycan neftinin dünya bazarına çıxarılmasında, habelə Orta Asiyadakı türk dilli dövlətlərin neftinin Avropa bazarlarına çıxarılmasında böyük əhəmiyyət kəsb edir. Azərbaycanın müstəqilliyini istəməyən dövlətlər bu neft boru kəmərinin çəkilməsinə mane olmağa çalışsalar da, öz məqsədlərinə nail ola bilmədilər. 18 noyabr 2007-ci ildə Bakıda toplaşan türk dövlətlərinin əməkdaşlıq və dostluq qurultayında Azərbaycanın prezidenti İ.Əliyev demişdir ki, indiyə qədər bizim Avropa bazarlarına çıxışımız yox idi, indi isə türk qardaşlarımız bizə bu yolu vermişdir. Bundan iki gün sonra Gürcüstanda üç dövlətin – Azərbaycan, Türkiyə və Gürcüstanın prezidentləri Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin bağlanmasının əsasını qoydular. Bundan sonra Bakı-Tiflis-Ərzurum qaz boru kəmərinin çəkilişinin reallaşdırılması işinə başlanacaqdır. Bütün bunlar «Qədim ipək yolunun» bərpası deməkdir və bura istənilən dövlət daxil ola bilər. Bu tədbirlərin həyata keçirilməsi adi çəkilən dövlətlərin deyil, bütün dünya dövlətlərinin iqtisadiyyatının inkişafında və Qafqazda əmin-amanlığın, sabitliyin yaranmasında böyük əhəmiyyəti vardır. Təəssüf

ki, Ermənistanın təcavüzkar siyasətini müdafiə edən dövlətlərin ədalətsizliyi bu prosesə mənfi təsir göstərir. Bu ilk növbədə Ermənistanın özünə ağır iqtisadi zərbə vurmuşdur. Belə ki, o bu layihələrdən kənardan qaldığı üçün iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdür. Lakin buna baxmayaraq Gürcüstanda Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin təməli qoyulma mərasimindəki nitqində Türkiyyə prezidenti Abdullah Gül Ermənistan təcəvüzkarlıq siyasətini dayandırarsa onun da bu layihədə iştirak etməyinə şərait yaradılacağına bəyan etmişdir.

İstər ictiami əmək bölgüsü və istərsə də onun təzahür forması kimi iqtisadiyyatın strukturu əsasən ölkənin təbii potensialına və bu potensialın səmərəli şəkildə təsərrüfat və bazar dövriyyəsinə cəlb edilməsinə əsaslanır. Təbii sərvətlər ölkə ərazisində onların müxtəlif növlərinin çoxluğu və onlardan istifadə imkanları iqtisadi strukturların (təsərrüfat strukturlarına) formalaşmasına ciddi təsir göstərir. Təbii potensiala əsaslanmaqla, ilk növbədə sənaye sahələrinin strukturu formalaşır və iqtisadiyyatın digər sahələrində də strukturların formalaşmasına öz təsirini göstərir. Bu mənada sənaye sahəsində optimal strukturun formalaşması xalq təsərrüfatının digər sahələrinə də böyük təsir göstərir.

Azərbaycanın maliyyə vəsaitinin məhdud olduğu bir şəraitdə mövcud maddi imkanlardan səmərəli istifadə etməyin əhəmiyyəti böyükdür. Bu məqsəd mövcud resurs potensialına, real investisiya imkanlarına arxalanmaqla səmərəli struktur formalaşdırmaq üçün proqnozlardan istifadə etməklə strateji istiqamətləri müəyyən etmək lazımdır, bu zaman yaxşı olar ki, mütərəqqi struktur dəyişiklikləri aparmaq üçün müxtəlif variantlarda hazırlanmış struktur modellərindən ən optimalı seçilsin.

Azərbaycanın beynəlxalq əmək bölgüsündə fəal iştirak etməsi xarici dövlətlərdən mütərəqqi texnika və texnologiya gətirməyə, bu prosesə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsinə əlverişli şərait yaradır. Bu amil istehsalın strukturunu təkmilləşdirməyə, əlavə iş yerlərinin açılmasına, ölkənin valyuta gəlirlərinin artırılmasına imkan yaradır. Bunlar Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafını təmin edən amillərdir. Bunun özü isə Azərbaycanı Dünya İqtisadi Birliyinə səmərəli şəkildə inteqrasiya olunmağa imkan yaradır. Bunlar qarşılıqlı vəhdətdədir və biri digərini şərtləndirir.

**Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar**

1. İctimai əmək bölgüsünün inkişaf mərhələlərini sayın.
2. Əmək bölgüsü ilə əmtəə istehsalının əlaqəsini göstərin.
3. İctimai əmək bölgüsü ilə texniki tərəqqinin bir-birindən asılılığını izah edin.
4. Azərbaycanda iqtisadiyyatın bazar strukturunun formalaşmasının zəruriliyini sübut edin.
5. İstehsalın strukturu ilə bazar strukturunun qarşılıqlı əlaqə və asılılığını göstərin.
6. Azərbaycanda istehsalın strukturunun çətinliklərinin olmasını və onların aradan qaldırılması yollarını izah edin.
7. İctimai əmək bölgüsünün milli bazarın formalaşması və inkişafında rolunu şərh edin.
8. Xarici investisiyaların Azərbaycanda istehsalın strukturunun optimal şəkildə qurulmasında müsbət və mənfi rolunu müqayisə edin.

9. Bazar, milli bazar və daxili bazarın tərifini deyin və onların bir-birini şərtləndirdiyini aydınlaşdırın.

10. Milli iqtisadiyyatla milli bazarın vəhdətliyini sübut edin.

11. «Bakı-Tiflis-Ceyhan» neft boru kəmərinin, «Bakı-Tiflis-Qars» dəmir yolunun və «Bakı-Tiflis-Ərzurum» qaz layihələrinin Azərbaycanın beynəlxalq əmək bölgüsündə əhəmiyyətini danışın.

**Müzakirə üçün suallar və tapşırıqlar**

1. İctimai əmək bölgüsü qanunun mahiyyətini açın.

2. İctimai əmək bölgüsünün tərifini verin və onun xüsusiyyətlərini şərh edin.

3. Bazar iqtisadi sistemində əmək bölgüsünün xarakterində baş verən dəyişiklikləri təhlil edin.

4. Azərbaycanda istehsalın strukturunun yenidən qurulmasının zəruriliyini əsaslandırın.

5. İctimai əmək bölgüsünün iqtisadiyyatın strukturunun yenidən milli mənfayə uyğun qurulmasında rolunu söyləyin.

6. İstehsalın strukturunun təkmilləşdirilməsində və milli bazarın formalaşmasında milli sahibkarlığın inkişafının əsas amil olmasını əsaslandırın.

7. Azərbaycanda istehsalın və bazar strukturunun formalaşmasında Azərbaycan dövlətinin rolunu şərh edin.

8. Azərbaycanın milli bazarının formalaşması və inkişafında Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının müsbət rolunu təhlil edin.

9. Azərbaycanın dünya bazarına qovuşmasının Azərbaycanda istehsalın strukturunun yenidən qurulmasında və milli bazarın inkişafında müsbət rolunu təhlil edin.

10. Azərbaycanın beynəlxalq əmək bölgüsünə və dünya bazarına qovuşmasını şərtləndirən müsbət cəhətləri sayın və hər birini ayrılıqda təhlil edin.

# 8-ji MÖVZU: RESPUBLİKANIN MİLLİ SƏRVƏTİ. ÜMUMİ MİLLİ MƏHSUL VƏ MİLLİ GƏLİR. ÜMUMİ MİLLİ MƏHSULUN TƏKRAR İSTEHSALI

## § 1. Azərbayjanın milli sərvəti: mahiyyəti və onun quruluşu

Milli sərvətə aşağıdakı tərifi vermək olar: «Xalq təsərrüfatının bütün istehsal və qeyri-istehsal fondlarının, ehtiyatların, şəxsi və ictimai əmlakın məcmusuna milli sərvət deyilir». Başqa sözlə, milli sərvət cəmiyyətin müəyyən tarixi inkişaf mərhələsində yaradılan maddi və mənəvi nemətlərin məcmusunu əks etdirir. Ona bütövlükdə milli iqtisadiyyatın inkişafının nəticəsi kimi baxmaq lazımdır. Çünki hər bir milli iqtisadiyyatın nəticəsi yalnız maddi nemət və xidmətlərin istehsalının yüksəldilməsində deyil, sərvətin artırılmasında öz əksini tapmalıdır.

Milli sərvəti milli gəlirlə müqayisə etsək onun mahiyyəti daha aydın olar. Milli gəlir bir il ərzində yaradılmış ümumi ictimai məhsulun dəyərindən istehlak olunmuş istehsal vasitələrinin dəyəri çıxıldıqdan sonra yerdə qalan hissəsidir. Milli sərvət isə bir ildə deyil, bir neçə nəslin yaratdıqları maddi və mənəvi nemətlərin məcmusudur. Elə istehsal müəssisələri var ki, 50-100 il bundan əvvəl yaradılıb, məsələn, Bakı-Tiflis dəmir yolunu bizdən əvvəlki nəsillər çəkdirib, Mingəçevir su elektrik stansiyası XX əsrin ortalarında istifadəyə verilib və s. Lakin biz onlardan indi də istifadə edirik. Qeyri-istehsal fondları haqqında da eyni sözləri demək olar. Bakının mərkəzi hissəsində XIX əsrin sonu və XX əsrin əvvəllərində tikilən təkrar olunmaz arxitekturaya malik olan gözəl binalara baxdıqda adamın ürəyi qürur hissi ilə dolur. Mərhum Musa Nağıyevin tikdirdiyi «İsmayıllıyə»

binası Bakıya xüsusi gözəllik verir. Bakıya gələn qonaqları Azərbaycanın tarixi abidələri heyran edir. Nizaminin, Füzulinin, Nəsirəddin Tusinin və başqalarının əsərləri bizim tükənməz və solmaz milli-mənəvi sərvətimizdir.

Sərvət yalnız cəmiyyət üzvləri tərəfindən qiymətləndirildikdə, istifadə edildikdə və onların şəxsi mənafelərinə uyğun gəldikdə maddi forma alır. Sərvət yalnız ayrı-ayrı adamların və qrupların mənafeyinə xidmət edirsə, o milli formadan kənarlaşır.

Ümumiyyətlə, sərvət anlayışı çoxmənalıdır və əsasən adamların qiymləndirdiyi maddi və mənəvi nemətlər kütləsini əks etdirir. Bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, milli sərvətə insanların tələbatının ödənilməsi səpgisində yanaşmaq lazımdır. Özü də bu tələbatın ödənilməsi həm istehsal istehlakını, həm də şəxsi istehlakı əhatə edir.

Digər tərəfdən, milli sərvət şəxsi istehlakı ödəməklə, eyni zamanda ictimai tələbatı da ödəməlidir. Məsələn, neft boruları konkret adamın tələbatı sferasından kənarda olsa da gələcəkdə onların tələblərinin kəmiyyətində dəyişiklik etmək qabiliyyətinə malik olduğu baxımından qiymətləndirilməlidir. Bu o deməkdir ki, indiki nəsil keçmiş nəslin yaratdığı bəzi milli sərvətlərdən (dəmir yolu, elektrik stansiyaları və s.) hazırda faydalandığı kimi bizim indi yaratdığımız milli sərvətdən yalnız indiki nəsil deyil, gələcək nəsil və bütövlükdə Azərbaycan milləti istifadə edəcəkdir. Bu baxımdan hər bir nəsil milli iqtisadiyyatı inkişaf etdirməklə və maddi və mənəvi nemətləri artırmaqla, habelə yaxşılarını qorumaqla milli sərvəti artırmış olur. Bu isə milli iqtisadiyyatın inkişafına təkan verən amildir. Deməli, təbii resurslar, texniki vasitələr, adamların malik olduqları maddi və mənəvi nemətlər sərvətin spesifik forma almasına səbəb olur.

Beləliklə, milli sərvət keçmiş dövrlərdə istehsal edilib və cari dövrdə istehsal edilmiş maddi və mənəvi dəyərlərin qiymətlərinin cəmini əks etdirir. Bununla da milli sərvət göstəricisi, digər makroiqtisadi göstəricilər olan ümumi milli məhsul, ümumi daxili məhsul və milli gəlirdən fərqlənir.

Məcmu məhsulun fasiləsiz geniş təkrar istehsalı nəticəsində Azərbaycan dövlətinin milli sərvəti artır. Milli sərvət də öz növbəsində məcmu məhsulun geniş təkrar istehsalının zəruri maddi amilidir. Bunlar qarşılıqlı vəhdətdə və bir-birini sürətləndirməklə milli iqtisadiyyatın formalaşması və inkişafında mühüm rol oynayırlar. Xüsusilə elmi-texniki inqilabın təsiri nəticəsində qloballaşma prosesi yeni, müasir yüksək məhsuldarlığa malik olan texnika və texnologiya yaratmaqla milli sərvətin nəinki kəmiyyətini, eyni zamanda onun keyfiyyətini də artırır.

Azərbaycanda tətbiq olunan metodikaya görə milli sərvətin tərkibi aşağıdakılardan ibarətdir və bunlar milli sərvətin quruluşunu təşkil edir:

1. əsas istehsal fondları, yəni əmək vasitələri – iş maşınları, mühərriklər, dəzgahlar, binalar, qurğular, istehsal avadanlıqları və s.;

2. dövriyyə istehsal fondları, yəni əmək cisimləri, istehsal ehtiyatları bitməmiş istehsal;

3. xalq təsərrüfatının tədavül fondları: dövlət və digər mülkiyyətçilərin istehsal müəssisələri və ticarət təşkilatlarının anbarlarında olan hazır məhsul ehtiyatları, həmçinin dövlətin və digər subyektlərin maddi və sığorta ehtiyatları;

4. cəmiyyətin qeyri-istehsal fondları: mənzil və ictimai binalar, elm və tədris müəssisələri, xəstəxanalar və sanatoriyalar, teatrlar, muzeylər, klublar və s., habelə buradakı avadanlıqlar;

5. əhalinin şəxsi əmlakı: yaşayış evləri, ev avadanlığı, geyim, avtomobillər, velosipedlər, radiolar, televizorlar, kompüterlər, videokameralar və sair daxildir.

Milli sərvətin çox mühüm ünsürlərindən və inkişaf şərtlərindən biri təbii sərvətlərdir. Cəmiyyət təbii sərvətləri qoruyub saxlamaqla, ondan səmərəli istifadə etməklə, torpağın münbitliyini yaxşılaşdırmaqla, əkinə yararsız torpaqları əkin dövriyyəsinə daxil etməklə milli sərvəti artırmış olur. Təbii sərvət insan əməyinin təsirinə məruz qalmasa milli sərvətə çevrilə bilmir. Hazırda Azərbaycanda erroziyanın müxtəlif formalarına məruz qalmış və bu səbəbdən də əkin dövriyyəsindən çıxmış xeyli torpaq sahələri vardır. Bu sovet hakimiyyəti illərində Azərbaycanda torpaqdan qeyri-səmərəli istifadə edilməsi və onu süni yolla yaxşılaşdırmadan intensiv istifadə edilməsi ilə əlaqədardır. Sovet dövründə əkin dövriyyəsindən çıxmış və yararsız hala salınmış torpaqların münbitliyini bərpa edərək onu əkin dövriyyəsinə daxil etmək Azərbaycan dövlətinin üzərinə düşür. Bunu etməklə Azərbaycan dövləti ölkəmizin milli sərvətinin artırılmasının maddi əsasını möhkəmləndirmiş olur.

Milli sərvətin quruluşuna nəzər saldıqda məlum olur ki, milli iqtisadiyyatın inkişafında onun elementləri eyni rol oynamırlar. Yəni bu prosesdə biri bigərinə nisbətən böyük və ya əksinə az əhəmiyyət kəsb edir. Bu baxımdan istehsal fondları milli iqtisadiyyatın inkişafında digərlərinə nisbətən daha böyük rol oynayır. Çünki texniki tərəqqi və texniki inqilab əmək alətlərinin, iş maşınının təkmilləşməsindən başlayır və bu ünsürlər istehsal vasitələrinin ən fəal hissəsidir. Əmək məhsuldarlığının yüksəldilməsində bunun payı istehsal fondlarının passiv hissəsinə (binalar, qurğular və s.) daha çoxdur. Məhz hazırda sənayecə inkişaf etmiş ölkələrdə istehsal

prosesinin kompleks mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi istehsal fondlarının təkmilləşdirilməsi vasitəsilə baş vermişdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehsal fondlarının fəal hissəsi əsas istehsal fondlarının 25-30 faizini təşkil edərsə bu normal haldır.

Bu müddəanı Azərbaycanın indiki dövrünə tətbiq etsək Azərbaycanın milli sərvətinin artırılmasında mühüm rol oynayan istehsal fondlarının, xüsusilə onun fəal hissəsinin qeyri-səmərəli olması aydın olar. Belə ki, Azərbaycanın mövcud əsas istehsal fondlarının yarısından çoxu həm fiziki, həm də mənəvi aşınmaya məruz qalmışdır. Bunun əsas səbəbi sovet iqtisadi sistemində yaşayan bütün respublikaların, o cümlədən Azərbaycanın əsas istehsal fondlarının keyfiyyəti dünya standartlarından geri qalmasıdır. Bu isə sovet iqtisadi sisteminin mahiyyətindən irəli gəlmişdir. Digər səbəbi isə sovet dövlətinin Azərbaycanda əsas istehsal fondlarının təzələnməsinə ögey münasibət bəsləməsi ilə əlaqədardır. Bununla bərabər sovet imperiyası dağıldıqdan sonra iqtisadi əlaqələrin kəsilməsi nəticəsində əsas istehsal fondlarının əksəriyyət hissəsi fəaliyyətsiz qaldı. Buradan göründüyü kimi Azərbaycan dövləti əsas istehsal fondlarını kütləvi surətdə təzələməlidir. Əks halda Azərbaycan dünya təsərrüfat sisteminə qovuşa bilməz və qoşulmaq istəsə belə orada rəqabət mübarizəsində məğlub olar və qloballaşma prosesi onun milli və iqtisadi müstəqilliyinə asanlıqla son qoya bilər.

Məhsuldar qüvvələr inkişaf etdikcə elm, texnika və texnolojiyada da irəliləyiş baş verir. Bu dialektikanın qanunudur. Bu prosesdə əsas istehsal fondlarının qurulmasında da dəyişikliklər əmələ gəlir və quruluş tərkibinə yeni, daha mütərəqqi elementlər daxil olur. Bunlardan biri informasiyadır. Belə ki, vaxtilə iqtisadi

nəzəriyyə elminin formalaşmasının ilkin mərhələsində milli sərvətə cəmiyyətin real tələbatına cavab verən resurslar daxil edilirdi. Bu resurslar hesabına bəşəriyyət özünün sənayeləşmə dövrünü yaşamış, özünün mexanikləşmə, avtomatlaşma mərhələləri ilə səciyyələnmişdir. Hazırda bəşər sivilizasiyası özünün sənayeləşdirmənin daha mütərəqqi dövrünə daxil olmuşdur. Bu istehsal prosesinin kompleks avtomatlaşdırılmasıdır. Deməli, müasir dövrdə əsas istehsal fondlarının həm qiymətləndirilməsinə, həm də hesablanmasına yeni mövqelər baxımından yanaşmaq lazımdır. Bu mövqelərin mərkəzində iki mühüm istiqamətini: birincisi, cəmiyyətin informasiyalaşdırma və ya kompüterləşdirmə səviyyəsini, ikincisi isə onların yaşama səviyyələrinin keyfiyyət cəhətdən artımını nəzərdə tutmaq lazımdır. Buna misal olaraq rabitə sistemini göstərməklə kifayətlənmək olar. Əgər geridə qalmış ölkələr hələ rabitə sisteminin ilkin inkişaf səviyyəsindədirsə, inkişaf etmiş ölkələr isə artıq peykli əlaqələndirmə rabitə sistemindən istifadə edirlər. Deməli, informasiya cəhətdən texnologiyası inkişaf etmiş ölkələrin milli sərvəti daha sürətlə artır, çünki informasiya biznes sahəsində bazar sisteminin inkişafında böyük rola malikdir. Çünki istənilən istedadlı sahibkar informasiya vasitəsilə dünyanın hər yerində baş verən yeniliklər, hansı sahədə əlverişli investisiya mühitinin olması və s. haqqında məlumat alır və öz fəaliyyətini səmərəli qura bilir.

Normal inkişaf etmiş klassik bazar iqtisadiyyatlı ölkələrdə milli sərvətin strukturunda mütərəqqi dəyişikliklər keçid iqtisadiyyatlı, o cümlədən Azərbaycandan daha sürətlə baş verir. Hazırda sənayecə inkişaf etmiş dövlətlərdə milli sərvətin strukturunda elmi-texniki tərəqqini təmin edən sahələrin – maşınqayırma,

elektronika, energetika kimi sahələrin üstün artması xarakterikdir. Bu ölkələrdə elmtutumlu, əməktutumlu sənaye sahələri zəif inkişaf etmiş ölkələrə nisbətən daha çox inkişaf etdiyindən sosial-iqtisadi problemlər daha yaxşı həll olunmuşdur.

Azərbaycan həm keçid iqtisadiyyatlı, həm də inkişaf etməkdə olan ölkələr qrupuna daxil olduğundan keçid dövründə onun milli sərvətinin strukturunda mütərəqqi dəyişikliklər çox yavaş gedir. Çünki məlum səbəblər üzündən sovet hakimiyyəti illərində Azərbaycanda elmi-texniki tərəqqini təmin edən sənaye müəssisələri yaradılmamışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu sahələri özü yaratmalıdır. Bunu isə qısa müddətə həll etmək mümkün deyil.

## § 2. Ümumi milli məhsulun təkrar istehsalı: mahiyyəti, tipləri və meyarı

Milli sərvətin bir hissəsi ilbəil sıradan çıxır və onlar bərpa olunmalıdır. İstehsal vasitələri məhsuldar, istehlak şeyləri isə şəxsi istehlaka daxil olur. Onlar yaradılmış ümumi milli məhsuldakı yeni yaradılmış istehsal vasitələri və istehlak şeylərindən ödənilir. Milli sərvətin sıradan çıxmış ünsürlərinin ödənilməsi ilə eyni zamanda ümumi milli məhsulun geniş təkrar istehsalını təmin edən yığım da baş verir. Beləliklə, bir tərəfdən milli məhsulun geniş təkrar istehsalı zərurətə çevrilir, digər tərəfdən bu prosesdə onun maddi əsası olan kapital yığımı baş verir.

Milli sərvətin miqdarı ümumi milli məhsulun geniş təkrar istehsalının həcm və sürətinə təsir göstərir. Milli sərvətin həcmi nə qədər böyükdürsə, cəmiyyətin topladığı əmək vasitələrinin texniki səviyyəsi, əmək cisimlərinin keyfiyyəti və texniki əsası nə qədər yüksəkdirsə hər bir dövlət, o cümlədən Azərbaycan dövləti geniş təkrar

istehsalı üçün bir o qədər yaxşı maddi imkanlara malik olur.

Cəmiyyət istehlak etməyə bilmədiyi kimi, istehsal da etməyə bilməz. Deməli, cəmiyyətin yaşaya bilməsi üçün, istehsal fasiləsiz olmalıdır. Başqa sözlə, təkrar istehsal prosesi baş verməlidir. Daimi əlaqələrdə və fasiləsiz axın halında bərpa olunan ictimai istehsal prosesinə təkrar istehsal prosesi deyil. Maddi istehsalın fasiləsiz olması və heç olmasa onun həcminin azalmaması üçün milli məhsulun müəyyən hissəsini istehsal vasitələrinə, yəni istehsalın yeni amillərinin ünsürlərinə çevirmək zəruridir. Bu isə o deməkdir ki, milli məhsul təkcə istehlak şeylərindən ibarət deyildir. Onun bir hissəsini istehsal məqsədləri üçün ayrılan istehsal vasitələri təşkil edir. Məsələn, sənayedə istehsal olunan məhsulun müəyyən hissəsi maşın, xammal, yanacaq və i.a. şəklində istehsala qayıdır. Milli məhsulun bu hissəsi məhsuldar formada, yeni-yeni məhsullar istehsal etmək üçün istifadə olunur.

Tarixə iki cür təkrar istehsal - sadə və geniş təkrar istehsal məlumdur. Cəmiyyətin bazar iqtisadi sisteminə qədərki inkişaf mərhələlərinə (quldarlıq və feodalizm) sadə təkrar istehsal, əlverişsiz şəraitdə isə hətta natamam təkrar istehsal xas olmuşdur. Lakin məhsuldar qüvvələr inkişaf etdikcə sadə təkrar istehsal prosesi də təkamül yolu ilə inkişaf edərək geniş təkrar istehsalın baş verməsi üçün zəmin yaratmış və bazar iqtisadi sistemi formalaşan zamandan geniş təkrar istehsal əsas rol oynamışdır. Başqa sözlə, geniş təkrar istehsal bazar iqtisadi sistemi üçün xarakterik xüsusiyyətdir.

İstehsalın əvvəlki həcmdə təkrar istehsalına sadə təkrar istehsal deyilir. Sadə təkrar istehsal o deməkdir ki, istehsal prosesində yaradılan izafi dəyər bütövlükdə sahibkarların şəxsi istehlakına gedir, eyni zamanda bu prosesdə kapital yığımı da baş verir. Çünki belə

olmasaydı sadə təkrar istehsal inkişaf edərək geniş təkrar istehsala keçə bilməzdi.

İstehsalın artım həcmdə təkrar istehsalına geniş təkrar istehsal deyilir. Geniş təkrar istehsal sadə təkrar istehsaldan onunla fərqlənir ki, o, əlavə istehsal vasitələri və iş qüvvəsi almaq yolu ilə müntəzəm surətdə izafi dəyərin müəyyən hissəsini fəaliyyətdə olan kapitala qovuşmasını nəzərdə tutur. Azərbaycan üçün də geniş təkrar istehsal xarakterikdir.

İstehsal ictimai xarakter daşıdığına görə təkrar istehsal da ictimai xarakter daşıyır. İctimai təkrar istehsal deyərkən bu, daima fasiləsiz, qarşılıqlı və ardıcıl axın şəklində mövcud olan iqtisadi əlaqələrin yeniləşməsidir. Yuxarıda qeyd olunduğu kimi hər bir ictimai istehsal, eyni zamanda ictimai təkrar istehsaldır. Təkrar istehsal bir qayda olaraq, istehsal, bölgü, mübadilə və istehlak fazalarını əhatə edir. Hər bir istehsalın məqsədi istehlakla bağlı olduğundan, hər bir istehlakın da mənsədi istehsalın baş verməsi zəruriliyini törədir. Deməli, istehsalla istehlak və təkrar istehsalın digər fazaları arasında, eyni zamanda hər birinin eyni xüsusiyyətlərə malik qarşılıqlı əlaqələri mövcuddur. Təkrar istehsal əslində cəmiyyət miqyasında baş verən iqtisadi münasibətlərin təkrar istehsalıdır, yəni iqtisadi münasibətlər çərçivəsinə daxil olan bütün iqtisadi elementlər, mütləq təkrar istehsal prosesi ilə rastlaşır. Heç kəs inkar edə bilməz ki, cəmiyyətdə istehsalın baş verməsi üçün mütləq onun element və amilləri təkrar olunmalıdır. Deməli, iqtisadi sistemin gedişatı üçün mütləq xammal, materiallar, istehsal vasitələri, iş qüvvəsi, sair iqtisadi münasibətlər məcmu şəkildə təkrar istehsal olunmalıdır. Bu prosesin gedişatı ictimai əmək bölgüsünün dərinləşməsinə, iqtisadi əlahiddəliyin güclənməsinə, hər cür ölkə daxili və xarici iqtisadi əlaqələrin möhkəmlənməsinə gətirib çıxarır. Göstərilən bu

əlamətlərin hər biri təkrar istehsal prosesi üçün nəzərə alınmazsa, istər-istəməz orada istehsalın miqyası zəifləyəcək və onun iqtisadi potensialı aşağı düşəcəkdir. Bir cəhəti də xüsusi nəzərə almaq lazımdır ki, təkrar istehsal üçün əsas xarakterik cəhət onun reallaşma prosesinin həyata keçirilməsidir, yəni təkrar istehsal o vaxt baş verir ki, istehsal olunan bütün əmtəə və xidmətlər satılmalıdır. Bu şərait iqtisadiyyatda müvazinətli, tarazlı, proporsional və sabit inkişafı təmin edir.

Müasir bazar iqtisadi sistemi şəraitində geniş təkrar istehsal cəmiyyət miqyasında dinamik şəkildə inkişaf edir. Lakin ayrı-ayrı ölkələrdə bunu iddia etmək olmaz. Müəyyən siyasi, iqtisadi və başqa səbəblər üzündən bu və ya digər dövlətdə geniş təkrar istehsalın tənəzzül tipi yaranır. Təkrar istehsalın tənəzzül tipi dedikdə istehsal prosesinin miqyasının tədriclə azalması başa düşülməlidir. Bunun əsas səbəblərindən biri cəmiyyətin üzvlərinin gəlirlərinin azalmasıdır. Təkrar istehsalın bu tipi Azərbaycan üçün xarakterikdir, xüsusilə onun müstəqilliyinin ilk dövründə təkrar istehsal prosesi ağır vəziyyətə düşmüşdür. Bu sovet sistemi dağılan zaman imperiya dövləti ilə olan iqtisadi əlaqələr tamamtlə kəsildiyindən müəssisələrin əksəriyyəti fəaliyyətlərini dayandırdı, buna görə də işsizlərin sayı həddini aşdı, işləyənlərin isə əmək haqqı çox aşağı düşdü. Bu isə bir tərəfdən gəlirlərdən tutulan vergilərin azalmasına və bunun nəticəsində dövlət büdcəsinin formalaşmasına problemlər yaratdı, digər tərəfdən əhalinin alıcılıq qabiliyyəti aşağı düşdüyündən əmtəə və xidmətlərin reallaşmasını çətinləşdirdi. Bunlar təkrar istehsalın baş verməsi üçün əsas şərtdir. Doğrudur, Azərbaycan dövləti ölkəmizin böhrandan çıxmaq məqsədilə gördüyü tədbirlər nəticəsində XX əsrin 90-cı illərinin sonlarında iqtisadiyyatın sabitləşməsi və sonra bu əsas üzərində

inkişafı başlamışdır. Bunların nəticəsində əhalinin gəlirləri dəfələrlə artmış, onun alıcılıq qabiliyyəti yüksəlmişdir. Lakin bu iqtisadi inkişaf sürəti əsasən xarici kapitalın köməyi ilə neft istehsalına əsaslandığından Azərbaycanda bütövlükdə tənəzzül təkrar istehsalı vəziyyətindən çıxmağa kifayət deyil. Tənəzzül təkrar istehsal tipinə səbəb olan digər amil resurs təminatının məhdudluğu nəticəsində mövcud istehsal prosesinin miqyasının daralmasıdır. İndiki keçid dövründə Azərbaycanın təkrar istehsalın resurs təminatı baxımından vəziyyəti nisbətən yaxşıdır. Çünki təkrar istehsalın normal baş verməsi üçün Azərbaycanda resursların çoxu mövcuddur. Onların bəziləri potensial vəziyyətdədir. Onları ortaya çıxarmaq və təkrar istehsalın təmin olunmasında istifadə etmək bizim özümüzdən asılıdır. Ən böyük çatışmayan iqtisadi resurs isə məlum səbəblər üzündən ilkin kapital yığımının kifayət qədər olmaması və əhalinin müəyyən hissəsinin bazar iqtisadi sisteminə çətin uyğunlaşmasıdır.

Təkrar istehsalın tənəzzül tipi yalnız Azərbaycana yox, bütün keçid iqtisadiyyatlı dövlətlər üçün səciyyəvidir. Lakin keçid iqtisadiyyatlı dövlətlərdə bazar iqtisadi sisteminə keçid səviyyəsinin müxtəlif olduğundan təkrar istehsalın tənəzzül tipi də eyni deyil. İnzibati-amirlik iqtisadi sisteminə nisbətən gec daxil edilən Şərqi Avropa dövlətlərində, habelə Baltikyanı ölkələrdə vəziyyət daha yaxşıdır.

Təkrar istehsalın tənüzzülü tipi bazar iqtisadi sistemi ölkələrində də ola bilər. Lakin bu dövlətlərdə bu proses qısa müddətli və əhatə dövrəsi məhdud olur. Əgər inzibati sistemdə o iqtisadiyyatda olduqca ağır nəticələr törədirsə, bütün xalq təsərrüfatı kompleksini əhatə edirsə, bazar iqtisadi sistemində bir qrup istehsalçılar tam var-yoxdan çıxırlarsa, digərləri bir o qədər varlanırlar.

Bununla yanaşı bu sistemdə xüsusi mülkiyyətin çevik və səmərəli fəaliyyəti ilə bağlı, iqtisadiyyatda qısa bir müddətdən sonra müvazinət yaranır. Ümumiyyətlə, bir qayda olaraq tarixi inkişaf prosesi üçün geniş təkrar istehsal iqtisadiyyatı daim irəliyə doğru aparır.

Təkrar istehsalın normal baş verməsinə hər bir dövlətin milli iqtisadiyyatın inkişafında hansı vasitə və üsullardan istifadə edilməsinin də əhəmiyyəti böyükdür. Bu öz ifadəsini təkrar istehsalın meyarlarında tapır. Hər bir ölkə özünün daxili və xarici şəraitdən və imkanlarından asılı olaraq bu meyarların birinə üstünlük verir və yaxud hər üçündən eyni vaxtda istifadə edir. Bu meyarlara ekstensiv, intensiv və qarışıq təkrar istehsal hədləri daxildir. Bir qayda olaraq ekstensiv, təkrar istehsal bazar iqtisadi sistemindən əvvəlki, yəni quldarlıq və feodalizm cəmiyyətləri üçün xarakterikdir, bazar iqtisadi sistemi üçün isə əsasən intensiv təkrar istehsal səciyyəvidir. Lakin bu heç də o demək deyil ki, bazar iqtisadi sistemində təkrar istehsalın ekstensiv meyarı tamamilə aradan çıxır. Əksinə bu sistemdə şərait və imkandan asılı olaraq hamısından kompleks şəkildə istifadə olunur. Sadəcə olaraq bazar iqtisadi sisteminin maddi əsası olan sənayenin, elmin, texnikanın, texnologiyanın sürətli inkişafı istehsal prosesinin intensivləşməsinə imkan verir. Bu meyarların hər birini qısaca nəzərdən keçirək.

Ekstensiv anlayışı latın sözü olan «ekstensivus» sözündən əmələ gəlmişdir. Azərbaycan dilində genişləndirmə mənasını verir. Burada istehsalı keyfiyyətcə yox, kəmiyyətcə genişləndirilməsi nəzərdə tutulur. Ekstensiv təkrar istehsal dedikdə, bu onun ilk meyarı olub, istehsalın miqyasının əlavə iqtisadi resursların cəlb olunması hesabına təkrar istehsal baş verməsini və məhsul artımına nail olunması başa düşülür. Əvvəlki texnologiyaya və işçilərin mövcud peşəsinə,

ixtisasına əlavə etmək və kapital resurslarının istehsala cəlb edilməsi ilə, onun miqyası genişləndirilir. Bu o deməkdir ki, hər əlavə məhsul vahidlərinin əldə olunması, əlavə zəruri resurs təminatının artırılmasına səbəb olur. Lakin iqtisadi resurslar məhdud olduğundan bu proses uzun müddət davam edə bilməz.

Ekstensiv təkrar istehsal şəraitində onun əsas inkişaf yolu, məşğul olanların sayının artırılması, iş günlərinin çoxaldılması, əsas kapital qoyuluşlarının həcminin artırılması, yeni torpaq sahələrinin mənimsənilməsi, hasilat sənayesinin genişləndirilməsi, yeni enerji mənbələrinin tapılması və s. hesab olunur. Təsərrüfatçılığın bu metodla aparılması tam məqsədli xarakter daşıyır. Bu hal intensiv təkrar istehsalın təmin edilməsi üçün imkan olmadığı zaman baş verir.

Ekstensiv geniş təkrar istehsalın miqyasının artımı, hər məhsul vahidinə sərf olunan resursların həcminin çoxalmasına səbəb olur. İstehsalın belə inkişafı uzun müddət davam edərsə, onda hər əldə olunan resursların qiyməti, əvvəlki illərə nisbətən mütləq çox olacaqdır. Deməli cəmiyyət onsuz da məhdud olan resurslarını xərcləməklə, həm nisbətən az, həm də olduqca baha əmtəə və xidmətlər əldə edəcək.

Ekstensiv geniş təkrar istehsalın bu müddəasını Azərbaycanın indiki iqtisadi inkişaf meyarına tətbiq etsək məlum olar ki, Azərbaycanda iqtisadiyyatın inkişafı əsasən ekstensiv yolla aparılır. Belə arzu olunmaz iqtisadiyyatın inkişaf istiqaməti sosializmin sovet sistemindən bizə miras qalmışdır. Çünki bütün müstəmləkələrdə olduğu kimi Sovet İttifaqı öz müstəmləkəsi olan Azərbaycanda onun aparıcı sənaye sahəsi olan neft sənayesində əsas diqqəti neft hasilatına və emalına vermişdir. Məqsəd qısa müddətdə imkan daxilində bu əvəzviz təbii sərvəti daşıyıb aparmaq

olmuşdur, onun dərindən emalına, ondan müxtəlif çeşidli son, hazır məhsullar istehsalına imkan verilməmişdir.

Hazırda Azərbaycanda neft sənayesində hasilat sənayesinə üstünlük verildiyindən yenə də onu ekstensiv inkişaf meyarı adlandırmaq lazımdır. Doğrudur, sovet sistemindən fərqli olaraq neft hasilatında intensiv amillər var. Bu xarici şirkətlərin müasir, dünya standartlarına cavab verən texnika və texnologiyanın Azərbaycanın neft hasilatına tətbiq etmələri ilə əlaqədardır. Bunun müsbət cəhətləri ilə bərabər arzu olunmaz tərəfləri də vardır. Belə ki, müsbət cəhət Azərbaycanın neft sənayesinin istehsal fondlarının müasir, yüksək səviyyəli texnika və texnologiya ilə əvəzlənməsidirsə, mənfi tərəfi Azərbaycan neftinin qısa vaxtda intensiv yolla çıxardılaraq neft ehtiyatlarının azaldılmasıdır.

Azərbaycanın aqrar bölməsində də iqtisadiyyatın inkişafı ekstensiv geniş təkrar istehsal meyarına əsaslanır. Burada da əsas səbəb sənayedə olduğu kimi sosializmin sovet modelindən miras qalmışdır. Lakin sənayedən fərqli olaraq bu sahədə vəziyyət sovet sistemi dövrünə nisbətən vəziyyət daha da ağırlaşmışdır. Bunun əsas səbəbi xarici investorların sənayeyə daha həvəslə kapital qoymağa çalışdıqları halda aqrar bölməyə məlum səbəblər üzündən kapital yatırmağa az meyilli olmalarıdır.

Müstəqillik dövründə Azərbaycanda sovet sistemi vaxtına nisbətən pambıqçılıq və üzümçülük kimi mühüm sahələrin tənəzzülə uğraması ekstensiv təkrar istehsalın mövcud olmasını sübut edir. Əgər sovet hakimiyyəti illərində Azərbaycanda ildə 800 min ton pambıq, iki milyon tona yaxın üzüm istehsal olunmuşdursa, hazırda həmin məhsulların istehsalı on dəfələrlə azalmışdır. Bunun əsas səbəbi sovet sistemi dövründə adı çəkilən sahələrdə intensiv inkişaf yolunun ekstensiv geniş təkrar istehsalını üstələməsi olmuşdur.

Məlumdur ki, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin əsas istiqamətləri istehsalın mexanikləşdirilməsi, kimyalaşdırılması, elektrikləşdirilməsi, melorasiya işinin yaxşılaşdırılması və başqalarıdır. Sovet hakimiyyəti illərində istehsalın nəticəsi Azərbaycana çatmasa da, sovet dövləti imperiyanın xammala olan tələbatını daha yaxşı təmin etmək xatirinə bu sahədə xeyli iş görülmüşdür. Başqa sözlə, sovet iqtisadi sistemi bazar iqtisadiyyatına nisbətən istehsalın səmərəliyini yaxşı təşkil edə bilməsə də dövlət aparatı işlədiyindən inzibati qayda ilə istehsalın intensivləşməsinə müəyyən qədər nail ola bilmişdir.

Deyilənlərdən belə nəticə çıxır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra onun milli iqtisadiyyatının ekstensiv geniş təkrar əsasında formalaşması və inkişafı onun tarixən keçdiyi inkişaf yolu ilə əlaqədardır və o buna məhkumdur. Geniş təkrar istehsalının bu meyarı Azərbaycanın milli mənafeyinə uyğun deyil və bu yolla iqtisadiyyatı inkişaf etdirərək sağlam milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək mümkün olmaz və gec-tez hansı formadasa iqtisadi və siyasi müstəqilliyi itirmək təhlükəsi yaranar. Bu proses nə qədər uzun sürərsə, vaxt Azərbaycanın ziyanına işləyər. Ona görə də Azərbaycan bu prosesi qısaltmağa və tezliklə geniş təkrar istehsalın intensiv meyarına keçməyə şərait yaratmalıdır.

İntensiv anlayışı latın sözü olan «intensio» sözündən əmələ gəlmişdir. Azərbaycan dilində gərgin, qızğın, səmərəli deməkdir. İqtisadiyyatda gərgin işləmək, texnika və texnologiyadan səmərəli istifadə etmək, daha məhsuldar istehsal vasitləri yaratmaq mənasını verir. Başqa sözlə, əlverişli şərait yarandıqda ekstensiv meyardan fərqli olaraq istehsalın amillərindən keyfiyyətcə yeni səviyyədə istifadə edilir. İstehsal, artıq texniki tərəqqi ilə bağlı texnoloji inkişaf üsuluna daxil olur. Belə şəraitdə

elm və texnikanın nailiyyətlərini iqtisadiyyata cəlb etməklə mövcud olan resurslardan daha səmərəli və tam istifadə edilir. İqtisadi inkişafın nəticələri daha çox resurslu olur.

Təkrar istehsalın qarışıq meyarı haqqında danışarkən qeyd etməliyik ki, real həyatda intensiv və ekstensiv amillər daima qarışıq şəkildə fəaliyyət göstərir. Həyatda nə xalis ekstensiv, nə də xalis intensiv geniş təkrar istehsal olmuşdur. Lakin burada iqtisadi inkişaf üçün zəruri olan ekstensiv və intensiv amillərin payının çoxluğu ilə bir-birindən fərqlənir. Deməli, burada təkrar istehsalın hər iki tipi qarışıq fəaliyyət göstərirlər. Başqa sözlə, hər ikisi eyni vaxtda geniş təkrar istehsalın həyata keçirilməsində iştirak edirsə bu, qarışıq tip adlanır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.



Bu müddəanı Azrbaycanın iqtisadiyyatına tətbiq etsək məlum səbəblər üzündən hazırda ekstensiv amillərin intensiv amilləri üstələdiyini görərik. Azərbaycanda əsas vəzifə ekstensiv və intensiv amillər arasında Azərbaycanın milli mənafeyinə uyğun olan optimal nisbəti yaratmaqdır.

## § 3. Ümumi milli məhsulun istehsalı və artırılması yolları

Cəmiyyətin inkişafının bütün mərhələlərində cəmiyyətin həyatının əsasını insanların yaşaması üçün zəruri olan maddi nemətlər istehsalı təşkil etdiyindən insanlar ən qısa müddətə belə, maddi nemətlər istehsalını dayandıra bilməzlər, çünki onlara hər gün istehlak şeyləri və müxtəlif nemətlər, habelə istehsal vasitələri lazımdır. Deməli, istehsal fasiləsiz olmalıdır.

İnsan şüurlu varlıq olduğundan onun mövcud olduğu bütün dövrlərdə minimum məsrəflə maksimum gəlir əldə etməyə, başqa sözlə, səmərəliliyi artırmağa çalışmışdır. Lakin cəmiyyətin inkişafının bütün mərhələlərində və iqtisadi sistemlərdə istehsalın səmərəliliyini yüksəltmək üçün eyni imkan olmamışdır. Buna baxmayaraq tələbatın artması ümumi iqtisadi qanunun fəaliyyəti və tələbi nəticəsində insanlar buna nail olmaq məqsədilə əmək alətlərini fasiləsiz olaraq təkmilləşdirmiş, eyni zamanda özlərinin ağılı dərinləşmiş, şüuru yüksəlmiş, biliyi artmış, istehsalı təşkil etmək təcrübəsi zənginləşmişdir.

Cəmiyyətin ümumi iqtisadi inkişaf qanunauyğunluqlarından biri istehsal amillərinin müxtəlif iqtisadi inkişaf mərhələsində və iqtisadi sistemlərdə oynadığı rola görə yerdəyişmələrin baş verməsidir. Məsələn, cəmiyyətin quldarlıq və feodalizm inkişaf

mərhələsində istehsal alətləri primitiv olduğundan insanlar təbiətə indiki kimi güclü təsir göstərə bilməmişlər. Digər tərəfdən əhalinin sayı az və tələbatı indikindən aşağı olmuşdur. Bazar iqtisadi sistemi, xüsusilə elmi-texniki inqilabın baş verdiyi indiki dövrdə həm əhalinin sayının çoxalması və tələbatının artması təbiətdən daha intensiv istifadə etməyə şərait yaratmışdır. Bu hadisə həm təbii sərvətlərin azalmasına səbəb olmuş, həm də ekoloji böhran təhlükəsini ortaya qoymuşdur. Bununla əlaqədar olaraq bazar iqtisadi sistemində nəyin hesabına olursa-olsun istehsalı və təkrar istehsalı genişləndirmək yox, məhdud təbii və iqtisadi resurslardan səmərəli istifadə etməklə maksimum məhsul istehsal etməyə üstünlük verilir.

Klassik siyasi iqtisad məktəblərinin nümayəndələrinin istehsal və təkrar istehsal probleminə xüsusi fikir vermələri təsadüfi deyil. Məsələn, A.Smit təkrar istehsal prosesini araşdırarkən ölkə əhalisinin ümumi gəliri və xalis gəlir anlayışını fərqləndirirdi. O, ümumi gəlir dedikdə, indiki ümumi milli məhsulun (təkrar hesablamalar da daxil olmaqla bütün maddi məsrəflər) nəzərdə tuturdu. A.Smitə görə xalis gəlir milli gəlir olub il ərzində əməklə yaradılmış yeni dəyərdir.

İstehsal, təkrar istehsal, ümumi milli məhsul anlayışlarını öyrənməkdə məqsəd istehsalın səmərəli və yaxud qeyri-səmərəli olmasını vaxtında aşkara çıxarmaq, onun obyektiv və subyektiv səbəblərini müəyyən etmək və nöqsanların aradan qaldırılmasının yollarını araşdırmaq, məhdud təbii və iqtisadi resurslardan səmərəli, qənaətlə istifadə etməyin ən düzgün yol olmasını sübut etməkdir. Əks halda təbiətlə cəmiyyət arasında optimal proporsiyanın pozulması və bunun nəticəsində qlobal ekoloji böhranın baş verməsi labüd olar. Məhz buna görə də sənayecə inkişaf etmiş klassik

bazar iqtisadi sistemi ölkələrində təbiətdən səmərəli istifadə etməyən, öz şəxsi mənafeyinə görə təbiəti çirkləndirən sahibkarlara qarşı çox ciddi inzibati, hüquqi, iqtisadi tədbirlər görülür.

Hər bir firmanın rəhbəri müəssisəsinin nə vəziyyətdə olması ilə maraqlanır. O, müəssisəsinin vəziyyətini öyrənməklə mühasibat hesablamasından, onun verdiyi informasiyadan istifadə edir. O, bu yolla müəssisədə istehsal xərclərinin azalması və yaxud çoxalmasını, müəssisənin mənfəətlə işləməsini öyrənir. Nöqsan və müvəffqiyyətlərin səbəblərini müəyyənləşdirir və çatışmazlıqları aradan qaldırmaq üçün vaxtında tədbirlər görür.

Ayrı-ayrı müəssisə və firmalarda olduğu kimi, bütöv-lükdə cəmiyyətdə iqtisadiyyatın vəziyyətini öyrənməkdə belə milli hesablama sistemindən istifadə olunur. Milli hesablama sisteminin müxtəlif göstəriciləri var və onu hesablamaqla ölkənin iqtisadiyyatının nə vəziyyətdə olması müəyyənləşdirilir.

İqtisadiyyatın öyrənilməsinin mühüm göstəricisi, il ərzində istehsal olunmuş məhsul və xidmətlərin həcmidir. Milli hesablama zamanı ən mühüm göstərici ümumi milli məhsuldur (ÜMM). Ölkədə və həmin ölkəyə aid xaricdə bir il ərzində istehsal olunmuş bütün hazır əmtəə və xidmətlərin ümumi bazar dəyərinə ümumi milli məhsul deyilir.

Ümumi milli məhsulun həcmi fiziki və dəyər ölçüsü ilə müəyyən oluna bilər. Ümumi milli məhsulun həcminin fiziki ölçüsü ton, metr, ədəd və s. ifadə olunur. Dəyər ölcüsü isə pul ilə müəyyən olunan bazar dəyərləridir. Yalnız pul ölçüsü müxtəlif əmtəə və xidmətləri müqayisə etməyə imkan verir. Əmtəə və xidmətlərin dəyərini məhz pulla ölçmək hesabına müəyyən vaxt ərzində müəssisənin və bütövlükdə ölkənin iqtisadi fəaliyyəti

qiymtələndirilir, bu səmərəlilik haqqında mühakimə yürütmək imkanı verir.

Ümumi milli məhsulun həcmi müəyyən edilərkən aralıq əmtəələr deyil, əmtəələrin son istehsalı əsas götürülür. Məsələn, toxuculuq fabriklərində ümumi məhsulun həcmi müəyyən edilərkən, yekun əmtəələri olan parçanın istehsalı üçün zəruri olan iplərin, sapın dəyəri daxil edilmir. Çünki onlar aralıq məhsullardır və onların dəyərləri əvvəlki illərdə müvafiq müəssisələrdə hesablanıb. Əgər aralıq məhsulun dəyəri burada hesablanarsa əmtəələrin dəyəri iki dəfə nəzərə alınmış olardı. Bu isə ümumi milli məhsulun iki dəfə çox göstərərdi. Yekun əmtəə və xidmətlərə gəldikdə isə onlar bilavasitə istehlaka daxil olur. Bizim misalımızda parça son məhsuldur.

ÜMM hesablanarkən bütün qeyri-məhsuldar sövdələr kənar edilir. Buraya milli məhsulun miqdarının artmasına səbəb olmayan sövdələr daxildir. Məsələn, pulun bir bankdan başqa banka və ya bir ölkədən başqa ölkəyə köçürülməsi. Qiymətli kağızlarla sövdələşmələr, səhm və istiqrazların alınıb-satılması da oraya daxildir. Bunlar prinsip etibarilə istehsala təsir etmir.

Qeyri-məhsuldar sövdələrə köhnə şeylərin satılması da aid edilir. Əgər siz özünüzün köhnə soyuducunuzu qonşuya satırsınızsa, onun dəyəri ÜMM-a daxil edilmir. Ona görə ki, soyuducunun ilkin dəyəri ÜMM-yə əvvəllər daxil edilmişdir.

ÜMM-in hesablanması iki metodla aparılır. Biri ümumi milli məhsulun xərcləri üzrə, digəri isə ümumi milli məhsuldan gələn gəlirlər üzrə. Hər iki üsul qarşılıqlı surətdə əlaqədardır. İstehlakçının məhsulun əldə olunmasına sərf etdiyi xərcləri istehsalçı gəlir şəkilində alır. Birinci yanaşma son məhsul hesablanmasına müncər edilir. İkinci isə əlavə olunmuş dəyərə əsaslanır.

ÜMM-u xərclər üzrə hesablanmanı həyata keçirmək üçün əmtəə və xidmət şəklində son məhsulun hazırlanmasına çəkilən bütün xərc növlərini cəmləşdirmək zəruridir. Buraya hər şeydən əvvəl, şəxsi istehlak şeylərinin xərcləri daxildir. Bu xərclər özü də iki yerə bölünüb. Məsələn, uzun müddət istifadə edilən istehlak şeylərinin – minik maşını, televizor, soyuducu, paltaryuyan maşın, radioqəbuledicilər və s. xərcləri və gündəlik tələbat məhsullarının – çörək, süd, yağ və s. məhsulların xərcləri daxildir. Xidmət sahəsində çalışanların (hüquqşünas, həkim və s.) xərcləri də istehlak xərclərinə aid edilir.

Sahibkarların son məhsul kimi satın aldıqları maşınlar, avadanlıqlar, dəzgahlar, bütün tikinti işləri investisiyaya daxildir. Məsələn, sahibkarlar yeni fabrik binaları, anbarlar və s. tikdirirlər. Habelə mülki bina gəlir əldə etmək məqdəsi güdürsə, o da investisiyaya daxildir.

Hər bir dövlət təkrar istehsalın fasiləsiz baş verməsini təmin etmək məqsədilə ehtiyat fondları yaradır. Yəni ehtiyatda maşın, avadanlıq, xammal saxlayır. Bu ona görə lazımdır ki, təbii fəlakət baş verə bilər, müharibələr olar. Belə hallarda, həmin ehtiyatlardan istifadə edilir. Buna görə də bu ehtiyatlar üçün çəkilən xərclər də ÜMM-un istehsal xərclərinə daxil edilir.

İdxal və ixrac əmtəələri və xidmətlərinə çəkilən xərclər də ÜMM-un xərclərinə daxil edilir. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində bütün dövlətlərin beynəlxalq əlaqələri zəruridir. Beynəlxalq iqtisadi əlaqələrin məzmununu isə idxal ilə ixrac arasındakı nisbət təşkil edir. Hər bir dövlət çalışır ki, ixrac idxaldan üstün olsun. Çünki ixrac üstünlük təşkil etdikdə dövlətin gəliri daha çox olur. İdxal isə müəyyən xərclərlə nəticələnə bilər. Bu hesablamada məqsəd ixrac ilə idxalın nisbətini müəyyən etməkdir.

ÜMM gəlirlər üzrə də hesablanır. ÜMM-i həcmi, əhalinin əməyə görə əmək haqqı, renta, kapitala görə faiz və mənfəət şəklində alının gəlirlər üzrə hesablanır. Bəzi istisnalar etməklə, demək olar ki, ÜMM-in səviyyəsi xərclər üzrə və gəlirlər üzrə eyni olmalıdır.

Bu gəlirlərin ən böyük hissəsini sənaye və dövlətin işçilərə təklif etdiyi əmək haqqı təşkil edir. Buraya habelə müəssisələrin sosial sığorta fondu, pensiya təminatı, tibbi xidmət və işsizlik üzrə müavinət fondlarının yaradılmasına ödənişlər də daxildir. Bu ödənişlər ümumi istehsal xərclərinin bir hissəsini təşkil edir və əlavə şəkildə əsas əmək haqqına daxil edilir.

Ödənişlərin digər kateqoriyasına icarə ödənişləri də daxil olur. Torpaq, bina, avadanlıq və digər ehtiyatların mülkiyyətçiləri onları icarəyə verərlərsə, onlardan (istifadə edənlərdən) icarə haqqı alırlar.

Beləliklə, zəhmətkeşlər əməyə görə, borc verənlər təqdim etdikləri kapitala görə, torpaq və digər ehtiyatların mülkiyyətçiləri icarəyə görə renta, nəhayət, müəssisələrin xüsusi mülkiyyətçiləri və səhmdarlar gəlirləri mənfəət şəklində əldə edirlər. Deməli, bütün bu gəlirlər fərdi və ya qrup halında vətəndaşlara çatır, onlar da bunlardan öz istədikləri kimi istifadə edirlər.

Ümumi daxili məhsul ərazi xüsusiyyətlərinə görə də hesablanır. Mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində yerləşmiş müəssisələrin, maddi və xidmət sahələrinin məhsullarının illik ümumi dəyərinə ümumi daxili məhsul deyilir.

Ümumi daxili məhsula verilən tərifdən məlum olur ki, Azərbaycanın ərazisində yaradılmış xarici dövlətlərin və vətəndaşların müəssisələrində istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri də respublikamızın ümumi daxili məhsulunun dəyərinə daxildir.

Ümumi daxili məhsul isə hər bir dövlətin iqtisadi inkişaf səviyyəsinin göstəricilərindən biridir. Ümumi milli məhsul ilə ümumi daxili məhsulun artırılması bir-biri ilə əlaqədardır və bir-birinə təsir göstərir. Məsələn, hər hansı bir ölkənin iqtisadiyyatı yüksək səviyyədə inkişaf etsə onun dövləti və sahibkarları xarici dövlətlərdə iqtisadi fəaliyyətlə məşğul olmaqla öz ölkəsinə valyuta göstərirlər. Bunun hesabına ölkə daxilində istehsal və xidmət sahələrini genişləndirmək və ümumi daxili məhsulu daha da artırmaq olar. Ümumi milli məhsulun çoxaldılması ümumi daxili məhsulun artmasına müsbət təsir göstərdiyi kimi, bu əksinə də ola bilər. Belə ki, əgər ölkə daxilində sabitlik və xarici investorların öz kapitallarını yatırmaq üçün əlverişli şərait yaranarsa, bu dövlətə xarici kapital axını sürətlənər. Bu isə xarici investorların gəlirlərindən vergi hesabına dövlətin büdcəsinin gəlir hissəsi çoxalar. Dövlətin iqtisadiyyatının inkişaf etməsi ona dövlət büdcəsi hesabına istehsal və xidmət sahələrinin həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf etdirməyə imkan verir. Buna görə də hər bir dövlət, o cümlədən Azərbaycan həm kapital ixracına, həm də idxalına xüsusi fikir verir.

Ümumi daxili məhsulun artırılmasında əhalinin əmək haqqı səviyyəsi mühüm rol oynayır. Ona görə ki, dövlət büdcəsinin formalaşmasında əmək haqqından tutulan vergilər böyük əhəmiyyət kəsb edir. Əgər işləyənlərin sayı çox, əmək haqqı yüksək olarsa, dövlət büdcəsi gəlirli olar. Normal, sənayecə inkişaf etmiş ölkələrdə dövlət büdcəsinin 80 faizdən çoxu bu mənbə hesabına formalaşır. Azərbaycanda dövlət büdcəsinin kəsirli olmasının əsas səbəblərindən biri iş qabiliyyətli əhalinin müəyyən hissəsinin işsiz və əmək haqqı səviyyəsinin aşağı olmasıdır. Əhalinin gəlirlərinin aşağı olması ona gətirib çıxarır ki, dövlət əsas ağırlığı sahibkarların üzərinə salmağa çalışır. Bu çox mənfi meyldir və arzuolunmaz

nəticələr verər. Onsuz da zəif və maliyyə köməyinə ehtiyacı olan milli sahibkarlarının fəaliyyəti məhdudlaşar. Halbuki, iqtisadiyyatımızın taleyi milli, vətənpərvər burjuaziyanın formalaşmasından asılıdır.

Bir qayda olaraq, sənayecə zəif inkişaf etmiş ölkələrdə əmək haqqı inkişaf etmiş ölkələrə nisbətən aşağı olur. (Sənayecə zəif inkişaf edən ölkələr o dövlətlərdir ki, onlar vaxtilə müstəmləkə olmuş, XX əsrin 50-ci illərində etibarən, milli-azadlıq mübarizəsi nəticəsində müstəqillik əldə etmişlər.) Normal inkişaf etmiş bazar iqtisadi sistemi ölkələrində daxili məhsulun 70-75 faizi əməkçilərin gəlirini təşkil edir. Məlum səbəblər üzündən keçid iqtisadiyyatlı dövlətlərdə, o cümlədən Azərbaycanda ümumi daxili məhsulda əmək haqqının xüsusi çəkisi aşağıdır. Ümumi daxili məhsulun digər tərkib hissələri kapitala görə faiz, renta və mənfəət şəklində əldə olunan gəlirlərdir.

Milli və daxili məhsul hər bir ölkənin iqtisadi inkişaf səviyyəsinin dolğun və etibarlı göstəriciləri olduğuna görə dövlətlər onların hesablanmasına xüsusi fikir verir. Çünki milli iqtisadiyyatın inkişafına mane olan səbəbləri bunların hesablanması yolu ilə aradan qaldırmaq mümkündür.

Ümumi daxili məhsul maddi istehsal sahəsində formalaşır, yəni iqtisadiyyatın zəruri və izafi məhsulun dəyəri  bu sahələrdə yaradılır. Bu sahələrə sənaye, o cümlədən hasilat və emaledici sənaye, tikinti, yük nəqliyyatı və istehsala xidmət edən rabitə, kənd təsərrüfatı və nəhayət, bilavasitə istehsal ilə əlaqədar olduğu dərəcədə ticarət (məsələn, əmtəələrin saxlanması, qablaşdırılması və i.a.), ictimai iaşə sahələri aiddir. Deməli, ümumdaxili məhsul maddi istehsal dairəsinin  işçiləri tərəfmndən istehsal olunur.

Qeyri-istehsal dairəsi işçilərinin əməyi, cəmiyyət üçün nə qədər zəruri olsa da, məhsul yaratmır. Lakin

cəmiyyət nöqteyi-nəzərindən faydalı hesab olunur. Bu işçilərin əməyi (müəllimlər, həkimlər, mədəni-maarif işçiləri və b.) ilk gəlirlər hesabına, məhsul istehsal edən müxtəlif qrup mülkiyyətçilərin mənfəətinin hesabına ödənilir.

Müasir dövrdə elmi-texniki inqilab elmi bilavasitə məhsuldar qüvvəyə çevirmişdir. Müasir istehsal alimin əməyindən istifadəsiz təsəvvür oluna bilməz. Çünki əmək məhsuldarlığının yüksəldilməsi elmi-texniki tərəqqidən asılıdır. Elmi-texniki tərəqqinin əsaslarını alimlər yaradır. Əmək məhsuldarlığını yüksəldə bilməyən ölkə iqtisadiyyatını inkişaf etdirə bilməz.

Ümumi daxili məhsulun kəmiyyəti aşağıdakı amillərdən asılıdır: birinci, maddi istehsal dairəsində tətbiq edilən əməyin kütləsindən. Həmin dairədə məşğul olan işçilərin sayı artdıqda, iş günü uzadıldıqda, əməyin intensivliyi yüksəldikdə ümumi daxili məhsul çoxalır: ikinci, maddi istehsal dairəsi işçilərinin əmək məhsuldarlığının artmasından. Əmək məhsuldarlığı yüksəldikdə ümumi daxili məhsulun fiziki həcmi, yəni istehsal edilmiş istehlak dəyərlərinin miqdarı artır. Üçüncüsü, istehsal vasitələrinə qənaət edilməsi də ümumi daxili məhsulun artmasına səbəb olur.

Ümumi daxili məhsulun artırılması amilləri bütün dövlət və millətlərdə eynidir. Buna baxmayaraq, müstəmləkə və asılı xalqlar öz sağlam milli iqtisadiyyatını yarada bilmir. Bu isə əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərir.

Azərbaycan da belə ölkələrdən biri olmuşdur və indi də elədir. Azərbaycanın təbii-iqlim şəraiti gözəl, yəni mülayim, ilin bütün fəsillərində məhsul yetişdirməyə imkan verən, zəngin və rəngarəng yeraltı, yerüstü sərvətlərə malik, əməksevər, istedadlı ən qədim xalq olmasına baxmayaraq sovet hakimiyyəti illərində

adambaşına düşən milli məhsula görə keçmiş sovet birliyinə daxil olan respublikalar içərisində axırıncı yerlərdən birini tutmuşdur.

Hazırda Azərbaycanda adambaşına düşən ümumi daxili məhsula görə yoxsul dövlətlər sırasına daxildir və bunun çoxlu səbəbləri vardır. Bunun ikisini yada salmaq kifayətdir. Birincisi, bu, sovet müstəmləkəçiliyindən və inzibati-amirlik sistemindən miras qalmışdır. İkincisi, biz hələlik siyasi müstəqillik qazanmışıq, biz sağlam milli iqtisadiyyatımızı formalaşdırmaq və inkişaf etdirməklə bu problemi həll edə bilərik. Yalnız bu problem həll edildikdən sonra firavan yaşamaq olar. Bu isə iqtisadi müstəqillik qazanmaq deməkdir. Bunu isə Azərbaycan xalqı özü həll etməlidir.

Beləliklə, deyilənlərdən aydın olur ki, iqtisadiyyatımızın inkişafı, müstəqilliyimizin qorunub saxlanması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi ümumi daxili məhsulun artım sürətindən asılıdır.

Azərbaycanda milli məhsulun istehsalının artırılmasının əsas yollarından biri ölkədə sabitlik yaratmaqdır. Bu amil iqtisadiyyatın sabitləşməsinə təminat yaradır. «İqtisadiyyatın sabitləşməsi» anlayışı çoxcəhətli və geniş əhatəli məsələlərlə bağlıdır. Bu birinci növbədə iqtisadi yüksəlişdə, istehsalın inkişaf etdirilməsində əsaslı, köklü dəyişikliklərin ödənilməsini nəzərdə tutur. Belə bir əsaslı dəyişikliklərin edilməsində ən qabaqcıl elmi-texniki nailiyyətlər əsasında, istehsalın intensivləşdirilməsi, iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin edilməsi, idarəetmənin səmərəli forma və metodlarının seçilməsi əməyin, görülən işin son nəticələrinə görə stimullaşdırılması, bütövlükdə bazar sistemi münasibətlərinin, habelə konkret təsərrüfatçılıq mexanizminin təkmilləşdirilməsi mühüm rol oynamalıdır. Bu baxımdan iqtisadi sabitləşmə və artımda yeni

keyfiyyət göstəriciləri meydana gəlməlidir. Yeni keyfiyyət xassəsi dedikdə, yalnız həmin artımın öz daxili mahiyyət və məzmunu deyil, həm də bu artımın xarakteri və hansı mütərəqqi amillər və struktur dəyişiklikləri hesabına əldə edilməsi nəzərdə tutulur. Beləliklə, «İqtisadiyyatın sabitləşməsi» anlayışı «İqtisadi inkişaf» anlayışı ilə tamamlanmış olur və sözün geniş mənasında onunla eynilik təşkil edir. Deməli, iqtisadiyyatın sabitliyi yeni keyfiyyət dəyişikliyini prinsipcə sabitlik üzrə təmin etməklə müəyyən edilir. Çünki iqtisadi sabitlik nəticə etibarilə iqtisadi artıma aparır. İqtisadi artım olmadan istər dövlətin və istərsə də müəssisələrin çox mühüm və çətin maliyyə problemlərini həll etmək mümkün deyildir. Lakin sabitləşmə probleminə sadəcə olaraq istehsalın həcminin çoxalması kimi baxmaq olmaz. Burada həm də sabitləşmənin prinsipial məzmunu da nəzərə alınmalıdır.

İqtisadi sabitləşmədə istehsalın kəmiyyət və keyfiyyət tərəfləri vəhdətlik təşkil etməlidir. Bununla belə yeni keyfiyyət, kəmiyyət dəyişikliklərinin əsasında, onun müəyyən inkişaf mərhələsində baş verir. Hər cür artım keyfiyyəcə yeni xassə doğurmur. Ona görə də indi iqtisadi artım problemlərinin özü də başqa bazar münasibətlərinin tələblərinə uyğun gələn yeni keyfiyyət xassəsinə malik olmalı, intensiv inkişaf amillərinə, yeni tipli iqtisadi təfəkkürə, sabit, dinamik artıma, bazarın yeni təsərrüfatçılıq metodlarına əsaslanmalıdır.

İqtisadi inkişaf mürəkkəb və çoxcəhətli sosial-iqtisadi prosesləri, o cümlədən maliyyə-kredit münasibətlərini və bununla əlaqədar olan başqa münasibətləri əhatə edir. Lakin iqtisadi sabitlik və inkişaf dinamikası ötəri, təsadüfi proseslərə deyil, obyektiv və etibarlı inkişafdan irəli gələn maddi-texniki, sosial amillərə, mütərəqqi iş metodlarına və ən başlıcası, iqtisadi vasitələrə əsaslanmalıdır. Bu baxımdan iqtisadi

artımın, kəmiyyət dəyişikliklərinin rolunu mütləq səviyyədə qiymtələndirmək düzgün olmazdı. Bazar iqtisadiyyatı üçün hər cür artım deyil, yeni keyfiyyət kəsb edən artım lazımdır. İqtisadi sabitlik dar çərçivəli, keçici mənafelərdən deyil, ictimai qanunauyğunluqlardan, məcmu tələb və məcmu təklifin tarazlı uyğunluğu mənafeyindən irəli gəlməlidir. Bu öz ifadəsini milli mənafeyin birinci yerə qoyulmasında tapır. İqtisadi artımda həm ekoloji, həm də əmək qabiliyyətli əhalinin məşğuliyyəti kimi sosial mənafelər birliyi də əsas götürülməlidir. Bütün bunlar iqtisadi artımda keyfiyyətin bir tərəfidir. Problemin digər tərəfi keyfiyyət mexanizmi ilə, onu əmələ gətirən ünsürlərin iqtisadi sabitliyə təsiri ilə əlaqədardır. Keyfiyyət dəyişiklikləri passiv deyil və o, kəmiyyət dəyişiklikləri ilə qarşılıqlı əlaqədə olur və onlar bir-birini şərtləndirirlər. Ona görə də bunların hər ikisini lazımınca qiymətləndirmək lazımdır.

Göründüyü kimi Azərbaycanda iqtisadiyyatın sabit inkişafını təmin etmək üçün istehsalın ekstensiv inkişaf yolundan intensiv inkişafa üstünlük verilməsi əsas yoldur. Lakin uzun illər müstəmləkə olmuş, istehsalın səmərəliliyini təşkil edə bilməyən sovet sistemində yaşamış, çox çətin keşməkeşli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycan üçün bu çox çətindir. Bunu dərk etməklə sabit inkişafa üstünlük vermək, bazar iqtisadi sisteminin formalaşması vaxtını qısaltmaq əsas problemlərdən biridir.  Çünki elə insanlar var ki, bazar iqtisadiyyatına keçid dövrü ilə bazar iqtisadiyyatının formalaşaraq başa çatmasını qarışdırırlar. Onlar belə hesab edirlər ki, sovet sisteminin dağılması və keçid dövrünə başlamaqla problemlərin hamısı avtomatik olaraq qısa müddətdə həll olunmalıdır. Buna görə də cəmiyyətdən, dövlətdən çox şey umurlar. Təbiidir ki, bu cür adamların dövlətdən tələbi qeyri-real, ədalətsiz

olduğundan ödənilməsi mümkün olmur. Nəticədə, insanlar dözümsüzlük göstərirlər, müstəqilliyin, azadlığın qədir-qiymətini şübhə altına salırlar. Əgər klassik, sənayecə inkişaf etmiş bazar iqtisadiyyatı dövlətlərinin yüz il bundan əvvəlki iqtisadi inkişaf tempini və əhalinin həyat səviyyəsini indiki analoji göstəriciləri ilə müqayisə etsək Azərbaycanın hazırkı vəziyyətindən yaxşı olmadığını görmək olar. Deməli, Avropa dövlətləri indiki yüksək səviyyəyə çatmaq üçün uzun illər fədakarcasına çalışmaqla nail olmuşlar. Məhz Azərbaycan xalqı da bu yolu seçməlidir. Dərk etmək lazımdır ki, hər bir millət öz problemlərini özü həll etməlidir.

Azərbaycanda ümumi məhsulun artırılması yollarından biri iqtisadiyyatın intensivləşdirilməsinə üstünlük verilmişdirsə, digər yolu və bundan daha böyük rol oynayan və intensivləşmənin özünün insan amilindən asılı olmasıdır. İnsan amili dedikdə insanın intellektual səviyyəsi, onun elmin əsaslarını hansı dərəcədə öyrənməsi, yeni texnika və texnologiyanı necə mənimsəməsi nəzərdə tutulur. Çünki intensivləşmə istehsal prosesinin mexanikləşdirmə səviyyəsindən, bunun özü isə insan kapitalından, istehsalı necə təşkil etmə bacarığından asılıdır. Bunların məcmusu insanın sağlam mənəviyyatını təşkil edir. Təəssüf ki, Azərbaycanda əhalinin sağlam mənəviyyatı deformasiyaya uğramışdır.

İqtisadiyyatın sabit inkişafına nail olmaq, milli məhsulun artırılmasını ekstensiv amildən intensiv amilə keçirmək üçün ümumi böhran sistemindən elə bir həlqəni seçmək lazımdır ki, o ümumi böhranın digər sahələrinin həllini də təmin etmək mümkün olsun. Bu sistemdə əsas həlqə əhalinin sağlam mənəviyyatını formalaşdırmaqdır. İstehsalın bu amili milli məhsulun artırılmasının əsas yoludur. Ümumi böhranın bütün göstəricilərinin aradan

qaldırılması sağlam mənəviyyatı necə və nə vaxt formalaşmasından asılıdır.

İnsan amilini, sağlam mənəviyyatı formalaşdırmaq istehsalın maddi amilini əldə etməkdən çox çətindir. Çünki bu insan psixologiyası ilə əlaqədardır. Belə ki, sovet sistemi dövründə rüşvətxorluğa, məddahlığa, yalançılığa, talançılığa, öz şəxsi mənafeyini bütün mənafelərdən üstün tapmağa öyrənmiş insanlar pis vərdişlərdən xilas etmək çox çətindir, hətta bəzi adamlarda heç mümkün də deyil.

Sağlam mənəviyyatın ümumi milli məhsulun artırılmasında maddi amildən daha üstün olduğunu sübut etmək üçün bir faktı yada salmaq kifayətdir. Məlumdur ki, Almaniya və Yaponiya ikinci dünya müharibəsində məğlub olmuşlar. Onların iqtisadiyyatları tamamilə dağılmışdır. Lakin onlar müharibədən sonra qısa müddətdə nəinki dağılmış iqtisadiyyatı bərpa etdilər, hətta onu inkişaf etdirərək ən yüksək səviyyəyə çatdırdılar. Ona görə ki, maddi amilin oğurlanmaq, yanmaq, itmək qorxusu olduğu halda mənəviyyatın heç nədən qorxusu yoxdur. Sağlam mənəviyyat insanın ağılı, biliyi, ədalətliliyi, halallığı, zəhmətkeşliyi, istedadıdır. Məhz düşmənlər almanların, yaponların maddiyyətini dağıdaraq mənimsəsələr də onların mənəviyyatını, intellektual səviyyəsini əllərindən ala bilmədilər. Həmin millətlər öz istedadı və zəhmətsevərliyi sayəsində itirdiklərindən qat-qat çox yaratdılar. Azərbaycanda isə sovet dövründə əhalinin mənəviyyatı böhrana düçar olduğundan müstəqillik qazandığımız 18-19 il ərzində adı çəkilən dövlətlərlə müqayisədə çox az iş görülmüşdür.

İstehsalın sabitləşməsi cari və uzunmüddətli inkişaf imkanlarını müəyyən etməklə respublikanın iqtisadi siyasətinin həyata keçirilməsində mühüm rol oynamalıdır. O heç də qısamüddətli bir tədbir, kampaniya deyil, strateji

əhəmiyyətə malik olan tədbirlər sistemi olmalıdır. Ona görə də istehsalın inkişafı bütün iqtisadi sistemin keyfiyyətcə, yeni əsaslar üzrə təkmilləşdirilməsini tələb edir.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. Milli sərvətin tərifini deyin.
2. Milli sərvəti təbii və milli gəlirdən fərqləndirin.
3. Milli sərvətin quruluşunu təhlil edin.
4. Müasir dövrdə əsas istehsal fondlarının vəziyyətini söyləyin.
5. Təkrar istehsal nədir və nə üçün zəruridir?
6. Geniş təkrar istehsal nədir və onun xüsusiyyətləri nədən ibarətdir?
7. Ümumi milli məhsulun tərifini deyin.
8. Ümumi milli məhsulun fiziki və dəyər ölçülərini izah edin.
9. Son və aralıq məhsul anlayışını şərh edin.
10. Ehtiyat fondlarının mahiyyət və məqsədini söyləyin.
11. Ümumi milli məhsulu ümumi daxili məhsuldan fərqləndirin.
12. Ümumi daxili məhsulun artırılmasına hansı amillər təsir göstərir?
13. «İqtisadiyyatın sabitləşməsi» anlayışının mahiyyətini açın.

## Müzakirə üçün suallar və tapşırıqlar

1. Milli sərvətin mahiyyətini açın.
2. Əsas istehsal fondlarının fəal və passiv hissələrini bir-birindən ayırın və əmək məhsuldarlığının yüksəldilməsində onların yerini müəyyən edin.

3. Əsas istehsal fondlarının keyfiyyətcə yaxşılaşdırılmasının zəruriliyini və onların yollarını deyin.

4. Geniş təkrar istehsalın hansı tipləri vardır? Onların hər birini ayrılıqda təhlil edin.

5. Ümumi milli məhsulun hesablanmasının metodlarını göstərin və onları ayrılıqda təhlil edin.

6. Ümumi daxili məhsulun səviyyəsinin yüksəldilməsində millətin müstəqil dövləti olmasının əhəmiyyətini şərh edin.

7. Ümumi milli məhsulun artırılmasında və ümumi böhrandan çıxmaqda əhalinin sağlam mənəviyyatının formalaşması problemini ön plana çəkməyin zəruriliyini əsaslandırın.

# 9-ju MÖVZU: AZƏRBAYJANIN MALİYYƏ, KREDİT VƏ BANK SİSTEMİ

## § 1. Azərbayjanın maliyyə sisteminin mahiyyəti və onun yenidən qurulmasının zəruriliyi

«Maliyyə» sözü latın mənşəli «finansia» sözünün tərcüməsi olmaqla, ödəniş, tədiyə mənasını verir.

Cəmiyyətin və əmtəə-pul münasibətlərinin inkişafının müəyyən mərhələsində meydana gəlmiş maliyyə öz mahiyyəti etibarilə pul münasibətləri sistemi olmaqla, dövlətin mövcudluğu və fəaliyyəti ilə ayrılmaz surətdə əlaqədardır. Dövlətin gəlir və xərclərini ifadə edən bir iqtisadi kateqoriya kimi «maliyyə» termini İtaliyada XIII-XV əsrlərdə, Fransada isə XVI əsrdə işlədilməyə başlamışdır. Sonralar o, daha geniş mənada işlədilərək, ümumiyyətlə pul əməliyyatlarını ifadə etməyə başlamışdı.

Maliyyə vasitəsilə ictimai təkrar istehsalda vəsaitlərin daha sürətlə hərəkət etməsi, dövlət aparıtının saxlanılması, dövlətin öz təsərrüfat funksiyalarını yerinə yetirə bilməsi üçün lazım gələn vəsaitlərin səfərbərliyə alınması və onlardar istifadə edilməsi təmin olunur. Bu proses əmtəə-pul münasibətlərinin hökmran olduğu bütün cəmiyyətlərdə baş versə də, forma və məzmunu etibarilə müxtəlif inkişaf mərhələlərində bir-birindən fərqli qaydada həyata keçirilir. Başqa sözlə, pul vəsaitlərinin toplanması və istifadəsi prosesi müxtəlif cəmiyyətlərdə bir çox cəhətdən bir-birindən fərqli qaydada baş verir.

Beləliklə, bir iqtisadi kateqoriya kimi maliyyə əmtəə-pul münasibətlərinin inkişafı zəminində, cəmiyyətin siniflərə bölünməsi və dövlətin meydana gəlməsilə bərabər meydana gəlir, yetkinləşir və təşəkkül tapır.

Maliyyənin mahiyyəti, onun inkişaf qanunauyğunluqları və ictimai təkrar istehsaldakı rolu, cəmiyyətin ictimai-iqtisadi quruluşu, dövlətin təbiəti və funksiyaları ilə müəyyən olunur.

Maliyyə münasibətlərinin inkişafı əsasən XX əsrdə, xüsusən İkinci dünya müharibəsindən sonra baş vermişdir. Bu dövrdə inkişaf etmiş ölkələrdə dövlət böyük pul vəsaiti fondlarına malik olaraq, təkrar istehal prosesinə ciddi təsir göstərməyə başlayır. Bu yeni şəraitdə maliyyə münasibətlərinin dairəsi xeyli genişlənir, dövlət nəinki büdcə sisteminə, həm də büdcədənkənar fondlara aid olan resurslar toplamağa başlayır.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində səhmdar cəmiyyətləri əsas təşkilati-hüquqi bir forma kimi çıxış edir. Bu formanın üstünlüyü onunla əlaqədardır ki, səhm buraxılması kapital toplamağın və onu istehsal-investisiya vasitələrinə çevirməkdə qüdrətli bir vasitədir. Səhmlər, istiqrazlar, bank kreditləri və maliyyə bazarının digər elementləri olmasaydı, korporasiyalar özünümaliyyələşdirmənin ümidinə qalmalı olardılar ki, bu da onların fəaliyyətinin və inkişafını kəskin surətdə məhdudlaşdırardı.

Bazar iqtisadi sistemi şəraitində məhsuldar qüvvələr inkişaf etdikcə ictimai-əmək bölgüsü daha da dərinləşmiş, bu isə əmtəə-pul münasibətlərinin daha sürətlə inkişafına səbəb olmuşdur və nəticədə maliyyə sistemi formalaşmışdır. Maliyyəyə aşağıdakı tərifi vermək olar: maliyyə – dövlətin öz funksiyalarını və vəzifələrini yerinə yetirməsi, geniş təkrar istehsalın baş verməsi şərtlərinin təmin olunması məqsədilə mərkəzləşmiş və qeyri-mərkəzləşmiş pul vəsaiti fondlarının əmələ gəlməsi, bölüşdürülməsi və onların istifadəsi ilə əlaqədar yaranan iqtisadi münasibətlər sistemidir.

Bu tərifi başqa cür də ifadə etmək olar: maliyyə pul fondlarının yarıdılması və istifadəsi ilə əlaqədar meydana gələn pul-bölgü münasibətlərinin məcmuudur.

Belə tərif verilməsi ona görə lazımdır ki, maliyyə münasibətlərinin əmələ gəlməsinin məhz pul və bölgü münasibətlərinin mövcudluğu ilə əlaqədar olması xüsusi dərk edilsin. Pul münasibətləri olmayan bir şəraitdə maliyyə münasibətləri də yarana bilməz. Bununla bərabər unutmaq olmaz ki, maliyyə həm də bölgü kateqoriyasıdır və ona görə də geniş təkrar istehsalın mərhələlərinin yalnız dəyər bölgüsü hissəsində iştirak edir. Maliyyə nə istehsal, nə də istehlakda birbaşa iştirak edə bilməz və yalnız dəyərlərin bölgüsü vasitəsilə onlara təsir göstərir.

Lakin maliyyənin pul münasibətlərindən ayrı mövcud ola bilməməsi o demək deyildir ki, hər cür pul münasibətlərini maliyyə münasibəti ilə qarışdırmaq olar. Onları eyniləşdirmək ciddi səhv olardı. Çünki maliyyə puldan həm məzmununa, həm də formasına görə fərqlənir. Pul ümumi ekvivalent olmaqla əmək məsrəflərinin miqdarını ölçür. Maliyyə isə istər ümumi daxili məhsulun və milli gəlirin bölgüsü və yenidən bölgüsü, istərsə də pul vəsaiti fondlarının yaradılması və onlardan düzgün istifadə edilməsi prosesinə nəzarət edir, təkrar istehsalın tənzimlənməsi funksiyalarını yerinə yetirir.

Göründüyü kimi, maliyyənin başlıca vəzifəsi pul gəlirlərinin və fondlarını toplayıb yaratmaqla bərabər dövlətin və müəssisələrin pul vəsaitlərinə olan tələbatını ödəməkdən və maliyyə vəsaitlərinin düzgün istifadəsinə nəzarət etməkdən ibarətdir.

Pul fondlarının başlıca maddi mənbəyi kimi ölkənin milli gəliri, yəni yeni yaradılmış dəyər çıxış edir. Milli gəlir ümumi daxili məhsuldan istehsal prosesində istehlak olunmuş istehsal vasitələrinin (əmək vasitələri və əmək

cisimlərinin) dəyərini çıxdıqdan sonra yerdə qalan hissəyə bərabər olur.

Hər bir ölkədə ümumi dövlət tələbatlarının ödənilməsi və ictimai istehsalın genişləndirilməsi imkanları məhz milli gəlirin həcmi ilə müəyyən olunur. Onun həcmi həmçinin milli gəlirin bölündüyü yığım və istehlak fondları arasındakı nisbətləri də müəyyən edən obyektiv bir amildir.

Maliyyənin iştirakı olmadan milli gəlirin bölüşdürülməsi mümkün olmazdı. O, milli gəlirin yaradılması və istifadəsi proseslərinin ayrılmaz vasitəçisi olmaqla, obyektiv bir amil kimi istehsala, bölgüyə və istehlaka ciddi təsir göstərir.

Beləliklə, maliyyə müəyyən istehsal münasibətləri sahəsində, yəni cəmiyyətin bazisinə aid olan obyektiv bir kateqoriyadır. Lakin o bazis kateqoriyası olsa da, dövlətin maliyyə siyasətindən çox asılı olur.

Öz maddi məzmununa görə maliyyə pul vəsaitlərinin məqsədli fondu olmaqla, bütövlükdə ölkənin ehtiyatını təşkil edir. Həm də bu sonuncunun artmsının əsas şərti məhz milli gəlirin artmasından ibarətdir.

Hər bir dövlətin maliyyəsinin əsasında mövcud iqtisadi sistem dayanır. Bu baxımdan bazar iqtisadi sistemi ilə inzibati-amirlik sistemindəki maliyyə münasibətləri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənmişdir. Bu isə istehsal vasitələri üzərində mülkiyyət münasibətləri ilə əlaqədar olmuşdur. Belə ki, bazar iqtisadi sistemində əmtəə-pul münasibətləri normal inkişaf edərək təkamül yolu ilə maliyyə sistemi formalaşmışdırsa, inzibati-amirlik sistemində maliyyə münasibətləri formal xarakter daşımışdır. Ona görə ki, əmtəə-pul münasibətlərinin özü formal, görüntü xarakterli olmuşdur. Çünki təbii və iqtisadi resursların demək olar ki, hamısı dövlətin inhisarında olduğundan müəssisələrin

iqtisadi müstəqilliyi olmamışdır. Qiymət bazar mexanizminin tələbləri əsasında deyil, dövlətin istədiyi kimi qoyulmuşdur. Bütün respublikalarda, o cümlədən Azərbaycanda yaradılan izafi məhsulun dəyəri qiymət mexanizmi vasitəsilə mərkəzi dövlətin büdcəsinə axıdılmışdır, dövlət isə onu siyasi motivlərlə öz istədiyi kimi ədalətsiz bölmüşdür. Sovet hakimiyyətinin mövcudluğu dövründə Azərbaycan İttifaq budcəsinə verdiyindən qat-qat az maliyyə vəsaiti almışdır. Bu isə Azərbaycanda sosial-iqtisadi vəziyyətin ağırlaşmasına səbəb olmuşdur.

Keçmiş SSRİ dağıldıqdan sonra (1991-ci il) Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdi və bazar iqtisadiyyatına keçməyi əsas vəzifə olaraq qarşıya qoydu. Bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi münasibətlərinin mühüm tərkib hissəsi olan maliyyə münasibətlərinin də yenidən qurulması obyektiv zərurət oldu. Azərbaycan dövləti bazar iqtisadi sisteminin mahiyyətinə uyğun maliyyə sistemi formalaşdırmaqla Azərbaycanın milli iqtisadiyyatının inkişafına təkan vermiş olacaqdır.

Dövlətin maliyyəsi onun şah damarıdır. Çünki iqtisadiyyatın inkişafı və dövlətin qüdrəti onun maliyyəsinin həcmindən və düzgün istifadəsindən asılıdır. İqtisadiyyatın inkişafı isə maliyyə vəsaitinin yaranmasının əsasıdır.

Əmtəə tədavülü prosesində pul əmtəə tədavülündən ayrılır və nisbətən müstəqil hərəkət edir. Bu prosesdə yaranmış pulların bir hissəsi əhalinin əlinə keçir. Bu pul, əmək haqqı şəklində alınan puldur və iş qüvvəsinin təkrar istehsalına xidmət edir. Digər hissə dövlət xəzinəsinə keçir. Bunların yaranma mənbələri müxtəlifdir. Əgər əhaliyə verilən əmək haqqının mənbəyi zəruri əməklə yaradılmış zəruri məhsulun dəyəridirsə,

dövlətin xəzinəsinə keçən pulun mənbəyi izafi əməklə yaradılmış izafi məhsulun dəyəridir.

Göstərilən pul fondlarının yaranma mənbəyi müxtəlif olduğu kimi onlardan istifadə də müxtəlifdir. Əgər əhali əmək haqqı şəklində aldığı pulu şəxsi tələbatı üçün xərcləyirsə, dövlətin sərəncamına keçən pul dövlətin maliyyə vəsaitinə çevrilir. Həmin pul vəsaiti dövlət büdcəsinə yığılır və dövlətin ümumi mənafeyinə yönəldilir.

Maliyyə vəsaiti üçün yaranan pulun hərəkətini nəzərdən keçirək. Əvvəlki mövzularda deyilmişdir ki, cəmiyyətin ümumi ictimai məhsulu istehsal və xidmət dairələrində yaranır və onların ilkin bölgüsü də bu sahələrin özündə baş verir. Lakin yaradılan məhsulun dəyərinin bir hissəsi əmək haqqı şəklində onu yaradan işçilərə və idarəedicilərə, digər hissəsi isə mənfəət formasında sahibkar və firmaya çatır. Sahibkarın əldə etdiyi mənfəətin bir hissəsi vergi şəklində dövlət büdcəsinə yönəldilir. Bu, dövlət maliyyəsinin pul fondlarına daxil olur.

Əhali də gəlirindən dövlətə vergi verir. Bundan başqa, gömrük haqqı və s. yollarla dövlət büdcəsinə pul toplanır. Beləliklə, izafi məhsulun və zəruri məhsulun bir hissəsinin müxtəlif kanallarla dövlət büdcəsinə toplanması nəticəsində maliyyə vəsaiti yaranır. Cəmiyyətdə pul fondlarının yaranması, bölgüsü və istifadə olunması prosesində meydana çıxan iqtisadi münasibətlər maliyyə münasibətlərini təşkil edir.

Maliyyə bir iqtisadi anlayış kimi, dövlətlə sahibkarlar, bütövlükdə dövlət və cəmiyyət arasında pul münasibətlərini əks etdirir. Maliyyə münasibətləri vasitəsilə dövlətin və sahibkarların əlində toplanan pul vəsaitləri ehtiyac olan sahələrə yönəldilir.

Maliyyə ölkənin iqtisadiyyatının inkişafında, onun ərazi bütövlüyünün təmin olunmasında mühüm vasitədir.

O, dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində aparıcı rol oynayır.

Dövlətin qüdrəti onun maliyyə vəsaitinin həcmi ilə ölçülür. Maliyyə vəsaitinin həcmi də istehsalın inkişafından, maddi istehsal sahəsində əmək məhsuldarlığından asılıdır. Eyni zamanda ondan düzgün istifadə etmək də mühüm əhəmiyyət kəsb edir. Dövlət maliyyə vəsaiti hesabına geniş təkrar istehsalın fasiləsizliyini təmin edir. O, pul vəsaitinin müəyyən hissəsini qeyri-istehsal sahəsinin saxlanmasına, inkişafına, ərazi bütövlüyünün təmin edilməsində mühüm rol oynayan ordunun maddi-texniki təchizatına yönəldir.

Maliyyə anlayışı demək olar ki, həmişə pul formasında öz ifadəsini tapır. Buradan belə nəticə çıxarmaq olar ki, maliyyə münasibətlərinin pul formasında ifadəsi onun başlıca əlamətlərindən biridir. Buna görə də maliyyənin mövcudluğu pulsuz mümkün deyil.

Maliyyə geniş təkrar istehsalda bir sıra proporsiyaların, o cümlədən ümumi daxili məhsulda istehlak fondu ilə yığım fondu arasında optimal proporsiyanın yaradılmasında vasitədir. Ölkənin daxili və xarici şəraitindən asılı olaraq proporsiyalar daim təkmilləşdirilməlidir. Dövlət bunu maliyyə sistemi vasitəsilə tənzimləyir.

Ümumi daxili məhsulun bölgüsü və yenidən bölgüsü də maliyyə vasitəsilə həyata keçirilir. Belə ki, qeyri-istehsal sahəsində işləyənlər ümumi daxili məhsulun ilkin bölgüsündə ondan pay ala bilmirlər. Dövlət büdcəsinin vasitəsilə ümumi daxili məhsul yenidən bölünən zaman həmin sahədə işləyənlər milli gəlirdən pay alırlar.

Maliyyə iş qüvvəsinin geniş təkrar istehsalında da xüsusi rol oynayır. Elmin, təhsilin, səhiyyənin saxlanması və inkişafı, əhalinin sosial təminatı və başqaları dövlət büdcəsi vasitəsilə həyata keçirilir.

Elmi-texniki tərəqqini təmin edən sahələrin yaranması və inkişafında da maliyyə mühüm rol oynayır. Ümumdövlət əhəmiyyəti olan müəssisə və sahələr adətən dövlət büdcəsindən maliyyələşdirilir.

Yuxarıda qeyd edildiyi kimi, istehsal prosesində yaranan izafi məhsulun müyyən hissəsi sahibkara mənfəət şəklində çatır. Bu, sahibkarın maliyyə fondunu təşkil edir. Sahibkar bu pul vəsaitinin müəyyən hissəsini istehsalın inkişafına və təkmilləşdirilməsinə yönəldir. Lakin sahibkar böyük bir iş görmək üçün onun daxili yığımı kifayət etmir. Belə hallarda dövlət bu vəzifəni öz üzərinə götürür.

Dövlət maliyyə mənbəyi hesabına iri elektrik stansiyalarının, zavodların tikintisini, irriqasiya və meliorasiya işlərini, yeni torpaqların istifadəyə verilməsini və s. həyata keçirir.

Normal inkişaf etmiş bazar iqtisadi sistemi ölkələrində maliyyə öz vəzifələrini əsasən yerinə yetirir və iqtisadiyyatın inkişafında, milli iqtisadiyyatın strukturunun təkmilləşməsində böyük rol oynayır.

Məlum səbəblər üzündən bu sahədə Azərbaycan dövlətinin qarşısına müəyyən çətinliklər çıxmışdır. Bunun əsas səbəbi sovet sistemi dövründə Azərbaycanda yaradılmış maliyyə vəsaitinin əsas hissəsi imperiya dövlətinin sərəncamına keçdiyindən Azərbaycanın maliyyə ehtiyatı olmamışdır. Azərbaycan müstəqil dövlət olduqdan sonra maliyyə münasibətlərini yenidən milli mənafeyə uyğun qurmaq üçün əlverişli şərait yaranmışdır. Lakin sovet imperiyası Azərbaycana bir çox problemlər qoyub getdiyi üçün onların həllinə Azərbaycanın maliyyəsi hələlik kifayət etmir. Məsələn, yeni mülkiyyət formalarının yaradılması, istehsalın strukturunun yenidən qurulması, məhsuldar qüvvələrin yenidən milli mənafeyə uyğun səmərəli yerləşdirilməsi və

başqaları böyük maliyyə vəsaiti tələb edir. Buna nail olmaq üçün yalnız maliyyə sistemini yenidən qurmaq lazımdır. Bu obyektiv zərurətdən doğan prosesdir.

Azərbaycanın bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar olaraq respublikamızın maliyyəsi yeni məzmun alır və özünəməxsus funksiyalar yerinə yetirir – bölgü və nəzarət.

Respublikanın maliyyə sistemi vasitəsilə ümumi milli məhsul, pul formasında ictimai istehsalın sahələri arasında – dövlət və müxtəlif mülkiyyət formalarını əhatə edən bölmələr, sahələr, müəssisələr, firmalar, şirkətlər arasında, ölkənin rayonları arasında, bütövlükdə cəmiyyətlə onun üzvləri arasında bölüşdürülür. Maliyyə ölkə iqtisadiyyatının bütün resurslarından ən səmərəli surətdə istifadə olunmasına, qənaət rejiminin, kommersiya hesabının, maliyyə intizamının möhkəmlənməsi və istehsalın səmərəliliyinin yüksəldilməsinə xidmət edir.

Maliyyə vasitəsilə bölgü prosesində bölgü obyekti kimi ümumi milli məhsul və milli gəlir çıxış edir. Maliyyə məhsul satışından gələn pul gəlirlərini, xüsusən onun xalis gəliri təşkil edən hissəsinin bölgüsündə mühüm rol oynayır. Bu bölgü əlavə dəyər vergisi, aksiz vergisi, mənfətdən fondlar üçün haqq və başqa ödəmələr yolu ilə xalis gəlirin bölgüsü və yenidən bölgüsü həyata keçirilir.

Dövlət maliyyə vasitəsilə milli gəlirin çox hissəsini əhalinin sosial-mədəni ehtiyaclarına yönəldir. Belə ki, təhsil, tibb xidməti, mənzil tikintisi, pensiya, təqaüd, müavinət və s. məqsədlər üçün vəsait ayrılır.

Maliyyə sistemi vasitəsilə ilə əhalinin fərdi gəlirlərinin bir hissəsi də (vergilər, sığortalar, istiqrazlar və s. formasında) yenidən bölüşdürülür. Beləliklə, maliyyə sistemi vasitəsilə ümumi milli məhsul və milli gəlirin

bölgüsü və yenidən bölgüsünü həyata keçirməyə xidmət edir.

Azərbaycanın maliyyə sisteminin bir funksiyası da maliyyə vəsaitlərindən səmərəli istifadə etməyə nəzarətdir. Belə ki, maliyyənin nəzarət funksiyasından dövlət büdcəsinin, müəssisələrin, firmaların, şirkətlərin və təşkilatların qarşılarında duran vəzifələrin necə yerinə yetirilməsində istifadə edilir. Burada əsas məqsəd sovet sistemindən miras qalmış israfçılığın, qeyri-səmərəli xərclərin aradan qaldırılmasıdır. Buna nail olmadan nə istehsalın səmərəliliyini yüksəltməyə, nə də sağlam milli iqtisadiyyatı formalaşdırmağa nail olmaq mümkün deyil.

Respublikanın maliyyə sistemi pul vəsaiti fondunun təşkili və istifadəsi üzrə yalnız ona xas metod və formalara malik institutların məcmuu və onların vasitəsilə cəmiyyətdə maliyyə funksiyaları yerinə yetirilir və qarşıda duran əsas  vəzifələr həll edilir.

Respublikanın maliyyə sisteminə dövlət büdcəsi, sığorta sistemi, müəssisə, idarə və təşkilatların maliyyəsi daxildir.

Respublikanın maliyyə sisteminin tərkib hissəsi kommersiya əsaslarında fəaliyyət göstərən müəssisə, firma, idarə və təşkilatların maliyyəsindən və qeyri-kommersiya fəaliyyəti həyata keçirən idarə və təşkilatların, ictimai birlikləin maliyyəsindən ibarətdir.

Sığorta sistemi isə sosial sığorta, şəxsi sığorta, əmlak sığortası, mülkiyyət sığortası və sahibkarlıq risklərinin sığortasını özündə birləşdirir. Bütün bu maliyyə rıçaqları artıq respublikamızda yaradılmışdır və fəaliyyət göstərir.

Həhayət, dövlət maliyyəsi dövlət büdcəsi, büdcədən kənar fondlar və dövlət kreditindən ibarətdir.

Azərbaycanın maliyyə sistemi təşkilatlarının quruluşu və təşkili əsasları, bütün dövlət quruculuğu kimi

Azərbaycan Respublikasının konstitusiyası ilə müəyyən olunur. Azərbaycanın bütün maliyyə sistemi orqanlarına rəhbərlik Azərbaycan dövlət idarəetmə və ali dövlət hakimiyyəti orqanları – Respublika Milli Məclisinin və Nazirlər Kabinetinin səlahiyyətlərinə aiddir. Onlara respublika büdcəsinə baxmaq və təsdiq etmək hüququ verilmiş, dövlət sığortasının təşkili, istiqrazların buraxılması və satışının təşkili onlara həvalə edilmişdir. Respublikanın Milli Məclisində daim fəaliyyət göstərən büdcə komissiyası yaradılmışdır.

Respublikada maliyyə sisteminə operativ rəhbərliyi Respublika Maliyyə Nazirliyi həyata keçirir. Şəhər və rayonlarda müvafiq maliyyə orqanları fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasında isə Muxtar Respublikanın Ali Məclisi və Nazirlər Kabineti ali orqanlarının göstərişlərini rəhbər tutaraq, bütün maliyyə məsələlərini maliyyə nazirliyi vasitəsilə həyata keçirirlər.

Bu deyilənlər onu göstərir ki, gənc Azərbaycan dövləti özünün maliyyə sisteminin yenidən qurulmasını dərk etmiş və bu sahədə əhəmiyyətli işlər görülmüşdür. Lakin bu çox çətin və uzunmüddətli proses olduğundan bu sahədə hələ çoxlu problemlər vardır.

## § 2. Azərbayjan Respublikasının dövlət büdjəsi və onun strukturu

Büdcə fransız sözü olub «budget» sözündən əmələ gəlmişdir. Azərbaycan dilində müəyyən müddət ərzində dövlətin gəlir və xərclərinin siyahısı (cədvəli) mənasını verir. Büdcə dövlətin, müəssisənin, idarənin, ailənin və s. müəyyən müddət ərzində nəzərdə tutduğu gəlir və xərclərin məcmusudur. Büdcə aşağıdakı növlərə ayrılır: dövlət, bələdiyyə, müəssisə, birlik, ailə büdcələri və s. Bunların içərisində dövlət büdcəsi əsas yer tutur. Dövlət

büdcəsi onun gəlir (mədaxil) mənbələrini və məxaric istiqamətini əhatə edir. Büdcənin layihəsi hər il qanunverici orqan olan parlament tərəfindən müzakirə və təsdiq olunur.

Büdcə dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaradılmasının və ondan istifadə edilməsinin formasıdır. Büdcə anlayışı da maliyyə münasibətləri ilə əlaqədardır. O, dövlətlə ayrı-ayrı müəssisələr, birliklər, əhali, hüquqi və fiziki şəxslər arasındakı münasibəti ifadə edir.

Dövlətin maliyyə sistemində ən mühüm alət, vasitə dövlət büdcəsidir. Ümumi milli məhsulun əhəmiyyətli hissəsi dövlət maliyyə sistemi vasitəsilə yenidən bölünür. Büdcə vəsaitinin hesabına xalq təsərrüfatının, elm və mədəniyyətinin inkişafı, dövlətin idarəetmə orqanlarının saxlanması, dövlətin müdafiəsinin maliyyələşdirilməsi təmin edilir.

Dövlət büdcəsinin fəaliyyəti onun iqtisadi formaları ilə əlaqədardır. Bu iqtisadi formalara gəlirlər və xərclər daxildir. Bu formaların hər biri müəyyən vəzifəni yerinə yetirir. Məsələn, büdcənin gəlirlərindən ibarət olan hissəsi, ölkə iqtisadiyyatı, cəmiyyət üçün maliyyə-pül bazasıdırsa, büdcənin xərclər bölməsi ümumdövlət ehtiyaclarının ödənilməsi üçün yol və vasitədir. Məhz bu ehtiyacları ödəmək üçün büdcə fondu yaradılır.

Dövlət büdcəsi maliyyə sisteminin mərkəzi halqası, maddi istehsalın və qeyri-istehsal sahəsinin inkişafının vacib şərti olmaq etibarilə cəmiyyətin iqtisadi və mədəni həyatında əvəzsiz rol oynayır.

Dövlət büdcəsi bölgü və bununla bağlı vəzifəni də yerinə yetirir. O, firma və müəssisələrin, birliklərin, ayrı-ayrı təşkilatların, şirkətlərin gəlirlərinin yaranması və ondan istifadə üzrə münasibətləri tənzimləyir.

Dövlət büdcəsi dövlətin başlıca gəlir və xərclərini birləşdirməklə, resursları səfərbər edir və xərclənməsini həyata keçirir. Maliyyə sisteminin əsas həlqəsi olan dövlət büdcəsi mahiyyət etibarilə əsas maliyyə kateqoriyalarının (vergilər, dövlət krediti, dövlət xərcləri) vəhdətidir.

Dövlət büdcəsi ümumi milli məhsulun və milli gəlirin bölgüsündə fəal iştirakı nəzərdə tutan maliyyə planıdır.

Vəsaitlərin dövlət büdcəsində səfərbər edilməsi dövlətin sosial-iqtisadi, siyasi və digər funksiyalarının icrası üçün zəruridir. Həmin vəsaitlərin istifadəsində manevretmə imkanları ölkə ərazisində iqtisadi və maliyyə siyasətini həyata keçirməyə imkan verir.

Azərbaycanda dövlət büdcəsinin iqtisadiyyatının dövlət bölməsinin maliyyə planı kimi ölkənin ümumi inkişafında mühüm əhəmiyyəti qalmaqdadır. Əlbəttə, bu halda büdcənin ictimai istehsala və sosial sahəyə təsiri üsullarında əhəmiyyətli dəyişikliklər baş verir.

Dövlət büdcəsi iqtisadiyyatın bütün bölmələri ilə əlaqədar olan aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- milli gəlirin və ümumi daxili məhsulun yenidən bölgüsü;
- iqtisadiyyatın dövlət tənzimlənməsi və stimullaşdırılması;
- sosial-siyasətin maliyyə təminatı;
- mərkəzləşdirilmiş pul vəsaitləri fondunun yaranması və istifadəsinə nəzarət.

Milli gəlirin və ümumi daxili məhsulun yenidən bölgüsü zamanı Azərbaycanın xüsusiyyətləri nəzərə alınmaqla əsasən aşağıdakı istiqamətlərə üstünlük verilməlidir:

- iqtisadiyyatda mütərəqqi quruluş dəyişikliklərinin maliyyələşdirilməsinə;
- məqsədli proqramların maliyyələşdirilməsinə;

- elmi-texniki potensialın artırılması və təbiəti mühafizənin maliyyələşdirilməsinə;

- sosial inkişafa.

İstehsalın səmərəliliyinin yüksəldilməsi məqsədilə dövlət büdcəsi gəlirləri və xərcləri vasitəsilə tənzimləyici funk siyanı icra edir. Xərclərin tənzimlənməsində üstünlük verilən sahələrə dövlət yardımı, investisiyalar mühüm rol oynayır.

Bazar münasibətlərinin təşəkkülü şəraitində büdcə və-
saitlərinin sosial yönümü, başqa sözlə, sosial sahəyə artan diqqət iqtisadi inkişafın və siyasi sabitliyin əsas şərtlərindəndir.

Keçid dövründə dövlət büdcəsinin mərkəzləşdirilmiş pul vəsaitləri fonlarının yaranması və istifadəsinə nəzarəti funksiyası güclənir. Bu funksiyanı – hökumət və ya digər orqanlar həyata keçirir. Nəzarət funksiyası büdcənin iqtisadi tənzimləmə roluna uyğun olmaqla, bir çox hallarda xərclərə və gəlirlərə hədd qoyulması prosesidir.

Dövlət büdcəsinin strukturu büdcənin xərcləri və gəlirlərindən ibarətdir. Dövlət büdcəsinin xərcləri əsasən aşağıdakı istiqamətlərə yönəldilir:

- maddi istehsalın maliyyələşdirilməsi ilə əlaqədar xərclər;
- qeyri-istehsal sahələrinin saxlanılması xərcləri;
- sosial-mədəni tədbirlərə;
- ölkənin müdafiəsinə;
- fundamental tədqiqatlara, elmi-texniki tərəqqinin dəstəklənməsinə;
- asayişin və təhlükəsizliyin təmin olunmasına;
- idarəetmə aparatının saxlanmasına.

Xərclərin həyata keçirilməsi zaman meyarına görə cari və əsaslı xərclər kimi fərqləndirilir. Cari xərclərə aşağıdakılar aid edilir:

- malların alınması və xidmətlərin ödənilməsinə;
- dövlət bölməsi işçilərinin əməyinin ödənilməsinə;
- dövlətin borclarının ödənilməsinə;
- dövlətin xarici borclarının ödənilməsinə.

Dövlət büdcəsi gəlirləri və xərcləri arasında uyğunluğun təmin edilməsi və iqtisadi təhlil baxımından böyük əhəmiyyətini nəzərə alaraq, dövlət büdcəsi xərclərinin təsnifləşdirilməsi iqtisadçı-alimlərin diqqət mərkəzindədir.

Azərbaycanda dövlət büdcəsi xərclərinin tərkibi əhəmiyyətli dəyişikliklərlə müşayiət olunur. Özəlləşdirmə prosesi bu dəyişikliklərin əsas səbəbidir. Səhmdar cəmiyyətlərinə çevrilən dövlət müəssisələri istehsalın genişləndirilməsini öz vəsaitləri hesabına həyata keçirməlidir. Odur ki, iqtisadiyyatın inkişafına, xüsusən mərkəzləşdirilmiş kapital qoyuluşuna büdcə ayırmalarının miqdarı azalır.

Azərbaycanda gedən özəlləşdirmə prosesi dövlət büdcəsi xərclərinin tərkibində adı çəkilən xərclərin azalması meylinə təkan versə də, dövlət bölməsinin böyük xüsusi çəkisi iqtisadiyyata miqdarda büdcə ayırmaları tələb edir.

Dövlət büdcəsi xərcləri maliyyə ili üçün təsdiq olunur və burada qabaqcadan planlaşdırılması mümkün olmayan xərclər də nəzərə alınır. Bunlar fövqəladə xərclər adını almışdır və bir qayda olaraq büdcənin tərkibindəki ehtiyat fondları hesabına ödənilir.

Dövlət büdcəsi xərcləri onlardan gözlənilən nəticələrin müddətinə görə də fərqləndirilir. Bu baxımdan həmin xərclər real və transfer xərclərə ayrılır.

Dövlətin mal alınması və xidmətlərin ödənilməsi xərcləri real xərclər adını almışdır. Belə ki, həmin xərclər bilavasitə milli gəlirin artımına səbəb olur.

Əvəzsiz olaraq həyata keçirilən xərclər kimi nəzərdən keçirilən transfer xərcləri müxtəlif sosial təbəqələrin alıcılıq qabiliyyətinin yüksəldilməsinə yönəldilir. Bura əmək haqqına yönəldilən birbaşa xərclər, subsidiyalar və sosial sahəyə müdaxilə xərcləri aiddir.

Büdcə xərclərinin həyata keçirilməsinin əsas prinsiplərinə aşağıdakılar aid edilir:

- minimum xərclər müqabilində maksimum səmərə əldə edilməsi;
- büdcə ayırmalarından istifadənin məqsədli xarakteri;
- büdcə vəsaitləri verilərkən istehsal göstəricilərinin yerinə yetirilməsi və əvvəlki ayırmaların istifadəsi dərəcələrinin nəzərə alınması;
- büdcə ayırmalarının qaytarılması.

Dövlət büdcəsi xərclərinin həyata keçirilməsində əsas vəzifələr aşağıdakılardır:

- məqsədli proqramların sayının azaldılması və bu zaman daha səmərəli və iqtisadi baxımdan əhəmiyyətli layihələrə üstünlük verilməsi;
- dövlət aparatının saxlanması xərclərinin azaldılması;
- investisiya proseslərinin qeyri-mərkəzləşdirilməsi, layihələrin dövlət-kommersiya maliyyələşdirilməsi təcrübəsinin geniş yayılması;
- ayrı-ayrı sahələrə ayrılan dotasiyaların azaldılması;
- büdcə vəsaitlərinin istifadə üzərində nəzarətin gücləndirilməsi.

Dövlət büdcəsinin strukturunda gəlirlər hissəsi çox mühüm əhəmiyyət kəsb edir və xərcləin ödənilməsinin əsası burada qoyulur. Dövlət büdcəsinin gəlirləri iki mənbədən daxil olur:

1) dövlətin əlində cəmləşən maliyyə resurslarından; 2) vergilərdən, xarici iqtisadi fəaliyyətdən əldə edilən gəlirlər, əhali tərəfindən ödəmələrdən.

Dövlət büdcəsi gəlirləri hesabına cəmiyyətin iqtisadi və sosial inkişafı problemləri həll olunur. Dövlət büdcəsi gəlirlərinin başlıca mənbəyi izafi məhsuldur. Bununla belə fövqəladə vəziyyətdə (müharibə, böyük təbii fəlakət və s.) dövlət gəlirlərinin mənbəyi kimi əvvəllər toplanmış milli sərvət çıxış edə bilər. Bu halda dövlət gəlirləri aşağıdakı mənbələr hesabına yaradılır:

- büdcə vəsaitlərinin xərclərin ödənilməsinə yönəldilən qalığı;
- qızıl ehtiyatının satışı;
- dövlət əmlakının pullu özəlləşdirilməsi.

Dövlət gəlirlərinin mənbələrini, həmçinin xarici və daxili mənbələr kimi də fərqləndirirlər. Daxili mənbələrə ölkə daxilində yaradılan və dövlətin funksiyalarını icra etmək üçün istifadə edilən gəlir və milli sərvət aid edilir.

Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsi gəlirlərinin tərkibinə aşağıdakı gəlir növləri aid edilir:

- vergilər;
- dövlətin sərvətindən istifadəyə görə alınan gəlirlər;
- xəzinənin imkanlarından istifadə etməklə əldə edilən gəlirlər;
- borclanmalardan gələn gəlirlər.

Gəlirlərin bu növləri arasında nisbətlər müxtəlif tarixi dövrlərdə müxtəlif olur və çoxsaylı amillərdən asılıdır. Həmin amillərə aşağıdakılar aid edilir:

- maliyyə siyasətinin səciyyəsi;
- təsərrüfat konyunkturası;
- konkret sosial-iqtisadi vəziyyət.

Dövlət sərvətlərindən istifadəyə görə alınan gəlirlər daşınan və daşınmaz əmlakların istifadəsindən əldə edilən gəlirlərdir.

Fövqəladə dövlət gəlirləri kimi xəzinənin imkanlarından gələn gəlirlərin xüsusi çəkisi artmaqdadır. Bu gəlirin əvəzi həqiqi dövlət gəliri ilə ödənilməlidir.

Müxtəlif üsullarla formalaşan dövlət gəlirlərinin bütün növləri, onların qarşılıqlı əlaqəli tətbiqi-dövlət gəlirləri sistemini təşkil edir. Dövlət gəlirləri sistemi yalnız fiskal tədbirləri deyil, həmçinin iqtisadi məsələlərin də həllinə yönəldilməlidir. Fiskal funksiyanı yerinə yetirərkən dövlət gəlirləri sistemi müəssisənin maliyyə dayanaqlığını pozmamalıdır.

Dövlət büdcəsi gəlirləri sistemində mərkəzi yeri vergilər tutur. Bazar iqtisadiyyatı şəraitində maliyyə münasibətlərinin vergi forması üstünlük təşkil edir. Vergilər milli gəlirin yenidən bölgüsünün başlıca alətidir. Bu həm büdcə, həm də büdcədənkənar fondların yaradılması zamanı maliyyə resurslarının əsas hissəsini səfərbər edir. Vergilərin növləri və onların tutulması mexanizmi qanunvericilik qaydasında müəyyən edilir.

Vergilər fiskal, iqtisadi və sosial əhəmiyyətə malikdir. Vergilər pul vəsaitləri mənbəyi olmaqla fiskal rolu yerinə yetirir. Vergi mexanizmini tənzimləməklə (güzəşt və s.) ictimai istehsal inkişaf etdirilir.

Nəhayət, vergilər vasitəsilə mühüm sosial məsələlər həll olunur. Məsələn, müxtəlif sosial qrupların gəlirləri tənzimlənir və s.

Vergi siyasəti ümumiyyətlə, kapital yığımı onun təmərküzləşməsi və əhalinin alıcılıq qabiliyyətinə təsir edir. Vergilər iqtisadi tsikllərin hamarlanması üçün fəal istifadə olunur. Belə ki, vergilərin tənzimləyici funksiyası vergilər vasitəsilə dövlətin təkrar istehsal prosesinə müdaxilə etməsini təmin edir.

Ölkədə istifadə olunun bütün vergi növlərinin, vergiqoymanın üsul və prinsiplərinin məcmuu həmin ölkənin vergi sistemini əmələ gətirir.

Vergilər birbaşa və dolayı vergilərə bölunur. Birbaşa vergilər hüquqi və fiziki, eləcə də həm hüquqi, həm də fiziki şəxslərdən alınan vergilərdir.

Hüquqi şəxslərdən alınan birbaşa vergilərə aşağıdakılar aid edilir:

- mənfəətdən vergi;
- kommersiya bankları və sığorta cəmiyyətlərindən gəlir vergisi;
- müəssisənin əmlakına görə vergi;
- sənaye müəssisələrindən sui-istifadəyə görə haqq;
- renta ödəmələri və s.

Fizi şəxslərdən alınan vergilərə aşağıdakılar aiddir:

- gəlir və əmlak vergiləri;
- məqsədli yığımlar.

Həm hüquqi, həm də fiziki şəxslərdən alınan vergilərə aşağıdakılar aiddir:

- torpaq vergisi, meşə vergisi;
- qiymətli kağızlarla əməliyyatlara görə vergi və s.

Dolayı vergilərə aşağıdakılar aiddir: aksizlər, fiskal inhisar vergiləri, gömrük rüsumları. Dolayı vergilərə həmçinin əlavə dəyər vergisi də aiddir. Büdcəyə qeyri-vergi gəlirləri də daxil olur:

- pullu özəlləşdirmə;
- dövlətin istiqrazlarının və digər qiymətli kağızların satışından daxil olmalar.

İstənilən dövlətdə dövlət büdcəsi kəsirli və yaxud kəsirsiz ola bilər. Kəsirli o büdcəyə deyilir ki, bu ölkədə xərclər gəlirlərdən çox olur, kəsirsiz büdcə isə əksinə, gəlirlər xərcləri qabaqlayır.

Büdcə kəsiri maliyyə hadisəsi olub, fövqəladə və istisna hal deyildir. Dünyada elə dövlət yoxdur ki, nə vaxtsa onun budcəsində kəsir olmasın. Lakin kəsirin əmələ gəlmə səbəbləri müxətlif ola bilər.

Azərbaycanın dövlət büdcəsi də kəsirli büdcələr sırasına daxildir. Azərbaycanın dövlət büdcəsinin kəsirli olmasının əsas səbəbləri onun həm inkişaf etməkdə, həm də keçid iqtisadiyyatlı kiçik dövlət olması ilə əlaqədar olaraq obyektiv çətinliklərlə əlaqədardır. Bunlara Azərbaycanın müstəqil dövlət olmasını istəməyən dövlətlər tərəfindən onun Ermənistanla müharibəyə cəlb olunması vəziyyəti daha da çətinləşdirmişdir. Lakin buna baxmayaraq Azərbaycan dövlətinin gördüyü tədbirlər sayəsində Azərbaycanın dövlət büdcəsinin gəlirləri əhəmiyyətli dərəcədə artmış və xərcləri ödəməyə yaxınlaşmışdır. Müxtəlif illər üzrə büdcənin artım templərini müqayisə etdikdə görürük ki, 2005-ci ildə büdcənin gəlirləri 2, xərcləri 2,2 milyard manat idisə, indi bu rəqəm 2011-ci ildə 12 milyarddan çox olacaq və gəlirlə xərclər arasında fərq minimama endirilməsi planlaşdırılmışdır.

Azərbaycanın iqtisadi inkişaf modeli sosial yönümlü modellər sırasına daxildir. Yəni dövlətin məqsədi imkan yarandıqca sosial problemin həllini ön plana çəkməkdir. Buna görə də 2011-ci ildə də əvvəlki illərdə olduğu kimi dövlət büdcəsi sosial yönümlülük istiqamətində formalaşması nəzərdə tutulmuşdur.

Azərbaycan hakimiyyətinin sosial sahəyə diqqətinin nəticəsidir ki, son illərdə təsdiq olunan dövlət büdcələrində sosialyönümlülük prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.

Azərbaycan artan maliyyə imkanlarının nəticəsi olaraq artıq son illərdə ölkəmizin dövlət büdcəsində investisiya xərcləri də əsas istiqamət təşkil etməyə başlamışdır. Müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın 2009-cu il üçün dövlət büdcəsində investisiya xərcləri üçün ayrılan vəsait təxminən 38 faiz

təşkil etmişdir. Bu siyasət 2010-cu ildə davam etdirilmiş və 2011-ci ildə buna xüsusi diqqət yetirilmişdir.

Ölkəmizin iqtisadi strategiyasına uyğun olaraq 2011-ci ildə sosial müdafiə xərclərinin – minimum əmək haqlarının, sosial müavinətlərin və digər sosial təyinatlı xərclərin, tələbə və aspirantların təqaüdlərinin artırılmasının təmin edilməsi, pensiyaların baza hissəsinin yaşayaş minimumu həddinə yaxınlaşdırılması, sığorta və pensiya sistemində islahatların dərinləşdirilməsi qarşıya əsas məqsəd qoyulmuşdur.

Sosial məqsədli xərclərin ünvanlı dövlət proqramları çərçivəsində xərclənməsi Azərbaycanın dövlət büdcəsinin ən mühüm cəhətlərindən biridir. Bu, dövlət büdcəsi vəsaitlərinin xərclənməsində şəffaflığı təmin etməklə, həm də xərclərin səmərələşdirilməsinə və ünvanlığına əsas yaradır.

## § 3. Azərbayjanda kredit münasibətləri və onun həyata keçirilməsində bankların rolu

Kredit latın sözü olan «crlditum» sözündən əmələ gəlmişdir; o inanmaq mənasını verir. Bazar iqtisadi sistemi şəraitində müvəqqəti pul borc mənbəyi olur. Azərbaycan dilində malı borc, borc, nisyə almaq deməkdir. Azərbaycanda bazar iqtisadi sisteminin formalaşması və inkişafında kredit münasibətlərinin rolu böyükdür. Ona görə də bir iqtisadi kateqoriya kimi kreditin zəruriliyini və mahiyyətini bilmək faydalıdır.

Kredit qaytarılmaq və əlavə faiz ödənilmək şərtilə pul və ya əmtəə formasında verilən borca deyilir. Kreditin hərəkəti zamanı borc verənlə borc alan arasında müəyyən iqtisadi münasibətlər yaranır.

Borc kapitalının hərəkəti kredit vasitəsilə həyata keçirilir. Borc kapitalı sələm kapitalının yerinə gəlib.

Bunların ümumi cəhətlərindən biri ondan ibarətdir ki, hər ikisi faiz gətirən kapitaldır. Sələm kapitalı kapitalizmin yaranmasından çox-çox əvvəlki tarixi dövrlərdə mövcud olub. Onun xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, borc alanın əsas məqsədi istehlak tələbatını ödəməkdir.

Qədim dini kitablarda (İncil, Quran) antik və orta əsr mütəfəkkirlərinin əsərlərində sələmçilik, yəni pul verib əvəzində faiz almaq kimi əmllər günah sayılıb. Lakin cəmiyyətin inkişafının sonrakı yetkin dövrlərində borc kapitalı daha da inkişaf etməyə və funksiyalarını genişləndirməyə başlamışdır. Bunun xarakterik cəhəti həm borc alan, həm də borc verən qarşısına mənfəət əldə etmək məqsədi qoymasıdır. Bu iqtisadi hadisə bazar iqtisadi sisteminin formalaşması və inkişafı dövründə baş vermişdir. Belə ki, kapitalın daim hərəkəti prosesində bəzi sahibkarın əlində müvəqqəti pul kütləvi yığılmağa başlayır. Bu pul kütləsini hərəkətsiz saxlamaq olmaz. Pul vəsaitinin hərəkətsiz qalması bazar iqtisadiyyatının təbiətinə uyğun deyildir. Məhz kredit bu ziddiyyəti həll edir.

Azərbaycanın bazar iqtisadiyyatına keçməsi xeyli dərəcədə kredit münasibətləri potensialının reallaşdırılması ilə bağlıdır. Odur ki, bazarın formalaşmasının zəruri şərtlərindən biri də pul tədavülünün və kreditin köklü islahatıdır. İslahatın başlıca məqsədi pul resurslarının mərkəzləşdirilmiş qaydada yenidən bölgüsünü minimuma endirməklə maliyyə bazarında onların əsasən üfiqi hərəkətinə nail olmaqdır. Maliyyə bazarının yaradılması xalq təsərrüfatının idarə edilməsində kredit institutlarının rolunun prinsipcə dəyişilməsi və iqtisadi münasibətlər sistemində kreditin rolunun artması deməkdir.

Bazar iqtisadi sistemində kredit ssuda kapitalının, yəni borca verilmiş pul kapitalının hərəkət formasını təcəssüm etdirir. Daha dəqiq desək, kredit-təminatlılıq, müddətlilik, qaytarılmaq və faiz ödəmək şərtləri əsasında ssuda kapitalının hərəkətidir. Kredit pul kapitalının borc kapitalına çevrilməsini təmin edir və borc verənlə borc alan arasındakı münasibətləri əks etdirir. Onun köməyi ilə müəssisələrin, özəl bölmənin və dövlətin sərbəst pul vəsaitləri cəmləşdirilir, borc kapitalına çevrilməklə müəyyən haqq müqabilində müvəqqəti istifadəyə verilir.

Kapital fiziki istehsal vasitələri şəklində bir sahədən digər sahəyə yönəldilə bilməz. Bu proses, adətən pul kapitalının hərəkəti formasında həyata keçirilir. Odur ki, bazar iqtisadiyyatında kredit hər şeydən əvvəl kapitalın bir sahədən digərinə axınının və mənfəət normalarının tarazlaşdırılmasında elastik mexanizmi kimi zəruridir.

Kredit sərbəst kapitalın bir sahədən digərinə yönəldilməsi yolu ilə müvəqqəti sərbəstləşən pulu zəruri sahələrə istiqamətləndirməklə müəyyən ziddiyyyətləri aradan qaldırır.

Eyni zamanda kredit fəaliyyətində olan müəssisələrin fondlarının təkrar dövriyyəsinin fasiləsizliyini təmin etmək, bazar münasibətlərinin bərqərar olduğu şəraitdə hazır məhsulların (əmtəələrin) satışı prosesini təşkil etmək üçün də zəruridir.

Bazarın meylləri nəzərə alınmaqla kapital o sahələrə can atır ki, orada daha çox mənfəət əldə olunması təmin edilsin və yaxud ölkə iqtisadiyyatının ümummilli inkişaf proqramlarına uyğun olaraq onlara üstünlük verilsin. Bu yolla o sahələr arasında yenidən bölünür. Buna görə də kredit yenidən bölgü funksiyasını yerinə yetirir. Bu funksiya ictimai xarakter daşıyır və istehsal münasibətlərinin nizamlaşdırılmasında, məcmu pul

kapitalının idarə olunmasında dövlət tərəfindən fəal istifadə olunur.

Kredit pul kütləsinin həcminə və strukturuna, tədiyə dövriyyəsinə, pulun tədavül sürətinə fəal təsir etmək imkanına malikdir. Kredit pullarının müxtəlif formalarını həyata gətirməklə respublikamızın bazar iqtisadiyyatına keçid dövründə o, nağdsız hesablaşmaların sürətlə inkişafı və onların yeni üsullarının tətbiqi üçün zəmin yaradılmasını təmin edə bilər. Bütün bunlar tədavül xərclərinin qənaətinə və bütövlükdə ictimai təkrar istehsalın səmərəliliyinin yüksəldilməsinə şərait yaradır.

Kreditin sayəsində mənfəətin kapitallaşması və beləliklə də, istehsalın təmərküşləşməsi prosesi daha tez baş verir. O, müəssisələrin səhmləşdirilməsi əsasında dövlət və bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi proqramının həyata keçirilməsində də nəzərə çarpacaq rol oynaya bilər. Bazarda səhmlərin yerləşdirilməsinin mühüm şərti xeyli pul kapitallarının toplanması və onların kredit sistemində cəmləşdirilməsidir. Bankların vasitəsilə kredit sistemi səhmlərin həm buraxılmasında, həm də yerləşdirilməsində fəal iştirak edir.

Kredit münasibətlərindən istifadə etmədən, onları daha da inkişaf etdirmədən respublikamızın milli iqtisadiyyatını inkişaf etdirmək və lazım olan infrastrukturun yaradılmasını təmin etmək mümkün deyildir.

Kredit məhsuldar qüvvələrin inkişafını stimullaşdırır, elmi-texniki tərəqqinin nailiyyətləri əsasında təkrar istehsalı genişləndirmək üçün kapitalın mənbələrinin formalaşmasını sürətləndirir.

Dövlət bankları o müəssisə və sahələrin üstün kreditləşdirilməsinə kömək edir ki, onların fəaliyyəti sosial-iqtisadi inkişafın ümummilli proqramlarının həyata keçirilməsi vəzifələrinə uyğun olsun. Kapital

qoyuluşunun, mənzil tikintisinin, mal ixracatının, geridə qalmış bölgələrin inkişafının stimullaşdırılmasında dövlət kreditdən istifadə oluna bilər.

Kreditə arxalanmadan fermer təsərrüfatının, kiçik biznes müəssisələrinin sürətlə və sivil qaydada təşəkkül tapmasını, ölkə ərazisində və xarici iqtisadi aləmdə sahibkarlıq fəaliyyətinin digər formalarının tətbiqini təmin etmək mümkün deyil.

Kreditə verilən pulun mənbəyini bilmək maraqlıdır. Bunun üçün maliyyənin mənbəyi ilə kreditin mənbəyinin müqayisəsi vacibdir. Əgər bu mövzunun ikinci paraqrafında göstərildiyi kimi maliyyənin mənbəyi izafi iş vaxtında yaradılan izafi məhsuldursa, kreditin mənbəyi müvəqqəti sərbəstləşən puldur. Bu prosesi nəzərdən keçirək.

Kapitalın dövranı zamanı sahibkarın əlində toplanan müvəqqəti sərbəst pul vəsaitləri istifadə olunmalıdır. İstehsal prosesində əsas kapital istehlak olunur, öz dəyərinin bir hissəsini yeni yaranmış əmtəənin üzərinə keçirir. Əmtəə satıldıqdan sonra həmin hissə ayırmalar şəklində sahibkarın sərəncamına keçir. Dövriyyə kapitalının hərəkəti zamanı da müvəqqəti pul vəsaiti yaranır. Məsələn, xammal, yanacaq, yardımçı material və s. istehsal prosesində öz dəyərini bir istehsal prosesində yeni yaradılmış əmtəənin üzərinə keçirir və onun dəyəri tədavüldən sonra pul şəklində sahibkarın əlində toplanır. Yeni xammal alana qədər həmin pul sahibkarın əlində sərbəst şəkildə qalır.

Əgər bütün pul vəsaitləri istehsal vasitələri və xammal alınana qədər istifadəsiz sahibkarın dəmir kassalarında yatıb qalırsa, o, heç bir mənfəət gətirə bilməz. Buna görə də sahibkarlar sərbəst pul kapitallarını banklara qoyur və bankdan faiz alırlar. Banklar öz növbəsində, bu kapitalları qaytarılmaq şərtilə daha

yüksək faizlə məhsuldar istifadə üçün digər fəaliyyətdə olan sahibkarlara verirlər. Müvəqqəti sərbəst kapitalların bu cür hərəkəti onların mülkiyyətçilərinə faydalıdır, çünki onlar banka qoyduqları pula görə bankdan faiz alırlar. Həm də borc alan sahibkarlara sərfəlidir. Onlar aldıqları borc pulu əsasən istehsala qoyurlar, oradan mənfəət əldə edirlər, mənfəətin bir hissəsini özləri mənimsəyir, digər hissəsini isə aldığı puldan istifalə üçün banka faiz verirlər. Banklar sərbəst pulu qəbul edəndə nisbətən aşağı, borc verəndə isə daha yuxarı faizlə verirlər. Bu fərq bank mənfəətini əmələ gətirir.

Bazar iqtisadiyyatı sistemində kreditin bir çox növləri mövcuddur. Bunlardan biri kommersiya kreditidir. Kommersiya krediti – fəaliyyətdə olan sahibkarların (sənayedə və ticarətdə) bir-birini əmtəə kapitalı şəklində verdikləri kreditdir.

Kreditin zəruriliyi fərdi kapitalların dövriyyəsinin fərqlərindən irəli gəlir. Bu isə ayrı-ayrı əmtəələrin istehsal və tədavül vaxtlarının uyğun gəlməməsi ilə əlaqədardır. Bəzi sahibkarlar hazır əmtəələri satışa çıxaran zaman, digərlərinin onları almaq üçün nəğd pulları olmur. Belə hallarda əmtəə onun dəyərinin müəyyən müddətdən sonra ödənilməsi ilə şərti kreditə satılır. Bununla satıcı borc verən, alıcı isə borclu olur. Bu, hər iki sahibkar – sənayeçi və ticarətçi üçün sərfəlidir. Çünki bu əmtəələrin satışını sürətləndirir. Bu isə təkrar istehsalın normal baş verməsi üçün əlverişli şərait yaratmaq deməkdir.

Əmtəələrin kreditə satışında tədavül vasitəsi funksiyasını, bir qayda olaraq vekselər yerinə yetirir. Veksel borclunun göstərilən vaxtda müəyyən pul məbləğini ödəməsini göstərən borc sənədidir.

Vekseldən bir sahibkar başqa sahibkardan əmtəələr almaq üçün pul əvəzinə istifadə edir. Veksel bu yolla

ticarət dövriyyəsinə daxil olur və kredit vasitəsinin ən sadə növünə çevrilir.

Kommersiya kreditinin fəaliyyət dairəsi məhduddur. Qeyd olunduğu kimi, bu, əmtəələrin satılması və alınması dairəsində fəaliyyət göstərir. Tədavül dairəsində əmtəələrin miqdarını artırmaq üçün isə istehsalı genişləndirmək lazımdır. Məhz bank krediti buna xidmət edir.

Bank krediti bankların fəaliyyətdə olan sahibkarlara pul borcları şəklində verdikləri kreditə deyilir.

Bank krediti istənilən həcmdə, hər bir sahibkara verilə bilər. Bank krediti dövlətin, çox hallarda, sərbəst xüsusi təşəbbüs göstərən sahibkarların xüsusi bir fəaliyyət sahəsinə çevrilir. Bu da bazar iqtisadi sisteminin tələblərinə uyğundur.

Müvəqqəti sərbəstləşən pul vəsaitini toplayıb və ehtiyacı olan sahibkarlara verilməsi işində banklar vasitəçilik edirlər. Onlar fəaliyyətsiz pul kapitalını işlək kapitala, yəni mənfəət gətirən kapitala çevirirlər.

Kommersiya və bank kreditlərindən başqa kreditin digər formaları da mövcuddur. Məsələn, dövlət, istehlak, ipoteka, beynəlxalq krediti və s.

Dövlət krediti zamanı borc verən rolunda dövlətin özü çıxış edir. Bunun ən geniş yayılmış forması dövlət tərəfindən istiqrazların buraxılmasıdır. Dövlət büdcə defisitini aradan qaldırmaq məqsədilə istiqrazlar buraxır. Dövlət xərclərinin ödənilməsində daxili istiqrazların buraxılmasından əldə edilən gəlir əsas mənbələrdən biridir.

Kredit uzunmüddətli və qısamüddətli olur. İstehsal məqsədilə verilən kreditlər əsasən uzunmüddətli olur. Dövlət krediti bu işdə mühüm rol oynayır. İstehlak krediti əhaliyə istehlak mallarının alınması və məişət xidmətlərinin ödənilməsi üçün verilən kreditdir. İstehlak

kreditini ticarət müəssisələri, banklar və başqaları verə bilərlər. Bir qayda olaraq, istehlak krediti qısamüddətli xarakter daşıyır. İstehlak kreditinə adətən uzunmüddətli istifadə olunan əmtəələr, məsələn, mebel, avtomobillər, televizorlar, soyuducular və s. daxildir.

İpoteka krediti – əmlakın girov qoyulması əsasında verilən kreditdir. İpoteka sözü latın sözündən əmələ gəlib, mənası girov deməkdir. Adətən, tərpənməz əmlakları – torpağı, ev və digər tikililəri aldıqları borcun əvəzində ipoteka banklarında girov qoyulur. Əgər borclu borcunu vaxtında qaytarmasa əmlak bankın sərəncamına keçir.

Beynəlxalq kredit – borc kapitalının ölkələr arasında hərəkəti və fəaliyyətidir. Borc alan və borc verən rolunda banklar, iri şirkətlər, xüsusi sahibkarlar, dövlət idarələri və başqaları iştirak edə bilərlər.

Kredit verilərkən aşağıdakı prinsiplər əsas götürülür: müəyyən artımla, faizlə geri qaytarılması, məqsədli, təminat verilməsi, fərqləndirici və s. Kredit alan hökmən faiz verməli, hansı məqsəd üçün alıbsa orada istifadə olunmalı, təminatlı olmalıdır. Maliyyə imkanı olmayan subyektə onun imkanından artıq borc verilmir. Borcu vaxtında qaytaran, intizamlı subyektlərə güzəştli, qaydaları pozanlara isə yüksək faiz tətbiq edilir.

Dövlətin kredit siyasətinin həyata keçirilməsində bankların rolu böyükdür. Banklar müvəqqəti sərbəstləşən pul vəsaitinin toplayaraq onları ehtiyacı olanlara faiz almaq şərti ilə paylanan müəssisələrdir. Bu sahədə dövlət və özəl banklar fəaliyyət göstərə bilərlər.

Pul kapitallarının toplanması və onların borc verilməsi bazar iqtisadiyyatı şəraitində bankların əsas vəzifəsini təşkil edir. Onların mühüm vəzifəsi borc pul alanla borc verən arasında vasitəçilik etməkdir. Banklar təkcə sənaye və ticarət mülkiyyətçiləri arasında borc alıb, borc verməkdə vasitəçilik deyil, eyni zamanda əhalinin

pul gəlirlərinin və qənaət edib yığdıqları pullarını borc kapitalına çevirməni də həyata keçirir. Öz-özlüyündə əhalinin əlində olun pul kapital deyildir. Çünki bu pullar sahiblərinin şəxsi istehlak tələbatının ödənilməsi məqsədilə yığılıb. Lakin həmin pul vəsaiti bankın sərəncamına keçdikdən sonra kapitala çevrilə bilər.

Azərbaycanın Mərkəzi Bankı respublikanın baş bankıdır. O, respublikanın pul-kredit sisteminin idarə edilməsini təşkil edir, respublikanın bankları arasında əlaqələndirici rolu oynayır, pul və başqa qiymətli kağızları buraxır.

Respublikanın səhmdar-kommersiya, aqrar-sənaye bankı (ABŞ) kredit-hesablaşma əməliyyatlarını həyata keçirir.

Respublikanın səhmdar-kommersiya, sənaye-investisiya bankı (SİB) sənayedə, ticarətdə, nəqliyyatda və başqa sahələrdə investisiyalara və kreditlərə nəzarət edir.

Respublikanın səhmdar-kommersiya əmanət bankı respublikada əmanət işinin təşkilatçısıdır. O, əhalinin kassa xidmətlərini və hesablaşmalarını həyata keçirir.

Respublikanın beynəlxalq bankı ixracat və qeyri-ticarət əməliyyatları üzrə hesablaşmaları həyata keçirir və təşkil edir. Xarici bazara çıxmaq hüququ olan müəssisə (firma) və təsərrüfat təşkilatlarının xarici iqtisadi əlaqələrini kreditləşdirir.

Bankların fəaliyyəti onların əməliyyatlarında reallaşır. Bu funksiyalar iki növə ayrılır: passiv və aktiv əməliyyatlar. Passiv əməliyyatlar o əməliyyatlara deyilir ki, onun qəbul etdiyi pul vəsaiti verdiyi borcdan çox olsun. Aktiv əməliyyatlar isə bunun əksidir. Bank onun sərəncamında olan müvəqqəti sərbəstləşən pulun hamısını kreditə verməkdə maraqlıdır. Çünki bankların mənfəəti bundan asılıdır.

## § 4. Vergi sistemi və vergi siyasəti

Vergi sisteminin yaranmasının tarixi çox qədimdir. O dövlətin yaranması ilə eyni vaxtda meydana çıxmışdır. Bu dövlət aparıtını saxlamaq üçün çoxlu xərclərin tələb olunması ilə əlaqədardır. Dövlətin əsas vəzifəsi mövcudluğunu saxlamaq üçün özünü daxaili və xarici təhlükədən qorumaqdır. Bu eyni zamanda, həmin dövlətin əhalisini sərbəst, azad, təhlükəsiz yaşamaq, yad dövlətlərin müstəmləkəsinə düşməkdən xilas etmək deməkdir. Bu müddəa bütün dövrlərdə yaşamış müstəqil dövlətlərə aiddir. Deməli, bir haldakı dövlət əhalinin təhlükəsiz yaşaması məqsədilə yaradılmışdırsa, onun saxlanması və inkişaf etməsi xərclərini də əhalinin bütün təbəqələri ödəməlidir. Vergi sistemi və vergi siyasəti də bu zamandan və bu məqsədlə formalaşmışdır.

Cəmiyyətin inkişafının ilk mərhələlərində dövlət aparatı çox sadə olduğundan dövlət orqanlarını saxlamaq üçün xərclər də az olmuşdur. Dövlət daim və böyük ordu saxlamamış, yalnız müharibə vaxtı ordu yaradılmışdır və bunun bir hissəsi feodalların üzərinə qoyulmuşdur. Məsələn, hər bir feodal ona tabe olan əhalidən silahlı dəstələr düzəldərək dövlət başçısının sərəncamına gəlmişdir. Feodal da öz növbəsində əhalidən öz atı və silahı ilə müharibəyə getməyi tələb etmişdir. Buna görə də həmin dövlətlərdə vergilərin sayı az və həcmi kiçik olmuşdur.

Məhsuldar qüvvələrin fasiləsiz və təkamül yolu ilə inkişafının müəyyən səviyyəsində bazar iqtisadi sisteminin formalaşması baş verdi. Bu zaman ictimai əmək bölgüsünün dərinləşməsi və əmtəə-pul münasibətlərinin geniş inkişafı həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əlaqələr genişləndi və

ziddiyyətlər dərinləşdi və bununla əlaqədar olaraq dövlət aparatı həm kəmiyyətcə, həm də keyfiyyətcə artdı. Daimi və güclü ordu yaratmaq zərurəti yarandı. Buna müvafiq olaraq dövlətin saxlanması xərcləri də artdı. Bununla bərabər bazar iqtisadi sistemi şəraitində hər bir dövlət öz ölkəsinin sağlam milli iqtisadiyyatının formalaşması və inkişafını, tənzimlənməsini, sosial-iqtisadi problemlərin həllini öz üzərinə götürür. Belə bir şəraitdə vergilərin həm həcminin, həm də növlərinin artması təbiidir.

Azərbaycan müstəqilliyə qədərki dövrdə müstəqil dövlət olmadığından onun nə vergi sistemi, nə də vergi siyasəti olmamışdır. Sovet dövlətinin tətbiq etdiyi vergi sistemi və yeritdiyi vergi siyasəti Azərbaycan xalqının milli mənafeyə uyğun olmadığından Azərbaycan xalqı üçün çoxlu sosial-iqtisadi problemlər yaratmışdır. Bu problemləri Azərbaycanın milli dövləti həll etməlidir. Bunlar çox çətin, mürəkkəb və uzunmüddətli proses olduğundan Azərbaycan xalqından dözümlülük tələb olunur. Çünki bir tərəfdən Azərbaycan dövlətinin vergi sisteminin yaradılması sahəsində təcrübəsinin olmaması, digər tərəfdən sovet sistemindən miras qalmış ağılagəlməz çoxlu sosial-iqtisadi problemlərin qalması, üstəlik Azərbaycanın zorla Ermənistanla müharibəyə cəlb edilməsi xərclərin xeyli hissəsinin əhalinin üzərinə qoyulmasını tələb edir. Bu isə əhalinin həyat səviyyəsinə təsir etməyə bilməz. Əhali dərk etməlidir ki, bu obyektiv zərurətdən doğub və onun tarixən keçdiyi inkişaf yolu ilə bağlıdır.

Azərbaycan dövləti müstəqillik qazandıqdan dərhal sonra özünün vergi siyasətinin işləyib hazırlamaq məqsədilə vergi sisteminin hüquqi əsasını yaratmışdır. Bu məqsədlə «Vergi sistemi haqqında» (1991-ci il), «Azərbaycan Respublikasının fiziki şəxslərinin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər

haqqında» (1991-ci il), «Əlavə dəyər vergisi haqqında» (1991-ci il), «Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi verilməsi haqqında» (1991-ci il), «Gömrük tarifi haqqında» (1995-ci il), «Aksizlər haqqında» (1991-ci il) və b. Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

Məhsuldar qüvvələr inkişaf etdikcə iqtisadi münasibətlərin təkmilləşdirilməsi zərurəti yarandığı kimi vergi sistemində də təkmilləşmələr vacibdir. Ona görə ki, vergi münasibətləri iqtisadi münasibətlərin tərkib hissəsidir və bu da iqtisadi münasibətlərin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və xarakterinə uyğunluğu ümumi iqtisadi qanunun tələblərinə tabedir.

Azərbaycanın müstəqilliyinin ilk illərində vergi sisteminin formalaşmasını təmin etmək məqsədilə qəbul olunmuş hüquqi qanunlar bu sahədə əsas rol oynasalar da, o donuq halda qala bilməz. Çünki məhsuldar qüvvələr inkişaf etdikcə, Azərbaycanın milli iqtisadiyyatının inkişafı yüksəldikcə vergi sisteminin təkmilləşməsi zərurəti yaranır və bunlar Azərbaycanın qanunları tərəfindən tənzimlənir. Məhz buna görə də Azərbaycan dövləti vaxtaşırı vergi sisteminin təkmilləşdirilməsini təmin etmək məqsədilə qanunlar qəbul edir. Deməli, Azərbaycan dövləti bir tərəfdən ölkənin iqtisadi inkişafını və imkanlarını nəzərə alır, digər tərəfdən dünya dövlətlərinin təcrübəsini öyrənərək ən optimal vergi qoymağa çalışır və sovet dövlətindən fərqli olaraq Azərbaycanın dövləti imkan yarandıqca vergi sistemini sadələşdirməyə, verginin sayını və həcmini azaltmağa çalışır.

Vergi dövlət tərəfindən, müəssisələrdən, təsərrüfatlardan, təşkilatlardan və vətəndaşlardan tutulan məcburi ödəmələrdir. Vergilər dövlətin iqtisadi rolu ilə üzvi surətdə bağlıdır və onun iqtisadi fəallığını artırmağın başlıca vəzifələrindən biridir. Vergilər büdcəni

formalaşdırmaqda dövlətin əlində qüdrətli silahdır, onun əsas və başlıca gəlir mənbəyidir. Vergilər bir tərəfdən, dövlət büdcəsini maliyyə ehtiyatları ilə təmin edir, digər tərəfdən istehsal xərclərinin aşağı salınmasını tənzim edir.

Vergilər dövlətin iqtisadi rolu ilə üzvi surətdə bağlıdır və dövlətin iqtisadi fəallığını artırmağın başlıca alətidir. Unudulmamalıdır ki, vergilər büdcəni formalaşdırmaqda dövlətin əlində qüdrətli silahdır. Vergilər bir tərəfdən dövlət büdcəsini maliyyə ehtiyatları ilə təmin etmək rolunu yerinə yetirirsə, digər tərəfdən o istehsal xərclərinin aşağı salınmasını tənzim edir. Belə ki, vergilər məhsul istehsalı, əmtəələrin satış qiymətləri və müəssisələrin hər cür növ məhsul istehsalçılarının maliyyə imkanları ilə qarşılıqlı surətdə asılılığı olan məsələdir.

Azərbaycan Respublikasının vergi siyasəti «Vergi sistemi haqqında» (1991-ci il) qanunla müəyyən etmişdir. Qanuna görə vergilər əlavə dəyər vergisi, aksiz vergisi, fiziki şəxslərdən alınan vergilər və s. formada tətbiq edilir və ümumi vergi sistemi formalaşır.

Vergilərin növləri və miqdarı bütün dövlətlərdə eyni olmur. Bu onların tarixən keçdiyi inkişaf yolu ilə milli iqtisadiyyatın inkişaf səviyyəsindən, hansı iqtisadi sistemdə yaşaması ilə əlaqədardır. Bu baxımdan klassik bazar iqtisadi sistemi dövlətləri keçid iqtisadiyyatlı, o cümlədən Azərbaycandan fərqlidir. Belə ki, klassik bazar iqtisadiyyatı ölkələrində birbaşa vergilər bütün vergi gəlirlərinin 40%-ni təşkil etdiyi halda keçid iqtisadiyyatlı dövlətlərdə birbaşa vergilərin xüsusi çəkisi adı çəkilən dövlətlərdən qat-qat aşağıdır.

Azərbaycanda milli sahibkarlıq hələlik zəif inkişaf etdiyindən onların mənfəəti klassik bazar iqtisadiyyat ölkələrinin sahibkarlarından əhəmiyyətli dərəcədə az olduğundan birbaşa vergilərin həcmi də az olur və buna

görə də dolayı vergilərə üstünlük verilir və bu təbiidir. Azərbaycanda bazar iqtisadiyyatı formalaşaraq inkişaf etdikdə bu nisbətin azalması gözlənilir.

Vergiyə cəlb etmə baxımından klassik bazar iqtisadiyyatı dövlətlər keçid iqtisadiyyatlı ölkələrdən, o cümlədən Azərbaycandan fərqlidir. Məsələn, Almaniyada 2, Türkiyədə 5, Fransada 5, Belçikada 6 növ vergi tətbiq edildiyi halda, Azərbaycanda bunun sayı çoxdur. Bu Azərbaycan müstəqillik qazanana qədər özünün vergi siyasətinin olmaması ilə əlaqədardır. Buna görə də Azərbaycan dövləti vergi sistemini yenidən qurmağa məcburdur. Bu isə mülkiyyət münasibətlərinin yenidən qurulması ilə paralel getməli və tədriclə təkmilləşdirilməlidir.

Vergi sisteminin əsas məqsədi və müvəffəqiyyəti onda olur ki, bərabər mənfəətə – bərabər vergi prinsipi tətbiq edilsin. Yəni istehsalçıları maraqlandırmaq, kapital axınını ticarət kanallarından istehsalata yönəltmək ən mühüm vəzifədir. Belə ki, işgüzar fəaliyyətin inkişafına kömək baxımından düzgün vergi siyasəti mühüm əhəmiyyət kəsb edir. Bu prinsip qabaqcıl dünya dövlətlərində təcrübədən uğurla çıxdığından Azərbaycan dövləti imkan və şərait yarandıqca buna üstünlük versə bu yaxşı nəticə verə bilər.

Vergi siyasəti dövlətin maliyyə siyasətinin tərkib hissəsidir. Vergiyə cəlb olunma sahəsində dövlətin həyata keçirdiyi tədbirlər vergi sistemini təşkil edir. Başqa sözlə, vergi sistemi anlayışında dövlətin müəyyən etdiyi qaydada icbari ödənişlərin məcmusu nəzərdə tutulur və həmin vergilərin alınması formalarını və metodlarını özündə birləşdirir.

Dövlətin vergi sistemi hər şeydən əvvəl cəmiyyət üçün zəruri olan istehsal sahələrini inkişaf etdirmək,

dövlətin müəyyən təxirəsalınmaz vəzifələrini yerinə yetirmək üçün iqtisadi şərait yaratmalıdır.

Tarixi təcrübə göstərir ki, bu və ya digər ölkənin iqtisadi dirçəlişi və inkişafı istiqamətində dövlətin həyata keçirdiyi islahatların müvəffəqiyyəti bilavasitə dövlətin maliyyə-vergi siyasətindən çox asılıdır.

Vergi hər şeydən əvvəl ədalətli və işlək olmalıdır. Çoxnövlü mülkiyyət formalarından asılı olmadan vergi ödəyənlərə eyni tələblər qoyulmalıdır. Vergilərin səviyyəsi hədsiz dərəcədə yüksək olmamalıdır. Bu, istehsalın inkişafına stimul yaratmağa sövq edir.

Vergi sistemi ədalətsiz qurularsa istehsalın inkişafına mənfi təsir göstərən amilə çevrilir. Vergi sistemi ədalət prinsipinə uyğun olmadıqda müəssisədə istehsalı inkişaf etdirmək stimulu, maraq olmayacaq. Stimul yoxdursa, inkişafdan, məhsul istehsalını genişləndirməkdən, çeşidini və keyfiyyətini yaxşılaşdırmaqdan söhbət gedə bilməz. Stimul insan fəaliyyətinin hərəkətverici qüvvəsidir. Deməli, başqa sahələrdə olduğu kimi, vergi sistemində də vaxtaşırı islahatların aparılması zəruridir.

Hər ölkənin inkişaf səviyyəsindən, mövcud vəziyyətindən və başqa amillərdən asılı olaraq vergisinin həcmi müxtəlif olur. Hazırda Azərbaycan üçün mülkiyyət formasından asılı olmayaraq, vergi sisteminin formalaşmasında Azərbaycanın xüsusiyyətləri nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, vergi mexanizmi ictimai istehsala, onun dinamikasına, quruluşuna, elmi-texniki tərəqqinin sürətləndirilməsinə təsir göstərmək üçün böyük imkanlar açır.

Hazırda Azərbaycanın iqtisadi vəziyyəti xüsusi mülkiyyət formalarının inkişafından xeyli aşağıdır. Ona görə də vergi sistemi xüsusi mülkiyyətin inkişafına daha çox şərait yaratmalıdır.

Hazırkı şəraitdə Azərbaycanda vergi sistemi büdcənin gəlirlərini tam həcmdə formalaşdırmaq imkanına malik deyildir. Çünki bu gün Azərbaycan Respublikasının vergi bazası xeyli daralmışdır. İstehsalın çətin vəziyyətdə olması ümumi daxili məhsulun həcminin azalmasına səbəb olmuşdur.

Yaranan yeni özəl müəssisələr vergi ödənişlərindən yayınmamalıdır. Vergi verməkdən boyun qaçıranlar dövlət büdcəsinin formalaşmasına mənfi təsir göstərir.

Hazırda respublikamızda bir çox vergi növü vardır. Məsələn, mənfəətdən alınan vergi, gəlir vergisi, gömrük vergisi, reklam ilə əlaqədar olan vergi və s.

Tətbiq edilən vergi növlərindən biri gömrük vergisidir. Gömrük vergisi beynəlxalq iqtisadi əlaqələrdə geniş tətbiq olunur. Ölkələr arasında qarşılıqlı güzəştlər gömrükxana rüsumları tətbiq edilir. Bunlar çoxcəhətli ticarət danışıqlarının gedişində işlənib hazırlanır, güzəştlərin, o cümlədən siyasi güzəştlərin qarşılıqlı olması, xarici ticarətin şəxsi-hüquqi əsaslarla aparılması Tariflər və Ticarət üzrə Baş Sazişin (TTBS, 1948) əsas prinsiplərindən biridir. TTBS-ə təkcə sənaye cəhətdən inkişaf etmiş dövlətlər deyil, həm də inkişaf etməkdə olan ölkələrin əksəriyyəti daxildir. Bu birlikdə 100-dən çox ölkə iştirak edir. Bu təşkilat hər il gömrüklərin, idxal edən əmtəələrin gömrükxana rüsumlarının aşağı salınması, məhdudiyyələrin ləğvi və s. məsələlər üzrə konfranslar, çoxtərəfli danışıqlar keçirirlər.

Hər bir ölkənin dünya bazarında mövqeyi dövlətlərin xarici ticarət siyasətinin xarakterini müəyyən edir. Hazırda bazar iqtisadiyyatı ölkələrində antidempinq gömrük növü tətbiq edilir. Bu bazar iqtisadiyyatı ölkələrinin daxili bazarlarının müdafiə olunması üçün lazım olur.

Vergilər üç əsas vəzifəni yerinə yetirməlidir: 1. dövlət xərclərinin maliyyələşdirilməsini təmin etməlidir; 2)

sosial tarazlığı saxlamalıdır. Bu o deməkdir ki, ayrı-ayrı sosial qrupların gəlirlərinin dəyişməsilə əlaqədar olaraq vergilər dəyişdirilməli və bütün sosial qrupların arasında ədalətlə paylanmalıdır; 3. dövlətin iqtisadiyyatın tənzimlənməsinə nail olunmalıdır. Buna tənzimedici funksiya deyilir.

Vergiləri əsasən iki yerə ayırmaq olar: müstəqim (birbaşa) və dolayı vergilərə. Birinci müəssisələrin mənfəətindən və əhalinin gəlirindən tutulan vergidir.

İkinci isə dolayı və ya əlavə vergi, bəzi ərzaq və ya zinyət şeylərinə qoyulan vergilərdir. Keçid iqtisadiyyatlı dövlətlərin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, dolayı vergilər arta bilər. Lakin dövlət, birbaşa vergi ilə dolayı vergi arasındakı nisbəti müəyyənləşdirməli və optimal həddin keçməsinə imkan verməməlidir.

Dolayı vergilərin ödəyicisi istehlakçılardır. Lakin vətəndaşların bir qismi dolayı vergiyə cəlb edilmirlər. Başqa sözlə, dolayı vergi insan orqanizmi üçün zərərli olan məhsullara qoyulur. Məsələn, papiros, araq və başqalarından istifadə etməyənlər dolayı vergiyə cəlb olunmurlar. Kim araq, papiros kimi məhsullar alırsa, o, dövlətə könüllü olaraq vergi vermiş olur.

İqtisadiyyatın sabit və nisbətən inkişaf etmiş vəziyyətində əsas yeri birbaşa vergilərin üzərinə düşməlidir.

Mənfəətdən və fərdi gəlirdən alınan vergilər mərkəzi və yerli büdcə arasında əvvəlcədən razılaşma əsasında bölünür. Zərurət olanda yerli büdcə mərkəzləşmiş büdcədən maliyyə yarıdımı alır.

Vergi siyasəti həm sərt, həm də olduqca ədalətli olmalıdır. Düzgün vergi siyasəti büdcə kəsirini aradan qaldırmağın mövcud yollarından biridir.

Dünya təcrübəsi göstərir ki, heç də hər yerdə vergiyə cəlb etmək növləri və qaydaları eyni deyildir. Bəzi

ölkələrdə vergi növləri çox, dəyərlərində isə azdır. Gəlirdən alınan vergilər də müxtəlif ölkələrdə müxtəlifdir.

Dövlətin vəzifəsi iqtisadiyyatın inkişafına stimullaşdırıcı vergi tətbiq etməkdir.

Vergi normaları təyin edilərkən müxtəlif güzəştlərdən istifadə edilməlidir. Güzəştlər başlıca olaraq istehsalın inkişafına, xüsusilə çox işlənən xalq istehlakı mallarının istehsalını artırmağa yönəldilməlidir.

Azərbaycanın bəzi dağ rayonlarında əhalinin sosial-iqtisadi vəziyyəti qənaətbəxş olmadığından əhalinin fəal hissəsi olan cavan kişilər başqa yerlərə axıb gedirlər. Xüsusilə Ermənistanla sərhəd olan ərazilərdə əhalinin sayı azalır. Sərhəd olan dağ rayonlarında özəl müəssisələr yaradan subyektlərin vergilərdən azad olması məqsədəuyğundur. Bunu vergiqoymanın həvəsləndirici və güzəştetmə prinsipi tələb edir.

**Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar**

1. Maliyyənin mahiyyətini və zəruriliyini izah edin.
2. Maliyyə vəsaitinin mənbəyi nədir və o necə yaranır?
3. Maliyyə münasibətlərini necə başa düşürsünüz? Onun tərifini deyin.
4. Büdcə nədir və onun hansı növləri vardır?
5. Dövlət büdcəsi hansı mənbələr hesabına formalaşır?
6. Dövlət büdcəsindən hansı məqsədlər üçün istifadə edilir.
7. Kredit nədir və borc verilən pul vəsaiti necə formalaşır?
8. Kreditin hansı növləri var və hansı prinsiplərlə verilir?

9. Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafında və onun yenidən qurulmasında kreditin rolunu şərh edin.

10. Verginin tarixən formalaşması prosesini izah edin.

11. Azərbaycanın vergi sisteminin hüquqi bazasının yaradılmasının vacibliyini danışın.

12. Dövlət büdcəsinin formalaşmasında verginin rolu nədən ibarətdir?

13. Verginin hansı vəzifələri var?

## Müzakirə üçün suallar və tapşırıqlar

1. Azərbaycanda maliyyə sisteminin yenidən qurulmasının zəruriliyini şərh edin.
2. Maliyyə ümumi milli məhsulun bölgüsü və yenidən bölgüsü funksiyasını necə yerinə yetirir?
3. Müasir dövrdə Azərbaycanın maliyyə vəziyyətini təhlil edin.
4. Dövlətin maliyyə sistemində dövlət büdcəsinin yerini və rolunu izah edin.
5. Dövlətin kredit siyasətinin həyata keçirilməsində bankların rolunu izah edin.
6. Azərbaycanın vergi sisteminin yenidən qurulmasının zəruriliyini əsaslandırın.
7. Azərbaycanda vergi siyasətinin xüsusiyyətlərini şərh edin.
8. Vergi siyasətinin düzgün işlənib hazırlanmasının Azərbaycanın iqtisadi inkişafına və sosial problemlərin həllində əhəmiyyətli izah edin.
9. Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsinin zəruriliyi və bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsinin əhəmiyyətini təhlil edin.

# 10-ju MÖVZU: AZƏRBAYJANIN TORPAQ MÜLKİYYƏTİ VƏ ONUN REALLAŞDIRILMASININ İQTİSADİ FORMALARI. AQRAR SAHƏ BAZAR İQTİSADİ SİSTEMİNDƏ

## § 1. Azərbayjanın torpaq fondu. Torpağın istifadəsinə görə quruluşu

Torpaq heç nə ilə əvəzolunmaz istehsalın mühüm amillərindən biridir. Torpaq həm əmək cismidir, həm də istehsal vasitəsidir. Əmək cismidir ona görə ki, insanın əməyinin tətbiq etdiyi cisimdir. Bu elə bir təbii sərvətdir ki, o insan əməyinin tətbiq etdiyi ilk, başlanğıc iqtisadi fəaliyyət mənbəyidir. Topaq həm də əvəzsiz istehsal vasitəsidir ki, onun vasitəsi ilə insan maddi nemətlər istehsal edir. Bunun digər istehsal vasitələrindən fərqi və üstünlüyü ondan ibarətdir ki, ondan düzgün istifadə edildikdə başqa istehsal vasitələri kimi nə fiziki, nə də mənəvi aşınmaya məruz qalmır. Torpağın məhsuldar qüvvələrin bütün ünsürlərindən fərqli olaraq o təkrar istehsal olunmur. Onu nəinki geniş təkrar istehsal prosesində artırmaq olmur. Əksinə, cəmiyyətin inkişafının bazar iqtisadi sistemi mərhələsində yararlı torpaq sahələri azalır. Əhalinin sayı və tələbatı artır. İstehsalı genişləndirmək və əhalinin mənzil və xidmət şəraitini yaxşılaşdırmaq üçün çoxlu sayda binalar tikilir, yollar, neft, qaz boru kəmərləri çəkilir və başqa qurğular yaradılır. Digər tərəfdən sənayenin və nəqliyyatın sürətli inkişafı ekoloji problemlər yaradır. Bunun nəticəsində torpağın əhəmiyyəli hissəsi müxtəlif formada və müxtəlif səviyyədə erroziyaya uğrayır.

Məhsuldar qüvvələrin bütün ünsürlərini – maşınları, avadanlıqları, xammalı və iş qüvvəsini dünya bazarından almaqla geniş təkrar istehsalı təşkil etmək və maddi

nemətlər istehsalını artırmaq mümkündür. Lakin torpaq dünya bazarında alqı-satqı obyektinə çevrilə bilməz. Ona görə də nəinki vətənin məhsuldar, hətta qeyri-məhsuldar – səhrası da, daşı-kəsəyi də müqəddəsdir. Çünki bu gün qeyri-məhsuldar torpaq imkan, şərait yetişdikcə zərurət yaranarsa onu yararlı hala salmaq mümkündür.

Torpaq nəinki insanın yaşayışının, mövcudluğunun əsasıdır. Eyni zamanda torpaq insan dünyasını dəyişdikdən sonra onu öz qoynuna almaqla insan cəmiyyətinin mövcudluğuna xidmət edir. Ona görə ki, insanlar müxtəlif xəstəliklərdən öldüyündən əgər torpağa basdırlmasa kütləvi xəstəliklər geniş yayıla bilər. Yalnız torpaq pak və müqəddəs olduğundan insanların eyiblərini, sirrlərini, xəstəliklərini və başqa mənfiliklərini gizlədə bilir. Məhz torpağın bu keyfiyyətlərinə görə insan cəmiyyətinin inkişafının bütün mərhələlərində milliyyətindən və hansı qitədə yaşamasından asılı olmayaraq insanlar öz vətəninin torpağını yadellilərdən qorumaq üçün ölüm-dirim savaşı aparmış, torpağı qorumaq uğrunda şəhid olmaq şərəf sayılmış və bu cür insanlar millətin ən layiqli vətəndaşı hesab edilmişdir. Bunnun əksinə, torpağı yadellilərə satanlar vətən xaini hesab edilmiş və ən yüksək cəzaya məhkum edilmişdir.

Beləliklə, vətənin torpağını qorumaq özünün və ailəsinin varlığını, namusunu, şərəfini qorumaq deməkdir. Azərbaycan vətəndaşı üçün bu daha aktualdır. Çünki Azərbaycan dövləti adambaşına düşən torpağın miqdarına görə, MDB məkanında yaranan dövlətlər sırasında ən axırıncı yerlərdən birini tutur. Azərbaycanın qədim ərazisində Ermənistan dövlətinin yaranması sovet hakimiyyəti illərində Azərbaycanın 20 min hektar torpaq sahəsinin müxtəlif yollarla Ermənistana verilməsi buna mənfi təsir göstərmişdir. Ərazimizin 20 faizinin Ermənistanın havadarlarının köməyi ilə Ermənistanın

işğal etməsini nəzərə alsaq Azərbaycanda adamğaşına düşən torpaq sahəsinin çox az olması aydın olar. Deməli, Azərbaycanın erməni işğalı ilə barışması onun süqutu deməkdir.

Azərbaycan dövlətinin ümumi torpaq sahəsi 8,6 milyon hektardır. Bundan 4,3 hektarı kənd təsərrüfatına yararlı hesab olunur. Bu mənada bütün torpaq fondunun əsasını təşkil edir.

Torpaq fondu – mövcud torpaqların istifadə istiqamətləri ilə müəyyənləşdirilərək təbii sərvətimizdən ən mühüm və əvəzolunmaz zəruri elementlərindəndir. Torpağın münbitliyinin artırılmas və ondan səmərəli istifadə edilməsi milli sərvətin artırılmasında mühüm rol oynayır, həm də milli sərvətin həcmi və keyfiyyəti torpaqdan səmərəli istifadə etməyə təminat verir. Çünki kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, torpağın münbitliyinin qorunub saxlanması, onun erroziyaya uğramasının qarşısının alınması çoxlu maliyyə vəsaiti tələb edir ki, bu da milli sərvətin və milli gəlirin həcmindən asılıdır. Bu baxımdan onlar bir-birilə qarşılıqlı əlaqədə və biri digərini şərtləndirən amillərdir.

Sənayedən fərqli olaraq yeni torpaq sahələri yaratmaq mümkün olmadığından burada əmək məhsuldarlığının yüksəltməyin yeganə yolu onun münbitliyini artırmaqdır. Torpağın münbitliyinin artırmağın iki yolu vardır. Bunlardan bir təbii, digəri isə süni yoldur. Təbii yol torpağın dincə qoyulmasıdır. Bu zaman torpağın bir hissəsi əkilir, bir hissəsi şumlanaraq dincə qoyulur, digər hissəsi də örüş kimi istifadə edilir. Bu metoddan ən çox bazar iqtisadi sistemindən əvvəlki və bazar iqtisadi sisteminin ilk dövrlərində istifadə edilmişdir. Müasir dövr üçün torpağın münbitliyinin süni yolla artırılmasına üstünlük verilir. Çünki torpaq sahələri məhdud olduğundan cəmiyyət əkinə yararlı torpaq sahələrinin

hamısından istifadə etməyə məcburdur. İndiki dövrdə sənayenin inkişafı torpağın münbitliyini süni yolla artırmağa imkan və şərait yaratmışdır. Belə ki, gücdən düşmüş torpaqları onları dincə qoymadan üzvi və qeyri-üzvi gubrələr verməklə, suvarma sistemini, meliorasiya işlərini yaxşılaşdırmaq və digər tədbirlər görməklə torpağın gücünü bərpa etmək mümkündür. Buna görə də hazırda ikinci metoda üstünlük verilir. Torpağın təbii və süni münbitliyi birlikdə götürüldükdə iqtisadi münbitlik adlanır.

Respublikamız özünəməxsus torpaq sərvətinə malikdir. Dövlətimizin dövlət ehtiyatlarında olan torpaqlar və meşələr 1,3 milyon hektardır. Yerdə qalanlar isə yaşayış məntəqələri, qoruqlar və s. altındadır.

Kənd təsərrüfatında əsas istehsal vasitələri olan torpaq digər  kənd təsərrüfatı fondlarından öz təbiiliynə görə fərqlənir və istifadə təyinatına görə iqtisadçılar tərəfindən aşağıdakı əsas qruplara bölünür. Bura kənd təsərrüfatı təyinatlı torpaqlar, sənaye, nəqliyyat, rabitə, müdafi və başqa təyinatlı torpaqlar, yaşayış məntəqələrinin torpaqları, meşə fondunun torpaqları, su fondunun torpaqları, təbii mühafizə, sağlamlıq, rekresiya və tarixi-arxeoloji mədəniyyət təyinatlı torpaqlar, eləcə də ehtiyat torpaqları aid edilir.

Kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə edilən torpaqlar kənd təsərrüfatına yararlı torpaqlar sayılır. Belə torpaqlara əkinçilik üçün əkin yerləri, çoxillik əkmələr, biçənəklər, örüş və otlaqlar, dincə qoyulmuş torpaqlar daxil edilir. Su və tikililər altında qalan torpaqlar, bataqlıqlar, kolluqlar, erroziya və şorlaşmaya məruz qalan və istifadə olunmayan torpaqlar kənd təsərrüfatı üçün istifadə olunmayan yararsız torpaqlardır. Son illərin statistik məlumatlarına görə respublikada mövcud olan 1262,8 min hektar ümumi əkin sahəsinin 637 min

hektarında bütün dənli bitkilər – payızlıq buğda, payızlıq arpa, yazlıq dənli bitkilər – paxlalı dənli bitkilər, qarğıdalı, çəltik, yazlıq buğda və s. əkilmişdir.

Ümumi əkin sahəsinin 208,3 min hektarında texniki bitkilər (o cüməldən pamğıq, tütün, günəbaxan) əkilmişdir. Tərəvəz, bostan və kartof bitkiləri respublikada ümumi əkin sahəsinin 50 min hektarında əkilmişdir.

Heyvandarlığın əsas yem bazasını təşkil edən yem bitkiləri ümumi əkin sahəsinin 339 hektarında çoxillik, birillik otlar, yemlik qarğıdalı, kökümeyvəli bitkilər və dincə qoyulmuş sahələr təşkil etmişdir.

Beləliklə, iqtisadiyyatın aqrar bölməsində olan torpağın tərkibində kənd təsərrüfatına yararlı torpağın təxminən 60,0% təşkil edir. Yararlı torpaqların isə 35,6%-ni əkin yerinin, 9,3%-i biçənəklərin, 51,9%-i otlaqların, 3,%5-i həyətyanı sahələrin, qalanı digər yararlı sahələrin payına düşür. Mövcud torpaq fondunun quruluşunda əkinə yararlı torpaqların xüsusi çəkisi nə qədər çox olarsa, bu dövlətin iqtisadi təbii potensialı bir o qədər güclü olar. Təəssüf ki, Azərbaycanın torpaq fondunda əkinə yararlı torpaqların xüsusi çəkisi nəinki yüksək inkişaf etmiş, hətta orta səviyyədə inkişaf etmiş dövlətlərdən çox aşağıdır. Bunun səbəbi isə Azərbaycanın uzun illər müstəmləkə şəraitində və sovet sistemində torpağa laqeyd münasibət bəslənməsi olmuşdur. Kolxozların istifadəsində olan torpaq kolxoz-kooperativ mülkiyyəti adlansa da həqiqətdə o dövlət mülkiyyəti olmuşdur. Kolxoz və sovxozların istehsalın nəticəsində maddi maraqları olmadığından, digər tərəfdən rəqabət qanunu fəaliyyət göstərmədiyindən sosialist kənd təsərrüfatı müəssisələri torpaqdan səmərəsiz istifadə etmişlər. Nəticədə əkinə yararlı torpaq sahələrinin əhəmiyyətli hissəsi əkin dövriyyəsindən çıxmışdır.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanın torpaq fondunda əkinə yararlı torpaq sahəsinin xüsusi çəkisi az və torpaqdan istifadə etmənin səmərəliliyi aşağı olsa da bu boşluqları doldurmağa imkan verən bir çox üstünlükləri vardır. Bu Azərbaycanın gözəl təbii iqlim şəraitinə malik olmasıdır. Azərbaycan dünyada çox nadir ölkələrindədir ki, onun torpaqlarında ildə 2-3 dəfə məhsul yetişdirmək mümkündür və Azərbaycan xalqı bu bərəkətli torpaqdan istifadə etmək istedadına malikdir.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan dövlətinin mühüm vəzifələrindən biri aqrar bölmədə yeni mülkiyyət formalarını yaratmaqdır. Bu çətin və uzunmüddətli proses olan bazar iqtisadi sisteminin mahiyyətinə uyğun mülkiyyət münasibətlərinin formalaşmasında torpağın keyfiyyətinin müəyyənləşməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan torpağın təbii keyfiyyəti anlayışı torpaq mülkiyyətçiliyinin formalaşmasının mühüm şərtlərindəndir. Elmdə buna torpaq kadastrı deyilir.

Kadastr fransız sözü olan «cadastre» anlayışından əmələ gəlmişdir. Azərbaycan dilində vergi obyektlərinin siyahısı anlamını verir. Bu o deməkdir ki, vergiyə cəlb olunan obyektlər siyahıya alınır və həmin obyektlər qiymətləndirilir. Torpaq, mədən və başqa təbii sərvətlər məhsuldarlığına və keyfiyyətinə görə bir-birindən fərqlənirlər. Buna görə də torpaq kadastrı, mədən kadastrı və başqa kadastlar anlayışları vardır. Bunların hamısının ümumi cəhəti odur ki, təbii sərvətlərin, o cümlədən torpağın keyfiyyətini müəyyən etmək mümkün olsun. Çünki aşağı, orta və yüksək keyfiyyətli torpaqlardan tutulan vergilər bir-birindən fərqli olmalıdır. Bu təbii məhsuldarlıqla əlaqədar olan torpağın keyfiyyətinin qiymətləndirilməsidir.

Torpaq kadastrı aşağıdakı cəhətləri özündə birləşdirir:

1. torpaqların istifadə hüququnun rəsmiləşdirilməsi və dövlət qeydiyyatı;

2. torpaqların növ müxtəlifliyinin relyefi, aşınma dərəcəsini, bitki örtüyü, qida maddələri ilə təmin olunma dərəcəsi və s. göstəricilərinə görə uçotu;

3. torpaqların təbii münbitliyini əks etdirən əsas xassə və əlamətlərə görə keyfiyyətcə təsnifatı və qiymətləndirilməsinin banitirovkası;

4. banitirovka latın sözü olan «banites» anlayışından yaranmışdır. Azərbaycan dilində keyfiyyətini təyin etmə deməkdir. Bunu kənd təsərrüfatına şamil etsək fiziki və kimyəvi xüsusiyyətlərindən asılı olaraq torpaqların məhsuldarlıq qabiliyyətinin müəyyən edilməsi anlamını verir. Bunu heyvandarlığa da aid etmək olar. Məsələn, qoyunların banitirovkası – qoyunların tələb olunan keyfiyyətindən asılı olaraq qiymətləndirilməsi və təsnif edilməsi;

5. torpaq kadastrı mülkiyyətçisi ilə icarədarlar (torpaqlardan istifadə edənlər) arasında olan iqtisadi münasibətləri özündə birləşdirir. Tərəflər arasında bu münasibətləri tənzimləmək üçün normal məhsuldarlıq ilə istehsal fəaliyyətini əks etdirən iqtisadi göstəricilər arasında asılılıq torpaqların iqtisadi qiymətini müəyyənləşdirmək üçün lazımdır. Bu cəhətdən istifadə etməkdə məqsəd torpaqdan istifadə edənin əldə etdiyi mənfəətin nə qədərinin təbii, nə qədərinin isə iqtisadi amilin hesabına olmasını aydınlaşdırmaqdır ki, vergini ədalətlə tətbiq etmək mümkün olsun.[1]

Kənd təsərrüfatında torpağın iqtisadi cəhətdən qiymətləndirilməsi əsasən onun sahə quruluşundan asılıdır. Çünki, sahə vahidinə görə əldə edilən gəlir əkilən

---

[1] **Azərbaycan iqtisadiyyatı. Bakı, 1998, səh. 182.**

bitki növlərinə görə eyni ola bilməz. Belə halda burada ixtisaslaşma, təbii-iqtisadi zonalara bölgü, əkin sahələrinin səmərəli quruluşunun müəyyənləşdirilməsi vacib məsələlərdəndir. Torpaqların iqtisadi dəyəri öz qiymətini pul ilə ifadə olunmasında tapır. Vahid kimi qəbul edilmiş bir balın qiymətini bir hektar sahənin faktiki bal qiymətinə vurmaqla torpaq sahəsinin qiyməti müəyyən olunur.

Torpaqların münbitliyinin artırılması və ondan səmərəli istifadə qaydaları vardır. Belə ki, vaxtaşırı meliorasiya kimi kompleks işlərin aparılması – su təchizatının yaxşılaşdırılmasına, şoran torpaqların yuyulmasına, erroziyadan qorunmasına, istehsal prosesinin mexanikləşdirilməsinə xüsusi fikir verilməlidir. Nəzərə alsaq ki, respublikamışda ümumi əkin sahəsinin 1,4 milyon hektarı suvarılır. Onda bu işin əhəmiyyətinin daha böyük olması aydın olar.

## § 2. Azərbayjanın kənd təsərrüfatı iqtisadiyyatının vəziyyəti və aqrar islahatların aparılmasının zərurliyi

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində olduğu kimi aqrar sahədə də iqtisadiyyat çətin vəziyyətə düşdü. Lakin bunun səbəbi yalnız sovet iqtisadi sisteminin dağılması nəticəsində imperiya dövləti ilə iqtisadi əlaqələrin kəsilməsi olmamışdır. Eyni zamanda sovet imperiyasının sağlığı zamanı aqrar sahə digər sahələrdən iqtisadi inkişaf baxımından əhəmiyyətli dərəcədə geri qalması və XX əsrin 80-ci illərin ortalarında böhran vəziyyətinə düşməsi olmuşdur. Bu isə sovet

iqtisadi sisteminin mahiyyətindən və kommunistlərin ağılsız aqrar siyasətindən irəli gəlmişdir.

Avropada bazar iqtisadi sistemi yarandıqdan sonra dünyada iqtisadiyyatın tənzimlənməsinin əsasən iki metodu ortaya çıxmışdır. Bunlardan biri iqtisadi, digəri isə inzibati metoddur. Bazar iqtisadi sistemi ölkələri üçün iqtisadiyyatı iqtisadi metodla idarə etmək xarakterikdir. Burada işçinin istehsalın nəticəsində maddi marağı və rəqabətdən qorunmaq məsələsi onu tam gücü ilə işləməyə məcbur edir. Bu şəraitdə insanın potensial imkanının aşkara çıxması və ondan həm özü, həm də cəmiyyət üçün istifadə etməyə əlverişli şərait olur. İnzibati-amirlik sistemində, o cümlədən sovet imperiyasında iqtisadiyyatın idarə edilməsində inzibati metoddan istifadə edilməsi bütün səviyyələrdə istehsalın səmərəliliyində insanların maddi marağı sönür. İqtisadi qanunların obyektiv xarakteri dərk edilmir, onun tələbləri ödənilmir və bunun nəticəsində iqtisadiyyatın inkişafı tənəzzülə uğrayır.

Yuxarıda göstərilən iki metoddan başqa iqtisadiyyatın inkişafına təsir göstərən digər amillər də var. Bunlardan biri inqilabi əhvali-ruhiyyədir. Bu müvəqqəti olsa da iqtisadiyyatın inkişafında müsbət rol oynayan amildir. Sovet hakimiyyətinin ilk illərində iqtisadiyyatın inkişafında uğurların qazanılmasında bu amil əsas rol oynamışdır.

Bolşeviklər 1917-ci ildə Rusiyada çevriliş edərkən xalqı aldatmışdır. Onlar vəd etmişdilər ki, hakimiyyət bolşeviklərin – kommunistlərin əlinə keçərsə zavod və fabrikləri fəhlələrə, torpağı isə kəndlilələrə pulsuz verəcəklər və bunun sayəsində zəhmətkeşlərin vəziyyəti hədsiz dərəcədə yaxşılaşacaq. Lakin bolşeviklər istədiklərinə nail olsalar da xalqın vəziyyəti nəinki yaxşılaşdı, əksinə çevrilişlər, siyasi hadisələr əvvəlki

iqtisadi inkişafı daha da çokdürdü. Bolşeviklər bunun müvəqqəti olmasına, qolçomaqların məhv edilərək yeni mütərəqqi sovet təsərrüfat formaları olan kolxoz və sovxozların yaradılmasından sonra vəziyyətin yaxşılaşacağına əhalini inandıra bildilər. Bundan sonra bolşeviklər vəziyyətin pisləşməsinə istismarçıların övladlarının mane olmalarını, ziyalıların sovet sistemini daxildən dağıtmağa çalışmalarını irəli sürdülər. Buna görə də 1937-ci ildə millətin ən görkəmli nümayəndələrini represiyaya uğratdılar. Amma iqtisadi inkişafda, əhalinin həyat səviyyəsinin yüksəlməsində irəliləyiş olmadı. Buna baxmayaraq fəhlə və kəndlilər ağır vəziyyətdə yaşasalar da xoş gələcək, sosializm, kommunizm naminə hər cür əzab-əziyyətə dözmüş və fədakarlıqla işləmişlər. Məhz uğurlar da kommunizm cəmiyyətində firavan, azad, sərbəst yaşamaq naminə hər cür məhrumiyyətlərə dözmək hesabına qazanılmışdır.

Bolşeviklər – kommunistlər bu qayda ilə xalqı XX əsrin 50-ci illərinin ortalarına kimi aldada bilmişdilər. Belə ki, ikinci dünya müharibəsindən sonra beş il müddətinə müharibənin törətdiyi dağıntıların bərpa olunacağı vəd edildi, lakin bu özünü doğrultmadı, yenidən yenə beş il lazım olduğu bildirildi, amma bunun da yalan olduğu məlum oldu. Hər şeyin həddi olduğu kimi yalançılığın, ona inamın da həddi vardır. Sovet sistemində bu hədd, sosializmə – kommunizmə inam XX əsrin əllinci illərinin sonlarından qırıldı. Sosializmin-kommunizmin xoşbəxt həyat verəcəyinə, maddi nemətlərin sel kimi axacağına və hər kəsin əməyinə və tələbatına görə istədiyi miqdarda maddi və mənəvi nemətlər alacağına inam yox oldu, sovet təbliğatının yalan olduğu aşkara çıxdı. Bundan sonra sovet sistemində iqtisadiyyatın inkişaf səviyyəsi aşağı düşməyə başladı. 1960-cı illərin əvvəlində başlayan

tənəzzül XX əsrin 80-ci illərinin ortalarında son hədd olan böhrana çatdı.

İqtisadiyyatın bu cür sürətlə böhran vəziyyətinə düşməsi sovet dövlətinin kommunist rəhbərlərini narahat etməyə bilməzdi. Ona görə də bu dövrdə yenidənqurma, demokratiya, istehsalın səmərəliliyinin yüksəldilməsi kimi şüarlar irəli sürülmüş, bu sahədə tədbirlər planları işlənib hazırlanmışdır. Bu zaman kommunist rəhbərlərinin bəziləri sosializmin sovet modelinin özünü doğrultmadığını dərk etmişlər. Bu sistemin dağılmasının qarşısını almaq üçün bir çox sənədlər hazırlanmış, direktivlər verilmiş  və sair tədbirlər görülmüşdür. Lakin bunların heç biri bu prosesin qarşısını ala bilməmişdir. Bunun birinci səbəbi odur ki, kommunist rəhbərləri arasında ziddiyyətli fikirlərin olmasıdır, onların bəziləri sosializmin dağılması hadisəsi ilə barışa bilməmələridir. Onlar sosializmin üstünlüklərinə inanmışlar. İkinci səbəbi isə imperiya təfəkkürlü kommunistlərin olması idi. Onların məqsədi imperiya dövlətinin ərazi bütövlüyünü saxlamaqla sosialist sistemindən kapitalizmə keçmək və müstəmləkə sistemini saxlamaq olmuşdur. Dünyada müstəmləkə sisteminin dağıldığı bir şəraitdə bu mümkün olan məsələ deyildi. Nəticədə həm sosializm sistemi, həm də sovet müstəmləkəçiliyi süqut etdi.

Yuxarıda deyilənlər sabiq SSRİ-nin təsərrüfatının bütün sahələrinə, o cümlədən aqrar bölməyə aiddir. Lakin aqrar bölmənin özünəməxsus xüsusiyyətləri olmuşdur ki, bu da həmin sahədə vəziyyətin daha acınacaqlı vəziyyətə düşməsi ilə nəticələnmişdir. Bunlardan biri kommunistlərin ağılsız və savadsız qiymət siyasəti olmuşdur.

Sovet hakimiyyəti illərində əmtəə istehsalı formal xarakter daşıdığından qiymət ictimai zəruri dəyər və tələb və təklifin təsiri ilə formalaşmamışdır. İqtisadi qanunların,

o cümlədən əmtəə istehsalı ilə əlaqədar fəaliyyət göstərən iqtisadi qanunların tələbi nəzərə alınmamışdır. Məhsulların qiymətini dövlətin göstərişi ilə qiymətqoyma orqanları siyasi ambisiyalar əsasında müəyyənləşdirmişlər. Bu zaman isə dövlət bütün diqqətini sənayenin, xüsusilə hərbi-sənaye kompleksinin inkişafına yönəltmişdir. Aqrar bölmədə iqtisadiyyatın inkişafı ikinci dərəcəli hesab edilmişdir. Buna görə də kənd təsərrüfatı məhsullarına qiymət maya dəyərindən dəfələrlə aşağı qoyulmuşdur. Əmtəə istehsalının iqtisadi qanunlarından biri olan dəyər qanunu tələb edir ki, qiymət maya dəyərindən, yəni istehsal xərclərindən yuxarı olsun, çünki maya dəyəri ödənilməsə və gəlir əldə olunmasa, təkrar istehsal baş tuta bilməz. Bazar iqtisadi sistemində bunu bazar mexanizmi tənzimləyir. Belə ki, hansı əmtəə istehsalçısının əmtəəsinin maya dəyəri (istehsal xərcləri) bazar qiymətindən yüksək olursa o müflisləşir, sıradan çıxır. Ona görə ki, onun istehsalı təşkil etmək qabiliyyəti aşağı səviyyədədir. Onun yerini ondan istedadlısı tutur. Bu amil istehsalçıları yeni, müasir texnika və texnologiya tətbiq etməyə, istehsalın təşkilinin daha yaxşı formasını tapmağa sövq edir. Sovet sistemində bunlar olmadığından XX əsrin 80-ci illərin ortalarından aqrar bölmə dərin böhrana düçar oldu.

Sovet dövləti kənd təsərrüfatı məhsullarına qiymətqoymada bir az insafla ola bilərdi. Bu məhsullara tədarük və satınalma qiymətini elə qoya bilərdi ki, heç olmasa maya dəyərini ödəyə bilsin, az olsa da gəlir əldə etmək mümkün olsun. Lakin sosializm xalqın həyat səviyyəsini yüksəltmək məqsədilə qurulmamışdır, əksinə zəhmətkeş insanlara bazar iqtisadi sistemindən on dəfələrlə artıq istismar etmək üçün qurulmuşdur, bu onun mahiyyətindən irəli gəlmişdir.

Ziddiyyətlərin artması, xalq təsərrüfatı sahələrinin qeyri-mütənasib inkişafı və bu kimi başqa təmayüllər nəticəsində 1991-ci ilin sonunda ölkədə vəziyyət köklü surətdə dəyişdi. Sovet ittifaqı süqut etdi, vahid partiyalılığa və sosialist ideologiyasının inhisarçılığına son qoyuldu. Bu Azərbaycanın da müstəqillik əldə edilmiş bir dövlət kimi öz siyasi və iqtisadi xəttini müəyyən etməyə ilkin şərait yaratdı. Lakin müstəqil Azərbaycan dövlətində yeni yaranmış müxtəlif partiya və qrupların respublikamızda iqtisadiyyatın inkişafına dair mövqelərinin və siyasətlərinin köklü olaraq fərqlənməsi, erməni təcavüzkarlarının müstəqilliyini yenicə bərpa etmiş respublikanın ərazisinə təcavüzü, ərazimizin 1/5-dən artıq hissəsini zəbt etməsi, keçmiş ittifaqın tərkibindən çıxmış və azad olmuş müstəqil dövlətlərlə iqtisadi əlaqələrin qırılması, kənardan alınan məhsulların qiymətlərinin süni surətdə əsassız olaraq qaldırılması, sifariş edilən məhsulların Azərbaycandan vaxtlı-vaxtında aparılmaması və gətirilməsində mütəmadi olaraq fasilələrə yol verilməsi, 1990-1993-cü illərdə bir neçə dəfə hakimiyyət rəhbərliyində baş vermiş dəyişiklik, o zaman ölkənin və iqtisadiyyatın idarə edilməsində buraxılmış səhvlər və bir milyon nəfərdən artıq qaçqının mövcudluğu, böyük işsizlər ordusunun yaranması, inflyasiya, nəqliyyat blokadası və digər mənfi proseslər respublikamızda sosial gərginliyi artırdı və nəticədə iqtisadi tənəzzül daha da dərinləşdi. Bütün bunlar və bir sıra digər amillərin və proseslərin mənfi təsiri nəticəsində respublikamızın aqrar bölməsini də tənəzzül bürüdü.

Bunu demək kifayətdir ki, 1985-ci ilə nisbətən 1994-1995-ci illərdə kolxozların, sovxozların, təsərrüfatlararası kəndli təsərrüfatı müəssisələrinin enerji gücləri (ilin axırına min at qüvvəsi ilə) 6177-dən 4900-ə düşdü. Kənd təsərrüfatında elektrik enerjisinin istehlakı (min kvt-saat

hesabı ilə) 2714,5-dən 2100-ə qədər azaldı. Kolxozlarda, sovxozlarda və təsərrüfatlararası müəssisələrdə 1985-ci ildə 34,5 min ədəd traktor və 4,4 min ədəd taxılyığan kombayn olduğu halda, 1995-ci ildə onların sayı müvafiq olaraq 30 və 4,3 minə endi. Kənd təsərrüfatına mineral gübrələrin verilməsi daha sürətlə azaldı. Belə ki, əgər 1985-ci ildə sahəyə verilən mineral gübrələrin miqdarı 314 min ton (100% qidalı maddə hesabı ilə) olduğu halda, 1995-ci ildə 4,7 min tona endi. Bütün bunlar və digər amillərin təsiri nəticəsində hər hektardan məhsuldarlıq da xeyli aşağı düşmüşdü. Yəni dənli bitkilər sahəsində 42,4%-6,4 s., pambıqçılıqda 51,4%-6,7 s., tütün istehasalında 61,7%-9,0 s., tərəvəz üzrə 26,0%-40,8 s., üzümçülükdə 59,8%-54,6 s., yaşıl çay yarpağı üzrə 76,3%-6,6 s., azalmışdı.

Kənd təsərrüfatı bitkilərinin və əkin sahələri bütünlükdə azalmış və quruluşunda dəyişiklik baş vermişdi. 1985-ci ilə nisbətən 1995-ci ildə bütün əkin sahələri 12% azalmışdı. Bu proses əsasən texniki bitkilərin, kartof, bostan, tərəvəz və yeni bitkilərinin sahəsi hesabına baş vermişdi. Heyvandarlığa gəldikdə isə 1990-cı ilə nisbətən 1995-ci ildə iri buynuzlu malqara, donuz, qoyun, keçi və quşların sayı azalmaqla onların məhsuldarlığı da aşağı düşmüşdü. Belə ki, hər bir inək və camışdan süd sağımı 19,8%, hər baş qoyundan illik yun qırxımı – 51%, hər toyuqdan yumurta istehsalı 54,0% az əldə edilmişdi və bütün növdən olan ət istehsalı isə 2,2 dəfə azalmışdı.

Dünya təcrübəsinin göstərdiyi kimi, müstəqil Azərbaycan Respublikasında da aqrar bölmənin imkanlarının üzə çıxarıb effektli realizə edilməsi bu sahədə köklü islahatlar aparılması yolu ilə mümkün ola bilərdi. Torpaq, su təsərrüfatı, kənd təsərrüfatı müəssisələrində, habelə istehlak kooperasiyasında islahatlar demokratik prinsiplər üzrə aparılmaqla kəndli

(fermer) təsərrüfatlarının yaranmasını təmin etmək bütünlükdə aqrar bölmənin tənzimlənməsini və islahatların həyata keçirilməsini zəruri edirdi. Aqrar islahatlarının ən vacib vəzifəsi Azərbaycan kəndlisini yenidən sahibkar etmək, bu vacib bölmədə çoxukladlı, yüksək səmərəli təsərrüfat formalarını formalaşdırmaq və inkişaf etdirmək idi.

Kompleks iqtisadi təhlil aqrar bölmənin tənəzzülə uğramasının bir sıra səbəblərini üzrə çıxarır. Burada ən başlıca səbəb o zaman kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi illərində buraxılmış köklü səhvlərlə bilavasitə əlaqədardır. Keçmiş ittifaqın digər respublikalarında olduğu kimi, Azərbaycanda da həmin dövrdə kəndli, bəzi bölgələrdə isə müvəffəqiyyətlə fəaliyyət göstərən fermer təsərrüfatlarının məhv edilib, kəndlilərin əmək alətləri, iş heyvanları, və s. zorla əllərindən alınıb onların hesabına kolxoz və sovxozların yaradılmasıdır. Qanuni birgə paylı təsərrüfatçılıq formaları yaratmaq əvəzinə idarəetmədə inzibatçılıq üsulları tətbiq edilir, məhsula qiymətqoymada, satış yerlərini müəyyələşdirmədə onlar sərbəstlikdən məhrum edilirdi.

Koxozçuların və sovxoz fəhlələrinin ümumi torpaq və əmlakda payları bəlli olmamış, nəticədə «kollektiv mülkiyyət» heç kəsin mülkiyyətinə çevrilmiş, kəndli tədricən özünün torpağa və əmlaka sahiblik hissini itirmişdi.

Bilavasitə elə bu səbəbdən də təsərrüfatçılığın təşəkkül tapmış kolxoz və sovxoz formaları şəratində hər bir fərdi şəxs öz daxili imkanlarını üzrə çıxarmamış və öz qabiliyyətini göstərə bilməmişdi. Elə bir vəziyyət yaranmışdı ki, eyni bir kollektivdə yaxşı və yaxud pis işləyənlər arasında fərq qoyulmurdu. Əksər hallarda insanlara öz qabiliyyətlərini göstərmələri üçün meydan

verilməmişdi. Bir sözlə, kənddə azad sahibkarlığın yaradılması və inkişafı hər vəchlə məhdudlaşdırılırdı.

Sovet sistemindən miras qalmış Azərbaycanın tənəzzülə uğradılmış aqrar bölməsini inkişaf etdirmək gənc Azərbaycan dövlətinin üzərinə düşmüşdür. Bunu isə yalnız bu sahəni bazar iqtisadi sisteminə keçirməklə həll etmək olar. Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində, o cümlədən aqrar bölmədə bazar iqtisadiyyatını islahatlar yolu ilə formalaşdırmaq əsas istiqamət kimi seçilmişdir. Bu Azərbaycan dövlətinin strateji məqsədidir. Bunu onun hüquqi bazasını yaratmaqdan başlamaq lazım olmuşdur. Buna görə də Azərbaycan dövləti müstəqilliyini elan edəndən sonra islahatı sürətləndirmək məqsədi ilə bir sıra qanunlar qəbul etmişdir. Kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatların hüquqi əsasını Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1991-1995-ci illər ərzində «Torpaq Məcəlləsi», «Mülkiyyət haqqında» «Sahibkarlıq fəaliyyəti haqqında», «İcarə haqqında» Respublika Qanunu qəbul edilmişdir.

Aqrar islahatlarının tənzimlənməsində 1993-cü ilin fevralında qəbul olunmuş «Torpaq vergisi haqqında» respublika qanununun da özünəməxsus rolu vardır. Adı çəkilən Qanununa torpaq vergisinin tətbiqində məqsəd, torpaq vergisinin dərəcələri, torpaq vergisi üzrə güzəştlər, torpağa görə verginin müəyyən edilməsi qaydası, torpağın normativ qiyməti və başqa məsələlər öz əksini tapmışdır. Burada qeyd edilir ki, torpaq vergisinin tətbiqində məqsəd torpaqdan səmərəli istifadəni təmin etmək, torpaqların keyfiyyətini və münbitliyini artırmaq, onları mühafizə etmək, dövlət torpaq kadastrı və yer quruluşu tədbirlərini həyata keçirmək üçün vasitələri səfərbər etməkdir.[1]

---

[1] **«Azərbaycan» qəzeti, 4 may 1993-cü il.**

1994-cü ildə «Aqrar islahatının əsas istiqamətləri haqqında» Respublika Qanununun layihəsinin müzakirəyə təqdim olunması iqtisadi islahatların həyata keçirilməsində irəliyə doğru bir addım olmuşdur. Burada qanunun məqsəd və vəzifələri, aqrar islahatlarının əsas istiqamətləri, islahatın əsas prinsipləri, aqrar islahatının obyektləri və subyektləri, dövlət mülkiyyətinin respublika, bələdiyyə və xüsusi mülkiyyətə ayrılması və başqa mühüm məsələlər öz əksini tapmışdır. Məqsəd bazar iqtisadiyyatına məxsus olan müxtəlif mülkiyyət formaları və buna uyğun təsərrüfatlar yaratmaq yolu ilə aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatın sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq əsas kimi müəyyən edilmişdir. Vəzifə isə torpaq və əmlak üzərində yeni mülkiyyət formalarının, bazar iqtisadiyyatına uyğun istehsal və sosial infrastrukturun yaradılmasını təmin etməkdir.[1]

Adı çəkilən Qanunun layihəsi iki ilə yaxın müzakirə olunduqdan sonra 1996-cı ilin avqustunda «Torpaq islahatı haqqında» Respublika Qanunu qəbul edildi. Lakin bu qanunun qəbulu lazım olduğundan çox gecikdirilmişdir. Bu isə respublikanın iqtisadiyyatına mənfi təsir göstərmişdir. Bunun əsas səbəbi isə subyektiv amillərlə bağlıdır. Belə ki, yerli idarə orqanları aqrar islahatını qəsdən ləngitmişlər ki, kolxoz və sovxozların əmlakını öz xeyirlərinə bölsünlər və buna müəyyən qədər nail oldular. Artıq aqrar bölmədə kütləvi özəlləşdirmə həyata keçirilən zaman demək olar ki, kənd təsərrüfatı texnikası və ictimai malqaranın əsas hissəsi yerli rəhbərlər tərəfindən mənimsənilmişdir.

Aqrar islahatlarının həyata keçirilməsinin sürətləndirilməsində 1996-cı ilin fevralında Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə kənd təsərrüfatı

---

[1] **«Azərbaycan» qəzeti, 3 sentyabr 1994-cü il.**

məsələlərinə həsr olunmuş müşavirənin mühüm əhəmiyyəti olmuşdur. «Aqrar bölmədə islahatlar strateji yolumuzdur» devizi altında keçirilən bu müşavirədə aqrar islahatının nöqsan və səhvləri hərtərəfli təhlil olunmuş və onun istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti yekun müşavirədə yekun nitqi söyləyərək təxirəsalınmaz vəzifələri müəyyən etmişdir. O demişdir: «Eyni zamanda bizim bu gün buraya yığışmağımızın məqsədi kənd təsərrüfatında islahatların gedişi və onların sürətini artırmaq məsələsinin müzakirəsi ilə bağlıdır».[2]

Respublika prezidenti aqrar islahatı haqqında qanunun qəbul olunmasının gecikdirilməsini kəskin tənqid etmiş, onun aqrar islahatlarının həyata keçirilməsinə mənfi təsir göstərməsi qeyd edilmişdir. Adı çəkilən müşavirə qısa müddət ərzində öz müsbət nəticəsini vermişdir. Belə ki, 1996-cı ilin iyul ayında «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Adı çəkilən qanunda qeyd edilir ki, torpaq islahatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, «Aqrar islahatlarının əsasları haqqında», Azərbaycan Respublikasının qanunundan, bu qanundan, Azərbaycan Respublikasının «Torpaq Məcəlləsindən» və digər normativ aktlardan ibarətdir.[1]

«Torpaq islahatı haqqında» qanunda torpaqların xüsusi mülkiyyətə və istifadəyə verilməsi, torpaq islahatının aparılması şərtləri müəyyənləşdirilmişdir.

Qanunun mühüm tərkib hissələrindən biri aqrar islahatlarında mərkəzi yer tutan torpaq üzərində mülkiyyət formalarının qərarlaşması məsələsidir. Burada hər şeydən əvvəl dövlət mülkiyyətində saxlanılacaq torpaq sahələrinin adları sadalanır. Buraya dövlət

---

[2] **Yenə orada, 5 aprel 1996-cı il.**

[1] **«Azərbaycan» qəzeti, 2 avqust 1996-cı il.**

hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar, dövlət obyektlərinin – dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zonalarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar, yay və qış otlaqlarının, malqara düşərgələrinin və köç yollarının torpaqları, təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət, tarix-mədəniyyət təyinatlı torpaqlar və başqaları daxildir.

Qanunda eyni zamanda bələdiyyə mülkiyyəti üçün ayrılan torpaq sahələri də müəyyənləşdirilib. Bu qanuna görə dövlət mülkiyyətində qalacaq və xüsusi mülkiyyətə veriləcək torpaq sahələrini respublikanın ümumi torpaq fondundan çıxdıqdan sonra yerlə qalan torpaqlar bələdiyyə mülkiyyətinə verilir. Buraya hər şeydən əvvəl ümumi istifadədə olan torpaq sahələri daxildir. Ümumi istifadədə olan torpaqlara, bir qayda olaraq, şəhərlərin, qəsəbələrin və yaşayış məntəqələrinin – küçələrin, meydanların, yolların, bağların, meşə-parkların, sututarların, stadionların, idman meydançalarının və sair altındakı, habelə əhalinin malqarası üçün örüş sahələri, yaşayış məntəqələrarası və təsərrüfatdaxili yolların, tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin, hidromexaniki qurğuların və ümumi istifadə olan digər obyektlərin yerləşdiyi torpaqlar və başqaları daxildir.

«Torpaq islahatı haqqında» qanun qəbul edildikdən sonra aqrar islahatının kompleks şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə «Kooperasiya haqqında», «Meliorasiya və iiriqasiya haqqında», «Müəssisələr haqqında» və sair digər qanunlar da qəbul edildi. Bu qanunların icrasını təmin etmək, həmçinin torpaq və əmlakın bölüşdürülərək özəlləşdirilməsi, yeni özəl qurumlar yaradılması, onların dövlət qeydiyyatına

götürülməsi və s. barədə onlarla qərar, əsasnamə, qayda və digər zəruri normativ sənədlər hazırlanaraq icra üçün islahat komissiyalarına verilmişdir.

## § 3. Azərbayjanda torpaq üzərində yeni mülkiyyət münasibətlərinin yaranmasının zəruriliyi və bu sahədə əldə edilən uğurlar

Hər bir iqtisadi sistemin əsasında mülkiyyət münasibətləri durduğundan keçid dövründə aqrar bölmədə də yeni mülkiyyət formalarının formalaşması zərurət olmuşdur. Aqrar münasibətləri torpaq mülkiyyəti ilə bağlı olub iqtisadiyyatın aqrar bölməsində mövcud olan iqtisadi münasibətlərin məcmusudur. Aqrar münasibətləri torpaqla bağlı münasibətlər sistemini əks etdirir. Mülkiyyət obyekti olan torpağa sahib olmaq, iqtisadi cəhətdən reallaşdırmaq, ona sərəncam vermə və istifadə prosesində mürəkkəb iqtisadi münasibətlər sistemi meydana çıxır.

Azərbaycanın xalq təsərrüfatının digər sahələrində olduğu kimi onun aqrar bölməsində də yeni mülkiyyət formalarının yaradılması islahatlar yolu ilə aparılmış və bu proses davam edir. Aqrar islahatları Azərbaycan dövlətinin qəbul etdiyi hüquqi qanunlar əsasında həyata keçirilir. Yeni mülkiyyət formalarının yaranmasında aşağıdakü hüquqi qanunlar mühüm rol oynamışdır: «Torpaq islahatı haqqında», «Torpaq vergisi haqqında», «Xırda kəndli (fermer) təsərrüfatlarının yaradılması haqqında», «Aqrar islahatın əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında», «Torpaq bazarı haqqında» və b.

Torpağın kənddə yaşayanlara pulsuz verilməsi marksisit-leninçi iqtisadi təlimi əsasında torpaq üzərində

xüsusi mülkiyyətin və ondan istifadə etmə münasibətlərinin zorakı şəkildə məhv etməsi sahəsindəki edilən ədalətsizliyi aradan qaldırmaq deməkdir. Torpaq üzərində yeni mülkiyyət formalarının yaradılması təqdirəlayiqdir. Bu aqrar bölmədə Azərbaycan dövlətinin uğurlarının əsasını qoymuşdur.

Azərbaycan dövlətinin özəlləşdirmə proqramında torpaq üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyətin formalaşması nəzərdə tutulmuşdur və yeni təsərrüfat formalarının yaradılması da buna uyğun aparılır. Belə ki, aparılan islahatlar nəticəsində respublikanın ümumi ərazisinin 44,2%-i dövlətin sərəncamında saxlanılmış, 31,4%-i bələdiyyələrə verilmiş, 24,2%-i və ya 2100 min hektarın özəlləşdirilməsi nəzərdə tutulmuşdur. Ondan həyətyanı sahə və işğal edilən torpaqlar 223,3 min hektar təşkil etmişdir. Özəlləşdirilən torpaqlardan xüsusi mülkiyyətə verilən torpaqlar 142,2 min hektar təşkil edir. Ondan 5%-ə qədər bələdiyyənin ehtiyat torpaq fondunda saxlanılmışdır. Torpaqların bir hissəsi – 8,5%-179,7 min hektarı kənd təsərrüfatı və dövlət əhəmiyyətli müəssisələrin istifadəsində saxlanılır. İşğal altında 14,3%-300 min hektar torpaq qalmaqdadır. Xüsusi mülkiyyətə verilmək üçün 1329,3 min hektar ayrılmış və onun 9,9%-i özəlləşdirilmişdir. 830 min ailəyə və ya 33,3 milyon nəfərə torpaq payı ayrılmış və onlardan 818,1 min ailə – 3,24 milyon nəfər (98,2%) torpaq payı almışdır.

Torpaq paylarının verilməsi ilə yanaşı, kənddə əmlakın özəlləşdirilməsi prosesi də davam etməkdədir. Respublikada kolxoz, sovxoz və digər müvafiq kənd təsərrüfatı müəssisələrində 2655,7 milyard manatlıq əmlak olmuşdur. Ondan 177,1 manatlıq – 6,6%-i dövlətdə saxlanılmış, 601,3 milyard manatlıq – 22,6%-i bələdiyyəyə verilmiş, 1877,3 milyard manatlığın 70,6%-nin özəlləşdirilməsi nəzərdə tutulmuş və faktiki olaraq –

1782,1 milyard manatlıq – 94,9% əmlak özəlləşdirilmişdir. Əmlakın özəlləşdirilməsindən vətəndaşların 94,5%-i pay almışdır. Respublikanın rayonlarında əmlakın özəlləşdirilməsi başa çatdırılmışdır.

Aqrar islahatlar Azərbaycan kəndində bütün istiqamətlərdə gedir və yeni təsərrüfat formaları və iqtisadi münasibətlər yaranır və təkmilləşmə prosesi davam edir. Lakin kənddə yaşayanlarda ilkin kapital yığımı məhdud olduğundan bu sahədə xüsusi sahibkarlığın formalaşması bir sıra çətinliklər törədir. Bunların aradan qaldırılması məqsədilə dövlət özünün fiskal siyasəti vasitəsilə bu prosesə böyük kömək göstərir. Belə təşəbbüs göstərən subyektlərə faizsiz və güzəştli kreditlər verilir, bütün vergilərdən azad edilir və s.

Torpaq islahatının əsas mahiyyəti ilk növbədə kəndli (fermer) təsərrüfatlarının meydana gəlib inkişaf etdirilməsi ilə də əlaqədardır. Bu təsərrüfatlar sabit xarakter daşımaqla, dinamik artmaqdadır. Belə ki, 2001-ci ilin yanvarına olan vəziyyətə görə rayonlar üzrə kəndli (fermer) təsərrüfatları 34126 və onlarda işçilərin sayı 116021 nəfər təşkil etmişdir, bu rəqəm sonralar daha da artmışdır. Bundan başqa 182 kooperativ, 458 kiçik müəssisə və 1757 kollektiv müəssisələr mövcud olmuşdur. Bunlar keçid dövründə aqrar bölmədə çoxmülkiyyətli iqtisadiyyatın formalaşması prosesinin getdiyini sübut edir ki, bu da Azərbaycan dövlətinin strategiyasına tamamilə uyğundur.

XXI əsrin əvvəllərində kənd təsərrüfatında istehsal edilən məhsulun əsas hissəsi özəl bölmənin payına düşmüşdür. Aqrar islahatlarının keçirilməsi nəticəsində kəndli (fermer) təsərrüfatlarının sayı artıqca əkin sahələrinin dövriyyəyə buraxılması, malqaranın sayının artması və məhsuldarlığının yüksəlməsi prosesi dinamik

getmişdir. İqtisadiyyatın bu vacib sahəsinin daxili ehtiyatları üzə çıxarılaraq istifadə edilməyə başlanmışdır.

Aqrar bölmədə islahatlar nisbətən gec başlansa da, islahatların nəticəsi özünü tez göstərmişdir. Belə ki, 1995-ci ilə nisbətən 2005-ci ildə respublikada taxıl 1097,7 min ton – 2,2 dəfə, kartof 450,3 min ton – 3,9 dəfə, tərəvəz 492,3 min ton – 2,2 dəfə, bostan məhsulları 249,0 min ton – 6,9 dəfə, meyvə və giləmeyvə 173,1 min ton – 1,5 dəfə və tütün istehsalı 1,0 min ton – 1,1 dəfə artmışdır. Bu proses 2005-ci ildən sonra da davam etdirilmiş və 2008-ci ildə daha yüksək templə inkişaf etmişdir. Eyni zamanda bu vəziyyət heyvandarlığa da xasdır. Həmin dövrdə iribuynuzlu malqara 416,2 min baş – 1,2 dəfə, o cümlədən inək və camışlar 229,1 min baş – 1,3 dəfə, qoyun və keçilər 2 milyon baş – 1,3 dəfə, hər cür quşlar 2,1 milyon baş – 1,1 dəfə artmışdır. İribuynuzlu malqara naxırında inək və camışların xüsusi çəkisi 47,7 faizə çatmışdır ki, bu da müsbət haldır. Çünki bu proses yaxın gələcəkdə malqaranın sayının daha sürətlə artmasına təkan verə bilən amildir.

Kənd təsərrüfatı istehsalı sahəsində əldə edilən müvəffəqiyyətlər 2005-ci ildən sonra daha sanballı olmuşdur. Bunun bir səbəbi dövlətin aqrar bölməsinin inkişafına dövlət qayğısının artması ilə əlaqədardırsa, digər səbəbi kəndlərdə ayrı-ayrı subyektlərin əlində sahibkarlığın inkişafı üçün zəruri şərtlərdən biri olan ilkin kapital yığımının artması və əhalinin bazar iqtisadi sisteminə uyğunlaşması prosesinin güclənməsidir.

Azərbaycanın aqrar bölməsində islahatlar aparmaq yolu ilə yaradılan yeni mülkiyyət münasibətlərinin formalaşması sahəsində uğurlar qazanılsa da, bu yetərli deyil. Buna təbii qanunauyğunluq kimi qəbul etmək lazımdır. Çünki bir tərəfdən keçid dövründə bazar iqtisadi sisteminə keçidin hüquqi əsaslarının yaradılması,

insanların şəxsən azad olması, torpağın kənddə yaşanlara pulsuz verilməsi sovet sistemindən fərqli olaraq istehsalçıların istehsalın nəticəsinə maddi maraq yaratmış və bu da insanların daha həvəslə, var gücləri ilə işləməyə imkan vermişdir, digər tərəfdən keçid dövrünün ziddiyyətləri və bir çox çətinlikləri problemin həllinə maneçilik törətmişdir. Bunların bəziləri Azərbaycanın tarixən keçdiyi kəşməkeşli inkişaf yolu ilə, digəri daxili və xarici şəraitlə, başqa birisi isə subyektiv amillərlə bağlıdır.

İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadiyyatına keçən zaman buraxılan səhvlərin bir səbəbi prosesin çox çətin olması ilə bağlıdırsa, digər səbəbi dünya təcrübəsində belə bir analoji hadisənin olmaması ilə əlaqədardır. Bunların arasında aqrar sahədə hüquqi sənədlərin qəbul edilməsinə baxmayaraq onun həyata keçirilməsi gecikdirilmişdir. Çətinliklərin xeyli hissəsi buradan qaynaqlanmışdır.

Aqrar bölmədə Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafına mənfi təsir göstərən əlavə problemlər yaradan amillərdən biri də tarixən Azərbaycanın kənd təsərrüfatında azad sahibkarlığın başqa ölkələrdən zəif inkişaf etməsi olmuşdur. Belə ki, XIX əsrin son qərinəsində Çar Rusiyası öz ölkəsində sənayenin inkişafı xatirinə Azərbaycanın neft sənayesində sahibkarlığın inkişafına əlverişli şəraitin yaratdığı halda aqrar bölmədə əmtəə-pul münasibətlərinin inkişafına əhəmiyyət verməmiş və burada natural təsərrüfat üstünlük təşkil etmişdir. Lakin buna baxmayaraq Azərbaycan Rusiyanın bir regionu olduğuna görə Azərbaycanın kənd təsərrüfatında da əmtəə-pul münasibətləri tədriclə inkişaf edərək ümumi Rusiya bazarına daxil olmuş və milli sahibkarlıq zəif olsa da formalaşmışdır. Təəssüf ki, sovet hakimiyyəti illərində sənaye sahəsində olduğu kimi Azərbaycanın aqrar

bölməsində formalaşan sahibkarlara «qolçomaq» damğası vurularaq Sibirə və Qazaxıstan çöllərinə sürgün edilmişdir. Bunun mənfi nəticəsinin biri ondan ibarət oldu ki, istehsalı təşkil və idarə etmək bacarağı olan subyektlər məhv edildi, kənd təsərrüfatı istehsalı sahibkarlıq istedadı olmayanlara tapşırıldı. Digər mənfi nəticəsi isə sahibkarlıqda varislik əlaqəsinin qırılması oldu.

Azərbaycan Respublikasında torpağın özəlləşdirilməsi, onun kənddə yaşayanların xüsusi mülkiyyətinə pulsuz verilməsi böyük uğurdur, aqrar bölmədə azad sahibkarlığın formalaşması üçün bünövrə yaratmaqdır. Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə respublikanın Prezidenti H.Əliyev demişdir: «İndi bir məsələ də var ki, bu qanunla bu torpaqda işləyənlərə, yaxud da kənddə yaşayanlara veririk. Ancaq keçmiş Sovetlər İttifaqının başqa respublikalarının (Gürcüstanla Ermənistandan başqa) heç birində torpaq paylanmayıb. Torpaq icarəyə verilibdir. Rusiyada da paylanmayıbdır, icarəyə verilibdir».[1]

Beləliklə, bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanda keçirilən torpaq islahatları xoş niyyətlə keçirilməsinə baxmayaraq gecikmə və tələskənlik halları olduğuna görə bəzi mənfi nəticələr vermişdir. Bunlar aşağıdakılardır: birincisi, aqrar islahatı ləngidildi, yəni, Azərbaycan müstəqillik qazanan kimi dərhal, kolxoz və sovxozların texnikası, ictimai malqarası dağıdılmamış, torpaqla bərabər texnika da kəndlilərin xüsusi mülkiyyətinə verilsəydi, daha yaxşı olardı. Gecikmək ona gətirib çıxardı ki, kəndliyə torpaq verildi, lakin kənd təsərrüfatı texnikası verilmədi. İkincisi, iri ixtisaslaşdırılmış kənd təsərrüfatı müəssisələrini tələm-tələsik xırda kəndli təsərrüfatlarına çevirmək təəssüf hissi doğurur. Kolxoz və sovxozların səmərəsizliyi kollektiv, iri təsərrüfatın

---

[1] **«Azərbaycan» qəzeti, 5 aprel 1996-cı il.**

səmərəsizliyindən deyil, inzibati-amirlik sisteminin mahiyyətindən irəli gəlmişdir. Əgər həmin kollektiv təsərrüfatda kollektiv mənafeyi dövlət mənafeyi ilə düzgün uzlaşdırılsaydı, istehsalın səmərəliliyini təmin etmək olardı. Üçüncüsü, Azərbaycanda adambaşına düşən torpaq sabiq SSRİ-nin digər respublikalarına nisbətən az olduğuna görə fermer təsərrüfatı yaratmaq çox çətindir. Azərbaycanda orta hesabla hər nəfərə 20 sot əkinə yararlı torpaq sahəsi düşdüyü halda bir fermer təsərrüfatı üçün ən azı 30 hektar torpaq lazımdır. Beş nəfərdən ibarət bir ailəyə bir hektar torpaq sahəsində səmərəli təsərrüfatçılıq aparmaq ağlasığmazdır. Bu vəziyyət yaxın gələcəkdə düzəlməsə bu sahəni çətin vəziyyətə sala bilər. Dördüncüsü, kənd təsərrüfatı istehsalı sahəsində ilkin kapital yığımı prosesi zəif getdiyindən istehsalçıların əlində təsərrüfatı təşkil və idarə etmək üçün maliyyə vəsaiti çox məhduddur. Bir tərəfdən kəndlilərə verilən torpaq payının kiçik olması, digər tərəfdən kəndlinin kənd təsərrüfatı texnikasından, mineral maddələrdən, xəstəliklərə qarşı mübarizə peraparatlardan maliyyə vəsaitinin məhdudluğu ucundan kifayət qədər istifadə edə bilməməsi istehsalın səmərəliliyini aşağı salır. Beşincisi, insan psixologiyası belədir ki, o öyrəşdiyi qanun-qaydalardan qısa müddətdə uzaqlaşaraq yeni şəraitə asanlıqla uyğunlaşa bilmir. Azərbaycanın kənd əhalisi uzun illər yuxarıdan verilən göstərişlərlə işləməyə o qədər öyrəşmişlər ki, müstəqil olduqdan sonra da yenə yuxarıdan sərəncam gözləyir, kiminsə onu idarə etməsini arzulayır. Bir tərəfdən müstəqil düşünməyi və fəaliyyət göstərməyi bacarmayan, digər tərəfdn maliyyə imkansızlığı kənd təsərrüfatı sahəsində çalışanlarda çaşqınlıq yaratmışdır. Buna təbii baxmaq lazımdır. Ona görə ki, insanların psixologiyasını qısa müddətdə dəyişmək qeyri-mümkündür. Məhz buna

görə də Azərbaycanda torpağı icarəyə vermək daha səmərəli olardı. Altıncısı, Azərbaycanda torpağın xüsusi mülkiyyətə verilməsi ilə bərabər icarəyə verilməsi də qanunda nəzərdə tutulsa daha yaxşı olardı. Çünki icarə münasibətlərinin inkişafı prosesində adi iş qüvvəsinə malik olan insanlarla sahibkarlıq qabiliyyəti olanlar bir-birindən ayrılırlar. Aqrar bölmədə sahibkarlığın formalaşması və inkişafı üçün bu prosesin getməsi çox vacib və ümumi iqtisadi qanunauyğunluqdur.

Belə nəticəyə gəlmək olar ki, Azərbaycan müstəqillik qazandıqdan sonra aqrar bölmədə bazar iqtisadiyyatına keçmək məqsədi ilə keçirilən aqrar islahatlar həm gecikdirilib, həm də tələskənliyə yol verilib. Orta həddən uzaqlaşmaq istər yuxarı, istərsə də aşağı olması mənfi hal hesab olunduğundan Azərbaycanda aqrar islahatının həm gecikməsi, həm də tələskənliyə yol verilməsi Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafına mənfi təsir göstərmişdir. Yuxarıda qeyd olunduğu kimi gecikmək nəticəsində inzibati-amirlik sistemi dövründə yaranmış iqtisadi, texniki, əmək potensialı dagıdıldı. Tələskənlik isə iri, ixtisaslaşdırılmış, çox asanlıqla və qısa müddətdə istehsalın səmərəliliyini təmin etmək imkanı olan bütün ictimai təsərrüfatlar ləğv edildi. Halbuki həmin kənd təsərrüfatı müəssisələrini uzun müddət saxlamaq, onlardan kənddə sahibkarlığın formalaşması və inkişafında istifadə etmək mümkün idi. Kənddə xüsusi milli sahibkarlıq formalaşdıqdan sonra onlar istehsalı səmərəli təşkil edə bilməsələr özləri tarix səhnəsindən gedəcəkdilər. Deməli, onları inzibati qaydada ləğv etməkdənsə, yenidən qurmaq, kollektiv təsərrüfatın üstünlüklərini aşkara çıxarmaq üçün şərait yaratmaq daha əhəmiyyətli olardı. Bu köhnəyə nisbətən yenisini, daha mütərəqqisini yaratmadan onu məhv etməkdir. Bu isə ədalətsizlikdir. Hətta tarixdə ən ədalətsiz

imperiya olan sovetlər birliyi satlıq taxılın çoxunu istehsal edən qolçomaqları kolxoz və sovxozlar formalaşıb möhkəmlənənə kimi məhv etməmişdir.

Aqrar bölmədə normal təbii, tarixi inkişaf yolu keçmiş dövlətlərdən fərqli olaraq torpaq üzərində yeni mülkiyyət formalarının yaranması Azərbaycan dövlətinin nəzarəti və köməyi ilə yaradıla bilər. Bu obyektiv zərurət hələlik Azərbaycanın aqrar bölməsində milli xüsusi sahibkarlığın kifayət qədər formalaşmasından irəli gəlmişdir. Dövlət kənd yerlərində tədarük, satış, emal müəssisələri yaratmalı və kəndlilərin məhsullarını reallaşdırmağı öz üzərinə götürməlidir. Bunun işsizlik probleminin həllində də böyük əhəmiyyəti vardır. Azərbaycanın kəndlərində yaşayan sağlam, cavan kişilərin öz vətənini tərk etmələri iş yerlərinin olmaması ilə bağlıdır. Kənd yerlərində emal, tədarük, yüngül, yeyinti sənaye müəssisələrinin yaradılması bir çox sosial problemlərin həllinin yeganə yoludur. Bunu isə yalnız Azərbaycanın milli dövləti edə bilər və bu onun ən müqəddəs iqtisadi vəzifəsidir. Dövlət bu vəzifəni iki yolla həyata keçirə bilər. Bir tərəfdən hər iqtisadi rayonun kənd təsərrüfatı istehsalının xüsusiyyəti ilə əlaqədar, istehsal olunmuş məhsulun həcmindən asılı olaraq tədarük, saxlama, emal, yeni, müasir tələblərə cavab verən müəssisələr yaratmaq, bununla paralel son məhsul istehsal edən yeyinti və yüngül sənaye müəssisələri qurulmalıdır. Eyni zamanda vaxtilə sovet imperiyasının Bakı-Sumqayıt iqtisadi rayonunda müxtəlif regionlardan gətirilən kənd təsərrüfatı xammalı əsasında işləyən emal, yeyinti, yüngül sənaye müəssisələri xammal istehsal olunan yerlərə köçürülməsinə nail olmaq lazımdır.

Azərbaycanın aqrar bölməsində xüsusi fermer təsərrüfatının formalaşmasında ən çətin problemlərdən biri də kolxoz-sovxoz sistemi dövründə torpaqdan

səmərəli istifadə edilməməsi nəticəsində əkinə yararlı torpaqların xeyli hissəsinin dövriyyətdən çıxması, müxtəlif növ və müxtəlif səviyyədə erroziyaya məruz qalması, torpağın həddən çox fasiləsiz istismarı nəticəsində gücdən düşməsidir. Lakin həmin dövrdə torpağın məhsuldarlığı nə təbii, nə də süni yolla bərpa edilməmişdir. Bu nöqsanları əlində heç bir maliyyə vəsaiti olmayan xırda kəndli təsərrüfatı qısa müddətdə aradan qaldıra bilməz. Bundan başqa Azərbaycanda əkinə yararsız çoxlu torpaq sahələri vardır ki, əlavə kapital qoymaq hesabına onları əkinə yararlı hala salmaq mümkündür. Təəssəüf ki, Azərbaycanın kənd yerlərində bu problemləri həll etməyə qabil olan elə bir təbəqə hələlik formalaşmayıb. Kənddə bu problemləri həll etmədən Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafından danışmaq olmaz.

Deyilənlərdən belə nəticə çıxartmaq olar ki, Azərbaycanın kənd təsərrüfatında xüsusi milli sahibkarlığın formalaşması və inkişafı üç mənbə hesabına yaradıla bilər. Birincisi, Azərbaycan kəndinin öz daxilində olan ilkin kapital yığımı hesabına. İkincisi, Azərbaycan öz milli dövlətinin büdcəsindən bu məqsəd üçün ayrılan maliyyə vəsaitinin gücü ilə. Üçüncüsü, xarici ölkələrin və investorların bu prosesə cəlb etmək yolu ilə. Bunlardan birincisi ən etibarlı, düzgün yoldur və cəmiyyətin inkişafının ümumi qanunauyğunluğudur. Problemin həllinin təxminən 80% bunun üzərinə düşməlidir. İkinci mənbə də mühüm rola malikdir. Lakin Azərbaycan dövlətinin maliyyə imkanları məhdud olduğuna görə buna maliyyə vəsaiti ayırmaq hesabına deyil, yeni mülkiyyət formalarının yaranmasına, hər şeydən əvvəl icarə münasibətlərinin formalaşması və inkişafına şərait yaratmaq və tənzimləmək hesabına prosesi sürətləndirə bilər. Üçüncü yol isə ən etibarsız yoldur. Ona görə ki, heç

bir xarici investor az gəlir gətirən və çoxlu sosial problemləri olan rayonlarda kapital qoymaz, onları daha çox mənfəət gətirən neft hasilatı maraqlandırır. Deməli, aqrar azad sahibkarlığı formalaşdırmaq problemini yalnız Azərbaycanın milli dövləti və Azərbaycan xalqının özü həll etməlidir.

Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafında aqrar bölmədə sahibkarlığın inkişaf etdirilməsi digər sahələrdən daha böyük əhəmiyyət kəsb edir. Bunun səbəbləri aşağıdakılardır: birinci, işsizliyin və digər çoxlu sosial problemlərin olması ucbatından kənd əhalisi öz vətənlərindən başqa yerlərə köçürlər. Ən başlıca məhsuldar qüvvə olan insanların kənddən köç etməsi milli iqtisadiyyatın formalaşmasına mənfi təsir göstərən amillərdən biridir. İkincisi, Azərbaycanda istehsal olunan yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən tədarükünü, emalının və reallaşmasının istənilən səviyyədə təşkil olunmadığından daxili və xarici kommersantlar istifadə edərək xaricdə istehsal olunmuş keyfiyyətsiz ərzaq məhsullarını respublikanın daxili bazarına doldururlar. Belə hal bazar iqtisadiyyatının formalaşmasının əsas atributu olan milli bazarın formalaşmasını ləngidir. Bu isə Azərbaycanda kənd təsərrüfatı istehsalının inkişafına mane olur.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında aqrar bölmə digər sahələrə nisbətən daha böyük əhəmiyyət kəsb etdiyindən onu ön plana çəkmək lazımdır.

Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafı yalnız milli-ərazi vahidliyi çərçivəsində milli psixologiyaya, əmək, əxlaqı, mənəvi, mədəni, adət-ənənəsi və milli xüsusiyyətlərinə söykənməklə həyata keçirilə bilər. Bu amil Çar Rusiyası

və sovet imperiyası tərəfindən pozulduğuna görə yenidən formalaşdırmaq lazım gələcəkdir. Bu çətin və uzunmüddətli prosesdir.

Azərbaycanın müstəqil olması respublikanın xalq təsərrüfatını sahə və ərazi prinsipləri üzrə idarə etməyə imkan vermişdir. Bazara keçid sonuncuya daha çox üstünlük verilməsini tələb edir. Bu da xalq təsərrüfatının və aşağı qurumların müstəqilliyini nə qədər artırsa, öz gəlirləri hesabına yaşamaq məsuliyyətini də bir o qədər çoxaldır. Bu da təbiidir.

Müstəqillik Azərbaycan ərazisində istehsalın daha da yüksəldilməsində, əmək, maddi və maliyyə ehtiyatlarından istifadə səmərəliliyin yaxşılaşmasına respublikanın və yerli idarəetmə orqanlarının marağını artırır. Respublikanın məsuliyyətinin artırılması və bazarın formalaşması yolunda bu, irəliyə doğru bir addımdır və bu prosesin inkişafında hərəkətverici qüvvədir.

Deməli, Azərbaycanın siyasi müstəqillik əldə etməsi Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb edən təsərrüfat müstəqilliyinin və məsuliyyətinin artırılması əsas cəhətlərdəndir. Bunlar eyni zamanda ərazidə təsərrüfatların iqtisadi metodlardan, xüsusən bazar münasibətləri əsasında idarə olunmasına keçmək üçün başlıca yoldur. Əsas məsələ ərazi əmək bölgüsünün təbii və iqtisadi əsaslarının yenidən qurulmasında, ərazi təsərrüfatçılığını iqtisadi cəhətdən canlandıra bilən potensial imkanları aşkara çıxarıb iqtisadi əlaqələr dövriyyəsinə cəlb etməkdən ibarətdir. «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2004-2008-ci illər») adlı sənəd də bu məqsədlə qəbul olunmuş və onun reallaşması üçün görülən dövlət tədbirləri Azərbaycanda yeni mülkiyyət münasibətlərinin formalaşması və inkişafında irəliyə

doğru bir addım olmuşdur. Lakin həll olunmamuş problemlər də çoxdur. Ona görə də «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2009-2013-cü illər)» adlı sənəd də bu məqsədlə qəbul olunmuşdur.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. Azərbaycanın torpaq fondunun miqdarını deyin və strukturunu göstərin.
2. Torpağın kadastrı anlayışının mahiyyətini və əsas cəhətlərin təhlil edin.
3. Torpağın banitirovkasını aparmaqda məqsəd nədir?
4. Azərbaycanın kənd təsərrüfatı iqtisadiyyatının vəziyyətinin çətin olmasının səbəblərini şərh edin.
5. Keçid dövrünün ilk illərində Azərbaycanın kənd təsərrüfatının böhran vəziyyətdə olmasını sübut edən faktlar göstərin və bunun obyektiv və subyektiv səbəblərini izah edin.
6. Azərbaycanın kənd təsərrüfatının islahat yolu ilə bazar münasibətlərinin formalaşmasının zəruri olmasını əsaslandırın.
7. Aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin yaranmasının zəruriliyini izah edin və bunu təmin edən hüquqi qanunların bir neçəsinin adını deyin.
8. Torpağın nə qədərinin dövlət, bələdiyyə və xüsusi mülkiyyətə verilməsini danışın.

## Müzakirə suallar və tapşırıqlar

1. Torpağın istehsal vasitələri kimi xüsusiyyətlərini izah edin.

2. Azərbaycanın kənd təsərrüfatı iqtisadiyyatının vəziyyətini təhlil edin.

3. Aqrar islahatın hüquqi əsaslarının yaradılmasının zəruriliyini və bu hüquqi qanunların bir neçəsinin adını deyin və mahiyyətini açın.

4. Aqrar isdahatının həyata keçirilməsi prosesində buraxılan səhvlərin obyektiv və subyektiv səbəblərini göstərin.

# 11-ji MÖVZU: AZƏRBAYJANDA DEMOQRAFİK VƏZİYYƏT VƏ MƏŞĞULLUQ PROBLEMİ

## § 1. Demoqrafiya və Azərbayjanda demoqrafik inkişafın xüsusiyyətləri

Azərbaycan müstəqilliyini bərpa etməmişdən əvvəl müstəqil dövlət olmadığından onun özünün demoqrafik siyasəti olmamışdır. Hər bir müstəqil dövlətin, o cümlədən Azərbaycan dövlətinin demoqrafik siyasəti olması obyektiv zərurətdir. Çünki Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında əmək ehtiyatlarından səmərəli istifadə etməyin əhəmiyyəti böyükdür. İş qabiliyyətli əhalinin məşğulluğunu təmin etmək iqtisadi artıma təkan verən əsas amildir. Buna görə də demoqrafiya elmini öyrənmək, demoqrafik hadisə və prosesin qanunauyğunluğunu bilmək lazımdır. Bu baxımdan sovet hakimiyyəti illərində Azərbaycanda baş verən demoqrafik proseslərə nəzər salmaq lazımdır ki, Azərbaycan dövləti bazar iqtisadiyyatına keçid dövründə özünün demoqrafik siyasətini düzgün işləyib hazırlaya bilsin.

Azərbaycanda demoqrafik vəziyyət heç də yaxşı deyil. Çünki demoqrafik hadisə və proseslər milli iqtisadiyyatla üzvü surətdə bağlı olur və muxtariyyət təşkil etmir. O məhsuldar qüvvələrin səmərli və ya qeyri-səmərəli yerləşdirilməsindən, istehsalın strukturunun necə qurulmasından asılıdır. Bunlar bir-birilə qarşılıqlı əlaqədə olan proseslərdir və onlar Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafı prosesində tədriclə yaxşılaşmağa doğru getməlidir. Bunlar isə qısa müddətdə həll olunan problemlər deyil və buna görə də bu sahədə inadla və fədakarcasına çalışmaq lazımdır.

Demoqrafiya yunan sözü olub, – demos – xalq+qrafiya deməkdir. O, əhali haqqında elmdir mənasını verir. «Demoqrafiya» terminini ilk dəfə fransız alimi A.Qiyar 1855-ci ildə işlətmişdir. Demoqrafiya əhalinin struktur yerləşməsini, yerdəyişməsini və dinamikasını, buna təsir göstərən bir çox amillərin qarşılıqlı əlaqə və təsirini və qanunauyğunluqlarını öyrənir.

Demoqrafiya ictimai elmlərə daxildir və onun tarixi XVII əsrdən, dəqiq desək, 1662-ci ildən başlanır. O ingilis alimi D.Qrauntanın «Ölüm haqqında təbii və siyasi müşahidələr» əsərinin nəşr olunmasından sonra elmi ədəbiyyata daxil olur. Onun bu əsərində çoxlu demoqrafik fikirlər irəli sürülmüşdür.

Bu elm əhalinin yerdəyişməsini, hərəkətini, quruluşunun qanunauyğunluqlarını sosiologiya, iqtisadiyyat, həmçinin biologiya, coğrafiya və başqa elmlərin köməyi ilə öyrənir. Bu elmlərdən istifadə etməklə demoqrafiya hər bir ölkədə, regionda, şəhərdə və bütövlükdə yer kürəsində əhalinin sayı məsələsini işləyib hazırlayır. Bunun əsasında gələcəkdə əhalinin artım dinamikası müəyyən edilir.

Demoqrafiya müxtəlif ictimai elmlərlə, ən əvvəl sosialogiya elmi ilə sıx əlaqədardır. Sosialogiya insana şəxsiyyət kimi yanaşır. O, ayrı-ayrı fərd, qrup və cəmiyyətin qarşılıqlı əlaqə və təsirini öyrənir. Demoqrafiya isə insanın fərdi cəhətlərini sərf-nəzər edir, hər bir insana sakin kimi baxır.

Demoqrafiya iqtisad elmləri ilə də əlaqədardır. Bu elm əhalini əmək ehtiyatları və insanı məhsuldar qüvvələrin ən aparıcı komponenti kimi öyrənir. İqtisadi nəzəriyyə insanı iqtisadi münasibətlər sistemində tədqiq edir. İstehsal prosesində insanlar arasında normal iqtisadi münasibətlərin qurulması istehsalın inkişafında mühüm amildir.

Demoqrafiya ilə ən çox əlaqədə olan statistika elmidir. Demoqrafik prosesin öyrənilməsində statistika nəzəriyyəsinin prinsipləri geniş şəkildə tətbiq edilir. Əhali statistikası ümumi statistika elminin bir sahəsidir. Bu sahə demoqrafik prosesi xarakterizə edən ilk mənbələri toplamaq, onu işləmək, göstəricilər və metodlar hazırlamaqla məşğul olur.

Demoqrafiya statistikasının verdiyi materiallar əsasında əhalinin strukturuna təsir göstərən amilləri öyrənir. O, əhalinin sayına, yaşa və cinsə görə strukturunu, əhalinin mədəni səviyyəsini, ailə strukturunu, əhalinin peşələr üzrə bölgüsünü və başqalarını müəyyən edir. Həm də müharibənin əhalinin sosial vəziyyətinə təsirini, əhalinin struktur dəyişikliyini də öyrənir.

Demoqrafik prosesin öyrənilməsində hüquq elmi də iştirak edir. Hər bir dövlət özünün daxili və beynəlxalq vəziyyəti ilə əlaqədar olaraq sosial, o cümlədən demoqrafik siyasətini də işləyib hazırlayır. Dövlət orqanlarının göstərişi ilə hüquqşünaslar müəyyən qanunvericilik aktı hazırlayırlar və qanunvericilik orqana təqdim edirlər. Dünya dövlətlərinin tarixən keçdiyi inkişaf yolu, iqtisadi inkişafın səviyyəsi, adət və ənənələri, ərazinin böyüklüyü və başqa amillər müxtəlif olduğuna görə, bu sahədə qanunlar da müxtəlif olur. Bir ölkədə əhalinin artmasına çox ehtiyac olduğu halda, başqa bir dövlətdə isə buna ehtiyac olmur, hətta əhalinin sürətli artımı həmin dövlətdə yeni problemlər yaradır. Məsələn, Çində əhalinin sayı bir milyard 300 milyonu keçib, onun ərazisi isə əhalinin sayına nisbətən azdır. Buna görə də orada əhalinin təbii artımının qarşısını almaq zərurətə çevrilmişdir. Bu məqsədlə hər ailədə bir tərəfdən artıq uşağın dünyaya gəlməsi qanunla qadağan edilmişdir.

Sabit Sovet imperiyasında isə əksinə, çoxuşaqlı ailələrə imtiyazlar verilmişdi. Buraya çoxuşaqlı ailələrin

dövlətdən yardım alması, çoxuşaqlı anaların orden və medallarla təltif edilməsi, növbədən kənar mənzil verilməsi, pensiyaya çıxan qadınların güzəştlərə malik olmasını və başqalarını aid etmək olar.

Demoqrafiya elmi etnoqrafiya ilə də qarşılıqlı əlaqədədir və əhalini onunla əlaqədə öyrənir. Hər bir millətin özünəməxsus adət, ənənələri var. Bunları isə etnoqrafiya öyrənir. Ona görə də demoqrafiya bütövlükdə əhalini deyil, hər bir millətin özünəməxsus xüsusiyyətlərini də bu prosesə daxil edir.

Əhalinin artımına təsir göstərən amillərdən biri sosial gigiyenadır. Çünki bu amil insanın sağlamlığına, ömrünün uzanmasına böyük təsir göstərir. Demoqrafiyanın tibb elmi ilə əlaqəsi də buradan irəli gəlir. Deməli, demoqrafik prosesin öyrənilməsində tibb elmi də iştirak edir.

İndi demoqrafiya anlayışı ilə bilavasitə bağlı olan məsələlərin şərhinə keçək.

Demoqrafiya əhalinin yerləşdirilməsini, sakin edilməsini də öyrənir. O, urbanizasiya (kənd əhalisinin şəhərə axını və toplanması) prosesini təhlil edərkən şəhərlərin əmələ gəlməsinə təsir göstərən amilləri, şəhərlərin əhalisinin optimal sayını, bu prosesin intensivliyini və xarakterini öyrənir.

Demoqrafik proses əhalinin təkrar istehsalını, yəni doğum və ölüm hadisəsini göstərir. Geniş mənada bu elm sahəsinin predmeti ərazi üzrə əhalinin yerləşməsi və miqrasiyasıdır. Miqrasiya latınca «nuqratio» sözündən olub, köçürülmə deməkdir.

Demoqrafik proses həm də tarixi fonda öyrənilir.

Miqrasiya əhalinin köçürülməsi prosesinin hər iki tərəfini özündə birləşdirir. Bunlardan biri emiqrasiyadır, yəni bir dövlətin ərazisindən əhalinin çıxıb getməsi, digəri isə imiqrasiyadır, başqa sözlə, başqa dövlətdən əhalinin

bu və ya digər dövlətə gəlməsidir. Deməli, miqrasiya əhalinin mexaniki hərəkətinin hər iki tərəfini özündə birləşdirir.

Miqrasiya ölkə daxilində, bir regiondan başqa regiona, yaxud bir dövlətdən başqa dövlətə əhali axını ilə əlaqədar ola bilər.

Əhalinin kontinentlərarası ən böyük emiqrasiyası (köçməsi) XIX-XX əsrlərdə Avropadan okeanın o tayına olmuşdur. Təkcə XX əsrin əvvəllərində 19 milyon adam Avropadan başqa ölkələrə köçmüşdür. Birinci dünya müharibəsi bu prosesi dayandırmışdır.

Əhalinin miqrasiyası daimi və müvəqqəti ola bilər. Adətən uzunmüddətli miqrasiya dövlətlər arasında, müvəqqəti isə əsasən dövlət daxilində baş verir. Məsələn, Ermənistanla müharibə ilə əlaqədar olaraq, respublikamızda yaranan köçkünlər buna misal ola bilər.

Əhalinin miqrasiyasının səbəb və məqsədləri çoxdur. Bunlardan biri sosial-iqtisadi vəziyyətin bəzi ölkələrdə başqa dövlətlərə nisbətən aşağı olmasıdır. Adətən, iqtisadi vəziyyət pis olan ölkələrdən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə əhali daha çox köçür. Bu ölkələrə köçənlərin tərkibi çox müxtəlif olur. Başqa sözlə, həm ixtisaslı, həm də ixtisası olmayan insanlar köçməyə məcbur olurlar. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən geri qalmış dövlətlərə əsasən yüksək səviyyəli mütəxəssislər və sahibkarlar köçürlər. Bu ölkələrdə bu qrup insanlara tələbat var. Burada sahibkarlıq fəaliyyəti üçün əlverişli şərait olur. Bunların hamısına əhalinin mexaniki hərəkəti deyilir.

Siyasi vəziyyət də əhalinin miqrasiyasına təsir göstərən amillərdən biridir. Ermənilərin vaxtilə Azərbaycana kütləvi surətdə köçürülməsi Çar Rusiyası və Sovet imperiyasının siyasəti ilə bağlı olub.

Əhalinin miqrasiyası iki cür nəticə verir. Bir tərəfdən, əhalinin miqrasiyası ərazidə iş qüvvəsinin yenidən bölgüsünə, istehsalın və digər sahələrin yaranmasına və inkişafına, yeni ərazilərin mənimsənilməsinə, xammal və satış bazarlarının, yeni yaşayış yerlərinin yaranmasına, əhalinin mədəni inkişafının yüksəlməsinə səbəb olur. Digər tərəfdən, həddindən çox iri şəhərlərin yaranmasına, kəndlərin boşaldılması ilə nəticələnir. Bu isə bəzi ciddi çətinliklər yaradır. Bir çox hallarda köçürülənlər yerli şəraitə çətin uyğunlaşırlar. Başqa mənfi nəticələr də baş verə bilər.

Demoqrafiya əhalinin təbii hərəkətini də öyrənir. Bu, doğum, nikah, boşanma və ölümü əhatə edir.

Əhali statistikasının verdiyi göstəricilər əsasında demoqrafiya doğum səviyyəsini, doğum amillərini təhlil edir, ailənin formasını, ailədə uşaqların sayını və başqa məsələləri müəyyənləşdirir.

Əsas göstəricilər vasitəsilə demoqrafiya orta nikah yaşın dinamikasını, kişi və qadın yaşının nisbətini, boşanmanın səviyyəsini və başqalarını öyrənir. Boşanmanın səbəbləri, ikinci nikahın rolu və başqa məsələlər də demoqrafiyanın predmetinə daxildir.

Demoqrafiya əhali statistikasının verdiyi məlumatlara əsasən doğum və ölüm arasında nisbəti, ölümün səbəblərini, ona təsir edən amilləri, təbii artımın sürətini, dinamikasını, perspektivliyini müəyyən edir.

İstehsalın inkişafı onun əmək ehtiyatları ilə necə təmin edilməsindən xeyli dərəcədə asılıdır. Bu isə əhalinin sayının artım sürəti ilə bağlıdır. Buna görə də demoqrafiya əhalinin sayının artımının proqnozunu verməyi də qarşıya məqsəd qoyur. Belə proqnozlar əsasında əhalinin təbii və mexaniki hərəkətinin qanunauyğunluğu müəyyən edilir.

Demoqrafiyada əhali sakinliyinin də böyük əhəmiyyəti vardır. Əhali haqqında sakinlik məsələsi ilk dəfə yunan filosofları Platon və Aristotel tərəfindən işlənib hazırlanmışdır.

Orta əsrlərdən başlayaraq əhaliyə aid məsələlərə daha artıq fikir verilmişdir. Bir sıra alimlər öz elmi əsərlərini buna həsr etmişlər. Məsələn, ingilis iqtisadçısı, keşiş T.Maltus 1798-ci ildə «Əhali qanunu haqqında təcrübə» adlı əsərində bu məsələni geniş şəkildə şərh etmişdir. O göstərdi ki, əhalinin sayı maddi nemətlər istehsalının miqdarına nisbətən daha sürətlə artır. Buna görə müxtəlif yollarla doğumun artım sürətini azaltmaq lazımdır.

İngilis klassik iqtisadçısı Uilyam Petti də demoqrafik təhlillə məşğul olub, 1893-cü ildə ilk dəfə ingilis Qaliley yaşamaq müddətini elmi cəhətdən əsaslandırılmış cədvəlini tərtib etmişdir.

Hazırda bu elm bütün dünya ölkələrinin əksəriyyətinin ali məktəblərində tədris olunur. Demoqrafik prosesləri öyrənən elmi mərkəzlər, elmi-tədqiqat institutları fəaliyyət göstərir. Məhz bu elm ocaqlarının tövsiyəsi nəticəsində hər bir dövlət sosial, o cümlədən demoqrafik siyasətini işləyib hazırlayır və həyata keçirirlər.

Azərbaycan Respublikası iki yüz ilə yaxın Rusiya və Sovet imperiyalarının müstəmləkəsi olduğuna görə onun özünün demoqrafik siyasəti olmamışdır. Azərbaycanda yeridilən demoqrafik siyasət imperiyanın mənafeyinə uyğun təşkil edilmiş və həyata keçirilmişdir. Başqa sahələrdə olduğu kimi, bu sahədə də məmləkətimizə böyük zərbə vurulmuşdur.

Azərbaycan xalqının milli xüsusiyyətlərindən biri çoxuşaqlı ailələrin bəzi başqa millətlərə nisbətən yüksək olmasıdır. Lakin imperiyanın siyasəti ilə əlaqədar olaraq

əhalinin təbii artımı dalğavarı, yəni müxtəlif dövrlərdə ya çoxalmış və ya əksinə, azalmışdır. Məsələn, 1897-1913-cü illərdə Azərbaycan əhalisinin sayı 532 min nəfər artmışdır. Bunun bir səbəbi  təbii artım ilə əlaqədar idisə, digər səbəbi  başqa ərazilərdən buraya əhalinin miqrasiyası idi. Qeyd edilən dövrdə Azərbaycan əhalisinin artımının 40-50 faizi əhalinin mexaniki hərəkətinin, yəni miqrasiyanın payına düşürdü. Azərbaycan əhalisinin miqrasiyası hesabına belə artımı, həmin dövrdə Çar Rusiyasının yeritdiyi köçürmə siyasəti ilə əlaqədar olmuşdur. Çar Rusiyası müstəmləkələrində ruslaşdırma siyasətini həyata keçirmək məqsədilə Rusiyanın mərkəzi regilnlarından ucqarlara, o cümlədən Azərbaycana köçürülmüşdür və bunların hesabına Mil və Muğanda bir çox rus kəndləri yaranmışdır. Bundan əlavə, XIX əsrin ikinci yarısından Azərbaycanda neft sənayesinin sürətlə inkişaf etməsi ilə əlaqədar olaraq Rusiyanın mərkəzi quberniyalarında yaşayan rus əhalisinin müəyyən qismi Azərbaycana, Bakıya köçürülmüşdür. Məsələn, cəmi iki il ərzində, 1908-1910-cu illərdə Rusiyanın başqa rayonlarından Azərbaycana 300 kəndli ailəsi köçürülmüşdür. Bunlara baxmayaraq, Azərbaycanın əhalisinin sayı həm 1913-1920-ci, həm də 1940-1945-ci illərdə azalmağa meylli olmuşdur. Belə ki, 1913-1920-ci illərdə əhalinin sayı 16,6 faiz, 1940-1945-ci illərdə 17,4 faiz azalmışdır.

Birinci mərhələdə Azərbaycanda əhalinin sayının azalması birinci dünya müharibəsi, xarici hərbi müdaxilə və ermənilər tərəfindən azərbaycanlıların kütləvi surətdə qırılması ilə əlaqədar idi. Yalnız 1918-1920-ci illərdə ermənilər 40 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər. Bundan əlavə, Sovet imperiyasının təzyiqləri ilə əlaqədar əhalinin xeyli hissəsi, xüsusilə, ziyalılar, sahibkarlar başqa ölkələrə köçməyə məcbur olmuşlar.

Müharibədən sonra Ermənistandan 100 min nəfərdən çox azərbaycanlının zorla Azərbaycana köçürülməsi əhalinin sayının artımına təsir göstərməsinə baxmayaraq yenə də artım sürəti aşağı düşmüşdür.

1941-1945-ci illərdəki müharibədə də itkilərimiz çox olmuşdur. Bu illərdə ən çox itki verən 4 respublikadan biri Azərbaycan olmuşdur. Rusiya, Ukrayna və Belorusiyada itkinin çox olması həmin ərazilərin müharibə meydanı olması ilə bağlı idi. Bu təbiidir. Azərbaycanın daha çox şəhid verməsinin səbəbi isə hakim millətin azərbaycanlılara qarşı mənfi, məkrli münasibəti olmuşdur.

Azərbaycan əhalisinin sayını ikinci dünya müharibəsindən əvvəlki səviyyəsini yalnız 1955-ci ildən bərpa edə bilmişdir. Lakin 1988-ci ildən sonra respublikamızda bir sıra sosial, iqtisadi, ekoloji, milli, hərbi və s. amillərin təsiri üzündən demoqrafik vəziyyət yenidən xeyli gərginləşmişdir. Bu illərdə əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 27,6 nəfərdən, 24,2 nəfərə, təbii artım 19.1 faiz azalaraq 20,9 nəfərdən 16,7 nəfərə düşmüş, ölüm səviyyəsi isə 8,2 faiz artaraq 6,7 nəfərdən 7,3 nəfərə qalxmışdır. Demoqrafik vəziyyətdə yaranmış bu gərginlik bir tərəfdən, əhalinin yaşayışının pisləşməsi ilə əlaqədardısa, digər tərəfdən, erməni təcavüzü və onun törətdikləri vəhşiliklərlə bağlı olmuşdur.

Demoqrafik prosesdə başqa bir meyl diqqəti cəlb edir. Bu ondan ibarətdir ki, adətən rayon yerlərində doğumun səviyyəsi şəhərə nisbətən yüksək olmuşdur. İndi isə bunların arasında fərq azalmağa doğru meyl edir, həm də kənd yerlərində doğumun azalması şəhərə nisbətən daha sürətlə gedir.

Doğum səviyyəsinin aşağı düşməsinin ikinci mühüm səbəbi respublikada gənclərin sosial-məişət ehtiyaclarının zəif ödənilməsi, mənzil çatışmazlığı, əmək haqqının aşağı olması və digər sosial təminatın qeyri-normal olmasıdır.

Bu, oğlanların kütləvi sürətdə başqa regionlara köçmələrinə səbəb olur. Nəticədə cins-yaş tərkibində nisbət pozulur.

Azərbaycanda demoqrafik xüsusiyyətlərindən biri də respublikadaxili və respublikadan kənara miqrasiya prosesinin genişlənməsidir. 1989-cu ildən sonra miqrasiya axını artmışdır. Miqrasiyaya düçar olanların əksəriyyəti oğlanlardır. Habelə ehtiyac üzündən bütöv ailələr də xarici ölkələrə köçməyə məcbur olmuşlar.

Demoqrafik prosesin istiqamətlərindən biri əhalinin sağlamlığının qorunması, onun orta ömrünün uzadılması, ölüm hallarının aşağı salınmasıdır Bu, təbii-iqlim, iş şəraiti, qidalanma, səhiyyə sisteminin inkişafı və başqa amillərlə əlaqədardır.

## § 2. Azərbayjanda əmək potensialı və ondan səmərəli istifadə edilməsi üçün əlverişli şəraitin yaradılması

Əmək potensialı dedikdə – hər bir ölkənin malik olduğu mövcud və ehtiyatda olan canlı insan resurslarının məcmusu başa düşülür. Onun həcmi kompleks kəmiyyət (əmək qabiliyyətli və işləmək həddinə çatmış əhalinin sayı, onların yaş, cins tərkibi, istehlak dəyərləri yaratmaq qabiliyyətinə malik olduğu illər ərzindəki adam – illərin sayı, yəni vaxt fondunun miqdarı) və keyfiyyət (əhalinin məşğulluq, təhsil və peşə – ixtisas və mənəviyyatın sağlamlıq səviyyəsi, işçilərin əmək fəaliyyətindəki iştirakı ilə bağlı olan şəxsiyyət xarakteristikası və s.) göstəriciləri ilə müəyyən edilir. Başqa sözlə desək, əmək potensialının daşıyıcıları və cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil edən əmək ehtiyatlarına ölkə əhalisinin hamısı deyil, konkret tarixi şəraitdə bir sıra sosial-iqtisadi, demoqrafik, bioloji, siyasi və s. amillərdən asılı olaraq onların yalnız müəyyən yaşa çatmış fiziki və zehni

qabiliyyətlərinin məcmusuna, yəni müəyyən fiziki inkişafına, sağlamlığa, təhsilə, bacarığa, mənəvi kefiyyətlərə, ixtisas, peşə hazırlığı və mədəniyyət səviyyəsinə malik olan hissəsi daxil edilir. Bu isə o deməkdir ki, cəmiyyətin konkret tarixi inkişaf mərhələsində hansı ölkədə ictimai istehsal prosesinin əsas subyektini təşkil edən əhalinin fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox əmək potensialına malikdir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2010-cu ilin əvvəlində respublikamızda yaşamış 9 milyon əhalinin 468,8 min nəfərini və ya 58,0 faizini əmək ehtiyatları, 4768,3 min nəfərini və ya 95,0 faizini əmək qabiliyyəti olan adamlar təşkil etmişdir. Bu rəqəmlərdən görünür ki, hazırda respublikamız başqa resursları ilə yanaşı, həm də çox əmək ehtiyatları potensialına malikdir. Nəzərə alsaq ki, ölkəmizin iqtisadi qüdrətinin artırılması, ərazi bütövlüyünün təmin edilməsi, milli dövlətçilik mənafeyinin qorunması və inkişaf etdirilməsi ilk növbədə onun malik olduğu başlıca məhsuldar qüvvələrdən – insan potensialından nə dərəcədə düzgün və səmərəli istifadə olunmasından asılıdır, onda respublikamızda mövcud olan əmək qabiliyyətli əhalinin indi və gələcəkdə tam və səmərəli məşğulluğunun təmin edilməsi yollarının tədqiq edilib öyrənilməsinin böyük elmi və praktiki əhəmiyyəti vardır.

Sovet hakimiyyəti illərində Azərbaycanda məhsuldar qüvvələrin qeyri-səmərəli yerləşdirildiyi və istehsalın strukturunun milli mənafeyə uyğun qurulmadığı kimi Azərbaycanın əmək potensialından da düzgün və səmərəli istifadə edilməmişdir. Bu problemlər Azərbaycanın müstəqilliyi dövründə öz həllini gözləyir.

Keçmiş ittifaqda, o cümlədən xüsusilə də Azərbaycanda məşğulluq və işsizliklə bağlı problemlər həmişə mövcud olmuş, XX əsrin 50-ci illərində və 60-cı illərin əvvəllərində burada yaranmış demoqrafik vəziyyətin sosial-iqtisadi inkişafın planlaşdırılmasında lazımınca düzgün qiymətləndirilib nəzərə alınmaması nəticəsində həmin əsrin 70-80-ci illərində daha kəskin xarakter almışdır. Belə ki, həmin dövrdə Azərbaycanda əmək ehtiyatlarının artım sürəti burada yaradılan yeni iş yerlərinin sayını əhəmiyyətli dərəcədə ötüb keçmişdir. Bu mütənasibsizlik respublikanın şəxsi yardımçı və ev təsərrüfatında yüksək məşğulluğun yaranmasına səbəb olur və əmək ehtiyatlarından səmərəli istifadə olunmasına imkan vermirdi. Təkcə bunu demək kifayətdir ki, 1960-1970-ci illəri əhatə edən 10 il ərzində Azərbaycanda şəxsi əmək dairəsində xeyli miqdarda əmək ehtiyatları məşğul olduğu və əlavə olaraq onların sayı əhəmiyyətli dərəcədə artdığı halda, bu dövrdə ictimai istehsalda məşğul olanların sayı cəmi 300 min nəfər arta bilmişdi.[1] Bu isə o deməkdir ki, qeyd edilən dövrdə resublikamızın şəxsi əmək dairəsində məşğul olanların sayı nəinki azalmamış, əksinə daha da artmışdır. Bunun başlıca səbəbi həmin dövrdə ictimai istehsalın inkişaf sürətinin aşağı olması, onun sahə və ərazi quruluşunun qeyri-təkmil olması, onun sahə və ərazi quruluşunun qeyri-təkmil olması, habelə sənayenin və qeyri-istehsal sahələrinin lazımı dərəcədə inkişaf etməməsi idi.

Əmək potensialının öyrənilməsində işləmək vaxtı çatmamış əhalinin sayının müəyyən edilməsi ölkənin demoqrafik siyasətinə daxildir. Çünki bunu bilmədən dövlət həmin subyektlər üçün yeni iş yerləri aça bilməz. Bu isə işsizliyin çoxalması deməkdir. Məlum səbəblərə

---

**[1] Bax: Ş.M.Muradov. Azərbaycan SSR-nin əmək ehtiyatları: nəzəri və metodoloji və sosial-iqtisadi aspektlər. Bakı, Elm, 1987, səh. 90.**

görə müstəqillikdən əvvəlki dövrdə bu sahədə Azərbaycanda vəziyyət yaxşı olmamışdır.

1970-ci ilədək əhalinin siyahıya alınmanın məlumatlarına görə SSRİ-də işləmək vaxtı çatmamış, əhali ümumi əhalinin 31%-ni, işləmək vaxtı çatmış əhali 5% təşkil etdiyi halda bu göstəricilər müvafiq olaraq Azərbaycanda 46,2 və 43,8% təşkil etmişdir. Yeni iş yerlərinin təşkili isə buna tamamilə uyğun gəlməmişdir. Azərbaycanda və Orta Asiya respublikalarında işləmək vaxtı çatmış əhalinin xüsusi çəkisinin çox olması bu regionlarda əmək ehtiyatlarının artıq olması deməkdir. İnzibati-amirlik sistemində onlara iş yeri açmaq dövlətin əsas vəzifələrindən biri olduğu halda o bunu etməmişdir.

Sovet İttifaqı Kommunist Partiyasının Sibiri məskunlaşdırmaq həvəsinə düşməsi sovet imperiyasına baha başa gəlmiş və onun dağılmasını sürətləndirmişdir. Marksizm-leninzm ideologiyası ilə silahlanmış adı çəkilən dövlət siyasi xülyalara qapılaraq iqtisadiyyatı siyasətə qurban vermişdir. Çünki Sibiri, Şimali məskunlaşdırmaq külli miqdarda kapital və saysız-hesabsız əmək ehtiyatları tələb etmişdir. Sovet İttifaqı isə tələb olunan əlavə maddi və insan ehtiyatına malik deyildi. Bu bir tərəfdən dövlət büdcəsinin əksəriyyətinin hərbi sənaye kompleksinə yönəldilməsi ilə, digər tərəfdən istehsalçıların istehsalın nəticəsində maddi marağının olmaması nəticəsində istehsalın səmərəliliyinin aşağı düşməsi ilə əlaqədar idi.

Sibirin məskunlaşmasına kapital qoyuluşunun səmərəsiz olması – neftin geoloji-kəşfiyyat işinə kapital qoyuluşu 1970-1988-ci illərdə 80% artmışdır. Əlavə bir manatlıq xammal istehsalı üçün 1960-cı ildə 2 manat, 1970-ci ildə 3, 1982-ci ildə 4 manatdan çox kapital qoyulmuşdur. Bu isə istehsalın son dərəcə aşağı olması deməkdir. Eyni zamanda bu rayonlarda infrastruktura qoyulan kapital orta göstəricidən yuxarı və səmərəsi az

olmuşdur. Məsələn, Cənubi Yakutiya ərazisində dəmir-beton konstruksiyası əsasında yaşayış mənzillərinin tikintisi SSRİ-nin orta göstəricisindən 4 dəfə baha başa gəlmişdir.[1] Şimalın, Tümenin məskunlaşması daha çox vəsait tələb etmişdir. Məsələn, Şimala yaşamağa gələn bir nəfərin məskunlaşması 20 min manata başa gəlmişdirsə Tümenin şimalında 40 min manata başa gəlmişdir.[2]

Sovet İttifaqı Kommunist Partiyasının Sibiri məskunlaşdırmaq siyasəti Azərbaycanın iqtisadi və sosial vəziyyətinə pis təsir göstərmişdir. Sovet dövləti müxtəlif vasitələrlə, o cümlədən əmək ehtiyatlarına müvafiq iş yerləri açmamaqla Azərbaycanın gənc kişilərini həmin yerlərə köçməyə məcbur etmişdir. Halbuki həmin yerlərdə yaşayış mənzilləri tikmək və digər sosial infrastrukturlar yaratmaq üçün sərf olunan vəsaitin bir hissəsini Azərbaycanda iş yerlərinin açılmasına qoyulsa idi nəinki Azərbaycan, həm də mərkəzi dövlət daha çox qazanmış olardı.

XX əsrin 1960-cı illərindən başlayaraq SSRİ-nin, o cümlədən Azərbaycanın iqtisadiyyatının tənəzzülə uğramağa başlaması və getdikcə sürətinin artması əhalinin sosial və iqtisadi vəziyyətini ağırlaşdırmışdır. Bu hal əhalinin təbii artımına təsir göstərməyə bilməzdi. Bu dövrdə bir tərəfdən Azərbaycanda təbii artımın azalması, digər tərəfdən mərkəzi dövlətin qəsdən mənfi demoqrafik siyasəti Azərbaycanda məşğulluğun strukturuna mənfi təsir göstərmişdir. Azərbaycanda demoqrafik problemin tədqiqatçısı Ş.M.Muradov həmin dövrün demoqrafik mənzərəsini ümumiləşdirərək yazmışdır: «…SSRİ-nin mövcud olduğu axırıncı 30 il (1960-1991-ci illər)

---

[1] С.К.Гусейнов. Эффективность структуры промышленного производства в условиях его интенсификации. **Bakı, Elm, 1987, səh. 11.**
[2] Вопросы экономики, № 3, 1983, **səh. 28.**

respublikamızda əhalinin təbii artım səviyyəsinin azalması meyli keçmiş ittifaqa və onun bir çox respublikalarında olduğuna nisbətən daha sürətlə baş vermişdir. Əgər 1960-1990-cı illərdə keçmiş SSRİ-də əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 32,5 faiz, o cümlədən kənd yerlərində 23,0 faiz azalmışdırsa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 38,3 və 40,4 faiz və daha sürətlə azalmışdır. Bu vəziyyət həmin dövrdə müxtəlif səbəblər üzündən hər il respublikamızda 30-40 min gənc adamlarına keçmiş SSRİ-nin iri sənaye şəhərlərinə, tikinti obyektlərinə və kənd təsərrüfatı rayonlarına işləməyə, təhsil almağa və daim yaşamağa getmələri ilə bağlıdır. Təkcə 80-ci illərin ortalarında Azərbaycandan Rusiyanın Amur vilayətinə 600-dən çox ailə köçürülmüş və hər il orta hesabla Rusiyaya buradan 1500 nəfərdən çox yüksək ixtisaslı mütəxəssislər göndərilmişdir ki, onların da 80-90 faizindən çoxunun azərbaycanlı oğlanlar təşkil etmişdir. Bütün bu deyilənlər Azərbaycanın əhalisinin demoqrafik quruluşunun pozulmasına, əhalinin yaş-cins tərkibində, ilk növbədə isə ailə qurmaq yaşında olan gənc oğlan və qızların say nisbətində son vaxtlaradək gənclərin ailə qurması işinin çətinləşməsinə səbəb olmuşdur. Təsadüfi deyildir ki, son on il ərzində (1991-2000-ci illərdə) Azərbaycanda nigahların sayı artmaq əvəzinə xeyli azalaraq 1991-ci ildəki 74,4 mindən 2000-ci ildə 39,9 minə düşmüş və ya 46,4 faiz azalmışdır. Ümumiyyətlə götürdükdə isə 1965-ci ildən başlayaraq respublikamızda əhalinin doğum və təbii artım səviyyəsi tədricən azalaraq müvafiq surətdə 36,6 və 30,2 nəfərdən 2000-ci ildə 14,6 və 8,7 nəfərə düşmüş və ya 2,5 və 3,5 azalmışdır».[1]

---

[1] **Ş.M.Muradov. Azərbaycan iqtisaliyyatı: problemlər, perspektivlər («Azərbaycan iqtisadiyyatı dirçəliş yolunda» mövzusunda elmi-praktiki konfransın materialları), Elm, Bakı, 2002, səh. 4-5.**

Bütün müstəmləkələrdə olduğu kimi Azərbaycan Respublikası uzun illər boyu keçmiş SSRİ-nin xammal mənbəyi olmuş və burada istehsal olunan məhsulların əksəri onun öz ərazisində son məhsula çatdırılmamış və bu səbəbdən respublikada lazımı sayda iş yerlərinin yaradılmaması əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə imkan verməmiş, onun mənfi nəticələri indiyədək aradan qaldırılmamışdır. Buna təbii baxmaq lazımdır. Çünki mürtəce iqtisadi sistem olan inzibati-amirlik sistemindən ondan daha mütərəqqi olan bazar iqtisadi sisteminə keçmək çox çətin, mürəkkəb, ziddiyyətli və uzunmüddətli prosesdir. Bir iqtisadi sistemin digərinə keçid üçün 18-19 il çox azdır. Nəzərə alsaq ki, Azərbaycan eyni zamanda həm sovet müstəmləkəçiliyindən miras qalmış problemləri, həm də sosializmin sovet modelinin törətdiyi mənfilikləri ilə üzləşmişdir. Bu zaman Azərbaycan dövlətinin qarşısında duran vəzifələrin böyük olduğu aydın olar. Xoşbəxtlikdən Azərbaycanın müstəqil dövlət olması bu çətinliklərin öhdəsindən gəlməyə imkan verəcək və xalq təsərrüfatının bütün sahələrində olduğu kimi respublikada əmək potensialından səmərəli istifadə etməyə şərait yaradacaq.

Beləliklə, bazar münasibətinə keçidlə əlaqədar yaranmış iqtisadi çətinliklər dövlətimizi işsizlik və onun həlli ilə bağlı bir çox mürəkkəb sosial problemlərlə üz-üzə qoymuşdur.

## § 3. Azərbayjanda məşğulluq və işsizliyin vəziyyəti. İşsizliyin aradan qaldırılması yolları

Məhsuldar qüvvələrin çox fəal ünsürü olan əmək qabiliyyətli insanlar hər bir dövlətin sağlam milli iqtisadiyyatının formalaşması və inkişafında əvəzsiz rol

oynayırlar. Çünki istehsalın digər amilləri artıqlaması ilə olsa belə istehsalı təşkil və idarə edən, maddi nemətləri və xidmətləri yaradan insandır. Əgər insan onları hərəkətə gətirməsə istehsal və onun nəticəsindən söhbət gedə bilməz. Ona görə də iş qabiliyyətli insanların əməklə məşğul olması həm iş qüvvəsinin təkrar istehsalı, həm də cəmiyyətin sərvətinin artırılması üçün əsas mənbədir. Məhz buna görə də keyfiyyətli və kəmiyyətli iş yerlərinin olması, əmək resurslarının məşğulluğunun təmin edilməsi, işsizliyin qarşısının alınması sosial problemlər kimi cəmiyyət qarşısında duran mühüm vəzifələrdir.

Klassik bazar iqtisadiyyatı ölkələri çalışırlar ki, istehsal öz tam həcminə uyğun fəaliyyət göstərsin və tam məşğulluq təmin olunsun. Tam məşğulluq o deməkdir ki, əmək qabiliyyəti olan və işləmək istəyən hər bir şəxs işlə təmin edilsin. Bütün yararlı resurslardan istifadə olunmalı və əmək qabiliyyətinə malik olanlar məcburi surətdə işsiz qalmamalıdır, istehsal vasitələrindən, o cümlədən yararlı torpaqlardan səmərəli istifadə olunmalıdır.

Təbii resurslar məhduddur. İstənilən miqdarda məhsullar və xidmətlər istehsal etmək qeyri-mümkündür. Buna görə də ən vacibinin istehsalını önə çəkmək zərurəti yaranır. İstehsal amilləri kəmiyyət və kefiyyət baxımından dəyişən xarakterlidir, çünki texniki tərəqqi fasiləsiz olaraq inkişaf edir.

İstehsal prosesi o zaman öz gücü ilə fəaliyyət göstərə bilər ki, resurslar tam məşğul olsun və istehsal həcmindən tələb olunan səviyyədə istifadə olunsun. Əgər resurslar tam məşğul deyilsə iqtisadiyyat qarşısına qoyduğu maksimum nəticəyə nail ola bilməz. Deməli, bütün resurslardan və istehsal həcmindən tam istifadə etmək o deməkdir ki, ölkədə tam məşğulluq da fəaliyyət göstərir.

Sənayecə inkişaf etmiş klassik bazar iqtisadiyyatlı ölkələri üçün əsasən tam məşğulluq təmin edildiyi halda keçid iqtisadiyyatlı dövlətlər, o cümlədən Azərbaycan üçün natamam məşğulluq səciyyəvidir. Bunun bir səbəbi yeni yaranmış gənc milli dövlətlər, o cümlədən Azərbaycan inzibati-amirlik sistemində yaşamağa məcbur edilmişdir. Digər isə sovet sistemi dağıldıqdan sonra sovet imperiyasının tərkibində olan digər respublikalar arasında iqtisadi əlaqələr kəsildiyindən istehsalın iflic vəziyyətinə düşməsidir. Üstəlik Azərbaycanın ərazisinin 20%-nin Ermənistan tərəfindən işğal olunması nəticəsində bir milyon qaçqın və məcburi köçkünün yaranmasıdır.

Əhalinin məşğulluğu onların yaşayış vasitələri ilə təmin olunması mənbəyi olmaqla sosial əmin-amanlığın mühüm şərtidir. Əmək qabiliyyətli əhalinin məşğulliyyət tapmaması, işsiz qalması cəmiyyətdə sosial gərginlik yaradır. Qeyd etmək lazımdır ki, hələ keçmiş SSRİ dövründə Azərbaycan əmək ehtiyatlarının artımı yüksək olan respublikalardan biri olmuşdur. Burada əmək ehtiyatlarının artımı iş yerlərinin artımını üstələmişdir. Bunu onda görmək olar ki, 1989-cu ildə əmək qabiliyyətli əhalinin iqtisadiyyatda məşğul olmayan hissəsi 21,9 faiz təşkil etmişdir. Hazırda respublikada iqtisadi gərginlik, dövlət müəssisələrinin tamamilə və ya tam gücü ilə işləməməsi, inflaysiya ilə əlaqədar əmək haqqının dolanşıq xərclərinin ödəməməsi nəticəsində əhalinin məşğulluğunun təmin olunması çətinləşir, əhalinin bir qismi öz məşğuliyyət növünü məcburi dəyişməklə əmək vərdişlərini və ixtisasını itirir.

Bununla yanaşı son illərdə Ermənistandan, Azərbaycanın Dağlıq Qarabağ zonasından və işğal olunmuş 7 rayonundan azərbaycanlı əhalinin öz yurdlarını məcburi tərk etməsi əhalinin məşğulluğunda yeni və həlli

çətin olan problemlər doğurmuşdur. Bir tərəfdən bu əhali öz iş yerlərini itirmişlər, digər tərəfdən onların əksəriyyəti kənd təsərrüfatı işçiləri olduğu halda şəhər yerlərində məskunlaşmışlar və buna görə də işlə təmin olunması sahəsində problemlər var.

1995-ci ildə əmək qabiliyyətli əhalinin iqtisadiyyatda məşğul olmayan hissəsinin xüsusi çəkisi 23,5 faiz təşkil etmişdir. Qeyd etmək lazımdır ki, əmək qabiliyyətli əhalinin bir qismi müəssisələrdə işçi kimi siyahıda qalsa da əslində çox vaxt işləmirlər. 1995-ci ildə Bakı şəhərinin 14 rayonunda və respublikanın digər 8 rayon və şəhərlərində məşğulluq üzrə aparılan xüsusi tədqiqatlardan aydın olmuşdur ki, öyrənilən 945 müəssisədə işçi kimi göstərilənlərdən həqiqətdə 67,2 faizi işçi olmuşdur, 32,8 faizi necə deyərlər inzibati qaydada məzuniyyətə göndərilmişdir. Bundan sonrakı dövrdə, xüsusilə 2004-2009-cu illərdə dövlətin bir sıra tədbirləri nəticəsində xeyli miqdarda iş yerləri açılmış və əhalinin məşğulluq səviyyəsi artmışdır. Lakin regionlarda iş yerlərinin istənilən qədər açılmaması ucbatından yenə də rayonlardan Bakıya iş dalınca gələnlər kifayət qədərdir. Bunun qarşısının alınmasının ən yaxşı yolu bu ərazilərdə istehsal müəssisələrinin yaradılmasını genişləndirməkdir.

Hər bir ölkədə işsizlərin uçotu əmək birjalarında aparılır. Azərbaycanda işsizlərin qeydə alınması, onlara işsizlik müavinəti verilməsi, yenidən hazırlanması və işə düzəldilməsi ilə məşğulluq idarələri məşğul olur.

Azərbaycanda əmək üzrə qanunvericilik əsasən əmək bazarının tənzimlənməsi üzrə beynəlxalq praktikada, həmçinin Beynəlxalq Əmək Təşkilatının əmək üzrə konvensiyalarına uyğundur. 1991-ci ildə Azərbaycan hökuməti məşğulluğu və əmək bazarını tənzimləyən qanunvericilik aktlarının bütöv paketini qəbul etmişdir. Buna «Məşğulluq haqqında» qanun, «Dövlət

məşğulluq xidmətinin yaradılması haqqında», «Məşğulluq fondu yaradılması, ictimai işçilərin təşkili haqqında» qərarlar və s. daxildir. 1995-ci ilin axırında ölkədə işə düzəltmə üzrə 84 yerli büro olmuşdur ki, bunlarda 854 mütəxəssis işləmişdir. Sistemə əlavə olaraq fəhlə miqrasiyasının tənzimlənməsi üzrə xidmət, peşə yönümü və işçilərin peşə hazırlığı mərkəzi və məşğulluğun mərkəzi idarəsi daxildir. Bu sistemdə məşğul olanların bütün sayı 962 nəfər olmuşdur. Qanuna görə 100 min əhaliyə müvafiq xidmət göstərmək üçün 15 qulluqçu və beləliklə Azərbaycan üçün 1100 nəfərə yaxın qulluqçu lazımdır. Bu faktiki olaraq mövcud olan qulluqçuların sayından 138 nəfər azdır. Lakin bu sistemin hər bir qulluqçusu 1995-ci ilin axırına şərti olaraq 70 min iş axtarana xidmət etmişdir. Bu rəqəmlər dəyişəndir. Çünki bir tərəfdən Azərbaycanda, xüsusilə XXI əsrin əvvəllərində iqtisadiyyatın inkişaf tempi yüksək olduğundan iş axtaranların sayı getdikcə azalır, digər tərəfdən xalq təsrərrüfatının bütün sahələrində olduğu kimi məşğulluğu tənzimləyən orqanlarda da islahatlar keçirirlər, idarəetmənin daha mütərəqqi sistemi yaranır.

Azərbaycanın milli iqtisadiyyatının formalaşmasına və inkişafına mənfi təsir göstərən amillərdən biri regionlarda sahibkarlığın formalaşması Bakı-Sumqayıt iqtisadi rayonundan geri qalması, habelə regionlar arasında sosial-iqtisadi inkişaf baxımdan bir-birindən fərqlənməsidir. Buna görə də Azərbaycan dövləti bu problemin həllinə xüsusi diqqət yetirir. Belə ki. Respublika Prezidenti İlham Əliyev 2004-cü il 11 fevral tarixli fərmanı ilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramını (2004-2008-ci illər)» təsdiq edilmişdir. Orada deyilir: «Azərbaycan Respublikası regionların inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-

iqtisadi səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılmasını tələb edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq hesablanmış «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaqdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır».[1] Bu problem uzun müddətli proses olduğundan Azərbaycan dövləti «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)» adlı yeni sənəd qəbul etmişdir.

Respublikada iş qüvvəsinə olan tələbata, çoxukladlı iqtisadiyyatın yaranması, istehsalın sahə quruluşunun dəyişdirilməsi və yeni bazar bazar sisteminin formalaşması ilə əlaqədar olan dəyişikliklər də təsir göstərir. Mülkiyyət formalarındakı və əmək münasibətlərindəki dəyişikliklər özünəməşğulluğun və sahibkarlığın inkişafına səbəb olmuşdur. Məşğulluq dairəsindəki dəyişikliklər isə müəyyən dərəcədə dövlət mülkiyyətinin özəlləşdirilməsi, onun yeni formalarının və başqa proseslərinin inkişafı ilə bağlıdır.

---

**[1] «Azərbaycan» qəzeti, 13 fevral 2004-cü il.**

Azərbaycanın bazar iqtisadiyyatı münasibətlərinə keçməsi, başqa ölkələrdə olduğu kimi, burada da qeyri-formal iqtisadiyyat sektorunun inkişafına zəmin yaratmışdır. Buraya qeyri-mütəşəkkil, nizamlanan, qanuni əsaslarla fəaliyyət göstərən, lakin qeydiyyatdan keçməyən küçə ticarəti, müxtəlif xidmətlər göstərən fəaliyyət növləri daxildir. Bu sektorun adamların işlə təmin edilməsində və işsizlik səviyyəsinin azaldılmasındakı rolu günü-gündən artmaqdadır. Qeyri-formal sektor artıq formal sektorun əhalinin işlə təmin edilə bilməməsinə cavab kimi yaranıb inkişaf edən bir fəaliyyət sektoru olmasını sübut etmişdir. Bu sektorda işləyənlər əsas etibarilə kənd yerlərindən miqrasiya olunmuşlar, məcburi köçkünlər, formal sektorda iş tapmaq ümidini itirənlər və s. əhali kütləsindən ibarətdir. Ancaq bu sahədə işləyənlərin gəlirləri formal sektorda işləyənlərin gəlirlərindən aşağı olmaqla yanaşı, onlar formal sektorlarda işləyənlər üçün dövlət tərəfindən nəzərdə tutulmuş sosial müdafiədən (iş yerlərinin saxlanması, yaşa görə təqaüd almaq, normal iş şəraiti ilə təmin olmaq və s.) məhrumdurlar.

Qeyri-formal sektora, bir tərəfdən gələcəkdə formal sektorda işləyə biləcək adamlar üçün müvəqqəti iş yeri, digər tərəfdən isə müəyyən qrup əhali kütləsi üçün daimi gəlir mənbəyi kimi də baxmaq olar. Qeyri-formal sektorun respublikamızda lazımı səviyyədə inkişaf edib genişlənməsinin bir səbəbi də inzibati orqanların müxtəlif sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə lisenziyalar verilməsi sahəsindəki bürokratik hallara yol verməsi ilə bağlıdır. Bir çox insanlar müəyyən növ bizneslə məşğul olmaq üçün qeydiyyatdan keçə bilməməsi üzündən məcburiyyət qarşısında qalıb formal sektorda məşğul olmağa üstünlük verirlər.

Azərbaycanda məşğulluq problemlərinin həllində xarici investorların da rolu vardır. Hal-hazırda Azərbaycan Respublikasında dünyanın 50-yə yaxın ölkəsinin xarici investisiyalı müəssisəsi vardır. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 2000-ci ildə Azərbaycanda 1478 xarici və müştərək investisiyalı müəssisə fəaliyyət göstərmiş və onlarda 29,1 min nəfər adam məşğul olmuşdu. 2010-cu ildə həm müəssisələrin, həm də orada işləyənlərin sayı dəfələrlə artmışdır.

Qeyd edilən dövrdə respublikamızda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin 1380-i (93,4%-i), orada məşğul olan işçilərin 18470 nəfəri (83,6%-i), o cümlədən müəssisələrin 313-ü (82,1%-i), orada çalışan işçilərin 7177 nəfəri (80,6%-i), tikinti müəssisələrinin 175-i (97,2%-i), orada çalışanların 2052 nəfəri (100%-i), xarici ölkə şirkətinin nümayəndəliklərinin və orada işləyənlərin demək olar ki, hamısı Bakı şəhərində cəmləşdirilmişdir. Bu proses sonralar və hazırda da davam etməkdədir. Xarici investisiyalı müəssisələrin, müştərək və xarici müəssisələrin respublika ərazisində belə qeyri-bərabər surətdə səpələnməsi onu göstərir ki, hələ də Azərbaycanın ayrı-ayrı regionları sosial-iqtisadi inkişaf səviyyələrinə görə bir-birindən kəskin surətdə fərqlənməkdədir. Buna görə də gələcəkdə həmin müəssisələrin respublikanın başqa ərazilərində yerləşdirilməsi üçün də şərait yaradılmalıdır.

Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən 2000-ci ildə Azərbaycanda xarici və müştərək müəssisələrdə işləyənlər respublika iqtisadiyyatında məşğul olanların cəmi 0,6%-ni, iqtisadiyyatda muzdla işləyənlərin isə təqribən 2%-ni təşkil etmiş, bazar iqtisadiyyatı strukturularında işləyənlərin orta aylıq nominal əmək haqqı isə bütünlükdə respublika iqtisadiyyatında işləyənlərin orta aylıq əmək

haqqından 4,6 dəfə, o cümlədən sənayedə – 2,8 dəfə, tikintidə – 1,7 dəfə, təhsildə 5,8 dəfə, elm və elmə xidmət sahəsində – 4,2 dəfə, kreditləşmə və dövlət sığortasında – 2,3 dəfə yüksək olmuşdur.

Bütün bunlardan aydın olur ki, xarici investisiyalar hesabına ölkə əhalisinin məşğulluq səviyyəsini müəyyən dərəcədə yüksəltmək mümkün olsa da, burada əhalinin tam məşğulluğuna yalnız ölkənin öz daxili imkanları və onun məhsuldar qüvvələrinin inkişafı və düzgün yerləşdirilməsi ilə nail olmaq olar. Onu da nəzərə almaq lazımdır ki, xarici investisiyalar təkcə investisiya qoyulan ölkənin deyil, həm də investisiya qoyan ölkənin özünün məşğulluq problemlərinin həllinə müsbət təsir göstərir. Ancaq xarici investisiyaların məşğulluğa təsirini ölçmək çox çətin problemdir. Çünki onların məşğulluğa təsiri ölkələrə və investisiyalara görə daim dəyişir. İnvestisiyaların məşğulluğa təsiri investisiya qoyan ölkədə müxtəlif cür qiymətləndirilir. Bu qiymətləndirmə investisiya qoyulan ölkənin inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkə olmasından, investisiyanın növü, həcmi və istifadə olunan texnologiyadan asılı olaraq müxtəlif olur. Ancaq unutmaq olmaz ki, transmilli şirkətlər ölkələrə investisiya qoyduqda, məşğulluqdan daha çox yeni bazarlar əldə etmək, eyni zamanda özlərinin mövcud bazarlarını qorumaq, gömrük sədləri ilə qorunan bazarlarda rəqabət apara bilmək haqqında düşünürlər. Eyni sözləri Azərbaycana investisiya qoyan xarici şirkətlərin nümayəndələri haqqında da demək olar.

Xarici kapital bütün sahələrə yol tapa bildiyindən, sahə məhdudiyyətləri birbaşa xarici investisiayaya aid edilməlidir. Fikrimizcə, perspektiv inkişaf üçün investisiya siyasəti ilk növbədə respublikadaxili tələbatın ödənilməsinə yönəldilməli, əsaslı vəsait qoyuluşu, investisiya sahələrarası bölüşdürülərkən, üstünlük o

sahələrə verilməlidir ki, istehsalın son məhsula çatdırmaq meyli əsas götürülsün, yəni respublikada istehsal olunan məhsullar xammal kimi deyil, son məhsul kimi reallaşdırılsın.

Gələcəkdə respublikanın inkişaf səviyyəsinin yüksəldilməsi və burada əhalinin səmərəli məşğulluğunun təmin edilməsi xarici investisiyaların daha çox istehsal sahələrinə yönəldilməsini tələb edir. Bu sahədə son illərdə Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasət, heç şübhəsiz ki, öz bəhrəsini verəcəkdir. Bu, həm «Əsrin neft müqaviləsi» sahəsində görülən işlərə, həm Böyük İpək yolu, həm də Bakı-Ceyhan neft kəmərinin çəkilməsi məsələlərinə aiddir. Bu tədbirlərin həyata keçirilməsi bir tərəfdən külli miqdarda yeni iş yerlərinin açılmasına səbəb olmaqla işsizlik probleminin həllinə, digər tərəfdən isə yaradılmış yeni iş yerlərinə cəlb edilməsi üçün əlavə olaraq ixtisaslı kadrlar hazırlanmasına ehtiyacın artmasına səbəb olacaq və respublikamızda əmək bazarının subyekti – iş qüvvəsinin təkrar istehsalı prosesinin sürətlənməsinə şərait yaradacaqdır.

Əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi üçün zəruri olan ən mühüm vəzifələrdən biri də iqtisadiyyatın istehsal sahələrinin yenidən qurulması və texniki cəhətdən təkmilləşdirilməsinə sərmayə və investisiyaların cəlb edilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, bank və ticarət dairəsində mənfəət normasının istehsal sferasında, o cümlədən xalq istehlakı malları istehsalı sahəsindəkindən yüksək olması vəziyyətini normal hal hesab etmək olmaz. Çünki belə olan halda xüsusi sahibkarlar sənaye, tikinti, kənd təsərrüfatı və nəqliyyat kimi əsas sahələrə sərmayə qoymaqda maraqlı olmazlar, bu da öz növbəsində, mütərəqqi istehsal sahələrində quruluş dəyişiklikləri və təkmilləşmələr

aparılmasını ləngidər və bu sahələrdə daim «investisiya aclığı» yaradar. Buna görə də dövlət investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi zamanı əmək bazarında təkcə son illərdə müxtəlif sahələrdən azad olmuş iş qüvvəsinin sayını deyil, həm də əmək qabiliyyətli yaşına çatan gənclərin sayının artmasını nəzərə almalıdır. Əmək bazarının formalaşmasında bu amilin nəzərə alınmaması respublikamızda mövcud olan işləməyən əmək qabiliyyətli əhalinin sayının gələcəkdə daha da çoxalmasına və sosial gərginliyin artmasına səbəb ola bilər. Bu səbəbdən də əhalinin səmərəli məşğulluğunun formalaşması üçün əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin dinamik tarazlığını nizamlayan mexanizmin işlənib hazırlanması və həyata keçirilməsi vacibdir.

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsində miqrasiya edən əhalinin hərəkətinin nizamlanması, keçmiş ittifaqın müxtəlif ərazilərindən respublikamıza gəlmiş əmək qabiliyyətli əhalinin düzgün uçota alınıb işlə təmin edilməsi, məşğulluq dairəsində iqtisadi cəhətdən fəal əhali üçün ərazilər üzrə məqsədli kompleks proqramların işlənib hazırlanması və həyata keçirilməsinin də mühüm əhəmiyyəti vardır.

Son illərdə Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşması istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış və artıq öz bəhrəsini verməyə başlayan kontraktlar, Azərbaycanın əlverişli geosiyasi mövqeyi, tarixi «İpək yolunun» bərpası və bu baxımdan ölkəmizin strateji əhəmiyyəti yaxın gələcəkdə respublikamızda miqrasiya axınlarının güclənməsini proqnozlaşdırmağa əsas verir. Buna görə də hazırda Azərbaycan Respublikasının qarşısında ölkənin milli mənafeyinə və

beynəlxalq normalara uyğun olan miqrasiya proseslərinin idarə edilməsi kimi çox mühüm vəzifələr durur.

İqtisadiyyatın inkişafı ilə işsizlik bir-birilə qarşılıqlı əlaqədardır. Bu o deməkdir ki, iqtisadiyyatın zəif inkişafı işsizliyə, işsizlik isə iqtisadiyyatın tənəzzülünə səbəb olur. Əgər iş qabiliyyətli adamların bir qismi işləmirsə, deməli, daha az milli məhsul yaranır. Hər bir ölkənin iqtisadi inkişafı hər bir şəxsin həyat səviyyəsi həmin ölkənin milli məhsulunun həcmindən asılıdır. Buna görə də iş qabiliyyətli hər bir vətəndaşın işləməsi onun borcu, onu işlə təmin etmək isə dövlətin vəzifəsidir.

İşsizlik, əmək bazarında iş qüvvəsinə olan tələblə ona olan təklifin uyğunsuzluğu nəticəsində təzahür edir. Məsələn, fərz edək ki, əmək bazarında iş qüvvəsinə tələb 100 vahiddir, təklif isə 120-dir, yəni əmək bazarında tələbdən çox iş qüvvəsi vardır. Bu isə iş qüvvəsinin qiymətinə təsir göstərəcək, lakin 20 vahid iş qüvvəsi işsiz qalacaqdır.

İşsizliyin əsas səbəblərindən biri elmi-texniki tərəqqidir. Bununla əlaqədar yaranan işsizliyə texnoloji işsizlik deyilir. Məlumdur ki, sahibkarın məqsədi imkan daxilində daha çox mənfəət əldə etməkdir. O, bu məqsədlə elmi-texniki tərəqqinin son nailiyyətlərini istehsala tətbiq edir. Bunun nəticəsində istehsal prosesi mexanikləşdirilir. Fərz edək ki, yeni texnika tətbiq olunmamışdan əvvəl sahibkarın müəssisəsində bir nəfər işçi bir dəzgaha nəzarət edirdi, yeni texnika tətbiq edildikdə isə bir nəfər işçi beş dəzgaha nəzarət edə bilir. Nəticədə isthsala tətbiq edilən istehsal vasitələrinin kütləsi artdıqca işçi qüvvəsindən istifadə nisbəti azalır. Yeni texnikanın tətbiqi eyni zamanda əməyin keyfiyyətinin də artmasını tələb edir. Çünki mürəkkəb texnikanı yalnız savadlı, xüsusi təhsil almış işçi idarə edə bilər.

İşsizlik haqqında nəzəriyyələrdən biri maltusçuluqdur. Bunun əsasını ingilis iqtisadçısı T.F.Maltus (1776-1834) qoymuşdur. O, «Əhali qanunu haqqında təcrübə» əsərində göstərir ki, istehlak şeyləri ədədi silsilə, əhali isə həndəsi silsilə ilə çoxalır. Buna görə də hər 25 ildən bir artıq əhali yaranır. Bu isə işsizlər ordusunun əmələ gəlməsinə səbəb olur. Onun fikrincə, işsizlik təbii haldır, ictimai quruluşla onun heç bir əlaqəsi yoxdur. T.F.Maltus bunun aradan qaldırılmasının yolunu da göstərir. Onun fikrincə, müxtəlif yollarla əhalinin təbii artımının qarşısını almaq lazımdır. Marksist əhali qanunu Maltusun bu nəzəriyyəsini tənqid etmiş və onu mürtəce nəzəriyyə adlandırmışdır. Lakin Maltusun nəzəriyyəsində müəyyən həqiqət vardır. Çünki insanlar təbii sərvətlərdən amansızcasına istifadə etməklə onu tükəndirirlər, insanların sayı və tələbatı isə daim artır. Bu, cəmiyyəti fəlakətə aparır.

Hazırda əhalinin artım tempinin çoxalması dünyanı narahat edən məsələlərdən biridir və qlobal problemlər sırasına daxildir. Buna görə də onun dövlət tənzimlənməsinə ehtiyacı vardır.

İşsizliyin formalarından biri friksion işsizlikdir. Friksion – «frictio» latın sözüdür. Azərbaycan dilində mənası təsir nəticəsində hərəkət edən deməkdir. Bu işsizlik formasına o  adamlar daxildir ki, onlar daha yaxşı, öz qabiliyyətinə uyğun iş tapmaq məqsədilə könüllü olaraq işdən çıxırlar. Özlərinə uyğun iş tapana qədər onlar işsiz qalırlar. Belə formada olan işsizlər həmişə mövcud olur. Beləliklə, bu işsizlik formasına iş axtarmaqda, iş yeri gözləməklə əlaqədar olan əmək qabiliyyətli adamlar daxildir. Friksion işsizlik zəruri və müəyyən mənada arzu olunan işsizlikdir. Ona görə ki, onlar əvvəlki iş yerinə nisbətən əmək haqqı daha yüksək olan sahəyə can atan işsizlərdir. Onların ixtisasları bir

qayda olaraq yüksək olur. Onlar əmək məhsuldarlığını yüksəltməklə milli məhsulun artırılmasında mühüm rol oynayırlar.

İşsizliyin digər forması struktur işsizlikdir. Buraya o işsizlər daxildir ki, yeni texnika tətbiq olunanda onun peşə hazırlığı müasir tələblərə cavab verə bilmir. Məsələn, Azərbaycanda neft mədənlərindən neft ayıran zavodlara neft araba ilə tuluqlarla, çəlləklərdə daşınırdısa, neft boru kəməri çəkildikdən sonra bunlara ehtiyac qalmadığından dülgərlər, dabaqlar, arabaçılar öz ixtisaslarını itirdiklərindən yeni peşə qazanana qədər işsiz qalmışlar. Başqa sözlə, köhnə ixtisasa və təcrübəyə malik olan adamlar əmək bazarında öz iş qabiliyyətlərini sata bilmirlər. İşsizliyin bu iki formasını müqayisə edəndə aydın olur ki, friksion işsizlər müəyyən ixtisasa malikdirlər. Deməli, Friksion işsizlər qısa müddətdə işsiz qaldıqları halda, struktur işsizlər uzun müddət işsiz qalırlar.

Tsiklik və ya dövrü işsizlik də işsizliyin bir formasıdır. Bazar iqtisadiyyatı şəraitində iqtisadi böhranların olması qanunauyğun haldır. Böhran istehsal isə istehlak arasında nisbətin pozulması zamanı yaranır. Tsikl dörd fazadan ibarətdir – ifrat istehsal böhranı, durğunluq, canlanma və yüksəliş. Göründüyü kimi, böhran tsiklin ən yüksək fazasıdır. Bu fazada istehsal olunmuş məhsul tədavül kanallarında dolub qalır, reallaşa bilmir. Buna görə də istehsal müəssisələri işləmir və yaxud fasilərlə işləyir. Bu zaman işçilərin bir hissəsi işsiz qalırlar. Tsiklik böhran fazası durğunluq, canlanma, xüsusilə yüksəliş fazasına keçəndə işsizlər yenidən istehsala cəlb olunurlar.

Müasir sənaye ölkələrində yüksək texnoloji və mürəkkəb alətlərlə təmin edilən istehsal dairəsində əmək məhsuldarlığının yüksəlməsi bu sahələrdən işsizlərin xidmət dairələrinə axmasına səbəb olur. Xidmət

dairəsinin inkişafı isə öz nöbəsində istehsalın da yüksəlməsinə təsir göstərir.

İşsizlik cəmiyyətin potensial istehsal imkanının yüksəlməsinə maneçilik törədir. Bu, ümumi milli məhsulun həcminin azalmasına səbəb olur. Xüsusilə, böhran həm iqtisadi, həm də sosial fəlakətdir. İqtisadi tənəzzül müəyyən mənada ixtisasların itirilməsi, mənəvi düşkünlük, ailənin dağılması, ictimai və siyasi özbaşınalıq deməkdir. Tarixi təcrübə göstərir ki, bir çox ölkələrdə kütləvi işsizlik sosial və siyasi dəyişikliklərlə nəticələnmişdir. Ölkələrdə işsizliyin səviyyəsi bir-birindən ciddi sürətdə fərqlənir.

Azərbaycan Respublikasında işsizliyin özünəməxsus xüsusiyyəti və aradan qaldırılması yolları vardır. Bunun xüsusiyyətlərindən biri odur ki, işsizlik xeyli yüksəkdir. Digər tərəfdən, yuxarıda göstərilən işsizlik formalarına uyğun gəlmir. Bunun səbəbləri, əvvəlki mövzularda izah olunmuşdur. Qısaca olaraq onu demək olar ki, bazar iqtisadiyyatına keçid dövründə inzibati-amirlik iqtisadi sistemini məhv etmək və bazar iqtisadiyyatının əsaslarını yaratmaq, erməni işğalına məruz qalmış torpaqları azad etmək, eyni zamanda müstəmləkəlikdən bizə miras qalan struktur dəyişikliyi həyata keçirmək və s. xalqımızın indiki nəslinə qismət olmuşdur. Çətinliklərin həcminin böyük olması bunlarla əlaqədardır.

Azərbaycan Respublikasında işsizliyin yaranmasında olduğu kimi, onun aradan qaldırılmasının da özünəməxsusluğu vardır. İşsizliyin aradan qaldırılmasının əsas yolu istehsal müəssisələrinin tam gücü ilə işləməsini təmin etməkdir. Bunun üçün bunun bir yolu iflas vəziyyətinə düşmüş istehsal müəssisələrinin işə salınmasıdır. Digər yol isə yeni iş yerləri açmaq, yəni yeni istehsal müəssisələrinin yaradılıb işə düşməsini təşkil

etməkdir. Müasir dövrdə işsizliyin aradan qaldırılmasının əsas yolu kiçik müəssisələrin yaranması və inkişafına hərtərəfli şərait yaratmaq və dövlət səviyyəsində ona kömək göstərməkdir. İnkişaf etmiş dünya dövlətlərinin təcrübəsi sübut etmişdir ki, iş qabiliyətli əhalinin 50-60 faizi məhz kiçik müəssisələrdə işləyir. Bu istiqamətdə iqtisadiyyatımızı inkişaf etdirmək bizim üçün də ən düzgün yoldur.

Respublikada kiçik müəssisələrin təşkilinin ağırlıq mərkəzini rayonlara, Ermənistan ilə sərhəd rayonlarına keçirmək lazımdır. Bunun əhəmiyyəti təkcə böyük sosial problem olan işsizliyin aradan qaldırılmasında deyil, həm də bunun siyasi əhəmiyyəti də vardır. Azərbaycan dövləti və onun başçısı İ.Əliyev bunu yaxşı bildiyindən Azərbaycanın regionlarında kiçik və orta müəssisələrin yaradılmasına böyük qayğı və hərtərəfli yardım göstərir.

**Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar**

1. Demoqrafik siyasətin yaradılması üçün hansı şərtlər ödənilmələidir?
2. Demoqrafiya elminin predmeti hansı sosial sahəni əhatə edir?
3. Demokratiya və hüquq elminin qarşılıqlı əlaqəsini danışın.
4. Miqrasiya nədir? Onun səbəbləri hansılardır?
5. Miqrasiyanın nəticələrini izah edin.
6. Demoqrafiya elminin öyrənilməsi nə vaxtdan başlanmışdır?
7. Sovet hakimiyyəti illərində məşğulluğun aşağı salınmasının sosial-iqtisadi nəticələrini şərh edin.
8. Əhalinin tam məşğulluğunun təmin olunmasının yollarını və vasitələrini göstərin.
9. İşsizlik nə deməkdir? Onun tərifini deyin.

10. İşsizlik haqqında hansı nəzəriyyələr mövcuddur və Azərbaycandakı işsizliyə onların hansı uyğun gəlir?

11. İşsizliyin hansı formaları var?

12. İşsizliyin sosial-iqtisadi nəticələrini şərh edin.

13. Azərbaycanda işsizlik hansı yollarla aradan qaldırıla bilər?

14. «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramının (2004-2008-ci illər)» reallaşdırılmasının işsizliyin aradan qaldırılmasında əhəmiyyətini təhlil edin.

**Müzakirə üçün suallar və tapşırıqlar**

1. Hər bir dövlətin demoqrafik siyasətinin işlənib hazırlanması hansı zərurətdən irəli gəlir və onun vəzifələri hansılardır?

2. Azərbaycanda demoqrafik inkişafın inkişaf xüsusiyyətlərini və onun səbəblərini şərh edin.

3. Demoqrafiya bir elm kimi bir çox elmlərlə qarşılıqlı əlaqədədir. Bunu ətraflı danışın.

4. Əmək potensialı anlayışının tərifini deyin və onun məzmununu izah edin.

5. Sovet hakimiyyəti illərində Azərbaycanın əmək potensialından səmərəli istifadə edilməməsinin səbəbləri hansılardır və sovet dövləti hansı vasitələrlə Azərbaycanda məşğulluğun səviyyəsini aşağı salmışdır?

6. İşsizliyin yaranmasının əsas səbəbləri nədir?

7. Azərbaycanda işsizliyin özünəməxsus səbəbləri və xüsusiyyətlərin vardır. Onları təhlil edin və bu xüsusiyyətləri göstərin.

8. Xarici investorların Azərbaycanda fəaliyyət göstərmələrinin işsizliyin azadılmasında müsbət və mənfi təzahürlərini şərh edin.

# 12-ji MÖVZU: AZƏRBAYJANIN İSTEHSAL VƏ SOSİAL İNFRASTRUKTURLARI: VƏZİYYƏTİ VƏ İNKİŞAFI

## § 1. İnfrastrukturların tarixi təkamül inkişafı və sosial-iqtisadi mahiyyəti

İnfrastruktur latın sözü olub – aşağı, alt və struktura – quruluş, yerləşmə mənasında işlədilir. Təbiət və cəmiyyətdə, hər yerdə və hər şeydə olduğu kimi müasir infrastrukturlar birdən-birə və qüsa müddətdə yaranmamışdır. O, uzun və tarixi təkamül inkişaf yolu keçmişdir. Başqa sözlə, infrastrukturlar insan cəmiyyəti istehsala başlayandan indiyə kimi sadədən mürəkkəbə doğru daim inkişaf etmiş və təkmilləşmişdir. İnfrastrukturların mövcudluğunu və onun inkişafını cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarından ayırmaq olmaz, onlar istehsalla dialektik vəhdətdə olub, biri digərini şərtləndirən amillərdəndir, nə istehsalsız infrastruktur, nə də infrastruktursuz istehsalın baş tutması ağılasığmazdır.

İnfrastrukturların yaranmasının tarixi Şərq ölkələrindən başlayır. Artıq sübut olmuşdur ki, Şərqdə elmin, texnikanın, mədəniyyətin, təkamülü Azərbaycanda çox əvvəl başlamış və Avropa xalqları bunları əxz etmiş, onları öznünküləşdirilmiş və daha da inkişaf etdirmişlər. Bunu, ilk əvvəl istehsal infrastrukturuna da aid etmək olar.

Bunlara kənd təsərrüfatı istehsalını artırmaq üçün geniş surətdə su kanallarından istifadə edilməsi, nəqliyyat infrastrukturu kimi, kiçik də olsa, körpülərin salınması, bəsit nəqliyyat vasitələrindən istifadə edilməsi, qədim ipək yolunun istifadə edilməsi və s.  misal ola bilər. Qeyd etmək lazımdır ki, qədim ipək yolu eramızdan əvvəl V

əsrdən yeni dövrün XV əsrinə qədər fəaliyyət göstərmişdir. Sonra ucuz su-dəniz yollarının getdikcə geniş istifadəsi nəticəsində o, öz əhəmiyyətini itirmişdir. Bu avtomobil nəqliyyatının yüksək səviyyədə inkişaf etməsi və onun digər nəqliyyat növlərindən üstünlükləri ilə əlaqədardır. Hazırda Qədim ipək yolunun bərpası ideyası yaranıb. O Azərbaycandan keçdiyinə görə hazırda bu sahədə böyük işlər görülmüşdür və bu proses davam edir.

Qədim Azərbaycan tarixinə nəzər yetirilsə belə bəsit və sadə infrastruklar mövcud olduğunun şahidi oluruq. Arxeoloji materiallar bunların olduğunu sübut edir.

Bəşər sivilizasiyasının yüksəlişi, ümumi tarixi tərəqqi (bu təfəkkür tərzi ilə və fiziki əməklə bağlıdır) insanların natural tərəqqisi, tələbatın artması qanununun modifikasiyası və bu kimiləri infrastrukturların təkamülünə ciddi təkan vermişdir. Sivilizasiya özü də müxtəlif infrastrukturların yaradılmasına təkan verir. Əmək bölgüsü texniki tərəqqinin yüksəldilməsinə, texniki tərəqqi də öz növbəsində əmək bölgüsünün dərinləşməsinə təsir göstərdiyi kimi sivilizasiyanın inkişafı infrastrukturların təkamülünə səbəb olur, infrastrukturlar buna passiv olmur, əksinə, sivilizasiyanın inkişafına təkan verir və beləcə qarşılıqlı əlaqə və vəhdətdə infrastrukturlar sadədən mürəkkəbə doğru inkişaf etmişdir. Müasirliyə iz qoyan infrastrukturlar cəmiyyətin tərəqqisinə, xüsusilə bazar iqtisadi sisteminin inkişaf pilləsinə, ən çox isə indiki, tənzimlənən bazar iqtisadiyyatı dövrünə aiddir.

Beləliklə, infrastrukturlar təsadüflər nəticəsində kortəbii surətdə meydana gəlməmişdir, onlar bilavasitə, cəmiyyətin artan tələbatı ilə, onlara obyektiv surətdə, xüsusi ehtiyacların artması ilə üzvü şəkildə yaranıblar. Cəmiyyətin inkişafı pillələrlə getdiyi kimi, həmin pillələrin özünəməxsus spesifikliyi ilə infrastrukturlar da bəsitdən

mürəkkəbə doğru artmış, struktur tərkibi daim dəyişmiş və zənginləşmişdir. Bu gün müasir dövrdə sivilizasiyanın mümkün yüksək zirvəsi fəth edildiyi bir şəraitdə infrastrukturlar öz mütəmadi inkişaf yolunu davam etdirirlər.

Cəmiyyətin başqa müvafiq atributları kimi, infrastrukturlar da hər şeydən əvvəl, tələbatın artması ümumi iqtisadi qanunu, müxtəlif tələbatlar, onların müxtəlif strukturlu vəziyyəti ilə üzvü şəkildə artmış, müvafiq təsnifata uğramış və belə bir müstəvi ilə daim zənginləşmişlər.

Deməli, infrastrukturların tərəqqisi özbaşına baş vermir, obyektiv və subyektiv təsirlər altında gerçəkliyə çatırlar, insanların fəaliyyəti, onların tələbatları və mənafeləri ilə əlaqədar olaraq onların daimi inkişafı obyektiv zərurətə çevrilir.

İnfrastrukturlar anlayışında başqa sahələrə xidmət göstərən sahə və özəklərin (müəssisələrin) məcmusu ifadə olunur. Deməli, onun məcmusunda hansısa bir sahəyə xidmət göstərmək ifadəsi müəyyənedici istiqamətdir. İnfrastruktur sahəyə əsasən kollektiv istehlak xarakteri xasdır. İstehsala və ya yardım etdiyi başqa sahəyə xidmət edən infrastuktur qurum həmin prosesə bilavasitə təsir göstərsə də oradakı texnoloji və digər müvafiq prosesdən adətən kənardadır.

Beləliklə, bəzi struktur sahələr bir halda öz adına adekvat kimi çıxış edir, digər halda infrastruktur kimi fəaliyyət göstərir. Bəzi infrastruktur adlanan sahə isə struktur sahə kimi  ona xidmət göstərən qurumlara da malik olur. Bütün bu və bəzi digər eyni cəhətlər də nəzərdə tutulmaqla yuxarıda qeyd edildiyi kimi, infrastruktur sahə özünəməxsus məna yükünə və spesifik əlamətlərə görə stuktur sahəyə nisbətən fərqli cəhətlərə də malikdir.

Nisbətən əvvəlki on illikdə (sovet dövründə) nəşr olunan bəzi mötəbər ədəbiyyatda, məsələn, Ensiklopediyada ona aşağıdakı kimi tərif verilib: o, istehsala xidmət edən kompleks təsərrüfat sahələridir. Lakin bu tərif müasir elmi və praktiki baxımdan onun haqqında tam təsəvvür yaratmır və ona görə də həmin tərifi birtərəfli, məzmunu, funksiyası, əhatə dairəsi daraldılmış hesab etmək lazımdır.

İnfrastrukturlar daha geniş dairəli, elmi və praktiki məna yükü daşıyan, əmək bölgüsü ilə səciyyələnən və başqa aparıcı sahələrə də xidmət göstərən əlahiddələşmiş sahələrdir. Burada söhbət bir tək maddi istehsal sahələrinə xidmət etməkdən deyil, eyni zamanda sosial sahələrdə də xidmət etmək istiqamətlərindən də gedir, onları da özündə ehtiva edir.

Beləliklə, infrastruktur anlayışının formulasında onun maddi istehsal sahələrinə və ümumiyyətlə, təkrar istehsala və eyni zamanda əlahiddələşmiş sosial istiqamətlərə də xidmət göstərən sahələr olması ifadə olunmalıdır. Onun differensiasiyalaşmış fəaliyyəti ölkənin makro və mezo iqtisadi-sosial bütövlük səviyyəsində açıqlanmalıdır, başqa sözlə, bu dairələrdə baxılmalıdır.

İnfrastruktur özəklər, qurumlar çoxdan yaransa da bir anlayış, termin kimi onun elmi dövriyyəyə daxil olması XX əsrin əvvəllərinə aid edilir. Rəsmi və elmi ədəbiyyatda qeyd edilir ki, o, bir termin kimi ilk dəfə silahlı qüvvələrin normal fəaliyyətini təmin edən obyektləri və qurğuları bildirən sahələrdə istifadə olunmuşdur. Beləliklə, o hərbi leksiondan keçmədir. Burada o, silahlı qüvvələrin fəaliyyətini təmin edən kompleks qurğuları bildirirdi. Məsələn, hərbi avadanlıq anbarlarını, hərbi aerodromları, radiolakasiya postlarını, poliqonları, raket buraxılan

meydanları, və s. (bununla əlaqədar olaraq indi NATO-da infrastruktur üzrə komitə də mövcuddur).[1]

XX əsrin 40-cı illərindən başlayaraq infrastruktur anlayışı altında maddi istehsal sahələrinin normal fəaliyyətini təmin edən sahələrin məcmusu kimi başa düşülməyə başlanır.

Bəzən ədəbiyyatlarda infrastrukturlar bazar iqtisadiyyatının, kapitalizmin müasir dövrünün «məhsulu» kimi israr edilir. Lakin məlum olduğu kimi, iqtisadi nəzəriyyə elmi iqtisadi hadisələr, proseslərdə tarixilik mövqeyi ilə yanaşır və elmi-metodoloji baxımı daha səhih hesab edir. Odur ki, bu yanaşmanı əsas tutaraq nəzərə alınmalıdır ki, infrastrukturların yaranması və öz spesifik funksiyalarını yerinə yetirən qurum kimi qədimlərə gedib çıxır. Bu, ilk növbədə kənd təsərrüfatı ilə (əkinçiliklə), bu sahənin tələbatı və dövrünə görə ona xidmət etmək, inkişaf etdirmək zərurəti ilə bağlı olmuşdur.

Qədim nəqliyyat sahəsi də (şosse yolları, dəniz yolları) infrastruktur özəklərə, məntəqələrə malik olmuşdur.

Onu yalnız kapitalizmin, müasir bazarın komponenti kimi vermək müəyyən mənada düzgün olmaz. Lakin o başqa məsələ ki, infrastrukturların kütləvililiyi, onun şaxəliliyi, əhəmiyyət dairəsi, rol genişliyi və dərinliyi məhz kapitalizmin formalaşması və inkişafı ilə, müasir sivilizasiya ilə bilavasitə bağlıdır. İnfrastruktur özəklər, sahələr tarixi pillələrlə bugünkü səviyyəyə çatmış və əvvəlki tarixi dövrlərdə müqayisəsiz dərəcədə yüksəlmişdir.

Kapitalizmin bazar iqtisadiyyatının ardıcıl tarixi pillələri, başqa sözlə, onların bir-birini əvəz etmələri infrastruktur özəklərin, sahələrin tam tərəqqisinə də təkan vermişdir.

---

[1] **Bax:** Экономическая енциклопедия**, 2-ci cild,** M., 1975, с. 61.

Əmtəə-pul təsərrüfatının, kooperasiyanın, manufakturanın, iri maşınlı sənaye istehsalının, elmi-texniki tərəqqinin və elmi-texniki inqilabın təkanı yeni-yeni infrastrukturların yaranmasına, formalaşmasına, genişlənməsinə gətirib çıxarmışdır.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, infrastruktur hər hansı bir müvafiq bütöv sistemin zəruri komponenti kimi qəbul edilir. İnfrastruktur anlayışında başqa sahələrə xidmət göstərən sahə və müəssisələrin məcmusu ifadə olunur. Deməli, onun məzmununda hansısa bir sahəyə xidmət göstərmək ifadəsi müəyyənedici istiqamətdir. İnfrastruktur sahəyə, yuxarıda qeyd edildiyi kimi, əsasən kollekiv istehlak xarakteri xasdır. İstehsala xidmət edən infrastruktur qurum həmin prosesə bilavasitə təsir göstərsə də oradakı texnoloji prosesdən kənardadır.

Bəzi marksist ədəbiyyatda infrastrukturların ən çox kapitalist təsərrüfatı şəraiti üçün xas olduğu və əhəmiyyət kəsb etdiyi göstərilir. Bu, çox yanlış və düzgün olmayan müddəadır. İqtisadi sistemin mahiyyətindən asılı olmayaraq, infrastruktur qurumların fəaliyyəti daim obyektiv zərurətdən doğur, cəmiyyətin ümumi tərəqqisi, sosial-iqtisadi inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edir.

İnfrastrukturlar öz spesifik təbiətlərinə uyğun olaraq müxtəlif mülkiyyət formaları şəklində fəaliyyət göstərə bilərlər.

İnfrastruktur qurumlar da, digər maddi qurumlar kimi, müəyyən bir mülkiyyət forması ilə real gerçəklikdə durur. Onlar müxtəlif bazar iqtisadiyyatı ölkələrində həm dövlət mülkiyyəti, həm çeşidli müxtəlif xüsusi mülkiyyət formalarında, həm səhmdar cəmiyyəti mülkiyyəti formasında, həm bələdiyyə mülkiyyəti formaları əksər

hallarda böyük üstünlük təşkil edir. O, xüsusi sahibkarlıq fəaliyyəti ilə üzvi şəkildə bağlıdır.

Bu, ilk növbədə sosial-iqtisadi sistemin mahiyyəti ilə əlaqədardır. Məsələn, sosializm cəmiyyəti adlanan sosial-iqtisadi quruluşda onun rolu lazımi dərəcədə qiymətləndirilməsə və əhəmiyyət verilməsə də burada onlar əsasən dövlət mülkiyyətində idilər. Amma kapitalizm, başqa sözlə, bazar iqtisadiyyatı sistemi ölkələrində infrastrukturlar bir sıra mülkiyyət formalarına mənsub olurlar. İnfrastruktur obyektləri üzərində müəyyən konkret mülkiyyət forması onları iqtisadi-sosial münasibətləri sisteminə qoşur, onların məzmununda özlərinə məxsus yer tuturlar. Onların həmin münasibətlərdə yeri, xüsusi çəkisi, mövqeyi və rolu müxtəlif olur. Lakin başlıca cəhət bundan ibarətdir ki, onlarsız xidmət etdikləri sahələr heç bir vaxt normal fəaliyyət göstərə bilməzlər. Onlarsız təkrar istehsal prosesi çox səmərəsiz və hətta müəyyən qurumların fəaliyyət göstərməsi mümkünsüz olar. Bu vaxt proporsional inkişaf, iqtisadi-sosial komponentlər arasında normal müvazinət yarana bilməz.

Mülkiyyət münasibətlərinin məzmununda müəyyənedici rolu isə mənimsəmə kateqoriyası oynayır. Mənimsəmə isə mülkiyyət obyektinin subyekt tərəfindən həm hüquqi və həm də «zorakı» üsullarla özgəninkiləşdirilməsidir. Mülkiyyət münasibətlərində ifadə olunan mənimsəmə və özgəninkiləşdirmə sahib olma, itsifadə etmə və sərəncam vermə anliyışdarı ilə vəhdətdədirlər.

İnfrastrukturlar təkrar istehsalın fazaları üzrə də bölgüyə müncərdirlər. Məlum olduğu kimi təkrar istehsal prosesi istehsal, bölgü, mübadilə və istehlak formalarını əhatə edir.

İnfrastrukturlar bu fazalar içərisində ən çox (başlıca olaraq) maddi nemətlər istehsalı və maddi nemətlərin mübadiləsi, bölgüsü üzrə fəaliyyət göstərirlər. Bunlardan əlavə bəzi infrastrukturlar spesifik sosial sahələrə mənsubdurlar və bu sahələrə xidmət edirlər. Onlar elmi ifadələrdə sosial infrastrukturlar adlanırlar. Məsələn, səhiyyə, mənzil və kommunal təsərrüfatı, məişət xidməti, sərnişin nəqliyyatı, idman və s.

İnfrastrukturlar mülkiyyət obyektlərində olduğu kimi mikro, makro, mezo və meto (inter) iqtisadiyyat üzrə də bölgüyə müncərdirlər.

Mikroiqtisadiyyat infrastruktur baxımından ilkin iqtisadi özək hesab edilir. Bu özəyə iqtisadiyyatda mikro-canlı bir orqanizm kimi, başlanğıc kimi baxılır. Mikroiqtisadiyyatın bütövlüyünün yaranma taleyi ilk növbədə mikroiqtisadi özəkdən asılıdır. Bu özəklərin hər bir zahirən əlahiddə şəkildə fəaliyyət göstərirlər.

İqtisadiyyatda ilkin özəklərdən ibarət olan və mikroiqtisadiyyat adlanan bu cəhət ona görə xarakterik sayıla bilər ki, vəhdət, tam təşkil edən iqtisadiyyatda çox vaxt fikrən bu fərqlər nəzərə alınmır. Ümumilikdə mikro özəklərdə, o cümlədən mikro infra özəklərdə çoxlu müxtəliflik, xüsusilik, səciyyəvilik mövcuddur. Unudulmamalıdır ki, özəklər məcmu, bütöv şəkildə iqtisadiyyat daxilində (mikroiqtisadiyyat daxilində) fəaliyyət göstərən mikroiqtisadi obyektlərdir. Bunlarsız bütövlükdə makroiqtisadiyyat mövcud ola bilməz. Hər bir istehsal özəyi kimi infrastrukturlar da insan resursları ilə əlaqədə fəaliyyət göstərir. Mikroiqtisadiyyat bazar iqtisadi şəraitində özəl mülkiyyət münasibətlərinin yaranmasında mühüm amil kimi çıxış edir. Həmin şəraitdə bu fərdi, xüsusi-özəl mülkiyyət forması kimi ilkin sayılır. Bu xüsusi mülkiyyət bazar iqtisadiyyatının inkişafına təkan verir, azad rəqabət üçün əsas olur, xüsusi sahibkarlığa,

təşəbbüsə, yaradıcı əməyə, stimula yol açır. Mikroiqtisadi özəklər özlərinə məxsus idarəetmə xüsusiyyətlərinə, menecment fəaliyyətinə malikdirlər. Beləliklə, hər bir mikroiqtisadi özək ona xas olan idarə formasına, hüquqi əsasa malik olur və onları doğurur.

Deməli, mikro özəklər zahirən təcrid olunmuş halda görünsələr də, onlar bir-birilə rabitəsiz, əlaqəsiz, parçalanmış deyillər. Sıx qarşılıqlı rabitə şəklində fəaliyyət göstərirlər və buna görə də ictimai bir orqanizm yaranır.

İqtisadi özəklərin, iqtisadi qurumların əməkdaşlığı, qarşılıqlı, çarpazlaşmış zəruri əlaqələri makroiqtisadiyyatın yaranmasına əsas yol açır.

Elmi iqtisadi ədəbiyyatdan məlumdur ki, makroiqtisadiyyat milli sosial-iqtisadiyyat sisteminin bütöv vahid bir halı kimi qəbul edilir. Makroiqtisadiyyat tamında rəngarəng rabitə və əlaqə formaları (o cümlədən infrastrukturlar) mövcuddur. Odur ki, makroiqtisadiyyatda geniş əhatəli mexanizmlər, paralel və çarpazlaşan proseslər, obyektiv qanunauyğunluqlar və s. çulğaşır. O, mürəkkəb anatomik quruluşla və tərkiblə, rəngarəng fizioloji proseslərlə səciyyələnir.

Mikroiqtisadiyyat yarımsistem kimi mezoiqtisadiyyatda mühüm yer tutur. Bu bir «əlahiddəlik», «vahid» təşkil edir və elmi təhlili müstəqil əhəmiyyətə malikdir. Onun «əlahiddəliyi» ilk növbədə ictimai əmək bölgüsü ilə əlaqədardır. Mezoiqtisadiyyat (yunanca «sonra», «arxa», «vasitə» mənalarını ifadə edir) makroiqtisadiyyatda (milli iqtisadiyyatda) yarımsistem kimi özünəməxsus məzmuna və hərəkətə (davranışa) malikdir. Mezoiqtisadiyyatın özünəməxsus infrastrukturları olur.

Mezoiqtisadiyyatdan bəhs olunduqda burada aqrar-sənaye kompleksləri (ASK), hərbi sənaye kompleksləri, regional ərazi istehsal kompleksləri nəzərdə tutulur.

Aqrar-sənaye kompleksi milli iqtisadiyyatda çox sahəliliyi ilə səciyyələnir. O, əsasən kənd təsərrüfatının (aqrar bölmənin) və sənayenin bir-birilə qarşılıqlı əlaqə və qarşılıqlı təsirdə olan yarımsistemlərinin, bunlara bilavasitə xidmət edən infrastrukturların fəaliyyətinin məcmusudur (vəhdətidir). ASK başlıca olaraq aşağıdakı dairələri əhatə edir: 1) bütövlükdə kənd təsərrüfatının özünü; 2) kənd təsərrüfatı üçün texnika, maşın, avadanlıq istehsal edən sənaye sahələrini; 3) kənd təsərrüfatı xammalının sənayeyə daxil olması və emalını; 4) həmin sahələrdən hasil edilən hazır məhsulların realizasiyasını; 5) burdakı müvafiq infrastruktur sahələrini.

Müasir kənd təsərrüfatının özü ictimai əmək bölgüsünün dərinləşməsi nəticəsində yaranmış sahələrin və deməli, eyni zamanda müvafiq infrastrukturların məcmusudur. ASK-lərin yüksək inkişafı, ümumiyyətlə mövcud ölkədə yüksək inkişaf etmiş makroiqtisadiyyatdan asılıdır. Onun keyfiyyətli inkişafı isə kənd təsərrüfatının müasir sənayeləşmə səviyyəsilə, müvafiq infrastrukturlarla bilavasitə bağlıdır.

Hərbi-sənaye komplesi də mezoiqtisadiyyatın tərkib kompenetlərindən biridir. Əmək bölgüsününü inkişafı və dərinləşməsi nəticəsində hərbi-sənaye kompleksi formalaşır və daim tənkimləşməyə səmt götürür. Bu da ictimai təsərrüfatın yarımsistemi olub, hərbi və mülki istehsal sahələrinin, habelə müvafiq infrastrukturanın qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri ilə başlıca olaraq ləvazimat buraxır.

Deməli, iqtisadiyyatın müxtəlif sahələrində xidmət göstərən infrastrukturlar da mezoiqtisadiyyat bölgüsünə müncər edilir.

Meqoiqtisadiyyat da bilavasitə müvafiq infrastrukturlarla əlaqəlidir. Məlumdur ki, meqoiqtisadiyyat dünya ölkələrinin uzun tarixi inkişafı nəticəsində bərqərar

olmuşdur. O, bütöv bir sistem kimi XIX-XX əsrlərdə beynəlxlaq əmək bölgüsünün və beynəlxalq korporasiyaların və müstəmləkəçilik imperiyaların fəaliyyəti nəticəsində təşkkül tapmışdır.

## § 2. Azərbayjanın istehsal, sosial və bazar infrastrukturları

İnfrastruktur üç qrupa ayrılır: 1. istehsal infrastrukturları; 2. sosial, kommunal-məişət infrastrukturları; və 3. bazar infrastrukturları. Birinci qrupa bilavasitə maddi istehsala xidmət edən sahələr daxildir: - dəmir və sosse yolları, nəqliyyat, energetika, texniki təchizat sistemi, rabitə, su təchizatı, mühəndis qurğuları, kanallar, avtomat idarəetmə sistemləri, limanlar, anbar təsərrüfatı və s.

İkinci qrupa kadr hazırlığı, məişət xidməti, elm, maarif, səhiyyə, mədəniyyət, ictimai iaşə, sərnişin nəqliyyatı istilik sistemləri və s. daxildir.

Üçüncü qrupa marketinq, birjalar, bank sistemi, vergi və kredit sistemi, ticarət palataları, gömrük sistemi və s. daxildir.

İnfrastrukturun heç bir sahəsi son məhsulun istehsalında bilavasitə iştirak etməsə də cəmiyyətin məhsuldar qüvvələrinin tərkib hissəsi olub, bütünlükdə iqtisadiyyata və ya onun iri sahə komplekslərinə xidmət edir.

Makrosəviyyədə infrastruktur cəmiyyətin bütün üzvlərinin ehtiyaclarını təmin edən ümumi iqtisadi və sosial şərtlərini özündə birləşdirir və həmin şəxslər istehsalın bütün əsas sahələri üçün lazımdır.

Makrosəviyyədə infrastruktur müəyyən regionda, ərazidə yerləşən əsas istehsal müəssisələrinin səmərəli

əlaqələrini və əhalinin normal fəaliyyətini təmin edən infrastruktur həlqələr sistemini əhatə edir.

Mikrosəviyyədə isə infrastruktur ayrı-ayrı müəssisələrin və ya sahələrin normal fəaliyyəti üçün lazım olan köməkçi həlqələrindən ibarətdir.

Hər üç qrup infrastrukturları ayrıca təhlil edək. Belə ki, bu qruplaşmanı infrastrukturlar sahəsində iri, böyük təsnifat adlandırmaq olar. Çünki bunlar özləri də birbaşa ikinci və bəzən üçüncü yaramqruplara, komponentlərə ayrılırlar. Ən geniş yeri isə mikroinfrastrukturlar təşkil edir. Buna görə də əvvəlcə qeyd edilənlər haqqında müəyyən məqamları yada salaq.

Bütün infrastrukturlar sahələrdən və bunu təşkil edən özəklərdən ibarət olurlar. Axırıncıları mikroinfrastrukturlar adlandıra bilərik. Belə ki, infrastruktur sahə eyni məqamlı, eyni cinsli özəklər məcmusundan ibarətdir.

İnfrastruktur sahələr özlərinə uyğun müvafiq özəklərdən, yəni müəssisələrdən, qurumlardan, fərdi təsərrüfat obyektlərindən, mikroiqtisadiyyat deyilən hissələrdən təşəkkül tapırlar.

İstehsal infrastrukturlar ilk növbədə maddi istehsal sahələrinə, müvafiq yarımqruplara bölünürlər. Bilavasitə maddi istehsal sahələri isə müasir bölgü ilə aşağıdakı kimi təsnif edilir:

1. sənaye;
2. kənd təsərrüfatı;
3. tikinti;
4. meşə təsərrüfatı;
5. ovçuluq-balıqçılıq;
6. istehsala xidmət edən rabitə;
7. yük nəqliyyatı;
8. energetika təsərrüfatı;
9. maddi-texniki təchizat;

10. ticarət (istehsalın davamı ilə əlaqədar olaraq) və ictimai iaşə.

Hər bir istehsalın və qeyri-istehsal sahəsində əsas proseslərin son fəaliyyət nəticələri müvafiq olaraq məhsul buraxılışı ilə və xidmət göstəriciləri ilə təmin edilir.

Elə infrastruktur sahələr və ya özəklər var ki, onlar bir neçə sahəyə aid edilə bilərlər.

1. Aşağıdakı infrastrukturlar maddi istehsal sahəsi kimi sənaye sahələrinə də xidmət göstərirlər:

- sənayeyə xidmət göstərən yük nəqliyyatı (şosse yollar, dəmir yolları, su yolları, boru kəmərləri, kanallar);
- rabitənin sənaye istehsalına xidmət edən sahəsi;
- energetika təsərrüfatının sənaye istehsalına xidmət edən sahəsi;
- meşə təsərrüfatının sənaeyəyə xidmət edən sahəsi;
- balıqçılıq, ovçuluq təsərrüfatının sənayəyə xidmət edən sahəsi;
- anbar təsərrüfatı;
- müvafiq surətdə ümumi, ali və orta peşə təhsili;
- elmi xidmət.

2. Maddi istehsal sahəsi kimi kənd təsərrüfatı infrastrukturlara daxildir:

- kənd təsərrüfatına xidmət edən yük sahəsi;
- kənd təsərrüfatına xidmət edən anbar sahəsi;
- sənayenin bilavasitə kənd təsərrüfatı istehsalı üçün xidmət edən maşın-texnika vasitələri, inşaat materialları, alət, gübrə və digər şeylər istehsal edən sahələri;
- su təchizatı şəbəkələri, su kanalları və s.

3. Yük nəqliyyatı sahəsinin infrastrukturları (buraya isə dəmiryol, çay, dəniz, okean, hava, avtomobil nəqliyyatı, boru kəmərləri, həmçinin müxtəlif yol təsərrüfatı obyektləri daxildir):

- yük nəqliyyatı vasitələri hazırlayan sənaye sahəsi;

- dəmiryol stansiyalar, vağzallar;
- depolar;
- limanlar;
- aerodromlar;
- yol-istismar məntəqələri;
- nəqliyyata xidmət edən tikinti sahələri;
- müvafiq maşın-texnika növləri.

4. Meşə təsərrüfatının infrastrukturu:
- meşə əkin yerləri;
- meşə şitillikləri;
- meşə təsərrüfatı üçün avadanlıq buraxan istehsal sahələri müəssisələri;
- suvarma şəbəkələri və s.

5. İnşaat sahələrinin infrastrukturları (buraya iri tikintilər, binalar, kommunikasiyalar, yaşayaş evləri və s. daxildir):
- tikinti materialları hazırlayan maşınlar, texniki avadanlıqlar;
- meşə təsərrüfatı avalanlığı;
- müvafiq energetika;
- daş, qum və s. karxanalar;
- anbar təsərrüfatı;
- müvafiq yük nəqliyyatı növləri.

6. Maddi-texniki təchizat üzrə infrastrukturlar:
- maddi-texniki təchizatın müvafiq resursları;
- nəqliyyat-anbar təsərrüfatı;
- energetika.

Göründüyü kimi, istehsal infrastrukturları milli iqtisadiyyatın formalaşması və inkişafında böyük rol oynayır və onlarsız iqtisadiyyatın təşkili və inkişafından danışmaq olmaz. Amma bu heç də o demək deyil ki, sosial və bazar infrastrukturları nəsə ikinci, üçüncü dərəcəlidirlər, az gərəklidirlər. Əksinə, sosial və digər infrastrukturlarsız da iqtisadiyyatın inkişafı

mümkünsüzdür. Onlar bir-birilə vəhdətdə və qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. İndi sosial, kommunal-məişət infrastrukturlarını nəzərdən keçirək.

Sovet iqtisadi ədəbiyyatında bunlar ən çox qeyri-istehsal sahəsi kimi qeyd edilmişdir. Burada xidmət sahələrinin obyektləri daha geniş və miqyaslıdır. Buraya aşağıdakıları aid etmək olar:

- təhsil və onun bütün növləri (ümumi, ali və orta ixtisas, peşə təhsil müəssisələri);
- səhiyyə və onun əhatə etdiyi obyektlər;
- sosial-təminat müəssisələri;
- elm sahəsi və buna aid müəssisələr, təşkilatlar və s.;
- kommunal, mənzil, məişət təsərrüfatı;
- şəxsi istehlaka xidmət edən təmir emalatxanaları;
- sosial-mədəni təyinatlı müəssisələr;
- incəsənət;
- ticarət və ictimai iaşə (bunlar birbaşa bazar-biznes infrastrukturlara da daxildir);
- kurort təsərrüfatı;
- əhaliyə xidmət edən kommunikasiya sistemi;
- əhaliyə xidmət edən ictimai nəqliyyat;
- əhaliyə xidmət edən ictimai rabitə;
- əhaliyə xidmət edən maliyyə-kredit-kredit təsərrüfat hissəsi;
- dini qurumlar, təşkilatlar və obyektlər;
- bədən tərbiyəsi və ictimai təşkilatları, stadionlar və s.

İnfrastrukturlar sistemində bazar infrastrukturları mühüm yer tutur. Sovet hakimiyyəti illərində bazar iqtisadi sisteminin əsası olan sahibkarlıq qanunla qadağan olunduğundan bazar infrastrukturları iqtisadi ədəbiyyatda özünə yer tapa bilməmişdir. Hazırda Azərbaycan bazar iqtisadi sisteminə keçməyi qarşısına

əsas məqsəd qoyduğundan onun öyrənilməsinin mühüm əhəmiyyəti vardır. İndi onu nəzərdən keçirək. İqtisadi ədəbiyyatda bazar (biznes) infrastrukturu əsasən aşağıdakılardan ibarətdir:

- marketinq və marketinq elmi-tədqiqat mərkəzləri;
- birjalar, o cümlədən əmtəə (xammal daxil olmaqla), əmək, fond (qiymətli kağızlar), valyuta, onların təşkilati cəhətdən vasitəçiliyi;
- hərraclar (auksionlar), yarmarkalar və təşkilati cəhətdən qeyri-birja vasitəçiliyinin digər formaları;
- kredit sistemi və emissiya bankları;
- informasiya texnologiyası və işgüzar kommunikasiya vasitələri;
- vergi sistemi və vergi müfəttişliyi;
- kommersiya təsərrüfat riski, sığorta və sığorta kompensasiya sistemi;
- xüsusi rejim agentliyi, informasiya mərkəzi və orta kütləvi informasiya;
- ticarət palataları və digər ictimai könüllü və dövlət birlikləri (assosiasiyaları), işgüzar dairələr;
- gömrük sistemi;
- muzdla işləyən həmkarlar təşkilatları;
- kommesiya-sərgi kompleksləri;
- ali və orta iqtisadi, qismən hüquq və s. ixtisas təhsili;
- auditor kompaniyaları;
- məsləhət kompaniyaları;
- işgüzarlıq fəaliyyətinin stimullaşdırılmasının ictimai və dövlət fondu;
- xüsusi azad sahibkarlıq zonaları.

Belə bir təsnifat işgüzar münasibətlərin uzun təkamülü nəticəsində qərarlaşmışdır. Burada onların hamısını geniş səciyyələndirmək mümkün deyil. Lakin onlardan birinin xarakterik xüsusiyyətlərini göstərmək

məqsədəuyğundur. Bu gömrük sistemidir. Belə ki, bazar infrastrukturlarının ən geniş yayılmış tərəfirdən biri gömrük sistemidir. Vahid gömrük qanunvericiliyi əsasında fəaliyyət göstərir. Burada əsas əməliyyatların biri gömrük-bəyannaməsidir (deklarasiyasıdır). Gömrük sistemində xarici ölkələrlə aparılan və xarici ölkələrdən gətirilən müxtəlif əmtəə, məmulatlar üzrə qanunvericilik tarifi üzrə rüsum alınır.

Onun ərazisi həm quru, həm hava, həm də su məkanlarını əhatə edir. Ayrı-ayrı ölkələrdə azad gömrük zonaları və gömrük anbarları da təşkil olunur.

Gömrük sistemi gömrük ərazilərində əmtəələrin, məmulatların, nəqliyyat vasitələrinin bir ölkədən başqa ölkəyə aparılmasında, təsirli xidmət göstərilməsində mühüm rol oynayır.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan xalq təsərrüfatının bütün sahələrində olduğu kimi istehsal, sosial və bazar infrastrukturlarının milli mənafeyə uyğun yenidən qurulması obyektiv zərurətdir. Bunun əsas səbəbi Azərbaycanın sovet müstəmləkəçiliyi sistemində yaşaması olmuşdur.

Bütün müstəmləkəçi dövlətlərin fərqi yoxdur, istər kapitalizm, istərsə sosializm olsun, müstəmləkələrdə infrastruktur sahəsində metodu eyni olmuşdur. Bu ümumi metodun mahiyyəti ondan ibarət olmuşdur ki, müstəmləkəçi, o cümlədən ən böyük müstəmləkəçi dövlət olan çar və sovet dövləti istehsalın infrastrukturunun inkişafına böyük əhəmiyyət verərək onun iri həcmdə investisiya ayırdığı halda sosial infrastrukturuna ikinci, üçüncü, hətta axırıncı plana keçmişlər. İstehsal və sosial infrastrukturların birinə doğma, digərinə ögey münasibət bəsləmək müstəmləkəçilərin məqsədindən irəli gəlmişdir.

Müstəmləkəçi dövlətlərin başçıları və ideloqları başa düşmüşlər ki, müstəmləkə vəziyyətinə düşmüş xalqlar

gec və ya tez oyanacaqlar, onların milli şüuru və milli təfəkkürü formalaşacaq, onlar da öz təbii və milli sərvətlərinə sahib olmaq istəyi yaranacaq və buna nail olmaq məqsədilə ayağa qalxacaqlar, onların istəkləri gerçəkləşəcək və müstəqil milli dövlətlərini quracaqlar. Məhz bunu dərk edən müstəmləkəçilər var gücü ilə müstəmləkə xalqların təbii sərvətlərini, ilk növbədə təkrar istehsal olmayan faydalı qazıntılarını intensiv şəkildə yerin təkindən çıxarıb aparmağa çalışmışlar. Bunu Azərbaycanın timsalında aydın görmək olar.

1861-ci ildə Çar Rusiyasında təhkimçilik hüquqi ləğv edildikdən sonra Rusiyada sənaye, bazar münasibətləri daha sürətlə inkişaf etməyə başlamışdır. Bu isə yanacağa tələbatı artırmışdır. Bu zaman neft və qaz əsasən Azərbaycanın Abşeron yarımadasında hasil edilirdi. Buna görə də Rusiya imperiyası öz sənayesini inkişaf etdirmək və neftə olan tələbatı ödəmək məqsədilə neft sənaye sahəsində infrastrukturları inkişaf etdirmiş və bu sahəyə böyük kapital qoymuşdur. Məsələn, Rusiyada birinci neft kəməri 1872-ci ildə Bakıda tikilmişdir. Bu kəmər xam nefti mədənlərdən neftayırma zavoduna ötürürdü. Halbuki bu vaxta qədər xam neft neft mədənlərindən neftayırma zavodlarına çəlləklərə, tuluqlara doldurularaq at arabası ilə daşınmışdır. Bu hadisə on minlərlə arabaçıların, sənətkarların işsiz qalmasına səbəb olsa da neft hasilatının və emalının inkişafına təkan vermişdir. Bu zaman Çar Rusiyasının məqsədi fəhlə və sənətkarların əməyini yüngülləşdirmək, onların maddi rifah halını yaxşılaşdırmaq yox, imkanı daxilində Azərbaycanın bu əvəzsiz təbii sərvətini qısa müddətdə çıxarıb öz ölkəsinə aparmaq olmuşdur. Çar Rusiyası bu sahədə fəaliyyətini sonralar daha da genişləndirmişdir. Belə ki, 1906-cı ildə uzunluğu 883 km. olan Bakı-Batumi neft məhsulları ötürən kəmərin inşası başa çatmışdır. Sovet hakimiyyəti

illərində bu proses daha sürətlə inkişaf etdirilmişdir. Qroznı-Bakı magistral neft kəməri bu məqsədlə tikilmişdir. Azərbaycanın nefti Supsa və başqa neft kəmərləri ilə Rusiya ərazisindən keçərək Avropaya ötürülmüşdür. Lakin bu qədər neftin istehsalının və xaricə ötürülməsinin Azərbaycan xalqının həyat səviyyəsinin yüksəlməsinə heç bir təsiri olmamışdır.

Bakıda, Əli Bayramlıda (Şirvan) və başqa şəhərlərdə tikilən istilik elektrik stansiyaları Azərbaycanda mühüm əhəmiyyəti olan istehsal infrastrukturlarındandır. Bu müəssisələrin yaradılmasında da məqsəd Azərbaycanda olan, lakin mərkəzin mülkiyyətində sayılan iri sənaye müəssisələrinə xidmət etmək olmuşdur. Bu zaman Azərbaycanda yerləşən iri sənaye müəssisələri İttifaq nazirliklərinə tabe olmuş və sovet dövlətinin sifarişlərini yerinə yetirmişlər.

Sovet hakimiyyəti illərində Azərbaycanın aqrar bölməsində istehsalın infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etdirildiyi halda sosial və bazar infrastrukturları ona nisbətən kölgədə qalmışdır. Burada da məqsəd sənayedə olduğu ilə eynidir. Mingəçevir gölünün yaradılması və ondan müxtəlif istiqamətlərə bir neçə suvarma kanallarının çəkilməsində, su elektrik stansiyasının tikilməsində imperiyanın məqsədi heç də əhalini enerji ilə təmin etmək olmamışdır. Doğrudur, Azərbaycan vətəndaşları həmin elektrik enerjisindən istifadə etmişlər. Əsas məqsəd isə sovet imperiyasının xam pambığa olan tələbatını ödəmək və Azərbaycanda istehsal olunan elektrik enerjisinin bir hissəsini Ermənistana və Gürcüstana ötürmək olmuşdur.

Göründüyü kimi Çar və Sovet imperiyaları Azərbaycanın təbii sərvətlərini daha intensiv şəkildə çıxararaq demək olar ki, havayı mənimsəmək xatirinə infrastrukturların, xüsusilə istehsal infrastrukturların

inkişafına böyük kapital qoymuş və inkişaf etdirmişlər. Təbiidir ki, bu infrastrukturlardan Azərbaycan xalqı da istifadə etmişdir. Bunun qarşısını almaq qeyri-mümkündür. Məsələn, pambıqçılığı inkişaf etdirmək xatirinə Mingəçevir dənizindən çəkilən suvarma kanallarından kolxozun və sovxozun pambıq tarlaları suvarılan zaman kolxozçu kəndli də öz həyətyanı sahəsini suvarmalıdır. Bunun qarşısını almaq iqtidarında olmayan sosializm sistemi əksinə təbliğat aparmağa üstünlük vermişdir. Bu sistem əsl məqsədini gizlədərək guya sosializm bütün bunların hamısını xalqın həyat səviyyəsini yüksəltmək məqsədilə görmüşdür. Sovet təbliğat maşını sovet hakimiyyəti illərində Azərbaycanda elmin, təhsilin, səhiyyənin, mədəniyyətin, incəsənətin və sair sosial sahələrdə inkişafın yüksək, əhalinin həyat səviyyəsinin kapitalist ölkələrindən üstün olmasını sübut etməyə çalışmışdır. Guya böyük rus xalqı Azərbaycanı gerilikdən, xurafatdan xilas etmiş və Azərbaycan xalqına xoşbəxtlik gətirmişdir. Əslində isə bunlar tamamilə əksinə olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycanda infrastrukturların qısa müddətdə sovet dövrünə nisbətən sürətli inkişafı bu təbliğatın yalan olduğunu ortaya qoydu. Təəssüf ki, bu təbliğatın təsirindən hələ də qurtara bilməyən insanlar qalmaqdadır.

Sovet hakimiyyəti illərindəki Azərbaycanda sosial infrastrukturları sahəsindəki vəziyyəti Azərbaycan müstəqillik qazandıqdan sonra əmələ gələn dəyişiklikləri müqayisə etdikdə müstəmləkəçilərin istehsal infrastrukturlara nisbətən sosial infrastrukturlara az əhəmiyyət verməsi aydın olur. Ədalət naminə qeyd etmək lazımdır ki, sovet dövləti sosial yönümlü dövlət olmuşdur, yəni kifayət qədər orta və ali məktəblər, səhiyyə müəssisələri yaradılmış, təhsil və səhiyyə xidmətləri pulsuz olmuşdur. Lakin Azərbaycan müstəqillik

qazandıqdan sonra, cəmi 19 il ərzində sovet sisteminin 70 il zaman kəsiyindən qat-qat çox nailiyyətlər əldə edilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra çox mühüm sosial infrastruktur olan sərnişin nəqliyyatı sahəsində müqayisə olunmaz dərəcədə sürətli inkişaf baş vermişdir. Belə ki, sovet dövründə rayonlara yalnız qatarla gedib-gəlmək mümkün idi, əhali saatlarla, günlərlə dəmir yolu vağzallarında bilet almaq üçün növbəyə durmalı olurdu, vaqondan düşdükdən sonra taksi tapmaq böyük bir problem olmuşdur. Rayon mərkəzindən kəndlərə saatlarla piyada getmək lazım gəlirdi, kəndlərarası, kəndarası yollar bərbad vəziyyətdə idi, hazırda isə bu problemlərin hamısı həll olunub. Rabitə xidməti sahəsində də eyni sözləri demək olar, vətəndaşlar on illərlə, hətta 20 illərlə mənzilinə telefon çəklirmək üçün növbəyə durmalı olurdu və bunun üçün rüşvət vermədən məqsədə nail olmaq mümkün deyildi. İnsanlar saatlarla danışıq məntəqələrində gözləməli olurdular. Artıq 19 il ərzində bu çətinliklər də əsasən aradan qaldırılmışdır.

Müstəqillikdən əvvəl Azərbaycanda bazar infrastrukturların mövcudluğundan danışmaq olmazdı. Çünki marksist-leninçi iqtisadi təliminin Azərbaycanda hakim olması bazar infrastrukturlarının yaranmasını qadağan etmişdir. Lakin ticarət şəbəkəsi var idi. Bu sahə də dövlətin tam inhisarında olmuşdur. Dövlət bütün istehlak şeylərinə qiyməti siyasi motivlərə əsasən qoymuşdur. Hər yerdə eyni istehlak dəyərinə malik olan məhsullara bir qiymət qoyulduğundan əhali seçim edə bilməzdilər, insanlar keyfiyyətsiz məhsulları almaq məcburiyyəti qarşısında qalmışdır. Bazar iqtisadi sistemi üçün bolluq xarakterik olduğu halda sosializm üçün məhsul çatışmazlığı səciyyəvi olmuşdur. Bu hal

sosializmin planı kağız üzərində, yalançı, şaxta yollarla doldurmaq metodundan irəli gəlmişdir. Bununla əlaqədar olaraq mağazalarda məhsullar az olduğundan böyük növbələr əmələ gəlirdi. İnsanlar illərlə anbarlarda qalmış, öz keyfiyyətini itirmiş, buza dönmüş ət almağa, saatlarla növbədə duraraq çörək almağa məhkum edilmişdir. Pambıqçılıq heyvandarlığı sıxışdırdığından heyvandarlıq məhsulları yoxa çıxmışdır. Azərbaycanın gənc milli dövləti və bazar iqtisadi sisteminə keçid bu problemi də çox qısa müddətdə həllində böyük dönüş yaratmışdır. Sovet sistemində yaşamış insanlar indiki bolluğa inanmazdılar. Lakin bu göz qabağındadır, reallıqdır. Təəssüf ki, bunun qədrini bilməyən insanlar da kifayət qədərdir.

## § 3. «Transqafqaz» magistralı və «İpək yolu»nun bərpasının Azərbayjanın sosial-iqtisadi inkişafında əhəmiyyəti

Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan tədriclə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaranması və tarixən olduğu kimi, güclü əlaqələndirici bir mərkəzə çevrilə bilmək imkanına malikdir. Nəqliyyatın bütün növlərinin hərəkətini təmin edə biləcək belə bir dəhlizin yaranmasında Avropa və Asiyanın aparıcı dövlətləri son dərəcədə maraqlıdır. Bu maraq ilk növbədə Xəzər dənizinin, Xəzəryanı ərazilərin neft-qaz ehtiyatları ilə zəngin olmasından doğmuşdur. Eyni zamanda sənayeləşmənin sürətlə inkişafı ilə əlaqədar olaraq sənayecə inkişaf etmiş ölkələrin neftə və təbii qaza tələbatı əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə artmasıdır.

Sovet imperiyası süquta uğradıqdan sonra Rusiya Federasiyası neft və qaz ixrac edən iri dövlətlərdən birinə çevrilmişdir. Rusiya bu üstünlüyündən istifadə edərək

Avropa dövlətlərinə təzyiq vasitəsi kimi ondan istifadə etməyə çalışır. Sovet imperiyası zamanı Orta Asiya və Azərbaycan respublikalarının neft və qaz kəmərləri adı çəkilən dövlətin ərazisindən keçdiyindən Rusiya indi də bu vasitədən istifadə edir və yeni yaranmış dövlətlərin müstəqilliyinin inkişafına əngəllər törədir.

Göründüyü kimi həm Avropa dövlətləri, həm də yeni yaranmış gənc türk dövlətləri Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaranmasında və bu dəhliz vasitələri öz energetika daşıyıcılarını dünya bazarına çıxarmaqla maraqlıdırlar. Məhz buna görə də bir neçə ildir ki, dünyanın tanınmış bir çox xarici neft şirkətləri Xəzərin Azərbaycana, Qazaxıstana və Türkmənistana aid olan sektorlarından milyon tonlarla neftin çıxarılması üçün kapital qoymuşlar və bu davam edir. Xəzərin hövzəsində neft və qaz hasilatının artması ilə yanaşı onun dünya ölkələrinə nəql edilməsi problemi meydana çıxır. Buradan da neftin daşınması üçün əlverişli nəqliyyat marşrutlarının seçilməsi tələb olunur. Keçmiş SSRİdən ayrılıb müstəqillik əldə etmiş Xəzəryanı respublikalar, xüsusilə Azərbaycan Rusiyanın təzyiqinə məruz qaldı, blokada şəraitinə salındı, bu zaman Azərbaycanın nefti Avropa bazarlarına Rusiya ərazisindən keçən neft boru kəmərləri vasitəsilə danışırdı. Rusiya Azərbaycanın müstəqilliyini istəməyən dövlətlərdən biridir və o bu məqsədlə neçə dəfələrlə Azərbaycanı blokada vəziyyətinə salmışdır. Belə bir şəraitdə Azərbaycanın Rusiya ərazisindən keçən neft kəmərlərindən daha faydalı, etibarlı, Azərbaycanın milli mənafeyinə uyğun neft kəmərlərinin çəkilməsini axtarıb tapmaq zərurəti meydana çıxmışdır. Məhz «Transqafqaz» nəqliyyat dəhlizi ideyası da buradan meydana çıxdı. Bu əslində XV əsrə qədər Şərq və Qərb ölkələri arasında ticarət yolu olan «Böyük ipək yolunun» dirçəlməsi ideyası idi. Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən irəli

sürülmüş bu ideya «İpək yolu» üzərində yerləşən 33 ölkə rəhbərləri tərəfindən müdafiə edilmişdir və 1998-ci ilin sentyabr ayında həmin ölkələrin başçılarının Bakıda toplanış keçirilməsi nəzərdə tutulmuş və reallaşmışdır. Yaponiyadan Avropaya olan məsafəni 4 min km. qısaldan bu yol İspaniyaya qədər uzanır.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, qədim İpək yolunun bərpası çoxdan Avropa dövlətlərinin, Azərbaycanın və Orta Asiya sovet respublikalarının diqqət mərkəzində olmuşdur. Lakin hər yerdə olduğu kimi sovet imperiyasının mövcudluğu buna imkan verməmişdir. Ancaq o süqut etdikdən sonra buna şərait yaranmışdır. Belə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi keçmiş Sovetlər İttifaqının 8 respublikasının ərazisindən keçməliydi. SSRİ vaxtında bu ideyanın reallaşması mümkün deyildi, çünki ölkədə vahid nəqliyyat sistemi var idi. Avropadan Asiyaya yüklər Rusiyanın, Qazaxıstanın ərazisindən keçirdi və bu, mühüm, strateji əhəmiyyətli yol sayılırdı. Belə bir şəraitdə yeni bir nəqliyyat dəhlizinin açılması və onun Zaqafqaziya, Orta Asiya respublikalarından keçməsinə SSRİ hökuməti, onun özünün təbiətinə görə, razı ola bilməzdi. SSRİ dağıldı, onun ərazisində yeni müstəqil dövlətlər meydana gəldi və nəqliyyat dəhlizinin reallaşması üçün obyektiv şərait yarandı. Avropa Birliyi həm özünün çox böyük mənafeyi, həm də yeni yaradılmış müstəqil dövlətlərin müstəqilliyini möhkəmləndirmək üçün belə bir proqramın işlənməsini, Avropa-Qafqaz-Asiya dəhlizinin işə salınmasının zəruriliyini qlobal bir məsələ kimi ortaya atdı.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin işə salınmasının burada iştirak edən dövlətlər, o cümlədən Azərbaycan üçün böyük iqtisadi və siyasi əhəmiyyəti vardır. Lakin Azərbaycan üçün bu daha mühüm əhəmiyyət kəsb edir. Çünki Azərbaycan bu nəqliyyat

dəhlizinin mərkəzində yerləşir, bu iki qitəni birləşdirən bir nöqtədir. Bu nəqliyyat dəhlizinin iqtisadi-siyasi potensialı, gücü o qədər miqyaslıdır ki, o, bizim respublikamız üçün daim kapitaldır, daim siyasi mövqedir, daim sabit inkişafdır, daim beynəlxalq iqtisadi münasibətlərdə fəal iştirakdır.

«Transqafqaz» magistralının (Avropa-Qafqaz-Asiya) işə salınması çox çətin və uzunmüddətli prosesdir. Bunun çətinliyi yalnız maliyyə problemi deyil. Ən böyük problem bəzi dövlətlərin bu qlobal və nəhəng proqramın reallaşmasına mane olmaqlarıdır. Bunlardan biri Rusiya Federasiyasıdır. Sovet hakimiyyəti illərində Azərbaycanın və Orta Asiya respublikaların neft və qazını havayı mənimsəmiş Rusiya imperiya süqut etdikdən sonra yenə bu niyyətindən asanlıqla əl çəkmək istəmir.

Sovet imperiyası dağıldıqdan sonra Azərbaycan və Orta Asiya respublikaları yenə də öz neft və qazını Rusiyanın ərazisindən keçən neft və qaz boru kəmərləri vasitəsi ilə xaricə ixrac etdilər. Bunun əvəzində Rusiya bu dövlətlərdən gömrük rüsumları alır, həm də həmin gənc, zəif, müstəqil dövlətlərə təzyiqlər göstərir, özündən asılı və təsiri altına almaq üçün bu amildən istifadə edir. Əgər bu proqram uğurla həyata keçirilərsə, Orta Asiya dövlətləri Rusiyanın asılılığından xilas olar, Rusiya onlardan aldığı rüsumlardan məhrum edilər. Məhz bunlara görə də Rusiya öz maraqlarını başqa dövlətlərin milli mənafeyindən üstün tütür. Bakı-Tiflis-Ceyhan neft boru kəmərinin istismara verilməsi nəticəsində Azərbaycan Rusiyadan asılılığını müəyyən qədər azaltdı. Lakin bu proses davam edir və yeni layihələr üzərində iş aparılır. Azərbaycan Qazaxıstanın, Türkmənistanın Azərbaycandan keçən neft, qaz boru kəmərləri vasitəsilə öz məhsullarını dünya bazarına ixrac etməkdə maraqlıdır.

Hazırda Qazaxıstan nefti Xəzər-Bakı-Batumi marşrutu və Qara dənizə çıxarılır və respublikamıza fayda verir. Türkmənistan neftinin də bu dəhliz vasitəsilə nəqli nəzərdə tutulur. Təəssüf ki, hələlik buna nail olunmayıb. Bunun bir çox obyektiv və subyektiv səbəbləri var. Bu ölkələrdə bazar iqtisadi sistemi formalaşdıqca, milli şüar və milli təfəkkür formalacaq, ölkənin müstəqilliyi möhkəmlənəcək və onlar «Transqafqaz» magistralına qovuşmağın zəruriliyini dərk edəcək və ona qoşulacaqdır.

«Transqafqaz» dəhlizinin intensiv fəaliyyəti Azərbaycanın sosial-iqtisadi həyatında, onun problemlərinin həllində əvəzsiz rol oynayacaqdır. Belə ki: 1. yük daşımalarından çox böyük iqtisadi səmərə əldə olunacaq; 2. Azərbaycanın dəniz və dəmiryol nəqliyyatı, boru nəqliyyatı üçün uzun dövr ərzində, etibarlı bazar yaranacaq, fasiləsiz iş rejimi təmin olunacaqdır ki, bu da bazar iqtisadiyyatı şəraitində çox əhəmiyyətlidir; 3. respublikamızda daşınmalarla bağlı infrastruktur sahələri yenidən qurulacaq və yeniləri yaradılacaq. Eyni zamanda sosial infrastruktur sahələri inkişaf edəcək; 4. iş qabiliyyətli işsiz əhali üçün yeni iş yerləri açılacaq, əhalinin pul gəlirləri artacaq; 5. Azərbaycan Rusiyanın iqtisadi blokadası təhlükəsindən xilas olacaq, onun müstəqil fəaliyyəti üçün şərait yaranacaq; 6. Bakı bu magistral xəttin mərkəzində yerləşdiyinə görə onun inkişafında güclü stimul və maddi imkanlar yaranacaqdır.

Azərbaycanlılar türk xalqlarının içərisində ən istedadlısıdır. Sovet imperiyasının dağılmasında da digər türk xalqlarından böyük rol oynamışdır. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə təpədən dırnağa qədər ən müasir silahlara silahlanmış imperiya ordusuna qarşı əhalinin əliyalın çıxması millətin ən böyük qəhrəmanlıq nümunəsidir. Sovet imperiyası dağıldıqdan sonra Azərbaycan yenə də yeni yaranmış türk

dövlətlərinin qabağında gedir və «Transqafqaz» dəhlizinin fəaliyyətə başlaması Orta Asiya respublikalarına böyük bir kömək olardı. Bu sahədə Azərbaycan adı çəkilən dövlətlərdən daha böyük iş görür və buna nail olmaq üçün bütün çətinliklərə baxmayaraq daim, dönmədən addım-addım irəliləyir. Belə ki, 2006-cı ildə «Bakı-Tiflis-Ceyhan» neft boru kəmərinin işə düşməsi «Transqafqaz» dəhlizinin işə düşməsinin, qədim «İpək yolunun» bərpa olunmasının başlanğıcıdır və bu proses davam edir.

2007-ci ildə Azərbaycanın geopolitik, energetik və kommunikasiya əhəmiyyətinin artması müşahidə olundu. Xüsusilə də ölkəmizin bu il Rusiya yönəlik siyasəti diqqət çəkəndir. Bu strateji baxımdan böyük əhəmiyyət kəsb edən «Bakı-Tiflis-Ceyhan» neft və «Bakı-Tiflis-Ərzurum» qaz kəmərlərinin tikilişinin yekunlaşması nəticəsində Xəzərin enerji resurslarına nəzarət uğrunda mübarizə yeni fazaya qədəm qoydu.

«Bakı-Tiflis-Qars» dəmiryol xəttinin tikilişinə start verilməsi isə, yenidən «Transqafqaz qaz kəməri»lə bağlı müzakirələrin aktuallaşmasına səbəb oldu. Bununla da müxtəlif alternativ layihələrin (NABUCSO, Bakı-Odessa-Brodi» və s.) reallaşması üçün imkanlar açılmış oldu. Qərbin regiondakı geopolitik, energetik və nəqliyyat-kommunikasiya oyunu, Rusiyanın maraqlarının təcrid olunması və Azərbaycana verilən «alternativ rol» 2010-cui ildə yeni, daha fəal, qlobal mərhələyə daxil oldu. Yuxarıda adları çəkilən layihələrin hamısının reallaşması heç şübhəsiz Azərbaycan üçün yaxşı imkanlar yaradır: onların bizim ölkə və Xəzər regionu üçün siyasi əhəmiyyətini qiymətləndirmək çətindir. Faktiki olaraq Azərbaycan çoxillik qərbyönlü strategiyası artıq real nəticələr verməyə və müəyyən siyasi immunitet qazanmağa başladı. İqtisadi baxımdan isə, bütün bu

enerji layihələrinin reallaşması külli miqdarda neft dollarının və xarici investisiyanın axınına start verir. Bu da ölkənin iqtisadi inkişafını sürətləndirmək üçün əlverişli zəmin yaradır.

## § 4. İnfrastrukturların sosial-iqtisadi inkişafda rolu və təsiri

Bütün istehsal, sosial, bazar sahələri problemlərinin həllinin vaxtında təmin edilməsi infrastrukturların normal fəaliyyəti ilə bağlıdır. Buna görə də infrastrukturların normal fəaliyyəti və yerlərində olması bütövlükdə ölkənin sosial-iqtisadi həyatında çox mühüm rol oynayır. Hər hansı bir infrastrukturun çatışmamazlığı və ya orada hər hansı bir infrastrukturun olmaması müvaifq sahəyə, onun normal fəaliyyətinə və artımına, tərəqqisinə dərhal mənfi təsir göstərir.

Müasir zəmanəmizdə, hansı sahəyə aid olursa-olsun, infrastrukturlarsız ümumi tərəqqidən, normal həyat fəaliyyətindən söhbət gedə bilməz, xüsusilə kütləvi seriyalı nemətlər yaradılması qeyri-mümkündür. Bu halda isə bütün ölkənin sosial-iqtisadi fəaliyyəti pozular və çox şey baş tuta bilməz.

Sənaye istehsalına hansı infrastrukturlar xidmət edir. Ona birinci növbədə yük nəqliyyatı normal xidmət göstərməlidir. Ayrı-ayrı sənaye mikroözəklərinə lazım olan (zəruri olan) istehsal vasitələrinin (əmək vasitələrinin, əmək predmetlərinin) istehsal istehlakına çatdırılması məhz yük nəqliyyatı vasitəsilə mümkün olur. Fərqi yoxdur, istər dəmiryol, istər su və istər hava yük nəqliyyatı olmadan həmin işi görmək mümkündürmü? Əlbəttə bu qəti surətdə baş tuta bilməz. İstehsal istehlakı və şəxsi istehlak prosesi pozular və insanların həyat fəaliyyəti təhlükə qarşısında qalar. Müəyyən bir məhsulun

hazırlanması və istehsalını təmin etmək üçün ölkənin, yaxud dünyanın müxətlif bölgələrindən müxətlif istehsal vasitələri daşınır. Elə məhsullar var ki, o dünyanın yalnız müəyyən yerlərində istehsal olunur, amma başqa ərazilərdə də istifadəsi zəruridir. Belə hallarda yük nəqliyyatı köməyə gəlir. Burada sənayedən bəhs olunsa da, bütün istehsal sahələrində vəziyyət belədir.

İstehsalın, istər sənaye, istər kənd təsərrüfatı, istər tikinti və istərsə qeyri-istehsal sahələri olsun, onların müasir dövrdə fəaliyyəti üçün energetika təsərrüfatı kimi infrastrukturun normal fəaliyyətinin nə demək olduğunu dəyərləndirmək çətin deyil. Bir anlığa hesab edək ki, energetika mənbələri öz işini dayandırıb və elektrik stansiyaları, elektrik ötürücüləri, elektrik transformatorları fəaliyyət göstərmirlər. Belə halda nə baş verdiyini anlamaq çətin deyil. Bütün texnoloji proses dayanar. Modernizasiyasız, innovasiyasız müasir şəraitdə yaşayış mümkün deyil. Müasir dövrdə iqtisadiyyatın inkişafının, sosial tərəqqinin, ictimai əmək məhsuldarlığının, bütün sivilizasiyalı həyatın başlıca əsasını elektrik enerjisi təşkil edir. O, bütün avtomatik təsirlərin və proseslərin mənbəyidir. O, eyni zamanda insanların normal yaşayışında əvəzolunmaz rol oynayır.

Bir qədər nisbətən kiçik, ikinci dərəcəli (şəksiz, onlarsız da normal fəaliyyətdən danışmaq olmaz) infrastruktur özəklərin təsirinə diqqət yetirilsə, onların da özlərinin məxsusi rollarının nə dərəcədə olduğu aydın olar. Məsələn, anbar, saxlama təsərrüfatı, soyuducular, tara təsərrüfatı və s. və i.a.

Aqrar sahədə də infrastrukturların öz xüsusi rolları vardır. Burada infrastrukturlar – yeni təbii resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsində, onların səmərəli istifadə olunmasında, istehsalın səmərəli yerləşdirilməsində xüsusi rolları vardır. Kənd

təsərrüfatında maşınların təmir texniki vasitələri, suvarma sistemləri fəaliyyət göstərmədən burada təsərrüfatçılığın səmərəsindən danışmaq mümkün deyil. Yaxud səhmana salınmış yolların olmaması ilə kənd təsərrüfatı istehsalını necə təsəvvür etmək olar?

Rayonlarda, kəndlərdə şosse yolların lazımi dərəcədə qurulmaması avtomobil təsərrüfatına, məhsulların itkisinə az səbəb olmur. Yaxşı yollar pislərinə nisbətən avtomobillərin sürətini 2-3 dəfə artırmağa imkan verir, yanacağı 2 dəfəyə qədər az işlətməyə səbəb olur, yükdaşımaların vəziyyətini yaxşılaşdırır. Kənd təsərrüfatından istehsal olunan bir çox məhsullar yolların xarab olması, normal saxlanılmaması, normal şəraitin olmaması ucbatından itib batır, xarab olur.

Fermerlər, ümumiyyətlə kənd təsərrüfatı istehsalı ilə məşğul olan digər qurumlar zərərvericilərlə mübarizə vasitələri olmadan, üzvi və kimyəvi kübrələrdən istifadə etmədən məhsuldarlığı heç cür yüksəltməyə nail ola bilməzlər.

Kommunikasiya sisteminin tam formalaşdığı və daim normal fəaliyyət göstərdiyi şərait tam effektli istehsal, əhalinin sivlizasiyalı yaşayışı üçün yenilməz amildir. Bu infrastruktur sahəsi, xüsusilə müasir dövrün rəmzi kimi daim üstün inkişaf etdirilməlidir.

Gətirilən bu az saylı misallar tam inam yaratmağa əsas verir ki, həqiqətən infrastrukturlarsız müasir kənd təsərrüfatının məhsuldarlığından, onun səmərəli fəaliyyətindən söhbət gedə bilməz, ölkənin zəruri ərzaq və kənd təsərrüfatı xammalı fondunu yaratmaq, doldurmaq qeyri-mümkün olar. O, rayonlardakı, ərazilərdəki infrastrukturlar kifayət qədər deyil, qüsurludur, lazım olandan azdır, kənd təsərrüfatına hər il çoxlu ziyan dəyir.

Bütün infrastruktur sahələrə kapital qoyuluşunun (investisiya qoyuluşunun) pulun kifayət qədər artırılması çox xeyir gətirir və fayda verir.

İstehsal infrastrukturları adlanmasalar da təhsil, səhiyyə, elm də burada özünəməxsus spesifik çəkiyə malikdirlər. Təhsil sistemi istehsalın bütün sahələrini və qeyri-istehsal sahələrinin, həm də özünü yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edir.

Müasir maddi nemətlər istehsalının geniş təkrar istehsalında, əmək məhsuldarlığının daim yüksəlməsində, iqtisadiyyatın intensiv artımında infrastruktur kimi təhsilin rolu daim artır.

Təhsil cəmiyyət üzvlərinə bilik verir, mütəxəssis hazırlığının ilkin zəmini burada təşəkkül tapır. İqtisadiyyatın artımı və daim inkişafı hazırlanmış mütəxəssislərin təkrar istehsalından çox asılıdır, xüsusilə müasir sivilizasiya şəraitində istehsalda məşğul olan fərdlərin intellektual səviyyəsi istehsalın səmərəliliyi ilə ayrılmazlıq təşkil edir. Deməli, təhsil, ali təhsil ocaqları bilavasitə makro, mezo və mikro özəklər üçün peşəkar mütəxəssislər yetişdirməklə bütövlükdə xalq təsərrüfatının intensiv inkişafına şərait yaratmış olurlar, onlar bilavasitə insan amili kimi fəaliyyət göstərirlər. Bunsuz maddi nemətlərin istehsalı və mübadiləsi, iqtisadiyyatın normal idarə edilməsi kimi proses baş tuta bilməz.

İqtisadiyyatın intensiv artmasına, geniş təkrar istehsalın həyata keçməsində elmin, elmi tərəqqinin rolu da xüsusi ilə danılmazdır. Elmi və texniki nailiyyətlər tətbiq edildikdə yalnız istehsal normal intensiv şəkildə, qanunauyğun bir proses kimi davam edə bilər. Müasir sivilizasiyalı iqtisadiyyatı elmi-texniki tərəqqisiz təsəvvür etmək olmaz. Buna görə də dünyanın sivilizasiyalı ölkələri elmi, onun inkişafını ön cərgəyə çəkməyə daim cəhd

göstərirlər və müsbət nəticəsi də göz qabağında olur. Bunu bir fakt sübut edir ki, dünya bazarında elmtutumlu məhsulların satışının həcmi iki trillion dollara çatmışdır.[1]

Bu statistik fakt elmin müasir dövrdə istehsal infrastrukturu kimi onun xüsusi təsir və xidmət gücünə malik olmasının konkret göstəricisidir.

Maddi nemətlər istehsalının infrastrukturları içərisində belə güclü təsirinə görə hələ vaxtı ilə klassiklər elmi-texniki amilin rolunu xüsusi qiymətləndirmiş və onu əbədi zəkanın birinci təkamülü olduğu qənaətinə gəlmişlər.

Müasir inkişaf etmiş ayrı-ayrı ölkələrin iqtisadiyyatında baş vermiş vüsətli yüksəliş ilk növbədə elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi nəticəsi ilə bağlıdır. Məsələn, Yaponiya, Cənubi Koreya, Honkonq və bir sıra Qərbi Avropa ölkələrində bu özünü bariz şəkildə göstərir.

İnfrastrukturların, insanların maddi və mədəni həyat səviyyəsi üçün də xüsusi təsiri, faydası vardır. Bu, öz ifadəsini əhali gəlirlərinin artmasında, məşğuliyyət yerlərinin açılıb çoxaldılmasında, insanların tələbatının ödənilməsi sahəsində təsir göstərən müxtəlif xidmətlərin təşkil olunmasında, məsələn, təhsil, səhiyyə, kommunal-mənzil xidmətləri, kommunikasiya xidməti, poçt-teleqraf, telefon, mədəniyyət, incəsənət sahələrinin fəaliyyətində tapır.

Hər bir cəmiyyət üzvünün maddi yaşayışı onun şəxsi gəlirlərindən, onların həcmindən asılıdır. Gəlirlərin əsas zəmini adamların işləməsi, yeni iş yerlərinin açılması, bəzi kateqoriya işçilərin əlavə gəlir mənbələrinə malik olması, yardım və mükafatların miqdarı və ilaxirlə bağlıdır. Bunların da hamısında infrastrukların öz çəkisi

---

[1] **Bax:** «Экономика и жизнь» **qəzeti, № 10, mart 2000-ci il.**

vardır. Başqa sözlə, infrastruktur özəklərində insanların gəlirlərinin artmasında öz yeri vardır.

Məlumdur ki, gəlirlər artdıqca insanların alıcılıq qabiliyyəti yüksəlir. Bu yüksəlişin xeyli hissəsi ticarət və digər məişət xidmətləri vasitəsilə reallaşır. Bunlarsız isə müasir bazar iqtisadiyyatından, maddi istehlak tələbinin reallaşmasından söhbət gedə bilməz.

İnsanların fəaliyyətində onların sağlamlığının əvəzsiz rolu vardır. İnsanların sağlamlığının keşiyində isə səhiyyə xidmətləri, onun bütün özəklərinin rolu xüsusi əhəmiyyət kəsb edir.

Müasir bazar münasibətlərinin normal fəaliyyəti üçün əmtəə, fond, əmək birjası növlərinin, kredit sistemi müəssisələrinin mədəni xidməti zəruridir.

İnsanların müavifq tələbatlarının yerinə yetirilməsində infrastruktur sahəsi kimi poçt-teleqraf, telefon xidmətləri məxsusi yer tutur. Buna görə bu xidmət növləri də genişləndikcə insanların ünsiyyət əlaqələri, fəallığı, məlumatları artır.

Bütün təhsil və mədəni sahə xidmətləri isə insanların mənəvi zənginliyinə, biliklərinin artmasına təsir göstərir və səbəb olur. Bunlar adamların mədəni səviyyəsinin daim yüksəlməsini təmin edən infrastruktur sahələridir.

İnfrastrukturların normal fəaliyyəti bir tərəfdən məhsuldar qüvvələrin artmasına, digər tərəfdən məcmu ictimai məhsulun çoxalmasına, təkrar istehsalın genişlənməsinə təkan verən yenilməz amildir.

Göründüyü kimi, bütün bu deyilənlər maddi istehsal infrastrukturlarına aiddir.

Sosial və bazar infrastrukturlarının inkişafı öz növbəsində ümumi tərəqqiyə güclü təkan verir. Müasir bazar infrastrukturları yaradılmadan sivilizasiyalı bazar iqtisadiyyatı mümkün deyil.

Sosial infrastrukturlar isə bilavasitə əhalinin tələbatında ölçülməz rol oynayır. Məişət-kommunal təsərrüfatların normal fəaliyyəti təmin edilmədən hansı normal yaşayış tərzindən söhbət gedə bilər?

Məişət-kommunal təsərrüfat xidmətləri insanların rifahı üçün obyektiv zərurətdən irəli gəlir. Qədimlərdə, yaxud indi bir çox Afrika və digər qitə ölkələrində yaşayan bəzi xalqlarda məişət-kommunal xidmətin çox aşağı olması və ya yox dərəcəsində olması müasir zamanda onların yaşayış tərzlərinin dözülməzliyini nümayiş etdirir.

Beləliklə, əhalinin sivilizasiyalı yaşayış tərzi məhz müxtəlif infrastruktur özəklərlə üzvi şəkildə bağlıdır. O ölkədə ki, yaşayış məntəqələrində normal mənzil-məişət-kommunal şəraiti yoxdur və ya yox dərəcəsindədir, oralarda normal həyat tərzindən söhbət gedə bilməz.

Sivilizasiyalı bazar infrastrukturlarının optimal vəziyyətdə olmaması da əhalinin normal yaşayışına və fəaliyyətinə ciddi mənfi təsir göstərir.

Sərnişin nəqliyyatının bütün növləri əhalinin sosial tələbatına necə xidmət etdiyinə nəzər yetirsək, onun insanların normal yaşayış üçün nə qədər zəruri olduğu aydın olar. Əhaliyə xidmət göstərən rabitə vasitələri, elektrik şəbəkələri və bir çox başqa infrastrukturların da (təhsil, elm, səhiyyə və bunların əhatə etdikləri özəklər, qurumlar) eyni qəbildən bəşər cəmiyyətinin tərəqqisi üçün əhəmiyyəti və rolu misilsizdir.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. İnfrastrukturların tarixi təkamül inkişafını danışın.

2. İnfrastrukturun bir iqtisadi anlayış kimi tərifini deyin.

3. Bazar iqtisadi sistemi şəraitində infrastrukturların geniş miqyasda inkişafının səbəblərini şərh edin.

4. İnfrastruktur qurumlarının mahiyyətini açın və onun istehsal vasitələri üzərində mülkiyyət münasibətləri ilə əlaqəsini söyləyin.

5. İstehsal infrastrukturlarına nələr daxildir?

6. Sosial, kommunal-məişət infrastrukturların adlarını söyləyin və mahiyyətini açın.

7. Bazar (biznes) infrastrukturuna nələr daxildir?

8. Sovet hakimiyyəti illərində Azərbaycanda sosial infrastrukturun vəziyyəti ilə Azərbaycan müstəqillik qazandıqdan sonrakı vəziyyəti müqayisə edin və bu sahədə indiki uğurların səbəblərini göstərin.

9. «Tranqafqaz» nəqliyyat dəhlizinin işə düşməsinin Azərbaycanın iqtisadiyyatında və siyasətində mühüm rol oynmasını əsaslandırın.

10. Rusiya Federasiyası nə üçün «Transqafqaz» nəqliyyat dəhlizinin işə düşməsinə və qədim «İpək yolunun» bərpasına mane olmağa çalışır?

11. Azərbaycanın 2006-2010-cu illərdə «Transqafqaz» magistralının və «İpək yolunun» bərpası prosesində irəliyə doğru atdıqları addımları təhlil edin.

12. İnfrastrukturların sosial-iqtisadi inkişafda rolunu və təsirini şərh edin.

## Müzakirə üçün suallar və tapşırıqlar

1. İnfrastrukturların tələbatın artması ümumi iqtisadi qanunun fəaliyyəti ilə qarşılıqlı əlaqəsini və onların arasında vəhdətliyi sübut edin.

2. İnfrastrukturlar qurumlarının fəaliyyətinin obyektiv zəruriliyini danışın.

3. İnfrastrukturların fazalar üzrə bölgüsünü aparın və hansı fazada nisbətən daha böyük rol oynadığını şərh edin (istehsal, bölgü, mübadilə və istehlak).

4. İnfrastrukturların tərifini verin.

5. Maddi istehsal sahələrinə xidmət edən infrastrukturların hər bir bölməsini ayrılıqda şərh edin və onların iqtisadiyyatın inkişafında rolunu göstərin.

6. İnfrastrukturlar sistemində bazar infrastrukturlarının yerini müəyyən edin və keçid dövründə onların yenidən qurulmasının zəruriliyini sübut edin.

7. Müstəmləkəçi dövlətlər öz müstəmləkələrində sosial infrastruktura nisbətən istehsal infrastrukturlarının inkişafına böyük əhəmiyyət verirlər. Bunun səbəblərini Azərbaycanın timsalında danışın.

8. «Transqafqaz» nəqliyyat dəhlizinin yaranması ideyası nə vaxt meydana çıxdı və indiyə kimi onun irəli sürülməməsinin səbəbləri nə idi?

9. «Transqafqaz» magistralı və «İpək yolunun» bərpasında Azərbaycanın Orta Asiya respublikalarından daha böyük işlər görməsinin səbəblərini danışın.

# 13-jü MÖVZU: AZƏRBAYJANIN MİKROİQTİSADİYYATI

## § 1. Azərbayjanın mikroiqtisadiyyatının vəziyyəti, onun yenidən qurulmasının zəruriliyi və inkişaf istiqamətləri

Mikroiqtisadiyyat anlayışı yunan dilində işlədilən «miksos» sözündən əmələ gəlmişdir. «Miksos» sözünün Azərbaycan dilində mənası kiçik deməkdir. İqtisadiyyat sözünün qarşısına kiçik sözünü qoyduqda mikroiqtisadiyyat anlayışı alınır. Mikroiqtisadiyyat firmalar (müəssisələr), birliklər, şirkətlər səviyyəsində olan iqtisadiyyatdır. Deməli, mikroiqtisadiyyatın əsas daşıyıcısı firmalardır (müəssisələrdir). Makroiqtisadiyyat isə cəmiyyət səviyyəsində olan iqtisadiyyatdır. Bu anlayış da «makos» adlı yunan sözündən yaranmışdır. Azərbaycan dilində o böyük, iri mənasını verir.

Makro və mikroiqtisadiyyatı bir-birindən ayırmaq, onlar arasında sədd çəkmək mümkün deyil, onlar bir-birini şərtləndirir və biri digərinin inkişafını təmin edir. Lakin onların hər birinin özünəməxsus funksiyaları və əhatə dairəsi vardır. Bunların hər birisi öz vəzifələrini vaxtında və uğurla yerinə yetirdikdə dövlətin sağlam milli iqtisadiyyatı formalaşar və inkişaf edər.

Firmalar (müəssisələr) hansı iqtisadi sistemdə fəaliyyət göstərməsindən asılı olaraq makroiqtisadiyyatın inkişafına müxtəlif dərəcədə təsir göstərirlər. Bu baxımdan bazar iqtisadi sistemi ilə inzibati-amirlik iqtisadi sistemlərində firmaların (müəssisələrin) fəaliyyətinin mikroiqtisadiyyatın inkişafında necə rol oynaması aydın olar.

Bazar iqtisadi sistemində firmalarda (müəssisələrdə) istehsal vasitələri üzərində xüsusi

mülkiyyət olduğundan istehsalın nəticəsini firmaların sahibləri mənimsəyir və sahibkarların istehsalı təşkil etməkdə məqsədi yüksək mənfəət əldə etməkdir. Buna nail olmağın ən yaxşı yolu əmək məhsuldarlığını yüksəltməkdir. Buna görə də sahibkarlar əmək məhsuldarlığını yüksəltmək məqsədilə elmin və texnikanın nailiyyətlərini istehsala tətbiq etməyə var gücləri ilə çalışırlar. Bundan başqa bazar iqtisadi sistemində rəqabət qanunu fəaliyyət göstərdiyindən ən yeni texnika və texnologiyanı istehsala tətbiq etməkdə ləngiyənləri müflisləşmə gözləyir. Bu təhülkədən xilas olmaq naminə sahibkarlar istehsalın səmərəliliyinin yüksəlməsinə nail olmaq üçün heç nəyi əsirgəmirlər.

Bazar iqtisadi sistemi şəraitində firmalar (müəssisələr) sağlam milli iqtisadiyyatın formalaşması və inkişafında, dövlətin iqtisadi qüdrətinin yüksəlməsində əsas özəkdir. Ona görə ki, bu sistemdə yaşayan dövlətlərin dövlət büdcəsinin 80 faizindən çoxu sahibkarların mənfəətləri və işçilərin gəlirlərindən tutulan vergilərin hesabına formalaşır. Dövlətin qüdrətli olması isə dövlət büdcəsində olan maliyyə vəsaitinin həcmindən asılıdır. Deməli, sahibkarların mənfəətləri və işçilərin gəlirləri nə qədər çox olarsa dövlətin iqtisadi qüdrətinin göstəricisi olan dövlət büdcəsinin həcmi də artar. Belə bir şəraitdə dövlət firmaların (müəssisələrin) və xüsusi sahibkarlığın inkişafında maraqlı olurlar. Məhz buna görə də normal inkişaf etmiş ölkələrdə dövlət xüsusi sahibkarlığın inkişafına hərtərəfli yardım göstərir.

Bazar iqtisadi sistemi dövlətlərində ailə cəmiyyətin ilk özəyini təşkil etdiyi kimi müəssisələr də ölkənin milli iqtisadiyyatının inkişafının mərkəzində durur. Çünki ailədə iş qüvvəsinin təkrar istehsalı və insanın sağlam və ya qeyri-sağlam mənəviyyatının formalaşmasının əsası ailədə qoyulduğu kimi müəssisələrdə də maddi

nemətlərin, iş qüvvəsinin və iqtisadi münasibətlərin təkrar istehsalı bu məkanda baş verir. Cəmiyyətdə sağlam əsaslara dayanmış ailələrin sayı nə qədər çox olmasından asılı olduğuna görə dövlət sağlam mənəviyyatlı ailələrin üstünlük təşkil etməsində maraqlıdır. Çünki bu sağlam milli iqtisadiyyatına əsas təsir göstərən amildir. Sağlam mənəviyyatlı insan ağıllı, elmli, yüksək ixtisaslı, zəhmətkeş, halal, vicdanlı vətəndaş deməkdir. Eyni sözləri müəssisələr haqqında da demək olar. Ona görə ki, makroiqtisadiyyat müəssisələrin məcmusundan formalaşdığından müəssisələrin rentabelli və səmərəli işləməsi makroiqtisadiyyatın yüksək səviyyədə inkişaf etməsinin təməlidir. Belə bir uğur isə hər bir dövlətin sahibkarlarının sağlam mənəviyyatından, istedad və qabiliyyətindən çox asılıdır. Adətən bazar iqtisadi sistemi hər bir insanın, o cümlədən sahibkarlıq istedadı olanların potensial imkanlarının üzə çıxmasına və onun reallaşmasına əlverişli şərait yaradır.

Təəssüf ki, marksist-leninçi iqtisadi təlimində xüsusi sahibkarlar kapitalist adlandırılaraq, onlara istismarçı, tüfeylilik damğası vurulur və kapitalistlərin proletariatın düşməni olması iddia edirlir. Bu müddəa həqiqətdən çox uzaqdır. Çünki sahibkarın istehsalı təşkil etməkdə məqsədi yüksək mənfəət əldə etmək olsa da o dərk edir ki, işçiyə işləmək üçün normal şərait yaratmadan, onun maddi və mənəvi tələbatını ödəmədən, ona qayğı göstərmədən, istehsalın səmərəliliyinə nail olmadan yüksək mənfəət götürmək mümkün deyil. Beləliklə, dövlətin istək və arzusundan asılı olmayaraq dövlətin iqtisadi qüdrətinin yüksəlməsini təmin etmək naminə sahibkarlığın inkişafına, sahibkarlar isə yüksək mənfəət əldə etmək və rəqabətdən qorumaq qorxusu onları işçilərin gəlirlərinin artırılmasına çalışmağa sövq edir.

Klassik bazar iqtisadiyyatı ölkələrində dövlət, sahibkar və işçi arasında müəyyən ziddiyyətlərin olmasına, onların mənafelərinin bəzi hallarda toqquşmasına baxmayaraq üç mənafe (dövlətin, sahibkarın və işçinin) nəticə etibarilə bir nöqtədə birləşirlər. Bu mənafelər sistemində milli mənafe (dövlət) birinci yerə qoyulmalıdır. Çünki dövlət qüdrəti və müstəqil olmadan millət xoşbəxt ola bilməz, millət xoşbəxt olmadan isə ayrı-ayrı fərdlərin xoşbəxtliyi ağılasığmazdır. Ona görə də dövlət xüsusi sahibkarlığın inkişafının, sahibkarlar isə işçilərə hörmət və qayğı göstərməyin zəruriliyini dərk etdiyi kimi işçilər də real həyatda görürlər ki, işlədiyi firmanın gəlirlə işləməsi onların əmək haqqının yüksəldilməsinə və sosial vəziyyətinin yaxşılaşmasına, dövlətin iqtisadi cəhətdən inkişaf etməsi isə vətəndaşların sosial təminatına və sosial müdafiəsinə böyük imkan yaradır. Deməli, bu ölkələrdə hər üç subyekt arasında mövcud olan qeyri-antoqonist ziddiyyətlər demokratik prinsiplər əsasında, dialoq yolu ilə aradan qaldırılır. Ümumi milli birlik yaradılır və millətin bütün gücü bir istiqamətə – sağlam milli iqtisadiyyatın inkişafı və çiçəklənməsinə yönəldilir.

İnzibati-amirlik sistemində bazar iqtisadi sistemindən fərqli olaraq istehsalçıların nə istehsalın nəticəsinə, nə də məhsulların reallaşmasında maddi marağı və məsuliyyəti olmur. Belə ki, sosializmin sovet modelinin yaradıcısı keçmiş SSRİ-də istehsal vasitələrinin 98,5 faizi dövlətin inhisarında olduğundan əmtəə-pul münasibətləri formal xarakter daşımış və buna görə də bazar mexanizmi fəaliyyət göstərməmişdir. Müəssisələrə bütün iqtisadi göstəricilər sərt qaydada mərkəzdən verilmişdir. Müəssisənin rəhbərinin bundan kənara çıxmağa hüquqi olmamışdır, onun diqqəti nəyin hesabına olursa-olsun planı yerinə yetirməyə yönəldilmişdir.

Müəssisənin rəhbəri onun sahibi olmadığına görə istehsalın nəticəsini də bütövlükdə dövlət mənimsəmişdir. Hətta müəssisədə işçilərin sayı, əmək haqqının miqdarı dövlət tərəfindən mərkəzdən verilmişdir. Verilən göstərişdən kənara çıxmaq cinayət sayılmışdır. İşçilərə əmək haqqının miqdarı çox aşağı olmuşdur, o yalnız fəhlənin ən zəruri tələbatını güclə ödəyə bilmişdir. Beləliklə, həm müəssisəni idarə edən dövlət rəhbərinin, həm də müəssisələrdə işləyən işçilərin istehsalın səmərəli işləməsində maddi marağı söndürülmüşdür. Dövlət əsas və aparıcı inhisarçı olduğundan rəqabət qanunu fəaliyyət göstərməmişdir. Buna görə də nə müəssisənin rəhbərinin, nə də adi işçilərin pis işlədiyinə görə işdən çıxarılmaq qorxusu olmamışdır. Buna görə də insanlarda tənbəllik, laqeydlik, məhsuliyyətsizlik, yalan danışmaq, saxta məlumatlar vermək, yaltaqlıq, rüşvətxorluq və başqa sağlam mənəviyyata sığmayan mənfi keyfiyyətlər formalaşmışdır. Məhz bunlara görə də sosializmin sovet sistemində müəssisələr milli iqtisadiyyatın inkişafında bazar iqtisadi sistemində olduğu kimi böyük rol oynaya bilməmişdir. Bütün iqtisadi hadisə və proseslərin əsasən hamısı dövlətin əlində cəmləşdiyindən iqtisadiyyatın inkişafı dövlətin necə fəaliyyət göstərməsindən asılı olmuşdur.

Sovet dövləti yalnız mütləq və hakim inhisarçı dövlət yox, eyni zamanda millitarist dövlət olmuşdur. O ölkədə yaradılmış milli gəlirin çoxu hərbi sənayenin inkişafına və ordu quruculuğuna sərf etmişdir. Bu dövlətin məqsədi hərbi güc və sosializmin üstünlüklərini təbliğ etməklə dünyada sosializmin sovet modelinin təntənəsini bərqərar etmək olmuşdur. Həmin illərdə iri bazar iqtisadi sistemi ölkələrinin sovet təhlükəsinə qarşı birləşmələri təsadüfi deyildi. Təbiidir ki, bu cür ağılsız xarici siyasət, ölkənin hərbiləşdirilməsi müəssisələrin ziyanla işləməsinə və

əhalinin həyat səviyyəsinə mənfi təsir göstərməyə bilməzdi. Məhz sovet sistemi də ona görə süqut etdi.

Uzun illər sosializmin sovet modeli şəraitində yaşamış və onun şinelindən çıxmış Azərbaycan sovet sistemindən miras qalmış fəsadları qısa müddətdə aradan qaldıra bilməz. Bu təbiidir. Bunun üçün uzun illər fədakarcasına, əzmlə və düşünülmüş şəkildə çalışmaq lazımdır. Sovet sistemi zamanı bazar iqtisadi sisteminin əsaslarının dağıdılması ilə əlaqədar olaraq müəssisələrin əvvəlki nəsillə əlaqəsi qırılmış, ilkin kapital yığımı məhv edilmiş, sahibkarlıq istedadı olanlar müxtəlif və amansız yollarla aradan götürülmüş, insanların sağlam mənəviyyatı deformasiyaya uğradılmışdır. Sovet sistemi dövründə yaradılmış müəssisələrin əksəriyyəti iflic vəziyyətinə düşmüş, iri sənaye müəssisələri isə hələ də dövlətin inhisarındadır. Deməli, sovet dövründən qalan müəssisələrin yenidən qurulması zəruridir. Ona görə ki, onlar bazar iqtisadi sisteminin tələblərinə cavab vermir və onlar Azərbaycanın milli mənafeyinə deyil, sovet imperiyasının mənafeyinə uyğun yaradılmışdır. Yeni müəssisələrin yaradılması da obyektiv zərurətdir. Bunu həm dialektikanın qanunu, yəni hər şey inkişafdadır, həm də bazar iqtisadi sisteminin formalaşması və inkişaf etdirilməsi tələb edir.

Deməli, Azərbaycanda müəssisələrin vəziyyətinin çətin və ağır olması təbiidir və keçid iqtisadiyyatlı dövlətlər, o cümlədən Azərbaycan üçün ümumi iqtisadi qanunauyğunluqdur.

Müəssisə müstəqil təsərrüfat subyekti olub, fəaliyyətdə olan qanunlara uyğun ictimai tələbatı ödəmək məqsədilə maddi nemətlər istehsal edən və yaxud xidmət göstərən və mənfəət əldə edən təsərrüfat vahiddir. Müəssisə dövlət qeydiyyatından keçdikdən sonra hüquqi şəxs statusu alır. Onlar bu mərhələdən keçdikdən sonra

mülkiyyətçi, öz əmlakını operativ idarəetmə hüququna malik olurlar, eyni zamanda öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə məsuliyyət daşıyır və məhkəmə qarşısında cavab verməlidirlər. Müəssisə müstəqil fəaliyyət göstərən subyekt kimi müstəqil balansı və yaxud smetası olur, orada onun fəaliyyətinin formaları, adları və məzmunu göstərilir.

Müasir dövrdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi müəssisələrin fəaliyyəti və onların iqtisadi təhlükəsizliyinin təmin olunması Azərbaycan dövlətinin qanunları ilə tənzimlənir. Bu qanunlardan biri «Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanunudur. Burada müəssisə anlayışının tərifi aşağıdakı kimi verilir. «Müəssisə-mülkiyyət formasından asılı olmayaraq bu qanuna müvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir».[1]

Azərbaycanda müəssisələrin mahiyyəti və məqsədi eyni olsa da müxtəlif formaları mövcuddur və onlar təşkil olunma qaydalarına və təşkilati-hüquqi nöqteyi-nəzərindən bir-birindən fərqlənirlər. Belə ki, «Azərbaycan Respublikasında mülkiyyət haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət, kollektiv, xüsusi və qarışıq mülkiyyət formalarına əsaslanan müəssisə növləri fəaliyyət göstərə bilərlər.

Azərbaycanda müəssisələrin aşağıdakı təşkilati-hüquqi formaları fəaliyyət göstərirlər. Məsələn, dövlət müəssisəsi, fərdi (ailə), şərikli (tam ortaqlı), payçı və şərikli, məhdud məsuliyyətli müəssisələr və səhmdar cəmiyyəti.

---

[1] **«Azərbaycan» qəzeti, 24 noyabr 1994-cü il.**

Dövlət müəssisəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət əmlakını idarə etməyə vəkil edilən dövlət orqanları tərəfindən yaradılır: fərdi (ailə) müəssisə vətəndaşın mülkiyyətində və ya onun ailə üzvlərinin, əgər onlar arasında sazişdə başqa pul nəzərdə tutulmayıbsa, ümumi pay mülkiyyətində olan müəssisədir; şərikli (tam ortaqlı) müəssisə azı iki fiziki və (və ya) hüquqi şəxs tərəfindən müqavilə əsasında təsis edilir; payçı və şərikli müəssisə azı bir şərik və bir payçı tərəfindən təsis edilir, şərik və payçı həm fiziki şəxs, həm də hüquqi şəxs ola bilər; məhdud məsuliyyətli müəssisə bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxs tərəfindən yaradılan, nizamnamə fondu təsis müqaviləsi ilə müəyyən edilən həcmdə paylara bölünən müəssisələrdir; səhmdar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və (və ya) hüquqi şəxslərin könüllü saziş əsasında yaradılan müəssisədir.

Müəssisənin daxili vəsaitləri orada işləyən insanlar, istehsal vasitələri, informasiya və puldur. Müəssisənin daxili vasitələrinin qarşılıqlı təsiri nəticəsində hazır məhsul əldə edilir.

Müəssisənin xarici mühiti işin səmərəliliyinə bilavasitə təsir göstərir. Burada hər şeydən əvvəl məhsulun istehlakçıları, müəssisəni istehsalın komponentləri ilə təchiz edənlər, həmçinin dövlət orqanları və müəssisənin ətrafında yaşayan əhali daxildir.

Fəaliyyətdə olan müəssisələrin ən mühüm vəzifələri aşağıdakılardır:

- müəssisə sahiblərinin mənfəət götürməsi;
- müəssisənin məhsulu ilə istehlakçıları təmin etmək;

- müəssisənin işçi heyətini əmək haqqı ilə təmin etmək, normal iş şəraiti yaratmaq və ixtisas səviyyəsinin artmasına kömək etmək;

- müəssisənin ətrafında yaşayan əmək qabiliyyətli əhali üçün iş yeri açmaq;

- yararsız məhsul buraxılmasının, istehsalın həmçinin kəskin azalmasının, istehsalın rentabelliyinin aşağı düşməsinin qarşısının alınması.

Hər bir halda müəssisənin ən mühüm vəzifəsi istehsal etdiyi məhsulun reallaşdırılması əsasında mənfəət əldə etməkdir və bunun əsasında əmək kollektivinin və istehsal vasitələrinin sahibinin iqtisadi və sosial tələbini ödəməlidir.

Müəssisə, onun kollektivi, sahələri, ərazi kompleksləri müəssisənin əsas elementləridir. Məhz buna görə də bütün dövlət sənədlərində müəssisələr xalq təsərrüfatı komplekslərinin əsas özəyi kimi göstərilir. Bu baxımdan fəaliyyətdə olan hüquqi qanunlarda dövlətin müəssisələrin fəaliyyətinə qarışmasının sərhəddi müəyyən olur. Çünki bazar iqtisadiyyatının indiki mərhələsində müəssisələrin bütün formalarına (xüsusi, kooperativ, səhmdar cəmiyyəti və b.) dövlət nəzarəti olmadan istehsalın səmərəliliyini təmin etmək mümkün deyil. Buraya aşağıdakılar daxildir:

- istehsalın sanitar vəziyyəti;

- müəssisənin gəliri və onların vergi ödəməsi;

- istehsal şəraitinin texniki və standartlara uyğun olmasına əməl edilməsi.

Müəssisələrin fəaliyyətinə yalnız subyekti olduğu dövlət deyil, eyni zamanda dünya dövlətləri də nəzarət edir. Çünki qlobal ekoloji təhlükələrin yaranmasında bütün dünya dövlətlərinin müəssisələri iştirak edirlər. Buna görə də hər bir müəssisə bütün fəaliyyət növlərində məsuliyyət daşıyır. Buraya aşağıdakılar daxildir:

- ətraf mühitin qorunması haqqında qəbul olunmuş qanunlara riayət etmək;

- istehsalın səmərəliliyini yüksəltmək.

Müəssisə fəaliyyət göstərkən başqa müəssisə və təşkilatların normal iş şəraitinə mane olmamalıdır, həmçinin yerləşdiyi ərazinin vətəndaşlarının həyat şəraitinin pisləşməsinə yol verməməlidir. Əgər belə hal baş verərsə məsuliyyət dövlətin deyil, müəssisənin üzərinə düşür.

Əmək kollektivinə normal iş şəraiti yaratmaq müdiriyyətin vəzifəsidir. Buna görə də müəssisənin sosial-iqtisadi məsələləri əmək kollektivi ilə birlikdə həll edilməlidir.

Müdiriyyət və əmək kollektivləri arasında əmək müqaviləsi bağlanır və buraya əsasən aşağıdakılar daxil edilir – şərait, əməyin ödəmə formaları və başqa sosial-iqtisadi məsələlər; müəssisənin və onun bölmələrinin iş rejiminin şəraiti; işin növbəliliyi və növbəliyin vaxtı; məzuniyyətin müddəti və ödənişin həcmi.

Yerli dövlət orqanlarının və kommersiya təşkilatlarının müəssisənin daxili təsərrüfat işlərinə və müdiriyyətin funksiyasına qarışmaq hüququ yoxdur. Onlar yalnız müəssisənin təsərrüfat fəaliyyətinə nəzarətçi kimi qarışmaq hüququ vardır və fəaliyyətdə olan qanunların yerinə yetirilməsinə əməl etməyi tələb və təklif edə bilərlər.

Azərbaycanın qanunlarına görə dövlət məmurları sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. Lakin dövlət məmurlarının bəziləri rəsmi olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmasalar da qeyri-rəsmi yolla, qohumlarına və yaxud yaxın adamlarına müəssisələr almaq və təşkil etməyə himayədarlıq edirlər. Bu cür məmurlar onların nəzarəti altında fəaliyyət göstərən müəssisələrə rəqabətdə qalib gəlmək üçün əlverişli şərait yaratmaqla

digər kiçik müəssisələr üçün süni şəkildə problemlər yaradırlar. Bu isə haqsız rəqabətin geniş yayılmasına səbəb olur. Beləliklə, haqsız və kriminal rəqabətin səviyyəsi həddini aşır. Keçid iqtisadiyyatlı dövlətlər, o cümlədən Azərbaycan üçün kriminal rəqabət ümumi iqtisadi qanunauyğunluqdur.

Azərbaycan dövləti mövcud müəssisələrin yenidən qurulmasında və yenilərinin yaradılmasında bu cür mənfi halların olmasının qanunauyğun olmasını bildiyindən bunların aradan qaldırılması məqsədilə bir çox tədbirlər görmüşdür. Bunların içərisində bu sahədə qanunların qəbul edilməsi və fərmanların verilməsinin əhəmiyyəti böyük olmuşdur. Aşağıdakı qanun və fərmanlar deyilənə sübutdur: «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər)», «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Respublikasının Qanunu, «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» Azərbaycan Respublikası prezidentinin 17 yanvar 1999-cu il tarixli fərmanı, «Sahibkarlığın inkişafına mane olan müdaxilənin qarşısının alınması haqqında» Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2002-ci il fərmanı, «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2002-ci il fərmanı və s.

Azərbaycanda mikroiqtisadiyyatın yenidən qurulmasına pis təsir göstərən korrupsiyanın qarşısını almaq məqsədilə 2004-cü ildə «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikanın Qanunu qəbul edildi. Bu qanun korrupsiya ilə əlaqədar hüquq pozmalarının aşkar edilməsi, onun qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan

və vətəndaş hüquqlarının və azlıqların müdafiə olunmasına, mikroiqtisadiyyatın inkişafı üçün əlverişli şərait yaradılmasına, yerli və özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəlmişdir.

Bu qanun habelə dövlət orqanlarına əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət və yerli özünüidarəetmə orqanlarına qulluğa keçməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır.

Azərbaycan prezidenti bu qanunun əhəmiyyətini nəzərə alaraq qanunun tətbiq edilməsi barədə sərəncam imzalamışdır. Sərəncamda «Dövlət Qulluğunu İdarəetmə Şurası» yanında «Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya haqqında Əsasnamə»nin layihəsinin hazırlanması tapşırılmışdır. Burada Azərbaycan Respublikası Baş Prokroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi yaradılmışdır. Bu orqanın səlahiyyətləri və vəzifələri müəyyən edilmişdir. Eyni zamanda bütün regionlarda və müxtəlif səviyyələrdə korrupsiyanın qarşısını almağı qarşısına məqsəd qoyan qurumlar yaradılmışdır. Təəssüf ki, sovet sistemindən bizə miras qalmış bu çətin və mürəkkəb mənfi hadisənin aradan qaldırılmasına yalnız dövlət orqanlarının gücü çatmır. Bu ümumi milli bəla olduğundan bütün millət buna qarşı mübarizədə iştirak etməli və dövlətə kömək göstərməlidir. Azərbaycanda demokratiyanın yaranması üçün əlverişli şərait yaranmışdır. Hər bir Azərbaycan vətəndaşı bundan istifadə edərək buna qarşı mübarizə etmək onun müqəddəs vəzifəsidir. Rüşvətxorluq və korrupsiya millətin gözünün qarşısında baş verir, vətəndaşlar isə buna laqeydlik göstərir, seyrçi olurlar və çox hallarda burada

iştirak edirlər. Millət dərk etməlidir ki, bu ağır xəstəlik sağalmayınca istəyimizə nail olmaq çətin olacaq.

## § 2. Firmanın (müəssisənin) fəaliyyət mexanizmi və təşkilati-hüquqi formaları

Azərbaycan bazar iqtisadiyyatına keçməyi qarşısına məqsəd qoyduğuna görə müəssisələrin formalarını və onların fəaliyyət mexanizmini bilmək məqsədəuyğundur. Normal inkişaf etmiş klassik bazar iqtisadi sistemi ölkələrində müəssisələrin bir növü firmadır. Firma anlayışı italyan sözü olan «firma» sözündən əmələ gəlmişdir. Azərbaycan dilində imza deməkdir. Bir qayda olaraq bazar iqtisadi sistemi ölkələrində sahibkarlar öz müəssisələrinə onun xarakterinə uyğun ad verirlər. Firma – bazar iqtisadiyyatının əsas iqtisadi agenti olub, istehlakçıların tələbini ödəyən əmtəə və xidmətlər istehsal edib bazara çıxaran və gəlir əldə edən subyektdir. Bu təşkil olunma baxımından müəssisənin ən sadə və geniş yayılmış formasıdır.

İstənilən iqtisadi sistemdə çoxlu sayda firmalar (müəssisələr) fəaliyyət göstərir. İqtisadi ədəbiyyatda bunlar müxtəlif meyarlar baxımından təsnifləşdirilir. Belə ki, firmalar (müəssisələr) mülkiyyət mənsubiyyətinə görə, fəaliyyət sahəsinə görə, fəaliyyətinin həcminə görə, fəaliyyət sahəsinə görə, fəaliyyətinin xarakterinə görə, əldə etdiyi ərazi meyarına görə və s. fərqləndirilir.

Firmalar (müəssisələr) fərdi (ailə), şərikli (tam ortaqlı), payçı və şərikli, məhdud məsuliyyətli müəssisələr, səhmdar cəmiyyəti və dövlət müəssisəsi kimi təşkilati-hüquqi formalarda fəaliyyət göstərirlər.

Fərdi (xüsusi) firma – biznes fəaliyyətinin ən klassik formalarından biridir. Belə firmalar adətən fərdin və ya onun ailə üzvlərinin ümumi mülkiyyəti əsasında təşkil

olunur. Bununla yanaşı, başqa mülkiyyətçilərə məxsus olan müəssisələrin satın alınması yolu ilə də yaradıla bilər. Belə müəssisələrin idarə olunması adətən, sahibkarın özü tərəfindən həyata keçirilir. Bir sıra hallarda sahibkar müəssisənin idarə olunmasının menecrə həvalə edə bilər. Lakin belə halda da müəssisənin fəaliyyəti üzərində ümumi nəzarət sahibkarın ixtiyarında qalır.

Fərdi firmaların biznes aləmində geniş yayılması onun bir sıra üstünlüklərilə bağlıdır. Bu üstünlüklərə aşağıdakılar aid edilir: a) təşkilinin sadəliyi; b) fəaliyyət azadlığı – sahibkar öz fəaliyyətilə bağlı olan bütün məsələlər üzrə qərar qəbul edilməsində tam azaddır (fəaliyyət növünün və onun həcminin müəyyən edilməsində, tərəf müqavilələrin seçilməsində və s.); c) güclü iqtisadi motivin olması – mənfəətin tamamilə sahibkara çatması.

Lakin qeyd etmək lazımdır ki, bunlarla yanaşı fərdi müəssisələrin bir sıra çatışmamazlıqları da vardır. Bunlar əsasən, aşağıdakılardan ibarətdir: a) maddi və maliyyə resurslarının məhdudluğu; b) istehsal və idarəetmə funksiyalarının daxili ixtisaslaşmasının inkişaf sisteminin olmaması (xüsusilə kiçik və orta müəssisələrdə); c) fəaliyyət müddətinin qeyri-müəyyənliyi – adətən belə müəssisələr uzunömürlü olmur və buna görə də digər sahibkarlar və xüsusilə maliyyə-kredit təşkilatları onlarla əlaqəyə girməyə o qədər də maraqlı olmurlar.

Bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, xüsusi mülkiyyət artıq təkcə özünün klassik forması olan fərdi mülkiyyət formasında deyil, həm də kollektiv, kooperativ, qrup və s. formalarda çıxış edir. Bu formalar əsasında yaranan müəssisələrə diqqət yetirək. Belə müəssisələrdə şərikli (tam ortaqlı), payçı və şərikli (kommandit ortaqlıqlar), məhdud məsuliyyətli

müəssisələr, kooperativlər, səhmdar cəmiyyətləri və s. aid edilir.

Şərikli (tam ortaqlı) müəssisə iki və daha artıq fiziki və hüquqi şəxs tərəfindən müqavilə əsasında təsis edilir. Şəriklər müəssisənin öhdəliklərinin yerinə yetirilməsinə görə bütün əmlakı ilə məsuliyyət daşıyırlar. Əgər fəaliyyət göstərən müəssisəyə sonradan hər hansı bir şərik daxil olursa, bu halda o digər şəriklər kimi müəssisənin əvvəlki borclarına görə də bütün əmlakı ilə məsuliyyət daşıyır.

Xüsusi mülkiyyətə əsaslanan fərdi firmalarla yanaşı kollektiv mülkiyyət əsasında formalaşan firmalar mövcuddur. Onlar arasında oxşar və fərqli cəhətləri vardır. Belə ki, kollektiv mülkiyyətə əsaslanan kooperativlərdə şərikli müəssisələr arasında oxşar cəhətlər çoxdur. Belə ki, şərikli müəssisələrdə olduğu kimi kooperativlərdə iştirakçıların könüllü birliyidir və hər bir üzv əmək prosesində şəxsən iştirak edir və bütün əmlakı ilə kooperativin fəaliyyəti üçün məsuliyyət daşıyır. Lakin bununla belə bu müəssisələr arasında bir sıra fərqli cəhətlər vardır. Əvvəla, kooperativlərdə iştirakçıların sayı şərikli müəssisələrindəkinə nisbətən daha çoxdur. Sonra, şərikli müssisələrin idarə olunmasında bəzi menecrlərdən istifadə olunursa, koopetivlərin idarə olunması öz üzvləri içərisindən seçilmiş idarə heyəti tərəfindən həyata keçirilir. Kooperativlərin fəaliyyəti kollektiv əməyə əsaslanır və əldə edilmiş mənfəət isə hər kəsin şəxsi əməyinə uyğun olaraq bölünür.

Kollektiv mülkiyyətə əsaslanan əsas müəssisə formalarından biri səhmdar cəmiyyətləridir. Səhmdar cəmiyyəti öz nizamnamə fondunu tədavülə səhm və istiqraz kimi qiymətli kağızlar buraxmaq yolu ilə yaranır. Belə cəmiyyətin səhmlərini alanlar onun səhmdarlarına çevrilirlər və aldıqları səhmin hərəkətə uyğun olaraq onun mənfəətindən dividend almaq hüququ qazanırlar.

Səhmdar cəmiyyətinin fəaliyyəti səhmdarların ümumi yığıncağı tərəfindən həyata keçirilir.

Səhmdar cəmiyyətlərinin yaranması və inkişafı məhsuldar qüvvələrin inkişafı, istehsalın miqyasının genişlənməsi və kapitalın məhdudluğu ilə bağlıdır. Məhz səhmdar cəmiyyətlərin yaranması nəhəng kapital tələb edən işlərin görülməsinə imkan verdi.

İlk səhmdar cəmiyyətləri XV-XVI əsrlərdə Genuyada və Milanda yaranmışdı. XVII əsrdə isə iri ticarət kompaniyaları: Hollandiyada «Ost Hind» (1600), Fransada «Komponi dez end Oksendantal» (1628) yarandı. Hazırda çox geniş yayılmış «səhm» sözu də ilk dəfə həmin dövrlərdə işlənmişdir.

Səhmdar cəmiyyətlərini müəssisələrin başqa formalarından fərqli xüsusiyyətləri, üstünlükləri vardır. Bunlar aşağıdakılardır:

1. Səhmdar cəmiyyətləri əlavə kapitalın cəlb olunmasına geniş imkan yaradır. Bu cəmiyyətlər bir çox adamlara imkan verir ki, onlar malik olduqları az həcmli kapitalları belə hər hansı işgüzar fəaliyyəti həyata keçirmək üçün bir yerə toplansınlar və onlardan səmərəli istifadə etsinlər.

2. Səhmdarlar məhdud məsuliyyət daşıyırlar. Bu onunla əlaqədardır ki, səhmdar cəmiyyətinin fəaliyyəti əsasən məhdud fəaliyyət prinsipi üzərində qurulmuşdur, yəni səhmdar cəmiyyətinin fəaliyyətinə öz vəsaitini yönəltmiş fiziki və hüquqi şəxslər – səhmdarlar bütövlükdə öz əmlakları ilə deyil, yalnız aldıqları səhmlərin qiyməti məbləğində – verdikləri pay həcmində cavabdehdirlər.

3. Peşəkar idarəetmə – səhmdar cəmiyyətlərinin idarə olunması adətən yüksək səviyyəli şəxslər – menecerlər tərəfindən həyata keçirilir.

Səhmdar cəmiyyətlərinin çatızmamazlıqlarına isə aşağıdakılar aid edilir: cəmiyyətin fəaliyyəti üzərində ciddi nəzarətin zəif olması; səhmdar cəmiyyətlərin fəaliyyətinin nəticə etibarilə inhisarçılığa meylliliyi; ikiqat vergi ödənilməsi qaydası – mənfəətdən vergi və səhm sahiblərinin aldıqları dividentdən vergi.

Səhmdar cəmiyyətlərinin buraxılan səhmlərin növündən və onların bazarda dövriyyəsinin təşkilindən asılı olaraq iki tipi fərqləndirilir: açıq və qapalı. Açıq tipli cəmiyyətlərin səhmləri heç bir məhdudiyyət qoyulmadan bazarlarda alınıb satılır. Cəmiyyət və onun səhmdarları öz öhdəliklərinə görə cəmiyyətin bütün əmlakı ilə məsuliyyət daşıyırlar. Qapalı tipli səhmdar cəmiyyətinin səhmləri isə təsisçi səhmdarların öz aralarında bölüşdürülür və bazara çıxarlmır. Bu cür cəmiyyətlər nizamnamə kapitalının formalaşması üçün təsisçilərin öz kapitalı kifayət edən zaman yaradılır. Səhmdar cəmiyyəti və səhmdarları öz öhdəliklərinə görə yalnız qoyulmuş kapital həcmində məsuliyyət daşıyırlar. Məhz buna görə də belə cəmiyyətlər bir sıra ölkələrin iqtisadiyyatında məhdud məsuliyyətli müəssisələr adı ilə müstəqil firma kimi geniş fəaliyyət göstərirlər. Burada, belə bir məsələni də qeyd etmək lazımdır ki, bəzi ölkələrdə səhmdar cəmiyyəti korporasiya adlanır.

İnkişaf etmiş ölkələrin iqtisadiyyatında səhmdar cəmiyyətləri əhəmiyyətli rol oynayırlar. Məsələn, ABŞ-da təxminən 19 milyon müəssisə vardır ki, onlardan 70%-ə qədəri fərdi, 10%-i şərikli, 20%-i isə səhmdar cəmiyyətlərdir. Dövlət bölməsinin xüsusi çəkisi bir faizə qədərdir. Lakin ABŞ iqtisadiyyatında məhz korporasiyalar hegemon rol oynayırlar. Belə ki, emaledici sənaye sahəsində istehsal olunan məhsulun 90%-i onların payına düşür. 500 iri korporasiya ümumi milli məhsulun 40%-dən çoxunu istehsal edir.

Hazırda dünya iqtisadiyyatında xarici investisiyanın cəlb olunması forması kimi müstərək müəssisələr geniş yayılmışdır. Bu formanın xüsusiyyəti ondan ibarətdir ki, hər hansı bir ölkə daxilində işgüzar fəaliyyəti həyata keçirmək üçün həmin ölkənin və xarici ölkələrin sahibkarlıq subyektləri birgə şəriklilik qaydasında çıxış edirlər. Belə müəssisələr bəzi dövlətlərdə inzibati metodlarla, bəzilərdə isə müəyyən güzəştlər hesabına inkişaf etdirilir. Bu onunla əlaqədardır ki, müştərək müəssisənin yaradılmasında milli tərəfin əldə etdiyi iqtisadi və sosial səmərə əksər hallarda xarici investisiyanın cəlb edilməsinin digər formalarına nisbətən daha çox olur.

Yuxarıda adı çəkilən müəssisələrdən başqa təşkiletmə və özünəməxsus xüsusiyyətlərinə görə fərqlənən müəssisələr də mövcuddur. Bunlara kombinat, kombinləşdirmə və kooperasiya aiddir. **Kombinat** – bir-birilə texniki, energetika, iqtisadi və təşkilati cəhətdən sıx bağlı olan, bir yerdə yerləşdirilən vahid istehsal komleksindən ibarətdir. **Kombinləşdirmə** – bütün istehsal ehtiyatları növlərindən kompleks istifadə etmək, ardıcıl mərhələləri səmərəli əlaqələndirmək və istehsal tsiklinin uzunluğunu qısaltmaq, nəqliyyat xərclərinin və məhsulun istehsalına çəkilən məsrəfləri azaltmaq, istehsalın idarə edilməsini təkmilləşdirmək məqsədilə təşkil olunur. Daha konkret desək, kombinləşdirmək – müəyyən məhsulu birgə hazırlayan və özünün təsərrüfat müstəqilliyini saxlayan müəssisələr arasında uzunmüddətli istehsal əlaqələri sistemidir. **Kooperasiya** – vətəndaşların könüllü təşkilatı, birgə təsərrüfatçılığı, yaxud birgə fəaliyyətlə məşğul olmaq üçün təşkilatın üzvləri arasında istifadə etdikləri təsərrüfatda kooperativ üzvlərinin hər birinin mülkiyyət payı olur. İdarə edilməsi

kollegiallıq, təsərrüfat müstəqilliy və öz-özünü maliyyələşdirmə prinsipləri əsasında həyata keçirilir.

İstənilən müstəqil dövlət özünün milli iqtisadiyyatını yalnız kiçik müəssisələrin hesabına formalaşdıraraq inkişaf etdirə bilməz. Deməli, hər bir dövlətdə orta və iri müəssisələrin olması qaçılmazdır. Lakin orta müəssisələr kiçik müəssisələrə nisbətən az saylıdır və hazırda onların sayının azalması meyli güclənir. Bu onunla əlaqədardır ki, onlar nə kiçik müəssisələr kimi çoxsaylı və çevik, nə də iri müəssisələr kimi güclü deyillər. Bəs bazar iqtisadiyyatında orta müəssisələrin rolu nədən ibarətdir?

Hər şeydən əvvəl onu göstərmək lazımdır ki, orta müəssisələr iri biznes üçün güclü rəqib kimi çıxış edir. Onlarda inhisarlaşmağa, iriləşməyə doğru meyl vardır. Orta müəssisələr həm də kapitalın mərkəzləşməsində mühüm mənbədir, belə ki, udulmaların çox hissəsi bilavasitə orta müəssisələrin payına düşür.

İri müəssisələr sayca az olsalar da, bir sıra üstünlüklərə malikdirlər. Əvvəla, məhsulun böyük həcmdə istehsalı yalnız iri müəssisələrdə mümkündür. ABŞ-da kənd təsərrüfatı məhsullarının 32%-i, cəmi 1,4% təşkil edən iri müəssisələr tərəfindən istehsal edildiyi halda 34% təşkil edən kiçik firmalar cəmi 3,2% məhsul istehsal edir. İkincisi, nəhəng elmi-tədqiqat işlərinin aparılması və elmi-texniki tərəqqinin nəticələrinin tətbiqi məhz iri firmalarla bağlıdır (ABŞ-da bütün elmi-tədqiqat işlərinin 99%-i iri korprorasiya tərəfindən maliyyələşdirilir). Üçüncüsü, iri firmaların möhkəmliyi və davamlılığı iqtisadiyyatın sabitliyini və onun yüksəlməsini təmin edir.

Hazırda müxtəlif ölçülü müəssisələr arasında subpodrat əlaqələri genişlənir. Bu, iqtisadi prosesin mahiyyəti ondan ibarətdir ki, bir sıra kiçik və orta ölçülü müəssisələr hazır məhsulun ayrı-ayrı hissələrinin istehsalı üzrə ixtisaslaşırlar, iri müəssisələr isə bu hissələrin

quraşdırılması əsasında hazır məhsulun yığılmasını həyata keçirirlər.

Beləliklə, hər bir ölkənin iqtisadi inkişafında müxtəlif formalı və ölçülü müəssisələrin özünəməxsus yeri və rolu vardır.

## § 3. Azərbayjanda firmanın (müəssisənin) fəaliyyət xüsusiyyətləri

Azərbaycanda bazar iqtisadi sisteminin ilk özəyi olan firmaların (müəssisələrin) formalaşması XIX əsrin 60-70-ci illərinə təsadüf edir. Bu zaman Azərbaycan Çar Rusiyasının müstəmləkəsi idi. Həmin dövrdə adı çəkilən dövlətdə bazar münasibətlərinin daha sürətlə inkişafını təmin etmək üçün burjua islahatları keçirildi. Azərbaycan Rusiyanın bir regionu hesab edildiyindən o bu islahatlardan kənarda qala bilməzdi. Azərbaycanın neftlə zəngin olması, həm də Rusiyada sənayenin inkişafı ilə əlaqədar olaraq bu məhsula tələbatın artması Rusiya dövlətini bu regiona diqqəti artırmağa məcbur etmişdir. Məhz bunlara görə də Azərbaycanda firmaların formalaşması və fəaliyyətində xüsusiyyətlər yaranmışdır.

Bu dövrdə milli sahibkarların ən ali təbəqəsi iqtisadi cəhətdən güclü olan neft sənayesi burjuaziyasının tərkibinə daxil idi. İnkişafın ilk dövrlərində Azərbaycan neft sənayesinin inkişafına kapital qoyuluşlarının ən əsas mənbələrindən biri məhz milli sahibkarlar olmuşlar. Nəticədə, XIX əsrin 90-cı illərinin ortalarında Bakıda çıxarılan neftin 15%-dən çoxu H.Z.Tağıyev və Ş.Əsədullayevin iki neft firmasının payına düşürdü. XX əsrin əvvəllərində isə milli kapitalın əhəmiyyəti daha da artdı. 1908-1910-cu illərdə 60-dək azərbaycanlı sahibkara 80-dan çox firma mənsub idi. Özü də onlardan səkkizi ildə bir milyon puddan çox neft çıxaran sahibkarlar

qrupuna daxil idi. 1913-1914-cü illərdə 165 neft çıxarma şirkətindən 48-ci milli kapitalın nümayəndələrinə mənsub idi. Birinci dünya müharibəsinin başlanğıcından 35 azərbaycanlı sahibkarın müxtəlif dərəcələrindən asılı olan 90-a yaxın gəmisi vardı və onlar Xəzər neft gəmiləri donanmasında birinci yer tuturdular. Nəqliyyat vasitələrinin olması onlara nəinki böyük miqdarda neft məhsullarını daşımağa, həmçinin Rusiyanın və digər ölkələrin bazarlarında müvəffəqiyyətlə ticarət etməyə imkan verirdi.

Neft sənayesindən əldə olunan məbləğdə vəsait milli sahibkarlara təsərrüfatın digər sahələrində: toxuculuqda, elektrik, yeyinti və balıq sənayelərində, gəmi təmiri sahəsində və s. mühüm mövqelər tutmaq üçün şərait yaradırdı.

Azərbaycanda köhnə çar üsul-idarəsi yıxıldıqdan sonra yaradılmış Azərbaycan Demokratik Respublikasının (28 may 1918 – 27 aprel 1920) parlamenti tərəfindən qəbul olunmuş bir sıra qərarlar kapitalist münasibətləri əsasında formalaşmış firmaların, şirkətlərin sürətli inkişafına imkan verdi. Lakin sosialist inqilabı adı (pərdəsi) altında Azərbaycanın sovet Rusiya tərəfindən yenidən işğal olunması ilə bütün bunlara son qoyuldu.

Keçmiş SSRİ-ni təşkil etdiyi respublikalardan biri olan Azərbaycanda Sovet hakimiyyəti illərində (1920-1991) dövlət bütövlükdə iqtisadiyyatı idarə etməyi öz üzərinə götürməklə həm müəssisələrin müstəqilliyini əlindən aldı, həm də müəssisələrin təsərrüfat əlaqələrini məhdudlaşdırmaqla onların son nəticələrə olan maddi maraqlarını xeyli azaldı. Qeyd etmək lazımdır ki, bu dövrdə müəssisələrin 90%-dən çoxu dövlət bölməsinə aid idi və onlar yalnız təsərürfat fəaliyyətilə məşğul olurdular. Bazar münasibətləri planlaşdırma ilə ticarət ehtiyatlarının mərkəzləşdirilmiş bölgüsü ilə əvəz olunduğu bu sistem –

inzibati-amirlik sistemi öz daxilində əmələ gələn ziddiyyətləri həll edə bilmədi və XX əsrin 90-cı illərin əvvəlində dağıldı.

Azərbaycan həm keçid iqtisadiyyatlı, həm də inkişaf etməkdə olan dövlətlər qrupuna daxil olduğundan firmaların yaradılması həm dövlətin köməyi ilə, həm də onun dövlət tənzimlənməsi ilə mümkündür. Bu onun fəaliyyəti xüsusiyyətlərini təşkil edir. Çünki sivilizasiyalı bazar iqtisadiyyatına keçmək və onu inkişaf etdirməyin ən mötəbər yolu ilk növbədə xüsusi bölmənin, azad sahibkarlığın inkişafıdır.

Real bazar iqtisadiyyatının formalaşmasının ən başlıca struktur komponentlərindən sayılan xüsusi sahibkarlıq fəaliyyəti ilk növbədə sivilizasiyalı bazar iqtisadiyyatının real sarsılmaz bazasıdır.[1]

Sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə və bütün yenilikçi və yardımçı təşəbbüslərə istinad edir.

Bazar iqtisadiyyatı ölkələrində sahibkarlar iqtisadi proseslərin əsas sosial təbəqəsidir. Həmin ölkələrin təcrübəsi göstərir ki, bu sosial təbəqənin fəaliyyəti üçün nə qədər əlverişli iqtisadi və qanunvericilik mühiti yaradılarsa, bu fəaliyyətə hökumət tərəfindən nə qədər çox əməli kömək göstərilərsə və sahibkarlar dövlətdən nə qədər razı qalarlarsa, bir o qədər də tez bir zamanda cəmiyyət qarşısında duran iqtisadi və sosial problemləri həll etmək, cəmiyyəti mənəvi cəhətdən sağlamlaşdırmaq və iqtisadi cəhətdən inkişaf etdirmək olar. Belə bir vəziyyət öz növbəsində hökuməti də sahibkarlara mövcud dövlət sisteminin müttəfiqi kimi yanaşmağa və ölkədə zəruri sahibkarlıq mühitinin formalaşdırmağa və qoruyub saxlamağa sövq edir.

---

[1] **T.S.Vəliyeva. İqtisad elmləri: nəzəriyyə və praktika, № 2, 1994, səh. 17.**

Sivilizasiyalı bazar iqtisadiyyatı şəraiti dövlət tənzimlənməsini inkar etmir, xüsusilə də keçid dövründə buna böyük ehtiyac duyulur. Hökumətin ümumi iqtisadi inkişafa mövcud qanun çərçivəsində müdaxiləsi müsbət rol oynayır.

Dövlət mülkiyyətinə aid müəssisələrin və obyektlərin (şübhəsiz, dövlət bölməsində saxlanılması zəruri olanlardan başqa) özəlləşdirilməsi xüsusi sahibkarlığın təşəkkülündə mühüm rol oynayır.

Xüsusi sahibkarlıqda onun subyektlərinin müxtəlifliyindən asılı olmayaraq başlıca amil, əsas hərəkətverici qüvvə mənfəət əldə etməkdən ibarətdir. İnzibati-amirlik dövründən fərqli olaraq bazar iqtisadiyyatı şəraitində müəssisə sahibləri əsas məqsədlərinə çatmaq üçün istehsal amillərinin əldə olunması, onun köməkliyilə əmtəə və xidmətlərin istehsalı və reallaşdırılması problemini özləri həll etməli olurlar.

Bazar iqtisadiyyatı şəraitində tələb və təklifdən asılı olaraq bazarda normal bazar dəyəri adlanan satış qiyməti formalaşdığından istehsalçılar öz məhsullarını neçəyə başa gəlməsindən asılı olamayaraq həmin qiymətə satmağa məcburdur. Bu isə (xüsusilə məhsulun qiyməti normal bazar dəyərindən yüksək olduqda) istehsalçıları məhsulun istehsalına çəkilən xərcləri azaltmağa sövq edir. Beləliklə, qiymətin bazarda formalaşması bütün istehsal amillərindən daha səmərəli istifadə edilməsində istehsalçılarda stimul yaradır.

Bazar iqtisadiyyatı hər bir istehsalçının qarşısında ciddi tələblər qoyaraq istehsal məsrəflərini azaltmağa, bütün növ resurslardan, ilk növbədə isə əsas istehsal fondları və materiallardan daha səmərəli istifadə etməyə məcbur edir.

Azərbaycanda inzibati-amirlik sistemindən miras qalmış nöqsanları özəlləşdirməni həyata keçirməklə və

ümumiyyətlə bazar iqtisadiyyatını formalaşdırmaqla aradan qaldırmaq olar ki, bu da az resursla daha çox və keyfiyyətli məhsul istehsalına nail olmağa imkan verər. Bununla da bazarın tənzimləyici mexanizmi bütün iqtisadi subyektlərin material, əmək və maliyyə resurslarından səmərəli istifadə sahəsində fəaliyyətinin əlaqələndirilməsini təmin edir. Lakin bazar mexanizmi resurslardan səmərəli istifadə problemini lazımınca həll edə bilmir və inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu problemin həllində dövlət tənzimlənməsi böyük rol oynayır.

Bazar münasibətləri şəraitində dövlətin iqtisadi resurslardan səmərəli istifadə sahəsində həyata keçirdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsini müəssisə və təşkilatların ETT-nin nailiyyətlərindən istifadəsini stimullaşdırmaq təşkil edir. Məsələn, sənayecə inkişaf etmiş ölkələrdə elmi-tədqiqat və təcrübə konstruktor işlərinin 20%-ə qədəri dövlət tərəfindən maliyyələşdirilir. Bundan başqa dövlət vergi siyasəti vasitəsilə də elmi-texniki tərəqqini həyata keçirir. Belə ki, bir çox ölkələrdə ayrı-ayrı şirkətlərin elm və texnikanın inkişafına yönəltdiyi məbləğə uyğun olaraq onlara müəyyən vergi güzəştləri edilir və bu güzəştlərin həcmi 20%-dən 50%-ə qədər dəyişə bilər.

Hazırda resupblikamızda milli sahibkarlıq dairəsinin formalaşması müxtəlif istiqamətdə baş verir. Lakin ən böyük üstünlüklə kommersiya və maliyyə-bank fəaliyyəti əhatə olunur. Halbuki sivilizasiyalı bazar ilk növbədə məhsul istehsalının xüsusi sahibkarlığı ilə üstünlük təşkil etdikdə daha fundamental olur, daha artıq öz adına müvafiq gəlir.

Yeni iqtisadi münasibətlər şəraitində milli iqtisadiyyatın inkişaf etdirilməsi məhz kiçik sahibkarlıqdan başlanır. Bunun iki səbəbi vardır. Birincisi, klassik bazar

iqtisadiyyatı ölkələrində də xüsusi sahibkarlığın formalaşması kiçik müəssisələrin təşkilindən başlamışdır və dialektikanın qanunu əsasında inkişaf edərək iri müəssisələrə çevrilmişdir. Bu bazar iqtisadi sistemini formalaşdırmağın ümumi iqtisadi qanunauyğunluğudur. Azərbaycan da bazar iqtisadiyyatına keçməyi qarşısına əsas məqsəd qoyduğuna görə keçid dövrünün başlanğıcında kiçik müəssisələrin təşkilinə üstünlük verməsi ümumi iqtisadi qanunauyğunluğa əməl etməkdir. İkincisi, XX əsrin ortalarında baş verən elmi-texniki inqilab kiçik müəssisələrə bir çox üstünlüklər vermişdir.

## § 4. Kiçik sahibkarlıq və onun üstünlükləri

İqtisadiyyatın mühüm istiqamətlərindən biri də kiçik sahibkarlığın inkişaf etdirilməsidir.

Kiçik sahibkarlıq istehlak bazarının sahibləşdirilməsinin bəzi problemlərini tezliklə həll etmək, istehsalın rəqabət xarakterini təmin etmək qabiliyyətinə malikdir. Eyni zamanda kiçik sahibkarlıq bazar mühitinin formalaşmasında əsas rollardan birini oynayır.

Bununla əlaqədar olaraq, sahibkarlığın əsas prinsipləri, sahibkarlıq fəaliyyətinin subyektləri, onların hüquq və vəzifələri, dövlət tərəfindən müdafiəsi, sahibkarlığın dövlət orqanları və onların qarşılıqlı fəaliyyəti «Sahibkarlıq fəaliyyəti haqqında» qanunda hüquqi cəhətdən əsaslanıdırılmışdır. Qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, fəaliyyət sahələrinin müstəqil seçilməsi, iqtisadi qərarlar qəbul edilməsi, iqtisadi təşəbbüsün və işguzarlığın geniş miqyas alması üçün şərait yaradılmasına yönəldilib.

Kiçik sahibkarlıq bazarın ərazi strukturuna və bazar münasibətlərinin genişlənməsinə, hər şeydən əvvəl, bazar subyektlərinin, yəni əmtəə istehsalçılarının

çoxalmasına və genişlənməsinə müsbət təsir göstərir. Bir halda ki, biz bazar iqtisadiyyatına keçməyi qarşımıza məqsəd qoymuşuq, deməli, onların təcrübəsi öyrənilməli və ölkəmizin imkan və şəraitinə uyğun istifadə edilməlidir. ABŞ-da 20 milyon, Yaponiyada 9 milyon, Hindistanda 12 milyon müəssisə və ya firma fəaliyyət göstərir. Bunların 80-85 faizi kiçik sahibkarların payına düşür.

Kiçik sahibkarlığın inkişafı iri müəssisələrlə müqayisədə bir sıra xüsusiyyətlərə malikdir. Bunlardan biri kiçik iqtisidiyyatda kapital daha sürətlə dövr edir. Kiçik müəssisələrdə kapitalın passiv hissəsinin, yəni istehsalat binası, habelə infrastrukturunun xüsusi çəkisi aşağı olur. Canlı əmək daha çox yüklənir və əmək məhsuldarlığı yüksək olur. İri müəssisələrə nisbətən kiçik müəssisələrdə istehsal xərclərini aşağı salmaq üçün imkanlar daha çoxdur.

Ehtiyatların daha sürətlə dövr etməsi, sahibkarın qəbul etdiyi qərarı vaxtında yerinə yetirməsi, xammala qənaət edilməsi, iş vaxtı itkisinin aşağı olması kiçik müəssisələr üçün xarakterikdir. Bu kimi üstünlüklər istehlak bazarını əmtəələrlə daha tez doldurmağa şərait yaradır.

Kiçik  sahibkarlığa üstünlük verən amillərdən biri də nazirlik və idarələr tərəfindən mərkəzləşdirilmiş qaydada istehsala kapital qoyuluşundan, xidmət haqqında göstəriş verilməsindən xilas olmasıdır. Bu isə onlara müstəqil və mane olmadan fəaliyyətlərini genişləndirməyə imkan verir.

Kiçik sahibkarlığın üstünlüklərindən istifadə edilməsi yüksək iqtisadi səmərə verir. Kiçik müəssisələr təsərrüfatçılığın mütərəqqi formalarını daha tez və sürətlə tətbiq edirlər. Öz istehsal fəaliyyətini tez və ağrısız dəyişə bilirlər, yüksək rentabelli məhsullar istehsalını tez

mənimsəyir, əhalinin tələbatını ödəməyən məhsulların istehsalını tez dayandırırlar.

Bazar iqtisadiyyatı istiqamətində inkişaf etmiş ölkələrdə bu proses təbii inkişaf yolu keçmiş və sadədən mürəkkəbə doğru hərəkət edərək müasir səviyyəyə çatmışdır. Buna görə də xarici ölkələrdə kiçik sahibkarlığın inkişafı üçün problem yoxdur. Çünki bu ölkələrdə kiçik sahibkarlığın müdafiə etmək üçün dövlət köməkliyi mövcuddur. ABŞ-da milyonlarla kiçik firma mövcud olduğuna baxmayaraq, hər il dövlət, yenə də kiçik müəssisələrin inkişafı üçün milyardlarla dollar, Almaniyada milyardlarla marka sərf olunur. ABŞ konqresində kiçik bizneslə 2 komitə məşğul olur, bu işlə məşğul olan dövlət orqanlarında 4,5 min əməkdaş çalışır. Onların başlıca vəzifəsi kiçik biznesə kömək etməkdən ibarətdir. Hər ştatda 30-40 nəfərdən ibarət regional şöbə var. Bununla bərabər nə mərkəz, nə də regional çinovniklər kiçik biznesə komanda vermir, yalnız onların xahişlərinə əməl edir, bazarın vəziyyəti barədə informasiya ötürürlər. Bundan əlavə, məsləhətlər, tövsiyələr verirlər. Kiçik sahibkarlığın yenicə formalaşdığı respublikamız üçün xarici təcrübənin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Sahibkarlıq haqqında respublikada qanunvericilik aktları qəbul edilmişdir. Lakin hüquqi sənədlərin olması hələ heç də sahibkarlığın inkişafı üçün bütün tədbirlərin görülməsi demək deiyl. Bundan əlavə, kiçik sahibkarlığın iqtisadiyyatda mühüm əhəmiyyətilə əlaqədar olaraq, onun inkişafı haqqında ayrıca hüquqi sənədlərin qəbul edilməsi, onun təşkili və inkişafını istiqamətləndirən dövlət strukturunun olması zəruridir. Eyni zamanda kiçik sahibkarlığın inkişafı sistemli xarakter almalıdır.

Kiçik sahibkarlığın yaranması və inkişafı məhsuldar qüvvələrinin inkişafı olub, qanunauyğun prosesdir. XX

əsrin ikinci yarısına qədər iri müəssisələrin inkişafına üstünlük verilmişdir. Lakin bu dövrdən etibarən kiçik sahibkarlığın sürətli inkişafına üstünlük verilməyə başlanmışdı. Bu, başlıca olaraq tələbatın sürətlə artması və buraxılan məhsulların çeşidinin çoxaldılması zərurəti ilə əlaqədardır. İri müəssisələrin manevr etmək qabiliyyəti kiçik müəssisələrə nisbətən aşağıdır, yəni tələbat dəyişəndə iri müəssisələr öz fəaliyyətini bir sahədən başqa sahəyə keçirməkdə çətinlik çəkirlər. Başqa sözlə, kiçik müəssisələr iri müəssisələrə nisbətən daha çevikdirlər, onlar müasir texnikadan, texnologiyadan daha səmərəli istifadə edirlər, yeni məhsul istehsalını tez mənimsəyirlər.

Kiçik müəssisələrin həcmi müxtəlif ölkələrdə eyni deyil. Məsələn, ABŞ-da 500 nəfərə qədər işçisi olan müəssisə, Yaponiyada isə 30 nəfərdən 300 nəfərə qədər işçisi olan müəssisələr kiçik müəssisə hesab edilir. Lakin ümumi cəhət ondan ibarətdir ki, heç bir ölkədə kiçik müəssisələr olmadan iqtisadiyyatı tarazlaşdırmaq, bazarı yeni əmtəə və xidmətlərlə doldurmaq imkanına malik deyildir.

Kiçik sahibkarlıq iqtisadiyyatın dəyişməsində amartizator rolu oynayır. Kiçik müəssisələr arasında rəqabət kəskin xarakter daşıyır. Məsələn, Yaponiyada hər 10 müəssisədən 7-si birinci beş ildə öz fəaliyyətini dayandırır. Lakin onlar məhv olmurlar, öz fəaliyyətlərini başqa sahəyə, yəni əhalinin daha çox tələbatı olan istehsal sahəsinə keçirirlər. Bir həftə ərzində onlar təcrübə üçün istehsalı bərpa edirlər.

Kiçik sahibkarlığın üstünlüklərindən biri də sosial sahədə gərginliyin azaldılmasında böyük rol oynamısıdır. Belə ki, iqtisadi böhranlar zamanı ixtisar olunmuş işsizlər kiçik müəssisələrə cəlb olunurlar. Bununla da onlar işçi

qüvvəsinin xalq təsərrüfatı sahələri arasında səmərəli bölgüsündə mühüm vasitəyə çevrilirlər.

Bazarın yaradılması və inkişafında kiçik sahibkarlığa mane olan amillər  də vardır. Onlardan biri inhisarların yaranması və onların fəaliyyətinin genişlənməsidir. Lakin kiçik müəssisələr iri müəssisələrin inhisarını məhdudlaşdırmaq qabiliyyətinə də malikdirlər. Bu şərtlə ki, xalq təsərrüfatında kifayət qədər kiçik müəssisəlr olsun və onlar iri inhisarçı müəssisələrdən asılı olmasınlar.

Deyilənlərdən aydın olur ki, kiçik sahibkarlıq ictimai istehsalın quruluşuna müsbət təsir göstərir. Yerli şəraitə uyğun kiçik müəssisələrin təşkili, həm yerli xammaldan, həm də əmək ehtiyatlarından səmərəli istifadə etməyə şərait yaradır. Bir tərəfdən, xammalın daşınması ilə əlaqədar olan xərclər ixtisar olunur, digər tərəfdən, əhalinin iş dalınca iri şəhərlərə axınının qarşısı alınır.

Respublikamızın bütün regionlarında kiçik sahibkarlığın inkişafı üçün əlverişli şərait və potensial imkanlar mövcuddur. Azərbaycan zəngin təbii sərvətlərə, əmək ehtiyatlarına, əhali isə müxtəlif sənət vərdişlərinə malikdir. Bunlar kiçik sahibkarlığın yaranması və inkişafı üçün zəmindir. Deməli, burada kiçik sahibkarlığın geniş miqyas alması həm obyektiv zərurətdir, həm də imkan və şərait vardır.

## § 5. Biznes fəaliyyəti və etikası

Biznes ingilis sözü olub, Azərbaycan dilində mənası iş deməkdir. Başqa sözlə, gəlir əldə etmək məqsədilə ticarət və başqa sahələrdə iş görən sahibkarlıq fəaliyyətinin bir növüdür. Biznesmen də ingilis sözü olub,

Azərbaycan dilində iş-adamı, bacarıqlı, şəxsi ticarətlə məşğul olan adam-sa- hibkar, müəssisə sahibi, yəni gəlirli iş görən adam deməkdir.

Məhsul istehsalı, satışı, xidmətlər göstərilməsi və digər sahələrdə fəaliyyət göstərən bütün sahibkarların məqsədi əsasən gəlir, mənfəət götürməkdir. Bu mənada bütün sahibkarları da biznesmen adlandırmaq olar. Lakin sahibkarlıq fəaliyyətinin miqyası, sahibkarların əmlak və kapitallarının həcmi müxtəlif olduğundan, onların fəaliyyətini biznes fəaliyyətindən fərqləndirmək olar. Böyük həcmdə istehsal, xidmət və kommersiya ilə məşğul olanlara sahibkarlar, xırda və orta həcmli müəssisələr təşkil və idarə edənlərə isə biznesmenlər demək olar. Deməli, sahibkarlarla biznesmenlərin ümumi cəhətləri əsasən gəlir, mənfəət götürməkdi, fərqli cəhətləri isə fəaliyyət miqyasının müxtəlif səviyyədə olmasıdır.

Qeyd olunduğu kimi, biznesin məqsədi əsasən gəlir götürməkdir, həm də adi gəlir deyil, yüksək mənfəət əldə etməkdir. Yüksək gəliri isə yalnız səriştəli, bacarıqlı, istedadlı, təcrübəli və xüsusi işgüzarlıq qabiliyyətinə malik olan şəxslər götürə bilərlər. Lakin ba azdır. Çünki biznesmen sağlam mənəviyyata malik olmadan yüksək mənfəət əldə edə bilməz. Sağlam mənəviyyatın əsasında ədalətli olmaq dayanır. Hər bir biznesmen öz şəxsi mənafeyini əsas götürməməli, onunla əlaqədə olan bütün subyektlərin maddi marağını uzlaşdırmağı bacarmalıdır.

Biznesmenlər öz partnyorları ilə danışıqlar aparıb bağladıqları müqavilələr təkcə öz xeyrinə deyil, həmçinin cəmiyyətin və dövlətin də mənafeyinə uyğun olmalıdır. Biznesmendə elə qabiliyyət və xarakter olmalıdır ki, təkcə öz maddi mənafeyini deyil, eyni zamanda dövlətin, həmçinin cəmiyyətin mənafeyinə uyğun fəaliyyət göstərməyi qarşısına məqsəd qoya bilsin. Məsələn, təbii

mühiti çirkləndirən istehsal sahəsi ilə məşğul olmaqla böyük gəlir götürmək biznesmenin məqsədini və arzısını təmin etsə də, cəmiyyət üçün böyük problemlər yaratmaq deməkdir.

Biznesmenlərdə əhalinin tələbatının artmasını və zövqünün dəyişkənliyini dərk etmək və bazarın tələbinə cavab olaraq çevik qərarlar qəbul etmək, rəqabət apardığı partnyorlarına bazar qanunlarına uyğun yolla qalib gəlmək bacarığı olmalıdır.

Məlum olduğu kimi, təkrar istehsalın əsas fazalarından biri mübadilədir, yəni əmtəələrin reallaşdırılmasıdır. Bazar iqtisadi sistemində təkrar istehsalı ləngidən əsasən bu fazadır. Çünki istehsal olunmuş əmtəələr satılmasa yeni məhsul istehsal etmək olmaz. Məhz bizneslə məşğul olan şəxsin üstünlüyü başqalarına nisbətən daha əlverişli bazar tapmaq qabiliyyətinin olmasındadır. Buna yalnız sahibkarlıq əxlaqına əməl edən biznesmenlər nail ola bilərlər. Hər cür yollarla gəlir əldə etmək ümumbəşəri əxlaq normalarına ziddir. Hələ XIII əsrdə Azərbaycanın böyük oğlu Nəsirəddin Tusi sahibkarlıq əxlaqını çox gözəl ifadə etmişdir. O yazır: «Gəlir əldə etmək üçün əsasən, üç şərti yerinə yetirmək lazımdır: birinci – zülmə yol verməmək; ikincisi – rüsvayçılığa yol verməmək; üçüncüsü – alçaqlığa yol verməmək.

Zülm – pulda, çəkidə, ölçüdə aldatmaqla, əliəyirilik və oğurluqla əldə edilən gəlir.

Rüsvayçılıq – tədxəklik, yaltaqlıq, başqalarına əyilməklə əldə edilən gəlir.

Alçaqlıq – «sərfəli» sənət olduğu halda, alçaq sənətlərlə məşğul olmaqla əldə edilən gəlir».

Deməli, biznes fəaliyyətilə məşğul olan şəxslərin müştəriləri özünə cəlb etmək qabiliyyəti, birinci növbədə onun ədalətli, obyektiv, düzgünlüyü sevən, insaflı

olmasıdır. Eyni zamanda, onlar nəinki alqı-satqı zamanı, həm də partnyorları ilə hər hansı müqavilə bağlandıqda, onun vaxtında yerinə yetirilməsinə məsuliyyət daşımalı, bütün münasibətlər qarşılıqlı hörmət və güzəşt əsasında qurulmalıdır.

Bizneslə məşğul olmaq istəyən şəxslər qanunvericiliklə qadağan olunmayan bütün sahələrdə fəaliyyət göstərə bilər və istədiyi miqdarda gəlir götürmək hüququna malikdirlər.

Dövlətin milli mənafeyinə və ümumbəşəri dəyərlərə ziyan vuran sahələrdə bizneslə məşğul olmaq qanunla qadağan olunmuşdur. Narkotik maddələrin, silah istehsalı və satışı sahəsində fəaliyyət göstərmək, əxlaqsızlıqla məşğul olmaq və s. bu qəbildəndir. Çünki bunlar biznes fəaliyyəti sahəsində çoxlu gəlir gətirsə də insan cəmiyyətinə çox böyük fəlakətlər gətirir. Məsələn, narkomaniyanın geniş yayılması insanların sağlamlığının pisləşməsi, insan nəslinin cırlaşması, əqli inkişafın zəifləməsi, bir sözlə, insanın mənəviyyatının puç olmasına səbəb olur. Silah istehsalı yalnız dövlət müəssisəsində dövlətin nəzarəti altında ola bilər. Ayrı-ayrı şəxslərin silah istehsal etməsi, onların vətəndaşlara satılması silahlı dəstələrin əmələ gəlməsinə, bu isə dövlət daxilində və dövlətlərarası sabitliyin pozulmasına səbəb olur. Nəticədə həm insan tələfatı baş verər, eyni zamanda da dövlətin iqtisadiyyatı zəifləyər, əhalinin yaşayış səviyyəsi pisləşər.

Gizli bizneslə məşğul olmaq da dövlət tərəfindən qadağan olunmuşdur. Ona görə ki, gizli bizneslə adətən yuxarıda göstərilən sahələrlə məşğul olurlar. İkincisi, onların gəliri dövlətdən gizləndiyinə görə vergidən kənarda qalır. Bu isə dövlət büdcəsinin gəlirinin azalmasına səbəb olur.

Muzey eksponatlarının və digər milli mədəniyyət abidələrinin, çol heyvanlarının gizli yolla ovlanıb satılması,

uşaqların oğurlanıb satılması ilə məşğul olanlar dövlət tərəfindən cəzalandırılır. Bu cür iyrənc biznes fəaliyyətlə məşğul olmaq bütün dövlətlərdə qadağan olunmuşdur.

Biznesin təşkili hər şeydən əvvəl qənaətcillik prinsipinə əsaslanır. Biznesin mahiyyətini az vaxtda az məsrəflə daha çox qazanmaq təşkil edir. Bundan başqa, biznesin təşkilində optimallıq prinsipi də mühüm əhəmiyyət kəsb edir. Müxtəlif və çoxlu bazarlardan, əmtəələrin ən yaxşısını, ən əlverişlisini, yəni optimalını seçmək yüksək gəlir gətirməyin şərtlərindəndir. Hansı əmtəəyə yaxın perspektivdə tələbatın azalacağını duymaq və onu hansı əmtəə ilə əvəz etmək, yəni ən əlverişlisini seçmək, qarşılıqlı hesablaşmanın ən optimal formasını seçmək də optimallıq prinsipinə aiddir.

Biznesin təşkili prinsiplərindən biri də istehsalın səmərəliliyini təmin etməkdir. Az məsrəflə daha çox gəlir əldə etməyə istehsalın səmərəliliyi deyilir. İstehsala daha müasir texnika tətbiq etməklə yanaşı, yüksək səmərə verən sövdələşmələrə üstünlük vermək də istehsalın səmərəliliyini təmin edən amillərdən biridir.

Müştərilərin, eyni zamanda partnyorların etibarını qazanmaq biznes fəaliyyətinin prinsiplərindən biridir. Yuxarıda sahibkarlıq əxlaqından söhbət gedərkən qeyd olunmuşdur ki, yüksək gəlir əldə etməyin ən düzgün, etibarlı və sabit yolu ağılla, zəka ilə, zəhmətlə gəlir əldə etməkdir. Əgər biznesmen sahibkarlıq etikasına əməl edərsə, onun müştəriləri ondan uzaqlaşmaz, onun partnyorları öz öhdəliklərini duzgun və vaxtında yerinə yetirərlər. Yalançı, sözu ilə əməli bir-birinə uyğun gəlməyən biznesmen uzun müddət uğur qazana bilməz, gec-tez fəaliyyətini dayandırmalı olar.

Maddi məsuliyyət, maddi və hüquqi təminat da biznesin təşkilinin mühüm prinsiplərindən biridir. Bu o deməkdir ki, biznesmenlər arasında bağlanan

müqavilələrin yerinə yetirilməsinə hər iki tərəf məsuliyyət daşımalıdır. Belə məsuliyyət qanunla qorunmalıdır. Başqa sözlə, müqavilənin pozulması nəticədə ziyan görmüş tərəfin xərcini qanunu pozan çəkməlidir. Bu prinsip partnyorların məsuliyyətini artırır və sövdələşmələrin etibarlığına təminat verir.

Biznesin təşkili və inkişaf etdirilməsi özəlləşdirmə ilə də bağlıdır.

Təsərrüfat formalarının, mülkiyyətin müxtəlifliyinə baxmayaraq, kiçik müəssisələr öz inkişafında eyni problemlə qarşılaşırlar. Bu problemlər iqtisadiyyatda baş verən təsərrüfat həyatının həddən çox bürokratlaşmasında, dərin mənfi halların nəticəsində baş verir.

Kiçik iqtisadiyyatın yaranması və inkişafında infrastrukturların rolu da böyükdür. Kiçik müəssisələrin yaranması üçün yolların, rabitə vasitələrinin, su, elektrik təchizatının və başqa xidmət sahələrinin olması vacibdir. Eyni zamanda, kiçik biznesin təşkili üçün maliyyələşdirmə və kreditləşdirmə sistemi də ölkədə normal vəziyyətdə olmalıdır.

Başlağıc üçün vəsaitin çatışmaması, maddi-texniki təchizatın mürəkkəbliyi bir sıra kiçik müəssisələri vasitəçiliklə məğşul olmağa vadar edir. Kiçik müəssisələrin bu cür vasitəçilik etməsi fərqli olsa da, arzu edilən deyil. Çünki məhsul istehsalının bazarı əmtəələrlə doldurulması sonrakı plana keçir. Odur ki, vasitəçilik işi ilə kütləvi surətdə deyil, az müəssisə məşğul olsa qismən faydalı ola bilər.

Kiçik biznesin yaranması və inkişafına mənfi təsir göstərən amillərdən biri də yeni kiçik müəssisələrin qeydə alınmasında bürokratizm və başqa hallardır. Məhz buna görə də yeni yaranan kiçik müəssisələrin qeydiyyata alınmasının sadələşdirilməsi və müxtəlif maneələrin

aradan qaldırılması zərurəti yaranmışdır. Bunu nəzərə alan ölkəmizin prezidenti 2007-ci ilin dekabrında sahibkarların qeydə alınmasının yeni qaydaları haqqında sərəncam vermişdir. Bu sərəncamda qeydiyyatın sadələşdirilməsi nəzərdə tutulur və sərəncam 2008-ci ilin yanvarın 1-dən qüvvədədir.

**Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar**

1. Mikroiqtisadiyyatın tərifini deyin.
2. Bazar iqtisadi sistemində firmaların səmərəli fəaliyyət göstərməsində dövlətin və işçinin maraqlı olmasının səbəblərini şərh edin.
3. Azərbaycanda firmaların (müəssisələrin) inkişafının və təşkili formalarının hüquqi əsaslarının yaradılmasının zəruriliyini əsaslandırın.
4. Azərbaycanda müəssisələrin hansı formaları vardır? Və onların vəzifələrini danışın.
5. Azərbaycanda müəssisələrin yenidən qurulmasının zəruriliyini şərh edin.
6. Müəssisənin forması olan səhmdar cəmiyyətlərinin müəssisənin digər formalarından üstünlüklərini göstərin.
7. Azərbaycanda firmanın (müəssisənin) fəaliyyət xüsusiyyətlərini şəhr edin.
8. Kiçik sahibkarlığın hansı üstünlükləri vardır?
9. Sosial problemlərin həllində kiçik sahibkarlıq nə kimi rol oynayır?
10. Biznes və biznesmen nə deməkdir.
11. Biznesin məqsədi nədir?
12. Sahibkarlıq əxlaqi nədir və nəyə əsaslanmalıdır?

**Müzakirə  üçün suallar və tapşırıqlar**

1. Makro və mikroiqtisadiyyatın qarşılıqlı əlaqəsini və bir-birinə təsirini izah edin.

2. Bazar və inzibati-amirlik sistemində firmaların (müəssisələrin) mikroiqtisadiyyatın inkişafında rolunun müxtəlif olmasının səbəblərini təhlil edin.

3. Sosializmin sovet modeli dövründə sosialist müəssisələrinin əksəriyyətinin səmərəli işləməməsinin hansı səbəbləri olmuşdur?

4. Azərbaycanda kiçik sahibkarlığın formalaşması və inkişafında nə kimi çətinliklər vardır və onların tarixi kökləri hansılardır?

5. Azərbaycanda kiçik sahibkarlığın formalaşması və inkişafına kömək məqsədilə Azərbaycan dövləti hansı qanunlar qəbul edib və fərmanlar verib?

6. Mikroiqtisadiyyatın formalaşması və inkişafında orta və iri müəssisələrin rolunu işıqlandırın.

7. İstehsalın səmərəliliyinin yüksəlməsinə kiçik müəssisələr necə nail olurlar?

8. Bizneslə məşğul olanlar üçün hansı fəaliyyət sahələri qanunla qadağan olunur və onların müəssisələri hansı prinsiplər əsasında təşkil olunur?

# 14-jü MÖVZU: İQTİSADİYYATIN YENİ İDARƏETMƏ SİSTEMİ

## § 1. İqtisadi idarəetmənin mahiyyət və prinsipləri

Müstəqil fəaliyyət sahəsi olan iqtisadiyyatın idarə olunması zəruridir. Öz mahiyyəti etibarilə idarəetmə prosesi pouzlma, hərc-mərclik prosesinin alternatividir. Onun vəzifəsi mövcud sistemin orta səviyyəli dinamik inkişaf və tarazlığı saxlamaq, təkmilləşməsini təmin etmək və arzu olunan faydalı nəticəyə nail olmaqdır.

İqtisadiyyatın inkişafı dinamikdir, yəni o, daim inkişafdadır. O, daxili və xarici amillərin təsiri nəticəsində daim dəyişikliyə məruz qalır. Öz vaxtında bu dəyişiklikləri məqsədəuyğun yoluna salmaq, dəyişən şəraitə uyğun olaraq sistemin strukturunda yenidənqurmanı həyata keçirmək işini təmin etmək, qaydaya salmaq idarəetmənin vəzifəsidir. Bu isə, iqtisadi sistemi onun özünə xas olan obyektiv qanunauyğunluqlara və meyllərə uyğun hala gətirmək deməkdir.

İdarəetmə insanın fəaliyyət növü kimi çoxdan mövcuddur. Lakin cəmiyyətin inkişafının əvvəlki mərhələlərində idarəetmə prosesi sadə xarakter daşımışdır. Bu təbii idi. Çünki natural təsərrüfatın iqtisadiyyatda hakim olduğu dövrdə elmi idarəetməyə o qədər ehtiyac yox idi. O mərhələlərdə idarəetmə aparatı sadə və primitiv idi.

Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq çoxlu yeni sahələr, yarımsəhralar yarandı, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əmək bölgüsü dərinləşdi. Əlaqələr son dərəcə mürəkkəbləşdi. Buna görə də çoxlu və mürəkkəb əlaqələri nizamlamaq, sistemli idarə etmək zərurəti yarandı.

İdarəetmə prinsiplərinin forma və metodlarına və onların həyata keçirilməsinə mövcud iqtisadi quruluş da təsir göstərir. Məsələn, bazar iqtisadiyyatı sistemi ilə inzibati-amirlik sistemində idarəetmə eyni mahiyyət, məqsəd və prinsiplər əsasında qurula bilməz. Sovet imperiyası dövründə inzibati-amirlik sistemində sosial inkişaf və ictimai quruculuq məsələlərində buraxılmış bir çox nöqsanlar xeyli dərəcədə idarəetmənin bəşəri qanunauyğunluqlarından lazımı səviyyədə istifadə olunmamasından irəli gəlmişdir.

Müasir idarəetmə iqtisadi münasibətlərin məqsədəuyğun təşkil edilməsini istiqamətləndirir və elmi idarə etməyə əsaslanır. O, tamın ayrı-ayrı hissələri arasındakı əlaqəni təmin edən bir proses, milli və şəxsi mənafelərin əlaqələndirilməsini həyata keçirən mexanizmdir.

Müasir dövrdə idarəetmə yüksək şüurlu münasibətə əsaslanır. Bu isə elmə söykənir. Buna görə də elmlik idarəetmənin prinsiplərindən biridir. Bunların hər ikisi bir-biri ilə əlaqədardır. Biri digəri olmadan mümkün deyil. Şüurlu idarəetmə təbiət və cəmiyyətin obyektiv qanunların tələblərini və reallığı nəzərə almağı tələb edir. Bu, istehsalda insanın fəallığının azad iqtisadi təşəbbüsünü təmin etməlidir, maddi və əmək ehtiyatlarını istehsalın inkişafına istiqamətləndirməlidir. Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə buna əsasən əməl olunsa da, inzibati-amirlik sistemində bu, mümkün olmur.

İctimai münasibətlərdə insanın fəallığını artırmadan, heç yerdə sosial qayda və tənzimetməni həyata keçirmək mümkün deyildir. Elmi idarəetmənin qarşısında duran bir vəzifə də ictimai inkişafda baş verən və baş verə biləcək ziddiyyətləri üzə çıxarmaq və vaxtında aradan qaldırmaqdır. Çünki iqtisadi inkişafın gedişinə mane olan

obyektiv və subyektiv amilləri vaxtında aşkara çıxarıb aradan qaldırmadan elmi idarəetməni həyata keçirmək mümkün deyil.

İqtisadi siyasətdə realizm və elmlilik başlıca şərtdir. Burada realizm o deməkdir ki, məhsuldar qüvvələrinin fasiləsiz, dinamik inkişafını iqtisadi sistem təmin edə bilsin, o, işləyən və işlədən sistem kimi həyatda özünü doğrultsun.

Elmilik obyektiv imkanları nəzərə almağı tələb edir. Ona görə də elmi idarəetmə cəmiyyətin qanunlarından, insan və maddi-texniki amillərdən səmərəli şəkildə istifadə etməyi tələb edir.

İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir, cəmiyyətin potensialından istifadə etmənin mühüm amilidir. İdarəetmə həm də insanların əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır.

İnsan cəmiyyətini idarə etmək çox mürəkkəb və çətindir. Çünki o, bir çox iqtisadi, sosial, mənəvi və başqa problemlər ilə əlaqədardır. Bu mənada idarəetmə elmini öyrənmədən müasir texnikanı, mexanikləşdirilmiş, avtomatlaşdırılmış istehsal sistemini təşkil və onu idarə etmək mümkün deyil. Buna görə də idarəetmə metodlarına, qanunlarına və prinsiplərinə bütün müəssisə sahibləri, rəhbərləri, hətta hər bir istehsalçı eyni dərəcədə yiyələnməlidir.

Müasir dövrdə idarəetmə elminin öyrənilməsi bütün ölkələrdə labüddür. Çünki o, idarəedən və idarə olunanlar haqqında informasiyaları toplayır, təhlil edir, onların arasındakı qarşılıqlı əlaqələri öyrənir və bunun əsasında lazımı nəticə çıxarmaq mümkün olur.

Müasir dövrdə idarəetmə elminin rolu və əhəmiyyəti daha da artmışdır. Çünki bütün ölkələrdə xalq

təsərrüfatının miqyası genişlənmiş, quruluşu mürəkkəbləşmişdir. Belə ki, elmi-texniki tərəqqinin təsiri nəticəsində yeni sahələr, yarımsahələr meydana gəlmiş, sahələrarası, sahədaxili əlaqələr çoxalmışdır. Eyni zamanda təşkilati, iqtisadi və sosial əlaqələr də genişlənmişdir.

Elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanmaq, məhdud ehtiyatlardan daha səmərəli istifadə etməklə, iqtisadiyyatı inkişaf etdirmək, idarəetmə elminin əhəmiyyətini indi daha da yüksəldir. İstehsalın intensiv tipinə üstünlük vermək zəruriliyi, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, təbii iqlim şəraitindən və başqa amillərdən asılı olaraq istehsalın beynəlxalq miqyasda ixtisaslaşması, beynəlxalq əlaqələrin genişlənməsi, milli iqtisadiyyatın inkişafına dünya iqtisadiyyatının daha çox təsir göstərməsi və s. idarəetmə elminin qarşısında yeni-yeni vəzifələr qoyur. Bu problemlərin həlli idarəetmənin inkişaf səviyyəsindən xeyli dərəcədə asılıdır.

İdarəetmədə bu sahədə dünya miqyasında mövcud olan müsbət cəhətləri mənimsəmək və öz ölkəsində tətbiq etmək lazımdır. Bu zaman milli sənayenin quruluşu, bütövlükdə milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmalıdır.

Beləliklə, iqtisadi idarəetmə prosesləri tənzim edən qanunları bilmək əsasında iqtisadiyyata daxilən xas olan mexanizmi hərəkətə gətirmək, ölkənin iqtisadi potensialından məqsədyönlü istifadə etməyə yönəldilmiş fəaliyyətdir.

İqtisadi idarəetmə onun müvəffəqiyyətini təmin edən prinsiplərə əsaslanmalıdır. İdarəetmənin prinsipləri iqtisadi proseslərin idarəetmə funksiyalarını yerinə yetirən orqanların, təşkilatların və şəxslərin rəhbər tutduqları, istinad etdikləri əsas qaydalardır.

İqtisadi idarəetmənin prinsipləri aşağıdakılardır:

1. Obyektivlik prinsipi. Bu prinsip iqtisadi qanunların tələblərini dərindən bilmək, onlara istinad etmək və iqtisadiyyatın həqiqi vəziyyətini əsas götürməklə təmin edilir. Obyektiv xarakter daşıyan bazar qanunlarını bilmədən səmərəli idarəetmə qeyri-mümkündür. Biznes fəaliyyətində bu prinsirə istinad etmədən lazımı səmərə əldə edilə bilməz.

Deməli, obyektiv şəraiti, iqtisadi qanunların tələblərini nəzərə almadan iqtisadi idarəetmə mümkün deyil.

İdarəetmədə subyektiv fəaliyyətin rolu da olduqca böyükdür.

2. Konkretlik prinsipi. İqtisadi prosesləri dəqiq və elmi cəhətdən işlənmiş informasiya (məlumat), daxili və xarici amilləri tam nəzərə almaq əsasında idarə etmək olar. Bir sözlə, konkret şəraitə uyğun addımlar atılmalıdır. Məsələn, mövcud şəraitə uyğun vergi qoymağı tətbiq etmək buna misal ola bilər.

3. Optimallıq – səmərəlilik prinsipi. İqtisadiyyatın optimallığına nail olmaq iqtisadi idarəetmənin mühüm məqsədidir. İqtisadi idarəetmədə başlıca cəhət odur ki, əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilsin, yəni az məsrəflərlə daha yüksək nəticələr əldə etmək təşkil edilsin.

4. Özünümaliyyələşdirmə prinsipi. Hər bir təsərrüfat obyekti müəyyən məsrəflər hesabına fəaliyyət göstərir. Müəssisələrin, trestlərin və s. iqtisadi idarəetmə sistemi elə təşkil olunmalıdır ki, təsərrüfat fəaliyyətinin nəticəsində əldə olunan ümumi gəlirdən xərclər çıxdıqdan sonra xalis gəlir götürülsün. Bu gəlirin hesabına öz istehsalını genişləndirmək üçün maddi imkanı olsun, başqa sözlə, öz ehtiyaclarını öz vəsaiti hesabına ödəyə bilsin.

5. Əsas halqanın seçilməsi prinsipi. Sistem halında fəaliyyətdə olan iqtisadiyyatın halqaları müxtəlifdir. Lakin bir-biri ilə bağlı vəzifələri yerinə yetirirlər. Öz əhəmiyyətinə görə bu vəzifələr eyni olmur. Burada birinci və ikinci dərəcəli vəzifələr, əsas və əsas olmayan vəzifələr vardır. Buna görə də konkret şəraitə uyğun olaraq vəzifələr zəncirinin halqalarından əsas halqanı tapıb ayırmaq lazımdır. Bu elə halqda olmalıdır ki, qalanların hamısı onunla əlaqədar olsun, əsas vəzifə həll olunduqca qalan vəzifələr də həll olunacaqdır. Məsələn, müasir dövrdə suverenliyə nail olmaq respublikamızın qarşısında duran strateji məqsəddir. Bu məqsədə çatmaq üçün bazar iqtisadiyyatına keçmək, bunun üçün isə mülkiyyətin müxtəlif növləri əsasında müxtəlif təsərrüfat formaları yaratmaq lazımdır, buna nail olmaq üçün dövlət əmlakını dövlətsizləşdirmək və özəlləşdirməni həyata keçirmək lazımdır. Deməli, iqtisadi islahatlar sistemində dövlət əmlakının özəlləşdirilməsi əsas halqadır. Bunu həyata keçirmədən bazar iqtisadiyyatına keçmək olmaz. Yalnız bunları etməklə azad sahibkarlığa yol açmaq və bazar iqtisadiyyatına keçmək olar.

6. Stimullaşdırma prinsipi. İdarəetmə eyni zamanda adamlaın əmək fəaliyyətini təşkil etmək deməkdir. Onlar öz fəaliyyətləri ilə həyat-yaşayış tərzlərini qururlar. Nemətlərin istehsalı, onun kəmiyyət və keyfiyyəti adamların fəaliyyətlərinin idarə edilməsindən çox asılıdır. İnsanlar isə düşünən və canlı məxluqdur və onların mənafeləri, maraqları, tələbatları var, həm də bir-birinə bənzəmirlər. Onlar müəyyən təkanverici amillərin təsiri ilə hərəkətə gətirilirlər. Bu təkanverici amillər və qüvvələr nəzərə alınmadan adamların fəaliyyətlərini idarə etmək olmaz. Buradan da iqtisadi idarəetmə adamların əmək fəallığını stimullaşdırmaq zərurətini doğurur.

Adamlar nə edirlərsə hökmən onların orada mənafeyi, marağı, tələbatı vardır. Ancaq bu tələbat ödənildikdə real olur. Deməli, tələbatın ödənilməsi vasitəsilə adamların fəallığına təsir etmək olar. Məhz tələbat adamların iqtisadi davranışını müəyyən edir, iqtisadi sahələr arasında əlaqə yaradır.

Tələbatlar cürbəcür olur: şəxsi tələbat, kollektiv tələbat, ictimai tələbat. Tələbat maddi, mənəvi, sosial və intellektual tələbatlara ayrılır. Bu tələbatlar ödənilməsə insanlar normal yaşaya bilməzlər.

İqtisadi idarəetmədə maddi tələbatlar istehsalın inkişafında səmərəliliyin təmin edilməsi aləti kimi istifadə olunur. Mənafe – dərk edilmiş tələbatdır. İnsanların tələbatlarının iqtisadi idarəetmədə nəzərə alınması, onların əmək fəallıqlarının stimullaşdırılmasında ifadə olunur.

İqtisadi stimullaşdırma əməyin normal ödənilməsində, mükafatlandırılmasında özünü ifadə edir. Çox almaq üçün yaxşı işləmək, yaxşı işləmək üçün isə çox pay verilməlidir. Əməyin kəmiyyət və keyfiyyətinə görə ödənilməsi, yüksək nəticələrə görə əməyin mükafatlandırılması istehsalçının maddi marağını artırır, daha yaxşı işləməyə həvəsləndirir.

İqtisadi stimullaşdırma əmək haqqı, mənfəət, faiz, renta, vergi, investisiya, kredit, gömrük haqqı, pul fondları və s. vasitələrlə həyata keçirilir.

İqtisadi idarəetmənin ərazi-sahə, demokratik mərkəziyyət və s. prinsipləri də vardır.

## § 2. İdarəetmə sisteminin iqtisadiyyata təsiri

İdarəetmə çoxcəhətli bir prosesi əhatə edir və cəmiyyətin bütün fəaliyyət dairəsi ilə əlaqədardır. Lakin burada yalnız iqtisadi idarəetmədən bəhs ediləcəkdir.

Cəmiyyətin həyatının əsasını maddi nemətlər istehsalı təşkil edir. Ona görə də bilavasitə maddi nemətlər istehsalı və onun idarə edilməsi ən vacib məsələlərdən biridir. İctimai istehsalın idarə edilməsi bu elmin obyektidir. İdarəetmə elmi ictimai istehsalı istər ayrı-ayrı müəssisələr, istərsə də bütün cəmiyyət miqyasında öyrənir. Bu, idarəetmə sisteminin bütün fəaliyyət dairəsini əhatə edir.

İdarəetmənin obyektləri və subyektləri vardır. İdarəetmənin obyektləri: bütövlükdə xalq təsərrüfatı; xalq təsərrüfatının ayrı-ayrı sahələri; səhmdar cəmiyyətləri; trestlər, konsernlər; birliklər və s. Bütövlükdə ictimai təkrar istehsal və onun fazaları – istehsal, bölgü, mübadilə və istehlak-iqtisadi idarəetmə obyektləridir.

İdarəetmənin subyektləri: dövlət və onun orqanları, inhisar birliklərinin idarə orqanları; birliklərin idarə orqanları; müəssisələrin idarə aparatı; sahibkarlar və menecerlər, banklar, bizneslə məşğul olan fərdlər və s. İqtisadi idarəetmənin subyektləri iqtisadi vasitələrin, kateqoriya və qanunların köməyi ilə istehsalı, bölgünü, mübadiləni və istehlakı idarə edirlər. Eyni zamanda istehsal amillərini müxtəlif sahələr arasında bölüşdürür, istehsalı stimullaşdırır, onun səmərəliliyini yüksəldir və gəlirliyini təmin edir.

İqtisadiyyat vahid proqram və idarəetmə prinsipləri əsasında fəaliyyət göstərməlidir. Bu, xalq təsərrüfatının səmərəli inkişafını təmin edir. Mövcud idarəetmə sisteminin təkmilləşdirilməsi və yenidən qurulması iqtisadi inkişafın sürətləndirilməsində mühüm amildir.

Elmi idarəetmənin mühüm vasitəsi olan tənzimləmə və onun metodlarının təkmilləşdirilməsi iqtisadiyyatın inkişafına müsbət təsir göstərir.

İdarəetmə münasibətləri maddi məzmuna malikdir. İdarəetmənin iqtisadi funksiyası istehsalın mahiyyətindən

irəli gəlir, əmək bölgüsü və əmək kooperasiyası ilə müəyyən edilir. Bu mənada idarəetmə və bu sahədə baş verən münasibətlər maddi istehsalın daxili məzmununu təşkil edir. Deməli, bütün idarəetmə sistemində mövcud pillələr, tənzimləmə metodları və nəticədə bütövlükdə iqtisadi sistemin hərəkət və inkişafına xidmət etməlidir. Buna görə də idarəetmə münasibətləri iqtisadi münasibətlərin passiv nəticəsi deyildir. İdarəetmə münasibətləri iqtisadi münasibətlərin tərkib hissəsi olduğundan, ona əks və fəal təsir göstərə bilən bir fəaliyyətdir.

Deyilənlərdən aydın olur ki, idarəetmə obyekti reallığa əsaslanarsa, milli iqtisadiyyatın inkişafına milli mənafeyi əsas götürməklə idarəetməni qarşısına əsas məqsəd qoyarsa istehsala müsbət təsir göstərər. Milli iqtisadiyyat inkişaf etməsə millət azad, müstəqil yaşaya bilməz. Milli iqtisadiyyat tərəqqi etməsə millətin yalnız çox az bir hissəsi maddi cəhətdən yaxşı yaşaya bilər. Lakin bu onların xoşbətliyi demək deyil. Onlar maddi cəhətdən təmin olunsalar da, millətin əksər hissəsi ehtiyac içərisində yaşayırsa, bu ümumi mənəviyyata mənfi təsir göstərir.

Sovet imperiyası idarəetməni bilavasitə milli iqtisadiyyatın inkişafına yox, ən çox imperiyanın mənafeyinə uyğun səmtə yönəltmişdi. Nəticədə Azərbaycanın milli iqtisadiyyatı qeyri-sağlam vəziyyətə düşmüşdü. Hazırda əsas vəzifə Sovet imperiyasından bizə miras qalmış idarəetmə sistemini dağıtmaq, bazar iqtisadiyyatının yaranması və inkişafına xidmət edən idarəetmə sistemini yaratmaqdır.

İdarəetmə münasibətləri geniş əhatəli münasibətlər sistemindən ibarətdir. O. donuq halda qala bilməz. Məhsuldar qüvvələri inkişaf etdikcə, idarəetmə münasibətləri də inkişaf etməli, təkmilləşdirilməlidir.

İdarəetmə münasibətlərinə sistem halında yanaşmaq lazımdır. İdarəetmə münasibətləri idarə olunanla idarə edənlər, müəssisə ilə sexlər, müəssisə ilə yuxarı qurumlar arasındakı münasibətləri əks etdirir. İdarəetmə münasibətləri, həmçinin şəxsiyyətlərarası, qarışıq qrup, fərdi münasibətlərə ayrılır. Bütün idarəetmə münasibətləri milli mənafeyə əsaslanmalıdır. Bütün səviyyələrdə qüvvələr milli iqtisadiyyatın inkişafına yönəldilərsə, bu, müsbət nəticə verər.

## § 3. İqtisadi psixologiya və iqtisadi təfəkkür

İqtisadiyyat yalnız iqtisadi, təşkilati, inzibati metodlarla idarə olunmur. İnsan psixologiyasının da iqtisadiyyatının inkişafına və onun idarə olunmasına böyük təsiri var.

İnsanın sosail mühiti son dərəcə mürəkkəbdir. Hər bir adam min bir görünməz tellə başqa adamlarla əlaqədə olur. Bu əlaqələr nəinki birbaşa, həm də vasitəli (dolayı) xarakter daşıyır.

İnsalar arasındakı münasibətləri, onların davranış və rəftarlarını öyrənmək, idarəetmədə ondan istifadə etmək müsbət nəticə verir. Bu məsələləri sosial və iqtisadi psixologiya öyrənir.

Müasir elmi-texniki tərəqqi və iqtisadi inkişaf prosesində şəxsiyyətin bilik dairəsi genişlənir, zehni dərinləşir, iddia səviyyəsi yüksəlir, mənəvi potensialı artır, tələbatı fərdiləşir, özünüdərketmə həyati məna kəsb edir. Bir tərəfdən, insanın mədəni, texniki səviyyəsi yüksəlir, digər tərəfdən, əsəbləri zəifləyir, incələşir. Ehtiyatsız söz, hərəkət onun xatirinə dəyir. Buna görə də onunla daha ehtiyatla, qayğı ilə davranmaq, fəaliyyət prosesində, münasibətlər sistemində bu cəhəti nəzərə almaq zərurəti meydana çıxır. İnsanların ünsiyyət sahəsinin

optimallaşması, ünisiyyət mədəniyyətinin yüksəlməsi, kollektivdə sağlam iqlimin yaranması və s. aktual sosial psixoloji problemə çevrilir.

Respublikamızın müstəqil inkişaf yoluna qədəm qoyduğu, iqtisadiyyatı bazar münasibətləri istiqamətində qurduğu bir şəraitdə əgər iqtisadi münasibət sahəsində insan psixologiyası dəyişməsə, yeni qaydada düşünmək və işləmək, irəliləyiş əldə etmək olmaz.

Psixoloji proseslər şəxsiyyətin müxtəlif mənafeləri və tələbatı ilə üzvi surətdə əlaqədardır. Lakin həmin psixi xassə bütün adamlarda eyni deyil. Məhz bu xassəyə görə də adamlar bir-birindən fərqlənirlər. Müəyyən mühit şəraitində rəhbər işçi, sahibkar, menecer həmin psixi xassəyə təsir göstərib onu tənzim oluna bilən bir vəziyyətə çevrilə bilər. Sahibkar, menecer işçinin tələbatının ödənilməsinə qayğı göstərib, ona düzgün istiqamət verərsə, işçinin şəxsi mənafeyi ilə müəssisənin mənafeyi düzgün əlaqələndirilərsə istehsalda daha sağlam əhvali-ruhiyyə yaranar. Belə bir şərait istehsalın inkişafına müsbət təsir göstərməklə yanaşı, eyni zamanda idarəetmə işinin təkmilləşdirilməsinə səbəb olar. Başqa sözlə, şəxsin mənafeyi sahibkarın, millətin və dövlətin mənafeyi ilə düzgün əlaqələndirilərsə, istehsalın inkişafı təmin olunar. Çünki hər cür subyekt – şəxs, sahibkar və dövlət iqtisadiyyatın inkişafında eyni dərəcədə maraqlı olarlar. Yaddan çıxarmaq olmaz ki, insan psixologiyası mənafelər vasitəsilə yaranır və inkişaf edir. Bu halda onlar istehsalın inkişafını təmin etmək üçün bütün güclərini əsirgəmədən, mövcud üsul və vasitələrdən istifadə edərlər. Bu işin həll edilməsində sahibkarın, menecerin çox böyük rolu vardır. Xüsusən idarə edən işçinin nümunə gücü burada mühüm amil rolunu oynayır.

Sahibkarların, menecerlərin hərəkətləri, davranışları, fikirləri, prinsipiallığı, ədalətliliyi, işgüzarlığı, bacarığı, qanunpərəstişliyi və s. kimi keyfiyyətləri tabe olanlara müsbət təsir bağışlayır. Əgər onlar həqiqətən müsbət xarakterlə səciyyələnirsə, onda kollektivdə müsbət xarakterli mühit əmələ gəlir. Əksinə, mənfi xarakterli mühit işçilərdə mənfi emosiyalar yaradır və insanlarda mənəvi naqisliyin yaranmasına səbəb olur.

İnsanın psixologiyasını öyrənmək, onu dərk etmək, ondan idarətemədə istifadə etmək iqtisadi sistemlərdən çox asılıdır. Çünki iqtisadi münasibətlər əsas münasibətlər olduğuna görə, idarəetmənin metod və prinsiplərini də müəyyən edir. Bazar iqtisadiyyatı və inzibati-amirlik sistemində idarəetmənin mahiyyətinin, metod və prinsiplərinin müxtəlif olması buna misal ola bilər. Əgər bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə idarəetmədə iqtisadi metoda üstünlük verilirsə, inzibati-amirlik sistemi ölkələrində idarəetmədə əsasən inzibati metoda üstünlük verilir. Buna uyğun olaraq əhalidə müxtəlif iqtisadi psixologiya və müxtəlif iqtisadi təfəkkür formalaşmışdır.

Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə insanlarda belə bir psixologiya formalaşmışdır ki, yaxşı işləmək, ixtisasını mükəmməl bilmək, işə vicdanla yanaşmaq, ona tapşırılan iş üçün məsuliyyət daşımaq firavan yaşamaq deməkdir. Bunların əksinə, mənfi keyfiyyətlərə malik olanlar isə pis yaşamalıdır. Eyni zamanda işlədiyi müəssisələrin sahibkarları tərəfindən qayğı, şəxsiyyətə hörmət, məsələləri ədalətlə, vicdanla həll etmək kimi müsbət keyfiyyət görürlər. Ona görə də müəssisənin gəlirlə işləməsində maddi marağı olur. İşləyən hər kəs maddi və mənəvi tələbatının tam ödənilməsinə əmin olduğuna görə bütün qabiliyyətlini və bacarığını istehsalın inkişafına sərf edirlər. Buna aid bir

misal: Yaponiyada bir mühəndis sahibkarın tapşırığı ilə bir həftə hər gün işdən sonra 3-4 saat konstruktor bürosunda qalmaqla mühüm istehsal tapşırığını yerinə yetirir. Bunun əvəzində sahibkar bir həftə həmin saatlar qədər evə tez getməyə icazə verir. Üçüncü gün anası: «Xahiş edirəm, hara gedirsənsə get, kinoya, bara, ancaq evə tez qayıtma. Qonşular sənin haqqında pis fikirləşməyə başlayıblar. Mən isə hamıya həqiqəti başa sala bilmirəm» deyir. Bu sözlərin müqabilində mühəndis sadəcə olaraq öz halal istirahət saatlarından əl çəkməli olur.

İnzibati-amirlik sistemində istehsalı əsasən inzibati metodlarla idarəetmə insanlarda başqa cür iqtisadi psixologiya və iqtisadi təfəkkür formalaşdırır. İstehsalı idarə edən şəxslər qabiliyyətinə, istedadına görə yox, çox vaxt siyasi baxışlarına görə təyin olunurlar. Qeyri-normal hallara çox rast gəlinir. Belə bir şərait insanların psixologiyasına pis təsir göstərir və onlarda məsuliyyətsizlik, laqeydlik, tənbəllik psixologiyası formalaşdırır.

İnsanlarda iqtisadi təfəkkürün də düzgün formalaşması mühüm məsələdir.

Adi həyatda insanların əksəriyyəti belə hesab edirlər ki, onlarda kifayət qədər iqtisadi təfəkkür var. Bu, doğrudur, lakin onların iqtisadi təfəkkürü adi iqtisadi təfəkkürdür. Adi iqtisadi təfəkkür natamam məlumatlara əsaslandığına görə iqtisadi hadisə və proseslərin mahiyyətini açmaq üçün kifayət deyil. Ölkə əhalisinin hər bir üzvünün iqtisadi təfəkkürü yüksək olarsa, bütövlükdə cəmiyyətin iqtisadi təfəkkürü yüksək olar.

İqtisadi təfəkkür cəmiyyətin iqtisadi həyatı haqqında elmi biliklər, iqtisadi fikirlər və təsəvvürlərin məcmusu kimi başa düşülür. İqtisadi təfəkkür mövcud iqtisadi bilikləri öyrənmək və onu özünə, öz dövlətinin tərəqqsinə tətbiq etmək əsasında formalaşır. İqtisadi təfəkkürü

formalaşdırmaqda isə məqsəd iqtisadiyyatın inkişafını təmin edən bütün imkanlardan maksimum istifadə etməkdir. İqtisadiyyatın inkişafında milli şüurun yaranmasının mühüm rol oynamasını nəzərə alaraq, iqtisadi təfəkkürlə yanaşı, milli iqtisadi şüurun formalaşması da əsas məsələlərdən biridir.

İqtisadi təfəkkür, iqtisadi biliklər sistemi birdən-birə deyil, tədricən formalaşır. Bunu dərk edən klassik bazar iqtisadiyyatı ölkələrində orta məktəblərdə iqtisadi biliklərin əsasları şagirdlərə öyrədilir. İnzibati-amirlik sistemində isə iqtisadiyyat inzibati metodla idarə edildiyindən vətəndaşların iqtisadi biliyinin və iqtisadi təfəkkürünün formalaşmasına ehtiyac olmadığından orta məktəblərdə iqtisadi biliklərin əsasları tədris olunmamışdır.

Azərbaycan bazar iqtisadiyyatına keçməyi qarşısına məqsəd qoyduğundan Azərbaycan vətəndaşlarının iqtisadi biliklərə yiyələnməsi və iqtisadi təfəkkürün formalaşması zərurəti yaranmışdır. Bununla əlaqədar olaraq XX əsrin 90-cı illərin sonlarından orta məktəblərin IX-XI siniflərində «İqtisadiyyatın əsasları» fənni tədris olunur. Bu şagirdlərin iqtisadi təfəkkürünün və milli şüurunun formalaşmasında müsbət rol oynamalıdr.

## § 4. İdarəetmənin metodları və növləri

İdarəetmə metodları təsərrüfatçılığın həyata keçirilməsinə xidmət edir. Onun metodları çoxsahəli və müxtəlifdir. Metod dedikdə, qarşıya qoyulan məqsədə çatmaq üçün işlədilən fənd, üsul və ya hər hansı idarəetmədə iştirakçıların məqsədə necə çatması vasitəsi başa düşülür.

İdarəetmə metodları, ən əvvəl, iqtisadi qanunların tələblərinin həyata keçirilməsi metodudur. Elmi idarəetmə metodunda iqtisadi qanunların obyektiv xarakteri nəzərə

alınmalıdır. Eyni zamanda iqtisadi qanunlar insan fəaliyyəti ilə əlaqədar olduğuna görə, onun tələbinin əksinə gedən qüvvələr də mövcuddur. İdarəetmə metodu ilə iqtisadi qanunların fəaliyyət göstərməsinə normal şərait yaradılmalıdır.

Qarşıya qoyulan məqsədə müxtəlif yollarla çatmaq olar. Lakin ölkəyə hər cür üsul, metod deyil, daha səmərəli vasitələrin, yolların, üsulların axtarılıb tapılması və ondan istifadə edilməsi lazımdır. İdarəetmənin belə təşkili istehsalın ahəngdarlığına və səmərəliliyinə çox böyük təsir edir.

İdarəetmə prosesində münasibətlər çoxşaxəli və geniş miqyaslı olmasına baxmayaraq onları bir-birinə qarşı qoymaq olmaz və onların hər birinin özünəməxsus üstünlükləri vardır. Təsərrüfat fəaliyyətinin idarəetmədə müxtəlif idarəetmə metodlarından istifadə edilir. Bunlara əsasən aşağıdakılar daxildir: iqtisadi metodlar, inzibati metodlar, təşkiletmə, sosial-psixoloji metodlar, hüquqi metodlar və s. Hamısının ümumi məqsədi isə birdir.

Bazar iqtisadi sistemində istehsalın idarə edilməsində iqtisadi metodlar aparıcıdır. İqtisadi qanunları və istehsalın amillərini nəzərə almaq və ölkənin milli mənafeyinə uyğun aparılan təsərrüfatçılıq metodlarına idarəetmənin iqtisadi metodu deyilir. Lakin iqtisadi metod əsas metod olsa da, bütövlükdə idarəetmə işini tam əhatə edə bilmir. Nizamlayıcı, bölüşdürücü, sərəncamverici cəhətlər də nəzərə alınmalıdır.

Odur ki, bazar iqtisadiyyatı şəraitində iqtisadi idarəetmədə əmək haqqı, mənfəət, qiymət, kredit, vergi və başqa iqtisadi amillər əsas vasitələrdir. Əgər işsi daha çox əmək haqqı alırsa, onun aldığı əmək haqqı normal yaşamağını təmin edirsə daha yaxşı işləməyə çalışacaq. Sahibkarı isə əsas mənfəət maraqlandırır. Daha çox mənfəət əldə etmək xatirinə sahibkar idarəetmənin ən

yaxşı, mütərəqqi, müasir metodlarını istehsala tətbiq etməyə can atacaqdır.

İdarəetmənin iqtisadi metodlarının tətbiqi müəssisənin təsərrüfat fəaliyyətini yüksəldir, az xərclə yüksək nəticənin əldə edilməsini təmin edir və nəticədə normal iqtisadi münasibətlər formalaşır. Demək olar ki, bu vasitələri tətbiq etmədən iqtisadi baxımdan istehsal prosesi baş verə bilməz və hətta baş vermiş olsa belə axıra kimi davam etməz.

İdarəetmənin iqtisadi metodları istehsalın amillərindən həyatda necə istifadə edilməsini əks etdirir. Əgər mövcud istehsal amillərindən səmərəli istifadə edilərsə, ümumi, milli və şəxsi mənafelər düzgün əlaqələndirilərsə, bu zaman istehsalın inkişafı təmin edilmiş olacaqdı.

İdarəetmənin iqtisadi metodlarından istifadə edərkən təsərrüfat mexanizmi ünsürlərinin vəhdətliyini təmin etməyin də rolu vardır. Burada ən mühüm məsələ təsərrüfat mexanizmi məsələlərinə sistem halında yanaşılmasıdır. Bu sistemə planlaşdırma, mövcud istehsal potensialından səmərəli istifadə olunma, idarəetmə metodlarının təkmilləşdirilməsi, maliyyə-kredit mexanizminin səmərəliliyinin artırılması və s. daxildir.

İdarəetmənin iqtisadi metodları arasında planlaşdırma mühüm yer tutur. Planlaşdırma idarəetmənin bir istiqamətidir.

Planlaşdırma müəssisə və dövlət səviyyəsində həyata keçirilir. Hər bir müəssisəni idarə etmək cəmiyyəti idarə etməkdən asan olduğu kimi, hər bir müəssisədə istehsalı təşkil etmək, onun qarşısında duran məqsədi, həmin məqsədə çatmağın vasitələrini planlaşdırmaq da cəmiyyət miqyasındakı planlaşdırmadan asandır.

Cəmiyyət miqyasında əlaqələr o qədər çoxalıb və mürəkkəbləşir ki, onu mərkəzdən də təşkil etmək lazım

gəlir. Lakin bazar sistemindəki mərkəzləşdirilmiş dövlət müdaxiləsi ilə inzibati-amirlik sistemindəki mərkəzləşdirilmiş planlaşdırmanı qarışdırmaq olmaz. Bazar iqtisadi sistemində planlaşdırma sərt, inzibati xarakter daşımır. O, azad sahibkarlığın təşəbbüskarlığını və fəallığını artırmağa şərait yaradır, milli və şəxsi mənafelər əlaqələndirilir. İnzibati-amirlik sistemində isə mərkəzləşdirilmiş planlaşdırma obyektiv reallıqdan təsəvvürə gəlməz dərəcədə uzaq, sərt, inzibati xarakter yüksək səviyyədə olur.

Əgər bazar sistemində sahibkar daha çox mənfəət əldə etmək xatirinə və rəqabətdə məğlub olmaqdan xilas olmaq üçün idarəetməni təkmilləşdirməyə can atırsa, inzibati-amirlik sistemində isə müəssisənin rəhbəri buna ciddi səy göstərmir, «yuxarının» tapşırığını gözləyir.

İdarəetmə metodlarından biri normativ-sərəncam metodudur. Belə ki, hansı səviyyədə olmasından asılı olmayaraq, müəssisə rəhbəri idarə obyektinə normativ-sərəncam metodları vasitəsilə də təsir göstərir. Rəhbərin və mütəxəssislərin göstərişi normativ sərəncam xarakteri daşıyır və onun yerinə yetirilməsi məcburidir. Onu yerinə yetirməyən subyektlər mövcud qanunvericilikdə göstərilən qaydalar əsasında tənbeh edilir. Bu metodla idarə edənlər arasındakı münasibətlər rəhbər işçilərin səlahiyyətlər bölgüsü, idarəedənlərlə idarəolunanlar arasındakı münasibətlərin tənzimlənməsi ilə həyata keçirilir.

İdarəetmənin normativ-sərəncam metodunun təsir vasitələri əsasnamələr, təlimatlar, normativlər, göstərişlər hazırlanır. Onların vasitəsilə istehsalın fəaliyyəti, istehsalçının qarşısında qoyulan vəzifəni necə yerinə yetirməsi üzərində nəzarət yaranır.

Normativ-sərəncam metodları öz növbəsində idarəetmə obyekti və subyekti arasında rəhbərlik və

tabeçilik münasibətlərinin olmasını təmin edir. Bu zaman idarəedənlərlə idarəolunanlar arasında daimi qarşılıqlı münasibətlər baş verir ki, bu da uyğunluğun yaranmasına səbəb olur. Nəticədə səmərəli mütənasiblik yaranır və qarşıya qoyulmuş məqsədə müvəffəqiyyətlə nail olunur.

Təşkilati-təsir vasitəsi də idarəetmə normativ-sərəncam metoduna daxildir. Bu metod idarəetmənin bütün sistemini fəallaşdırır, istehsalın idarə olunmasında ahəngdarlığı təmin edir, qarşılıqlı əlaqələri nizamlayır.

Təşkilati təsirin bir neçə növləri vardır. Bunlara aşağıdakılar daxildir: təşkilati nizamlaşdırma, təşkilati tənzimetmə, təşkilati normalaşdırma və təşkilati metodiki təlimatlandırma.

Hər bir müəssisə yaradılarkən, onun nizamnaməsi olmalıdır. Orada müəssisənin bütün fəaliyyət qaydaları öz əksini tapmalıdır. Orada müəssisənin yaradılmasının məqsədi, əhəmiyyəti, müəssisənin funksiyaları və rəhbərliyi, müəssisənin vəsaiti, müəssisənin ləğv olunma qaydası və yaxud yenidən qurulması qaydası və s. göstərilir. Müəssisənin əsasnaməsi onun rəhbərliyi tərəfindən hazırlanır və təsdiq edilir. Dövlət isə həmin əsasnaməyə riayət olunmasına nəzarət edir. Sahibkar həmin əsasnamənin pozulmasına məsuliyyət daşıyır.

İdarəetmənin təşkilati metodunun təsir formalarından biri tənzimləmə qaydasıdır. Bu metoddan əmək bölgüsünün tənzimlənməsində, xüsusilə hər bir işçinin iş günü ərzində onun fəaliyyətinin nizama salınmasında istifadə olunur. Bu metod eyni zamanda əmək intizamı formalarını saxlamaq üçün də tətbiq edilir.

Təşkilati təsir metodu istehsalın istiqamətinin müəyyən edilməsində əhəmiyyətli rol oynayır. Hər bir sahibkar istehsalını elə qurmalıdır ki, milli və ümumi mənafeyə zərər gətirməsin. Onun istehsal müəssisəsi

texnoloji tələblərə uyğun olmalı, xüsusi təlimatlara, normativlərə əməl etməlidir.

Təşkilati təsirin çevik formalarından biri sərəncam təsiridir. Sərəncam təsiri vasitələri idarəetmənin çevikliyini təmin edir. Bu vasitələrdən biri operativ planlaşdırmadır. Elə hallar olur ki, obyektiv və subyektiv səbəblər üzündən əvvəlcədən planlaşdırılan vəzifəni yerinə yetirmək mümkün olmur. Belə hallarda perspektiv üçün nəzərdə tutulan vəzifələri mövcud şəraitə uyğun dəyişdikrmək və həyata keçirmək lazım gəlir. Bu metodun köməyi ilə kənarlaşdırmaların baş verməsinin qarşısı alınır.

Sərəncam təsiri metodunun köməyi ilə idarəetmə prosesində təşkilati təsir metodları reallaşır, tamamlanır və daha təsirli olur. O, daha çevikdir və direktivdir, yerinə yetirilməsi vacibdir, məcburidir.

Sərəncam təsiri metodunun xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun (sərəncamın) dəqiq yerinə yetirilməsi üçün maddi məsul şəxs olmalıdır. Sərəncam dəqiq ifadə edilməli, məzmunca əhatəli, formaca yığcam yerinə yetirilməsi vaxtı, üsulları və s. əsaslandırılmalıdır. Sərəncam və göstərişlər icraçıya qabaqcadan çatdırılmalıdır.

Sərəncam təsir vasitələrindən biri də əmrdir. Əmr rəhbər tərəfindən verilən idarəetmə aktıdır. Əmr vermək hüququ müvafiq əsasnamə ilə müəyyən edilir. Əmr yazılı və şifahi tərzdə verilə bilər. O, hüquqi normalara və aktlara uyğun gəlməli, işin və fəaliyyətin məqsədini əhatə etməlidir.

Əmr sərəncam kimi idarəetmə aktıdır. Lakin sərəncam əmrə nisbətən mülayimdir. Sərəncamlar da əmr kimi yazılı və şifahi formada verilə bilər. Sərəncamı nəzərə almaq, müəyyən işlərin yerinə yetirilməsinə üstünlük və məlumat vermək formalarında olur.

Lakin əmr və sərəncamlar verməklə iş qurtarmır. Əsas məsələ onların yerinə yetirilməsidir. Ona görə də operativ nəzarət zəruridir. Nəzarət və icranın yoxlanması idarəetmə prosesinin ən mühüm ünsürlərindən biridir. O, qanun-qaydaların yerinə yetirilməsinə nəzarət vasitəsidir. Nəzarətetmə vasitəsilə əmr, sərəncam və göstərişlərin yoxlanılması həyata keçirilir. Nəzarətetmə qaydası obyektiv, təsirli, dəqiqlik və s. bu kimi tələblərə cavab verməlidir.

Təşkilati təhlil də idarəetmə metodlarından biridir. Bu metodun vasitəsilə gələcəkdə iqtisadiyyatı daha da inkişaf etdirmək məqsədilə ehtiyatlar aşkara çıxarılır. İşgüzar təhlil aparılmadan idarəetmə fəaliyyətinə düzgün rəhbərliyi təmin etmək çətindir və hətta mümkün deyildir. Bu metod vasitəsilə idarəetmə fəaliyyətinin mahiyyətinə nüfuz edilir, hadisələrin vəziyyətinin nə yerdə olduğu aydınlaşdırılır. İqtisadi təhlil zamanı ilkin informasiyalar yenidən işlənilir və ondan operativ nəticələr çıxarılır. İqtisadi təhlil idarəetmə qərarlarının, planlaşdırmanın elmi səviyyəsi üçün əsasdır.

Müasir dövrdə idarəetmə prosesində sosial-psixoloji metodlardan istifadə etməyin də əhəmiyyəti artmışdır. Bu, elmi-texniki inqilabın geniş miqyas alması ilə əlaqədar olaraq istehsalda insan amilinin aparıcı rol oynamasından irəli gəlir.

Müasir işçinin səviyyəsi və istehsal mədəniyyəti yüksəkdir. Ona görə də onlarla əvvəlki dövrlərdəki kimi davranmaq olmaz. Təcrübə göstərir ki, adamlara mədəni halda verilən göstəriş, kobud formada veriləndən yaxşı nəticə verir. Məhz buna görə də inkişaf etmiş ölkələrdə sosioloji-psixoloji amillərin öyrənilməsinə böyük əhəmiyyət verilir.

Məlumdur ki, insanlar çox müxtəlif xarakterə və qabiliyyətə malikdirlər. Bununla bərabər, insanlarda

ümumi məqsədə tabe olmaq meyli də vardır. Bundan başqa idarəedənin, sahibkarın xarakteri və nüfuzu də işçinin xarakterinə təsir göstərir. Fəhlə sahibkarların ədalətli və qayğıkeş, xoş rəftar münasibətini gördükdə, ona verilən tapşırığı daha yaxşı və vicdanla yerinə yetirir. Bunu dərk edən idarəedənlər işçilərin fərdi psixologiyasını öyrənmək və onlara hörmətlə yanaşmaqla bərabər, özləri də ədalətli olmağa çalışırlar. Deməli, istehsalın inkişafı psixoloji iqlimdən də çox asılıdır.

Bazar iqtisadi sistemdə idarəetmə münasibətlərinə kompleks yanaşma əsas məsələlərdəndir. İdarəetmə elminin komleksliyi hər bir hadisəyə ayrı-ayrılıqda deyil, sintez halında yanaşmağı tələb edir. Lakin bu heç də ayrı-ayrı problemlərə mexaniki qaydada yanaşma deyildir.

Yeni metodla idarəetməni yeni təfəkkürlü, milli şüura malik olan rəhbərlər həyata keçirə bilər. İndi Azərbaycanın yeni sistemə keçdiyi bir zamanda bunun üçün vaxt lazımdır.

İdarəetmə metodu sistemində inandırma metodunun da əhəmiyyəti vardır. Lakin milli şüur, iqtisadi təfəkkür formalaşmadan və istehsalın nəticəsinə maddi maraq yaratmadan inandırma metodundan istifadə etmək mümkün deyil.

Məcburetmə metodu idarəetmənin daimi, ardıcıl metodu deyildir və idarəetmə münasibətlərində başlıca mövqe tutmamalıdır.

Müəyyən metodlar sisteminə əsaslanmadan idarəetmə münasibətləri, cəmiyyətdə baş verən iqtisadi proseslər haqqında dəqiq, elmi fikir yürütmək olmaz. İdarəetmə sahəsində istifadə olunan metodları iki yerə – ümumi və xüsusi metodlar sisteminə ayırmaq olar.

Ümumi metodlara aşağıdakıları aid etmək olar: kompleks sahələrarası mövqedən yanaşma metodu, müşahidə, təhlil, ümumiləşdirmə, tarixi yanaşma və s.

Xüsusi metod hər bir sahənin özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması ilə ümumi metoddan fərqlənir.

## § 5. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi

Dövlət yarandığı vaxtdan indiyə kimi iqtisadiyyatın inkişafında mühüm rol oynayıb. Lakin bütün dövrlərdə iqtisadiyyatın tənzimlənməsi və inkişafında onun rolu eyni olmamışdır. Məsələn, bazar iqtisadi sistemindən əvvəlki ictimai-siyasi quruluşlarda dövlətin mövcudluğunu daxili və xarici təhlükələrdən qorumaq olmuşdur. İqtisadiyyatın tənzimlənməsinə demək olar ki, qarışmamışdır və yaxud çox məhdud səviyyədə qarışmışdır. O, əsas diqqətini dövlət xəzinəsini vergi yolu ilə doldurmağa və dövlətin müdafiə qüdrətinin möhkəmləndirilməsinə yönəltmişdir. Doğrudur, bu, iqtisadiyyatın inkişafına müsbət təsir göstərən amildir. Lakin iqtisadiyyatın tənzimlənməsi demək deyildir.

Azad sahibkarlıq sistemi yarandıqdan sonra həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əmək bölgüsü yaranır və dərinləşir, əlaqələr çoxalır, mürəkkəbləşir. Bu zaman dövlətin iqtisadiyyatı tənzim etməsinə ehtiyac yaranır. Lakin azad sahibkarlığın inkişafının ilk dövrlərində də dövlətin iqtisadiyyata qarışması indiki qədər zəruri deyildi. Azad sahibkarlığın inkişafının müasir mərhələsində dövlətin iqtisadiyyatı tənzimlənməsi gücləndi. Bu, məhsuldar qüvvələrinin inkişafı nəticəsində istehsalın təmərküzləşməsinin və mərkəzləşməsinin sürətlənməsi nəticəsində inhisarların yaranması, dünyanın iqtisadi və siyasi cəhətdən bölüşdürülməsi və yenidən bölünməsi ilə əlaqədar idi. XX əsrin əvvəllərində bu proses, yəni dövlətin iqtisadiyyatı tənzimi daha da gücləndi. Bu, Birinci dünya müharibəsi

və 1929-1933-cü illərin böhranından sonra daha da artdı. Bu hadisələr bir çox dövlətlərin iqtisadiyyatını bərbad hala saldı, qeyri-sabitliyi artırdı. Bu çətinlikləri aradan qaldırmaq üçün dövlət iqtisadiyyata əvvəlkindən daha çox müdaxilə etməyə məcbur oldu. XX əsrin ikinci yarısında bu proses daha da gücləndi. Bunun bir çox səbəbi vardır. Belə ki, bu dövrdə inhisarçılıq artmışdı, əvvəlki dövrlərdə inflyasiya, iqtisadi böhranlar və müharibələrlə əlaqədar baş verdiyi halda, XX əsrin ikinci yarısında o, xroniki hal almışdı. Bundan başqa, iki sistemin – azad sahibkarlıq və sosializm sistemlərinin iqtisadi və siyasi yarışları bu prosesi gücləndirmişdi. Xüsusilə sovet təhlükəsi bazar iqtisadi sistemində yaşayan (kapitalist) dövlətlərini hərbi sənaye, strateji əhəmiyyətli sahələri yaratmaq və inkişaf etdirməyə vadar etdi. Bu kimi böyük kapital qoyuluşu tələb edən sahələri yalnız dövlət öz üzərinə götürə bilərdi. Bundan başqa, dövlətin köməyi olmadan elmi-texniki tərəqqini təmin edən elm sahələrini inkişaf etdirmək mümkün olmazdı. Elmi-texniki tərəqqi olmadan əmək məhsuldarlığını yüksəltmək qeyri-mümkündür. Əmək məhsuldarlığı yüksək olmayan dövlətin iqtisadiyyatı normal inkişaf edə bilməz.

Ölkənin müdafiə qüdrəti, ordusunun gücü onun iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Öz torpağını müdafiə edə bilməyən xalq asılılığa məhkumdur. Məhz tədbirli dövlət başçısı bunu dərk edir.

Deyilənlərdən aydın olur ki, müasir dövrdə dövlətin iqtisadiyyatın tənzimlənməsinə müdaxiləsi obyektiv zərurətdən doğmuşdur. Əlbəttə, iqtisadiyyatda dövlətin hakim mövqe tutduğu inzibati-amirlik sistemi şəraitində sosial-iqtisadi problemlərin tənzimlənməsindəki dövlətin rolu ilə bazar iqtisadiyyatı şəraitində dövlətin yerinə yetirdiyi iqtisadi funksiyanı eyniləşdirmək olmaz. İqtisadi sistemin xarakterindən və konkret tarixi şəraitdən asılı

olaraq iqtisadiyyatın tənzimlənməsinin bu və ya digər tipi formalaşır. İnzibati-amirlik sisteminə əsaslanan Sovet imperiyası dövründə dövlət nəinki cəmiyyəti, hətta ayrı-ayrı müəssisələri idarə edən orqanizmə çevrilmişdi.

Beləliklə, söhbət dövlətin iqtisadiyyata qarışıb-qarışmasından deyil, dövlətin iqtisadiyyatı hansı səviyyədə tənzim etməsindən getməlidir. Hər şeydə olduğu kimi, dövlətin iqtisadiyyata müdaxiləsinin də həddi var. Buna görə də, ən əvvəl dövlətin iqtisadiyyata hansı səviyyədə müdaxiləsi dərəcəsi müəyyən olunmalıdır. Dövlətin iqtisadiyyata qarışmasının ümumi nəticələri olduğu kimi, hər dövlətin daxili və beynəlxalq şəraitdən, milli xüsusiyyətlərindən asılı olaraq müəyyən fərqlər ola bilər. Dövlətin iqtisadiyyatı tənzimlənməsi məsələsi bütün ölkələr üçün ümumi qanunauyğunluqdur. Dövlətin müəyyən həddən yuxarı və aşağı səviyyədə iqtisadiyyata müdaxiləsi eyni dərəcədə ziyanlıdır.

Dövlətin iqtisadiyyata hansı səviyyədə qarışması sualına ilk dəfə olaraq cavab axtaranlardan biri A.Smit (1723-1790) olmuşdur. O, ümumiyyətlə dövlətin iqtisadiyyata qarışmasını məqsədəuyğun saymırdı.

Hələ Avropanın iqtisadçı alimlərindən çox-çox əvvəl yaşamış böyük ərəb alimi İbnXəldun (1334-1406) demişdir: «Dövlətin əkinçilik və ticarətlə məşğul olması, yurdu abad edənlərə bir təcavüzdür. Çünki, hökmdar, əmir və zorbalar əkinçilik və ticarətlə mallarını istədikləri qiymətlə satdıra biləcəklər ki, bu da təbəqələrin yaşayış səviyyəsinin və vəziyyətinin pislşəmsinə səbəb olacaqdır».

XX əsrin birinci qərinəsində məlum səbəblər ucbatından inhisarların yaranmasının artması, işsizliyin meydana gəlməsi, inflyasiyanın yüksəlməsi və iqtisadiyyatın inkişafının qeyri-sabitliyi iqtisadçıları A.Smitin və onun ardıcıllarının dövlətin iqtisadiyyata

qarışmasının səviyyəsi məsələsinə yenidən baxmağa məcbur etdi. Yeni fikrin görkəmli nümayəndəsi S.M.Keyns olmuşdur. O, 1936-cı ildə çap etdirdiyi «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» adlı əsərində dövlətin iqtisadiyyata qarışmasına aid yeni nəzəriyyə yaratdı.

S.M.Keyns A.Smitdən fərqli olaraq sübut etdi ki, dövlət məcmu tələbə təsir göstərməklə bütünlüklə iqtisadiyyatı tənzimləyə bilər. Keynsin nəzəriyyəsinə görə dövlətin iqtisadiyyatın tənzimlənməsində iştirakında məqsəd böhran hallarını aradan qaldırmaq, maksimum məşğulluğu təmin etmək, nəticə etibarilə iqtisadi artımın sürətini yüksəltməkdən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində dövlət iqtisadiyyatı tənzim edərkən bir çox vəzifələr yerinə yetirir. Bu hal həm qanunvericilik, həm icraedici, həm də nəzarətedici tədbirlər sistemini əhatə edir. Bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan hüquqi bazanın yaradılması, azad rəqabət üçün şərait yaratmaq, gəlir və sərvətlərin yenidən bölgüsünü, milli məhsulun strukturunu təkmilləşdirmək, iqtisadiyyatın sabitləşdirilməsini təmin etmək həmin qəbildəndir.

Bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaratmaq və onu normal tənzimləmək üçün hər şeydən əvvəl, hüquqi baza yaradılmalıdır. Bu, dövlətin iqtisadi funksiyasından daha çox, onun qanunvericilik fəaliyyəti ilə bağlıdır.

Dövlətin həyata keçirdiyi tədbirlər birbaşa, ya da dolayı yolla iqtisadiyyatda zəruri rəqabət mühitinin qorunmasına yönəldilməlidir.

Gəlirlərin yenidən bölgüsü funksiyası da dövlət siyasətinin mühüm tərkib hissəsidir. Dövlət cəmiyyətdə gəlirlərin yenidən bölgüsü yolu ilə sosial təminat fondunu formalaşdırır.

Bazar iqtisadiyyatı şəraitində dövlətin mühüm tənzimləmə funksiyalarından biri də makroiqtisadi tədbirləri ilə bağlıdır. Dövlət iqtisali funksiyalarını yerinə yetirərkən müxtəlif forma və üsullardan istifadə edir. Dövlət hüquqi qanunlarla bərabər, inzibati amillərdən də istifadə edə bilər. Müəyyən inzibati amillər hərəkətə gətirilmədən iqtisadi tənzimləmə prosesi reallaşdırıla bilməz.

Birbaşa inzibati tənzimləmə üsullarının ən mühüm istiqamətlərindən biri dövlətin həyata keçirdiyi antiinhisar tədbirləridir. İqtisadi tənzimləmədə mühüm vasitələrdən biri də dövlətin vergi siyasətdir. Lakin vergini artırmağın müəyyən həddi vardır. Bu hədd keçildikdə mənfi nəticələr verə bilər.

Azərbaycan dövləti iqtisadiyyatı tənzimlənmə prosesində çox çətinliklərlə qarşılaşır. Ona görə ki, indiyə qədər bazar sisteminin əsası olmayıb. Bu, yenidən yaranmalıdır.

Dövlətin ən mühüm vəzifələrindən biri bazar münasibətlərini şərtləndirən hüquqi baza yaratmaqdır. Bu sahədə respublikanın Milli Məclisi iqtisadi islahatların həyata keçirilməsini təmin edən bir çox qanunlar qəbul etmişdir. Bu fasiləsiz proses olduğundan yeni qanunların qəbul olunması və əvvəlkilərin təkmilləşdirilməsi indi də davam edir.

## § 6. İdarəetmə orqanları

Cəmiyyətin inkişafının bütün mərhələlərində idarəetmə obyektiv zərurətdən doğmuş və bu münasibətləri bilavasitə idarəetmə orqanları həyata keçirirlər. Milli iqtisadiyyatın inkişafında idarəetmə orqanlarının istehsalı necə təşkil etməsindən və onların fəallıq, çeviklik göstərməsi dərəcəsindən çox asılıdır.

İctimai-iqtisadi quruluşdan asılı olaraq yaranmış idarəetmə orqanları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Bazar iqtisadi sistemi ölkələrindəki idarəetmə orqanları ilə inzibati-amirlik sistemi ölkələrində idarəetmə orqanları arasındakı fərqlər buna aydın nümunədir. Əgər bazar iqtisadi sistemində müəssisənin idarə edilməsində sahibkarlar və menecerlər həlledici rol oynayırsa, inzibati-amirlik iqtisadi sistemində mərkəzi idarəetmə orqanları şəriksiz idarəetmə hüququna malik olurlar.

Bazar iqtisadi sistemində müəssisəni idarə edən menecer şəraitlə əlaqədar olaraq əvvəlcədən nəzərdə tutulmuş planı dəyişə bilər. Şərait dəyişdiyinə görə, taktiki manevr etmək, işə sərbəst yanaşmaq imkanı yaranır. İnzibati-amirlik sistemində plan qanundur və səhv və düzgün olmasından asılı olmayaraq onu dəyişmək qanunla qadağa edilir.

Məlumdur ki, inzibati-amirlik sistemi dövründə yerli şəraiti, imkanı və başqa amilləri mərkəzdən dəqiqliyi ilə görmək mümkün deyil. Lakin mərkəzdən verilən əmr, sərəncam, göstəriş səhv olsa belə, müəssisənin rəhbəri onu danışıqsız yerinə yetirməli idi. İstehsal vasitələri üzərində dövlət mülkiyyəti mütləq inhisara, bürokratizmə, süründürməçiliyə səbəb olur, mürəkkəb, çoxpilləli idarəetmə aparatı yaradır. Bəzi hallarda idarə orqanlarında işləyənlərin sayı istehsal sahələrində işləyənlərin sayını ötüb keçir. Bu da süni surətdə xərclərin çoxalmasına və istehsalın səmərəliliyinin aşağı salınmasına səbəb olur.

Azərbaycan Respublikası müstəqillik qazansa da hələlik onun bazisi, yəni iqtisadi əsası olan çox mülkiyyətliliyə əsaslanan sağlam milli iqtisadiyyatı hələlik yaranmayıb, başqa sözlə, inzibati-amirlik sistemində yaranmış dövlət müəssisələri əsasən özəlləşdirilməyib, lakin başa çatmayıb. Ona görə də hələlik  keçid dövründə

əvvəllər yaranmış idarəetmə orqanlarından istifadə etməyə məcburdur.

İnzibati-amirlik sistemində sahə idarəetmə orqanları iqtisadiyyatın idarə edilməsində müəyyən rol oynamışlar.

Sabiq ittifaqda nazirliklər ümumittifaq və respublika səviyyəsində idilər. Ümumittifaq nazirliklərinə ümumi maşınqayırma, cihazqayırma nazirlikləri və sair daxil idi. Respublika nazirliklərinə isə yüngül, yeyinti, ticarət, tikinti materialları, maliyyə və s. sahə nazirlikləri daxil edilmişdir.

Ayrı-ayrı ölkələrdə onların hüquq və vəzifələri çoxcəhətli olur. Onlar öz sahəsinin dinamik iqtisadi inkişafını və əmək məhsuldarlığının yüksəldilməsini, istehsalın səmərəliliyinin artırılmasını, maddi və əmək ehtiyatlarından səmərəli istifadə etməyi, elmin, texnikanın yeni nailiyyətlərini istehsala tətbiqetmə işini həyata keçirirlər.

Nazirliklərə nazir başçılıq edir. Nazirliyin kollegiyası rəhbər qurumdur. Kollegiyanın tərkibi nazirdən (sədr), nazirin müavinlərindən və nazirliyin idarə rəislərindən və s. ibarət olur. Nazirlər və nazirliyin digər rəhbər işçiləri onlar qarşısında qoyulmuş vəzifələrə görə dövlət qarşısında məsuliyyət daşıyırlar.

Müvafiq nazirliklər üzrə elmi-texniki tərəqqinin əsas istiqamətlərinin müəyyən edilməsi, sahə üzrə vahid elmi-texniki siyasətin həyata keçirilməsi məqsədilə nazirliyin elmi-texniki şurası yaradılır.

Müvafiq nazirliyin elm və texnika sahəsindəki funksiyası elmi-texniki tərəqqi sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsini təmin etməli, eyni zamanda həmin siyasətin reallaşmasını öz nəzarəti altında saxlamalı idi.

Hazırda Azərbaycanda xalq təsərrüfatının bütün sahələrində olduğu kimi idarəetmə sahəsində də islahatlar həyata keçirilir. Nazirliklərlə yanaşı, komitələr,

departamentlər, şirkətlər, assosiasiyalar, birliklər və digər idarəetmə orqanları yaranır. Məsələn, Azərbaycan Dövlət Neft Şirkəti, Nəqliyyat Departamenti və başqalarını göstərmək olar. Bu idarəetmə orqanları inzibati-amirlik idarəetmə sistemində olan inzibatçılığı bazar iqtisadi sisteminə uyğunlaşdırmaqda keçid mərhələsi rolu oynayırlar.

Dövlət əmlakının özəlləşdirilməsi prosesi genişləndikcə özəl və digər mülkiyyət formalarının xüsusi çəkisi artacaqdır. Bu isə mərkəzi idarəetmə orqanlarının bəzi funksiyalarının yerli idarəetmə orqanlarına keçməsinə səbəb olacaqdır.

Məlumdur ki, müəssisə xalq təsərrüfatının ilk və əsas halqasıdır. Bilavasitə maddi nemətlər burada istehsal olunduğuna görə yerli idarəetmə orqanlarının iqtisadiyyatın inkişafında rolu böyükdür. Hər bir müəssisə idarə edən və idarə olunan sistemlərdən ibarətdir. Onlar vəhdət təşkil edirlər. Bunlar arasında işgüzar münasibət yaratmaq idarə edən orqanın əsas vəzifəsidir. İdarə edən sistem müəssisənin idarəetmə orqanıdır. İdarə edən sistemə direktor, onun müavinləri, sex rəisləri və s. daxildir.

Sex müəssisənin əsas istehsal sahəsidir. O, nisbi müstəqilliyə malikdir. Sex rəisi ona həvalə olunmuş vəzifələri yerinə yetirməlidir. Usta bilavasitə istehsalın təşkilatçısıdır. Sexin fəaliyyətində sex mexanikinin də böyük rolu vardır. O, sexin texniki xidmətinin vəziyyəti üçün cavabdehdir. Sex mexaniki avadanlığın nə vəziyyətdə olması və ondan istifadə olunması məsələlərinə nəzarət edir.

Bazar iqtisadiyyatı şəraitində respublika dövlətinin əsas vəzifələrindən biri bazar iqtisadiyyatına məxsus idarəetmə orqanlarını yaratmaqdır. Bu isə iqtisadi islahatların tez və ağıllı həyata keçirilməsindən asılıdır.

## § 7. İstehsalın idarə edilməsi. Menejment

İstehsalın idarə edilməsinin xarakterini və mahiyyətini mövcud ictimai-iqtisadi quruluş müəyyən edir. Bu baxımdan bazar iqtisadi sistemi ilə inzibati-amirlik sistemindəki fərqlər böyükdür. Əvvəlki mövzularda qeyd olunduğu kimi, inzibati-amirlik sistemində idarəetmə mərkəzləşdirilmiş sərt planlaşdırma metodu ilə həyata keçirildiyinə görə idarə edənlər müstəqillikdən, sərbəstlikdən məhrum idilər. Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə isə iqtisadi fəaliyyət azadlığı, mülkiyyət azadlığı, müstəqillik olduğuna görə müəssisəni idarə edən subeyktlər də azad və müstəqildirlər.

İstehsalın idarə edilməsində sahibkar və işçi arasında normal, insani münasibətlərin yaranması mühüm şərtdir. Başqa sözlə, istehsalçı işçi ilə sahibkarların mənafeləri uzlaşdırılmalıdır. Əgər istehsalın nəticəsi bilavasitə işçinin maddi və mənəvi tələbatının yaxşı ödənilməsinə təsir göstərirsə, deməli, hər iki tərəfin mənafeyi uzlaşır. Əgər bu mexanizmdən düzgün və yaxşı istifadə olunarsa, bunun iqtisadiyyatın inkişafına müsbət təsiri olacaqdır.

İşçilərə inam, etibar, qayğı göstərilərsə, qərarların qəbul edilməsində iştirak etmək və bunlar üçün məsuliyyət daşımaq imkanları verilərsə, o zaman adamların psixologiyası və istehsala münasibəti daha radikal dəyişəcəkdir.

İdarəetmə mexanizmini elə təkmilləşdirmək lazımdır ki, onlar hər bir adamın yüksək iş bacarığını aşkara çıxartsın, onu stimullaşdırsın, bütün müəssisənin ümumi mənafeyinə uyğun gəlməsinə şərait yaradılsın.

Bazar iqtisadi sistemində sahibkar ona məxsus olan müəssisənin idarə edilməsini öz üzərinə də götürə bilər. Onu əmək haqqı vermək şərti ilə idarə etmək qabiliyyəti olan mütəxəssisə də həvalə etməyə üstünlük verər. Müasir, tənzimlənən bazar iqtisadiyyatı şəraitində sahibkarların çoxu ona məxsus müəssisələri idarə edənlərə verməyi daha səmərəli hesab edirlər.

Bazar iqtisadiyyatı sistemi ölkələrində istehsal müəssisələrini idarə edən şəxslərə menecer deyilir. Menecer idarəetmə ustalığına malik olmalıdır. Burada istehsalın təşkilatçısı ilə mülkiyyətin sahibi üzvi surətdə birləşir. O, sərt inzibatçılıq olmadan əmək məhsuldarlığını yüksəltmək qabiliyyətinə malikdir.

Menecerlikdə istehsalın daha yaxşı idarə edilməsi üçün zəruri olan bir çox cəhətlər – istehsalçılarla daha yaxşı davranmaq, idarəetmə ustalığı, xüsusi qabiliyyət və inzibati vərdişlər üzvi surətdə birləşir. Menecer və menecment anlayışları bir-birilə ayrılmaz vəhdətdədirlər.

Menecment – istehsalın gəlirliyini və səmərəliliyini yüksəltmək məqsədilə idarəetmədə tətbiq olunan prinsip, üsul, forma və vasitələrin məcmusudur. Menecmentlik hər hansı obyektin idarə edilməsidir.

Menecment məsələsinin vətəni ABŞ-dır. Məhsuldar qüvvələri inkişaf etdikcə menecment nəzəriyyəsi də inkişaf edir. Belə ki, Amerika menecmentində XIX əsrin 60-cı illərinin əvvəllərində ona sistemli yanaşma üstünlük təşkil etmişdirsə, 70-ci illərin əvvəllərində şəraitli yanaşma ortaya çıxmışdır. Onun əsas məqsədi – ümumi yanaşmaların tətbiqindən qaçmaq, real şəraiti təhlil etmək və konkret şəraitdən asılı olaraq müxtəlif tipli idarəetmə metodlarını tövsiyə etməkdən ibarət olmuşdur.

Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə menecment nəzəriyyəsi inkişaf etdirilir və təkmilləşdirilir. Bu sahədə Yaponiya daha çox

irəliləmişdir. Yaponiya şirkətləri öz menecment sisteminin səmərəliliyini böyük uğurla nümayiş etdirirlər. Onun əsasını insanlarla düzgün münasibət təşkil edir. Sahibkarlar öz təcrübələrində dərk etmişlər ki, heç bir proqram və ya siyasət müəssisədə istehsalı uğurla inkişaf etdirə bilməz. Bunu ancaq insanlar edə bilər. Yapon menecerinin ən mühüm vəzifəsi işçilərə normal münasibət və şərait yaratmaq, işçilərlə menecerin eyni taleyə və şirkətin onların doğma ailəsi olduğuna inam yaratmaqdan ibarətdir.

Dünya ədəbiyyatında elmi menecmentin, əməyin elmi təşkili nəzəriyyəsinin əsasını Amerika mühəndisi F.Teylor (1856-1915) qoymuşdur. Onun elmi menecmentinin mahiyyəti ondan ibarətdir ki, idarə edənlərin və fəhlələrin birgə fəaliyyəti ümumi mənafeyə xidmət etsin. Yəni sahibkar, menecer istehsalın gəlirlə işləməsi ilə nə qədər maraqlıdırsa, fəhlələr də o qədər maraqlı olunsunlar.

Müasir dövrdə menecmentliyin xarakterik xüsusiyyətlərindən biri istehsalı sosial istiqamətə yönəltməkdir. Yəni istehsalı elə təşkil etməkdir ki, əhalinin həyat səviyyəsi əvvəlki dövrə nisbətən yüksəlsin. Təcrübə sübut etmişdir ki, pis yaşayan işçi əmək məhsuldarlığını yüksəldə bilməz. Sahibkarın, dövlətin mənfəətinin çox olması işçilərin əmək fəaliyyətinin yüksək olmasından çox asılıdır. Menecment məhz ona görə bu istiqamətə üstünlük verir. Eyni zamanda o, cəmiyyətin öhdəlikləri ilə onun üzvlərinin ehtiyaclarını birləşdirir. Başqa sözlə, cəmiyyətin manfeyi ilə şəxsi mənafeyi üzvi surətdə uzlaşdırılır. Bundan başqa, menecmentlik cəmiyyətin əxlaq keyfiyyətləri ilə ədalətlilik prinsipləri arasında tarazlığı təmin edir. İstehsal prosesində ədalətlilik, doğruçuluq olan yerdə əhalidə də bu keyfiyyətlər yaranır və əksinə.

İdarəetmə həm elm, həm də «incəsənt»dir. Həqiqi, peşəkar menecer olmaq üçün elmlilik, iqtisadçılıq və insan qəlbinin bilicisi kimi keyfiyyətlər onda birləşməlidir.

Qeyd etmək lazımdır ki, hazırda qabaqcıl xarici ölkələrdə, o cümlədən ABŞ-da idarəetmə kadrlarının təhsili sahəvilik əsasında aparılmır. Məsələn, ABŞ-ın ən nüfuzlu Sloun biznes məktəbində tədris və elmi fəaliyyətin əsas istiqamətləri – insanların davranışı, informasiya sistemləri əməliyyatlarının tətbiqi, marketinq sahəsində araşdırmalar  və sairlərdir.

Amerikadan fərqli olaraq, Yaponiya menecmenti fərdlərə deyil, kollektiv intellektual potensialdan istifadə etməklə əməyin qrupla təşkili formalarına səmtlənmişdir. Bu metod bizim respublikanın xüsusiyyətlərinə, idarəetmə fəaliyyəti və əhalisinin xarakterinə daha uyğundur.

Hazırda respublikanın və xarici idarəetmə sisteminin müqayisəsi göstərir ki, bu sahədə biz hələ çox işlər görməliyik. Ən əvvəl həqiqi menecerlər yetişdirməliyik.

## § 8. İdarəetmə sisteminə nəzarət

İqtisadi sistemlərdən asılı olmayaraq, bütün ölkələrdə məhsulun istehsalı və bölgüsü üzərində dövlətin nəzarəti olmalıdır. Bir çox insanların psixologiyası elədir ki, o, nəzarətsizlik hiss etdikdə, onda mövcud qanun və qaydalara riayət etməmək və onlardan kənarlaşma meyli yaranır. Bundan başqa, iqtisadi hadisə və proseslər çox mürəkkəbdir. İnsanlar bütün qayda və qanunlara əməl etmək istəsə belə, obyektiv olaraq nöqsanlar və ziddiyyətlər ortaya çıxır. Bunlarla yanaşı, insan xilqətində bir eqoizm (xudbinlik) də vardır. «Eqoizm» yunan sözü olub mən deməkdir. Başqa sözlə, insanda öz şəxsi mənafeyini ümumbəşəri və milli mənafedən üstün tutmaq meyli də olur. Doğrudur,

eqoizm hamıda eyni deyil, birində az, digərində çoxdur. Əgər insanın istehsal fəaliyyətində ona nəzarət olmasa az-çox həddini aşa bilər. Bunlar isə iqtisadiyyatın inkişafına böyük zərər vurar. Bu kimi halları vaxtında aşkara çıxarmaq, onları doğuran obyektiv və subyektiv səbəbləri öyrənmək çox vacib məsələdir.

Nöqsan və ziddiyyətlərin səbəblərini bilmədən istehsalı və bölgünü düzgün istiqamətə yönəltmək olmaz. Məhz nəzarətetmə də bu məqsədi güdür.

Deməli, idarəetmədə nəzarət zəruridir və böyük əhəmiyyəti vardır. İstehsalın və bölgünün üzərində nəzarət etmək üçün idarəetmə obyekti haqqında müəyyən informasiyalar olmalıdır. Dövlət orqanları bu informasiyalara əsaslanaraq bütün sosial-iqtisadi məsələlər üzərində nəzarəti həyata keçirir.

Bunu da qeyd etmək lazımdır ki, inzibati-amirlik sistemində idarəetmənin əhatə dairəsi bazar iqtisadiyyatı sisteminə nisbətən daha geniş olur. Ona görə ki, inzibati-amirlik sistemində idarəetmənin əsas vasitələrini inzibati metod təşkil edir. Bir sözlə, dövlət idarəetmədə öz üzərinə böyük yük götürür. Normadan artıq yükü isə dövlət uzun müddət daşıya bilməz. Bazar iqtisadiyyatı ölkələrində idarəetmə orqanları əsasən ümumbəşəri və milli mənafeyə ziyan verən fəaliyyət növlərinə qadağalar qoyurlar. Dövlətin qanunlarını pozanlar isə mövcud qanunvericilik aktları ilə tənzimlənir. Qalan məsələləri isə iqtisadi qanunların normal fəaliyyəti tənzimləyir. Dövlət yalnız iqtisadi qanunların normal fəaliyyəti üçün şərait yaradır. Məsələn, bazar iqtisadi sistemi ölkələrində rəqabət qanunu sahibkarları məcbur edir ki, öz əmtəəsinin fərdi dəyərini aşağı salsın. Bunun üçün sahibkar elmi-texniki tərəqqinin ən son nailiyyətlərini istehsala tətbiq etməli, xammal və materiallardan, əmək və maliyyə ehtiyatlarından qənaətlə istifadə etməlidir.

Göründüyü kimi, müəssisədə istehsalın idarə olunmasına dövlətin nəzarətinə ehtiyac qalmır. İnzibati-amirlik sistemində isə istehsal və bölgü üzərində imperiya dövlətinin inhisarı hökmran olduğuna görə azad rəqabət olmur. Bununla əlaqədar olaraq istehsalın nəticəsini də dövlət mənimsəyir, istehalçının maddi marağı olmadığına görə müəssisələrdə təsərrüfatsızlıq, məsuliyyətsizlik, israfçılıq və digər xoşagəlməz hallar mövcud olur. Buna görə də dövlət idarəetmənin bütün səviyyələrində nəzarəti də əsasən öz üzərinə götürür.

Dövlət istehsal və bölgü üzərində nəzarəti idarəetmə orqanları vasitəsilə həyata keçirir. Nəzarətetmə idarəetmə qərarlarının qəbul edilməsi və həyata keçirilməsinin tərkib hissəsidir.

Nəzarətin başlıca məqsədi qərarların qəbulu ilə icrası arasındakı vəhdətliyi təmin etməkdir. O, eyni zamanda sosial-iqtisadi inkişafdakı nöqsanları, ayrı-ayrı kənarlaşma hallarını aradan qaldırmalıdır. Normal inkişaf etmiş ölkələrdə nəzarətin başlıca məqsədi baş verə biləcək nöqsanların qarşısını vaxtında almaqdan ibarətdir. Bu baxımdan nəzarət həm də xəbərdarlıq xarakteri daşıyır. İnzibati-amirlik sistemində nəzarətin obyekti geniş və rəngarəng olmuşdur. Nəzarət obyekti bir çox sahələri – istehsalı, qeyri-istehsal dairəsini, inzibati orqanları və s. əhatə etmişdir. Nəzarətin subyekti  fərdi adamlar, qruplar, təşkilatlar və s. kimilərdir.

Sabiq sosialist ölkələrində nəzarət edən orqanlar o qədər çox olmuşdur ki, müəssisənin rəhbəri istehsalı idarə etməkdən çox yoxlama komissiyalarına cavab verməklə məşğul olmuşdur. Bu isə istehsalın səmərəliliyinə mənfi təsir göstərən amillərdən biridir.

İdarəetmə orqanları tərəfindən nəzarət həyata keçirilərkən qayda və qanunların pozulması haqqında geniş və ətraflı informasiya materialları toplamalı,

obyektin real vəziyyəti qiymətləndirilməlidir, qanundan kənarlaşmanın obyektiv və subyektiv səbəbləri, qanunun pozulma dərəcəsi müəyyən edilməlidir. Bunların əsasında isə nöqsanların aradan qaldırılması üçün real və ədalətli tədbirlər görülməlidir.

Dövlət nəzarəti icra hakimiyyəti, prokurorluq, məhkəmə, dövlət komitələri, idarələr və müfəttişlər tərəfindən həyata keçirilir.

Dövlət nəzarətinin həyata keçirilməsində Respublika Ali Məhkəməsi, Prokurorluq, Dövlət arbitrajı, İqtisad məhkəməsi mühüm rol oynayır. Məhkəmə orqanlarının nəzarətetmə obyekti müəssisələr, dövlət orqanları, vəzifəli şəxslər və sairədir. Prokurorluq orqanlarının vəzifəsi qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirməkdir. Dövlət arbitrajının obyekti is təsərrüfat mübahisələridir. İqtisad məhkəməsi bilavasitə iqtisadi məsələlərə baxır.

Hökumətin nəzarətinə nazirliklərin, komitə və idarələrin müvafiq nəzarəti də daxildir.

Yuxarıda göstərilən nəzarət formalarından başqa idarədaxili nəzarət forması da vardır. Bu nəzarət forması aşağıdakılardan ibarətdir: istehsala nəzarət, təsərrüfat daxili mühasibat nəzarəti, müəssisədaxili rəhbər işçilərin istehsala etdiyi nəzarət və s.

Nəzarətin həyata keçirilməsində uçot mühüm rol oynayır. O, nəzarətetmə üçün kəmiyyət və keyfiyyət səpkili informasiya verir. Uçot, həmçinin maliyyə, maddi ehtiyatlardan istifadənin təhlil edilməsi üçün də müstəsna əhəmiyyətə malikdir. Təhlil isə öz növbəsində iqtisadiyyatın tənzimlənməsi, müxtəlif normativlərin hazırlanması üçün vacibdir.

İstifadə olunan uçot sisteminə üç forma: operativ, mühasibat və statistika uçotu daxildir. Hər bir uçot formasının öz növbəsində xüsusi vəzifələri, metodları və

təşkil olunma qaydası vardır. Həm də uçot formaları bir-birilə qarşılıqlı əlaqədardır. Çünki mühasibat uçotu nəticə etibarilə operativ uçota əsaslanır. Operativ uçot və mühasibat uçotu müəssisələr haqqında əsas informasiya mənbəyidir, onlar təhlil olunduqda nəzarət-təftiş funksiyasını icra edir. Statistika birinci növbədə bu təlimatlara əsaslanır, onları işləyib hazırlayır və respublikanın xalq təsərrüfatına aid informasiya tələbatını ödəyir.

Qərarların yerinə yetirilməsi, onun reallığı düzgün əks etdirilməsindən, ədalətli olmasından çox asılıdır. Ona görə də qərarın hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi arasında vəhdətliliyin olması zəruridir.

Qərarların düzgün və vaxtında yerinə yetirilməsi, həm də onun düzgün, obyektiv həyata keçirilməsinin əhalinin vəziyyətinə yaxşı təsir etməsinə inamından da asılıdır. Hər hansı qərar qəbul edib, tətbiq etməzdən əvvəl, xalq kütlələri tərəfindən başa düşülməli, ona qarşı daxili inam olmalıdır. Qərar həm də təbliğ olunmalıdır. Lakin obyektiv əsası olmayan təbliğat müsbət nəticə verə bilməz.

Qəbul edilmiş qərarlar vaxtlı-vaxtında icraçılara çatdırılmalı, onun vacibliyi onların inamına çevrilməli, lazım gəldikdə metodik göstərişlər verilməlidir. Bir sözlə, qərarların yerinə yetirilməsi üçün normal şərait yaradılmalıdır ki, o pozulmasın. Tələb olunan vəziyyətdən kənarlaşma halları olduqda, onun aradan qaldırılması üçün tədbirlər görülməlidir.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. İdarəetmə nə üçün zəruridir?
2. İdarəetmənin qarşısında duran vəzifələr hansılardır?

3. İqtisadi idarəetmənin prinsiplərini sayın.
4. İqtisadiyyatın inkişafında idarəetmə sisteminin təsirini izah edin.
5. İdarəetmədə hansı amillər nəzərə alınsa sağlam milli iqtisadiyyatımız yarana və inkişaf edə bilər?
6. Müasir dövrdə insan psixologiyasının öyrənilməsinin və ondan istehsalın idarə olunmasında istifadə olunmasının zəruriliyini və əhəmiyyətini izah edin.
7. İdarəetmədə inzibati metod nədir və onun nöqsanları nədən ibarətdir?
8. İdarəetmənin sosial-psixoloji metodu nədir və onun rolu müasir dövrdə nəyə görə artıb?
9. Dövlətin iqtisadiyyata qarışması nə vaxt baş verdi və nəyə görə bu zərurətə çevrildi?
10. Bazar iqtisadiyyatı şəraitində dövlət iqtisadiyyatı tənzim edərkən hansı vəzifələri yerinə yetirməlidir?
11. Məhsulun istehsal və bölgüsü üzərində nəzarətin olmasının zəruriliyi və əhəmiyyəti nədən ibarətdir?
12. Menecment nədir və onun üstünlükləri nədir?
13. Bazar iqtisadi sistemləri ölkələrində idarəetmə orqanları istehsalın inkişafına necə təsir göstərirlər.
14. Sahibkarların, menecerlərin şəxsi keyfiyyətləri kollektivə necə təsir göstərir?

**Müzakirə üçün suallar və tapşırıqlar**

1. Bazar iqtisadiyyatı ölkələrində və inzibati-amirlik sistemində idarəetmədəki fərqləri izah edin.
2. Müasir dövrdə idarəetmənin rolunun artmasını faktlar gətirməklə şərh edin.

3. Azərbaycan Respublikası Sovet imperiyası dövründə yaradılmış idarəetmə sistemindən nəyə görə imtina etməlidir?

4. Hər üç subyektin, yəni şəxsin, sahibkarın və dövlətin mənafeyinin düzgün əlaqələndirilməsinin istehsalın inkişafına təsiri haqqında danışın.

5. Bazar iqtisadi sistemindəki əmək intizamı ilə inzibati-amirlik sistemindəki əmək intizamı nə ilə fərqlənir?

6. İdarəetmə metodu nədir və o, müəyyən edilərkən nəyə əsaslanır?

7. Bazar sistemində planlaşdırma ilə inzibati-amirlik sistemindəki mərkəzləşdirilmiş planlaşdırmanı müqayisə edin və axırıncının mənfi nəticələrini göstərin.

8. İdarəetmə münasibətlərində kompleks yanaşmanın vacibliyini izah edin.

9. Bazar iqtisadi sistemində dövlətin iqtisadiyyata qarışmasının inzibati-amirlik sistemi ölkələrində dövlətin iqtisadiyyata qarşısının ümumi və fərqli cəhətlərini izah edin.

10. Bazara keçid şəraitində Azərbaycan Respublikası hansı vəzifələri yerinə yetirməlidir və nə kimi çətinliklərə rast gəlir?

11. Müasir dövrdə menecmentliyin xarakterik xüsusiyyətləri hansılardır?

12. İnzibati-amirlik sistemində idarəetmə sisteminə nəzarəti bazar iqtisadi sistemindəki ilə müqayisə edin.

# 15-ji MÖVZU: AZƏRBAYJANIN BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİ

## § 1. Beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlərin formalaşmasının şərtidir

Beynəlxalq iqtisadi münasibətlərin formalaşaraq inkişaf etməsini şərtləndirən amil beynəlxalq əmək bölgüsüdür və onu zəruri edən səbəb isə hər bir dövlətin müstəqil olmasıdır. Hər bir müstəqil, suveren dövlət öz ölkəsinin təbii, iqtisadi sərvətinin və digər iqtisadi resurslarının mülkiyyətçisidir. O öz mülkiyyətinə sərəncam vermək, istifadə etmək, sahib olmaq və onun nəticələrini mənimsəmək hüququna malikdir. Beynəlxalq əmək bölgüsü ictimai əmək bölgüsünün ən inkişaf etmiş formasıdır. Beynəlxalq əmək bölgüsü cəmiyyətin inkişafının bütün mərhələlərində mövcud olsa da bazar iqtisadi sisteminin formalaşması və inkişafı zamanı daha da genişlənmiş və beynəlxalq iqtisadi münasibətlərin formalaşması və inkişafında böyük rol oynamışdır.

Əmək bölgüsü cəmiyyətin iqtisadi münasibətlərində, bu münasibətlərin tarixən təkmilləşməsində və inkişafında xüsusi rola malikdir. Buna görə də bəzi görkəmli iqtisadçı alimlər, mütəfəkkirlər insan fəaliyyətinin bütün sahələrində əmək bölgüsündən başlanmasını göstərmişlər. Deməli, o sadə bir iqtisadi kateqoriya deyildir.

Əmək bölgüsü bəşər cəmiyyətinin obyektiv ümumi iqtisadi qanunlarından biri olmaqla onun bir neçə növü vardır. Bunlardan biri ümumi əmək bölgüsüdür. Ümumi əmək bölgüsü cəmiyyət miqyasında istehsalın sahələrə bölünməsidir. Məsələn, istehsalın böyük sahələri olan sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və s. Əmək bölgüsünün başqa bir forması fərdi əmək

bölgüsüdür. Müəssisədaxili əmək bölgüsünə fərdi əmək bölgüsü deyilir. Bu zaman bu və ya digər məhsulun istehsalında müəssisənin bütün işçiləri iştirak edir, onların hər biri məhsulun bir hissəsinin istehsalı üzrə ixtisaslaşırlar. Əmək bölgüsünün digər forması ərazi əmək bölgüsüdür. Müəyyən istehsal sahələrinin ölkənin müəyyən rayonlarına təhkim edilməsinə ərazi əmək bölgüsü deyilir. Əmək bölgüsünün bir forması olan beynəlxalq əmək bölgüsü öz yetginliyinə görə əmək bölgüsünün ən yüksək və inkişaf etmiş formasıdır.

İstehsal ictimai xarakter daşıdığı kimi əmək bölgüsü də ictimai xarakterə malikdir. İctimai əmək bölgüsü ictimai əməyin ümumi halı olmaqla insan fəaliyyətinin hər bir konkret sahəsinin xüsusiyyətinə, spesifikliyinə uyğun olaraq mövcud olub fəaliyyət göstərir. Belə ki, hər bir sahənin, fəaliyyət dairəsinin öz məzmununa, spesifik xüsusiyyətlərinə uyğun olaraq iqtisadi fəaliyyəti formalaşdıran özünəməxsus əmək bölgüsü meydana gəlib inkişaf etmişdir. Mənəvi və elmi fəaliyyət sahəsində də əmək bölgüsü mövcud olmuş və öz spesifikliyi ilə təzahür etmişdir. Məsələn, bir adam bütün elmləri eyni dərəcədə dərindən öyrənə bilməz. Buna görə də elmlə məşğul olmaq istəyənlər elmin bir sahəsini öyrənmək üzrə ixtisaslaşırlar və bu onlara elmin hər hansı bir sahəsini dərindən öyrənməyə imkan verir. Cəmiyyətin siyasi həyatı da bir növ ictimai əmək bölgüsü əsasında mövcud olub inkişaf etmişdir.

İctimai əmək bölgüsü insan fəaliyyətinin bütün sahələrini əhatə etdiyindən və məhsuldar qüvvələrin inkişafında böyük rol oynadığından dünyanın məhşur alimləri, mütəfəkkirləri bu ümumi iqtisadi qanunun mahiyyəti haqqında fikirlər söyləmişlər. Bunlardan biri də klassik siyasi iqtisadın görkəmli nümayəndələrindən olan D.Rikardodur. O ölkələr arasında xarici ticarətin

zəruriliyini özünün «müqayisəli xərclər» nəzəriyyəsi əsasında irəli sürür və bu zaman o beynəlxalq əmək bölgüsünə və ixtisaslaşmaya istinad edir. İctimai əmək bölgüsünə və yüksək ixtisaslaşmaya söykənməklə Rikardonun yaratdığı «müqayisəli xərclər» nəzəriyyəsi haqqında görkəmli ABŞ iqtisadçısı P.Samuelson obrazlı şəkildə təxminən belə söyləyir ki, əgər gözəl qızların yarışı kimi nəzəriyyələrin də yarışı keçirilsəydi Rikardonun nəzəriyyəsi qalib gələrdi. Bu klassik siyasi iqtisadın tamamlayıcısı olan D.Rikardonun xidmətinə layiqli qiymət vermək demək idi.

Beynəlxalq əmək bölgüsü əmək bölgüsünün digər növləri kimi, məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar dərinləşərək müasir səviyyəyə çatmışdır. Əmək bölgüsünün bu forması dövlət yaranandan sonra formalaşmağa başlamışdır. Bunun şərti isə müxtəlif dövlətlərin təbii şəraiti ilə əlaqədar olaraq, istehsalın müxtəlif istiqamətdə ixtisaslaşması olmuşdur.

Təbii şəraitdə, habelə tarixən formalaşmış istehsalın quruluşu ilə əlaqədar olaraq bu və ya digər dövlətdə əhalinin tələbatının normal ödənilməsi mümkün olmur. Yaxud elə ölkələr var ki, bəzi məhsulların istehsal xərcləri dünya bazarlarındakı istehsal xərclərindən yüksək olur. Digər ölkələrdə isə müəyyən məhsullar ölkə daxilindəki bazarda realizə oluna bilmir. Halbuki həmin məhsullara başqa ölkələrdə böyük tələbat var. Hər iki qrup dövlətlərin, yəni həm bu və ya digər məhsulun daxili bazarda reallaşması çətin olan, həm də həmin məhsula tələbatı olan dövlətlərin arzu və istəklərinin reallaşmasının ən yaxşı və optimal məkanı beynəlxalq bazar ola bilər. Bu hər iki dövlətin milli mənafeyinə uyğun və hər iki tərəf üçün iqtisadi cəhətdən faydalı edir. Məhz buna görə də hər bir dövlət beynəlxalq münasibətlərə həvəslə qoşulur

və özünün sağlam milli iqtisadiyyatını formalaşdıraraq inkişaf etdirməyə çalışır.

Deyilənlərdən aydın olur ki, iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, müxtəlif ölkələrin təbii-coğrafi şəraiti bir-birindən fərqləndiyinə görə, onlar bu və ya digər məhsulun istehsalında üstünlüyə malikdir. Başqa ölkənin isə həmin məhsullara ehtiyacı var. Bu çatışmamazlıq beynəlxalq iqtisadi münasibətlər vasitəsilə aradan qaldırılır. Bunun əsasında beynəlxalq əmək bölügüsü durur. Beynəlxalq əmək bölgüsü – əməyin ictimai ərazi bölgüsünün yüksək forması olub, ayrı-ayrı ölkələrin mübadilə etdikləri müəyyən növə məhsul istehsalı üzrə ixtisaslaşmasıdır. Beynəlxalq əmək bölgüsü ixtisaslaşma ilə yanaşı kooperasiyalaşmanı da özündə ehtva edir. bu isə ölkələr arasında iqtisadi münasibətləri təcüssüm etdirir.

Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirak etməsinə səbəb dünya təsərrüfatlarından təcrid olunmuş halda yaşamağın mümkün olmamasıdır. Ona görə də bütün ölkələr, həm inkişaf etmiş, həm keçid iqtisadiyyatlı, həm də inkişaf etməkdə olan ölkələr beynəlxalq əmək bölgüsünda iştirak edirlər. Bu prosesdə iştirak etməkdə məqsəd daha çox fayda götürməkdir. O, dövlət çox fayda götürür ki, dünya bazarına çıxardığı məhsulun ölkədə olan fərdi dəyəri dünya bazarındakı beynəlmiləl dəyərdən aşağı olsun. Bu isə əmək məhsuldarlığının səviyyəsindən asılıdır. Burada da bazar iqtisadiyyatının qanunları olan rəqabət, tələb və təklif qanunları fəaliyyət göstərir.

Elmi-texniki inqilabın təsiri ilə qloballaşma şəraitində beynəlxalq iqtisadi münasibətlərdə ən çox fayda götürən dövlətlər sənayecə inkişaf etmiş ölkələrdir. Çünki bu ölkələrdə istehsal prosesinin kompleks mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi yüksək olduğundan əmək

məhludarlığı da zəif inkişaf etmiş dövlətlərə nisbətən yüksəkdir. Bu qrupa daxil olan dövlətlər bir qayda olaraq dünya bazarına elm və əməktutumlu hazır istehsal vasitələri və digər sənaye məhsulları çıxarırlar. Bunlar isə daha çox rentabelli sahələrdir. Keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan dövlətlərdə isə kənd təsərrüfatı, hasilat və emal sənayesi üstün inkişaf etdiyindən dünya bazarına ən çox xammal ixrac edirlər. Bunlar isə sənaye və elm sahələrin nisbətən az gəlirli, ziyanla işləyən təsərrüfat növlərdir. Azərbaycan keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan «kiçik» dövlət olduğundan beynəlxalq iqtisadi münasibətlərdə xammal ixrac edən ölkə kimi iştirak edir. Lakin bu o demək deyil ki, zəif inkişaf etmiş dövlətlər beynəlxalq iqtisadi münasibətlərdən fayda götürmürlər. Əksinə beynəlxalq iqtisadi münasibətlərdə iştirak edənlərin hamısı bu və ya digər dərəcədə faydalanırlar, biri çox, digəri ona nisbətən az. Bu hər bir dövlətin rəhbərlərinin istedad və qabiliyyətindən və idarəetmə bacarığından asılıdır. Çünki ən zəif dövlətin belə, sənayecə inkişaf etmiş dövlətdən üstünlükləri vardır. Əsas məsələ ondan bacarıqla, səmərəli istifadə etmək bacarığıdır. Bazar, o cümlədən beynəlxalq bazar elə məkandır ki, oraya daxil olmağı və ondan səmərəli istifadə etməyi bacaran subyektlər heç vaxt oradan naümid qayıtmazlar. Digər tərəfdən sənayecə inkişaf etmiş dövlətlər bu səviyyəyə asanlıqla gəlib çatmamışlar. Onlar indiki yüksək səviyyəsini əldə etmək üçün yüz illərlə fədakarcasına çalışmış, hər cür çətinliyə dözmüş və nəhayət istədiklərinə nail olmuşlar. Bunu hər bir dövlət və onun vətəndaşı dərk etməlidir.

Hazırda dünyada 200-dən çox milli, formal olaraq müstəqil və tam müstəqil iqtisadi subyekt var. Onların hər birinin beynəlxalq əmək bölgüsündə iştirakı və bunun sayəsində dünya təsərrüfat sisteminin formalaşması və

inkişafı, qloballaşma prosesinin müsbət tərəflərindən istifadə edilməsi hər bir iştirakı üçün faydalıdır.

Dünya ölkələri belə bir prinsipi əsas götürürlər ki, əgər bu və ya digər məhsul istehsalı öz ölkəsində dünya bazarında olduğundan baha başa gələrsə, ölkədə lazım olan məhsulları xarici bazarlardan ucuz əldə etmək daha faydalıdır.

Beynəlxalq əmək bölgüsünün əsası olan istehsalın beynəlxalq ixtisaslaşması və beynəlxalq mübadilə bir-birilə üzvi şəkildə vəhdətdədirlər. Bunların birgə normal fəaliyyəti nəticəsində ölkələr arasında xarici ticarət genişlənir. Əmtəələrin xarici ticarət mübadiləsi beynəlxalq iqtisadi münasibətlərin mühüm tərkib hissəsidir. Beynəlxalq mübadilə bir tək əmtəə ixracı ilə deyil, eyni zamanda müxtəlif xidmət növləri ilə, habelə xüsusilə elmi-texniki naliyyətləri əldə etmə təcrübəsi, digər sahələrdə də səciyyələnir. Elmi-texniki tərəqqi şəraitində istehsal alətlərinə, xammala və ərzağa dünya bazarında tələbat dəyişir. Müasir dövrdə istehsalın beynəlxalq ixtisaslaşması və mübadilədə elmi-texniki tərəqqi ilə bağlı sahələr daha çox səmərə verir.

Məlum olduğu kimi, respublikamız uzun illər Sovet imperiyasından asılı olduğuna görə sənayenin bu və ya digər əsas sahələrin inkişafına lazımı diqqət yetirilməmişdir. Buna görə də bir sıra hazır sənaye məhsullarımızı dünya standartlarına cavab vermədiyi üçün dünya bazarına çıxarılması çətindir. Lakin sənayecə inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə etməklə xalq təsərrüfatının strukturunun mütərəqqi istiqamətə doğru dəyişmək və bunun əsasında dünya bazarına hazır, son sənaye məhsulu çıxarmaq mümkündür.

Beynəlxalq təcrübədə birgə sahibkarlığın yayılmış hüquqi formalarından biri konsorsiumdur. Konsorsium – iri miqyaslı maliyyə əməliyyatlarını həyata keçirmək üçün

müəssisələrin, təşkilatların, sənaye şirkətlərinin və bankların müvəqqəti birləşməsidir. Azərbaycan Dövlət Neft Şirkətinin bir çox xarici dövlətlərin neft şirkətləri ilə bağladığı müqavilə əsasında 30 il müddətinə təşkil etdiyi neft konsorsiumu buna misal ola bilər. Dünya bazarına çıxmaq üçün Azərbaycanın bu amildən istifadə etməsi faydalıdır.

## § 2. Beynəlxalq iqtisadi münasibətlərin obyektiv zəruriliyi və nəzəri əsasları

Cəmiyyətin inkişafının ümumi iqtisadi qanunauyğunluqlarından biri cəmiyyətin inkişafının ilk dövründə insan cəmiyyəti hansı formada olmuşdursa sənayenin inkişafının ən yüksək səviyyəsində son nəticədə həmin formaya qayıtmaqdır. Belə ki, insan cəmiyyətinin başlanğıcında dövlətlər, sərhədlər olmadığı kimi cəmiyyətin inkişafının ən yüksək mərhələsində sərhədlər silinəcək, vahid dünya təsərrüfat sistemi yaranacaq, indi mövcud olan hər bir milli müstəqil dövlətlər tədriclə öz müstəqilliklərini itirərək dünya təsərrüfat sisteminin bir subyektinə çevriləcəklər. Lakin beynəlxalq iqtisadi münasibətlərin mahiyyəti və məqsədi cəmiyyətin inkişafının ilk dövrlərdəkindən fərqli olacaqdır.

XX əsrin ortalarında baş vermiş elmi-texniki inqilab beynəlxalq iqtisadi inteqrasiyanı sürətləndirmiş, istehsalın sənayeləşmə prosesini yüksək səviyyəyə qaldırmış, bu isə qloballaşma prosesinin başlanmasına və tədriclə onun əhatə dairəsinin genişlənməsinə səbəb olmuşdur. Qloballaşmanı beynəlxalq iqtisadi inteqrasiyasının ən yüksək məsləsi saymaq olar və o dünya təsərrüfat sisteminin formalaşmasında irəliyə doğru bir addımdır.

Dünya təsərrüfat sisteminin formalaşması bazar iqtisadi sisteminin yaranması və milli dövlətlərin meydana gəlməsi zamanı başlamış və müasir qloballaşma prosesi şəraitində daha yüksək mərhələyə çatmışdır. Bazar iqtisadi sistemi dövründə mərkəzləşmiş milli dövlətlərin yaranması ilə milli bazarlar da meydana gəlmişdir. Ölkədaxili əmək bölgüsünün artması və eləcə də beynəlxalq əmək bölgüsünün dərinləşməsi dünya bazarının yaranmasına şərait yaratmışdır. Habelə iri maşınlı sənayenin inkişafı dünya təsərrüfat sisteminin yaranmasında böyük rol oynamışdır. Bu proses davam edir və istehsal prosesinin kompleks mexanikləşdirilməsi, avtomatlaşdırılması və kompüterləşdirilməsi yüksəldikcə qloballaşma prosesi həm eninə, həm də dərininə inkişaf edəcək. Bu obyektiv prosesin qarşısı alınmazdır və müstəqil dövlətlərin hamısı onların istək və arzusundan asılı olmayaraq burada iştirak etməlidir. Belə çətin, mürəkkəb və ziddiyyətli prosesdə üstünlüklər əldə etməklə bərabər itkilərin də olması təbiidir. Güclülərin zəifləri məğlub etməsi, udması həm təbiətin, həm də cəmiyyətin ümumi qanunauyğunluqlarından biridir.

Bəzi çətinliklər və ziddiyyətlər olmasına baxmayaraq dünya təsərrüfat sisteminin yaranması hər bir ölkənin özünün milli iqtisadiyyatının inkişafına, beynəlxalq münasibətlərin təkmilləşməsinə, iqtisadiyyatın, siyasətin və elmin inkişafına da müsbət təsir göstərir.

Dünya təsərrüfat sistemi milli iqtisadiyyatların məcmusundan ibarətdir. Hər bir milli dövlət dünya təsərrüfat sisteminin imkanlarından istifadə edərək öz milli iqtisadiyyatını inkişaf etdirməyə çalışır. Bununla bərabər, vaxtilə inkişaf etdib irəliyə getmiş iri dövlətlərin dünyada ağalıq etmək iddiası başqa dövlətlərin, yəni milli dövlətlərin mənafeyinə böyük zərbə vurur. Dünyada ağalıq etmək uğrunda mübarizə kiçik dövlətlərə və bütün

dünya iqtisadiyyatına, insanların mənəviyyatına pis təsir göstərir. Dövlətlər arasında ziddiyyətlər də buradan irəli gəlir. Məsələn, ABŞ-ın xarici siyasəti buna misal ola bilər. Bu dövlət demokratiya pərdəsi alıtnda zəngin neft regionlarını ələ keçirmək üçün hər cür ədalətsizliyə yol verir. Əfqanıstana və İraqa qoşun yeritməkdə məqsədi heç də o dövlətlərdə qanun-qayda yaratmaq yox, İraqın zəngin neft ehtiyatlarını öz nəzarəti altına keçirməkdir. ABŞ bu dövlətlərdə hərbi əməliyyat aparmağa 4,5 trilyon dollar xərcləmişdir, bu ölkələrdə ordu saxlamağa hər ay on milyard dollar vəsait sərf edir ki, bu vəsait Azərbaycanın bir illik dövlət büdcəsinə yaxındır. Əgər ABŞ bu qədər vəsaiti qlobal problemlərin həllinə yönəltsəydi dünya təsərrüfat sisteminin formalaşması və inkişafı daha çox qazanardı.

Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərinə cəlb olunmasını zəruri edən çoxlu obyektiv səbəblər mövcuddur: birincisi, beynəlxalq əmək bölgüsünün fəaliyyət göstərməsidir. Bu ümumi iqtisadi qanun obyektiv xarakter daşıdığından onun tələblərinə əməl etməmək məhv olmaq deməkdir. Çünki insan cəmiyyətinin inkişafının bütün mərhələlərində heç bir fərd, müəssisə, dövlət və başqa subyektlər özünün mövcud olması üçün zəruri olan maddi nemətlərin hamısını özü istehsal edə bilməz. Ona görə də bu subyektlər bir və ya iki məhsul istehsalı üzrə ixtisaslaşdırılır. Bu ixtisaslaşma texniki tərəqqiyə geniş meydan açdığına görə burada əmək məhsuldarlığı orta göstəricidən yüksək olur və təbiidir ki, onun sahibi ixtisaslaşmayan sahəyə nisbətən daha çox gəlir götürür. Hər bir dövlət də öz ölkəsinin təbii şəraitinin imkan verjiyi bu və ya digər sahədə məhsul istehsalı üzrə ixtisaslaşdığından dünya bazarında üstünlük qazana bilir.

İkincisi, Azərbaycan həm keçid iqtisadiyyatlı, həm də inkişaf etməkdə olan dövlətlər qrupuna daxil

olduğundan müstəqilliyini bərpa etdikdən sonra bir çox problemlərlə qarşılaşmışdır. Belə ki, sovet müstəmləkəçiliyi və sosializmin sovet modeli dağılsa da Azərbaycana böyük faciələr və fəlakətlər qoyub getmişdir. Bunun aradan qaldıırlması böyük maliyyə vəsaiti tələb edir. Buna isə Azərbaycanın kifayət qədər imkanı yoxdur. Xarici kapitalı Azərbaycana cəlb etməkdə xalq təsərrüfatının bütün sahələrini yenidən qurmaq olar və xarici kapitaldan milli mənafeyə uyğun istifadə etməmək dövlət müstəqilliyini itirməyə bərabərdir.

Üçüncüsü, Azərbaycan uzun illər sovet müstəmləkəçiliyində və sosializmin sovet sistemində yaşadığından texnika və texnologiyası çox zəifdir və dünya standartlarına cavab vermir. Mövcud texnika və texnologiyanın 70-80 faizi fiziki və mənəvi aşınmaya məruz qalmışdır. Buna görə də onun kütləvi surətdə təzələnməsinə, modernləşdirilməsinə kəskin ehtiyac vardır. Azərbaycan dövləti bu ehtiyacı ödəmək üçün hökmən xarici dövlətlərlə iqtisadi münasibətlərə girməli və onların köməyi ilə öz ölkəsində əsas istehsal fondlarını müasir texnika və texnologiya ilə əvəzləməlidir.

Dördüncüsü, Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti elədir ki, ölkə əhalisinin hətta ərzağa olan zəruri ehtiyaclarını öz istehsalı hesabına təmin etmək iqtidarında deyildir. Bu problemi qısa bir müddətdə həll etmək də reallıqdan uzaqdır. Ona görə də xarici ticarətin müasir Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında rolu böyükdür.

Beşincisi, keçid iqtisadiyyatlı dövlətlər, o cümlədən Azərbaycan üçün qeyri-sabitlik xarakterikdir və bu dövlətlərin ümumi iqtisadi qanunauyğunluğudur. Azərbaycan buna digər keçid iqtisadiyyatlı dövlətlərdən daha həssasdır. Çünki Azərbaycanın müstəqilliyini istəməyən dövlətlər daha çoxdur. Bunların içərisində

Rusiya Federasiyası xüsusilə mənfi mənada fərqlənir. Onun köməyi ilə Ermənistan Azərbaycanın ərazisini işğal etmişdir və o Ermənistanı Azərbaycanda siyasi sabitliyi pozmağa təhrik edir. Deməli, müstəqil Azərbaycanın siyasi durumu, Azərbaycan dövlətinin müstəqilliyini qorumaq və möhkəmləndirmək zərurəti Azərbaycanı beynəlxalq iqtisadi münasibətlərə daxil olmağa vadar edir. Azərbaycanın əldə etdiyi siyasi istiqlalı tədricən möhkəmləndirmək üçün xarici ölkələrlə iqtisadi əməkdaşlıq həm siyasi, həm də iqtisadi cəhətdən çox vacibdir. Azərbaycan dünya təsərrüfatının tərkib hissəsinə çevrilməklə burada başqa dövlətlərin maraqları əmələ gəlir. Öz maraqlarını təmin etmək xatirinə həmin ölkələr Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanmasında da maraqlı olurlar. Digər tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlığın nəticələrindən istifadə edib respublika öz daxili iqtisadi problemlərini tədricən həll etmək imkanı qazanır.

Azərbaycan sovet imperiyası dağıldıqdan sonra müstəqil bir dövlət kimi dünya təsərrüfat sisteminə keçid iqtisadiyyatlı kiçik, xammal ixrac edən dövlət kimi daxil olmuşdur. Buna görə də klassik bazar iqtisadi sistemi dövlətləri ilə dünya bazarında rəqabətə girmək çox çətindir. Çünki məlum səbəblər üzündən Azərbaycanın texnika və texnologiyası dünya standartlarına uyğun gəlmir, dünya bazarına son məhsul, elmi-texniki tərəqqini təmin edən sənaye məhsulu çıxarmaq iqtidarında deyil və dünya nəhəngləri ilə rəqabətə girməkdə bir çox problemlərlə qarşılaşmışdır. Bununla bərabər Azərbaycan heç də bütün dövlətlərə müyəssər olmayan üstünlüklərə malikdir. Bu Tanrının Azərbaycana təmənnasız bəxş etdiyi gözəl təbii şərait, çox zəngin, rəngarəng və tükənməz yeraltı və yerüstü təbii sərvətlərdir. Belə ki, coğrafi baxımdan Azərbaycan məkanının əlverişliyi,

Azərbaycan yer kürəsinin sanki mərkəzidir. Qərb və Şərq, Şimal və Cənub arasında əlaqələrin yaranmasında Azərbaycan ərazisi misilsiz rola malikdir. Azərbaycanın dünya ticarət və hava yollarına asanlıqla çıxmaq imkanları vardır. Burada xarici iqtisadi münasibətlərin yaradılması üçün əlavə xərclər tələb olunmur. Halbuki elə dövlətlər var ki, iqlim şəratinin əlverişsiz olması ucbatından xarici əlaqələrdə problemlər yaranır. Azərbaycanda bütün ilboyu təzə və keyfiyyətli meyvə və tərəvizin bol olması, havasının mülayimliyi, ucuz işçi qüvvəsi, mənzil və kommunal xərclərinin az olması, əhalisinin mehriban və humanistliyi xarici iş adamlarını özünə maqnit kimi çəkir.

Azərbaycanın zəngin təbii və kifayət qədər insan resurslarına və xammal ehtiyatlarına malik olması da beynəlxalq münasibətlərdə uğurlar qazanmağa imkan verən amillərdəndir. Bunlara neft, qaz, pambıq, tütün, üzüm, barama, balıq kürüsü, sitrus bitkiləri, müxtəlif ehtiyatlar, əsasən ixtisassız və qismən ixtisaslı ucuz işçi qüvvəsi və başqaları daxildir.

Beynəlxalq iqtisadi münasibətlərin nəzəri əsasları klassik siyasi iqtisadın görkəmli nümayəndələrindən biri olan D.Rikardo (1772-1823) tərəfindən qoyulmuşdur. O zaman xarici iqtisadi əlaqələrin əsas və aparıcı forması xarici ticarət olmuşdur. Müasir dövrdə xarici iqtisadi münasibətlərin çoxlu və müxtəlif formaları meydana gəlsə də yenə qədim və ənənəvi xarici əlaqə forması olan xarici ticarət üstün rolunu özündə saxlamışdır.

Beynəlxalq iqtisadi münasibətlərin nəzəri əsasında D.Rikardonun «Müqayisəli xərclər» və ya «müqavisəli üstünlük» nəzəriyyəsi dayanır. Bu nəzəriyyəyə görə təbii resurslar, insan və investisiya resursları ölkələr arasında qeyri-bərabər bölüşmüşdür. Elə dövlətlər var ki, nefti, təbii qazı ya azdır və yaxud təmamilə yoxdur. Məsələn, dünyada 200-dən çox dövlətin olmasına baxmayaraq

yalnız 41-də neft hasil edilir. Digərlərində isə adı çəkilən təbii resurslar öz ölkəsinin tələbatından artıqdır. Bunları dövlətlər arasında ədalətli şəkildə yenidən bölmək qeyri-mümkündür. Çünki bu dövlətlərin ərazi bütövlüyünün pozulması, hərcmərclik, müharibələr demək olardı. Dünya miqyasında sabitliyin pozulması isə heç kimə xeyir gətirə bilməz. Təbii iqlim şəraiti haqqında da eyni sözləri demək olar. Təbii şəraiti dəyişmək, səhranı subtropik zonaya çevirmək insanın iradəsindən xaricdədir. Elə kənd təsərrüfatı məhsulları var ki, onun istehsalı yalnız bu və ya digər dövlətlərdə yetişir. Halbuki bu məhsulun yetişmədiyi ölkələrdə də əhalinin həmin məhsullara tələbatı var.

Ölkələr arasında texnika və texnologiya istehsalı, işçilər, maliyyə vəsaiti də müxtəlif həcmdədir. Elə dövlətlər var ki, tarixən keçidiyi inkişaf yolu, müxtəlif iqtisadi sistemdə yaşamaları ilə əlaqədar olaraq maliyyə vəsaiti çox olduğundan tətbiq olunmaya yer axtardığı halda digərinin buna böyük ehtiyacı vardır. Çoxlu maliyyə vəsaitinə və yüksək texnika və texnologiyaya malik olan dövlətlərin həmin resursların başqa ölkələrdə tətbiqinin hər iki tərəf üçün səmərəlidir. Çünki hər bir dövlət dünya təsərrüfat sisteminin bir subyektidir və qlobal problemlərin həlli hər bir dövlətin milli iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Ona görə də hər bir suveren, müstəqil dövlət bir-birinə kömək etməlidir.

Deyilənlərdən aydın olur ki, ölkələr arasında təbii sərvətləri yenidən bölmək və təbii şəraiti dəyişmək qeyri-mümkündür, digər tərəfdən iqtisadi resursların mobilliyi aşağıdır. Ona görə ki, xarici ticarət resursların beynəlxalq mobilliyinin əvəzləyicisi və yenidən bölgüsü kimi ortaya çıxır. Başqa sözlə, insan resurslarını və maddi resursları ölkələrarası sərbəst hərəkət etdirmək mümkün olmadığı

halda, əmtəə və xidmətlərin bu cür hərəkəti tamamilə mümkündür.

Beynəlxalq iqtisadi münasibətlərin, o cümlədən xarici ticarətin nəzəri müddəaları reallığı əks etdirdiyindən o yaranandan indiyə kimi xarici iqtisadi münasibətlərin nəzəri əsasını təşkil edir. Çünki o dünya təcrübəsi sınağından uğurla keçmişdir. Bu nəzəriyyə tələb edir ki, hansı dövlət hər hansı məhsulun istehsalında üstünlüyə malikdirsə, həmin məhsulun istehsalı üzrə ixtisaslaşsın. Buna təbii-iqlim şəraiti, iqtisadi və əmək potensialı da təsir göstərir. Bu üstünlüklər həmin dövlətə imkan verir ki, onun ölkəsində istehsal olunan əmtəə və xidmətlərin dəyəri dünya bazarında analoji əmtəə və xidmətlərin dünya bazar dəyərindən aşağı olsun. Belə olduqda həmin dövlət dünya bazarında üstünlük qazanır. Məsələn, Yaponiya çoxlu və yaxşı təhsil almış işçilərə malikdir. Burada ixtisaslı əmək ucuzdur, təbii resurslar isə məhduddur. Ona görə də Yaponiyada az xammal və az material tutumlu, lakin yüksək ixtisaslı əmək tələb edən şeylərin (fotokameralar, radio, video, televideo və sair dəqiq cihazqayırma) istehsalı səmərəlidir. Əksinə, Avstraliya böyük torpaq sahəsinə, lakin az insan və kapital resurslarına malikdir. Ona görə də torpaqla bağlı məhsulların – taxıl, yun, ət və s. istehsalı ucuzdur. Braziliyada tropik iqlimin, məhsuldar torpaqların, bol ixtisıssız əməyin olması ucuz kofe istehsalı üçün sərfəlidir.

Xarici ticarət nəzəriyyəsinin müddəalarına ABŞ kimi böyük və qüdrətli dövlət də əməl etməkdə maraqlıdır. Çünki buradan o çoxlu mənfəət götürür. Məsələn, ABŞ-ın müəyyən istehsal sahələri, məsələn, banan, kakao, kofe, çay, inək, xammal, nikel, qalay, kauçuk, almaz kimi məhsulların istehsalı mümkün olduğu halda ABŞ adı çəkilən məhsulları dünya bazarından almağa üstünlük

verir. Ona görə ki, həmin məhsulların fərdi dəyəri dünya bazar dəyərindən yüksək olduğundan onları idxal etmək ABŞ üçün daha səmərəlidir. Bunun əvəzinə taxıl istehsalı üzrə ixtisaslaşmaq və dünya bazarına taxıl ixrac etmək ABŞ-ın milli mənafeyinə uyğun olduğundan və daha çox mənfəət verdiyindən ixtisaslaşma bu istiqamətə yönəldilir. Fərz edək ki, kofenin dünya bazarında bir vahidinin qiyməti dörddür, ABŞ-da isə bunun fərdi dəyəri beş vahidə bərabərdir, taxılın isə müvafiq olaraq fərdi dəyəri üç və dünya bazarında qiyməti beşdir. Deməli, «müqayisəli xərclər» və ya «müqayisəli üstünlüklər» nəzəriyyəsi tələb edir ki, kənd təsərrüfatı istehsalını kofe istehsalı üzrə yox, taxıl istehsalı üzrə ixtisaslaşdırmaq ABŞ üçün daha səmərəlidir. Çünki o həm kofe üzrə ixtisaslaşdıqda artıq xərclərdən xilas olur, həm də dünya bazarında istehsal etmiş taxılı istehsal xərclərindən əhəmiyyətli dərəcədə yuxarı satmaqla üstəlik mənfəət əldə edir.

Azərbaycanın «müqayisəli xərclər» və ya «müqayisəli üstünlük» nəzəriyyəsindən beynəlxalq münasibətlərdə istifadə etməsi çətin olsa da imkanlar vardır. Sənaye sahəsində bu sahədə hələlik şərait yetirməmişdir. Lakin aqrar bölmədə potensial imkanlar çoxdur. Bunları aşkara çıxarmaq və onlardan istifadə etmək əsas vəzifələrdən biridir.

### § 3. Azərbayjan müstəqilliyini bərpa etdikdən sonra onun xariji iqtisadi münasibətlərinin yenidən qurulmasının zəruriliyi

Azərbaycan 1920-ci ildə sovet işğalına məruz qaldıqdan sonra öz müstəqilliyini itirdiyindən dünya təsərrüfat sisteminin subyektiv ola bilməmişdir və təbiidir ki, onun müstəqil xarici iqtisadi siyasəti də ola bilməzdi.

Məhz buna görə də onun beynəlxalq əmək bölgüsü sistemində birbaşa iştirak etməsi mümkün deyildi. O yalnız böyük müstəmləkəçi dövlət olan keçmiş SSRİ-nin tərkibində dolayısı ilə beynəlxalq əmək bölgüsündə iştirak edə bilərdi. Bu dövlət isə qapalı dövlət olduğundan beynəlxalq əmək bölgüsü sistemində yalnız bir qrup ölkə ilə qarşılıqlı əlaqədə olmuşdur. Bunlar isə sosialist sisteminə daxil olan dövlətlər idi. Onun bazar iqtisadi sisteminə daxil olan dövlətlərlə iqtisadi əlaqələri demək olar ki, pozulmuşdur. Sosialist sisteminə daxil olan dövlətlərlə əlaqələri də məhdud xarakter daşımış və əsasən qarşılıqlı əlaqə əmtəə mübadiləsindən ibarət olmuşdur. Əslində, SSRİ-nin dünya ticarətində iştirakı yanacaq-xammal materiallarının maşın və ərzaqla dəyişmələrilməsindən ibarət idi. Mübadilənin belə strukturu xarici iqtisadi münasibətləin birtərəfli inkişaf etdiyini göstərir. Sovet dövləti faktiki olaraq beynəlxalq əmək bölgüsündə ancaq bir amildən – təbii resurslardan istifadə edirdi. Halbuki istər o vaxtlar, istərsə də müasir şəraitdə sənayecə inkişaf etmiş Qərb ölkələri beynəlxalq əmək bölgüsündə əsasən elmtutumlu məhsuldan və mükəmməl texnologiyadan, həmçinin yüksək ixtisaslı kadrların intellektual potensialından istifadə edir. Bu da hər iki iqtisadi sistemin, yəni həm inzibati-amirlik, həm də bazar iqtisadi sisteminin mahiyyəti ilə əlaqədardır.

Sosializmin sovet modelinin mahiyyətindən doğan mənfi cəhətdən biri keçmiş SSRİ-nin kifayət qədər sənaye potensialına malik olmasına baxmayaraq, o, faktiki olaraq, özünü beynəlxalq sənaye kooperasiyasında iştirakını minimuma endirmişdi. Halbuki, elmi-texniki inqilabın baş verdiyi şəraitdə, kapital ixracı və istehsal korperasiyası faktiki olaraq transmilli kapitalın hakim olduğu dünya istehsal infrastrukturunu yaratmışdır. Dünyanın bir çox ölkələrində müasir texnika

və texnologiyadan istifadə əsasında çoxmilli korporasiya və firmalar, beynəlxalq istehsal kompleksləri yaradılmış və fəaliyyətə başlamışdır.

Keçmiş SSRİ-nin beynəlxalq əmək bölgüsündə iştirakının mənfi cəhətlərindən biri əmək bölgüsünün mətərəqqi forması sayılan kooperasiya prosesində iştiraka şərait yaratmamasıdır. Bunun də səbəbi yenə sosializmin sovet modelinin mahiyyəti ilə əlaqədardır. Belə ki, yanacaq və xammalın hazır məhsula mübadiləsi bir çox problemlər doğrultmuşdur, bu sistemdə istehsal olunan maşın və avadanlıqların keyfiyyəti dünya standartlarından geri qaldığından iqtisadi münasibətləri qurmaq çətin olmuşdur.

SSRİ-nin beynəlxalq əmək bölgüsündə iştirakının xüsusiyyətlərindən biri də onun elmi-texniki tərəqqini sürətləndirməyə və elmi-texniki inqilabın baş verməsinə fəal təsir imkanlarından məhrum olması idi. Təbii ki, dünya təsərrüfat sistemində bu cür iştirak əmək məhsuldarlığının yüksəldilməsində və texniki tərəqqinin inkişafında əsas rol oynayan, istehsalın ixtisaslaşmasını lazımı səviyyəyə çatdırmaq çox çətin idi. Belə bir şəraitdə ölkənin sosial-iqtisadi problemlərinin uğurla həll edilməsindən söhbət gedə bilməzdi.

Sovet hakimiyyəti illərində İitifaqa daxil olan respublikaların, o cümlədən Azərbaycanın beynəlxalq əmək bölgüsündə dolayı yolla və passiv iştirak etməsi özünü xarici ticarət dövriyyəsinin azalmasında, bilavasitə büruzə vermişdir. Xarici ticarətin dövlətin tam inhisarında olması müttəfiq respublikaların, o cümlədən Azərbaycanın xarici iqtisadi münasibətlərinin optimal şəkildə qurulmasına şərait yaratmamışdır.

Bütun bu proseslər Sovet İttifaqının respublikalarından biri kimi Azərbaycan üçün də xeyir gətirməmişdir, onun sağlam milli iqtisadiyyatının

formalaşması və inkişafına mane olmuş və onu başqa respublikalardan, ilk növbədə Rusiyadan asılı vəziyyətə salmaqla yanaşı respublikanın beynəlxalq əmək bölgüsündə birbaşa müstəqil iştirakına imkan verməmişdir. Bunun acı nəticələri artıq müstəqillik əldə etdiyimiz indiki zamanda özünü göstərməkdədir. Beynəlxalq iqtisadi münasibətlər sahəsində qarşılaşdığımız problemlərin hamısı sovet müstəmləkəçiliyindən və sosializmin sovet modelindən bizə miras qalmışdır. Müstəqillik dövründə onların aradan qaldırılması əsas vəzifələrdən biridir və buna nail olmadan Azərbaycanın sağlam milli iqtisadiyyatını nə formalaşdırmaq, nə də inkişaf etdirmək mümkün olmaz.

Statistik mənbələrdə göstərirlər ki, hələ 1980-ci ildə Sovet Azərbaycanın 110 müəssisəsi 85 ölkəyə 350 adda, 1990-cı ildə isə 236 müəssisəsi 100-dən çox xarici ölkəyə 400 adda məhsul göndərmişdir və eyni zamanda xarici ölkələrdən də çoxsaylı məhsullar almışdır. Bütün bunlara baxmayaraq Sovetlər Birliyinin müstəmləkəsi olduğu müddətdə Azərbaycanın özünün müstəqil xarici iqtisadi siyasəti olmamışdır. Çünki onun müstəqil dövləti yox idi və buna görə də respublikada istehsal olunub, xarici ölkələrə göndərilən bütün məhsullar SSRİ-nin markası altında hərəkət edirdi. Dünya bazarında əmtəələrin reallaşdırılması şəraitində baş verən dəyişiklik birbaşa istehsalçı müəssisələrin fəaliyyətinə təsir etmirdi. Buna görə də Sovetlər sistemində Azərbaycanın xarici əlaqələrinə onun bilavasitə beynəlxalq əmək bölgüsü sistemində iştirakı kimi baxmaq olmaz.

Hazırda siyasi müstəqillik qazanmış vətənimizin iqtisadi çətinliklərdən çıxması, bütün potensial imkanların aşkara çıxarılması və hərəkətə gətirilərək inkişafının təmin olunması vəzifəsi beynəlxalq əmək prosesinə daha fəal qoşulmağı tələb edir.

Azərbaycan dövləti müasir bazar iqtisadi sisteminin iqtisadi əsası olan çoxmülkiyyətli iqtisadiyyatın formalaşması üçün bir çox tədbirlər görmüş, iqtisadi islahatlar həyata keçirmişdir. Bütün bunların sayəsində müstəqilliyimizin 19 ili ərzində yeni, çoxmülkiyyətli iqtisadiyyatın formalaşmasında və onun yenidən qurulmasında irəliləyişlər olmuşdur.

Müstəqillik dövründə mülkiyyət münasibətlərinin dəyişməsi, onun yenidən qurulması insan fəaliyyətinin bütün sahələrində, o cümlədən beynəlxalq iqtisadi münasibətlərdə yeni, yəni bazar iqtisadi sisteminə uyğun münasibətlərini qurmaq obyektiv zərurətdir. Çünki beynəlxalq iqtisadi münasibətlər ölkə daxilindəki iqtisadi münasibətlərin davamı və onun tərkib hissəsidir, onları bir-birindən ayırmaq olmaz. Ona görə ki, hər iki səviyyədə, yəni həm ölkə daxilində, həm də beynəlxalq iqtisadi münasibətlərin təkmilləşdirilməsi və yenidən qurulması ölkənin sağlam milli iqtisadiyyatının formalaşması və inkişafına xidmət məqsədini güdür. Azərbaycanın müstəqil dövlət olması onun beynəlxalq münasibətlərinin milli mənafeyə uyğun yenidən qurulmasına əlverişli şərait yaratmışdır.

SSRİ-nin süqutu böyük bir ərazidə geosiyasi vəziyyəti kökündən dəyişdirərək, Azərbaycanın beynəlxalq əlaqələrinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikanın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün geniş perspektivlər açdı.

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra müstəqil bir dövlət kimi özünün xarici iqtisadi siyasətini işləyib hazırlamış və onu uğurla həyata keçirməyə başlamış və xeyli nailiyyətlər qazanmışdır. Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti dedikdə, beynəlxalq iqtisadi əlaqələrdə qarşıya qoyduğu

məqsədlərin həyata keçirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutulur. Xarici iqtisadi siyasət iqtisadi anlayış olub ümumi iqtisadi siyasətin tərkib hissəsidir və ölkənin sosial-iqtisadi proqramı ilə bilavasitə əlaqədardır. Azərbaycan hökumətinin xarici iqtisadi fəaliyyət sahəsində qəbul etdiyi qərarlar iqtisadiyyatın bütün istiqamətlərinə təsirini göstərir. Azad bazar münasibətlərinə keçid şəraitində dövlətin daxili və xarici iqtisadi siyasətini bir-birindən təcrid etmək mümkün deyildir.

Azərbaycanın sosial-iqtisadi inkişaf proqramında xarici iqtisadi siyasət əsasən dörd istiqamətrdə həyata keçirilir. Onlar aşağıdakılardan ibarətdir:

1. xarici ticarət siyasəti;
2. ödəniş balansı siyasəti;
3. xarici investisiya siyasəti;
4. xarici yardım siyasəti.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici ticarət siyasəti yeni maliyyə mənbələrinin yaradılması və istifadə olunmasına xidmət edir. Bu siyasətin əsas təsir vasitəsi tarif və qeyri-tarif tənzimləmələrdir. Ölkə iqtisadiyyatının və əhalinin gündəlik tələbat mallarına olan ehtiyacının ödənilməsində xarici ticarətin tarif tənzimlənməsinə böyük əhəmiyyət verilir. Real həyatda dövlətlər xarici ticarətə bu və ya digər şəkildə müdaxilə edirlər. Xarici ticarətə müdaxilə etmək üçün istifadə edilən ən mühüm vasitələrdən biri gömrük tarifləridir.

10 iyun 1997-ci ildə Azərbaycan Respublikasında Gömrük Məcəlləsi qəbul edildikdən sonra 20 iyun 1995-ci ildə qəbul edilmiş «Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu» qüvvəyə minmişdir. Bu qanın, əsasən, daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin

mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir.

Gömrük tarifinin məqsədləri aşağıdakılardır:

- idxalın əmtəə strukturunu səmərələşdirmək;
- Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxarılmasının valyuta gəlirləri və xərclərinin əlverişli nisbətini təmin etmək;
- valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək;
- Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişiklikləri üçün şərait yaratmaq;
- iqtisadiyyatı xarici raqəbətin mənfi təsirindən qorumaq və onun dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük tarifi Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara tətbiq edilir və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.

İdxal və ixrac rüsumlarının dərəcələri və eyni zamanda əlveiişli ticarət rejimi tətbiq olunan ölkələrin siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Əlverişli ticarət rejimi tətbiq olunmayan ölkələrin mallarına və ölkə mənşəyi müəyyənləşdirməyən mallara idxal gömrük rüsumlarının dərəcələri iki dəfə artırılır.

Azərbaycan Respublikasında aşağıdakı gömrük rüsumları tətbiq edilir:

1) Aqvaler – malların gömrük dəyərinə görə faizlə hesablanan gömruk rüsumu;

2) spesifik rüsum – mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan gömrük rüsumu;

3) kombinə edilmiq rüsum – hər iki növü birləşdirməklə hesablanan gömruk rüsumu.

Malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara, mövsümü rüsumlarını altı aya qədər tətbiq olunmasına qanun icazə verir.

Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq aşağıdakı xüsusi növ rüsumlar tətbiq oluna bilər: xüsusi rüsumlar, antidemrinq rüsumları, kompensasiya rüsumları.

Qanunda gömrük rüsumlarından, gömrük dərəcələrinin aşağı salınması halları konkret olaraq müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasından ixrac olunan mallar, onlarını növündən asılı olmayaraq gömrük ixrac rüsumuna cəlb olunmur. Ölkəyə gətirilən mallara gömrük idxal rüsumu sadələşdirilmişdir. Gömrük idxal rüsumuna cəlb olunan malların növlərindən asılı olmayaraq malların gömrük dəyəri 15 faiz həcmində qəbul edilmişdir.

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının hüquqi şəxsləri strateji məhsulları ölkə hüdudlarından kənara sərbəst dönərli valyuta ilə satarkən ixracat vergisinə aşağıdakı məhsullar cəlb edilir: neft və neft məhsulları, yüksək təzyiqli politilen, sulfanol, kaustik soda, ilkin alüminium, alüminium prokat – qırıntısı, polad borular, dəmir sentratı, bürünc məmulatı, pamğıq mahlıcı, qara kürü. Milli Məclislə razılaşdırmaqla Nazirlər Kabineti bu siyahıya dəyişikliklər edə bilər. İxracatlar strateji məhsulları öz hüdudlarından kənara satarkən həmin məhsullar üzrə əlavə dəyər vergisini, aksiz vergisini, gömrük rüsumunu, dövlət yol fonduna ayırmaları ödəmirlər.

Qeyri-tarif tənzimlənməsi xarici ticarətin liberallaşdırılmasına və qeyri-iqtisadi amillərin məhdudlaşdırılmasına yönəldilmişdir. Azərbaycan Respublikasında bu sahədə aşağıdakı rəsmi sənədlər qəbul edilmişdir: «Azərbaycan Respublikasında xaici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında» (10.01.1994); «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» (5.04.1994); «Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında» (17.12.1996).

Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin 2-ci əsas istiqaməti ödəniş balansı siyasətidir. Düzgün maliyyə və xarici ticarət siyasətini dəyərləndirmək, onu dəyişdirmək üçün dövrü və əhatəli statistik məlumatlar öz əksini balanslarında tapır. Ödəniş balansı bir ölkə sakinlərinin müəyyən dövr ərzində bütün başqa ölkələrin rezidentləri ilə apardığı xarici iqtisadi əməliyyatların cəmini balans formasında əks etdirən sənəddir.

Azərbaycan Respublikasının ödəniş balansı Beynəlxalq Valyuta Fondunun müəyyən etdiyi qaydada əsasən aşağıdakı göstəriciləri əks etdirən sənəddir:

1. Azərbaycanla xarici ölkələr arasında baş verən əmtəə, xidmət və gəlirlər üzrə bütün əməliyyatlar;

2. Ölkənin xarici dünya ölkələri qarşısında olan öhdəlikləri, maliyyə tələblərində özünü göstərən mülkiyyət və digər bütün dəyişikliklər;

3 Qarşılıqlı ödənişləri bir-birinə bağlamayan əməliyyatlar və dəyişiklikləri balanslaşdırmaq üçün lazım olan bütün birtərəfli göçürmə və kommersiya xarakterli qeydlər.

Azərbaycanda ödəniş balansı 1995-ci ildən başlayaraq BVF-nun metodik göstərişləri əsasında tətbiq

olunmağa başlanmışdır. Ödəniş balansının dövlət tənzimlənməsinin aşağıdakı üç üsulu vardır:

1) birbaşa nəzarət şəklində həyata keçirilən üsulla idxalın tənzimlənməsi, gömrük və digər yığımlar, xarici investisiyalar üzrə gəlirlərin və özəl şəxslərin sərmayələrinin xaricə köçürülməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması, əvəzsiz yardımların, uzun və qısamüddətli kapital ixracının kəskin surətdə azaldılması və s.;

2) daxili iqtisadi vəzifələrin yerinə yetirilməsinə yönəldilmiş, lakin, eyni zamanda ödəniş balansı vəziyyətinə təsir göstərən deformasiya tədbirlərindən istifadə olunması;

3) mübadilə məzənnəsinin dəyişməsi.

Ödəniş balansının kəsirini ödəmək üçün görülən tədbirləri qısa və uzunmüddətli tədbirlərə bölmək olar.

15 yanvar 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyanın qournması» haqqında Azərbaycan Respublikasının Qanunu ilə xarici investisiya siyasətinin əsasları müəyyən edilmişdir. Xarici investorlara aşağıdakı güzəştlər nəzərdə tutulubdur:

1) mənfəətdən vergi Azərbaycan ərazisində yaradılmış və nizamnamə fondundan, xarici kapitalı 30%-dən çox olan müəssisələr üçün – 25%, kənd və dağ yerlərində isə 10% nəzərdə tutulmuşdur;

2) maddi istehsal sahəsində fəaliyyət göstərən xarici kapital ilk iki il, kənd yerlərində olduqda isə ilk üç il ərzində mənfəət vergisindən azaddır;

3) vergiyə cəlb olunan mənfəət istehsalın inkişafına, elmi-tədqiqat işlərinin aparılmasına, təbiəti mühafizə tədbirlərinə, uzunmüddətli kreditlər üzrə faiz ödəmələrinə yönəldilən məbləğlər qədər azaldılır;

4) müəssisənin ehtiyat fonduna ayırmalar vergidən azad olunur.

Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti nəhayət, xarici yardım siyasətindən istifadə ilə tamamlanır. Ölkənin xarici yardım siyasəti beynəlxalq təşkilatlardan və dövlətlərdən yardımların alınması və istifadəsi tədbirlərini əhatə edir. Bu siyasət beynəlxalq aləmdə son dövrlərdə sturkturlaşdırılmış yeni bir xarici siyasətdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolunda islahatlar həyata keçirdiyi üçün aparıcı beynəlxalq təşkilatlar tərəfindən iqtisadi inkişafın təmin olunması, ödəniş balansı kəsirlərinin ləğvi, milli valyutanın sabitliyinin təmin olunması, milli müdafiəyə ayrılan yaradımlarla dəstəklənir.

Azərbaycana edilən beynəlxalq yardım arasında Avropa Birliyi Komissiyasının (ABK) yardımlarıdır. ABK 1993-cü ildə əhalini ərzaq və dərmanla təmin etmək məqsədilə 68 mln. EKYU kreditin açılması ilə fəaliyyət başlamışdır. Avropa Birliyinin «TASİS» proqramı üzrə Azərbaycana edilən texniki yardım dövlət müəssisələrinin yenidən qurulması, özəl bölmə, kənd təsərrüfatı, infrastruktur, energetika, maarif və digər sahələrin inkişafı məqsədlərinə görə verilir. TASİS-in MDB dövlətlərarası proqramlarının 24 layihəsində Azərbaycan kifayət qədər iştirak edir.

## § 4. Azərbayjanın xariji tijarət əlaqələri

Azərbaycan müstəqilliyini bərpa etditkdən sonra qısa müddətdə özünün sağlam milli iqtisadiyyatını formalaşdırmaq və inkişaf etdirə bilmədiyi kimi xarici ticarət sahəsində də əhəmiyyətli dərəcədə dəyişiklik yaratmaq çətindir. Buna baxmayaraq müstəqilliyin 1992-1993-cü illərində sonra Azərbaycanın xarici ticarət əlaqələrində həm istiqamət baxımından, həm də kəmiyyət

baxımından müəyyən dəyişikliklər baş vermişdir. Bu zaman həm keçmiş ittifaq respublikaları ilə, həm də başqa xarici ölkələrlə iqtisadi ticarət əlaqələrində canlanma baş vermişdir. Lakin bu əlaqələr zəif və kövrək olmuşdur. Çünki sovet sistemindən miras qalmış qüsurlu xarici ticarət əlaqələrinin mənfi təsiri həm xarici ticarət əlaqələrinin hələlik mövcudluğu həm xarici ticarətin kəmiyyətində, həm də strukturunda özünü göstərməyə bilməzdi. Bu zaman Azərbaycan keçmiş ittifaq respublikaları ilə ticarət əlaqələrini bərpa və inkişaf etdirməyi əsas baza kimi götürmüş və inkişaf etdirmişdir. Məsələn, 1992-ci ildə Azərbaycanla keçmiş ittifaq respublikaları arasında ticarət dövriyyəsi ixrac üzrə 102,2 milyard rubl., idxal üzrə 85,0 milyard rubl. təşkil etmişdir. Xarici ticarət dövriyyəsində əsas yeri Rusiya Federasiyası tutmuşdur. İdxalın 41,8%-i, ixracın 47,6%-i onun payına düşmüşdür. İkinci yeri isə Ukrayna tutmuşdur. İdxalın 35,3%-i, ixracın 18,7%-i onun payına düşmüşdür. Həmin meyl indi də davam edir.

Azərbaycan keçid dövrünün ilk illərində müstəqil dövlət kimi yalnız yaxın xarici dövlətlərlə (keçmiş ittifaq respublikaları) ilə deyil, uzaq xarici dövlətlərlə də xarici ticarət əlaqələrinə üstünlük vermişdir. Lakin bu ticarət əlaqələri kəmiyyət və strukturca qənaətbəxş olmamışdır. Ona görə ki, idxal və ixrac olunan məhsulların çeşidi çox yeknəsəng olmuşdur. İdxal olunan məhsulların içərisində əsas yeri ərzaq məhsulları, dava-dərman, ixracın əsasını isə neft məhsulları (dizel yanacağı və mazut), pambıq, qara və əlvan metallar və s. təşkil etmişdir. Deməli, uzaq xariclə ticarətdə Azərbaycan əsasən xammal ölkəsi kimi çıxış etmişdir. Həm də strateji əhəmiyyətli xammal və məhsulları verib onların əvəzinə ərzaq alınması səmərəli olmamışdır və inkişaf etmiş heç bir ölkənin təcrübəsində bu hal məqlub sayılmır. Lakin keçid iqtisadiyyatlı

dövlətlər, o cümlədən Azərbaycan üçün bu təbii və iqtisadi qanunauyğunluqdur. Bu prosesin uzun illər davam etməsi gözlənilәndir. Azərbaycanın sağlam milli iqtisadiyyatı formalaşaraq inkişaf etdikcə xarici ticarətin strukturu da milli mənafeyə uyğun optimal həddə çatacaqdır. Çünki xarici ticarət muxtariyyət təşkil edə bilməz. Onun kəmiyyəti və keyfiyyəti, strukturunun optimallığı sağlam milli iqtisadiyyatın inkişaf səviyyəsindən asılıdır.

Bu dövrdə respublikanın xarici ticarət əlaqələrini səciyyələndirən bir əlamət də barter sövdələşmələrindən geniş istifadə olunması ilə bərabər, barterdən tədricən valyuta ilə satışa keçirilməsidir. Əlbəttə, sağlam iqtisadi ticarət əlaqələri baxımından barter qeyri-normal hadisədir. Respublikanın dünya bazarına qovuşması və bunun üçün şəraitin yaradılmasındakı çatışmazlıqlar, xüsusən milli valyutanın dönərli olmaması bəzən barter sövdələşmələrinə keçməyə məcbur edir. İlk dəfə olaraq 1992-ci ildə neft və pambığın valyuta ilə satışı üzrə sövdələr edilmişdir. Artıq həmin dövr geridə qalmışdır. Belə ki, Azərbaycan dövlətinin gördüyü tədbirlər nəticəsində Azərbaycan çətinliklərin xeyli hissəsini aradan qaldırmış, XX əsrin 90-cı illərin ortalarından Azərbaycanın iqtisadi inkişafı yüksələn xətt üzrə inkişaf etməyə başlamışdır. Azərbaycanın milli valyutası olan manatın məzənnəsi müstəqilliyin ilk illərində ABŞ dollarından əhəmiyyətli dərəcədə aşağı olmuş, hazırda isə onu xeyli ötüb keçmişdir.

Keçmiş SSRİ respublikalarının müstəqil, suveren dövlətlər kimi dünya medynına çıxması nəticəsində Azərbaycan Respublikasının xarici iqtisadi siyasətində yeni bir dövr başlanmışdır: yaxın xarici deyilən qarşılıqlı münasibətlər yaranmışdır.

Siyasi konyuktura nə qədər qeyri-sabit olsa da, vaxtilə vahid Sovetlər İttifaqını təşkil edən indiki suveren dövlətlər arasında qarşılıqlı iqtisadi əlaqələrin inkişaf etdirilməsi zərurəti get-gedə daha aşkar hiss edilməkdədir. Bu, təkzibedilməz bir həqiqətdir.

Bizim fikrimizcə, istehsal potensialının həcmindən və yerləşdiyi ərazidən asılı olmayaraq, MDB ölkələrinin hər biri müasir mərhələdə bütün problemləri təkbaşına həll etmək imkanına malik deyillər.

Azrbaycandan ötrü MDB ölkələri ilə birgə həll olunması tələb edilən əsas problemlər bunlardır: təsərrüfat fəaliyyətini tənzimləyən qanunvericiliyin əlaqələndirilməsi; maliyyə-valyuta tənzimlənməsi; ixracyönümlü istehsal sahələrinin inkişafı; səhmdarlıq qaydalarına əsaslanan dövlətlərarası korporasiyaların yaradılması. Razılaşdırılmış qiymət və vergi siyasəti, sosial problemlərlə bağlı razılaşmalar, xarici iqtisadi fəaliyyətin əlaqələndirilməsi və iqtisadi əməkdaşlığın bəzi başqa məsələlərini də həmin problemlər sırasına əlavə etmək olar.

Təəssüf ki, MDB dövlətlərinin lideri və bu regional birliyin yaradıcısı Rusiya Federasiyasında hələ də imperiya təfəkkürlü qüvvlər mövcuddur və onlar başqa formada sovet imperiyasını bərpa etmək ümidi ilə yaşayırlar. Sovet imperiyasından çox pisliklər görmüş keçmiş respublikalar isə bunu istəmirlər, müstəqil, suveren dövlətlər bundan ehtiyatlanırlar, bu birliyə daxil olan dövlətlərə ikili standartla yanaşmalar mövcuddur. Bütün bunlar MDB-yə inamı və etibarı azaldır.

MDB ölkələri ilə iqtisadi əlaqələrin inkişafı haqqında danışarkən bir mühüm məsələ də nəzərə alınmalıdır. Əvvəllər bir ölkədə yaşamış, indi isə ayrı-ayrı dövlətlərin vətəndaşları olan müxtəlif millətlərin nümayəndələri az qala MDB-nin bütün ölkələrinə səpələnmişlər. Məsələn,

Azərbaycanın sərhədindən kənarda – MDB-nin iştirakçısı olan dövlətlərdə təxminən 2 milyondan çox azərbaycanlı yaşayır. Bu amil də dövlətlərarası ticarət əlaqələrini genişləndirməyi tələb edir.

MDB ölkələri də əlverişli iqtisadi əlaqələr yaratmaq və onları gələcəkdə daha da inkişaf etdirmək üçün bu respublikaların xarici iqtisadi potensialı düzgün müəyyən edilməlidir.

Əlbəttə, MDB ölkələrindən ən böyük iqtisadi imkanlara malik Rusiya, Ukrayna, Qazaxıstan, Belarus, Qırğızıstan respublikalarıdır. Onların iqtisadi və ticarət əlaqələrini köklü şəkildə genişləndirmək mümkündür və məqsədəuyğundur.

Azərbaycanın MDB ölkələri ilə ticarətdə idxal və ixrac əməliyyatlarında demək olar ki, məntiqi qanunauyğunluq müşahidə olunmur. Bunun səbəbləri çoxdur. Onlar hər ölkənin özünəməxsus siyasi-iqtisadi vəziyyətindən, istehsalın səmərəliliyindən, bəzi hallarda subyektiv münasibətlərdən və başqa səbəblərdən asılıdır.

Bu əməliyyatların həcmi tez-tez dəyişilir. Təcrübə göstərir ki, belə vəziyyətdə xarici ticarət əlaqələri çox nadir hallarla qısa bir müddətdə inkişaf edir.

1995-ci ildə MDB-yə daxil olan respublikalardan Rusiya, Ukrayna, Gürcüstan və Türkmənistan Azərbaycanla ən sıx ticarət əlaqələri saxlayırdılar.

1996-cı ilin birinci yarısında idxalda Azərbaycanın MDB ölkələri üzrə əsas tərəfdaşı Rusiya (16,2 faiz), Ukrayna (9,3 faiz), ixrac üzrə isə Rusiya (16,2 faiz), Gürcüstan (14,2 faiz), Ukrayna (3,7 faiz) olmuşdur.

1995-ci ilin birinci yarısı ilə müqayisədə Rusiya və Ukrayna ilə əmtəə dövriyyəsi 2,6 dəfə, Gürcüstan 2,5 dəfə, Özbəkistan 1,7 dəfə artmış, lakin eyni zamanda Türkmənistanla 2,1 dəfə azalmışdır.

Azərbaycan Respublikasından MDB dövlətlərinə ixracın strukturu aşağıdakı kimi olmuşdur: istehsal-texniki təyinatlı məhsulların ixracı 1991-ci ildə 63,1%, 1992-ci ildə 38,7%, 1993-cü ildə 35,0%, 1994-cü ildə 28,5% və 1995-ci ildə 32,7%. Rəqəmlərdən gördündüyü kimi XX əsrin 90-cı illərin ortalarına qədər istehsal-texniki məhsulların ixracı enən xətt üzrə aşağı düşmüşdür. Bu həmin dövrdə Azərbaycanın iqtisadiyyatının böhran vəziyyətdə olması ilə əlaqədar olmuşdur. Lakin həmin dövrdən sonra Azərbaycanın iqtisadiyyatında yüksəliş baş verdiyindən ixracın strukturunda mütərəqqi dəyişikliklər baş vermişdir.

Həmin illərdə MDB ölkələrindən Azərbaycana idxal edilən malların strukturu isə belə olmuşdur: 1991-ci ildə respublikaya idxal edilmiş bütün məhsulların istehsal-texniki təyinatlı məhsullar 64,0%, 1992-ci ildə 55,8%, 1993-cü ildə 44,9%, 1994-cü ildə 51,1%, 1995-ci ildə 26,7% təşkil etmişdir. İxracda olan qanunauyğunluq eyni ilə idxala da aiddir. Səbəbi də birdir. Belə ki, XX əsrin 90-cı illərin ortalarından sonra başlayan iqtisadi inkişaf tempinin artması nəticəsində Azərbaycanın xarici ticarət əlaqələrində həm kəmiyyət, həm də keyfiyyət sahəsində əhəmiyyətli dərəcədə irəliləyiş əldə edilmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində MDB dövlətləri ilə ticarət əlaqələrini saxlamağı məqsədəuyğun hesab etmişdir. Bu obyektiv zərurətdən irəli gəlmişdir. Azərbaycanın müstəqilliyi möhkəmləndikcə uzaq xarici ölkələrlə, o cümlədən yaxın qonşu dövlətlərlə xarici ticarət əlaqələrini genişləndirməyi qarşısına məqsəd qoymuşdur. XX əsrin 90-cı illərin ortalarından sonra, iqtisadi böhranın nisbətən azalması ilə əlaqədar olaraq buna şərait yaranmışdır. Buna görə də həmin dövrdə xarici ticarət mal dövriyyəsində MDB dövlətləri arasında qarşılıqlı mal dövriyyəsinin azalması müşahidə olmuşdur.

İqtisadi subyektlər MDB-dən kənar ölkələrlə inteqrasiyaya daha çox meyllidirlər. O cümlədən 1995-ci ildə Azərbaycanın ixracatının 80%-i, idxalının isə 60%-i İran və Türkiyənin payına düşür. Ümumiyyətlə, respublikanın ümumi ixracında MDB ölkələri 39%, digər ölkələr 61%, idxalında isə MDB ölkələri 35%, digər ölkələr isə 65% təşkil etmişdir. Azərbaycanın iqtisadiyyatının yüksək templə inkişaf etdiyi sonrakı illərdə xarici ticarət mal dövriyyəsinin kəmiyyət və keyfiyyəti və əhatə dairəsi genişlənsə də yenə də adı çəkilən dövlətlərlə xarici ticarət əlaqələri genişdir.

Azərbaycanın xarici əmtəə dövriyyəsində MDB dövlətlərindən mühüm yerləri Rusiya Federasiyası, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Belarus və Moldova tutur. Azərbaycan üçün mühüm xarici bazar ola biləcək Orta Asiya respublikaları ilə ticarət iqtisadi əlaqələri hələ zəifdir.

Milli iqtisadiyyatın hazırkı strukturu respublikanın xarici ticarət əlaqələrində onun xammal yönümlüyünü təsdiq edir. Xüsusən xammalın bərpa olunmayan növlərinin ixracı milli iqtisadiyyatın perspektivlərini təhlükə altına almaqla gələcək nəsillərin mənafeyinə zərbə endirir. İqtisadiyyatın belə strukturda uzun müddət saxlanması təhlükəlidir.

Azərbaycan həm keçid iqtisadiyyatlı, həm də inkişaf etməkdə olan dövlətlər qrupuna daxil olduğundan onun dünyada xammal ixrac edən ölkə kimi tanınmasına təbii baxmaq lazımdır. Çünki dünya təcrübəsində bu cür dövlətlərin qısa müddətdə dünya bazarına hazır son sənaye məhsulları ixrac etməsi qeyri-mümkündür. Lakin hər şeydə olduğu kimi bunun da həddi var. Bu baxımdan Azərbaycan bu sahədə lazım olduğundan az iş görmüşdür. Bu sahədə gecikmək problemin həllini çətinləşdirmək deməkdir. Bu isə Azərbaycanın iqtisadi

müstəqilliyinin təmin olunmasına mənfi təsir göstərən amildir. Bunun həllinin yolları mövcuddur. Yeni sənaye ölkələri olan Sinqapur, Cənubi Koreya, Tayvan və başqalarının təcrübəsinin öyrənilməsi və ondan Azərbaycanın reallığına, imkan və şəraitə uyğun istifadə etmək faydalı olardı.

Himayəçilik siyasəti ixtisaslaşmanın üstünlüklərindən, onun səmərliliyindən istifadə etməni məhdudlaşdırır.

Azad ticarət dünya bazarından istədiyi məhsulu sərbəst surətdə seçməyə imkan verir. Azad ticarət eyni zamanda azad rəqabət yaradır. Bu da iqtisadiyyatın inkişafına müsbət təsir göstərən əsas amillərindən biridir. Buna görə həyat azad ticarətin inkişaf etdirilməsini tələb edir.

Azad ticarətin üstünlüklərinə baxmayaraq, ona mane olan amillər də vardır. Azad ticarət siyasətini adətən o dövlətlər yeridirlər ki, onların iqtisadi inkişaf səviyyəsi yüksəkdir, istehsal olunan əmtəələrin fərdi dəyəri beynəlxalq bazar dəyərindən aşağıdır. Məhsulun çeşidi, rəngarəngliyi və keyfiyyəti də belə ölkələrdə yüksək olur. Orta və aşağı inkişaf səviyyəsində olan ölkələrdə istehsal olunan əmtəələrin fərdi dəyəri isə dünya bazar dəyərindən adətən yüksək olur. Buna görə də yerli məhsullar inkişaf etmiş ölkələrdən gətirilən məhsullarla rəqabətə girə bilmir. Xaricdən gətirilən məhsullar satılır, yerli məhsullar isə reallaşa bilmir. Bu isə milli sənayenin inkişafına mane olur. Bununla əlaqədar olaraq, bu cür dövlətlər himayəçilik siyasətini irəli sürürlər. Məqsəd milli sənayeni güclü olan xarici dövlətin zərbəsindən xilas etmək və onun inkişafına şərait yaratmaqdır.

Milli bazarın xarici rəqiblərin təsirindən qorunmasının əsas yolu dövlətin yeritdiyi gömrük

siyasətidir. Dövlət xaricdən gətirilən məhsulların üzərinə elə gömrük haqqı qoyur ki, yerli məhsullarla xarici məhsulların qiyməti tarazlaşsın. Dövlət bütün xarici əmtəələrə eyni gömrük haqqı qoya bilməz. O əmtəələrə yüksək gömrük haqqı qoyulur ki, o yerli məhsulların istehsalına mane olur.

Milli iqtisadiyyatın xarici rəqabətdən qorunmasının dolayı yolları da mövcuddur. Bu, ən əvvəl, yerli məhsulların qiymətini aşağı salmaqdır. Məsələn, Yaponiyanın maşınqayırma, elektronika, cihazqayırma sənayesinin məhsulları son vaxtlar ABŞ məhsullarına dünya bazarında ən böyük rəqib olmuşdur. ABŞ Yaponiya mallarının gətirilməsini inzibati qayda ilə məhdudlaşdırmaqla bərabər bu metodan özü də istifadə edir.

Milli iqtisadiyyatın, xüsusilə yeni sahələrin yaranması və inkişafında onları xarici rəqabətdən qorumaqda gömrük siyasəti müsbət rol aynasa da, bütövlükdə dünya istehsalının azalmasına səbəb olur.

Bütün müstəqil dövlətlər öz ölkəsinin iqtisadiyyatının inkişaf səviyyəsindən, daxili və beynəlxalq şəraitdən, qarşısında duran vəzifədən asılı olaraq xarici ticarət siyasəti yeridir. Məsələn, ABŞ konstitusiyasında ayrı-ayrı ştatlarda gömrük rüsumu alınması qadağan edilib. Məqsəd Amerikanı böyük azad iqtisadi zonaya çevirməkdir. Tarixi təcrübə təsdiq edir ki, ölkələrin inkişafında bu amil müsbət rol oynamış və indi də oynayır. İngiltərə XX əsrin ortalarından azad ticarət siyasəti yeritməyə başlamışdır.

Azərbaycan dövlət hər iki xarici ticarət siyasətindən balanslaşdırılmış şəkildə istifadə edir. Çünki Azərbaycan azad ticarət siyasətinə üstünlük verə bilməz, ona görə ki, onun iqtisadiyyatı zəif olduğundan sənayecə inkişaf etmiş dövlətlərin məhsulları qarşısında rəqabətə dözə bilməz,

daxili bazarı xarici dövlətin məhsulları doldurar, bu isə milli istehsalın tənəzzülünə səbəb ola bilər. Himayədarlıq siyasətinə də üstünlük verə bilməz, ona görə ki, Azərbaycanın milli iqtisadiyyatı asılı iqtisadiyyat olduğundan sənayeni istehsal vasitələri ilə, əhalini isə ərzaqla təmin etmək iqtidarında deyil. Məsələn, Azərbaycan müstəqilliyinin ilk illərində xaricdən toyuq əti və yumurtanın idxalına, yəni azad ticarət siyasətinə üstünlük vermişdir. Ona görə ki, həmin sahə adı çəkilən məhsullara olan tələbatı ödəyə bilməmişdir. Lakin Azərbaycan dövlətinin gördüyü tədbirlər sayəsində quşçuluq təsərrüfatı sürətlə inkişaf edərək elə bir səviyyəyə çatmışdır ki, o nəinki ölkənin quş ətinə və yumurtaya olan tələbatını tam ödəmək, hətta xaricə həmin məhsulları ixrac etməyə şərait yaranmışdır. Mal əti istehsal sahəsində eyni sözləri demək olar. Deməli, 2005-2006-cı illərdən sonra bəzi sahələrdə azad ticarət siyasətini himayədarlıq siyasəti ilə əvəzləmək mümkün olmuşdur. Bunu isə daxili bazarı xarici təhlükədən qorumaq prinsipi tələb edir. Beləliklə, xarici ticarət siyasəti elastikdir, milli iqtisadiyyat inkişaf etdikcə hər bir dövlət, o cümlədən Azərbaycan dövləti reallığa və milli mənafeyə uyğun xarici ticarət siyasətinə üstünlük verə bilər.

## § 5. Beynəlxalq əhali miqrasiyası və beynəlxalq kapital

Xarici iqtisadi əlaqələrin tərkib hissəindən biri əhalinin dövlətlərarası miqrasiyasıdır. Beynəlxalq əmək bölgüsü dərinləşdikcə xarici iqtisadi əlaqələr, o cümlədən əhalinin miqrasiyası da sürətlənir.

XX əsrdə əhalinin beynəlxalq urbanizasiya prosesi güclənmişdir. Urbanizasiya əhalinin şəhərə axınına

deyilir. Bu, müasir dövr üçün xarakterikdir. Azad sahibkarlığın inkişaf etdiyi dövrdə sənaye və əhali əsasən iri şəhərlərdə toplaşırlar.

Urbanizasiya sənayenin inkişafı ilə bağlı olan tarixi prosesdir. Bu iqtisadi və sosial hadisə əhali, o cümlədən beynəlxalq əhali miqrasiyası şəklində təzahür edir. Əhalinin bir dövlətdən başqa dövlətə miqrasiya etməkdən məqsəd əlverişli şəraitindən istifadə edərək öz iqtisadi və sosial vəziyyətini yaxşılaşdırmaqdır. Bu proses, həm də məhsuldar qüvvələrin yerləşdirilməsini təkmilləşdirir. Elə dövlətlər var ki, orada ixtisaslı iş qüvvəsi tələbdən daha çoxdur, başqa dövlətdə isə belə iş qüvvəsinə ehtiyac var. Bu şəraitdə bir ölkədən başqa ölkəyə iş qüvvəsi axınına zərurət yaranır. Bu prosesin baş verməsi ixtisaslı iş qüvvəsinə ehtiyacı olan dövlət üçün, həm də şəxs üçün səmərəlidir. Miqrasiya olunan dövlət başlıca məhsuldar qüvvə olan ixtisaslı iş qüvvəsindən istifadə edərək öz ölkəsinin iqtisadiyyatını inkişaf etdirir. İş qüvvəsi ixrac edən ölkə üçün bu, ümumiyyətlə, zərərlidir.

Xarici əmək bazarında öz iş qüvvəsini satan şəxs isə öz ölkəsində aldığından daha çox əmək haqqı alır. Çünki birincisi, xarici bazarda ixtisaslı iş qüvvəsinə tələb təklifdən çoxdur. İkincisi, xarici əmək bazarında satılan iş qüvvəsinin dəyəri yüksək olur, çünki bu ixtisaslı əməkdir, vaxt vahidində daha çox dəyər yaradır. Adətən xarici əmək bazarına yüksək ixtisaslı əmək daxil olur. Ona görə ki, başqa bazar növlərində olduğu kimi, əmək bazarında da rəqabət mübarizəsi gedir. Belə kəskin rəqabətə yalnız yüksək ixtisaslı iş qüvvəsi tab gətirə bilər.

Beynəlxalq miqrasiya prosesində mütəxəssislərlə yanaşı, fəhlələr də iştirak edirlər. Lakin müxtəlif ölkələrdə bunların nisbəti eyni deyil. Məsələn, zəif inkişaf etmiş ölkəyə inkişaf etmiş ölkədən fəhlə miqrasiyasına az hallarda təsadüf edilir. Çünki zəif inkişaf etmiş ölkələrdə

işsizlər çoxdur, digər tərəfdən, bu ölkələrdə əmək haqqı sənayecə inkişaf etmiş ölkələrdən aşağıdır. İnkişaf etmiş ölkələrdə əmək məhsuldarlığı yüksək olduğuna görə, həm əmək haqqı yüksək olur, həm sosial təminat, iş şəraiti normal olur, həm də əhalinin, şəxsin təhlükəsizliyi təmin olunur. Yaxşı mütəxəssislərin ölkədən miqrasiya etməsi həmin ölkə üçün böyük itkidir. Əvvəla, yüksək ixtisaslı mütəxəssis hazırlamaq çətindir. Çünki xüsusi istedadı olmayan şəxsə təlim verməklə yaxşı mütəxəssis hazırlamaq mümkün deyil. İkincisi, belə mütəxəssislərin hazırlanmasına cəmiyyət adətən böyük xərc çəkir. Üçüncüsü, yaxşı mütəxəssis üç-beş ildə yetişmir. Nə qədər qabiliyyətli, istedadlı şəxs olsa da, təhsil prosesində əldə etdiyi biliyi istehsala tətbiq etmədən, nəzəriyyə ilə praktikanı birləşdirmədən, uzun müddət istehsal təcrübəsi qazanmadan yaxşı mütəxəssis yetişmir. Yüksək ixtisaslı şəxslərin xarici ölkələrə miqrasiya etməsi təkcə özünü yox, eyni zamanda özü ilə bərabər mənsub olduğu millətin onun bu səviyyəyə çatması üçün çəkdiyi xərcləri də aparır. Hər bir mütəxəssis işə başlayarkən, müəyyən təcrübə toplayana qədər cəmiyyət ona xeyli miqdar maddi və mənəvi kömək göstərir. Bunu da əvvəlkilərin üstünə gəldikdə yüksək ixtisaslı mütəxəssisin xarici əmək bazarına üz tutmasının nə qədər itki olması aydın olar.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, beynəlxalq miqrasiya prosesində mütəxəssis axını həmin ölkənin iqtisadi cəhətdən itirməsi, hansı ölkəyə isə mütəxəssislərin getməsi həmin ölkənin qazanması deməkdir. Bu işdə çox zərər çəkən vaxtilə asılı ölkə olmuş, indi isə suveren inkişaf yoluna qədəm qoymuş ölkələr olur.

Hazırda gənc milli dövlətlər iş qüvvəsinin əsas ixracatçısı kimi çıxış edirlər. Ümumiyyətlə, beynəlxalq miqrasiya əhəmiyyətli prosesdir.

Əhalinin miqrasiyasının əhəmiyyəti dünya iqtisadiyyatının inkişafındakı müsbət rolu ilə bitmir. Eyni zamanda millətlərin bir-birinə yaxınlaşmasında, mədəni səviyyələrinin yüksəlməsində müsbət rol oynayır. Buna görə də bütün dövlətlər, xüsusilə bu amildən daha çox xeyir götürən inkişaf etmiş dövlətlər beynəlxalq əmək bazarını təşkil edirlər.

İş qüvvəsi beynəlxalq bazarının bir neçə mərkəzi vardır. Birinci beynəlxalq bazar Yaxın Şərqin neft istehsal edən ölkələrinə aiddir. Burada çalışan fəhlələrin əksər hissəsi ərəb ölkələri, Pakistan, Banqladeş, Hindistan, Koreya və Filippindən gələnlərdir.

İkinci beynəlxalq əmək bazarı Qərbi Avropada yaranmışdır ki, bu dövlətlər xarici iş qüvvəsindən daimi əsaslar üzrə istifadə edirlər. Bu işdə Avropa iqtisadi birliyi əsas rol oynayır. Bu birliyə daxil olan dövlətlər arasında bir dövlətdən digər dövlətə iş qüvvəsi axınına xələl gətirən maneələr aradan qaldırılmışdır. Bu dövlətlər birləşmiş iş qüvvəsi bazarı yaratmış və ondan səmərəli istifadə etməyi təşkil etmişlər. Əmək ehtiyatlarından səmərəli istifadə, oraya daxil olan dövlətlərin iqtisadi inkişafına şərait yaradır, eyni zamanda, beynəlxalq münasibətlərin yaxşılaşmasına təsir göstərir.

Üçüncü beynəlxalq əmək bazarı ABŞ-da yaranmışdır. Beynəlxalq əhali miqrasiyasından ABŞ çox fayda görmüşdür. Tarixən ABŞ-da əmək ehtiyatlarının formalaşması buraya əhalinin miqrasiyasını sürətləndirmişdir. Burada çoxlu məhsuldar, münbit torpaq, əlverişli iqlim şəraiti Avropa əhalisinin müəyyən hissəsini özünə cəlb etmişdir. Münbit torpaq çox olduğuna görə Avropadan buraya gəlmiş adamlar təkcə

sənaye müəssisələrində iş qüvvəsi kimi deyil, kənd təsərrüfatı ilə də məşğul olmağa başlamış, boş torpaqlarda fermer təsərrüfatları yaratmışlar. Nəticədə iş qüvvəsinə tələb təklifdən çox olmuşdur. Bu isə iş qüvvəsinin qiymətinin yüksək olması ilə nəticələnmişdir.

Beləliklə, ABŞ-da əmək haqqı daha yüksək olduğuna görə dünya dövlətlərindən buraya mütəxəssislər miqrasiya etmiş və edir. Dövlət də bu prosesin güclənməsi üçün şərait yaratmışdır. Deməli, ABŞ-ın indiki yüksək inkişaf səviyyəsinin əsas amillərindən biri də buraya vaxtilə mütəxəssislərin axını olmuşdur. Buna «beyin axını» da deyirlər.

İş qüvvəsinin beynəlxalq miqrasiyasını tənzimləmək məqsədilə 1946-ci ildə Birləşmiş Millətlər Təşkilatının nəzdində Beynəlxalq əmək təşkilatı yaradılmışdır. Beynəlxalq əmək təşkilatı indi BMT-nin böyük təşkilatlarından biridir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin mühüm formalarından biri xarici kapital qoyuluşudur. Kapital ilk dəfə pul formasında olur. Pul özlüyündə kapital deyil, o, müəyyən şəraitdə istifadə olunma məqsədindən asılı olaraq kapitala çevrilir. Əgər pul mənfəət əldə etmək məqsədilə istehsal vasitələri, iş qüvvəsi alınaraq istehsal təşkil etmək arzusu ilə sərf edilirsə, pul avans olur, yəni o, gəlir əldə etmək vədi verir. Bu pul kapitala çevrilir. Başqa sözlə, mənfəət əldə etmək məqsədilə avans olunan pula kapital deyilir. Borc vermək məqsədilə yığılan pula borc kapitalı deyilir. Beynəlxalq bazarda iqtisadi mahiyyətindən asılı olaraq borc kapitalı iki sahəyə – dünya pul və dünya borc kapitalı bazarına ayrılır. Dünya pul bazarı adətən tədavül sahəsinə və beynəlxalq ticarətə xidmət edir.

Bu və ya digər dövlətin, yaxud sahibkarın əlində müəyyən məbləğ pul toplandıqda, onu ya istehsala qoyur

və yaxud borc verir. Çünki kapital hərəkət etməsə mənfəət gətirə bilməz. Beynəlxalq aləmdə dünya kapital bazarı iqtisadi artımın təmin edilməsinə xidmət edir. Öz konkret formasından asılı olaraq dünya kapitalı bazarı iki yerə – kredit bazarına və qiymətli kağızlar bazarına bölünür.

Müvəqqəti sərbəst olan pul kapitalı kredit vasitəsilə borc kapitalına çevrilir. Kredit əsasən ticarət kreditinə, kapital qoyuluşu kreditinə və bankir kreditinə bölünür.

Ticarət krediti fəaliyyətdə olan sahibkarın bir-birinə verdiyi əmtəə kreditinə deyilir. Fəaliyyətdə olan sahibkarlar dedikdə, məhsul istehsalı və ticarətlə məşğul olan sahibkarlar nəzərdə tutulur. Məsələn elə hallar olur ki, ticarət sahəsində fəaliyyət göstərən sahibkarın əmtəələri hələlik satılmır, əlində pulu olmur, lakin əmtəə almaq istəyir. Bu zaman, istehsal ilə məşğul olan şəxs pul almadan ona borc əmtəə verir. Bu hər iki sahibkar üçün sərfəlidir.

Kapital qoyuluşu krediti konkret olaraq tikinti obyektlərinin və digər tikintilər üçün verilən borclardır.

Bankir krediti pul borcları şəklində verilən kreditdir. Bu, kapital ixracının bir formasıdır. Ümumiyyətlə, kapital ixracı iki – məhsuldar və borc formasında edilir. Kapital ixracı kapitalın inkişaf əlamətlərindən biridir. Kapital ixracının məhsuldar forması o deməkdir ki, bu və ya digər azad bazar dövləti başqa ölkədə sənaye müəssisələri, firmalar yaradır, orada istehsalı, ticarəti təşkil edir. Məqsədi buradan öz ölkəsinə nisbətən daha çox mənfəət götürməkdir. Çünki bu ölkələrdə iş qüvvəsi, xammal daha ucuzdur. Bundan kapital ixrac olunan ölkə də qazanır. Çünki həmin ölkənin öz sərvətindən istifadə etmək üçün kifayət qədər kapitalı olmur.

Xarici kapital qoyuluşunun Azərbaycan üçün ən yaxşı forması birbaşa investisiyadır. Bunun borc və

kreditlərə nisbətən müəyyən üstünlükləri vardır. Bu kapital bilavasitə əmtəə və xidmətlər istehsalının artırılması mənbəyidir, yeni texnologiyanı ölkəyə cəlb etməyin mühüm yoludur. Həm də bu cür kapital qoyuluşu dövlətin xarici borcunun ödənilməsi üçün pul mənbəyi olur.

Birbaşa investisiya qoyuluşu əsasən birgə müəssisələr yaratmaqla həyata keçirilir. Xarici investorlarla birgə müəssisələr təşkil etmək üçun milli iqtisadiyyatın dünya təsərrüfatına səmərəli inteqrasiyasının mühüm yoludur. Buna görə də Azərbaycan beynəlxalq iqtisadi əlaqələrin bu formasının inkişafına xüsusi fikir verir. Bunun nəticəsidir ki, uğurlar ləng olsa da, dinamik olaraq inkişaf etməkdədir. Məsələn, respublikada 1988-ci ildə 2, 1993-cü ildə 300 birgə müəssisə qeydə alınmışdırsa, Azərbaycan Respublikası Xarici İqtisadi Əlaqələr Nazirliyinin 1995-ci ildə verdiyi məlumata görə 781 birgə müəssisə qeydə alınmışdır. Onların 360-ı Türkiyə, 199-u İran, 68-i Rusiya, 37-si ABŞ ilədir. Azərbaycanda həmçinin, Almaniya (34), Böyük Britaniya (14), İsveçrə (14), Avstriya, Belçika, Danimarka, Fransa, Çin, Panama, Finlandiya, bir sıra MDB dövlətləri ilə birgə müəssisələr yaratmışdır. Azərbaycanın iqtisadiyyatının inkişaf tempi artıqca xarici investorlarının Azərbaycanda birgə müəssisələr təşkil etməyə daha çox meyl göstərirlər. Məhz bunun nəticəsidir ki, XX əsrin əvvəllərində onların sayı əhəmiyyətli dərəcədə artmışdır.

Birgə müəssisələrin sayının çoxalması Azərbaycanda texnika və texnologiyanın dünya standartların uyğun təzələnməsində, qabaqcıl ölkələrin istehsalın təşkili və idarəetmə təcrübəsinin öyrənilməsində əhəmiyyəti böyükdür. Təəssüf ki, onların əksəriyyəti xalq istehlakı malları istehsalı və ticarət strukturlarında yaradılmışdır. Dövlətin əsas vəzifələrindən

biri xarici investorları elmi-texniki və istehsal profilli sahələrdə birgə müəssisələrin yaradılmasına cəlb etməkdir.

Azərbaycanda birgə müəssisələrin yaradılması sahəsində ən böyük uğur Azərbaycanın neft müqavilələrinin bağlanması olmuşdur. Belə ki, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində respublikanın təbii sərvətlərindən xarici ölkələrin ən böyük şirkətləri ilə müştərək istifadə etmək formaları yeni hadisədir. Bu, Azərbaycanın öz təbii sərvətlərinin sahibi olmasının təsdiqidir.

20 sentyabr 1994-cü ildə Bakıda imzalanan, miqyasına görə beynəlxalq xarakter daşıyan «Əsrin müqaviləsi» adlanan müqavilə Azərbaycanın Xəzər dənizi sektorunda üç neft yatağının – «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının birgə istifadə olunmasını nəzərdə tutumuşdur. Müqavilə dünyanın 6 ölkəsinə mənsub olan 14 şirkət arasında imzalanmışdı. Müqavilənin müddəti 30 ildir. Layihə əsasən 1997-ci ilin avqustunda «Çıraq» neft yatağından ilkin neft hasil olması nəzərdə tutulmuşdur. Müqavilə Amako (ABŞ), Yunokl (ABŞ), Penzoyl (ABŞ), Eksson (ABŞ), Mak-Dermont (ABŞ), Tritiş Petrolium (İngiltərə), Statoyl (Norveç), Turkeş petrolium (Türkiyə), Lukoyl (Rusiya), Pamko (Böyük Britaniya), Delta (Səudiyyə Ərəbistanı) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Birgə fəaliyyətini qəzərdə tutmuşdur. Müqavilənin dəyəri 14 milyard ABŞ dollarıdır. Müqaviləyə görə göstərilən yataqlardan 511 milyon ton neft çıxarılacaq. Neftdən gələn gəlirdə Azərbaycanın payı 80% olacaqdır ki, bu da 253 milyon ton neft deməkdir. Xarici şirkətlər bütün investisiyanın 80%-ni bu sahəyə qoymaqla təqribən 65 milyon neftin sahibi olacaqlar. Qalan neftin kapital xərclərinin, neftin dünya bazarına çıxarılması üçün maliyyə və nəqliyyat xərclərinin

ödənilməsinə sərf olunması nəzərdə tutulur. Pulla qiymtləndirdikdə neftdən alınan ümumi gəlir 157,6 milyard dollar, o cümlədən Azərbaycanın gəliri 81,7 milyard dollar olacaqdır.

«Əsrin müqaviləsi»nin imzalandığı vaxtdan keçən müddət ərzində onun məzmununda müəyyən dəyişikliklər edilmiş, yeni-yeni müqavilələr bağlanmış, düzəlişlər və təkmilləşmələr edilmişdir. Lakin onun mahiyyəti və məqsədi dəiyşməmişdir. Onun reallaşmasına Azərbaycanın müstəqilliyini istəməyən dövlətlərin müqavimətinə baxmayaraq layihə nəzərdə tutulan vaxtda yerinə yetirildi. Artıq «Bakı-Tiflis-Ceyhan» neft boru kəməri fəaliyyət göstərir və Azərbaycana böyük neft dolları axmaqdadır. Azərbaycan bundan istifadə edərək keçid dövründə Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafını tezliklə başa çatdırmaq və ərazi bütövlüyünü təmin etmək imkanı qazanmışdır.

Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişafına əsasən xarici kapitalın cəlb edilməsi müsbət və qaçılmaz haldır. Bu problemin düzgün həllində beynəlxalq və regional iqtisadi təşkilatların rolu böyükdür. Bu təşkilatlara izv olmadan onun üstünlüklərindən istifadə etmək mümkün deyil. Məhz buna görə də Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra  müstəqil bir dövlət kimi bu təşkilatlara üzv olmuşdur.

Beləliklə, Azərbaycanın xarici iqtisadi əlaqələrində mahiyyətcə Azərbaycan üçün yeni olan hadisələrdən biri onun bir sıra nüfuzlu beynəlxalq iqtisadi təşkilatların üzvlüyünə qəbul olunmasıdır. Bu, Azərbaycanın müstəqilliyini təsdiq edən amillərdən biridir. Çünki bu təşkilatlara yalnız müstəqil dövlətlər daxil ola bilər. Həm də respublikanın ümumdünya inteqrasiya proseslərinə daha fəal daxil olması üçün ilkin şərtdir.

Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarından biri Beynəlxalq Yenidənqurma və İnkişaf bankı (BYİB) və Beynəlxalq Valyuta Fondudur (BVF). BYİB və BVF 1944-cü ildə Amerikanın Bretton-Vud şəhərində təsis olunub. Bretton-Vud əkizləri adlanan bu təşkilatların təsisçiləri ABŞ, keçmiş SSRİ, İngiltərə, Fransa və Çin olmuşdur. BYİB və BVF-nin ixtisaslaşdırılmış təşkilatlarıdır. Onların yaradılmasında məqsəd ikinci dünya müharibəsindən sonra dağıdılmış iqtisadiyyat və maliyyə sistemi şəraitində fondun üzvü olan ölkələr arasında valyuta ittifaqı yaratmaqdır. Hazırda BYİB və BVF-nun 170-dən artıq üzvü vardır. Azərbaycan 1992-cü ilin sentyabr ayından bu təşkilatların üzvüdür.

Müasir dünyada müsəlman dövlətlərinin yaratdıqları çoxsaylı müsəlman təkilatları da fəaliyyət göstərir. Bu təşkilatlardan böyük nüfuz dairəsinə malik olanları aşağıdakılardar: Ümumdünya İslam Konqresi (1926-cı ildə Səudiyyə Ərəbistanında yaranıb), Ümumdünya İslam Cəmiyyəti (1962-ci ildə Məkkədə təsis olunub), İslam Klerinq palatası (1977-ci ildə Küveytdə yaranıb), İslam İnvestisiya Şirkəti (1977), İslam Maliyyə Şirkəti (1981-ci ildə Cenevrədə yaranıb).

Hazırda müsəlman təşkilatlarından ən fəalı İslam Konfransı Təşkilatıdır (İKF). Bu təşkilat 1969-cu ildə Rabat şəhərində (Mərakeşdə) yaradılıb. 1992-ci ildə Azərbaycan İslam Konfransı Təşkilatına üzv qəbul edilib. Azərbaycan İKF-nın 47-ci üzvüdür. Azərbaycan İKF-nın üzvü olmaqla, onun bir sıra ixtisaslaşdırılmış köməkçi idarələrinin, o cümlədən İslam İnkişaf Bankının (İİB) üzvü olub. İİB 1976-cı ildə təşkil olunub 30-dan çox üzvü vardır. Bu bank inkişaf etməkdə olan ölkələrə neft dolları ilə yardım göstərən ən iri təsisatlardan biridir. İİB müəyyən layihələri maliyyələşdirmək, borclar vermək,

maliyyə yardımı göstərmək kimi bir çox funksiyalar yerinə yetirir.

Azərbaycan həmçinin bir sıra regional iqtisadi təşkilatların üzvüdir. Çox böyük perstektivləri olan bu cür təşkilatlardan biri Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq təşkilatıdır. Bü təşkilatın təşəbbüçüsü Türkiyədir. 1992-cü ilin fevral ayından Azərbaycan bu təşkilatın üzvüdür. İlk yaranan vaxtda Türkiyə, Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova və Özbəkistan onun üzvü olmuşdur. Lakin sonralar Rusiyanın təzyiqi ilə Özbəkistan oradan çıxmışdır. Çünki bu təşkilatın mövcudluğu Rusiyanın maraq daiərsində deyil. Ona görə də o həmişə bu təşkilatın fəaliyyətinə mane olmağa çalışır.

Azərbaycanın üzv olduğu digər bir təşkilat Müstəqil Dövlətlər Birliyidir (MDB). Azərbaycan bu təşkilata 1993-cü ildə üzv olmuşdur. Təəssüf ki, MDB-nin fəaliyyətində çoxlu qüsurlar vardır. Bu qurum hələ öz nizamnaməsində nəzərdə tutulan kimi işləmir, müəyyən siyasi planlar ön plana çəkilir, mərkəz hegemonluğu hiss edilir. MDB-nin üzvü olan bütün dövlətlərin səyi və qüsurların aradan qaldırılmasına yönəldilərsə, bir iqtisadi qurum kimi MDB təkmilləşdilərsə, bütün üzv dövlətlər, o cümlədən Azərbaycan MDB üzvlüyündən faydalana bilər. Bu qurumun təsisçisi və lideri olan Rusiya Federasiyasının Ermənistan kimi təcavüzkar dövləti dəstəkləməsi və onu Azərbaycanın torpağının işğal etməsinə göz yumması, hətta ona hərtərəfli yardım etməsi bu qurumun ən böyük nöqsanıdır. Ədalətsizlik prinsipi əsasında yaradılan qurum uzunömürlü ola bilməz.

## § 6. Sərbəst iqtisadi zonalar

Sərbət iqtisadi zonaların yaradılması beynəlxalq iqtisadi münasibətlərin yeni və mütərəqqi formalarından biridir. Belə ki, sərbəst iqtisadi zonaların yaradılması hər bir müstəqil dövlətin xarici siyasətinin tərkib hissəsidir. Bunun ölkənin iqtisadi inkişaf strategiyasında özünəməxsus yeri və əhəmiyyəti vardır. Belə zonaları xarici dövlətlərin və beynəlxalq təşkilatların üzünə açmaqla məqsəd xarici ölkələrin maliyyə imkanlarından, qabaqcıl texnika və texnologiyasından istifadə edərək öz ölkəsinin iqtisadiyyatını inkişaf etdirməkdir. Dövlətlərin tarixi təcrübəsi göstərir ki, milli iqtisadiyyatın inkişafında sərbəst iqtisadi zonaların yaradılması mühüm əhəmiyyətə malikdir. Bu amildən istifadə edərək çətin vəziyyətdən çıxmağa bizim respublikanın da böyük ehtiyacı vardır.

İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün dövlətlər bu vasitədən istifadə etməyə çalışırlar. Hər bir dövlət bu və ya digər iqtisadi zonanın milli iqtisadiyyatın inkişafında rolunu və başqa amilləri nəzərə alaraq müəyyən, məhdud ərazini sərbəst iqtisadi zona elan edir. Eyni zamanda, bu ərazidə iqtisadi fəaliyyət göstərmək istəyən xarici və milli sahibkarlar üçün müxtəlif güzəştlər müəyyən olunur. Məqsəd bu ərazidə yeni müəssisələr tikdirməyə, köhnələrini isə ən müasir texnika və texnologiya əsasında yenidən qurmağa həvəsləndirməkdir. Belə stimul xarici kapitalın sərbəst iqtisadi zonaya axınına səbəb olur. Bu, elmi-texniki tərəqqini və bunun əsasında əmək məhsuldarlığını yüksəltməyə təkan verir.

Beləliklə, sərbəst iqtisadi zonaya aşağıdakı kimi tərif vermək olar: milli və xarici sahibkarlar üçün mövcud ölkədə güzəştli iqtisadi şərtlərlə nəzərdə tutulmuş məhdud ərazi hissəsinə sərbəst iqtisadi zona deyilir.

Dövlətin ərazisinin bir hissəsi olan sərbəst iqtisadi zonada xüsusi rejim, qayda müəyyən edilir və

sahibkarların fəaliyyəti bu qaydalara uyğun tənzimlənir. Buraya aşağıdakılar daxildir:

1. idxal-ixrac əməliyyatının güzəştli gömrük vasitəsilə (bəzən də gömrüksüz tənzimlənməsi); 2. vergiqoymada yeni qayda yolu ilə; 3. lisenziyalaşdırma ilə, başqa sözlə, xaricə mal aparmaq və ya xaricdən mal gətirmək üçün icazə almaqla; 4. bank fəaliyyəti yolu ilə; 5. əmlak və girov münasibətləri vasitəsilə; 6. müəssisələrin konsesiyaya verilməsilə, ölkə daxilində sənaye müəssisələri təşkil etməyə, mədən aşkar etmək və s. üçün dövlət tərəfindən ayrı-ayrı şəxslərə və ya dövlətə hüquq verilməsilə; 7. sərbəst zonanı idarə etməklə.

Sərbəst iqtisadi zonaların bir çox növləri mövcuddur: sərbəst gömrük ərazisi, sərbəst ticarət zonası, istehsal-ixtisas zonası, müəssisələr zonası, elmi-texniki zona, açıq iqtisadi şəhər, açıq iqtisadi rayon, konsesiya müqaviləsi əsasında işləyən zonalar və s.

Sərbəst iqtisadi zonaların yaradılması kapital tutumludur. Bununla əlaqədar olaraq dünyada fəaliyyət göstərən 700-dən çox sərbəst iqtisadi zona (bunların 400-ə qədəri ticarət, anbar, 300-dən çoxu isə istehsal növlüdür) mövcuddur. Sərbəst iqtisadi zonalar yaradılarkən çox ehtiyatlı olmaq tələb olunur, yüz ölçüb bir biçilməlidir. Onun iqtisadi və siyasi cəhətdən ölkə üçün faydalı olmasına tam əmin olmadan, bu işə başlamaq olmaz.

Sərbəst iqtisadi zonalar bir qayda olaraq, əlverişli nəqliyyat-coğrafi mövqeyə malik olan regionlarda, ərazilərdə təşkil edilir. Onlar xarici kapitalın və texnologiyanın ölkəyə cəlb olunmasında mühüm rol oynayır. Bu baxımdan, Azərbaycan Respublikasında sərbəst iqtisadi zonaların yaradılması və buraya xarici kapitalın cəlb edilməsi çox əlverişlidir. Azərbaycan zəngin və çoxnövlü xammala, hər cür əmək ehtiyatına, yəni həm

ixtisaslı, həm də ixtisası olmayan iş qüvvəsinə malikdir. Lakin ölkədə müharibə şəraiti bu prosesin inkişafına əngəl törədən amillərdəndir.

Sərbəst iqtisadi zonalar yaratmış bir çox ölkələrin, ilk növbədə Çin Xalq Respublikasının təcrübəsi göstərir ki, xarici ölkələrlə yaradılan müştərək müəssisələrin və bütövlükdə xarici dövlətlərin şirkətlərinə məxsus müəssisələrin böyük əksəriyyəti bu zonaların payına düşür.

Sərbəst iqtisadi zonaların yaradılması üçün təkcə əlverişli nəqliyyat-coğrafi şəraitin olması kifayət deyil. Eyni zamanda, bu işin təşkili böyük kapital tələb etdiyinə görə sərbəst iqtisadi zonaları ən çox inkişaf etmiş ölkələr təşkil edə bilirlər. Məsələn, Avropa ölkələrində 130-a qədər, ABŞ-da 180-dən çox sərbəst gömrük zonası vardır. İxrac istehsal zonaları, əsasən inkişaf etməkdə olan ölkələrdə cəmlənmişdir. Bu o deməkdir ki, sənayecə inkişaf etmiş dövlətlər vaxtilə müstəmləkə olan, indi isə müstəqillik qazanmış ölkələrdə sənaye müəssisələri təşkil edirlər.

Müstəqil inkişaf yoluna qədəm qoymuş gənc milli dövlətlərdə, xammalın və iş qüvvəsinin öz ölkələrinə nisbətən ucuz olması sərbəst iqtisadi zonalara kapital qoyan dövlət və firmalara yüksək mənfəət götürməyə imkan verir. İnkişaf etməkdə olan dövlətlərdə bir tərəfdən, xammal və iş qüvvəsinin ucuz olması, digər tərəfdən gömrük vergisinin az və yaxud tamamilə olmaması xarici dövlət və sahibkarları bu ölkələrdə olan sərbəst iqtisadi zonaya maqnit kimi çəkir. Bununla əlaqədar olaraq 2000-ci ildə ixrac məhsulunun ümumi həcmi 25 milyard dolları keçmişdi. Bu ölkələrdə təşkil olunmuş iqtisadi zonaların müəssisələrində 3 milyondan çox adam işləmişdir. Bu ölkələrdə təşkil olunmuş sərbəst iqtisadi zonaların həmin ölkələr üçün ən çox əhəmiyyətli olması həm də məhz

bundan ibarətdir. Xarici dövlətlər və firmalar sərbəst iqtisadi zonalarda kapital qoyaraq həmin ölkənin təbii və əmək resurslarından istifadə etməklə, çoxlu gəlir götürsələr də, sərbəst iqtisadi zonalar təşkil olunan ölkələr də işsizliyi azaltmaqla özləri də bundan fayda götürürlər.

Sərbəst iqtisadi zonalar, bir tərəfdən, qabaqcıl xarici firmalarla, şirkətlərlə əməli əməkdaşlıq, elmi-texniki və digər sahələrdə informasiya mübadiləsi yaradır, digər tərəfdən, radikal iqtisadi islahatların ayrı-ayrı istiqamətləri üzrə eksperiment xarakterli tədbirlərin az itkilərlə tətbiqi üçün şərait yaradır. Bundan əlavə, məhz, sərbəst iqtisadi zonalarda xarici ölkələrin təcrübələrini, yerli xüsusiyyətlər nəzərə alınmaqla, müvəffəqiyyətlə sınaqdan çıxarmaq mümkün olur.

1934-cü ildə dünyada ilk dəfə ABŞ-da sərbəst iqtisadi zonanın xarici ticarət növü yaranmışdır. Məqsəd gömrük haqqını aşağı salmaq yolu ilə xarici ticarəti genişləndirmək və formalaşdırmaq olmuşdur. Bu zonanın yaradılmasında məqsəd ölkəyə avtomobil və onun hissələrinin idxalını azaltmaq nəzərdə tutulmuşdur. Bu zonada çoxlu anbarlar, təyyarə meydanları və digər xidmət binalarının tikintisi genişləndirilmişdir. Güzəştli vergi qoyulması və digər əlverişli şəraitin yaranması bu zonaya çoxlu məhsul gətirilməsinə səbəb olmuşdur. Sonra isə həmin məhsullar, başqa bir ölkəyə, yəni üçüncü ölkəyə müvafiq qiymətlərlə ixrac edilmişdir.

1957-ci ilə İrlandiyanın «Şenon» təyyarə meydanında yaradılmış sərbəst iqtisadi zona üçün cəmi 15 hektar torpaq sahəsi ayrılmışdır. Bu zaman qarşıya çox sadə bir məqsəd qoyulmuşdur: əlavə 300 iş yeri əldə etmək. Bu zonanın fəaliyyəti ilə gözlənildiyindən daha yaxşı nəticə əldə edildiyinə görə, onun ərazisi daha da genişləndirilmişdir.

1967-ci ildə Braziliyada sərbəst iqtisadi zonanın başqa bir növü «manaus ətrafında sənaye sərbəst zonası» yaradılmışdır. Məqsəd sənaye istehsalının inkişafına stimul yaratmaq olmuşdur. Buna nail olmaq üçün əsas vasitə güzəştli vergi sisteminin tətbiq edilməsi seçilmişdir. Bunun nəticəsində sənaye sürətlə inkişaf etmişdir. Bu, Braziliyanın bütün sənayesinin dirçəlməsinə səbəb olmuşdur. Sərbəst iqtisadi zonada təxminən 30 xammal və yanacaq-enerji sahələri fəaliyyət göstərmişdir. Bu məhsulların yalnız 3-5 faizi ixrac edilmiş, qalanları isə Braziliyanın özündə istehlak edilmişdir.

1978-ci ildə Çinin 14 dənizətrafı şəhərində sərbəst iqtisadi zonalar təşkil edilmişdir. Məqsəd xarici ticarəti inkişaf etdirmək olmuşdur. Əsas vasitə kimi vergi və gömrük güzəştlərindən istifadə olunmuşdur.

Sərbəst iqtisadi zonaların yaradılması təkcə həmin ölkənin deyil, bütün dünya iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Buna görə də sərbəst iqtisadi zonaların yaradılmasını bazar iqtisadi sistemi istiqamətində inkişaf edən demokratik dövlətlər hərtərəfli müdafiə edirlər. Sərbəst-iqtisadi zonalar  dünya texnika və texnologiyası sahəsində bilik almağı, xarici iqtisadi siyasəti həyata keçirməkdə idarəçilik təcrübəsi toplamağı və s. təmin edir.

Azərbaycanda sərbəst iqtisadi zonalarınnın yaradılması üçün ən əlverişli məkan Sumqayıt şəhəridir. Çünki regionda sərbəst iqtisadi zonaların yaradılması üçün zəruri şərtlərin hamısı mövcuddur. Həm də zərurət vardır. Ona görə ki, Sumqayıt şəhərində sovet dövründə tikilmiş sənaye müəssisələrinin demək olar ki, hamısının istehsal fondlarının kütləvi təzələnməsi, müasir texnikanın ölkəyə gətirilməsi, işsizliyin həll edilməsi buraya müəyyən müddətə xarici investorlara güzəştli şərtlərlə verilməsini tələb edir. Məhz buna görə də Azərbaycan dövləti burada

sərbəst iqtisadi zonanın təşkili üçün lazım olan bütün tədbirləri görmüş, lazımı mərhələlərdən keçmişdir, yaxın gələcəkdə onun reallaşmasına şübhə yoxdur.

## § 7. Valyuta münasibətləri

Xarici azad ticarətin inkişafına bəzi amillər maneələr törədir. Bunlardan biri dünya ölkələrinin milli pul vahidlərindən bir-birinə uyğun gəlməməsidir. Bu, idxal-ixrac əməliyyatı zamanı dövlətlərin valyutalarının bir-birinə dəyişdirilməsi yolu ilə həll edilir. Valyuta italyan sözü olan «valyuta» sözündən əmələ gəlmişdir. Azərbaycan dilində qiymət, bir ölkədə qəbul edilmiş pul sistemi və həmin ölkənin pul vahididir (Azərbaycan manatı, dollar, franq, rubl və s.).

Beləliklə, təsərrüfat həyatının beynəlmilləşdirilməsi milli pul vahidlərinin bir-birinə dəyişdirilməsinə ehtiyac yaratmışdır. Bu zərurət xüsusi bazarda, yəni tələb və təklifin təsiri altında valyuta kursu formasında reallaşdırılır.

Valyutanın alqı-satqısı dünya valyuta bazarlarında həyata keçirilir. Ən böyük dünya valyuta bazarları Nyu-York, London və başqa iri şəhərlərdədir. Bu bazarlarda ABŞ dolları ilə ingilis funt sterlinqi, yapon iyeni, alman markası, italyan liri almaq olar, həm də əksinə.

Cəmiyyətin inkişafının əvvəlki mərhələsinə nisbətən, hazırda elmi-texniki tərəqqi daha da sürətlənmiş və bunun təsiri nəticəsində beynəlxalq əmək bölgüsü dərinləşmişdir. Bunun özü isə beynəlxalq əlaqələri genişləndirmişdir. Bu cür genişlənən beynəlxalq əlaqələr çox vaxt valyuta vasitəsilə həyata keçirilir. Dövlətlər arasında beynəlxalq xidmətlər, əmtəə və kapital ixracı valyuta münasibətlərinin ifadələridir. Başqa sözlə, beynəlxalq iqtisadi münasibətləri valyuta

münasibətlərindən ayırmaq olmaz. Bunlar eyni prosesin müxtəlif tərəfləridir.

Valyuta münasibətləri sistemində vekselin özünəməxsus yeri var. Veksel alman sözü olub, mənası dəyişmə deməkdir. Veksel borclunun göstərilən vaxtda müəyyən pul məbləğini ödəməsi haqqında xüsusi borc pul təəhhüdünü yerinə yetirir. O, beynəlxalq hesablaşmalarda işlədilən tədavül və ödəmənin kredit vasitəsidir. Başqa sözlə, bir dövlət başqa bir dövlətdən borc alarkən, qanunda göstərilən formada sənəd tərtib edilir. Həmin sənəd borc verəndə qalır. Sənəddə, yəni vekseldə verilən borcun miqdarı, vaxtı və yeri qeyd olunur. Borc verən həmin sənədi təqdim edən zaman borclu dövlət sənədində göstərilən bütün şərtlərə əməl etməyə borcludur.

Valyutalar üç qrupa bölünür: 1. Azad, tam çevrilən valyuta. 2. Qismən çevrilən valyuta. 3. Çevrilməyən və yaxud qapalı valyuta. İstənilən digər xarici pula qeyri-məhdud məbləğdə dəyişdirilən və bütün növ ödənişlər üçün istifadə edilən valyutaya tam çevrilən valyuta deyilir. Belə valyutalar xüsusi icazə olmadan hər hansı bir ölkənin valyutası ilə dəyişdirilə bilər. Buna valyutanın konvertləşdirilməsi deyilir. Bu konversiya sözündən əmələ gəlib. Konvensiya (konsersio) Azərbaycan dilində dəyişmək deməkdir. Belə valyutaya ABŞ, Kanada, Avropa iştisadi birlik dövlətləri və s. ölkələrin pul vahidlərini misal göstərmək olar. Belə valyutalara ehtiyat valyutası da deyilir. Hazırda ABŞ dolları, ingilis fund sterlinqi, Almaniya markası, yapon iyeni, İsveçrə frankı və b. ehtiyat valyuta statusuna malikdirlər.

1. Tam çevrilən və ehtiyat valyuta hüququnu qazanmaq üçün ölkənin iqtisadi inkişafını yüksək səviyyəyə qaldırmaq və ölkədə sabitlik yaratmaq əsas şərtdir. Digər tərəfdən, hər bir ölkənin pul vahidinin

arxasında müəyyən miqdar qızıl və başqa sərvət dayanır. Qızıl ehtiyatı olmayan dövlətin pul nişanı istənilən vaxt qızıl ilə dəyişdirilə bilməz. Məhz ona görə də ABŞ dolları yığmaq, ondan ehtiyat saxlamaq qızıl yığmağa bərabərdir. Çünki qızılı istədiyin vaxt satıb, ondan istədiyin məhsulu və xidməti almaq olmur, dolları isə istədiyin vaxt və istədiyin ölkədə yerli pula dəyişmək mümkündür.

2. Müəyyən ölkələrin valyutalarına dəyişdirilən və onlardan məhdud məbləğdə ayrı-ayrı ödəniş əməliyyatlarında istifadə oluna bilən valyutaya qismən çevrilən valyuta deyilir. Əgər tam çevrilən valyutalar bütün dövlətlərin valyutaları ilə, həm də məhduddiyyət qoyulmadan dəyişdirdiyi halda, qismən çevrilən valyutalar müəyyən dövlətlərin, məsələn, bir dövlətin valyutası 3-4 dövlətin valyutası ilə, həm də məhdud miqdarda dəyişdirilə bilər. Məsələn, fin markası, yapon iyenləri və s. bu qəbildəndir.

3. Yalnız bir ölkə daxilində fəaliyyət göstərən valyutaya çevrilməyən və yaxud qapalı valyuta deyilir. Sovet manatı buna misal ola bilərdi.

Valyutanın yuxarıda göstərilən üç növündən və milli valyutadan əlavə kollektiv valyuta növündən də istifadə olunur. Dövlətlərarası iqtisadi təşkilatlar çərçivəsində beynəlxalq hesablaşmalarda istifadə olunan valyutaya kollektiv valyuta deyilir. Buna Avropa İqtisadi Birliyinə (Almaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Lüksemburq, İrlandiya, Danimarka) daxil olan dövlətlərin valyutası – EKYU (Avropa valyuta vahidi) misal ola bilər. Bu valyuta növünü tətbiq etməklə Avropa ölkələri öz milli iqtisadiyyatını ABŞ dollarının məzənnəsinin dəyişməsindən baş verə biləcək mənfi təsirdən qorumağa çalışırlar.

Beynəlxalq valyuta əməliyyatlarında valyuta auksionundan (hərracdan) geniş istifadə edilir. Məlumdur ki, auksion bazarın bir növüdür. Adətən banklara girov qoymuş, lakin vaxtında borcunu qaytara bilməyən şəxsin əmlakı nümayiş yolu ilə satılan bazardır. Kim ən yüksək qiymət verirsə, həmin şəxs onu almaq hüququna malik olur. Valyuta auksionu ondan bir qədər fərqlənir. Fərqin biri odur ki, auksion ölkənin daxilində müxtəlif əmtəələrin, ən çox isə tərpənməz əmlakın reallaşmasıdır. Digər fərq satış qaydasıdır. Valyuta auksionu isə milli valyuta ilə satılması və alınması mümkündür.

Bazar iqtisadiyyatı şəraitində, xüsusilə keçid dövründə, istehsalı təşkil etmək, onun rəqabətdə iflasa uğramaq qorxusu müəssisə və təşkilatları valyuta ehtiyatı yığmağa sövq edir. Valyuta auksonları bu vəzifənin yerinə yetirilməsində mühüm rol oynayırlar.

Adətən valyuta auksionlarında 1 ABŞ dollarının milli valyutaya görə məzənnəsi ölçü vahidi kimi qəbul edilir. Beynəlxalq ticarət və maliyyə kredit əməliyyatlarında beynəlxalq haqq-hesab aləti dünya pulu olan qızıldır.

Bir ölkənin valyutası digər ölkənin valyutasına valyuta məzənnəsi ilə dəyişdirilir. Valyuta məzənnəsi bir ölkənin pul vahidinin digər ölkələrin pul vahidlərində ifadə olunmuş qiymətinə deyilir. Məsələn, 1 funt sterlinq - 2 dollara.

Bazar iqtisadiyyatı şəraitində bazarın başqa növlərində olduğu kimi, tələb və təklifin təsiri ilə dünya ölkələrində valyuta məzənnəsi dəyişə bilər. Buna görə də xarici valyutalar vaxtaşırı qiymətləndirilir. Xarici valyutaların məzənnəsinin təyini ayda bir dəfə aparılır.

Hər bir dövlət öz ölkəsinin büdcə kəsirini aradan qaldırmaq, inflasiyanın baş verməməsini təmin etmək və yaxud qarşısını almaq üçün milli valyutanın dönərliyinə,

yəni azad çevrilməsinə çalışır. Buna nail olmaq üçün onun əmtəə və qızıl ehtiyat ıtəminatını yaratmaq lazımdır.

Dünya dövlətləri arasında beynəlxalq sazişlərin həyata keçirilməsi, bankların iştirakı ilə valyuta əməliyyatlarının aparılması formasında həyata keçirilir.

Dünya ölkələrinin valyutalarının alınıb-satılması (sənədlərin, çeklərin, veksellərin) və s. əməliyyatların həyata keçirilməsi beynəlxalq valyuta bazarında aparılır. Başqa sözlə, valyutaların alqı-satqısı əsasən banklar arasında sazişlər formasında baş verir.

Beynəlxalq valyuta bazarında təkcə banklar arasında deyil, eyni zamanda banklarla hüquqi və fiziki şəxslər arasında da münasibətlər yaranır. Bu isə bazarın bu növünün fəaliyyət dairəsini daha da genişləndirir. Lakin buna baxmayaraq, valyuta bazarı banklararası bazara üstünlük verir və banklararası əməliyyatlar zamanı valyuta kursu formalaşır. Banklararası əməliyyatlar müxtəlif rabitə vasitələrinin köməkilə həyata keçirilir.

Valyuta bazarı hər bir dövlətin iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. O, öz ölkəsində bu və ya digər məhsulun fərdi dəyərinin dünya bazarında həmin məhsulun bazar dəyərindən aşağı olması nəticəsində daha çox gəlir əldə etməsinə xidmət edir. Eyni zamanda kapitalın dövryyəsinə xidmət etməklə ölkənin sərvətinin artmasına səbəb olur.

Hər bir dövlət öz iqtisadiyyatını vahid pul-kredit siyasəti yeritməklə inkişaf etdirməyə çalışır. Beynəlxalq iqtisadi münasibətlər isə iqtisadiyyatın inkişafına müsbət təsir göstərən amillərdən biridir. Bunun isə dövlət beynəlxalq valyuta bazarı vasitəsilə həyata keçirir.

Bunlardan başqa, valyuta bazarı tələb və təklifdən asılı olaraq valyuta kursunun formalaşmasına şərait yaradır və riskin möhtəkir kapitalından müdafiə mexanizmini yaradır.

Qızıl ehtiyatı inkişaf etmiş ölkələrin valyutalarının sabitliyinin və ayrı-ayrı ölkələrin iqtisadi potensialının mühüm göstəricisidir.

İngilis mütəxəssislərinin hesablamalarına görə, 1988-ci ildə dünyada cəmi 1373 ton qızıl çıxarılmışdır ki, bunun da 709 tonu Cənubi Afrika respublikasının, 204 tonu keçmiş SSRİ-nin, 52 tonu Kanadanın, 33 tonu ABŞ-ın, 20 tonu Yeni Qvineyanın və s. payına düşmüşdür.

Bazar iqtisadiyyatı ölkələrində hər dövlət özünün valyuta siyasətini işləyib hazırlayır. Bu siyasətin məqsədi pulun alıcılıq qabiliyyətini saxlamaq və valyuta məzənnəsini sabitləşdirməkdir.

Müasir dövrdə beynəlxalq hesablamalarda bankların rolu xeyli artmışdır. Çünki adətən banklar həmişə müvəqqəti sərbəstləşən pulları bir tərəfdən toplayır, digər tərəfdən ehtiyacları olanlara kredit verirlər.

Beynəlxalq hesablaşmaların subyektləri banklar, eyni zamanda ixrac və idxal edənlər də ola bilərlər. Beynəlxalq hesablaşmalar beynəlxalq hüquq normaları ilə imzalanır. Bununla yanaşı, bank qanun və ənənələri də mühüm rol oynayır.

## Mənimsəməni yoxlamaq üçün suallar və tapşırıqlar

1. Əmək bölgüsünün hansı növləri vardır?
2. Əmək bölgüsü ilə texniki tərəqqinin qarşılıqlı əlaqəsini danışın.
3. Beynəlxalq əmək bölgüsünün şərtləndirən amillər hansılardır?
4. Dünya təsərrüfat sisteminin formalaşmasının ümumi qanunauyğunluq olmasını əsaslandırın və onun tərifini deyin.
5. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərə girməsində qarşısına çıxan çətinliklər hansılardır?

6. Azərbaycanın xarici iqtisadi münasibətlərində onun hansı üstünlükləri mövcuddur?

7. Beynəlxalq iqtisadi münasibətlərin nəzəri əsaslarını izah edin.

8. Azərbaycanın sovet hakimiyyəti illərində xarici iqtisadi münasibətlərdə iştirakının mənfi nəticələrini söyləyin.

9. Azərbaycanın sosial-iqtisadi inkişaf proqramında xarici iqtisadi siyasətin əsas istiqamətləri hansılardır və onların hər birini ayrılıqda şərh edin.

10. Keçid dövründə Azərbaycanın ticarət balansını təhlil edin və onun mənfi və müsbət cəhətlərini göstərin.

11. Azərbaycanın MDB dövlətləri ilə ticarət əlaqələrinin müsbət və mənfi tərəfini şərh edin.

12. Əhalinin beynəlxalq miqrasiyasının səbəbləri nədir? Bunun iş qüvvəsi ixrac edən və idxal edən dövlətlər üçün nəticələri necə olur?

13. Kapital ixrac nədir və o hansı formalarda ixrac edilir?

14. Beynəlxalq kredit nədir və hansı məqsədi güdür?

15. «Bakı-Tiflis-Ceyhan» neft kəmərinin məqsədini və üstünlüklərini danışın.

16. Sərbəst iqtisadi zona nəyə deyilir, onların yaranmasının səbəb və vəzifələri hansılardır?

17. Valyuta nədir və o hansı vəzifələri yerinə yetirir.

## Müzakirə üçün suallar və tapşırıqlar.

1. Beynəlxalq əmək bölgüsünün ümumi iqtisadi qanun olmasını əsaslandırın.

2. Beynəlxalq əmək bölgüsündə Azərbaycanın iştirakının zəruriliyi və onun yerini göstərin.

3. Beynəlxalq iqtisadi münasibətlərin obyektiv zəruriliyini şərh edin.

4. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərə cəlb olmasının obyektiv səbəblərini danışın.

5. Sovet hakimiyyətinin tərkibində olarkən Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdə iştirakının xüsusiyyətlərini şərh edin.

6. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərinin yenidən qurulmasının zəruriliyini əsaslandırın.

7. Beynəlxalq iqtisadi münasibətlər sistemində Azərbaycanın xarici ticarət əlaqələrinin yeri və xüsusi çəkisini danışın.

8. Azərbaycanın dünya bazarına xammal ixrac edən ölkə kimi tanınmasının səbəblərini danışın və onun aradan qaldırılması yollarını göstərin.

9. Dövlətlər arasında xarici ticarət əlaqələrində hansı siyasətlərdən istifadə edilir və Azərbaycan bunlardan necə istifadə edir?

10. Birbaşa kapital qoyuluşunun üstünlükləri hansılardır?

11. Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlarda iştirakının zəruriliyini və əhəmiyyətini şərh edin.

# ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər)». Azərbaycan» qəzeti, 29 sentyabr 1997-ci il.
3. «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası 10 sentyabr 2002-ci il fərmanı. «Azərbaycan» qəzeti, 11 sentyabr 2002-ci il.
4. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (2005-2007-ci illər)» Azərbaycan Respublikasının 2002-ci il 17 avqust tarixli fərmanı. «Azərbaycan» qəzeti, 29 sentyabr 2002-ci il.
5. «Azərbaycan Respublikasının Prezidenti yanında sahibkarlıq Şurası yaradılması haqqında» Respublika Prezidentinin fərmanı. «Azərbaycan»qəzeti, 7avqust 2002-ci il.
6. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)». «Azərbaycan» qəzeti, 13 fevral 2004-cü il.
7. Azərbaycan iqtisadiyyatı. Dərslik, Bakı, 1998.
8. Azərbaycan iqtisadiyyatı, xaricdə yaşayan azərbaycanlılar üçün. Elm, Bakı, 2003.
9. Azərbaycan iqtisadiyyatı. Dərslik, Bakı, 1998.
10. Azərbaycan XXI əsrin astanasında. 1 və 2-ci cildlər. Bakı, 1998.
11. Azərbaycan XXI əsrin  və üçüncü minilliyin ayrıcında. Bakı, 2001.
12. Azərbaycan SSR Xalq təsərrüfatı. Statistika külliyatı, Bakı, 1957ö

13. Azərbaycan xalq Cümhuriyyətinin 80 illiyinə həsr edilmiş Elmi Konfransın materialları. 2-ci cild, Bakı, 1998.
14. Azərbaycan Respublikası Milli Bankı. İllik hesabat, 2002.
15. Abbasov C.M.Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, 2005.
16. Abbasov A.B. Özəlləşdirmə və iqtisadiyyatda struktur dəyişikliklər. İqtisad elmləri:nəzəriyyə və praktika,№3-4, 1997.
17. Vəliyev T. İnfrastruktur: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı, 2000.
18. Qarayev İ.Ş. Milli iqtisadiyyatımızın formalaşma istiqamətləri. Bax: Bazar iqtisadiyyatına keçidin aktual problemləri. Bakı, 1994.
19. Gkonomika perexodnoqo perioda (Pod red. V.V.Radaeva, A.V.Buzqalina). Moskva, 1995.
20. Əliyev S. Müasir mərhələdə Azərbaycan Respublikasının miqrasiya proseslərinin təhlili. Bax: İqtisad elmləri: nəzəriyyə və praktika, № 3-4, Bakı, 1998.
21. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, 2003.
22. Ziyad Səmədzadə. Dünya iqtisadiyyatı. Bakı, 2001.
23. Ziyad Səmədzadə. İctimai istehsalın strukturu və səmərəliliyi (Azərbaycan SSR materiallarına əsasən). Bakı, 1980.
24. Ziyad Səmərdzadə. 1976-1990-cı illərdə Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi. Bakı, 1991.
25. Yusifov M. Azərbaycan Respublikasında demoqrafik vəziyyət və onun inkişaf meylinin statistik təhlili. İqtisad elmləri: nəzəriyyə və praktika, № 3-4, Bakı, 2000.

26. «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu. «Azərbaycan» qəzeti, 4 mart 2004-cü il.
27. Kempball T. Makonnel, Stenli Brö. «Gkonomisk». Prinüipı, problemı i politika. Tom I-II. M., 1992.
28. Marks K. və Engels F. Kommunist partiyasının Manifesti. Seçilmiş əsərləri. 3 cilddə. 3-cü cild, Bakı, 1978.
29. Məmmədov Əziz. Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı, 1997.
30. Məmmədov Ə.B. Elmi idrakın metod və formaları. Bakı, 1980.
31. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı, 2009.
32. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Dərslik. Bakı, 2009.
33. Məhərrəmov A.M., Aslanov H.H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Dəsrlik, 2008.
34. Məhərrəmov A.M. Gömrük siyasətinin formalaşması və inkişafının nəzəri və praktiki problemləri. Bakı, 2009.
35. Məmmədov N.M. İqtisadiyyat və mənəviyyat. Bakı, 2000.
36. Məmmədov N.M. İqtisadiyyatla mənəviyyatın qarşılıqlı əlaqəsinin dialektikası. Bakı, 2001.
37. Məmmədov N.M. Keçid dövründə aqrar bölmədə yeni mülkiyyət formalarının yaranmasının zəruriliyi. Bakı Dövlət Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, № 1, 1997.
38. Məmmədov N.M., Səmədova O.M. Bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçməyin tarixi zəruriliyi. Bax: Akademik Əhməd Mahmudovun 75 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1998.

39. Məmmədov R.M., Hüseynov T.B., Hüseynov A.A. Məhsuldar qüvvələrin yerləşdirilməsi. Bakı, 1992.
40. Meybullayev M.X. Cəmiyyətin iqtisadi sistemi və onun strukturu. Ümumi iqtisadi nəzəriyyə. Dərslik., Bakı, 1995.
41. Muradov Ş.M. Müasir mərhələdə demoqrafiya siyasəti. Bakı, 1986.
42. Mustafayev F.F. Azərbaycanda keçid dövürnəd çoxukladlı iqtisadiyyatın formalaşmasında özəlləşdirmənin rolu. Bakı, 1999.
43. Mustafayev F.F. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri. Bakı, 2008.
44. Nadirov A.A. Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri. Bakı, 1976.
45. Narodnoe xozəystvo SSR za 70 let. Öbileynıy statistiçeskiy ejeqodnik. M., 1987.
46. Narodnoe xozəystvo Azerbaydjanskoy SSR k 70 letiö Velikoqo oktəbrə. Öbileynıy statistiçeskiy ejeqodnik. Baku, 1987.
47. Narodnoe xozəystvo Azerbaydjanskoy SSR v 1978 qodu. Baku, 7.
48. Nəbiyev N.Ə. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı, 2000.
49. Paşayev T.Ə. Bazar iqtisadiyyatına keçid şəraitində əhalinin gəlirlərinin tənzimlənməsi problemləri. Bakı AMEA «Xəbərləri». İqtisadiyyat seriyası, № 3-4, Bakı, 2001.
50. Paşayev T.Ə. Milli iqtisadiyyatın xarici təsirlərdən qorunmasının başlıca mərhələləri. Bakı AMEA İqtisadiyyat İnstitutu. Azərbyacan iqtisadiyyatı yüksəliş yolunda (məqalələr toplusu). I buraxılış, Bakı, 2002.
51. «Sahibkarlığın inkişafına mane olan müdaxilənin qarşısının alınması haqqında» Azərbaycan

Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəzeti, 29 sentyabr 2002-ci il.
52. Sarıyev K.A. Bazar iqtisadiyyatının formalaşmasında kiçik müəssisələrin rolu. Bax: Bazar münasibətlərinə keçid və Azərbaycanın iqtisadi inkişafının bəzi problemləri. Bakı, 1994.
53. Həsənov A. İbn Xalqdunun iqtisadi-nəzəri fikirləri. İqtisad elmləri: nəzəriyyə və praktika, № 2-3, Bakı, 1994.
54. Çeloveçeskiy faktor: suhnostğ i zakonomernosti. M., 1987.
55. Şamseddin Qadjiev. Azerbaydjan na puti k mirovomu soobhestvu: strateqiə vneşno gkonomiçeskoqo razvitiə. Kiev, 2000.
56. Şamil Qafarov. İctimai əmək bölgüsü və müasir sosial-iqtisadi problemlər. Bakı, 1999.
57. Şəkərəliyev A.Ş. Bazarın mahiyyəti və quruluşu. Bakı, 1991.
58. Yadigar Türkel. Demokratik cəmiyyətin milli-mənəvi problemləri. Bakı, 2002

NÜSRƏDDİN MƏMMƏDCƏFƏR oğlu MƏMMƏDOV
AMİL MƏMMƏDƏLİ oğlu MƏHƏRRƏMOV
SƏDAQƏT ELMAN qızı ƏHMƏDOVA

# AZƏRBAYCAN İQTİSADİYYATI

Dərs vəsaiti

Yığılmağa verilib: 12.01.11. Çapa imzalanıb: 24.01.11
Format 60x84 $^{1}/_{16}$. F.ç.v.32,63. Sifariş № 9.
Kağız əla növ. Tirac 200 nüsxə. Qiyməti müqavilə ilə

“Tİ-MEDİA” şirkətinin mətbəəsi